Mövzu № 1: ″İdarəetmənin, dövlət idarəetməsinin və icra hakimiyyətinin anlayışı, məzmunu və prinsipləri″

P L A N :

GİRİŞ

1. **İdarəetmənin anlayışı, xüsusiyyətləri, elementləri və funksiyaları.**
2. **Dövlət idarəetməsinin anlayışı, subyektləri, əlamətləri, prinsipləri və funksiyaları.**
3. **İcra hakimiyyətinin anlayışı, xüsusiyyətləri və məqsədi.**
4. **Daxili işlər sahəsində dövlət idarəetməsinin anlayışı, xüsusiyyətləri və prinsipləri.**

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
3. Azərbaycan Respublikası Prezidentinin 09 avqust 1994-cü il tarixli ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Fərmanı.
4. Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli ″İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Fərmanı.
5. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
6. V. Abışov, A. İsmayılov, H. Eyvazov. ″İnzibati hüquq″ 1 hissə. Dərslik. Bakı, 2007.
7. A.Abdullayev, F.Nağıyev.İnzibati hüquq.Dərslik.Bakı,2008.
8. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. Azərbaycan Respublikası DİN-nin Polis Akademiyası. Bakı, 2002.
9. A.P.Korenev. Administrativnoe pravo. Dərslik. M., 1986.
10. V.Manoxin,Y.S.Aduşkin, Z.A.Baqişaev. ″Rossiyskoe administrativnoe pravo″. Dərslik . M., 1996.
11. A.P.Alyoxin, A.A.Karmolitski, Y.M.Kozlov. ″Administrativnoe pravo Rossiyskoy Federaüii″. Dərslik. . M., 1997.
12. D.M.Ovsyanko. ″Administrativnoe pravo″. Dərs vəsaiti. M., 1994.
13. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

Azərbaycan xalqı öz müstəqilliyini qazandıqdan sonra özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək Respublikamızda dövlət quruculuğuna başladı.

12 noyabr 1995 tarixdə referendum yolu ilə qəbul edilmiş ilk Milli Konstitusiyamızla Respublikamızda aparılan dövlət quruculuğunun məqsəd və istiqamətləri dəqiqliyi ilə müəyyən edilmidir. Konstitusiyamızın 7-ci maddəsinin 3-cü hissəsinə əsasən Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilmişdir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyəti Azərbaycan Respublikasının məhkəmələri tərəfindən həyata keçirilir.

Konstitusiyamızın 7-ci maddəsinin 4-cü hissəsinə əsasən bu hakimiyyət növləri bir-biri ilə qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Yuxarıda göstərilənləri nəzərə alaraq qeyd etmək istərdim ki, ″İdarəetmənin, dövlət idarəetməsinin və icra hakimiyyətinin anlayışı, məzmunu və prinsipləri″ adlı mövzunun mahiyyətcə, plana daxil edilmiş sualların açıqlanması vasitəsi ilə idarəetmə, dövlət idarəetməsi, icra hakimiyyəti və daxili işlər sahəsində idarəetmə haqqında anlayış, onların elementləri, xüsusiyyətləri və prinsipləri barəsində biliklərin Sizlər tərəfindn mənimsənilməsinə xidmət edir.

Mühazirənin 1-ci sualında idarəetmənin anlayışı,xüsusiyyətləri,ünsürləri və funksiyaları təhlil olunacaqdır.

Mühazirənin 2-ci sualında dövlət idarəetməsinin anlayışı, subyektləri, əlamətləri, prinsipləri və funksiyalarının açıqlanması nəzərdə tutulmuşdur.

Mühazirənin 3-cü sualında icra hakimiyyətinin anlayışı, xüsusiyyətləri və məqsədi barədə müddəalar şərh ediləcəkdir.

Mühazirənin 4-cü sualında daxili işlər sahəsində dövlət idarəetməsi haqqında məlumatların verilməsi nəzərdə tutulmuşdur.

Mövzumuzun vasitəsi ilə əldə edəcəyiniz hüquqi biliklər dövlət idarəetməsində həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyətə malikdir. Çünki hər birimiz gündəlik xidməti fəaliyyətimizdə dövlət idarəetməsinin həm obyekti, həm də subyekti qismində çıxış edirik.

Sual I.
İdarəetmənin anlayışı, xüsusiyyətləri, elementləri və funksiyaları

Azərbaycan Respublikasının hüquq sistemi nizamasalma predmetinə görə bir-birindən fərqlənən hüquq sahələrindən ibarətdir. Hər bir hüquq sahəsinin nizamasalma predmetini cəmiyyətdə yaranan ictimai münasibətlər təşkil edir.

Azərbaycan Respublikasının hüquq sistemini təşkil edən hüquq sahələrindən biri də ″İnzibati hüquq″ sahəsidir. ″İnzibati hüquq″un nizamasalma predmetini (obyektini) dövlət idarəetməsi, icra hakimiyyətinin təşkili və həyata keçirilməsi prosesində yaranan ictimai münasibətlər təşkil edir.Məhz bu səbəbdən də ″İnzibati hüquq″un öyrənilməsinə başlayarkən onun formalaşmasının metodoloji əsaslarını müəyyən etmək lazımdır. O geniş yayılmış və ″idarəetmə″ kimi ifadə edilən sosial təzahürlə obyektiv surətdə bağlıdır.

Beləliklə, idarəetmə latın mənşəli administratio (lat: administratio idarəetmə) sözündən götürülmüşdür.O müəyyən fəaliyyət növünü xarakterizə edən universal vasitə olub, ictimai əhəmiyyət kəsb edən məqsədlərə nail olmaq üçün həyata keçirilən hərəkətlər məcmusudur.

İdarəetmə daha geniş mənada nəyinsə (və ya kiminsə) üzərində rəhbərliyin həyata keçirilməsi deməkdir.

İdarəetmənin ümumi anlayışının məzmunu aşağıdakı əlamətlərlə xarakterizə olunur:

- idarəetmə özlərinin bütövlüyünü təmin edən ayrı-ayrı təbiətli (bioloji, texniki, sosial) sistemlərə xas olan funksiyadır. İdarəetmə onların strukturunu saxlamaq, qarşılarında duran vəzifələrə nail olmaq, fəaliyyətlərində tələb olunan rejimin saxlanmasını təmin edən funksiyadır;

- idarəetmə öz vəzifələri ilə bu və ya digər elementlərin sistemi üçün tam vahidliyi təşkil edən qarşılıqlı əlaqələrin marağına xidmət edir;
- idarəetmə tam vahid bir sistemin daxili keyfiyyəti olub, özünü-təşkiletmə əsasında daim qarşılıqlı əlaqədə olan subyekt (idarəedən) və obyekt (idarə olunan) kimi elementlərin vəhdətindən ibarətdir;
- idarəetmə elementlərin sistemini təşkil edən daxili qarşılıqlı əlaqələri nəzərdə tutmaqla yanaşı, müxtəlif ierarxiyalı sistemlərin həm sistemdaxili, həm də sistemlərarası funksiyalarının həyata keçirilməsini nəzərdə tutur. Burada yuxarı təbəqəli sistem idarəetmənin subyektinə, aşağı təbəqəli sistem isə idarəetmənin obyektinə çevrilir;
- idarəetmə subyektin obyektə idarəetmə təsiri göstərməsindən ibarət olub, məzmunca, sistemin qaydaya salınmasından, inkişafının qanunauyğun formada təmin edilməsindən ibarətdir. Bu idarəetmənin subyekti tərəfindən həyata keçirilən məqsədyönlü nizamasalma təsiri olub, idarəetmənin subyekti və obyekti arasındakı əlaqədə reallaşdırılır;
- idarəetmə sistemin idarəolunan elementinin idarəedən elementə faktiki tabeçiliyi vizual xarakter daşıdıqda real sayılır.

Beləliklə, idarəçilik (nizama salma) təsiri idarəetmə subyektinin müstəsna hüququdur.

İctimai həyatın rəmzi kimi sosial idarəetmə geniş mənada, istənilən cəmiyyətə xas olan özünütənzimləmə, özünüqoruma və özünü təşkilatlandırma sistemidir. Bu yalnız şüurlu deyil, həm də kortəbii şəkildə həyata keçirilir. Sosial idarəetmə cəmiyyətdə yaranan ictimai əlaqələrin təşkili mexanizmi kimi başa düşülməlidir.

Sosial idarəetmə qısa mənada insanların subyektiv, şüurlu və məqsədyönlü fəaliyyətidir. O cəmiyyətin qorunub saxlanmasına və ona xas olan qanunauyğunluqları nəzərə alaraq inkişafına təminat verir.

Sosial idarəetmənin zəruriliyi ictimai xarakterə malikdir və əmək bölgüsü ilə şərtləndirilir. Bu zərurət ümumi məqsəd baxımından əmək fəaliyyəti iştirakçılarına məxsus qüvvələrin uzlaşdırılmasını tələb edir.

Sosial idarəetmə aşağıdakı əlamətlərlə xarakterizə olunur:

- sosial idarəetmə yalnız insanların birgə fəaliyyəti olan yerdə olur;
- sosial idarəetmə təyinat baxımından birgə fəaliyyət iştirakçılarının qarşılıqlı əlaqələrinə təşkilatçılıq xarakteri verir və insanların qarşılıqlı əlaqələrinə nizamasalma təsiri göstərir;
- sosial idarəetmə birgə fəaliyyət iştirakçılarının davranışlarına və onların qarşılıqlı münasibətlərinə başlıca təsiretmə obyektidir;
- sosial idarəetmə insan davranışının nizamlayıcısı rolunda çıxış edərək, öz məqsədinə və mahiyyətinə görə idarəetmə münasibətlərindən ibarətdir. Bu əlaqələr sosial idarəetmə funksiyalarının təcrübi olaraq reallaşması zamanı subyekt ilə obyekt arasında yaranır;
- sosial idarəetmə idarəetmə münasibətlərində insan iradəsinin müəyyən tabeçiliyi əsasında qurulur. Bu münasibətlər şüurlu-iradəvi vasitəçilik xarakteri daşıyır;
- sosial idarəetmə reallaşdırılması üçün xüsusi mexanizmə ehtiyac duyur. Bu mexanizm qurluşca idarəetmə subyektlərindən ibarətdir.

Sosial fəaliyyətin istənilən sahəsində iştirakçıların birgə fəaliyyətlərinin məqsədyönlü şəkildə həyata keçirilməsi üçün idarəetməyə ehtiyac duyulur. Sosial mənada başa düşülən idarəetmə çoxnövlüdür.

Sosial idarəetmənin aşağıdakı növləri mövcuddur:

- dövlət idarəetməsi;
- qeyri-dövlət idarəetməsi;

İdarəetmənin məzmununu dərindən dərk etmək üçün onun elementlərini açıqlamaq məqsədəuyğundur.

İdarəetmənin elementləri aşağıdakılardır:

- idarəetmənin subyekti;
- idarəetmənin obyekti;
- idarəetmənin düzünə (birbaşa) və əksinə olan əlaqələri;
- idarəetmənin sistemi;
- idarəetmənin funksiyaları.

✍ İdarəetmənin subyekti-idarəetmə metodlarından istifadə edərək birgə fəaliyyət iştirakçılarına təsir edən komponentdir. O idarəetmə prosesində iştirakçıların iradə və davranışlarını öz iradəsinə tabe etməklə qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nail olur.

İdarəetmənin obyekti öz iradə və davranışını idarəetmənin subyektinin iradəsinə uyğunlaşdıran birgə fəaliyyət iştirakçısıdır.

İdarəetmə təsirləri idarəetmə obyektlərinə düzünə (birbaşa) əlaqə kanalları vasitəsilə daxil olduğu halda, onların qəbulu və icrası haqqında məlumat əks əlaqə kanalları si ilə idarəetmənin subyektinə çatdırılır.

İdarəetmə sistemi idarəetmənin subyektləri və obyektləri arasında əlaqə kanallarının məcmusu olub, onlara xas olan əlamətləri özündə əks etdirir.

İstənilən bir sistem başqa bir yüksək sistem tərəfindən öz məqsədlərinə nail olmaq üçün yaradılır. Sistemin fəaliyyət məqsədləri onun vəzifələri ilə konkretləşdirilir.

Sistemin bütün funksiyalarının uzlaşdırılması və reallaşdırılması məqsədilə, onun özünüqoruma və inkişafı naminə yeni sahələrarası rəhbərlik (qərargah) funksiyası meydana çıxır. Sadalanan funksiyaların reallaşdırılması kadr, maliyyə, maddi-texniki və digər təminatların (təminedici funksiyalar) həyata keçirilməsini tələb edir.

Beləliklə, idarəetmənin xüsusi, təminedici və ümumi funksiyaları mövcuddur.

İdarəetmənin xüsusi funksiyaları idarəetmə prosesinin məqsədyönlüyü və onun qarşısında duran vəzifələrlə sıx bağlıdır. Məsələn, fövqəladə vəziyyət (təbii fəlakət) zamanı idarəetmənin aşağıdakı kimi xüsusi funksiyalarının həyata keçirilməsinə ehtiyac duyulur və belə funksiyaların yerinə yetirilməsi tələb olunur:

a) təbii fəlakət baş vermiş ərazidən əhalinin təxliyyə edilməsi;
b) təbii fəlakət baş verən zaman əhaliyə tibbi, maddi və mənəvi yardımın göstərilməsi;
c) təbii fəlakətin vurduğu ziyanların aradan qaldırılması və s.

İdarəetmənin təminedici funksiyaları idarəetmənin xüsusi funksiyaları ilə sıx bağlıdır və idarəetmə prosesinin məqsədinə nail olmaq və idarəetmə prosesinin qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçirilən maddi-texniki əməliyyatların məcmusu kimi başa düşülür. Məsələn, təbii fəlakət baş verən zaman aşağıdakı təminedici funksiyalar həyata keçirilir:

a) həmin əraziyə müxtəlif tikinti materiallarının və texnikanın və s. göndərilməsi;
b) həmin ərazidə səyyar hospitalların yaradılması;
c) əhaliyə ərzaq, geyim və digər məmulatların paylanması və s.

İdarəetmənin ümumi funksiyalarını hər bir idarəetmə prosesinə şamil etmək olar.

İdarəetmənin ümumi funksiyaları aşağıdakılardır:

- proqnozlaşdırma;
- dəqiqləşdirilmiş (doğru) məlumat;
- planlaşdırma;
- təşkiletmə;
- nizamlama və operativ sərəncam vermə;
- koordinasiya (əlaqələndirmə);
- nəzarət (yoxlama);
- uçot (qeydiyyat) və s.

a) proqnozlaşdırma funksiyası elmi nailiyyətlər nəticəsində alınmış məlumatlara əsasən hər hansı hadisə və ya proseslərin inkişafında baş verə biləcək dəyişikliklərin qabaqcadan görülməsidir. Bunsüz nə cəmiyyətin gələcək vəziyyətini, nə də hər hansı bir regionun və ayrı-ayrı sosial proseslərin gələcək vəziyyətini müəyyən etmək olmaz;

b) dəqiqləşdirilmiş(doğru) məlumat funksiyası ictimai münasibətlərin qarşılıqlı əlaqələrinin nizama salınması üçün cəmiyyətdə törəyən, yaranan və sənədləşdirilən biliklərin, məlumatların və xəbərlərin məcmusudur;

c) planlaşdırma funksiyası bu və ya digər fəaliyyətin, proseslərin (iqtisadi, mədəni, müdafiə və s.) inkişafının dəqiq kəmiyyət və keyfiyyət göstəricilərinin, istiqamətlərinin, vəzifə və nəticələrinin, məqsədinin, sürətinin (tempinin) və s. əvvəlcədən müəyyən edilməsindən ibarətdir;

ç) təşkil etmə funksiyası məzmunca, idarəetmənin vahid (tam) sisteminə daxil olan idarəedən və idarəolunan sistemaltıların təşkil edilməsindən ibarətdir. Təşkil etmə dedikdə, nəyəsə düzgün görünüş vermək, hissələrin yerləşməsini və hər bir hissəsinin funksiyasını müəyyən etməklə nizamasalmaq başa düşülür. Buna misal olaraq idarə, müəssisə, təşkilat və orqanların yaranmasını, ləğv edilməsini, birləşməsini və ayrılmasını, onların hüquq və vəzifələrinin, struktur və ştatlarının müəyyən edilməsini, eləcə də kadrların seçilməsini və yerləşdirilməsini və s. göstərmək olar;

d) nizamlama və operativ sərəncam vermə funksiyası hər hansı bir fəaliyyətdə bu və ya digər hərəkətlərin həyata keçirilmə qaydasının (onların məzmununa birbaşa təsir göstərməmək şərti ilə) müəyyən edilməsindən və ya onlara dolayı yollarla təsir göstərilməsindən ibarətdir. Operativ sərəncam vermə dedikdə, idarəedilən obyektlərin fəaliyyətinə təsir edən cari göstərişlərin verilməsi başa düşülür;

e) razılaşdırılma funksiyası ümumi məqsədə nail olmaq məqsədi ilə ayrı-ayrı idarə, müəssisə, təşkilat və orqanların fəaliyyətlərinin əlaqələndirilməsini (koordinasiyası)nəzərdə tutur ;

ə) nəzarət funksiyası idarəetmənin faktiki vəziyyətinin əvvəlcədən verilən vəziyyətə uyğun olub-olmamasının və cari işlərin verilən göstəriş əsasında aparılmasının müəyyən edilməsindən ibarətdir. Bu funksiya idarəolunan obyektin əvvəlcədən müəyyən edilmiş fəaliyyət istiqamətlərindən yayınması ilə bağlı mübahisələrin aşkar olunmasına və onların aradan qaldırılmasına, belə yayınmalarda günahı olanların məsuliyyətə cəlb olunmasına, eləcə də əvvəllər qəbul edilmiş qərarları dəqiqləşdirməyə və onlara düzəlişlər etməyə imkan yaradır.

İdarəetmə prosesində istifadə olunan ümumi funksiyalardan biri də uçot (qeydiyyat) funksiyasıdır.

f) uçot(qeydiyyat) funksiyası nəzarət funksiyası ilə sıx bağlıdır. Bu funksiyanın mahiyyəti vəsaitlərin (insan, maddi, pul və s.) mövcudluğu və sərf olunması, qərarların

yerinə yetirilməsi üzrə fəaliyyətin nəticələri, sənədlərin mövcudluğu haqqında məlumatların say formasında işlənilməsi və qeyd olunmasından ibarətdir.

İdarəetmə sistemi subyektlər və obyektlər arasında əlaqə kanallarının məcmusu olub, idarəetmənin subyektlərinə və obyektlərinə xas olan əlamətləri özündə əks etdirən varlıqdır.

İdarəetmə prosesi sonsuz bir prosesdir. O bir-birini tamamlayan və ardıcıl olaraq dəyişən mərhələlərdən ibarətdir.

İdarəetmə prosesinin aşağıdakı mərhələləri mövcuddur:

- həll edilən problemin araşdırılması və onun təhlili;
- qərar layihəsinin hazırlanması;
- layihənin müzakirəsi və ona ekspert qiymətinin verilməsi;
- aidiyyəti olan orqan və təşkilatlarla razılaşdırılması;
- qərar layihəsinin təsdiqi (ona mütləq hüquqi qüvvənin verilməsi);
- qərarın icraçılara çatdırılması;
- qərarın icrası;
- qərarın icrasına nəzarətin həyata keçirilməsi.

Birinci sualı yekunlaşdıraraq qeyd etmək istərdim ki:

1. İdarəetmə latın mənşəli administratio (lat: administratio idarəetmə) sözündən götürülmüşdür. O müəyyən fəaliyyət növünü xarakterizə edən universal vasitə olub,içtimai əhəmiyyət kəsb edən məqsədlərə nail olmaq üçün həyata keçirilən hərəkətlər məcmusudur.

2. Sosial idarəetmənin aşağıdakı növləri mövcuddur:

- dövlət idarəetməsi;
- qeyri-dövlət idarəetməsi;

3. İdarəetmənin elementləri aşağıdakılardır:

- idarəetmənin subyekti;
- idarəetmənin obyekti;
- idarəetmənin düzünə (birbaşa) və əksinə olan əlaqələri;
- idarəetmənin sistemi;
- idarəetmənin funksiyaları.

4. İdarəetmənin xüsusi, təminedici və ümumi funksiyaları mövcuddur. İdarəetmənin ümumi funksiyaları aşağıdakılardır:

- proqnozlaşdırma;
- dəqiqləşdirilmiş (doğru) məlumat;
- planlaşdırma;
- təşkiletmə;
- nizamlama və operativ sərəncam vermə;
- koordinasiya (əlaqələndirmə);
- nəzarət (yoxlama);
- uçot (qeydiyyat) və s.

5. İdarəetmə prosesinin aşağıdakı mərhələləri mövcudur:

- həll edilən problemin araşdırılması və onun təhlili;
- qərar layihəsinin hazırlanması;
- layihənin müzakirəsi və ona ekspert qiymətinin verilməsi;
- aidiyyatı olan orqan və təşkilatlarla razılaşdırılması;
- qərar layihəsinin təsdiqi;
- qərarın icraçılara çatdırılması;

- qərarın icrası;
- qərarın icrasına nəzarətin həyata keçirilməsi.

Sual II.
Dövlət idarəetməsinin anlayışı, subyektləri, əlamətləri, prinsipləri və funksiyaları

″Dövlət idarəetməsi″ sosial idarəetmənin növlərindən biri olub, öz xüsusiyyətlərinə görə sosial idarəetmənin digər növlərindən fərqlənir. Sosial idarəetmənin başqa növlərindən fərqli olaraq ″dövlət idarəetməsi″ daha geniş istifadə olunan idarəetmə növüdür.

″Dövlət idarəetməsi″ məhfumundan elmi ədəbiyyatlarda və bir çox ölkələrin qanunlarında geniş istifadə olunur. Azərbaycan Respublikası Sovetlər İttifaqı tərkibinə daxil olduğu müddətdə də bu məhfumdan geniş istifadə olunmuşdur. Sovetlər İttifaqı dağıldıqdan və Azərbaycan Respubli-kası öz müstəqilliyini qazandıqdan sonra xalqımız özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağa qadir olan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğuna başladı.

12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul olunmuş Konstitusiyamız bu məhfumdan imtina etdiyindən, onun əvəzinə ″icra hakimiyyəti″ işlədilməyə başlandı. Lakin bu o demək deyildir ki, dövlət idarəetməsi mövcud deyil və ya bu yalnız məhfumların dəyişdirilməsidir. Bu dəyişiklik Konstitusiya ilə elan olunmuş hakimiyyətlərin bölünməsi prinsipi ilə izah olunur. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü bəndinə əsasən: ″Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirirlər.

Dövlət idarəetməsi dövlət hakimiyyətinin həyata keçirilməsi və hakimiyyət səlahiyyətlərinin reallaşdırılması üzrə dövlət orqanlarının fəaliyyət növlərindən biridir. İdarəetməni həyata keçirən dövlət orqanlarının səlahiyyətləri həcmcə eyni deyildir. Bu Azərbaycan Respublikasının idarəçilik və quruluş forması ilə izah olunur.

Dövlət hakimiyyətinin strukturu hüquqi cəhətdən Azərbaycan Respublikası Konstitusiyasında və qanunlarında öz əksini tapmışdır. Dövlət hakimiyyəti qarşıya qoyulan məqsədlərə nail olmaq üçün qanunlardan, dövlət aparatından, maddi ehtiyatlardan, pul vəsaitlərindən və s. istifadə edir.

Konstitusiyaya əsasən qanunverici, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Hər bir dövlət orqanı ona təhkim edilmiş işi müvafiq həcmdə yerinə yetirir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti Azərbaycan Respublikasının Milli Məclisi, Respublika Prezidenti və Azərbaycan Respublikasının məhkəmələri tərəfindən həyata keçirilir. Yerli özünüidarə orqanları (bələdiyyələr) dövlət hakimiyyəti orqanları sisteminə daxil deyil.

Qanunverici hakimiyyətin aparıcı funksiyası qanunların hazırlanmasından və qəbul edilməsindən ibarətdir.

Məhkəmə orqanları Konstitusiyamızın 130-132-ci maddələrinə əsasən, konstitusiyon, cinayət, mülki və inzibati xətalarla bağlı işlərə baxırlar. İcra hakimiyyəti orqanlarının, onların vəzifəli şəxslərinin və hakimiyyət nümayəndələrinin fəaliyyətində qanunçuluğa riayət olunmasına məhkəmə orqanları müvafiq nəzarəti həyata keçirirlər.

İcra hakimiyyəti təşkilati-idarəetmə, icraedici-sərəncamverici xarakterli funksiyaları həyata keçirir. Bu funksiyalar dövlət aparatının gündəlik fəaliyyət göstərməsini təmin etmək və qanunların icrası üçün reallaşdırılır. İcra hakimiyyətinin həyata keçirilməsi üçün səlahiyyətlər Nazirlər Kabinetinə, nazirliklərə, dövlət komitələrinə , icra hakimiyyəti orqanlarına, onların ərazi orqanlarına və bir sıra vəzifəli şəxslərə həvalə edilir.

Göstərilən orqanların təsərrüfat, sosial-mədəni və inzibati-siyasi sahədə həyata keçirdikləri rəhbərlik əvvəllər dövlət idarəetməsi kimi adlandırılırdı. Milli Konstitusiyamız qəbul olunarkən ″dövlət idarəetməsi″ məhfumundan imtina olundu və ″icra hakimiyyəti″ məhfumu işlədilməyə başlandı.Bundan sonra qanunvericilikdə icra hakimiyyəti orqanları dövlət idarəetməsini həyata keçirən orqanlar kimi adlandırılmağa başlandı. Bu iki məhfum bir-birinə çox yaxındır. Qeyd etmək lazımdır ki, icra hakimiyyəti dövlət idarəetməsi formasında həyata keçirilir. Dövlət idarəetməsi anlayışı icra hakimiyyəti anlayışından daha geniş məzmuna malikdir. Çünki bəzi dövlət idarəetmə funksiyaları digər dövlət hakimiyyəti orqanları (Azərbaycan Respublikasının Milli Məclisi və məhkəmə) tərəfindən həyata keçirilir.Məsələn, məhkəmə orqanları ədalət mühakiməsi ilə yanaşı, konkret işlərin baxılması zamanı icra hakimiyyəti orqanları aktlarının qanunlara uyğun olub-olmamasına nəzarəti də həyata keçirirlər.Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci maddəsinə əsasən: ″Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir″. Ölkə Prezidenti dövlət hakimiyyətinin bütün qollarının fəaliyyətini razılaşdırır və əlaqələndirir. Konstitusiyanın 8-ci maddəsinin 4-cü bəndinə əsasən, Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

İcra hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində fərdi və normativ xarakterli aktlar, hüquq tətbiqetmə aktları qəbul etmək hüququna malikdirlər. Bu aktlar qanunlara əsaslanmalı, onları dəqiqləşdirməli və inkişaf etdirməlidir. İcra hakimiyyəti orqanlarının qanunqüvvəli aktlar qəbul etməsi və onları reallaşdırması sərəncam vermə xarakteri daşıyır.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki,

Dövlət idarəetməsi onun fəaliyyət formalarından biri olaraq, dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsindən ibarətdir. Dövlət idarəetməsi dövlət orqanlarının icraedici-sərəncam verici fəaliyyətlərində özünü biruzə verir.

Dövlət idarəetməsinin mahiyyəti qanunların və qanunqüvvəli aktların icrasının həyata keçirilməsindən, dövlət quruculuğunun və müdafiəsinin möhkəmləndirilməsindən, insan və vətəndaş hüquq və azadlıqlarının tam həcmdə təmin edilməsindən və inkişaf etdirilməsindən ibarətdir. Qanunlarda dövlət idarəetməsini həyata keçirən müxtəlif orqanlar üçün müxtəlif həcmdə icraedici-sərəncamverici səlahiyyətlər nəzərdə tutulur. Dövlət idarəetmə orqanının hüquqi vəziyyətindən asılı olaraq onların icraedici-sərəncamverici səlahiyyətləri müəyyən edilir .

Dövlət idarəetmə orqanları öz səlahiyyətləri çərçivəsində hakimiyyət xarakterli səlahiyyətlərdən istifadə edirlər. Bu orqanlar dövlət məcburetmə tədbirlərinin tətbiq edilməsinə sərəncam vermək və onları tətbiq etmək hüququna malikdirlər.

Dövlət idarəetməsinin subyektləri aşağıdakılardır:

I. Dövlət orqanları:

- qanunverici hakimiyyət orqanları (əsasən, daxili təşkilati işləri həyata keçirərkən);
- məhkəmə hakimiyyəti orqanları (əsasən, daxili təşkilati məsələlərin həlli zamanı);
- icra hakimiyyəti orqanları (idarəetmənin əsas subyektləri).

II. Yerli özünüidarə orqanları (bələdiyyə orqanları).

«Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının 02.07.1999 tarixli Qanununun 42-ci maddəsinin məzmunundan aydın olur ki, istisna hallarda bələdiyyələr ayrı-ayrı dövlət səlahiyyətlərini həyata keçirə bilərlər.

Dövlət idarəetməsi sosial idarəetmənin digər növlərindən özünəməxsus əlamətlərinə görə fərqlənir.

Bu əlamətlər aşağıdakılardır:

- Dövlət idarəetməsi sosial-mədəni və iqtisadi fəaliyyətə bilavasitə operativ rəhbərliyi həyata keçirir;
- Dövlət idarəetməsi dövlət-hakimiyyət xarakterldir;
- Dövlət idarəetməsi xüsusi səlahiyyətli subyektlər tərəfindən həyata keçirilir (icra hakimiyyəti orqanları);
- Dövlət idarəetməsi nəzarət altında həyata keçirilir;
- Dövlət idarəetməsi qanun qüvvəli xarakterə malikdir .

I. Dövlət idarəetməsinin ümumi (sosial-hüquqi) prinsipləri aşağıdakılardır:

- obyektivlik (elmilik);
- qanunçuluq və intizam;
- konkretlilik (dəqiqlilik);
- idarəetmədə vətəndaşların iştirakı;
- effektivlik.

II. Dövlət idarəetməsinin təşkilati prinsipləri aşağıdakılardır:

- sahəvi prinsip;
- xətti tabecilik prinsipi;
- ərazi prinsipi;
- funksional tabecilik prinsipi;
- ikili tabeçilik prinsipi;
- təkbaşçılığın və kollegiallığın uzlaşdırılması prinsipi;
- səlahiyyətlərin səmərəli bölüşdürülməsi prinsipi.

Dövlət idarəetməsi bütövlükdə cəmiyyətin obyektiv qanunauyğunluqlarının dərk edilməsi və istifadə edilməsi əsaslarında təşkil edilir və həyata keçirilir.

Dövlət idarəetməsinin qarşısında duran məqsəd və vəzifələrin yerinə yetirilməsinə nail olmaq üçün dövlət idarəetmə orqanları müxtəlif metodlardan istifadə edirlər.

Dövlət idarəetmə prosesində istifadə olunan metodların məzmunundan asılı olaraq, onların aşağıdakı növləri var:

- inzibati metodlar (məsələn: müxtəlif əmrlərin, göstərişlərin, təlimatların və s. tətbiq edilməsi);
- iqtisadi metodlar (dövlət idarəetmə qərarlarının yerinə yetirilməsi üçün maddi marağın yaradılması)
- ideoloji metodlar (mənəvi həvəsləndirmənin müxtəlif növləri və s.).

Dövlət idarəetməsinin qarşısında duran məqsəd və vəzifələrin tam, vaxtında və effektiv yerinə yetirilməsi üçün müxtəlif məzmunlu funksiyalar həyata keçirilir.

Dövlət idarəetmə prosesində icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən funksiyaların əsas növləri aşağıdakılardır:

- proqnozlaşdırma şəxsi məlumatlar və elmi məlumatlar əsasında hər hansı bir hadisə və ya proseslərin inkişafında gedən dəyişikliklərin qabaqcadan görülməsidir;
- planlaşdırma idarəolunan fəaliyyətin konkret kəmiyyət və keyfiyyət göstəricilərinin, məqsədin, vəzifə və göstərilən nəticələrin müəyyən edilməsidir;
- idarəedən və idarəolunan sistemaltının təşkili idarəetmə orqanlarının təşkili, tabeçilik, hüquq və vəzifələrin müəyyən edilməsi, kadrların seçilməsi və yerləşdiriliməsini nəzərdə tutur;
- hüquqi nizamasalma istənilən fəaliyyətin hüquqi rejiminin müəyyən edilməsi və müvafiq strukturların fəaliyyət göstərməsini nəzərdə tutur;
- ümumi rəhbərlik və operativ sərəncamvermə işi hər hansı fəaliyyətin müəyyən edilmiş qaydada aparılmasına ümumi rəhbərliyinin həyata keçirilməsi və yaranan problemlərin tezliklə aradan qaldırılması məqsədilə operativ sərəncamverilmə tətbiq edilir;
- müxtəlif idarəetmə orqanlarının, vəzifəli şəxslərin, təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi (razılaşdırılma); dövlət idarəetməsində bir neçə ayrı-ayrı orqanların müəyyən vəzifələrin icrası üzrə birğə fəaliyyət ğöstərirlər və bu zaman onların fəaliyyətinin uzlaşdırılması tələb olunur buda məhz elə ğöstərilən funksiya vasitəsilə həyatakeçirilir;
- yoxlama qanunların, planların və proqramların yerinə yetirilməsində pozuntuların aşkar edilməsi və aradan qaldırılması üçün faktiki vəziyyətin yoxlanılması və tədbirlərin tətbiq edilməsi, o cümlədən müəyyən edilmiş qaydanı pozanlara qarşı tədbirlərin tətbiq edilməsidir;
- uçotun aparılması icraedici-sərəncamverici fəaliyyətin, o cümlədən onun yekun nəticələrinin həyata keçirilməsi üçün maddi və digər vəsaitlərin (ehtiyatların) istifadəsinin qeydiyyata alınmasıdır ;
- məlumatlandırmanın təmin edilməsi və analitik işin aparılması;
- metodiki rəhbərlik;
- kadrlarla və maddi-texniki təminatlarla təmin etmək, maliyyələşdirmə və s.

Göstərilən funksiyalar icra hakimiyyəti strukturları üçün xarakterikdir. Onların ətraflı təhlil edilməsi və təkmilləşdirilməsi sosial idarəetmə nəzəriyyəsinin predmetidir.

İcra hakimiyyəti orqanları idarəetmə prosesini həyata keçirirlər. İcra hakimiyyəti orqanlarının idarəetmə prosesi aşağıdakı mərhələlərdən ibarətdir:

- qərarın hazırlanması və qəbul edilməsi;
- qəbul edilmiş qərarın yerinə yetirilməsinin təşkil edilməsi;
- qəbul edilmiş qərarın yerinə yetirilməsinin yoxlanılması və ona nəzarətin həyata keçirilməsi;
- idarəetmə prosesi nəticələrinə yekunun vurulması.

Beləliklə, ikinci sualının açıqlanmasını yekunlaşdıraraq qeyd etmək istərdim ki:

1. Dövlət idarəetməsi dövlət fəaliyyətinin formalarından biri olaraq, dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsindən ibarətdir. Dövlət idarəetməsi dövlət orqanlarının icraedici-sərəncamverici fəaliyyətlərində özünü biruzə verir.

2. Dövlət idarəetməsinin subyektləri aşağıdakılardır:

a) Dövlət orqanları:

- qanunverici hakimiyyət orqanları (daxili təşkilati işləri həyata keçirərkən);
- məhkəmə hakimiyyəti orqanları (daxili təşkilati məsələlərin həlli zamanı);

- icra hakimiyyəti orqanları (idarəetmənin əsas subyektləri).

b) Yerli özünüidarə orqanları (bələdiyyə orqanları).

3. Dövlət idarəetməsində rəhbər tutulan prinsiplərin məzmunundan asılı olaraq onlar aşağıdakı iki əsas qrupa bölünür:

- dövlət idarəetməsinin ümumi (sosial-hüquqi) prinsipləri:
  - obyektivlik (elmilik);
  - qanunçuluq və intizam;
  - konkretlilik (dəqiqlilik);
  - idarəetmədə vətəndaşların iştirakı;
  - effektivlilik.
- dövlət idarəetməsinin təşkilati prinsipləri:
  - sahəvi prinsip;
  - xətti tabecilik prinsipi;
  - ərazi prinsipi;
  - funksional tabecilik prinsipi;
  - ikili tabeçilik prinsipi;
  - təkbaşçılığın və kollegiallığın uzlaşdırılması prinsipi;
  - səlahiyyətlərin səmərəli bölüşdürülməsi prinsipi.

4. Dövlət idarəetmə metodları aşağıdakı növlərə bölünür:

- inzibati metodlar (məsələn: müxtəlif əmrlərin, göstərişlərin, təlimatların və s. tətbiq edilməsi);
- iqtisadi metodlar (dövlət idarəetmə orqanları qərarlarının yerinə yetirilməsi üçün maddi marağın yaradılması);
- ideoloji metodlar (mənəvi həvəsləndirmənin müxtəlif növləri və s.).

5. Dövlət idarəetmə prosesində aşağıdakı funksiyalar reallaşdırılır:

- proqnozlaşdırma;
- planlaşdırma;
- idarəedən və idarəolunan sistemaltının təşkili;
- hüquqi nizamasalma;
- ümumi rəhbərlik və operativ-sərəncamvermə ;
- müxtəlif idarəetmə orqanların, vəzifəli şəxslərin, təşkilatların fəaliyyətinin qabaqcadan və cari əlaqələndirilməsi;
- yoxlama;
- icraedici-sərəncamverici fəaliyyətin uçotunun aparılması;
- məlumatlandırmanın təmin edilməsi və analitik işin aparılması;
- metodiki rəhbərlik;
- maddi-texniki təminat və s.

Sual III

İcra hakimiyyətinin anlayışı, xüsusiyyətləri və məqsədi

Vahid dövlət hakimiyyətini təşkil edən qanunverici, icra və məhkəmə hakimiyyəti qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildir. Göstərilən bu prinsipdən keçmiş Sovetlər İttifaqı dövründə imtina edirdilər. Həmin dövrdə «qanunverici hakimiyyətlə icra hakimiyyətinin birləşdirilməsi» kimi şüarlar işlədilirdi. Bu şüarlar birbaşa elmə və təcrübəyə tətbiq edilir və ″Bütün hakimiyyət Sovetlərə″ kimi fikirlərin

formalaşmasına gətirib çıxarmışdı. Keçmiş SSRi-də hakimiyyətlərin bölünməsi rəsmi olaraq Qərb alimlərinin fikri kimi qəbul edilir və dövlət idarəetməsində tətbiq olunmurdu . Həqiqətdə ″hakimiyyətlərin bölünməsi″ nəzəriyyəsi aşağıdakı kimi prinsipial əsaslardan irəli gəlir:

- dövlət hakimiyyəti bir şəxsə və ya bir dövlət orqanına məxsus olarsa, bu totalitar və antidemokratik rejim deməkdir ;
- dövlət hakimiyyəti yalnız qanunvericilik hakimiyyəti ilə məhdudlaşdırıla bilməz . Çünki o bu və ya digər qolun fəaliyyətinin vahid əsasını təşkil edir.

İcra hakimiyyəti müəyyən dövlət orqanlarının və vəzifəli şəxslərin icraedici-sərəncamverici fəaliyyətlərini təşkil edən və həyata keçirən dövlət hakimiyyəti qollarından biridir.

İcra hakimiyyəti dövlət hakimiyyətinin digər qollarından aşağıdakı xüsusiyyətlərinə görə fərqlənir:

1. İcra hakimiyyəti vahid dövlət hakimiyyətinin müstəqil qolu olub, qanunverici və məhkəmə hakimiyyəti ilə sıx qarşılıqlı əlaqədədir.

2. İcra hakimiyyəti yalnız funksional səlahiyyət mənasında müstəqildir. O qanunların təcrübi cəhətdən reallşdırılmasına xidmət edir. Dövlət hakimiyyətinin digər səlahiyyətləri qanunverici və məhkəmə hakimiyyətinin payına düşür.

3. İcra hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında qurulmuş dövlət hakimiyyət mexanizminin vacib atributudur. O qanunverici və məhkəmə hakimiyyətləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. İcra hakimiyyəti başqalarının fəaliyyətinə və davranışına müəyyənedici təsirlər göstərmək bacarığına və başqalarının iradəsini öz iradəsinə tabe etmək hüququna malikdir. O hakimiyyətin hüquq tətbiqetmə və hüquq icraetmə funksiyası vasitəsi ilə həyata keçirilir. İcra hakimiyyətinin bu əlaməti dövlətin hüquqi təbiətini açıqlayır. Bu əlamət özünüidarəetmə vasitəsi kimi icraçılığı idarəetmədən fərqləndirməyə imkan verir.

5. İcra hakimiyyəti dövlət hakimiyyətinin müstəqil qolu olub, dövlətin icra fəaliyyəti ilə eyniləşdirilə bilməz. Dövlət fəaliyyətinin bu növü icra hakimiyyəti vasitəsilə reallaşdırılır. İcra hakimiyyəti bu halda icra fəaliyyətinin funksional səlahiyyətlərinin ifadəsindən ibarətdir.

6. İcra hakimiyyəti mahiyyətcə hüquqtətbiqedici fəaliyyət növüdür. Hüquq tətbiqedici fəaliyyət dedikdə, hüquq tətbiqetmənin xüsusi növü başa düşülür. Qeyd etmək lazımdır ki, hüquqtətbiqetmə fəaliyyətini məhkəmə orqanları da həyata keçirir. Lakin onların hüquq tətbiqetmə fəaliyyətləri məzmunca və məqsədcə bir-birindən fərqlənir. Məhkəmə hakimiyyəti tərəfindən hüquq tətbiqedici fəaliyyət qüvvədə olan qanunvericiliyin pozulması ilə əlaqədar olaraq tətbiq edilir. İcra hakimiyyəti tərəfindən hüquq tətbiqedici fəaliyyət onun təsiri altında olan sosial, iqtisadiyyat, mədəniyyət və s. obyektlərin normal və effektiv fəaliyyəti üçün qanunvericiliyin tələblərinin birbaşa icrası prosesində tətbiq edilir.

7. İcra hakimiyyəti müəyyən icraedici səlahiyyətlərə malik xüsusi subyektlərin fəaliyyətində özünü biruzə verir. İcra hakimiyyəti dövlət hakimiyyət mexanizmində müvafiq orqanlar ilə təmin edilmişdir. Təbii ki, dövlət hakimiyyətinin qanunvericilik və məhkəmə orqanları icra hakimiyyəti orqanları sisteminə daxil deyildir.

Beləliklə, icra hakimiyyəti özünün ″dinamik″ keyfiyyətlərini dövlət orqanları vasitəsi ilə əldə edir. Onlar icra hakimiyyəti subyektləri qismində çıxış edirlər. Azərbaycan Respublikası Konstitusiyasının 9, 114, 124, 134, 137, 140-141-ci maddələrinə əsasən, icra

hakimiyyəti orqanları Azərbaycan Respublikasında vahid icra hakimiyyəti sistemini təşkil edir.

8. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin birinci hissəsinə əsasən, Azərbaycan dövləti unitar quruluş forması əsasında təşkil edilmişdir. İcra hakimiyyəti orqanlarının səlahiyyətlərinin Konstitusiya və digər qanunvericilik aktları ilə dəqiq müəyyən olunması onların hüquqi təbiəti ilə bağlıdır. Məsələn: Azərbaycan Respublikası Konstitusiyasının 114-cü maddəsinin 2-ci hissəsinə əsasən, Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra hakimiyyəti orqanıdır. Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi və s. nazirliklər icra hakimiyyətinin mərkəzi icra hakimiyyəti orqanlarıdır.

9. İcra hakimiyyəti inzibati hakimiyyətlə eyniləşdirilə bilməz. Beləki inzibati hakimiyyət məhkəmədən kənar səlahiyyətlərin, yəni inzibati məcburetmələrin yerinə yetirilməsi ilə bağlıdır. İnzibati məcburetmə icra fəaliyyətinin qarşısında duran məsələlərə nail olma vasitələrindən biridir. Burada icra hakimiyyətinin məzmunu yalnız xəbərdaredici tədbirlərin tətbiq edilməsi ilə bitmir. Onun subyektlərinin malik olduqları hakimiyyət səlahiyyətləri bilavasitə məhkəmədənkənar qaydada həyata keçirilir.

10. İcra hakimiyyəti dövlət hakimiyyətinin bütün vacib atributlarını özündə cəmləşdirməsi ilə xarakterizə olunur. Məsələn: maliyyə, ordu, polis, təhlükəsizlik xidmətləri, cəza çəkmə müəssisələri və s.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, icra hakimiyyəti ilə müqayisədə dövlət idarəetməsi daha geniş anlayışa malikdir. İcra hakimiyyəti məlum mənada dövlət idarəetməsindən törəmişdir. O dövlət idarəetmə mexanizmində həyata keçirilən dövlət hakimiyyət səlahiyyətlərinin xarakter və həcmini müəyyən etmək üçün təşkil edilmişdir. Digər tərəfdən dövlət idarəetməsi icra hakimiyyətinin təcrübi cəhətdən həyata keçirilməsinə yönəldilmiş fəaliyyət növüdür.

İcra hakimiyyətinin əsas məqsədləri aşağıdakılardır:

- vətəndaşların, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi;
- ölkə iqtisadiyyatının inkişafı, vətəndaşların, cəmiyyətin və dövlətin rifahının yüksəldilməsi üçün şəraitin yaradılması;
- insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi;
- insan və vətəndaşların mənəvi, sosial, iqtisadi və siyasi hüquq və azadlıqlarının reallaşdırılması, idarə, müəssisə və təşkilatların normal fəaliyyəti üçün şəraitin yaradılması.

Sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim:

1. İcra hakimiyyəti müəyyən dövlət orqanları və vəzifəli şəxslərin icraedici-sərəncamverici fəaliyyətlərini təşkil edən və həyata keçirən dövlət hakimiyyəti qollarından biridir.

2. İcra hakimiyyəti dövlət hakimiyyətinin digər qollarından aşağıdakı xüsusiyyətlərinə görə fərqlənir:

- icra hakimiyyəti Azərbaycan Respublikası dövlət hakimiyyətinin nisbətən müstəqil qolu olub, dövlət hakimiyyətinin digər qolları olan qanunverici və məhkəmə hakimiyyəti ilə qarşılıqlı əlaqədədir.
- icra hakimiyyəti funksional səlahiyyət mənasında müstəqildir.
- icra hakimiyyəti dövlət hakimiyyət mexanizminin vacib atributudur.

- icra hakimiyyəti hakimiyyət səlahiyyətlərinin istənilən digər təzahürü kimi başqalarının fəaliyyətinə və davranışına müəyyənedici təsirlər göstərmək bacarığına və imkanına malikdir.
- icra hakimiyyəti dövlət hakimiyyətinin müstəqil qolu olub, dövlət fəaliyyətinin növü ilə eyniləşdirilə bilməz. Dövlət hakimiyyətinin müvafiq növü hakimiyyətin özü deyil, onun təcrübi olaraq həyata keçirilməsi formasıdır.
- icra hakimiyyəti mahiyyətcə hüquq tətbiqedici fəaliyyət növüdür.
- icra hakimiyyəti icraedici səlahiyyətlər ilə təmin edilmiş xüsusi subyektlərin fəaliyyətində özünü biruzə verir
- icra hakimiyyəti orqanlarının səlahiyyətləri Konstitusiya və digər qanunvericilik aktları vasitəsi ilə dəqiq müəyyən edilmişdir.
- icra hakimiyyəti inzibati hakimiyyətlə eyniləşdirilə bilməz.
- icra hakimiyyəti dövlət hakimiyyətinin bütün vacib atributlarını özündə cəmləşdirmasi ilə xarakterizə olunur.

3. İcra hakimiyyətinin əsas məqsədləri aşağıdakılardır:

- vətəndaşların, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi;
- ölkə iqtisadiyyatının inkişafını, vətəndaşların, cəmiyyətin və dövlətin rifahının yüksəldilməsi üçün şəraitin yaradılması;
- insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi;
- insan və vətəndaşların mənəvi, sosial, iqtisadi, siyasi hüquq və azadlıqlarının reallaşdırılması, idarə, müəssisə və təşkilatların normal fəaliyyəti üçün şəraitin yaradılması.

Sual IV.
Daxili işlər sahəsində dövlət idarəetməsi

Dövlət idarəetməsi müxtəlif sahələrdə həyata keçirilir. Dövlət idarəetmə sahəsinə təsərrüfat, sosial-mədəni və inzibati-siyasi quruculuğun müxtəlif istiqamətlərində fəaliyyət göstərən, eləcə də bir-biri ilə obyektiv surətdə bağlı olan idarə, müəssisə və təşkilatların idarə olunması daxildir.

Daxili işlər sahəsində idarəetmə dövlət idarəetmə sahəsində inzibati-siyasi idarəçiliyin nisbi-müstəqil istiqamətlərindən biridir. Daxili işlər sahəsində idarəetmə bir-biri ilə müxtəlif idarəetmə əlaqələrində olan sahələrə bölünür.

Daxili işlər sahəsində idarəetmə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının mühafizəsi, onların cinayət və digər hüquqazidd qəsdlərdən qorunması , eləcə də dövlət orqanlarının və ictimai qurumların normal fəaliyyəti, vətəndaşların əməyi və istirahətləri üçün normal şəraitin yaradılması üzrə səlahiyyətli dövlət orqanlarının fəaliyyətidir.

Daxili işlər sahəsində idarəetmənin məzmunu çox mürəkkəb struktura (quruluşa) malikdir. Daxili işlər sahəsində idarəetmənin məzmununa aşağıdakı vəzifələrin (funksiyaların) yerinə yetirilməsi zamanı yaranan ictimai münasibətlər daxildir:

- ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi;
- cinayətlərin və digər hüquqpozmaların xəbərdar edilməsi;
- insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi və mülkiyyətin hüquqazidd qəsdlərdən qorunması;
- dövlət idarələri və digər obyektlərin mühafizəsi;
- cinayətlərin üstünün açılması, qeydiyyatı və uçotu;

- cinayətkarların aşkara çıxarılması və tutulması;
- təhqiqatın və istintaqın aparılması;
- inzibati tənbehlərin və ya başqa təsir tədbirlərinin tətbiq edilməsi;
- tutulmuş və inzibati xətalara görə həbsə alınmış şəxslərin saxlanılması;
- əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi;
- kriminalistik və başqa tədqiqatların aparılması;
- müqavilələr əsasında əmlakın mühafizəsi;
- icazə-qeydiyyat işinin aparılması;
- yol hərəkəti qaydalarına riayət olunmasına nəzarətin həyata keçirilməsi;
- yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi;
- yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərinin vahid dövlət uçotu sisteminin təşkil edilməsi və s.

Beləliklə, daxili işlər sahəsində idarəetmə müstəqil və spesifik sahə olaraq aparılan hüquqi dövlət quruculuğu sahəsində müxtəlif xüsusi tədbirlərin həyata keçirilməsində mühüm vəzifəni yerinə yetirir.

Daxili işlər sahəsində idarəetmə dövlət idarəetməsinə xas olan xüsusiyyətlərlə yanaşı, özünəməxsus xüsusiyyətlərə də malikdir. Bu sahədə idarəetmə hüquq mühafizə kimi səciyyəvi cəhəti ilə xarakterizə olunur. Onun fəaliyyəti qanunların və qanun qüvvəli aktların həyata keçirilməsinə, hüquqpozmaların xəbərdar edilməsinə və qarşısının alınmasına, vətəndaşların hüquqlarının və azadlıqlarının və onların üzərinə qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün şəraitin yaradılmasına, vətəndaşlarda hüquq düşüncəsinin tərbiyə edilməsinə, hüquq normalarına və qüvvədə olan qanunvericiliyə hörmətlə yanaşmalarına yönəlmişdir.

Daxili işlər sahəsində dövlət idarəetməsinin xüsusiyyətləri aşağıdakılardır:

- daxili işlər orqanları ictimai qaydanı bilavasitə təcrübi olaraq öz qüvvə və vasitələri ilə təmin edirlər;
- daxili işlər orqanlarının əməkdaşları xidmət üzrə onlara tabe olmayan şəxslərə təsir etmək imkanına malikdirlər;
- daxili işlər orqanlarının ayrı-ayrı xidmətləri (polis, yanğından mühafizə və s.) qanunla təhqiqat funksiyaları ilə təmin edilir , əməliyyat axtarış və cinayət-prosessual məcburiyyət tədbirləri həyata keçirə bilərlər;
- daxili işlər orqanlarında dövlət idarəetməsi başqa orqanlara xas olmayan özünəməxsus fəaliyyət formaları ilə həyata keçirilir (əməliyyat-axtarış fəaliyyəti və s.);
- daxili işlər orqanları geniş həcmdə inzibati-nəzarət funksiyalarını həyata keçirir (ictimai qayda, pasport-qeydiyyat sistemi, icazə sistemi və s.);
- daxili işlər orqanlarında dövlət xidmətinin aparılmasının tam özünəməxsus xüsusiyyətləri vardır (xüsusi hazırlıq, xüsusi rütbələrin verilməsi, xüsusi intizam və s.).

Daxili işlər sahəsində idarəetmənin xüsusi (sahəvi) prinsipləri aşağıdakılardır:

a) qanunçuluq prinsipi dövlət idarəetməsinin və daxili işlər sahəsində idarəetmənin əsas prinsipidir. DİO-da qanunçuluq prinsipi bütün əməkdaşlar tərəfindən qanunlara və onlara əsaslanan qanun qüvvəli normativ-hüquqi aktlara, eləcə də DİN-in normativ aktlarına dəqiq və düzgün riayət olunması ilə ifadə edilir.

b) peşə sirri ilə aşkarlığın uzlaşdırılması prinsipi. Polisin fəaliyyəti cəmiyyətdə açıq və aşkar surətdə həyata keçirilir və müvafiq ərazidə ictimai qaydanın qorunmasının vəziyyəti haqqında müntəzəm olaraq ictimaiyyətə məlumat verilir. Bunun üçün kütləvi informasiya

vasitələrindən istifadə olunur. Qeyd etmək lazımdır ki, daxili işlər orqanları tərəfindən vəzifələrin uğurla yerinə yetirilməsi bir sıra hallarda aşkarlığın peşə sirri ilə uzlaşdırılması zərurətini yaradır və bir sıra tədbirlərin gizli qaydada reallaşdırılması ilə bağlı olur.

Gizli şəraitdə bir sıra tədbirlərin reallaşdırılması ictimai qaydaınn maksimum və effektiv təmin edilməsinə xidmət edir. Bu hal daxili işlər orqanlarının təşkili və fəaliyyətinin demokratik xarakterinə zidd deyil.

v) subordinasiya prinsipi daxili işlər orqanları əməkdaşları arasında tabeliçilik münasibətlərini ciddi olaraq tənzimləyir . Bu münasibətlər kiçik rütbəli əməkdaşların yüksək rütbəli əməkdaşlara tabe olmaları, eləcə də əməkdaşların bilavasitə və yuxarı rəislərinə tabeçiliyi və xidməti intizama dəqiq riayət etmələri əsasında qurulur. Xidməti tabeçilik daxili işlər orqanlarının normal fəaliyyəti üçün əsas şərtlərdən biridir. DİO-da intizam ″Daxili işlər orqanlarının İntizam Nizamnaməsi″nə uyğun olaraq qurulur. Subordinasiya prinsipinin həyata keçirilməsinə təkbaşçılıq prinsipinə dəqiq riayət etməklə nail olmaq olur.

Subordinasiya prinsipi müzakirə edilən məsələlərdə təkbaşçılığın kollegiallıqla uzlaşdırılmasını nəzərdə tutur. Bunun geniş yayılmış formalarına müxtəlif növ xidməti iclasların keçirilməsini misal göstərmək olar. DİO əməkdaşları xidməti zərurətlə bağlı təcili qərar qəbul etmək və yubanmadan hərəkət etmək məcburiyyətində olurlar. Burada fəallıq, cəsarət, bacarıq və operativlik bir sıra hallarda həlledici rol oynayır.Qeyd olunan hərəkətlərin vaxtında həyata keçirilməsi qarşıya qoyulmuş məqsədə nail olmanı təmin edir. DİO əməkdaşlarının operativ müstəqilliyi konkret hüquqi göstərişin həyata keçirilməsi üçün daha effektiv, məqsədəuyğun, münasib, səmərəli vasitə və metodların seçilməsində özünü əks etdirir. Belə hallarda qanun əməliyyat aparatı əməkdaşlarına operativ surətdə məqsədəuyğun və əlverişli qərar seçmək hüququ verir. DİO-nun istənilən əməkdaşı tərəfindən operativ qərarın qəbul edilməsində profesional intuisiya və abstrakt düşüncə deyil, elm və yaradıcılıq əsas götürülməlidir.Operativlik elmilik, səmərəlilik və optimallıq prinsipləri ilə qarşılıqlı əlaqədə olmalıdır.

q) insan və vətəndaş hüquq və azadlıqlarına hörmət daxili işlər orqanları (polisin) fəaliyyətinin əsas prinsiplərindəndir. Bu prinsip Azərbaycan Respublikası ″Polis haqqında″ Qanununun 4-cü maddəsinin 1-ci bəndində və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamənin 2.1 maddəsində öz əksini tapmışdır. Respublikamızda insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması sahəsində dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir . Belə ki, 22 fevral 1998 tarixli ″İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidenti Fərman vermişdir. Bu fərmanda deyilir:

″.... Azərbaycan Respublikasının Prokurorluğu, Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərinə tapşırılsın və Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, təhqiqat, istintaq və məhkəmə orqanları tərəfindən insan hüquqları sahəsində qanunvericiliyin tətbiqi təcrübəsi ümumiləşdirilsin, insan hüquq və azadlıqlarının pozulması hallarının aradan qaldırılması təmin olunsun.

5. Azərbaycan Respublikasının Ədliyyə, Daxili İşlər, Milli Təhlükəsizlik Nazirliklərinə və Azərbaycan Respublikasının Prokurorluğuna tapşırılsın ki, azadlıqdan məhrum edilmiş və ibtidai istintaq zamanı həbsə alınmış şəxslərin saxlanılması şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirsinlər...″

Cinayətkarlığa qarşı mübarizə və hüquqpozmaların xəbərdar edilməsi sahəsində polis əməkdaşları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məcburetmə təsir tədbirlərini tətbiq edərkən insan və vətəndaş hüquq və azadlıqlarına hörmətlə yanaşmalıdırlar. Əks halda polisin cəmiyyət qarşısında nüfuzu aşağı düşər və vətəndaşlarla qarşılıqlı münasibəti zəifləyə bilər. Digər tərəfdən belə hərəkətlərə yol verən polis əməkdaşı qanun qarşısında məsuliyyət daşımalıdır.

ğ) DİO-nun fəaliyyətində vətəndaşlar, orqan və ictimai birliklərlə qarşılıqlı əlaqə prinsipi

DİO fəaliyyətinin xüsusiyyətlərindən asılı olaraq DİO ilə vətəndaşlar arasında qarşılıqlı əlaqənin aşağıdakı formaları mövcuddur:

- polisin ştatdankənar əməkdaşı qismində ;
- hal şahidləri qismində və s. formada iştirak.

DİO-nun vətəndaşlarla, orqan və ictimai birliklərlə qarşılıqlı əlaqəsinə başqa formaları da göstərmək olar. Məsələn, müxtəlif məzmunda mühazirələrin oxunması, yeni qəbul olunmuş qanunların izah edilməsi.

d) Avtoritarlıq prinsipi DİO-nun fəaliyyətində daha qabarıq şəkildə özünü biruzə verir. Avtoritarlıq bir tərəfdən hakim iradənin formalaşmasını, digər tərəfdən ona sözsüz tabeçiliyi tələb edir. Nüfuz və tabeçilik dövlət idarəetmə prosesində yaranan münasibətləri möhkəmləndirir. Daxili işlər sahəsində idarəetmə nüfuz və tabeçilik əsasında ardıcıl olaraq həyata keçirilir. .

N Ə T İ C Ə

Mühazirənin mövzusunun planını təşkil edən sualların açıqlanması vasitəsi ilə əldə etdiyiniz nəzəri biliklərin mahiyyəti və əhəmiyyəti ondan ibarətdir ki, Sizin hər biriniz müvafiq bir hüquq mühafizə orqanlarında xidmət göstərəcəksiniz və həmin xidmətin həyata keçirilməsi zamanı idarəetmənin mövcud olan elementləri simasında çıxış edəcəksiniz. İkinci tərəfdən isə öz xidməti vəzifələrinizi yerinə yetirən zaman idarəetmənin və dövlət idarəetməsinin qarşısında duran vəzifələrin yerinə yetirilməsində qanunçuluq və dövlət intizamına ciddi riayət etmiş olacaqsınız.

Hüquq mühafizə orqanlarının hər bir əməkdaşı, o cümlədən də Siz necə bir gələcəyin ali təhsilli hüquqşünasları kimi bu mövzu vasitəsi ilə əldə etdiyiniz anlayışlara və əsas müddəalara riayət etməklə, onların tələblərini yerinə yetirməklə birinci növbədə idarəetmə və dövlət idarəetməsi sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsinə, ikinci növbədə isə xidmət göstərəcəyiniz sahənin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə nail olmuş olacaqsınız.

Mühaziréni yekunlaşdıraraq qeyd etmək istərdim ki, mühazirə prosesində əldə etdiyiniz nəzəri bilikləri, ümumi anlayışları, əsas müddəaları dərindən mənimsəməklə və onları təcrübədə düzgün tətbiq etməklə, Azərbaycan Respublikası Prezidentinin 09 avqust 1994-cü il tarixli ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ və 22 fevral 1998-ci il tarixli ″İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Fərmanlarından irəli gələn tələblərin yerinə yetirilməsinə nail olmuş olarsınız.

Mövzu № 2: ″İnzibati hüquq – hüququn sərbəst bir sahəsi kimi″

P L A N :

G İ R İ Ş

1. **İnzibati hüququn anlayışı, predmeti və məqsədi.**
2. **İnzibati hüququn sistemi, prinsipləri, metodları və funksiyaları.**
3. **İnzibati hüququn mənbələri anlayışı və onların növləri.**
4. **İnzibati hüquq elminin predmeti, sistemi, vəzifələri və onun inkişafı.**

N Ə T İ c Ə

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. B., 2000.
3. ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
4. ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 09 avqust 1994-cü il.
5. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
6. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
7. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
8. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. Azərbaycan Respublikası DİN-in Polis Akademiyası. Bakı, 2002.
9. A.P.Korenev. “Administrativnoe pravo Rossii″. Dərslik. Moskva, 1999.

G İ R İ Ş

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra, xalqının özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğuna başladı.

12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş ilk Milli Konstitusiyamız Respublikamızda aparılan dövlət quruculuğunun məqsədini, istiqamətlərini və prinsiplərini dəqiqliyi ilə müəyyən etdi. Konstitusiyamızın maddələrinə əsasən dövlətçiliyimizin əsasları müəyyən edilmişdir.

Konstitusiyaya əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirirlər.

Mühazirənin mahiyyəti ondan ibarətdir ki, dövlət hakimiyyətinin istiqamətlərindən biri olan icra hakimiyyətinin təşkili və həyata keçirilməsi prosesində yaranan, dəyişən və xitam olunan ictimai münasibətlər ″İnzibati hüquq″ fənni vasitəsi ilə öyrənilir. Bundan əlavə

″İnzibati hüquq″ Azərbaycan Respublikasının hüquq sisteminin sahələrindən biri olaraq idarəetmə, dövlət idarəetməsi və icra hakimiyyəti, inzibati hüququn subyektləri, icra hakimiyyətinin realizəsinin forma və metodları, inzibati məsuliyyət, icraat, dövlət idarəetməsində intizam və qanunçuluq, o cümlədən, dövlət idarəetməsinin ayrı-ayrı sahələrində idarəetmə haqqında və s. kimi əsas müddəaları öyrənən hüquq sahəsidir.

″İnzibati hüquq″ sahəsinin öyrənilməsi vasitəsi ilə əldə edəcəyiniz hüquqi biliklərin, hər bir hüquqşünasın gündəlik fəaliyyətində həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyəti vardır. Həmin biliklərin vasitəsi ilə Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsindəki tədbirlər haqqında″ və 09 avqust 1994-cü il tarixli ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Fərmanlarından irəli gələn tələblərin tam, vaxtında və effektivli yerinə yetirilməsinə nail olmaq mümkündür.

Sual 1.
İnzibati hüququn anlayışı, predmeti və məqsədi

Azərbaycan Respublikasının hüquq sistemi nizamasalma predmetinə görə bir-birindən fərqlənən, bir-biri ilə qarşılıqlı əlaqə və təsirdə olan hüquq sahələrindən ibarətdir. Hər bir hüquq sahəsinin predmetini cəmiyyətin həyat fəaliyyətinin bu və ya digər sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

İnzibati hüquq - Azərbaycan Respublikasının hüquq sisteminin sahələrindən biri olaraq, dövlət idarəetmə sistemində yaranan ictimai münasibətlərin xüsusi (əsas) qrupunu nizamlayan hüquq normalarından bəhs edən bir hüquq elmidir. Dövlət idarəetməsində yaranan ictimai münasibətlərin əsas xüsusiyyəti kimi onların Azərbaycan Respublikasının bütün ərazisində icra hakimiyyəti sisteminin təşkil edilməsi və fəaliyyət göstərməsi ilə əlaqədar yaranması, inkişafı və xitam olunmasıdır.

İnzibati hüquq - Azərbaycan Respublikasının hüquq sisteminin müstəqil sahələrindən biri olaraq, dövlət idarəetməsi sahəsində digər dövlət fəaliyyəti (qanunvericilik və ədalət mühakiməsi) formalarının həyata keçirilməsi prosesində yaranan idarəçilik xarakterli münasibətləri, eləcədə də dövlət idarəetmə, icra hakimiyyəti orqanlarının bəzi funksiyalarının qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilməsi ilə əlaqədar olaraq qeyri-dövlət idarəetməsi sahəsində yaranan münasibətləri nizamlayan hüquq normaların sistemi kimi də müəyyən edilə bilər. İnzibati hüquq - hüquq sisteminin ayrılmaz bir hissəsi olaraq, onunla həm hissə, həm də bütövlük münasibətindədir.

İnzibati hüquq öz mahiyyətinə görə hüquq sisteminin istənilən digər sahələrindən heç də fərqlənmir. İnzibati hüquq normaları da, digər hüquq normaları kimi dövlət tərəfindən müəyyən edilir və ümumməcburi təsir qüvvəsinə malikdirlər. Onların realizəsi iqtisadi, təşkilati, sosial mədəni fəaliyyətlərlə təmin edilir və onların realizəsinə dövlətin məcburetmə gücü ilə zəmanət verilir. Lakin, inzibati hüquq - hüquq sisteminin başqa sahələrindən nizama salma predmetinə görə fərqlənir. İnzibati hüquq əsasən idarəetmə münasibətlərini, yəni başlıca olaraq dövlət idarəetməsi, dövlətin icraedici fəaliyyəti sahəsində yaranan münasibətləri nizama salır. İnzibati hüquqla nizama salınan sahəyə ölkənin sosial-siyasi, sosial-mədəni və iqtisadi həyatında yaranan ictimai münasibətlərin geniş dairəsi aiddirlər.

İnzibati hüquq normaları idarəçilik münasibətlərinin nizamlayıcısı kimi dövlət idarəetmə sistemində aşağıdakı kimi vəzifə və funksiyaların yerinə yetirilməsində aparıcı rol oynayırlar:

❖ dövlət idarəetmə sahəsində vətəndaşların hüquqi vəziyyətini müəyyən edir;

❖ icra hakimiyyəti orqanlarının və dövlət idarəetmə orqanlarının təşkil edilmə qaydasını, onların səlahiyyətlərini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının (ictimai birliklər və fondlar) vətəndaşlarla qarşılıqlı əlaqələrini nizamlayır;

❖ dövlət qulluqçuları tərəfindən idarəetmə orqanlarında və digər dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda dövlət qulluğunun keçirilməsi qaydasını nizamlayır, onların hüquq və vəzifələrini, həmçinin də yerli özünüidarəetmə orqanlarının, qeyri-hökumət təşkilatlarının qulluqçularının dövlət idarəetmə sahəsində hüquqi vəziyyətini müəyyən edir;

❖ dövlət idarəetməsinin forma və metodlarını və onların prosessual qaydada həyata keçirilməsini müəyyən edir;

❖ dövlət idarəetməsində qanunçuluğun təmin edilməsinin üsullarını müəyyən edir;

❖ sosial-siyasi, sosial-mədəni və iqtisadi sahələrdə, həmçinin də sahələrarası idarəetmə münasibətlərini nizamlayır;

❖ səlahiyyətli orqanların inzibati-yurisdiksiya fəaliyyətini və onun həyata keçirilməsi qaydasını nizamlayır.

Yuxarıda qeyd etdiyim kimi inzibati hüquq - hüququn başqa sahələrindən nizama salma predmetinə görə fərqlənir.

İnzibati hüququn nizamlayıcı rolu üçün əsasən xas olan cəhətlərdən biri onun xüsusiyyətlərini daha çox biruzə verən dövlət idarəetmə sistemində icra hakimiyyəti sisteminin fəaliyyət göstərməsidir. İnzibati hüquq faktiki olaraq, Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəalarına əsasən (məsələn: mad.7, 99-124) hakimiyyət səlahiyyətləri çərçivəsində fəaliyyət göstərən icra hakimiyyəti subyektlərinin üzərinə düşən vəzifə, funksiya və səlahiyyətlərin hüquqi cəhətdən həyata keçirilməsi formasında çıxış edir.

Buna görə də inzibati hüquq öz təyinatına görə idarəetmə hüququ olaraq, dövlət idarəçilik fəaliyyətinə xas olan bütün xüsusiyyətləri özündə aydın surətdə əks etdirir. İnzibati hüquq dövlət idarəetmə sahəsində müəyyən edilmiş davranış qaydalarını möhkəmləndirməklə idarəetmə xarakterli ictimai münasibətlərə hüquq münasibəti xarakteri verir.

İnzibati hüququn predmetini düzgün başa düşmək üçün bir sıra əsas müddəaları nəzərə almaq lazımdır. Çünki onların məcmusu inzibati hüququn Azərbaycan Respublikasının hüquq sistemində xidməti rolunu və real yerini müəyyən etməyə köməklik edir.

Azərbaycan Respublikasının hüquq sistemində inzibati hüququn yeri aşağıdakı xüsusiyyətləri ilə müəyyən edilir:

❖ birinci, inzibati hüquq idarəetmə xarakterli ictimai münasibətlərə öz nizamlayıcı təsirini göstərərək, onları nizama salır, yəni onlara cəmiyyətin və dövlətin maraqlarına uyğun olan xarakter verir;

❖ ikinci, inzibati hüquq icra hakimiyyətinin müvafiq subyektlərinə həvalə edilmiş idarəçilik funksiyalarının həyata keçirilməsi səbəbi ilə təşəkkül tapan münasibətləri nizama salır. Bir sözlə desək, bu onlara mənsub olan hüquqi hakimiyyət səlahiyyətlərinin təcrübi cəhətdən həyata keçirilməsidir. Bunlarsız icra orqanları, icra hakimiyyəti subyekti rolunda çıxış edə və idarəetmə funksiyalarını həyata keçirə bilməzlər.

Beləliklə, inzibati hüququn predmetini müəyyən edərkən aşağıdakı faktorları nəzərə almaq lazımdır:

❖ istənilən dövlət idarəetmə fəaliyyətinin meydana gəlməsini əhatə edən dövlət idarəetmə sahəsini;

❖ fəaliyyət göstərən icra hakimiyyəti subyektinin və ya digər icra orqanın mövcudluğunu;

❖ dövlət idarəetmə fəaliyyətinin həyata keçirilməsi üçün onlara mənsub olan səlahiyyətlərin təcrübi cəhətdən həyata keçirilməsini.

Əslində bu müddəalar icra hakimiyyətinin vəzifə və funksiyalarının praktiki olaraq həyata keçirilməsi ilə əlaqədar yaranırlar. Buna əsasən də belə bir qanunauyğun nəticəyə gəlmək olar ki, dövlət idarəetmə sahəsində yaranan ictimai münasibətlərin hamısı inzibati hüququn predmetini təşkil edən ictimai münasibətlərin dairəsinə daxil edilmirlər.

İnzibati hüququn predmeti - icra hakimiyyətinin təşkili və həyata keçirilməsi prosesində yaranan, dəyişən və xitam olunan ictimai münasibətlərin məcmusundan ibarətdir.

İnzibati hüquqla nizama salınan idarəetmə münasibətləri müxtəlif növlü olurlar. Bununla da onların iştirakçılarının xüsusiyyətlərindən asılı olaraq, idarəetmə münasibətlərin daha geniş yayılmış aşağıdakı növləri mövcuddur:

1. müxtəlif təşkilati-hüquqi səviyyədə və tabeçilik münasibətlərində olan icra hakimiyyəti subyektləri arasında yaranan idarəetmə münasibətləri. Məsələn: yuxarı təbəqəli orqanla aşağı təbəqəli orqan arasında yaranan idarəçilik xarakterli ictimai münasibətlər;
2. eyni təşkilati-hüquqi səviyyədə və tabeçilik münasibətində olmayan icra hakimiyyəti subyektləri arasında yaranan ictimai münasibətlər. Məsələn: iki nazirliyinin arasında yaranan idarəetmə xarakterli ictimai münasibətlər.
3. icra hakimiyyəti subyektləri və onların təşkilati tabeçiliyində olan dövlət birlikləri, idarələri və təşkilatları arasında yaranan idarəetmə xarakterli ictimai münasibətlər;
4. icra hakimiyyəti subyektləri və onların təşkilati tabeçiliyində olmayan dövlət birlikləri, müəssisələri və təşkilatları arasında yaranan idarəetmə xarakterli ictimai münasibətlər (maliyyə nəzarəti, inzibati nəzarət və s. məsələlər üzrə).
5. icra hakimiyyəti subyektləri və qeyri-dövlət təsərrüfatı və sosial-mədəni birlikləri, müəssisələri və təşkilatları (kommersiya strukturları və s.) arasında yaranan idarəetmə xarakterli ictimai münasibətlər;
6. icra hakimiyyəti subyektləri və qeyri-hökumət təşkilatları arasında yaranan idarəetmə xarakterli ictimai münasibətlər;
7. icra hakimiyyəti subyektləri və vətəndaşlar arasında yaranan idarəetmə xarakterli münasibətlər.

Yuxarıda göstərilən idarəetmə xarakterli ictimai münasibətlərin məzmu-nundan göründüyü kimi onların hamısında icra hakimiyyətinin subyekti müt-ləq iştirak edir. Digər tərəfdən isə yuxarıda sadalanan müddəalardan belə nəti-cəyə gəlmək olar ki, onlarsız idarəetmə münasibətləri inzibati hüquqi mənada meydana gələ bilməz. Belə ki, yalnız onlar dövlətin iradə və marağını hüquqi formada ifadə etmək, dövlət hakimiyyətini icra variantında praktiki olaraq həyata keçirmək iqtidarındadırlar. Ona görə də vətəndaşlar arasında, ictimai birliklər arasında və ictimai birliklərin daxilində belə növ münasibətlər yarana bilməz. Dövlət müəssisələri, həmçinin kommersiya strukturları arasında təsər-rüfat-müqavilələri əsasında yaranan münasibətlər inzibati hüquq normaları ilə yox, mülki hüquq normaları ilə

nizama salınır. Çünki bu münasibətlər idarət-mə fəaliyyəti ilə bağlı deyil, təsərrüfat (əmlak) fəaliyyəti ilə əlaqədar yaranırlar.

İdarəetmə münasibətlərinin təsnifatını onların yaranmalarının konkret məqsədlərinə və müvafiq inzibati-hüquqi nizamlanmalarına görə də vermək olar. Belə təsnifat meyarlarına görə idarəetmə münasibətlərini iki qrupa bölmək olar:

1. Daxili və ya təşkilatdaxili; sistemdaxili idarəetmə münasibətləri;
2. Xarici idarəetmə münasibətləri.

Daxili və ya təşkilatdaxili, sistemdaxili idarəetmə münasibətləri idarəçi-lik sisteminin təşkil edilməsi, onun bölmələri arasında qarşılıqlı əlaqələrin əsa-sının müəyyən edilməsi, idarəetmə orqanının əməkdaşları arasında vəzifə, hü-quq və məsuliyyətlərinin bölüşdürülməsi ilə əlaqədar yaranan münasibətlərdir. Əslində belə növ idarəetmə münasibətləri icra hakimiyyətinin bütün sisteminin yuxarıdan aşağıya kimi, həmçinin də onun hər təbəqəsinin ″özünütəşkiletmə″ marağını ifadə edir. Belə münasibətlərdə tərəflər kimi tabeçilik münasibətində olan icra orqanları, onların struktur bölmələri, həmçinin də vəzifəli şəxslər çıxış edirlər.

Xarici idarəetmə münasibətləri icra hakimiyyəti sisteminə (mexanizminə) daxil olmayan obyektlərə bilavasitə təsir göstərməklə yaranan münasibətlərdir. Məsələn: vətəndaşlara, ictimai birliklərə və kommersiya strukturlarına göstərilən təsir nəticəsində yaranan münasibətlər.

Yuxarıda göstərilənlərə əsaslanaraq inzibati hüququn predmetinin ümumiləşdirilmiş xarakteristikasını almaq olar. Çünki inzibati hüququn predmetini təşkil edən idarəetmə xarakterli ictimai münasibətlər müxtəlifdir, lakin onun predmetini əhatə edən ictimai münasibətlər prinsipcə birtipli (eyni tipli) ictimai münasibətlərdir.

Belə ictimai münasibətlər aşağıdakı hallarda yaranır:

❖ icra hakimiyyətinin vəzifə, funksiya və səlahiyyətlərinin bilavasitə həyata keçirildiyi zaman yaranan idarəetmə münasibətləri;

❖ qanunvericilik və məhkəmə hakimiyyətləri subyektlərinin, həmçinin prokurorluq orqanlarının fəaliyyəti prosesində yaranan və təşkilatdaxili xarakter daşıyan idarəetmə münasibətləri;

❖ yerli özünüidarəetmə subyektlərinin iştirakı ilə yaranan idarəetmə münasibətləri;

❖ qeyri-hökumət təşkilatlarının (ictimai birliklərin və fondların) daxilində, həmçinin də bu təşkilatların xarici-hakimiyyət funksiya və səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar yaranan təşkilatçılıq xarakterli ayrı-ayrı idarəetmə münasibətləri.

İnzibati hüquq öz predmeti çərçivəsində birinci növbədə icra hakimiyyəti subyektlərinin konstitusiya təyinatlarına tam müvafiq olaraq təşkili və fəaliyyətinin müəyyən hüquqi recimini, həmçinin də nizamlanan idarəetmə münasibətlərinin bütün digər iştirakçılarının davranışlarını təşkil edir. Azərbaycan Respublikasının hüquq sisteminin bu sahəsinin xidməti rolunun, onun nizamlayıcı funksiyasının meydana çıxması əsasən bununla bağlıdır. Bununla yanaşı ona başqa bir funksiya da, yəni nizamlanan idarəetmə münasibətləri çərçivəsində müəyyən edilmiş hüquqi recimə riayət edilməsini təmin edən, həm də tərəflərin qanuni hüquq və maraqlarını müdafiə edən hüquqmühafizəedici (yurisdiksiya) funksiya da xasdır.

Beləliklə, inzibati hüquq - icra hakimiyyətinin təcrübi cəhətdən həyata keçirilməsi və məqsədi ilə əlaqədar olaraq yaranan ictimai münasibətləri nizama salmaq üçün təyin edilmiş

hüquq normalarının məcmusundan ibarət olan Azərbaycan Respublikasının hüquq sisteminin sahələrindən biridir.

İnzibati hüququn aşağıdakı məqsədləri mövcuddur:

- insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi;
- icra hakimiyyətinin demokratik təşkilinin təmin edilməsi;
- icra hakimiyyətinin fəaliyyətinin effektivliyi üçün şəraitin yaradılması;
- idarəetmə sahəsində vətəndaşların və onların birliklərinin hüquq və azadlıqlarının həyata keçirilməsi üçün şəraitin yaradılması;
- vətəndaşların və cəmiyyətin inzibati özbaşınalıqdan, sui-istifadədən, diqqətsizlikdən, səriştəsizlikdən, dövlət idarəetmə aparatının vəzifəli şəxslərinin özbaşınalığından müdafiəsinin təmin edilməsi.

İnzibati hüquq Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz hissəsi olaraq, hüquq sisteminin bütün sahələri ilə sıx bağlıdır:

❖ inzibati hüququn konstitusiya hüququ ilə əlaqəsi ondan ibarətdir ki, konstitusiya hüququ, hüququn bütün sahələrinin, o cümlədən də inzibati hüququn prinsiplərini özündə əks etdirir. ″Konstitusiya hüququ″nun əsas mənbəsini təşkil edən Azərbaycan Respublikasının Konstitusiyası, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, referendumla qəbul edilən qanunlar dövlət quruculuğu sahəsində yaranan ictimai münasibətləri, şəxsiyyət və dövlətin qarşılıqlı münasibətini, dövlət hakimiyyətinin təşkili məsələlərini və onun dövlət hakimiyyətinin bölünməsi prinsipi əsasında (yəni qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə bölünməsi) həyata keçirilməsini bilavasitə nizamlayır. Bu münasibətlər də ″Konstitusiya hüququ″nun nizamasalınma predmetini təşkil edirlər;

❖ inzibati hüququn maliyyə hüququ ilə bağlılığı ondan ibarətdir ki, maliyyə hüququ dövlətin maliyyə fəaliyyəti sahəsindəki ictimai münasibətləri, Azərbaycan Respublikasının milli gəlirini təşkil edən pul vəsaitlərinin toplanması və bölüşdürülməsi prosesində yaranan ictimai münasibətləri nizamlayır. İnzibati hüquq isə maliyyə və vergi orqanların səlahiyyətlərini müəyyən edir və onların təşkili və fəaliyyətləri qaydasını nizamlayır, yəni maliyyə sahəsində idarəetmə münasibətlərini nizamlayır;

❖ inzibati hüququn mülki hüquqla əlaqəsi isə ondan ibarətdir ki, hüququn bu iki sahəsi əmlak münasibətlərinin nizama salınma məsələlərinə görə onlar bir-biri ilə sıx bağlıdırlar. Lakin bu münasibətlərin nizama salınma metodları eyni deyildir. İnzibati hüquq əmlak münasibətlərini sərəncamvermə qaydasında hakimiyyət-tabeçlik metodu ilə nizamlayır. Məsələn: idarəetmə orqanının sərəncamına görə bir təsərrüfat təşkilatı avadanlığı və əmlakı digər təsərrüfat təşkilatına verir. Belə halda idarəetmə orqanı dövlət-hakimiyyət metodu ilə əmlak münasibətini nizama salır. Bir çox hallarda isə idarəetmə aktların icra edilməsi üçün təsərrüfat və digər təşkilatlar mülki hüquq normalarını rəhbər tutaraq müqavilə bağlayırlar. İdarəetmə aktı təşkilatla (hüquqi şəxslə) və vətəndaş (fiziki şəxslə) arasında müqavilə bağlanmasına əsas kimi xidmət edə bilər. Məsələn: vətəndaşla mənzil-istismar təşkilatı arasında icarə müqaviləsi vətəndaşda yaşayış sahəsinə orderin olduğu halda bağlanır. Mülki-hüquqi nizama salma metodu inzibati-hüquqi nizama salma metodundan fərqli olaraq, tərəflərin bərabərliyi ilə xarakterizə olunur. Bazar münasibətlərinin genişlənməsi, iqtisadi fəaliyyətin azadlığı, dövlət, xüsusi və bələdiyyə mülkiyyət formalarının mövcudluğu şəraitində əmlak münasibətlərinin nizama salınmasında mülki hüququn rolu daha da artır. Lakin onların sahələri inzibati tabeçiliyə, inzibati-hüquqi nizama salmaya əsaslanaraq yarana biləcək əmlak münasibətlərini istisna etmir;

❖ inzibati hüququn əmək hüququ ilə əlaqəsi ondan ibarətdir ki, fəhlə və qulluqçuların bir çox əmək münasibətləri inzibati və əmək hüquq sahələri ilə nizama salınır. Məsələn: dövlət orqanları qulluqçuların əmək prosesində yaranan münasibətləri, qulluqçuların təqaüdə çıxdıqda, xəstələndikdə, əlil olduqları hallarda sosial təmin edilmələri, həmçinin qulluqçuların əməyinin mühafizəsi ilə bağlı məsələlər əmək hüququ ilə nizama salınır. İdarəetmənin bir sıra sahələrində (müdafiə, daxili işlər və s.) dövlət qulluğunun keçirilməsi, vəzifəli şəxslərin vəzifə və hüquqları inzibati hüquq normaları ilə müəyyən edilir. Dövlət qulluqçuları xidməti hüquq və vəzifələrini həyata keçirərkən inzibati hüquqla nizamlanan dövlət-xidməti münasibətlərə girirlər. Bununla yanaşı, şəxsi hüquq daşıyıcıları qismində onlar əmək münasibətlərinin iştirakçıları kimi çıxış edirlər və bu münasibətlər də əmək hüququ ilə nizama salınır;

❖ inzibati hüququn cinayət hüququ ilə əlaqəsi ondan ibarətdir ki, inzibati hüquq normaları hansı əməllərin inzibati xəta olduğunu və onu törədən şəxsə qarşı tətbiq edilən tənbeh tədbirlərini müəyyən edir. Cinayət hüququ isə hansı əməllərin cinayət olduğunu və onların törədilməsinə görə cəzanın növlərini müəyyən edir. İnzibati hüquqla cinayət hüququ hüquqmühafizə sahəsində birgə fəaliyyət göstərirlər. Yəni törədilən əməlin xarakterindən, şəraitindən, yerindən, vaxtından və sair amillərdən asılı olaraq o, ya inzibati xəta, ya da cinayət əməli kimi qiymətləndirilə bilər.;

❖ inzibati hüququn cinayət-prosessual və mülki-prosessual hüquqla, həmçinin məhkəmələr haqqında qanunvericiliklə (″Məhkəmələr və hakimlər haqqında″ Azərbaycan Respublikasının Qanunu, 1997-ci il) əlaqəsi ondan ibarətdir ki, inzibati hüququn normaları icra fəaliyyəti ilə ədalət mühakiməsinin həyata keçirilməsi arasında mövcud olan fərqləri müəyyən edirlər. Bununla yanaşı qeyd etmək lazımdır ki, məhkəmələr inzibati-hüquqi xarakterli işlərə baxarkən inzibati-prosessual normaları rəhbər tuturlar. Məsələn: idarəetmə orqanlarının və onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri barədə şikayətlərə baxarkən.

Azərbaycan Respublikasının hüquq sistemində inzibati hüququn yeri inzibati hüquqla nizamlanan ictimai münasibətlərin xarakteri və zəruriliyi ilə müəyyən edilir. Digər tərəfdən isə onun xüsusiyyəti və hüququn digər sahələrindən fərqi ondan ibarətdir ki, inzibati hüquq idarəetmə münasibətlərini nizama salır.

Birinci sualı yekunlaşdıraraq qeyd etmək istərdim ki, bu sualda aşağıdakı kimi müddəalar açıqlanmışdı:

1. İnzibati hüquq - icra hakimiyyətinin təcrübi cəhətdən həyata keçirilməsi və məqsədi ilə əlaqədar olaraq yaranan ictimai münasibətləri nizama salmaq üçün təyin edilmiş hüquq normalarının məcmusundan ibarət olan Azərbaycan Respublikasının hüquq sisteminin sahələrindən biridir.

2. İnzibati hüququn aşağıdakı məqsədləri mövcuddur:

- insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi;
- icra hakimiyyətinin demokratik təşkilinin təmin edilməsi;
- icra hakimiyyətinin fəaliyyətinin effektivliyi üçün şəraitin yaradılması;
- idarəetmə sahəsində vətəndaşların və onların birliklərinin hüquq və azadlıqlarının həyata keçirilməsi üçün şəraitin yaradlması;
- vətəndaşların və cəmiyyətin inzibati özbaşınalıqdan, sui-istifadədən, diqqətsizlikdən, səriştəsizlikdən, dövlət idarəetmə aparatının vəzifəli şəxslərin özbaşınalığından müdafiəsinin təmin edilməsi.

3. İnzibati hüququn predmeti - icra hakimiyyətinin təşkili və həyata keçirilməsi prosesində yaranan, dəyişən və xitam olunan ictimai münasibətlərin məcmusundan ibarətdir.

Sual 2.
İnzibati hüququn sistemi, prinsipləri, metodları və funsiyaları

İnzibati hüquq da, hüquq sisteminin digər sahələri kimi bir-biri ilə sıx bağlı olan ayrı-ayrı inzibati hüquq normalarından və institutlardan ibarət olan sistemə malikdir.

İnzibati hüquq normaları ilə nizama salınan ictimai münasibətlərin konkret məzmunlarına görə inzibati hüquq normaları aşağıdakı qruplara bölünürlər:

❖ ümumi xarakterli idarəçilik münasibətlərini nizamlayan, yəni bütün idarəetmə üçün ümumi olan normalar: bu normalar inzibati hüququn birinci, yəni ümumi hissəsini təşkil edirlər;

❖ idarəetmənin bu və ya digər sahəsinin və ya bölməsinin ictimai münasibətlərini nizamlayan normalar: bu normalar inzibati hüququn ikinci, yəni xüsusi hissəsini təşkil edirlər;

❖ inzibati-yurisdiksiya fəaliyyəti sahəsində yaranan ictimai münasibətləri nizamlayan normalar: bu normalar inzibati hüququn üçüncü hissəs ini təşkil edirlər.

Beləliklə, inzibati hüquq üç hissədən ibarətdir. Digər tərəfdən isə inzibati hüququn hər bir hissəsi özündə bir neçə inzibati-hüquqi institutları birləşdirir.

<u>İnzibati hüququn birinci hissəsinin</u> tərkibinə aşağıdakı inzibati-hüquqi institutlar, yəni eyni tipli ictimai münasibətləri nizamlayan normalar qrupu daxildirlər:

❖ dövlət idarətməsinin, icraedici fəaliyyətinin prinsiplərini möhkəmləndirən normalar;

❖ vətəndaşların (fiziki şəxslərin) inzibati-hüquqi statusunu nizamlayan normalar;

❖ icra hakimiyyəti və dövlət idarəetmə orqanlarının, həmçinin də digər idarəetmə subyektlərinin təşkili qaydasını və inzibati hüquqi statusunu müəyyən edən normalar;

❖ dövlət qulluğunu nizamlayan, dövlət və bələdiyyə qulluqçularının hüquqi statusunu müəyyən edən normalar;

❖ qeyri-hökumət təşkilatların (ictimai birliklərin və fondların) qulluqçularının və nümayəndələrinin inzibati-hüquqi statusunu nizama salan normalar;

❖ dövlət idarəetməsinin forma və metodlarını müəyyən edən normalar: bu qrupa daxil olan normalardan çoxunu idarəetmə aktlarının qəbul edilmə qaydasını və digər prosessual hərəkətlərin törədilməsini nizamlayan normalar, yəni inzibati-prosessual normalar, həmçinin də idarəetmə metodunun tətbiq edilməsini nizamlayan normalar təşkil edirlər;

❖ idarəetmədə qanunçuluğu təmin edən normalar.

<u>İnzibati hüququn ikinci hissəsini</u> təşkil edən normalar aşağıdakı əsas qruplara (institutlara), yəni müxtəlif sahələrdə idarəetməni nizamlayan normalara bölünürlər:

❖ sahələrarası idarəetməni nizamlayan normalar;

❖ sosial-siyasi sahədə dövlət idarəetməsini və dövlətin, cəmiyyətin və vətəndaşların təhlükəsizliyini təmin edən normalar;

❖ sosial-mədəni sahədə dövlətin fəaliyyətini nizamlayan normalar;

❖ dövlətin təsərrüfat fəaliyyətini nizamlayan normalar.

Yuxarıda adları çəkilən qruplara (institutlara) daxil olan inzibati hüquq normalarından idarəetmənin ayrı-ayrı sahələrini (nəqliyyat, səhiyyə, təhsil, daxili işlər və s.) və sahələrarası bölmələrini (uçot və statistika, standartlaşdırma, metroloqiya və s.) nizamlayan inzibati hüquq normaları daha çox nəzərə çarpırlar.

İnzibati hüquq sahəsinin üçüncü hissəsini inzibati-yurisdiksiya fəaliyyətini nizamlayan normalar təşkil edirlər.

Bu normalar öz əksini Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində tapmışdır. Onlar inzibati xətanın tərkibini və onların törədilməsinə görə məsuliyyəti müəyyən edirlər; inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların və vəzifəli şəxslərin dairəsini müəyyən edirlər; inzibati xətalar haqqında işlərin icraatını və inzibati tənbeh etmə haqqında qərarın icrasını nizamlayırlar.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, inzibati hüquq - Azərbaycan Respublikasının hüquq sisteminin ən böyük və mürəkkəb sahələrindən biridir. Bunu onun predmetini təşkil edən ictimai münasibətləri, idarəçilik münasibətlərin geniş dairəsi ilə əsaslandırmaq olar.

Praktiki olaraq cəmiyyətin həyat fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada bu və ya digər həcmdə icraedici fəaliyyət həyata keçirilməsin, daha dəqiq desək, həmin sahə inzibati hüquq normaları ilə nizama salınmasın. İdarəetmə sahələrinin və bölmələrinin inzibati-hüquqi nizama salınma həddi eyni deyildir. Məsələn: müdafiə, təhlükəsizlik, daxili işlər, energetika, standartlaşdırma sahələri bir qayda olaraq daha çox inzibati hüquq normaları ilə nizamlanır. İqtisadi sahədə mülki-hüquqi münasibətlərin inkişaf etməsi ilə əlaqədar olan və inzibati-hüquqi normalar ilə nizamlanan ictimai münasibətlərin dairəsi azalır. Buna baxmayaraq, icra hakimiyyətinin həyata keçirilməsində inzibati hüququn rolu böyükdür.

İnzibati hüquq - Azərbaycan Respublikasının hüquq sisteminin təkcə böyük, mürəkkəb sahəsi deyil, həm də müstəqil sahələrindən biridir. Çünki dövlət idarəetmə sistemində icra hakimiyyəti əsas yer tutur. İdarəetmənin qanunauyğunluğu və effektivliyi, fiziki və hüquqi şəxslərin öz hüquqlarını həyata keçirmə imkanları xeyli dərəcədə onun vəziyyətindən asılıdır.

İNZIBATI HÜQUQUN PRINSIPLƏRI

İnzibati hüququn prinsipləri dedikdə - inzibati hüququn mahiyyətini əks etdirən əsas ideyalar, tələblər, müddəalar başa düşülür.

İnzibati hüququn prinsipləri öz məzmun və məqsədlərinə görə iki qrupa bölünürlər:

1. Konstitusion (ümumi) prinsiplər;
2. Xüsusi prinsiplər.

Konstitusion (ümumi) prinsiplərə aşağıdakı prinsiplər aiddirlər:

- qanunçuluq;
- demokratizm;
- humanizm;
- vətəndaşların qanun və hüquq tətbiqedici qarşısında bərabərliyi;
- dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyəti;
- insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi;
- təqsirsizlik prezumpsiyası;
- ədalətlilik və s.

Xüsusi prinsiplərə aşağıdakı prinsiplər aiddirlər:
- dövlət qulluğunun keçirilməsi prinsipləri;
- inzibati məsuliyyət prinsipləri;
- inzibati xətalar haqqında işlərin icraatı prinsipləri və s.

İnzibati hüququn prinsipi kimi qanunçuluq prinsipi öz xarakterinə görə ümumi xarakter daşıyır. Onun məzmunu hüququn bütün subyektləri tərəfindən hüquq normalarının göstərişlərini dəqiq və tam həyata keçirilməsi və onların tələblərinə riayət edilməsi ilə ifadə edilir. Hüquq normalarının realizəsini təmin edərək, göstərilən prinsip digər prinsiplərin (ədalətlilik, sosial azadlıq, humanizm) həyata keçirilməsinə də təsir göstərir. İkinci tərəfdən isə qeyd etmək lazımdır ki, hüququn bütün prinsipləri öz aralarında sıx qarşılıqlı əlaqədədirlər. Sosial ədalət prinsipi fəaliyyət göstərirsə, deməli insanlar arasında humanist münasibətlər təşəkkül tapır. Əksinə, humanizm prinsipinin realizəsi ictimai həyatda ədalətli münasibətlərin bərqərar olması deməkdir.

İnzibati hüququn prinsipi kimi - humanizm bütün sivilizasiyalı hüquq sistemlərinə xasdır. Humanizm prinsipi hüququn vacib, dəyərli, səciyyəvi xüsusiyyətlərindən birini üzə çıxarır. Hüquq hər bir insanın azadlıq və təhlükəsizliyinə, öz şərəf və ləyaqətinin qorunmasına, şəxsin həyatda istənilən özbaşınalıqdan qorunmasına və s. kimi digər təbii və ayrılmaz hüquq və azadlıqlarına real təminat verir və onu təsbit edir.

Hüququn humanistliyi şəxsiyyətin toxunulmamazlığına təminat verilməsində ifadə olunur. Heç kim məhkəmənin qərarı və ya sanksiyası olmadan həbs oluna və yaxud qanunsuz olaraq mühafizə altında saxlanıla bilməz, hər bir şəxs səlahiyyətli müstəqil və qərəzsiz məhkəmə tərəfindən işlərə açıq və ədalətli baxılması ilə müdafiə hüququna malikdir; azadlıqdan məhrum edilmiş bütün şəxslər öz ləyaqətlərinə humanistcəsinə yanaşılması və hörmət edilməsi hüququna malikdir; heç kim onun ləyaqətini alçaldan və yaxud ağır, qeyri-insani işgəncələrə məruz qalmamalıdır. Bu prinsip yeni qəbul olunmuş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrində də öz əksini tapmışdır. Məsələn: İXM-nin 30.2 maddəsinə əsasən hamilə qadınlar, himayəsində azyaşlı uşağı olan qadınlar, 18 yaşa çatmayan şəxslər, birinci və ikinci qrup əlillər, habelə 60 yaşına çatmış qadınlar və 65 yaşına çatmış kişilər inzibati həbsə cəlb edilə bilməzlər; İXM-in 376.1. maddəsinə əsasən inzibati qaydada tutulan yetkinlik yaşına çatmayanların, icraatın aparıldığı dili bilməyənlərin, lal, kar, kor, fiziki və ya psixi qüsurları üzündən özlərinin müdafiə hüquqlarını həyata keçirə bilməyən digər şəxslərin işlərində vəkilin iştirakı məcburidir və s.

Demokratizm - inzibati hüququn prinsipi kimi inzibati-hüquqi siyasətin formalaşmasında və inzibati hüquq normalarının təkmilləşdirilməsində vətəndaşların, qeyri-hökumət təşkilatlarının, ictimai hərəkatların, əmək kollektivlərinin və əhalinin iştirak etməsi ilə ifadə olunur. Bu prinsip öz əksini həm də, inzibati hüquq normalarının realizəsi prosesində idarəetmə sahəsində vətəndaşlara və qeyri-hökumət təşkilatlarına öz hüquqlarını həyata keçirmək üçün onlara geniş imkanların verilməsində tapmışdır. Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər. Bu prinsip əsas müddəa kimi öz əksini Azərbaycan Respublikasının Konstitusiyasının 54-55-ci maddələrində tapmışdır.

Qanun və hüquqtətbiqedici qarşısında vətəndaşların bərabərliyi - inzibati hüququn prinsipi kimi onunla ifadə olunur ki, bütün vətəndaşlar millətindən, sosial, dini və digər

mənsubiyyətindən, əmlak və vəzifə vəziyyətindən asılı olmayaraq idarəetmə sahəsində inzibati hüquq normaları ilə müəyyən edilmiş bərabər hüquq və vəzifələrə malikdirlər və qanun qarşısında eyni dərəcədə məsuliyyət daşıyırlar.

Vətəndaşlar dövlət orqanlarında xidmət etmək, təhsil almaq və s. hüquqlara malikdirlər (Konstitusiyanın 24-71 maddələri). Bütün vətəndaşlar üzərlərinə qoyulmuş vəzifələrin pozulmasına görə məsuliyyət daşımalıdırlar. İkinci tərəfdən isə bütün vətəndaşlar inzibati hüquq normlarını tətbiq edən subyektlər qarşısında bərabərdilər.

İnzibati hüququn prinsipi kimi dövlətin və şəxsiyyətin qarşılıqlı məsuliyyəti prinsipinin məzmunu ondan ibarətdir ki, dövlət və şəxsiyyət bir-biri ilə hüquqları və vəzfələri ilə bağlıdırlar.

Tərəflərdən birinin özünün inzibati-hüquqi vəzifələrini pozması inzibati məsuliyyətin yaranmasına əsas olur. Konstitusiyanın 68-ci maddəsinin 2-ci bəndinə əsasən hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır. İnsan və vətəndaşların hüquqlarını və azadlıqlarının tanınması və onların müdafiə edilməsi dövlətin əsas vəzifəsidir. Bu vəzifə öz əksini Azərbaycan Respublikasının Konsitusiyasında və Azərbaycan Respublikasının Prezidentinin 22 fevral 1998-ci il tarixli ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Fərmanında tapmışdır. Digər tərəfdən isə Konstitusiya və başqa qanunvericilik aktları ilə vətəndaşların dövlət qarşısında vəzifələri müəyyən edilmişdir. Təbiəti və ətraf mühiti qorumaq hər bir şəxsin borcudur (Azərbaycan Respublikasının Konstitusiyası, m.78). Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinə əsasən isə vətəni müdafiə hər bir vətəndaşın borcudur. Bundan əlavə Konstitusiyanın digər müddəalarına əsasən vətəndaşların dövlət qarşısında digər vəzifələri də müəyyən edilmişdir. Bu vəzifələr Konstitusiyanın 73-79-cu maddələrində öz əksini tapmışdır.

İNZIBATI HÜQUQUN METODLARI

İnzibati hüquq - dövlət idarəetmə sistemində icra hakimiyyətinin təşkili və həyata keçirilməsində nizamlayıcı funksiyanı həyata keçirən hüquq sahəsidir. Bu məqsədlə də o, idarəetmə xarakteri daşıyan ictimai münasibətlərə və idarəetmə xarakterli ictimai münasibətlərin iştirakçılarının davranışlarına nizamlayıcı təsir göstərən hüquqi vasitələrin və ya üsulların müəyyən məcmusundan istifadə edir.

İdarəçilik xarakteri daşıyan ictimai münasibətlərdə onların iştirakçılarının davranışlarına hüquqi vasitələrin və üsulların nizamlayıcı təsir göstərməsi - ictimai münasibətlərin hüquqi nizama salınması metodudur.

İctimai münasibətlərin hüquqi nizamasalınması metodları fənnin predmeti ilə birlikdə hüququn istənilən sahəsinə çox yaxın və oxşar olurlar, bir çox hallarda isə onlar yaranma səbəblərinə görə bir-biri ilə üst-üstə də düşürlər (məsələn: əmlak münasibətləri, təbii ehtiyatların mühafizəsi sahəsindəki münasibətlər, maliyyə və sahibkarlıq fəaliyyətləri). Ona görə də hüquq sahələrinin bir-birindən fərqləndirilməsi zamanı nizamasalma metodları çox vaxt müəyyənedici meyar rolunda çıxış edə bilər.

Hüquqi nizama salmanın metodları problemli və mübahisəli xarakter daşıyır. İndiyə kimi onların məzmununun dərk edilməsi üçün müxtəlif fikirlər söylənilir. O cümlədən elə bir yanaşma (tendensiya) meydana çıxıb ki, hər bir hüquq sahəsi predmetindən başqa özünün metoduna da malikdir. Bununla yanaşı elə bir fikir də mövcuddur ki, bütün hüquq sahələri

nizamlayıcı məqsədlə hüququn öz təbiətində müəyyən edilmiş vahid hüquqi vasitələrdən istifadə edirlər. Belə yanaşma daha məqsədəuyğundur.

Ümumhüquq nəzəriyyəsi nöqteyi-nəzərdən kifayət qədər inandırıcı formada sübuta yetirilmişdir ki, hüququn istənilən sahəsi hüquqi nizama salma vasitəsi kimi aşağıdakı hüquqi imkanlardan istifadə edir:

- qadağan etmə;
- sərəncam vermə (əmr etmə);
- icazə vermə.

Hüquqi nizama salmanın bu imkanlarının məcmusu istənilən tipli ictimai münasibətlərə hüquqi təsir göstərmənin məzmununu təşkil edir. Hüquqi nizama salmanın səciyyəvi predmetinə malik olan hüquq sahələri arasındakı fərq bu və ya digər nizama salma vasitəsinin praktiki olaraq istifadə olunmasının dərəcəsi ilə aparılır. Belə ki, ümumi qaydada qəbul olunub ki, mülkü-hüquqi nizama salma üçün ″icazə vermə″, cinayət hüquqi nizama salma üçün isə ″qadağan etmə″ daha çox əhəmiyyət kəsb edir.

Nizama salınan ictimai münasibətlərə adları çəkilən hüquqi təsir göstərmə vasitələrinin mahiyyəti məlumdur. Belə ki, sərəncam vermə hüquq normalarının tələblərinə tam müvafiq olaraq müvafiq vəziyyətdə hərəkət etmənin birbaşa hüquqi vəzifə kimi qoyulmasından ibarətdir.

Hüquqi normanı geniş mənada dərk etməklə, asanlıqla müəyyən etmək olar ki, onlardan hər hansı biri davranış qaydasının məcburi və hüquqi cəhətdən mühafizə edilən qaydada olması barədə sərəncam verir. Sərəncam vermənin xarakteri dəyişir, lakin onun mahiyyəti bir mənalıdır. Bu mənada qadağan etmə özü də faktiki olaraq sərəncam vermənin bir formasıdır. Çünki, onun verilməsi ilə hüquqi nöqteyi nəzərdən icazə verilməyən bu və ya digər hərəkətdən ünvançını çəkindirir.

İcazə vermə vasitəsinin xarakteri daha mürəkkəbdir, çünki bir çox hallarda o,″səlahiyyətvermə ilə″ üst-üstə düşür. Lakin hüquqi nizamasalmanın icazəvermə variantı nizamasalmanın digər iki variantından fərqlənir. Bu variantda hüquq normaları faktiki olaraq ayrı-ayrı hərəkətlərin törədilməsində və yaxud da onların törədilməsindən çəkinməyə icazə verərkən özünəməxsus formalarda, yəni daha ″yumşaq″ formalarda ifadə olunurlar. Hüquqi nizamasalmanın icazəvermə variantı ünvançıya müstəqillik vermir, lakin o, ünvançıya imkan verir ki, hüquq normasında ifadə olunmuş vəziyyət çərçivəsindən kənara çıxmamaq şərti ilə müstəqil olaraq davranışın bu və ya digər variantını seçir.

Hüquqi nizamasalmanın bu vəziyyətləri inzibati-hüquqi nizamasalmanın mahiyyətini, onun səciyyəvi xüsusiyyətlərini (metodları) idarəçilik münasibətlərinin özünəməxsus xüsusiyyətləri (tələblərin hüquqi cəhətdən bərabərhüquqlu olmamaları), icra hakimiyyətinin mahiyyəti ilə müəyyən edilir. Buna müvafiq olaraq, inzibati-hüquqi nizamasalma, onun mexanizmi - münasibətlərin bilavasitə hüquqi formalaşmasından ibarətdir. Bu formada münasibət tərəflərindən biri idarəedən (idarəetmənin subyekti), digəri isə idarəolunan (idarəetmənin obyekti) rolunda çıxış edirlər.

Belə münasitbət növündə həmişə idarəolunanın iradəsinin idarəedənin iradəsinə məlum tabeçiliyi nəzərdə tutulur. Bu prinsip dövlət idarəertməsi üçün başlıca aksioma hesab edilir. Buna müvafiq olaraq inzibati-hüquqi nizamasalma bir qayda olaraq tərəflərin bərabər hüquqi vəziyyətdə olmadığı ictimai münasibətlər üçün nəzərdə tutulmuşdur. Belə ki, dövlət idarəetmə sistemində şaquli münasibətlər də mövcuddur ki, həmin münasibətlərdə tərəflərin hüquqi cəhətdən bərabərliyi mümkün deyildir.

İnzibati hüququn metodlarının xarakterini dərk etmək üçün dövlət - idarəetmə fəaliyyətinin mahiyyətindən və inzibati hüququn predmetini təşkil edən ictimai münasibətlərdən irəli gələn aşağıdakı kimi vəziyyətlərin nəzərə alınması məqsədəuyğundur:

1. İnzibati hüququn metodu daha çox ″hakimiyyət - tabeçilik″, yəni bərabər hüquqlu olmayan tərəflərin iştirakı ilə yaranan ictimai münasibətlərin hüquqi vasitələrini xarakterizə edir.

2. İnzibati hüququn metodu - göstərişlərdə (qadağanetmədən başqa), yəni sərəncamvermə kimi hüquqi vasitələrdə daha çox aydın ifadə olunur. Praktiki olaraq bu metodun mahiyyəti ondan ibarətdir ki, nizamasalınan münasibətin bir tərəfinə inzibati-hüquq norması ilə müəyyən həcmdə ″hüquqi-hakimiyyət″ səlahiyyətləri verilir və bu səlahiyyətlər də münasibətin digər tərəfinə ünvanlanır. Münasibətin digər tərəfinin vəzifəsi isə ondan ibarətdir ki, o, sərəncamvermə hüququna malik olan tərəfin göstərişlərinə tabe olmalıdır.

Belə səlahiyyət növü münasibətin hər iki tərəfin sərəncamında ola bilməz. Çünki belə səlahiyyət hər iki tərəfə verilərsə, onlar bərabər hüquqlu subyektlərə çevrilirlər. Dövlət idarəetmə sahəsində bu da mümkün deyil.

3. İnzibati-hüququn metodu - nizamasalınan münasibətlərin iştirakçılarından birinin birtərəfli qaydada öz iradəsini ifadə etməsini nəzərdə tutur. İradənin belə formada ifadə olunması ″hüquqi-hakimiyyət″ xarakter daşıyır və ona görə də o, həlledici əhəmiyyətə malikdir.

4. İnzibati hüququn metodu - konkret idarəetmə münasibətlərində yəni, idarəedən ilə idarəolunan arasındakı aşağıdakı qarşılıqlı əlaqələrdə özünün daha səciyyəvi formasını tapır:

- idarəedən tərəfdə elə hüquqi hakimiyyət səlahiyyətləri vardır ki, idarəolunan tərəf həmin səlahiyyətlərə malik deyil və malik də ola bilməz (məsələn: vətəndaş, ictimai birlik);

- idarəedən tərəfdə həmin səlahiyyətlər daha çoxdur, nəinki idarəolunan tərəfdə (məsələn: tabeçilikdə olan vəzifəli şəxsdə). Bu zaman idarə edənlərin və idarəolunanların qarşılıqlı iradə ifadəsindən asılı olmayan hüquqi nizamasalma mexanizmi yaranır.

5. İnzibati hüququn metodu - inzibati-hüquqi nizamasalmanın daha vacib əlaməti olan hakimiyyət və birtərəfli xarakter daşımasına baxmayaraq, lazım olan hallarda tərəflərin bərabərliyindən də istifadə edilməsini istisna etmir.

6. İnzibati hüuqun metodu - bir çox hallarda inzibati-hüquq norması ilə nəzərdə tutulmuş vəziyyətdə idarə edənə və ya idarə olunana hərəkətinin formasını (birbaşa göstərişlərdən və qadağanlardan başqa) seçmək imkanı verilir. Məsələn: dövlət orqanın və ya vəzifəli şəxsin hərəkətindən vətəndaşın şikayət vermək hüququ; bu və ya digər məsələnin həllində vəzifəli şəxsin müstəqil olaraq konkret vasitəni seçmək hüququ və s.

7. İnzibati hüququn metodu - bazar münasibətlərinin inkişaf etdiyi şəraitdə və dövlət əmlakının özəlləşdirilməsi prosesində, səhmdarlıq fəaliyyətinin inkişaf etdiyi dövrdə öz əsas keyfiyyətlərini itirmir.

8. İnzibati hüququn metodu - qüvvədə olan qanunvericiliyə müvafiq olaraq öz istifadə olunma sahəsini xeyli genişləndirir. Bu, onların əmlak xarakterli ictimai münasibətlərə də birbaşa təsiretmənin olması ilə sübut edilir.

Beləliklə, yuxarıda göstərilənləri nəzərə alaraq, inzibati hüququn metodlarının mahiyyətini aşağıdakı kimi ifadə etmək olar:

a) dövlət idarəetmə sahəsində müəyyən hərəkət (fəaliyyət) qaydasının müəyyən edilməsi (göstərişlər);

b) müəyyən hərəkətlərin qadağan edilməsi (qadağanlar);

v) hərəkətlərin seçilməsində imkanın verilməsi (bu, icazənin verilməsinin ″sərt″ variantıdır, bu variant vəzifəli şəxslər üçün nəzərdə tutulmuşdur, ona görə ki, onlar müvafiq vəziyyətdə inzibati hüquq normaları ilə nəzərdə tutulmuş hərəkət variantlarından birini seçməlidirlər. Məsələn: inzibati xətaya görə sanksiyaların verilməsi zamanı);

q) özü bildiyi kimi hərəkət etmək imkanının verilməsi (bu, icazəni vermənin ″yumşaq″ variantıdır, bu variant vətəndaşlar üçün nəzərdə tutulmuşdur, formasına görə bu variant icazəvermə metodudur).

İdarəçilik münasibətlərinin nizamasalınma metodlarının fərqləndirici xüsusiyyətləri bunlardır.

İNZIBATI HÜQUQUN FUNKSIYALARI

Azərbaycan Respublikasının hüquq sisteminin hüquq sahələrindən biri olan inzibati hüququn ümumi xarakteristikasına bilavasitə aid olan funksiyalar onun təyinatını, rolunu, fəaliyyətinin istiqamətini müəyyən edirlər və hüquq sistemində inzibati hüququn xarici xüsusiyətlərini müəyyən etməyə imkan verirlər.

Ümumhüquq nöqteyi-nəzərdən adətən aşağıdakı əsas hüquqi funksiyalar mövcuddur:

- ❖ təşkilati-struktur funksiya;
- ❖ mübahisə-mühafizəedici funksiya.

Təşkilati-struktur funksiya - dövlət orqanlarının strukturunu və fəaliyət qaydasını müəyyən edilməsi, səlahiyyətlərinin bölüşdürülməsi və işinin təşkil edilməsi, digər dövlət və ictimai sistemaltıların fəaliyyət göstərilməsi qaydası vasitəsi ilə açıqlanır.

Mübahisə-mühafizəedici funksiya - ictimai münasibətlərin iştirakçıları arasındakı hüquqi mübahisələrin həll edilməsi ilə baxılması qaydasının müəyyən edilməsi və cəmiyyəti müxtəlif hüquq pozmalarından mühafizə edilməsi ilə bağlıdır. Lakin, bütün funksiyaları təşkilati və mühafizəedici fəaliyyətlə eyniləşdirmək olmaz. Çünki belə halda bir çox digər funksiyalar diqqət mərkəzindən kənarda qalır. Onlar da dövlət idarəetmə sistemində böyük əhəmiyyət kəsb edir və əsas istiqamət kimi onların vasitəsi ilə inzibati-hüquqi nizamasalma mexanizmini xarakterizə etmək olur.

Hüquq sisteminin sahələrindən biri olan inzibati hüquq da inzibati-hüquqi nizamasalmanın tələbatlarına müvafiq olaraq göstərilən funksiyalara əsaslanaraq öz funksiyalarını həyata keçirir.

İnzibati hüququn aşağıdakı kimi funksiyaları mövcuddur ki, onlarda hüququn funksiyaları öz əkslərini və məzmununu kifayət qədər müxtəlif formalarda tapmış olur:

1. hüquqicraetmə funksiyası - inzibati huquq icra hakimiyyətinin realizəsinin hüquqi forması kimi müəyyən edir.
2. hüquqyaratma funksiyası - icra hakimiyyəti subyektlərinin inzibati normayaradıcılığı üzrə səlahiyyətlərə malik olmalarını əks etdirir.
3. təşkiletmə funksiyası - öz başlanğıcını dövlət idarəçilik fəaliyyətinin təşkilatçılıq xarakterindən götürür və daimən inzibati hüquq normalar vasitəsi ilə təmin edilir.
4. əlaqələndirmə funksiyası - dövlət idarəetmə sisteminin inzibati hüquqla nizama salınan bütün elementlərin qarşılıqlı fəaliyyətlərini (hərəkətlərini) məqsədəuyğun və effektivli təmin edilməsi məqsədinə xidmət edir.

5. hüquqmühafizəetmə funksiyası - həm dövlət idarəetmə sahəsində müəyyən edilmiş hüquqi recimlərə riayət edilməsini təmin edir, həm də nizamasalınan idarəçilik münasibətlərinin bütün iştirakçlıranın qanuni maraq və hüquqlarını qoruyur.

İkinci sualı yekunlaşdıraraq qeyd etmək istərdim ki:

1. İnzibati hüquq - hüquq sisteminin digər sahələri kimi bir-biri ilə sıx bağlı olan ayrı-ayrı inzibati hüquq normalarından və institutlarından ibarət olan sistemə malikdir.

2 İnzibati hüququn sistemi üç hissədən ibarətdir:

- birinci hissə, burada elə inzibati hüquqi normalar cəmlənib ki, onlar dövlət idarəetməsinin ümumi məsələlərini məyyən edib və nizamlayırlar (məsələn, dövlət idaretməsinin prinsiplərini, dövlət idarəetməsində vətəndaşların inzibati-hüquqi statuslarını; icra hakimiyyəti orqanların yaradılması və onların fəaliyyəti; dövlət qulluğunu və dövlət qulluqçuların inzibati-hüquqi statuslarını; dövlət idarəetməsinin forma və metodlarını; dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsullarını və s.);
- ikinci hissə, burada dövlət idarəetməsinin ayrı-ayrı sahələrində və sahələrarası idarəetmədə fəaliyyəti nizamlayan normalar cəmləşib (məsələn, daxili işlər, milli təhlükəsizlik, gömrük, təhsil, mədəniyyət, standartlaşdırma, maliyyə, vergi və s. sahələrdə dövlət idarəetməsini nizamlayan normalar);
- üçüncü hissə, burada icra hakimiyyəti orqanların və onların vəzifəli şəxslərin inzibati yurisdiksiya fəaliyyəti nizamlayan normalar cəmləşib. Bu normalar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində göstəriliblər.

4. İnzibati hüququn prinsipləri dedikdə, inzibati hüququn mahiyyətini əks etdirən əsas idelayalar, tələblər, müddəalar başa düşülür.

İnzibati hüququn iki qrup prinsipləri mövcuddur:

➢ Konstitusion prinsiplər, Azərbaycan Respublikasının Konstitusiyasında göstərilən prinsiplər:

- qanunçuluq;
- demokratizm;
- humanizm;
- vətəndaşların qanun qarşısında bərabərlik prinsipi;
- dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyət prinsipi;
- insan və vətəndaş huquqlarına və azadlıqlarına hörmət edilməsi prnsipini;
- təqsirsizlik prezumpsiyası;
- ədalətlilik və s.

➢ Xüsusi prinsiplər o prinsiplər sayılır ki, onlar inzibati hüququn çərçivəsində hazırlanıb və istifadə edilirlər. Məsələn:

- dövlət qulluğu prinsipləri;
- inzibati məsuliyyət prinsipləri;
- inzibati xətalar haqqında işlərin icraatı prinsipləri və s.

3. İnzibati hüquq öz nizamlayıcı təsirdə üç metoddan istifadə edir:

- qadağan etmə;
- sərəncam vermə (əmr etmə);
- icazə vermə.

4. İnzibati hüququn aşağıdakı funksiyaları mövcuddur:

- hüquqicraetmə;
- hüquqyaratma;

- təşkil etmə;
- əlaqələndirmə;
- hüquqmühafizəetmə.

Sual 3.
İnzibati hüququn mənbələri anlayışı və onların növləri

Hüquq normalarının xarici ifadə formaları vardır. Çünki onlar elə tərtib olunmalıdırlar ki, onların ünvanlandıqları insanlar onlarla tanış ola bilsinlər.

Hüquq normaları dövlət orqanlarının aktlarında maddə, bənd, paraqraf və s. formalarını özündə əks etdirirsə, onda həmin aktlar öz xarici ifadə formaları ilə hüququn mənbələrinə çevrilirlər.

İnzibati hüququn mənbələri dedikdə - inzibati-hüquqi normaların xarici ifadə formaları başa düşülür. İnzibati hüququn normaları öz xarakterlərinə və əhəmiyyətlərinə görə müxtəlif hüquqi aktlarla ifadə olunurlar. İnzibati hüquq normlarını özlərində əks etdirən dövlət orqanlarının aktları - inzibati hüquq normalarının mənbələri hesab edilirlər.

İnzibati hüquq sahəsi üçün hüquq normaları mənbələrinin çoxluğunun mövcud olması daha xarakterikdir. Bu inzibati hüququn predmetini təşkil edən geniş dairəli idarəetmə münasibətlərinin mövcudluğu ilə izah olunur. Belə mürəkkəb sahənin inzibati-hüquqi nizama salınması, yəni idarə olunması çox saylı qanunların və qanunqüvvəli normativ aktların mövcudluğunu tələb edir. Bununla yanaşı, inzibati hüquq normaları təkcə inzibati-hüquqi aktlarda deyil, hüququn müxtəlif sahələrinin normativ aktlarında da öz əkslərini tapırlar. Bir çox qanunlar və digər hüquqi aktlar eyni vaxtda özlərində konstitusiya hüququ normalarını, maliyyə hüququ normalarını, mülki hüquq normalarını və hüquq sahəsinin digər normalarını, o cümlədən də inzibati hüquq normlarını əks etdirirlər.

İnzibati hüququn mənbələrinə aşağıdakı normativ-hüquqi aktlar aiddirlər:

1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il.

Azərbaycan Respublikasının Konsitusiyasında öz əksini tapan ümumi normaların çoxu öz məzmunlarına görə birbaşa inzibati-hüquqi məzmuna malikdirlər. Konsitusiyada öz əksini tapmış belə ümumi normalara Azərbaycan Respublikasında icra hakimiyyətinin təşkili və həyata keçirilməsi ilə bağlı olan aşağıdakı kimi normaları misal olaraq göstərmək olar:

❖ icra hakimiyyətinin və onun orqanlarının təşkil edilməsinin və fəaliyyətlərinin əsaslarını müəyyən edən normalar. Bu normalar Konstitusiyanın 99, 109, 113-120, 124 və s. maddələrində göstərilmişdirlər;

❖ dövlət idarəetmə sahəsində vətəndaşların hüquq və azadlıqlarının əsaslarını möhkəmləndirən normalar. Bu normalar Konstitusiyanın 54-55-ci maddələrində göstərilmişdirlər;

❖ dövlət idarəetmə sahəsində vətəndaşların vəzifələrini müəyyən edən normalar. Bu normalar Konstitusiyanın 72-80-ci maddələrində göstərilmişdirlər.

2. İnzibati hüquq normaları qanunvericilik aktlarında öz əkslərini tapırlar.

Qanunvericilik aktları içərisində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilən qanunlar və qararlar daha böyük əhəmiyyətə malikdirlər. Belə qanunlara misal olaraq 28 oktyabr 1999-cu il tarixli ″Polis haqqında″; 04.02.1992-ci il tarixli ″Fövqəladə vəziyyət haqqında″; 06.01.1994-cü il tarixli ″Hərbi vəziyyət haqqında″, 1996-cı il tarixli

″Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında″ Azərbaycan Respublikasının Qanunlarını və s. Qanunları göstərmək olar.

3. Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi normativ-hüquqi aktlar inzibati hüququn mənbələri hesab edilirlər.

Azərbaycan Respublikası Konsitusiyasının 113-cü maddəsinə əsasən: ″I Ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Prezidenti fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir...″.

İnzibati hüququn mənbələri kimi qəbul edilən Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi fərmanlara misal olaraq aşağıdakıları göstərmək olar:

❖ ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ 09 avqust 1994-cü il;

❖ ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ 22 fevral 1998-ci il;

❖ ″Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında″ 29 avqust 2000-ci il və s.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktları da inzibati hüququn mənbələri sırasına daxildirlər.

Azərbaycan Respublikasının Konstitusiyasının 120-ci maddəsinə əsasən: ″I Ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir...″.

İnzibati hüququn mənbələri kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi qərarlara misal olaraq aşağıdakıları göstərmək olar:

❖ ″Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üzrə Respublika komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə″ 19 fevral 1993-cü il tarixli 110 nömrəli qərarı ilə təsdiq edilmişdir;

❖ ″Azərbaycanlı gənclərin təhsil almaq üçün xarici ölkələrə göndərilməsi və xarici ölkə vətəndaşlarının Azərbaycanın tədris müəssisələrində təhsil almaları barədə Əsasnamənin təsdiqi haqqında″ 12 dekabr 1992-ci il tarixli 662 nömrəli qərarı ilə təsdiq edilmişdir.

5. Azərbaycan Respublikasının komitə, xidmət, nazirliklərin, dövlət komitələrin normativ aktları sahələrarası və sahəvi miqyasda inzibati hüququn mənbəyi qismində xidmət edirlər.

6. Yerli icra hakimiyyəti başçılarının qərarları və sərəncamları da inzibati hüququn mənbəsi hesab edilirlər.

7. Dövlətlərarası müqavilələrdə də inzibati hüquq normaları öz əkslərini tapa bilərlər. Belə hallarda həmin müqavilələr inzibati hüququn mənbəsi qismində çıxış edirlər.

8. Nəhayət, təşkilatdaxili xarakterli inzibati hüququn mənbəsi sırasına idarə, müəssisə, təşkilat, konsern, birliklərin rəhbərlərinin normativ aktlarını da daxil etmək olar.

Normativ-hüquqi aktlar dövlətin müxtəlif hüquqyaratma orqanları tərəfindən qəbul edilirlər. Onlar eyni hüquqi qüvvəyə malik deyil, zaman baxımından üst-üstə düşmür, müxtəlif obyektlərə və müxtəlif ərazi məkanına şamil edilir. Təbii ki, zaman keçdikdə onların arasında ziddiyyətlər meydana gəlir. Normativ materialların sayının artması ondan

istifadəni çətinləşdirir. Belə mürəkkəb vəziyyətdən çıxış yolu qanunvericiliyin sistemləşdirilməsidir.

Qanunvericiliyin sistemləşdirilməsi hüquq qaydasının sabitləşdirilməsi, normativ-hüquqi nizama salmanın ictimai həyatın normal axınını təmin edən alətə çevrilməsi, dövlət idarəetməsinin cəmiyyətin marağına daha səmərəli uyğun təşkili məqsədlərini güdür.

Normativ-hüquqi aktların (qanunvericiliyin) sistemləşdirilməsi - hüquq normalarının qaydaya salınmasına və təkmilləşdirilməsinə yönələn fəaliyyətdir.

Sistemləşdirmə nəticəsində hüquq normaları arasındakı ziddiyyətlər aradan qaldırılır, köhnəlmiş normalar ləğv edilir və ya dəyişdirilir, ictimai inkişafın tələblərinə cavab verən yeni, daha təkmil normalar yaradılır. Onlar müəyyən sistem əlamətlərinə görə qruplaşdırılır. Məcəllələrdə, qanunvercilik toplularında və başqa sistemləşdirilmiş aktlarda toplanırlar.

İndiki zamanda normativ-hüquqi aktların sistemləşdirilməsinin üç əsas formasından istifadə olunur:

- ❖ məcəllələşdirmə;
- ❖ inkorporasiya;
- ❖ konsolidasiya.

Məcəllələşdirmə - mövcud qanunvericiliyin dərindən və hərtərəfli yenidən işlənməsi və ona yeni, əhəmiyyətli dəyişikliklərin edilməsi yolu ilə yeni sistemləşdirilmiş normativ-hüquqi aktın yaradılması üzrə dövlətin hüquqyaratma orqanlarının fəaliyyətidir.

Məcəllələşdirmə aktları öz məzmun və adlarına görə aşağıdakı üç əsas növə bölünürlər:

- ❖ əsaslar;
- ❖ məcəllə;
- ❖ nizamnamə, əsasnamə.

Əsaslar - müəyyən hüquq sahəsinin və ya dövlət idarə sahəsinin mühüm müddəalarını (əsas başlanğıclarını) müəyən edən normativ-hüquqi aktdır.

Məcəllə - ictimai həyatın hüquqi nizamlanma tələb edən əsas sahələrində qüvvədə olan məcəllələşdirmə aktlarının ən geniş yayılmış növüdür. Məsələn: Mülki Məcəllə, Cinayət Məcəlləsi, Gömrük Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və s.

Nizamnamə, əsasnamə - bunlar təkcə qanunverici orqanlar tərəfindən deyil, həm də digər hüquqyaratma orqanları (məsələn: prezident və ya hökumət) tərəfindən qəbul edilən xüsusi məcəllələşdirmə aktlarıdır. Məsələn: Polis Akademiyasının Nizamnaməsi; Daxili işlər orqanlarının İntizam Nizamnaməsi.

İnkorporasiya - qüvvədə olan normativ-hüquqi aktların məzmununu dəyişdirmədən müəyyən qaydada toplularda və ya külliyyatda birləşdirilməsidir.

İnkorporasiyanı hüquq normasını ləğv etməyə, dəyişdirməyə və ya yeni norma müəyyən etməyə səlahiyyətli olmayan sistemləşdirici orqan (məsələn: ədliyyə nazirliyi) aparır. O, yalnız hüquqyaratma orqanının etdiyi dəyişiklik və əlavələri topluda əks etdirir.

İnkorporasiya rəsmi və qeyri-rəsmi formada olur.

Rəsmi inkorporasiya - hüquq normalarının səlahiyyətli orqanlar tərəfindən qüvvədə olan normativ-hüquqi aktların məcmuəsinin nəşri yolu ilə qaydaya salınmasıdır. Bu orqanlar tərəfindən nəşr edilən qanunvericilik topluları rəsmi xarakter daşıyır.

Rəsmi inkorporasiyanın iki növü mövcuddur:

- ❖ xronoloci inkorporasiya;
- ❖ predmet üzrə (sistematik) inkorporasiya.

Xronoloci inkorporasiya - elə bir sistemləşdirmə formasıdır ki, bu zaman normativ-hüquqi aktların qaydaya salınması onların dərc olunduğu və qüvvəyə mindiyi vaxta görə aparılır.

Sistematik inkorporasiya - qüvvədə olan normativ-hüquqi aktların predmet əlaməti üzrə, yəni hüquq sahələrinə, institutlarına, dövlət fəaliyyətinin sahələrinə görə qaydaya salınmasıdır.

Qeyri-rəsmi inkorporasiya - xüsusi hüquqyaratma səlahiyyətlri olmayan təşkilatlar və ayrı-ayrı vətəndaşlar tərəfindən (təhsil müəssisləri, idarələri, alimlər və praktiki işçilər) qanunvericiliyin zahiri işlənməsidir.

Konsolidasiya - sistemləşdirmənin elə formasıdır ki, bu zaman ictimai münasibətlərin eyni sahəsində fəaliyyət göstərən bir neçə normativ-hüquqi aktın onların məzmunu dəyişilmədən vahid normativ-hüquqi aktda birləşməsi baş verir.

Konsolidasiyanın xüsusiyyəti onun məcəlləşdirmə və inkorporasiyanın bəzi cəhətlərini özündə əks etdirir. Konsolidasiya aktı toplu xarakterli normativ-hüquqi aktdır və bu cəhətdən o, məcəlləşdirməyə yaxındır.

Normativ-hüquqi aktların sistemləşdirilməsi qaydası əsas götürülərək, inzibati hüquq normalarının da sistemləşdirilməsi həyata keçirilir.

Beləliklə, Azərbaycan Respublikasında hüquqi dövlətçiliyin möhkəm əsaslarının yaradılması prosesində mühüm vəzifələrin həll edilməsi ilə bağlı olan inzibati hüququn sistemləşdirilməsi və məcəlləşdirilməsinin perspektivli işlərinin görülməsi əsas vəzifələrdən biridir.

Üçüncü sualın açıqlanmasını yekunlaşdıraraq bir daha qeyd etmək istərdim:

1. İnzibati hüququn mənbələri dedikdə - inzibati-hüquqi normaların xarici ifadə formaları başa düşülür.

2. İnzibati-hüququn aşağıdakı kimi mənbələri mövcuddur:

- Azərbaycan Respublikasının Konstitusiyası;
- Azərbaycan Respublikasının Qanunları;
- Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilən normativ-hüquqi aktlar;
- Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilən normativ-hüquqi aktlar;
- Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qəbul edilən normativ-hüquqi aktlar;
- Yerli icra hakimiyyəti başçılarının qərarları və sərəncamları;
- Beynəlxalq müqavilələr, əgər onlarda inzibati-hüquqi normalar mövcuddurlarsa;
- İdarə, müəssisə və təşkilat daxili xarakterli normativ-hüquqi aktlar.

3. Normativ-hüquqi aktların (qanunvericiliyin) sistemləşdirilməsi - hüquq normaların qaydaya salınmasına və təkmilləşdirilməsinə yönələn fəaliyyətdir.

Normativ-hüquqi aktların sistemləşdirilməsinin üç əsas forması mövcuddur:

- məcəllələşdirmə;
- inkorporasiya;
- konsolidasiya.

Sual 4.

İnzibati hüquq elminin predmeti, sistemi, vəzifələri və onun inkişafı

İnzibati hüquq elmi hüquq elmləri sisteminin sahələrindən biridir. İnzibati hüquq elmi - hüquq elmləri sisteminin sahələrindən biri kimi müxtəlif subyektlərin hərəkətlərini nizama saldığı halda, inzibati-hüquqi normaları öyrənir, təhlil edir, sistemləşdirir, onların dövlət idarəetmə sistemində rolunu müəyyən edir. Bu sahədəki elmi tədqiqlərin yekunları öz əksini inzibati-hüquqi normalarda yox, elmi nəticələrdə, təsnifatlarda, şərhlərdə, fikirlərdə tapır. Elmi nailiyyətlərin realizə formaları isə elmi məruzələrdən, məqalələrdən, kitablardan ibarətdir.

İnzibati hüquq elminin məzmunu - inzibati hüquq sahəsi və onun predmetinin nizama salınması haqqında elmi baxışların və anlayışların, biliklərin və nəzəri əsasların sistemindən ibarətdir.

İnzibati hüquq elminin predmeti - dövlət idarəetmə (icra, icraedici - sərəncamverici, inzibati fəaliyyət), sahəsində yaranan ictimai münasibətlərin və həmin münasibətləri nizama salan inzibati-hüquq normaların tədqiq edilməsindən, inzibati-hüquqi normaların realizəsi təcrübəsinin təhlil edilməsindən, ictimai münasibətlərin inzibati-hüquqi nizamlanmasının ümumi və səciyyəvi qanunauyğunluqların öyrənilməsindən ibarətdir.

İnzibati hüquq elmi əsasən aşağıdakı əsas müddəaları tədqiq edir:

- dövlət idarəetmə sahəsində vətəndaşların (fiziki şəxslərin) hüquqi vəziyyətini;
- dövlət idarəetmə orqanlarının hüquqi vəziyyətini;
- dövlət idarəetmə sahəsində qeyri-hökumət təşkilatların hüquqi vəziyyətini;
- dövlət və ictimai qulluqçuların inzibati-hüquqi statusunu;
- dövlət idarəetməsinin forma və metodlarını;
- dövlət idarəetmə sahəsində qanunçuluğun və intizamın təmin edilməsi üsullarını;
- inzibati prosesi;
- ümumi, sahəvi və ərazilərarası idarəetməni nizama salmasını;
- inzibati-yurisdiksiya fəaliyyətini.

Elmi tədqiqlərin nəticələri idarəetmənin bütün sahələrində inzibati-hüquqi nizamasalmanın effektivliyinin yüksəldilməsinə və inzibati-hüquqi normaların tətbiq edilməsi təcrübəsinin təkmilləşdirlməsinə istiqamətləndirilmiş tövsiyələrin və fikirlərin işlənib hazırlanmasından ibarətdir. İnzibati hüquq elmi istifadə etdiyi elmi anlayışların və kateqoriyaların işlənib hazırlanmasına xidmət edir. Bütün bu prosesdə inzibati hüquq elmi dövlət idarəetmə mexanizminin və inzibati-hüquqi nizamasalmanın daha təkmilləşdirilməsinə və inkişafına fəal təsir göstərir. Bununla da inzibati hüquq elmi cəmiyyətin və dövlətin qarşısında duran vəzifələrin yerinə yetirilməsində öz xidmətini göstərir.

İnzibati hüquq elminin nəzəri əsaslarını - fəlsəfi və ümumsosioloci elmlər, sosial idarəetmə nəzəriyyəsinin, ümumhüquq nəzəriyyəsi və sosiologiyanın əsasları təşkil edir. İnzibati hüquq sahəsində elmi tədqiqlər üçün dövlətin icraedici fəaliyyətinin təşkili və təkmilləşdirilməsi, bu fəaliyyətin hüquqi cəhətdən təmin edilməsi məsələləri üzrə qərarlar böyük əhəmiyyət kəsb edir.

İnzibati hüququn problemlərinin elmi tədqiqi üçün qüvvədə olan qanunvericilik böyük əhəmiyyət kəsb edir. Bunlara aşağıdakı kimi normativ-hüquqi aktları aid etmək olar:

- Azərbaycan Respublikasının Konsitusiyasını;
- Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını;

- Referendum yolu ilə qəbul olunmuş qanunları;
- Azərbaycan Respublikasının qanunlarını;
- Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları;
- yerli tapmış icra hakimiyyətinin aktları.

İnzibati-hüquqi tədqiqlərin nəzəri əsasını respublikamızın və xarici ölkələrin hüquqşünaslarının elmi əsərləri, məqalələri və mühazirələri təşkil edir.

İnzibati hüququn nəzəri problemlərini həll etmək üçün dövlət idarəetmə orqanların təşkili və fəaliyyəti idarəetmənin sisteminin və strukturunun təkmilləşdirilməsi üzrə tədbirlərin, inzibati hüquqtətbiqetmə təcrübəsinin və s. öyrənilməsi xüsusən əsas əhəmiyyət kəsb edir.

İnzibati hüquq elminin metodoloci əsaslarını elmi tədqiqlərin tarixi, müqayisəli-hüquqi, məntiqi və sosioloci üsullar təşkil edir.

İNZIBATI HÜQUQ ELMININ VƏZIFƏLƏRI

İnzibati hüquq elminin əsas vəzifələri aşağıdakılardır:

- inzibati hüquqi normaları, onlara müvafiq ictimai münasibətləri, onların keyfiyyətlərini, sosial proseslərə təsir göstərmələrini və onların realizəsinin xüsusiyyətlərinin öyrənilməsi və aşkar edilməsi;
- inzibati-hüquqi təzahürlərin elmi tədqiqi, onların dinamikası, keçmişin öyrənilməsini və onların inkişaf proseslərinin aşkar edilməsi;
- inzibati hüquq elminin əsas vəzifələrindən biri də gələcəyə nəzər salmaqdır, yəni dövlət aparatının strukturunun və inzibati-hüquqi nizamasalma sisteminin təkmilləşdirilməsi üzrə tövsiyyələrin hazırlanmasından ibarətdir. Bu günkü gündə vətəndaşların hüquqlarının realizəsi və qorunması, bazar münasibətlərinin inzibati-hüquqi tənzimlənməsi və sair problemlərin həll edilməsi üzrə tövsiyələrin işlənib hazırlanması;
- inzibati hüquq elmi inzibati-hüquqi təzahürlərlə bağlı olan daha əhəmiyyətli əlamətləri, onların fəaliyyət prinsiplərini aşkar etməyə xidmət edir.

İNZIBATI HÜQUQ ELMININ FUNKSIYALARI

İnzibati hüquq elminin funksiyaları aşağıdakılardır:

- nəzəri funksiya;
- tətbiqi funksiya;
- tərbiyəvi funksiya.

Nəzəri funksiyanın məzmunu - hüquq elmlərinin və sosial idarəetmənin ümumi nəzəriyyəsinin inkişaf etməsinə köməklik göstərməkdən ibarətdir.

Tətbiqi funksiyanın məzmunu - dövlət aparatının fəaliyyətinin hüquqi nizama salınmasının təkmilləşdirilməsi üzrə tövsiyyələrin hazırlanmasından, inzibati-hüquqi təzahürlərin öyrənilməsi üçün lazımi şəraitin yaradılmasından (dərsliklərin, monoqrafiyaların, məqalələrin, mühazirələrin və s.) hazırlanmasından) və hüquqi biliklərin təbliğ edilməsindən ibarətdir.

Tərbiyəvi funksiyanın məzmunu - sosial proseslərin dövlət idarə edilməsinin, inzibati-hüquqi normların realizəsinin zəruriliyinin və onların realizəsinin pozulmasına qarşı dözülməzliyindən, vətəndaşlar və qulluqçular tərəfindən başa düşülməsindən və bunun üçün onlarda lazımi vərdişlərin, yanaşmaların, davranış prinsiplərinin inkişaf etdirilməsinə köməklik göstərməkdən ibarətdir.

İNZIBATI HÜQUQ ELMININ SISTEMI

İnzibati hüquq elmi - elm sahəsi kimi öz sisteminə malikdir. İnzibati-hüquq elmin sistemini təşkil edən hissələrin məcmusu da onun məzmununu təşkil edir. İnzibati hüquq elminin sistemi inzibati-hüquqi institutlar arasındakı daxili əlaqələr əsasında təşkil edilir. Lakin inzibati hüquq elminin sistemi inzibati hüququn sistemi ilə üst-üstə düşmür. İnzibati hüququn sistemi ilə müqayisədə inzibati hüquq elminin sistemi daha geniş suallar dairəsini əhatə edir. Bu, onunla izah olunur ki, inzibati hüquq elmi təkcə inzibati-hüquq normalarını tədqiq etmir, o, həm də digər nəzəri problemləri də tədqiq edir.

Ali hüquq tədris müəssisələrində öyrənilən ″inzibati hüquq elmi″ və ″elmi kurs″un sistemi - ″inzibati hüququn″ və ″inzibati hüquq elminin″ sistemlərini nəzərə alaraq təşkil edilir. Bununla yanaşı ″inzibati hüquq kursunun sistemi″ özünəməxsus xüsusiyyətlərə də malikdir. Bu, onunla bağlıdır ki, bu kursun sistemi təşkil edilərkən tədris materialları elə yerləşdirilməlidir ki, onu müvəffəqiyyətlə mənimsənilməsinə yardım etsin. Kursun sistemi təşkil edilərkən çox vaxt onun tədris edildiyi ali tədris müəssisəsinin ixtisası nəzərə alınır.

<u>″İnzibati hüquq″un kursu əsasən üç hissədən ibarətdir.</u>

İnzibati-hüquqi nizamasalma predmetinə, nizama salma mexanizminə, fiziki, hüquqi və vəzifəli şəxslərin inzibati-hüquqi statusuna və başqa suallarla birlikdə kursun birinci (ümumi) hissəsini təşkil edirlər.

İdarəetmənin sahələrində və bölmələrində ictimai münasibətlərin, inzibati-hüquqi nizama salınmasına aid olan suallar kursunun ikinci (xüsusi) hissəsini təşkil edirlər.

İnzibati-yurisdiksiya fəaliyyətinə aid olan suallar kursun üçüncü hissəsini təşkil edirlər.

″İnzibati hüquq kursu″n sistemini təşkil edən hər bir hissə öz daxili strukturuna malikdir.

İnzibati hüquq elmi - elmin digər sahələri ilə bağlıdır. İnzibati hüquq elmi daha çox idarəetmə elmi ilə bağlıdır. İdarəetmə elmi sosial idarəetmə sahəsində təşkilati və digər münasibətləri tədqiq edir, daha effektivli idarəetmə forma və metodlarını işləyib hazırlayır. İdarəetmə elmi kompleks xarakteri daşıyır və onda ictimai elmlərin, kibernetikanın, sosial psixologiyanın, hüquqi və digər elmlərin əsasları öz əkslərini tapırlar. İdarəetmə elminin nəzəri əsasları inzibati hüquq nəzəriyyəsinin metodoloci əsası kimi xidmət edir. Bununla yanaşı idarəetmə elmi inzibati hüquq elminin bir çox əsaslarından istifadə edir.

İnzibati hüquq elmi hüquq elminin bir çox sahələri ilə də bağlıdır: dövlət və hüquq nəzəriyyəsi, dövlət və hüquq tarixi, konstitusiya hüququ və s. hüquq sahələri üçün başlanğıc, ümumi kimi hesab edilən nəzəri əsaslar öz əkslərini tapdığı üçün onların öyrənilməsi inzibati hüquq elmi üçün də zəruri hesab edilir.

İnzibati hüquq elmi bəzi qarışıq məsələlərin həll edilməsi üzrə hüquq elminin digər sahələri ilə də, yəni mülki hüquq, maliyyə hüququ, cinayət hüququ, cinayət-prosessual hüququ, mülki-prosessual hüquq, əmək hüququ və s. hüquq sahələri ilə də qarşılıqlı surətdə bağlıdır.

İNZIBATI HÜQUQ ELMININ INKIŞAFI

İnzibati hüquq elmi hüquq elmi bir çox inkişaf mərhələlərindən keçmişdir.

Azərbaycan Respublikası keçmiş Sovetlər İttifaqının tərkibində olduğu müddətdə, yəni 70 il müddətində ″İnzibati hüquq″un inkişafı Sovet İttifaqı mərhələsini keçmiş və onun

bu mərhələdəki inkişafını birmənalı qiymətləndirmək olmaz. ″İnzibati hüquq″un bu mərhələdəki inkişafını bir tərəfdən marksizm-leninizm ideologiyasının, kommunist partiyası ideologiyasının aparıcısı kimi qiymətləndirmək olar. Digər tərəfdən isə, Sovetlər İttifaqı dövrünün ″inzibatçı″larının ümumi səyi ilə dövlət idarəetmə aparatlarının təşkili və fəaliyyət göstərmələrinin bir çox aspektləri, inzibati-hüquqi nizamasalmanın mexanizmi işlənib hazırlanmışdır. İnzibati prosesin, inzibati aktların, inzibati yurisdiksiyanın nəzəri əsasları işlənib hazırlanmışdır.

″İnzibati hüquq elmi″nin müasir dövrünün inkişafı keçmiş Sovetlər İttifaqının dağılması və Sovetlər İttifaqına daxil olan Respublikaların, o cümlədən də Azərbaycan Respublikasının müstəqillik qazandığı dövrdən başladı. Bu dövrdə ″İnzibati hüquq″ elmi öz inkişafının növbəti mərhələsini keçir. Digər tərəfdən isə bu dövrdə inzibati hüquq elminin inkişafının qarşısında bir çox aktual sualların həlli ilə bağlı olan yeni elmi tədqiqatların aparılması problemi durur. Ən nəhayət, müasir dövrldə ″İnzibati hüquq″ elminin ikişafının qarşısında inzibati-hüquqi nizamasalma mexanizminin təkmilləşdirilməsi, idarəetmə sisteminin yaxşılaşdırılması, inzibati qanunvericiliyin təzələnməsi, hüquqtətbiqetmənin effektivliyinin yüksəldilməsi, qanunçuluğun, hüquq qaydasının və intizamın möhkəmləndirilməsi və s. kimi vəzifələr durur.

N Ə T İ C Ə

Mühazirəmizi yekunlaşdıraraq qeyd etmək istərdim ki, bu günkü mühazirəmizin mövzusunun planına daxil edilmiş sualların açıqlanması vasitəsi ilə əldə etdiyimiz hüquqi biliklər həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir.

Bugünkü mühazirəmizin mövzusunun açıqlanması vasitəsi ilə birinci növbədə inzibati hüququn anlayışı və predmeti barədə nəzəri biliklər əldə etmiş olduq.

Mühazirəmizin ikinci sualının açıqlanması vasitəsi ilə inzibati hüququn sistemi, prinsipləri, metodları və funksiyaları barədə nəzəri biliklər ələd etmiş olduq.

Mühazirəmizin üçüncü sualının açıqlanması vasitəsilə inzibati hüququn mənbələrinin anlayışı və onların növləri barədə nəzəri biliklər əldə etmiş olduq.

Ən nəhayət, mühazirəmizin dördüncü sualının açıqlanması vasitəsi ilə inzibati hüquq elminin predmeti, sistemi, vəzifələri və onun inkişafı barədə nəzəri biliklər əldə etmiş olduq.

Mühazirəmizi yekunlaşdıraraq qeyd etmək istərdim ki, mühazirəmizin mövzusunun mahiyyəti ondan ibarətdir ki, ″İnzibati hüquq″ fənni vasitəsi ilə dövlət hakimiyyətinin nisbətən müstəqil qollarından biri olan icra hakimiyyətinin təşkili, onun həyata keçirilməsi prosesində yaranan, dəyişən və xitam olunan ictimai münasibətlər öyrənilir.

Bu günkü mühazirəmizin mövzusunun açıqlanması vasitəsi ilə əldə etdiyimiz hüquqi biliklərin həm nəzəri, həm də təcrübi cəhətdən əhəmiyyəti ondan ibarətdir ki, onların əldə edilməsi və gündəlik fəaliyyətdə onların rəhbər tutulması ilə Azərbaycan Respublikası Prezidentinin 09 avqust 1994-cü il tarixli ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi tədbirləri haqqında″ və 22 fevral 1998-ci il tarixli ″İnsan və vətəndaş hüuqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Fərmanlarından irəli gələn tələblərin yerinə yetirilməsinə nail olmuş olarıq.

Mövzu № 3: ″İnzibati- hüquqi normaları″

P L A N :

GİRİŞ

1. İnzibati hüquq normaların anlayışı və quruluşu.
2. İnzibati hüquq normaların növləri və onların xarakteristikası.
3. İnzibati hüquq normaların həyata keçirilməsi formaları (üsulları) və onların xarakteristikası.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
3. ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
4. ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 09 avqust 1994-cü il.
5. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
6. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
7. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
8. ″İnzibati hüquq″(sxemlərdə). Dərs vəsaiti. Azərbaycan Respublikası DİN-nin Polis Akademiyası. Bakı, 2002.
9. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
10. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra Beynəlxalq Dövlətlər Birliyinin tam hüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir.

Məlum olduğu kimi hüquqi islahatların, demokratikləşmə, humanistləşmə proseslərinin və ümumiyyətlə, hər bir dünyəvi, sivil dövlətin ali məqsədi – insan hüquqlarının və azadlıqlarının təmin edilməsidir.

İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin ideologiya və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyəti birləşdirən və onları insaniləşdirən ən əsas meyardır. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir.

Son illərdə Azərbaycan dövlətinin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda inamla addımlaması, 2001-ci ilin yanvarında Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul olması və Avropa hüquq zonası ilə birləşməsi Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının təmin edilməsinə tam zəmanət yaratmışdır.

12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş ilk milli Konstitusiyamızın 24-27-ci maddələri ilə müəyyən edilmiş insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsində inzibati-hüquqi normaların da rolu az deyildir. Bu nöqteyi-nəzərdən mühazirənin mövzusu olan ″İnzibati-hüquqi normalar″ həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyəti vardır.

Mövzunun mahiyyəti ondan ibarətdir ki, planına daxil edilmiş sualların açıqlanması vasitəsi ilə birinci növbədə inzibati hüquq norması, onun quruluşunu təşkil edən elementlər və onların növləri, ikinci növbədə inzibati-hüquqi normaların növləri və onların hüquqi xarakteristikası və üçüncü növbədə isə inzibati hüquq normaların həyata keçirilməsi formaları və onların növləri barədə nəzəri bilikləri öyrənmiş olacağıq.

Sual 1.
İnzibati hüquq normaların anlayışı və quruluşu

İnzibati hüquq sahəsini təşkil edən hüquq normalarının təhlili nəticəsində bu hüquq sahəsinin mahiyyəti, onun sosial təyinatı və ictimai münasibətlərin inzibati-hüquqi tənzimlənməsinin özünəməxsusluğa malik olması ilə Azərbaycan Respublikasının hüquq sistemində onun yeri müəyyən olunur.

Hüquq norması öz hüquqi təyinatına görə müəyyən davranış qaydasıdır ki, ona əməl olunması müxtəlif növ təşkilati, izahedici və stimullaşdırıcı vasitələrlə təmin olunur. Ona riayət etməyənlərə qarşı isə hüquqi məcburetmə tədbirləri tətbiq olunur (intizam, inzibati və cinayət məsuliyyəti).

Belə keyfiyyətlər bütünlüklə inzibati hüquq normalara da aiddir.

Dövlət idarəetməsi və icra hakimiyyəti mexanizminin fəaliyyət göstərdiyi sahədə yaranan ictimai münasibətlərdən başqa, inzibati hüquq normaları dövlət hakimiyyəti, məhkəmə və prokurorluq orqanlarında dövlət qulluğu ilə əlaqədar yaranan münasibətləri, həmçinin də idarəetmə xarakterli təşkilatdaxili münasibətləri də tənzimləyir.

İnzibati hüquq normaları, həmçinin də ictimai təşkilatların ixtiyarına verilmiş dövlət idarəetmə funksiyalarının həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri də tənzimləyir.

İnzibati hüquq normaların qarşısında aşağıdakı vəzifələr durur:

1. dövlət idarəetmə sisteminin müxtəlif elementlərinin tənzimlənməsi;

2. idarəedən və idarəolunan sistemlər arasında yaranan daha məqsədəuyğun və elmi cəhətdən əsaslandırılmış qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi;

3. idarəetmənin müxtəlif sahələrində dövlət orqanlarının idarə, müəssisə, təşkilat və vətəndaşlarla qarşılıqlı əlaqələrini və idarəetmənin müxtəlif sahələrində əlaqələrin tənzimlənməsi.

İnzibati hüquq sahəsinin normaları onun predmetini təşkil edən ictimai münasibətləri tənzimləyir.

Yuxarıda qeyd olunanlar inzibati hüquq normasına anlayış verməyə imkan verir.

İnzibati hüquq norması - dövlət idarəetməsi və icra hakimiyyəti mexanizminin fəaliyyəti sahəsində yaranan, dəyişən və xitam olunan ictimai münasibətləri tənzimləmə məqsədi ilə dövlət tərəfindən müəyyən edilmiş davranış qaydasıdır.

İnzibati hüquq norması digər hüquq sahələrinin normaları kimi öz quruluşuna malikdir.

İnzibati hüquq normasının quruluşu dedikdə, onu təşkil edən elementlərin vəhdəti, normanın daxili quruluşu, yəni normanın hansı elementlərdən ibarət olduğu və onların bir-birilə necə qarşılıqlı əlaqədə olduğu başa düşülür.

İnzibati hüquq norması üç elementdən - hipoteza, dispozisiya və sanksiyadan ibarətdir.

″Dövlət və hüquq nəzəriyyəsi″ nöqteyi-nəzərindən - hipoteza (ehtimal) - normada əks olunan qaydanı hansı şəraitdə rəhbər tutmağı göstərən hüquq normasının elementidir.

″Hipoteza″ - inzibati hüquq normasının quruluşunun bir elementi kimi o, özündə həmin normanın realizəsinin faktiki şərtlərini əks etdirir, yəni o, özündə bilavasitə təsir etdiyi ictimai münasibətləri əks etdirir və bu təsir də konkret hüquq münasibətini yaradır.

Deməli, inzibati hüquq normaların hipotezasında nəzərdə tutulan şərtlər inzibati hüquq münasibətləri yaradan, dəyişən və ləğv edən hüquqi faktlardır. Məsələn, Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 saylı qərarı ilə təsdiq edilmiş ″″Azərbaycan Respublikasının şəxsiyyət vəsiqəsi haqqında″ Azərbaycan Respublikasının Qanununun tətbiqi haqqında Əsasnamə″nin 2-ci bəndinə əsasən, ″...2. Azərbaycan Respublikasının hər bir vətəndaşı 16 yaşına çatdıqdan sonra... bir ay ərzində Qanunla müəyyən edilmiş qaydada şəxsiyyət vəsiqəsi almalıdır...″. Bununla yanaşı, Azərbaycan Respublikasının 14 iyun 1994-cü il tarixli ″Azərbaycan Respublikasının vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında″ Qanununun 1-ci maddəsində deyilir ki: ″...hər bir vətəndaş... şəxsiyyət vəsiqəsini möhkəm saxlamağa borcludur...″. Digər tərəfdən isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 331-ci maddəsinə əsasən, müvafiq polis orqanlarına səlahiyyət verilir ki, şəxsiyyət vəsiqəsini itirmiş şəxsi inzibati məsuliyyətə cəlb etsin. Bu halda vətəndaşın 16 yaşa çatması (hadisə) və şəxsiyyət vəsiqəsinin itirilməsi (hərəkət) hüquqi fakt kimi çıxış edir.

İnzibati hüquq normasının hipotezası ″mütləq-müəyyən″ ola bilər, yəni həmin normada qaydanı rəhbər tutmağa əsas verən faktın olmasını dəqiq göstərər. Məsələn, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 15-ci maddəsi müəyyən edir ki: ″15.1. İnzibati xəta törədərkən on altı yaşı tamam olmuş fiziki şəxslər inzibati məsuliyyətə cəlb olunurlar...″. Lakin hipoteza ″nisbi müəyyən″ də ola bilər, yəni o, vəziyyətin ümumi xarakteristikasını verir ki, bu və ya digər vəziyyət yarandıqda müəyyən qaydada hərəkət etmək lazımdır və ya müəyyən hərəkət etmək olar.

Hüquq ədəbiyyatında və eləcə də müxtəlif normativ-hüquqi aktlarda hipotezanın üç növü nəzərdə tutulub:

- ➢ sadə, yəni bir şərt (şərait) müəyyən edildikdə;
- ➢ mürəkkəb, yəni iki və daha çox şərt (şərait) müəyyən edildikdə;
- ➢ alternativ, yəni bu və ya digər hallardan asılı olaraq davranış qaydasını müəyyən edir.

″Dövlət və hüquq nəzəriyyəsi″ nöqteyi-nəzərindən dispozisiya (sərəncam) - hüquq normasının hipotezasında nəzərdə tutulmuş şərtlər olduqda davranışın necə ola biləcəyini və olmalı olduğunu əks etdirən elementdir.

Dispozisiya – inzibati hüquq normasının mərkəzi hissəsi olub, həmin hüquq norması tərəfindən tövsiyə edilən, icazə verilən və ya qadağan edilən davranış qaydasını göstərir.

İnzibatit hüquq normaların dispozisiyası göstəriş, vəzifə, həmçinin də qadağa və məhdudiyyət kimi şərh olunur. Eyni zamanda hüquq və vəzifə göstərən dispozisiyalar inzibati hüquq normalarda nisbətən az təsadüf edilir.

Dispozisiyanın nə cür şərh olunmasından asılı olmayaraq, o, həmişə hüquq və vəzifələrin qırılmazlığını, qarşılıqlı əlaqəsini nəzərdə tutur, subyektlərin özlərini necə aparmalı olduqlarını və apara biləcəklərini müəyyən edir.

Dispozisiyanın 4 növü nəzərdə tutulub:

➢ sadə, yəni davranışın bu və ya digər birmənalı variantını əks etdirən dispozisiya (məsələn: İXM, mad. 168 - ″İş görülərkən qaz (neft) kəmərlərinin zədələnməsi″; mad. 179 - ″Ümumi istifadəli avtomat telefonlarının zədələnməsi″);

➢ təsviri, yəni müxtəlif xarakteristikalarla, əlamətlərlə və anlayışlar sistemi ilə davranış qaydasını qısaca və dürüst ifadə edən dispozisiya başa düşülür (məs.: İXM mad. 296 - ″Xırda xuliqanlıq″; mad. 309 - ″Qumar oyunu″; mad. 301-1 - ″Fövqəladə vəziyyət recimi tələblərinin pozulması″);

➢ göndərici, bu halda davranış qaydasının özü həmin normada göstərilmir, istifadəçi isə həmin normativ-hüquqi aktın digər normasında göstərilən davranış qaydasına göndərilir (məs.: İXM mad. 153 - ″Piyadalar və yol hərəkətinin başqa iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının pozulması″ və İXM, mad. 153.5. ″Bu Məcəllənin 153.1-153.4.5-ci maddələrində nəzərdə tutulmuş xətaların yol hərəkəti iştirakçıları tərəfindən alkoqol, narkotik vasitələr və ya güclü təsir göstərən digər maddələrin istifadə edilməsindən sərxoş vəziyyətdə törədilməsinə görə...″;

➢ blanket, bu elə dispozisiyadır (qaydadır) ki, digər hüquq mənbələrinə istinad etməyə məcbur (həvalə) edir (məsələn: İXM, mad.111.1. - ″Balıq ehtiyatlarının mühafizəsi qaydalarının pozulmasına görə ...″; mad.167 - ″Magistral boru kəmərlərinin mühafizəsi qaydalarının pozulması″.

″Dövlət və hüquq nəzəriyyəsi″ nöqteyi-nəzərindən sanksiya (tənbeh) - hüquq normasının dispozisiyasında nəzərdə tutulmuş qaydaları pozana qarşı hansı dövlət təsir (məcburiyyət) tədbirlərinin tətbiq edilə biləcəyini əks etdirən elementdir.

Sanksiya - inzibati hüquq normasının bir elementi kimi özündə hüquq normasını pozana qarşı tətbiq edilən təsir tədbirlərini əks etdirir.

Burada nəzərə almaq lazımdır ki, sanksiya istənilən inzibati təsir formasını yox, yalnız hüquqpozma ilə əlaqədar tətbiq olunan və normada nəzərdə tutulmuş təsir formasını özündə əks etdirir. Buna görə inzibati xəbərdaretmə tədbirləri (karantinin qoyulması, sərhədin bağlanması, su basmış, zəlzələ olmuş yerin dövrəyə alınması) sanksiyaya aid edilə bilməz, çünki onlar hüquqpozmaların törədilməsi ilə əlaqədar tətbiq edilmirlər.

Belə tədbirlər hüquq normasının sanksiyasında yox, dispozisiyasında göstərilir.

Sanksiyanın üç növü məlumdur:

➢ mütləq-müəyyən edilmiş sanksiya, bu elə sanksiyadır ki, orada tənbehin (cəzanın) dəqiq növü və yaxud miqdarı göstərilib (məs: mad.149.1 - ″... şərti maliyyə vahidi məbləğinin üç misli miqdarında cərimə edilir″; mad. 157 - ″... şərti maliyyə vahidi məbləğinin beş misli miqdarında cərimə edilir″;

➢ nisbi-müəyyən edilmiş sanksiyalar, bu elə sanksiya-lardır ki, orada tənbehin (cəzanın) ″aşağı″ və ″yuxarı″ həddi və yaxud ancaq ″yuxarı″ həddi müəyyən edilir (məs.: mad.151.1 ″... şərti maliyyə vahidi məbləğinin üç mislindən səkkiz mislinədək miqdarda cərimə edilir″ və ya mad. 151.5 - ″... fiziki şəxslərin nəqliyyat vasitələrini idarə etmək hüququ bir ilədək müddətə məhdudlaşdırılır);

➢ alternativ sanksiyalarda tənbehin (cəzanın) bir neçə növü göstərilib (məs.: İXM, mad. 296 - ″Xırda xuliqanlıq″, ″...şərti maliyyə vahidi məbləğinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir, işin hallarına görə pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on beş günədək müddətə inzibati həbs tətbiq olunur″.

İnzibati hüquq sanksiyalar sisteminin xüsusiyyəti - onun çox zəngin inzibati təsir vasitələri ehtiyatına, sanksiyaların növ müxtəlifliyinə malik olması, həmçinin də orqanların və vəzifəli şəxslərin daha məqsədəuyğun və effektli hesab etdikləri təsir tədbirlərinin tətbiqinə qəbul edilmiş hədlərə qədər imkan verilməsini nəzərdə tutur.

Hüquq norması özünün bilavasitə tənzimləyici funksiyasını (vəzifəsini) onun bütün struktur elementləri olduğu halda yerinə yetirə bilər. Əgər normativ-hüquqi aktların maddələrini təhlil etsək, biz heç də həmişə hüquq normasının hər üç elementini görə bilmərik. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının maddələrində, bir qayda olaraq, hipoteza və dispozisiya olur, sanksiya isə ifadə olunmur. Cinayət qanunvericiliyinin bir sıra maddələrində hipoteza və sanksiya tam həcmdə yazılır, dispozisiya isə ümumi qaydada ifadə olunur. Bu onu göstərir ki, hüquq norması və normativ-hüquqi aktın maddəsi üst-üstə düşmür.

Hüquq normasının elementləri (hipoteza, dispozisiya, sanksiya) faktiki olaraq, müxtəlif normativ-hüquqi aktların maddələrində ola bilər. Bu, normaların eyni olmayan formalara və ifadə üsullarına malik olması ilə izah olunur. Lakin bu halda da onlar öz məntiqi quruluşlarını itirmirlər.

Normativ-hüquqi aktın maddəsi dedikdə - hüquq normasının ifadə forması (üsulu) başa düşülür.

Normativ-hüquqi aktların maddələrində hüquq normalarının aşağıdakı ifadə üsulları mövcuddur:

➢ birbaşa ifadə üsulu (maddədə hər üç element mövcuddur);
➢ göndərici ifadə üsulu;
➢ blanket ifadə üsulu.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, hüquq norması qanunun maddəsi ilə eyni deyil. Hüquq norması məntiqi cəhətdən tamamlanmış davranış qaydasıdır, qanunun maddəsi isə onun ifadə formasıdır.

İnzibati hüquq normalarında inzibati hüququn tənzimləyici rolu aşağıdakı hallarda özünü göstərir:

a) inzibati hüquq normaları icra hakimiyyətinin bütün sisteminin və onun ayrı-ayrı hissələrinin təşkili və fəaliyyətini tənzimləmə xarakteri daşıyır;

b) inzibati hüquq normaları dövlətin mənafeyinə uyğun olan və dövlət idarəetmə sahəsində bilavasitə fəaliyyət göstərən bütün təşkilatların və şəxslərin davranış qaydalarını (variantlarını) müəyyən edir (məs.: şəhər (rayon) icra hakimiyyəti). Lazımi hesab edilən hərəkəti nəzərdə tutur, yəni hansı hərəkətləri etmək olar, hansı hərəkətlərə icazə verilir, hansılardan çəkinmək lazımdır, hansıları qadağan edir, hansıları etmək vacibdir (sərəncam). Davranışa olan idarəçilik təsiri burada açıq şəkildə özünü əks etdirir;

c) inzibati hüquq normaları dövlət idarəetmə sahəsində fəaliyyət göstərərək, icra hakimiyyəti mexanizminin konstitusion təyinatının səmərəli həyata keçirilməsi təminatı məqsədini daşıyır, yəni Azərbaycan Respublikasının qanunlarına riayət olunması və onların

icrasının həyata keçirilməsi. Bununla da onlar vahid dövlət hakimiyyətinin icraedici istiqamətinin mahiyyətini ifadə edirlər;

ç) inzibati hüquq normaları dövlət idarəetmə sahəsində lazımi sayılan davranışın sərhədini müəyyən edir, dövlət intizamının və qanunçuluq reciminin möhkəmləndirilməsinə xidmət edirlər.

İnzibati-hüquqi tənzimləmə mexanizmi dedikdə - dövlətin məqsəd və vəzifələrinə müvafiq olaraq dövlət idarəetmə sistemində icra hakimiyyətinin həyata keçirilməsi sahəsində yaranan, dəyişən və xitam olunan ictimai münasibətlərə təsir edən inzibati-hüquqi vasitələr sistemi başa düşülür.

Ümumi anlayışdan nəticə çıxarmaq olar ki, inzibati-hüquqi tənzimləmənin məzmunu aşağıdakılardan ibarətdir:

➢ idarəetmə sahəsində daha məqsədəuyğun münasibətlərin təsis edilməsi və qaydaya salınması;

➢ hüquqla tənzimlənən idarəetmə münasibətlərinin mühafizəsi;

➢ cəmiyyətin obyektiv inkişaf qanunlarının tələblərinə uyğun olan yeni ictimai münasibətlərin yaradılması və inkişafı;

➢ müasir şəraitə uyğun gəlməyən ictimai münasibətlərin dövlət idarəetmə sahəsindən sıxışdırılması (çıxarılması).

İnzibati-hüquqi tənzimləmənin mahiyyəti - idarəetmə münasibətlərinin qaydaya salınmasından, inzibati hüquq normaların köməyi ilə bu münasibətlərin iştirakçılarının hüquq və vəzifələrinin təyin edilməsindən ibarətdir.

İnzibati-hüquqi tənzimləmə mexanizminin elementləri aşağıdakılardır:

1. İnzibati hüquq normaları.
2. İnzibati hüquq normaların izahedici aktları.
3. İnzibati hüquq normaların tətbiqetmə aktları.
4. İnzibati hüquq münasibətləri.

İnzibati hüquq normaların ümumi xarakteristikasında onların bəzi xüsusiyyətlərinin nəzərə çatdırılması ehtiyacı duyulur. Hər şeydən əvvəl, hüquq icraetmə (hüquq tətbiqetmə) və hüquq təyinetmə (hüquqyaradıcılığı) arasındakı qarşılıqlı nisbət diqqətəlayiqdir.

İstənilən hüquqi norma hüquqyaradıcılığı aktıdır və inzibati hüquq normalar da burada istisna deyil. İcra hakimiyyətinin müvafiq subyektlərinə qüvvədə olan qanunvericiliklə hüquq normalarının müstəqil müəyyən edilməsi üzrə səlahiyyətlər verilmişdir.

İnzibati hüququn məzmununa Azərbaycan Respublikasının bütün hüquq sisteminin əsasını təşkil edən qanunların tələblərinin konkret şəraitlərə tətbiq edilməsindən ibarət olan fəaliyyət xasdır. Buna görə də inzibati hüquq normaları idarəetmə xarakterli ictimai münasibətlərin tənzimləyicisi kimi dövlət idarəetmə sahəsində hüquqtətbiqetmənin əsas hüquqi formalarından biri kimi xarakterizə oluna bilər. Deməli, bu normalar öz məzmununda ″ikili hüquqi yük″ daşıyır - hüquqyaradan və hüquqtətbiqedən.

İnzibati hüquq normaların bu növləri arasında sıx qarşılıqlı əlaqə var burada hüquqyaratma forması öz mahiyyətinə görə hüquqtətbiqetmə (icraetmə) məqsədi daşıyır. Bunu da o fakt təsdiq edir ki, icra hakimiyyəti subyektlərinin normativ aktları qüvvədə olan qanunvericiliyə uyğun olaraq qanunların icrası məqsədi ilə qəbul edilir.

Göstərilən vəziyyət icra hakimiyyətinin müvafiq subyektlərinin səlahiyyətlərinin və inzibati-hüquqi normaların ümumi səciyyəsi üçün münasibdir.

İnzibati hüquq normaların əksəriyyəti Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Bu normalar dövlət idarəetmə fəaliyyətinin əsas istiqamətləri və idarəetmə prosesində yaranan idarəetmə münasibətləri ilə müəyyən edilir (məs.: icra hakimiyyəti subyektlərinin və şəxsiyyətin konstitusion statusu). Demək olar ki, Azərbaycan Respublikasının hər bir qanununda müxtəlif inzibati hüquq normaları var.

Bu, o deməkdir ki, inzibati-hüquqi normaların ierarxiyası mövcuddur: konstitusion normalar, qanun normaları və icra hakimiyyəti subyektləri tərəfindən qəbul edilən normativ-hüquqi aktlarda olan normalar. Qüvvədə olan qanunvericiliyə əsasən, icra hakimiyyəti subyektlərinə normativ-hüquqi aktların qəbul edilməsi hüququ verilib, bu hüquq normaları öz hüquqi qüvvəsinə görə eyni əhəmiyyətli deyillər.

İcra hakimiyyəti subyektləri tərəfindən müəyyən edilmiş inzibati hüquq normaları konstitusion və qanunverici xarakterli normalarla münasibətdə ikinci dərəcəli sayılırlar, yəni axırıncılar öz hüquqi əhəmiyyətinə görə ilkin xarakterə malikdirlər və icra hakimiyyəti subyektləri tərəfindən yaradılan inzibati hüquq normaları birincilərdən yaranır.

Buradan nəinki icra hakimiyyəti subyektlərinin fəaliyyəti, həm də onlar tərəfindən müəyyən edilən inzibati hüquq normaların qanun qüvvəliliyi doğur. Hüquq normalarının ierarxiyasında onlara müəyyən yer ayrılır ki, o da aşağıdakı hüquqi formada ifadə olunur: - onlar, dövlət başçısı kimi Azərbaycan Respublikası prezidentinin normativ aktlarının, qanunların və konstitusiyanın əsasında onların müddəalarının yerinə yetirilməsi üçün yaradılır.

İcra hakimiyyəti subyektləri tərəfindən müəyyən edilən inzibati hüquq normaları, hüquqyaratmanın ″ikinci dərəcəli″ forması olub, hər şeydən əvvəl, Konstitusiyanın və qanunların normalarının doğruluğunu təmin edir.

Birinci sualın sonunda qeyd etmək istərdim ki:

1. İnzibati hüquq norması - dövlət idarəetməsi və icra hakimiyyəti mexanizmin fəaliyyəti sahəsində yaranan, dəyişən və xitam olunan ictimai münasibətləri nizama salma məqsədi ilə dövlət tərəfindən müəyyən edilmiş davranış qaydasıdır.

2. İnzibati hüquq normaların quruluşu aşağıdakı elementlərdən ibarətdir:

- hipoteza;
- dispozisiya;
- sanksiya.

Hipoteza – inzibati hüquq normanın quruluşunun bir elementi kimi o, özündə həmin normanın realizəsinin faktiki şərtlərini əks etdirir, yəni o, özündə bilavasitə təsir etdiyi ictimai münasibətləri əks etdirir və bu təsir də konkret hüquq münasibətini yaradır.

Dispozisiya – inzibati hüquq normanın mərkəzi hissəsi olub, həmin hüquq norması tərəfindən tövsiyə edilən, icazə verilən və ya qadağan edilən davranış qaydasını göstərir.

Sanksiya - inzibati hüquq normanın bir elementi kimi özündə hüquq normasını pozana qarşı tətbiq edilən təsir tədbirlərini əks etdirir.

3. Hipotezanın üç növü mövcuddur:

- sadə, yəni bir şərt (şərait) müəyyən edildikdə;
- mürəkkəb, yəni iki və daha çox şərt (şərait) müəyyən edildikdə;
- alternativ, yəni bu və ya digər hallardan asılı olaraq davranış qaydası müəyyən edildikdə.

4. Dispozisiyanın 4 növü mövcuddur:

- sadə;

- ➢ təsviri;
- ➢ göndərici;
- ➢ blanket.

5. Sanksiyanın üç növü var:

- ➢ mütləq-müəyyən edilmiş sanksiya;
- ➢ nisbi-müəyyən edilmiş sanksiya;
- ➢ alternativ sanksiyalar.

Sual 2.

İnzibati hüquq normaların növləri və onların xarakteristikası

İnzibati hüquq normaları öz tənzimləyici istiqamətinə və müvafiq olaraq hüquqi məzmununa görə müxtəlifdirlər. Onların təsnifatının müxtəlif meyarları mövcuddur. Bu normaların 2 əsas növü daha ümumi xarakterə malikdir.

1. İnzibati hüquq normaları öz məzmununa (tənzimləmə predmetinə) görə iki əsas növə ayrılır:

- ➢ maddi inzibati hüquq normaları;
- ➢ prosessual inzibati hüquq normaları.

Maddi inzibati hüquq normaları. Bu elə normalardır ki, inzibati hüquqla tənzimlənən idarəetmə münasibətlərinin iştirakçılarının hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən edir (məs.: İXM, mad.371.1 - ″Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin hüquqları...″ (bunlara ″statik″ normalar deyirlər)), yəni faktiki olaraq onların inzibati-hüquqi statusunu müəyyənləşdirir. Maddi inzibati hüquq normalarda o hüquqi rejim öz ifadəsini tapır ki, bu recim çərçivəsində icra hakimiyyəti (dövlət idarəetməsi) fəaliyyət göstərməlidir, tənzimlənən idarəetmə münasibətlərin iştirakçıları hərəkət etməlidir. Bu normalara misal olaraq müvafiq vəzifəli şəxslərin müəyyən edilmiş vaxtda vətəndaşların şikayətinə baxmaq üçün vəzifələrini müəyyən edən normalar; icra hakimiyyətinin bu və ya digər subyektin səlahiyyətlərinin əsasını müəyyən edən normalar və s. normaları göstərmək olar. Beləliklə, maddi inzibati hüquq normaları icra hakimiyyəti subyektlərinin və müxtəlif növ idarəetmə obyektlərinin qarşılıqlı təsirinin əsaslarını, onların qarşılıqlı hüquqi imkanlarını müəyyən edir.

Prosessual inzibati hüquq normaları. Bu normalar elə normalardır ki, maddi normalarda göstərilən hüquq və vəzifələrin həyata keçirilmə qaydaları və məsuliyyətin təyin edilmə qaydasını nəzərdə tutur (müxtəlif hərəkətlərin görülmə qaydası göstərilib (məs.: İXM, mad. 423 - ″İnzibati xəta haqqında işə baxılması qaydası″). Bunlara ″dinamik″ normalar da deyilir. Prosessual normalar dövlət idarəetməsinin dinamikasını və onunla bağlı olan idarəetmə münasibətlərini tənzimləyir. Prosessual inzibati hüquq normaları vətəndaşların ərizə və şikayətlərinin qəbulu, baxılması və həll edilməsi qaydalarını, inzibati xətalar haqqında işlər üzrə icraatın aparılması qaydalarını və s. müəyyən edən normalardır. Onların əsas təyinatı - tənzimlənən idarəetmə münasibətləri çərçivəsində maddi inzibati hüquq normaları ilə müəyyən edilmiş hüquqi vəzifələrin və hüquqların həyata keçirilməsi qaydasını (prosedurunu) müəyyən etməkdir. Nəzəriyyədə və təcrübədə qəbul olunmuş, proses və prosessual fəaliyyət haqqında təsəvvürlərə müvafiq olaraq, onların hüquqi mahiyyətinə diqqəti cəlb etmək lazımdır. Məsələn: cinayət və mülki prosesə münasibətdə. Bu əsasda inzibati yurisdiksiya normalarını, yəni məhkəmədənkənar formada müxtəlif növ inzibati-hüquqi mübahisələrin baxılması və həll edilməsi qaydalarını tənzimləyən normaları qeyd etmək olar. Burada inzibati yurisdiksiyanın həyata keçirilməsi nəzərdə tutulur, yəni

təşkilatların və şəxslərin davranışına müstəqil hüquqi qiymət vermək üzrə və lazımi hallarda inzibati məcburetmə xarakterli tədbirləri tətbiq etmək üzrə müvafiq idarəetmə orqanlarına mənsub olan səlahiyyətlər (məs.: inzibati xətalar haqqında işlərin baxılması) müəyyən edilir. Deməli, inzibati-yurisdiksiya normalarında ″hüquq mühafizəetmə″ əlaməti üzə çıxır.

Lakin idarəetmə fəaliyyəti yalnız yurisdiksiya ilə bitmir. Dövlət idarəetməsi prosesində geniş istifadə olunan idarəetmə qərarlarının hazırlanması və qəbul edilmiş qərarların qeydiyyatı, icazəvermə və digər funksiyaların da əhəmiyyəti böyükdür. Bu həm də prosessual hərəkətlərdir.

Bu əlamətə görə gündəlik idarəetmə fəaliyyətinin bir çox istiqamətlərini qaydaya salan, hər şeydən əvvəl isə idarəetmə aparatının praktiki işini tənzimləyən inzibati prosessual normaları xüsusi qrupa inzibati prosedur normalarına ayırmaq olar. Buna misal olaraq, iclasların reqlamentini tənzimləyən, onların iş planlarının formalaşmasının əsasını müəyyən edən, qərarların hazırlanması və qəbulu, qəbul edilmiş qərarların qeydiyyata alınmasını müəyyən edən normalar. İnzibati hüquq normalarının hüquqi məzmunundan və ya təyinatının xarakterindən asılı olaraq təsnifatı böyük əhəmiyyətə malikdir.

2. İnzibati hüquq normaların hüquqi məzmununun xarakterinə görə aşağıdakı növləri var:

➢ <u>məcburedici normalar</u>, hər hansı hərəkətlərin görülməsi vəzifəsini müəyyən edir (məcbur edir) (məs: İXM, mad. 427.1: ″İnzibati xəta haqqında iş üzrə qərar onun baxılmasından dərhal sonra elan olunur″);

➢ <u>qadağanedici normalar</u>, müəyyən hərəkətləri qadağan edir (məs.: İXM, mad. 69: - ″Xırda talama″, mad. 296: - ″Xırda xuliqanlıq″);

➢ <u>səlahiyyətverici normalar</u>, müəyyən hərəkətlərin görülməsi üçün səlahiyyət verir (məs.: İXM, mad.21: - ″... hüququ olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xəta törətmiş... şəxsi inzibati məsuliyyətdən azad edə bilər...″);

➢ <u>həvəsləndirici normalar</u>, müvafiq maddi və mənəvi təsir vasitələri ilə idarəetmə münasibətlərinin iştirakçılarının davranışı tənzimlənir.

➢ <u>məsləhətverici normalar</u>, bu elə normalardır ki, onlar müxtəlif hərəkətlərin görülməsini məsləhət edir.

3. Zamanda təsirinə görə inzibati hüquq normaları aşağıdakı növlərə bölünürlər:

➢ <u>müddətli normalar</u>, bu elə normalardır ki, onların qüvvədə olma müddəti mövcuddur (məs.: Fövqəladə vəziyyət tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin Fərmanı fövqəladə vəziyyət aradan qaldırıldıqdan sonra qüvvədən düşmüş hesab olunur);

➢ <u>müddətsiz normalar</u>, bu elə normalardır ki, onlar daim qüvvədədirlər (məs.: Yol hərəkəti qaydaları), yəni bunların qüvvədən düşməsi və yaxud dəyişdirilməsi üçün xüsusi bir normativ akt qəbul edilməlidir.

4. Məkanda təsirinə görə inzibati hüquq normaları aşağıdakı növlərə bölünürlər:

➢ <u>ümumdövlət normaları</u> (məs. Azərbaycan Respub-likasının İXM);

➢ <u>muxtariyyət normaları</u> (məs: Naxçıvan MR Nazir-lər Kabinetinin qəbul etdiyi qərarlar);

➢ <u>yerli normalar</u> (məs.: Bakı şəhər icra hakimiyyəti başçısının qərarı);

➢ <u>lokal normalar</u> (məs.: Milli Aviasiya Akademiyası rektopunun əmri);

➢ <u>xüsusi normalar</u> (məs.: təbii fəlakət baş vermiş ərazinin miqyasında qüvvədə olan normalar).

5. Fiziki şəxslərə təsirinə görə inzibati hüquq normaları aşağıdakı növlərə bölünürlər:

➢ bütün vətəndaşlara şamil edilən normalar (məs.: pasport sisteminin qaydaları);

➢ vətəndaşların ayrı-ayrı kateqoriyalarına şamil edilən normalar (hərbi qulluqçular, müdavimlər, həkimlər və s.).

Bu növ normalardan başqa inzibati qanunvericilikdə xüsusiləşdirilmiş normalar da mövcuddur.

Tənzimləyici və mühafizəedici normalardan fərqli olaraq, onlar əlavə xarakter daşıyırlar və məzmunca özlərində müəyyən davranış qaydasını müəyyən etmirlər.

6. Xüsusiləşdirilmiş normaların aşağıdakı növləri mövcuddur:

➢ təsbitedici normalar, ümumiləşdirilmiş şəkildə tənzimlənən münasibətlərin müəyyən elementlərini ifadə edirlər (məs.: İXM, mad. 32: - ″İnzibati tənbeh tətbiq etmənin ümumi qaydası; mad. 34, 35: - ″Məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar″ və s.);

➢ definitiv normalar, hüquqi anlayış və kateqoriyaların elmi ifadə olunmuş tərifləri əks etdirirlər (məs.: İXM, mad.12: - ″İnzibati xəta anlayışı″; mad.13: - ″İnzibati xətanın qəsdən törədilməsi″ və s.);

➢ prinsip normalar, müəyyən prinsip və vəzifələri əks etdirirlər (məs.: İXM, 4-cü mad. - ″Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin prinsipləri″; mad. 362: - ″İnzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələri″).

Bundan başqa, bir çox inzibati-hüquqi normalar yalnız orqan, vəzifəli şəxs, idarə, müəssisə, təşkilatların fəaliyyətini tənzimləyir. Nazirliklərin verdiyi aktlar əksər hallarda yalnız bu nazirlik daxilində qüvvədə olur. Bununla belə bir sıra nazirliklər və dövlət komitələri tərəfindən qoyulan qaydalar sahələrarası xarakter daşıyır və müxtəlif idarə, müəssisə və təşkilatlar tərəfindən, onların tabeçiliyindən asılı olmayaraq, əməl olunması məcburidir.

İnzibat hüquq normaların qanuni qüvvəyə minməsi qaydası Azərbaycan Respublikasının ″Normativ-hüquqi aktlar haqqında″ 14 yanvar 2000-ci il tarixli Qanununda öz əksini tapmışdır.

Bu Qanunda normativ-hüquqi aktların qüvvəyə minməsi qaydaları göstərilmişdir:

➢ dərc edildiyi gündən;

➢ imzalandığı gündən;

➢ aktın özündə göstərildiyi gündən.

Onların qüvvəyə minmə müddəti, həmçinin də onların icraçılara çatdırıldığı gün ola bilər.

İnzibati hüquq normaların müxtəlifliyi onların sistemləşdirilməsi problemini qarşıya qoyur. İnzibati hüquq Azərbaycan Respublikası hüquq sisteminin ən çox sistemləşdirilməmişsahələrindən biridir.

Çox hallarda onun dəqiq sistemləşdirilməsi nəzərə çarpmır. Bununla belə, digər hüquq sahələri ilə müqayisədə inzibati hüquq sürətli inkişafı ilə seçilir (daimi dəyişiklikləri, yenidənqurma, modifikasiyası ilə). Keçmiş SSRİ-nin dağılmasından sonra Azərbaycan Respublikasında faktiki olaraq inzibati hüququn yeni sistemi yaradılmağa başlandı. Azərbaycan Respublikasının yeni Konstitusiyası belə növ işlərin aparılması üçün möhkəm hüquqi baza yaradaraq, icra hakimiyyəti mexanizminin təşkil edilməsi və işləməsi məsələləri üzrə stabil qanunvericiliyin formalaşdırılması, bəzi köhnəlmiş və ziddiyyətli olan bir çox qüvvədə olan inzibati-hüquqi normaların tənzimlənməsi məsələlərini də qaydaya salır.

Hal-hazırda ″İnzibati hüquq″un yalnız bir institutu - ″Azərbaycan Respulikasnın İnzibati Xətalar Məcəlləsi″ sistemləşdirilib. Bu institut özündə inzibati hüququn maddi və prosessual normalarını birləşdirir.

Lakin bu, qismən kodifikasiyadır. Əlbəttə, bütün inzibati hüququn kodifikasiyası mümkünlüyünü təsəvvür etmək çətindir. Buna görə də birinci yerdə inzibati hüquq normaların sistemləşdirilməsi, onların bu günün tələblərinə, aparılan iqtisadi islahatlara müvafiq uyğunlaşdırılması problemi durur. Aydındır ki, bu halda müvafiq inzibati-hüquqi materialların təzələnməsi və idarəetmə münasibətlərinin inzibati-hüquqi tənzimlənməsində olan boşluqların aradan qaldırılması və inzibati hüququn inkorporasiyası tələb olunur.

İndi bir çox idarəetmə məsələlərinin həlli müxtəlif hüquq sahələrinin aktlarında sistemə salınıb (məs.: Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və s.).

Beləliklə, Azərbaycan Respublikasında hüquqi dövlətin möhkəm özülünün yaradılması üzrə məsələlərin həlli ilə bağlı olan inzibati hüququn sistemləşdirilməsi nəzərə çarpır.

İkinci sualı yekunlaşdıraraq qeyd etmək istərdim ki, inzibati hüquq normaları müxtəlif meyarlara görə aşağıdakı növlərə bölünürlər:

1. nizamasalma predmetinə görə - maddi və prosessual.
2. subyektlərin davranışına təsir metoduna görə - məcburedici, qadağanedici, səlahiyyətverici, həvəsləndirici, tövsiyəedici.
3. zamanda təsirinə görə - müddətli və müddətsiz.
4. məkanda təsirinə görə respublika, yerli, lokal, xüsusi və s.
5. subyektlərə təsirinə görə - bütün vətəndaşlara və vətəndaşların ayrı-ayrı kateqoriyalarına və hüquqi şəxslərə

Sual 3.
İnzibati-hüquqi normaların həyata keçirilməsi formaları (üsulları) və onların xarakteristikası

Hüquq normaları insanların davranışına fəal təsir göstərmək və ictimai münasibətləri tənzimləmək üçün qəbul edilir. Hüquq normaları insanların davranışına, onların iradəsinə və şüuruna təsir edir. Hüquqi tənzimlənmə sahəsində insanlar hüquq normalarının tələblərinə uyğun olaraq davranırlar. Vətəndaşların davranışı, ümumi və fərdi maraqları ictimai inkişafın tələblərinə uyğunlaşdırılır.

Hüquq normalarının realizəsi onların tələblərinin insanların davranışında təcəssüm etdirilməsidir.

İnzibati hüquq norması vətəndaşların optimal davranış variantıdır. Lakin, bunu fəaliyyətə (həqiqətə) çevirmək üçün inzibati hüququn subyektlərinin davranışlarını inzibati hüquq normadakı qaydalara qeydsiz-şərtsiz olaraq uyğunlaşdırmaq lazımdır.

Deməli, inzibati hüquq normaların realizəsi inzibati hüququn subyektlərinin inzibati hüquqların əldə edilməsi və istifadə edilməsi (hüquqlardan istifadə edilməsi), hüquqi vəzifələrin icra edilməsi, vəzifələrə riayət edilməsi və inzibati-hüquqi normaların tətbiqi (onların realizəsinin xüsusi forması) kimi qanunauyğun hərəkətləri başa düşülür. Realizə - hüquq normalarının qaydaları ilə uyğunlaşdırılan hüquq subyektinin davranışında ifadə olunmasıdır.

Hüquq nəzəriyyəsində hüquq normalarının realizəsinin aşağıdakı formaları (üsulu) mövcuddur:

➢ hüquqların həyata keçirilməsi;
➢ vəzifələrin icrası;
➢ vəzifələrə riayət etmək;
➢ hüquq normalarının tətbiqi.

İnzibati hüquq normaların realizəsinin isə aşağıdakı 4 forması mövcuddur:

➢ riayət etmə;
➢ icra etmə;
➢ istifadə etmə;
➢ tətbiq etmə.

İnzibati hüquq normaların riayət etmə formasında realizəsi - hüquq subyektinin inzibati hüquq normaların tələblərinə könüllü olaraq tabe olması ilə xarakterizə olunmasıdır. Bu normanın mahiyyəti subyektin norma ilə qadağan olunmuş hərəkətlər etməkdən çəkinməsindən ibarətdir. Beləliklə, riayət etmə subyektin konkret inzibati-hüquqi münasibətlərə girmədiyi halda da həyata keçirilə bilər.

İnzibati hüquq normaların icra etmə formasında realizəsi bu normalarda göstərilən qaydaların yerinə yetirilməsi üzrə hüquq subyektlərinin aktiv qanunauyğun hərəkətlərində ifadə olunmasıdır.

Riayət etmədən fərqli olaraq icra etmə subyektlərin ″aktiv davranışı″ ilə xarakterizə olunur. Müəyyən hallarda ″passiv davranış″, buraxılmış səhlənkarlıq, qeyri-hüquqi davranış kimi də qiymətləndirilə bilər. İnzibati hüquq normaların realizəsinin istifadə etmə forması - hüquq subyektləri tərəfindən idarəetmə sahəsində subyektiv hüquqların həyata keçirilməsi ilə bağlı olan qanunauyğun hərəkətlərin həyata keçirilməsindən ibarətdir.

″İcra etməyə″ oxşar olan ″istifadə etmə″ də ″aktiv″ üsullarla həyata keçirilir, lakin ″icra etmə″dən fərqli olaraq, ″istifadə etmə″ formasında subyektiv hüquqlar realizə olunur. Məsələn: idarəetmə orqanlarının əsasnamələrində nəzərdə tutulmuş hüquqların həyata keçirilməsi, yalnız hüquqi əhəmiyyətli hərəkətlərin həyata keçirilməsi yolu ilə mümkündür, başqa formada bu barədə danışmağa dəyməz. Həmçinin də vətəndaşın öz soyadını dəyişmək hüququnun reallaşdırılması müvafiq orqana ərizə ilə müraciət etmədən mümkün deyil.

Bundan başqa, birinci iki realizə formasından fərqli olaraq ″istifadə etmə″də subyekt inzibati-hüquqi normalar ilə ona verilmiş subyektiv hüquqlardan istifadə etmək və ya etməmək barədə müstəqil olaraq özü qərar qəbul edir. İstifadə etmə vasitəsi ilə ″səlahiyyətverici inzibati hüquq normaları″ realizə olunur.

Digər realizə formalarından fərqli olaraq, ″hüquq tətbiqetmə″ ″aktiv″ yaradıcı, dövlət-hakimiyyət, ″təşkiledici″ xarakter daşıyaraq, səlahiyyətli orqanlar tərəfindən qanunvericiliklə müəyyən edilmiş prosessual qaydada həyata keçirilir.

İnzibati hüquq normaların tətbiq edilməsinin mahiyyəti dövlətin səlahiyyətli orqanlarının, ictimai təşkilatların, vəzifəli şəxslərin hərəkətlərinin konkret hüquqi əhəmiyyət daşıyan faktın müvafiq inzibati hüquq normaya uyğunlaşdırılmasından və dövlət-hakimiyyət qərarın qəbul edilməsindən, yəni fərdi idarəetmə işlərinin və məsələlərinin inzibati hüquq normaları əsasında həll edilməsindən ibarətdir.

Öz sosial məzmununa görə inzibati hüquq normaların tətbiq edilməsi idarəetmə fəaliyyətinin, ″icraedici-sərəncamverici″nin hüquqi formalarından birini özündə əks etdirir.

İnzibati hüquq normaların tətbiqi dövləti xarakter daşıdığı üçün tətbiq etmənin subyekti yalnız ″hüquqtətbiqetmə″ səlahiyyətinə malik olan səlahiyyətli orqanlar və vəzifəli şəxslər ola bilərlər.

İnzibati hüquq normaların tətbiq edilməsinə qoyulan əsas tələblər qanunilikdən, məqsədyönlükdən, əsaslılıqdan və hüquqtətbiqetmə fəaliyyətinin elmi təşkilindən ibarətdir.

Qanunçuluq. Səlahiyyətli orqanlar və vəzifəli şəxslər idarəetmə işini həll edən zaman inzibati hüquq normaları yalnız onlara verilmiş səlahiyyətlər çərçivəsində və ya onun mənasına uyğun surətdə tətbiq edə bilərlər. Qanunçuluq, normaların ciddi prosessual qaydada tətbiq olunmasına riayət edilməsini tələb edir. Bu da hüquqi normanın dəqiq həyata keçirilməsini təmin edir. Qanunçuluq prinsipi səlahiyyətli orqan və vəzifəli şəxslərin tək hüquqları deyil, həm də onlar tərəfindən inzibati hüquq normaların tətbiq edilməsi vəzifələrini özündə birləşdirir. Qanunla norma orqana aid edilərsə və bu norma həmin orqan tərəfindən tətbiq edilməzsə, bu, qanunçuluğun pozulması olacaqdır. Məs.: sosial təminat orqanının ona pensiya almaq üçün bütün sənədləri təqdim etmiş vətəndaşa pensiya verməkdən boyun qaçırması.

Əsaslılıq. Əsaslılıq tələbi inzibati hüquq normanın tətbiqinin faktiki əsasına yönəlib. Hüquqtətbiqedəni istənilən faktlar yox, yalnız o faktlar, hadisələr və hərəkətlər maraqlandırmalıdır ki, onlar üçün inzibati hüquq normalar qəbul olunmuşdur. Normanın tətbiq edilməsinin əsaslılığı normanın həm hadisənin özü, həm də yaranmış xarici şərait barəsində düzgün informasiya əsasında tətbiq edilməsindən ibarətdir.

Əsaslılıq tələbi məcbur edir ki, hüquqtətbiqedən işin bütün hallarını və yaranmış vəziyyətin hərtərəfli yoxlanıl-masından sonra qərar qəbul etsin.

Qeyri-hüquqi və şübhəli faktlar işin həll edilməsinin əsası sayıla bilməz və onlar nəzərə alınmamalıdır. Əsaslılıq tələbi qanunçuluqla sıx əlaqədardır. Bu əlaqə, hər şeydən əvvəl, onunla ifadə olunur ki, iş üzrə hüquqtətbiqetmə aktı faktların hərtərəfli və tam təhqiqatı əsasında qəbul olsun, bu qanunçuluğun mütləq tələbidir. İnzibati hüquq normanın tətbiqetmə aktı o vaxt qanuni olar ki, o, əsaslandırılmış olsun.

Məqsədəuyğunluq. Hüquqtətbiqedən normanın mənasını (məqsədini) və işin faktiki hallarını araşdırdıqdan sonra iş üzrə daha məqsədəuyğun qərar qəbul etməlidir. İnzibati hüquq normada məqsədəuyğunluq konkret şəraitdə, normada göstərilən məqsədə optimal qaydaya nail olmaq deməkdir. Deməli, burada söhbət qanunçuluq çərçivəsində, qanunla müəyyən edilmiş məqsədəuyğunluq haqqında gedir. Məqsədəuyğunluq o deməkdir ki, hüquqtətbiqedən konkret şəraiti, yaranan vəziyyətin özünəməxsusluğunu, yerini və vaxtını maksimum surətdə nəzərə almalıdır və bu onun vəzifə borcudur.

Hüquqtətbiqetmə fəaliyyətinin elmi təşkili. Hər hansı ictimai faydalı fəaliyyət kimi hüquqtətbiqetmə də elmi cəhətdən təşkil olunmalıdır. Bu tələbin mahiyyəti ondan ibarətdir ki, hüquqtətbiqetmə prosesi zamanı, onun həyata keçirilməsində maksimal effektivliyə az qüvvə və vasitələrin sərf olunması ilə nail olunsun.

Hüquqtətbiqetmənin elmi təşkili özündə aşağıdakı elementləri birləşdirir:

➢ tədbirlərdə (əməliyyatlarda) müxtəlif sistemlər tətbiq edən subyektlər arasında hüquqtətbiqetmə üzrə fəaliyyətin məqsədəuyğun bölüşdürülməsi;

➢ bir sistemin hüquq normalarını tətbiq edən subyektlər arasında hüquqtətbiqetmə səlahiyyətlərinin optimal bölüşdürülməsi;

➢ normaların tətbiq edilmə prosesinin təkmilləşdirilməsi;

➢ bu prosesdə qabaqcıl təcrübə və müasir elmi-texniki vasitələrin istifadəsi.

Hüquqtətbiqetmə prosesinin elmi təşkilində idarəetmə aparatı işçilərinin hüquqi, ümumi, peşəkar və hüquqi mədəniyyətlərinin yüksəldilməsi böyük əhəmiyyət kəsb edir. Onlar qanunçuluğun əsaslarını bilməli, dövlət orqanlarının səlahiyyətlərinə düzgün sərhəd qoymağı bacarmalıdırlar.

Hüquq mühafizə orqanları onların üzərlərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsi zamanı inzibati-hüquqi tənzimlənmə mexanizmindən və onun vasitələrindən istifadə edirlər. Belə ki, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi qanunla nəzərdə tutulmuş hallarda yol hərəkəti təhlükəsizliyinin, icazə sistemi qaydalarına riayət edilməsinin təmin edilməsi və s. üzrə normativ aktlar qəbul edir. Bu aktlar özündə orqanlar, idarələr, təşkilatlar və vətəndaşlar üçün icrası məcburi olan normaları birləşdirirlər. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi daxili işlər orqanları sistemində yaranan təşkilatdaxili idarəetmə münasibətlərini tənzimləyən normativ aktlar qəbul edir.

Hüquq mühafizə orqanları və vətəndaşlar, həmçinin də inzibati hüququn digər subyektləri arasında yaranan inzibati-hüquqi münasibətlər, bu münasibətlərin iştirakçılarında hüquq və vəzifələrin mövcudluğunu nəzərdə tutur. Bir subyektin hüququ ilə digər subyektin vəzifələri uyğunlaşdırılır və əksinə.

Hüquq münasibətləri iştirakçılarının hüquq və vəzifələrinin xarakterindən asılı olaraq bu münasibətlər ″hakimiyyət-tabeçilik″ və tərəflərin bərabərliyini xarakterizə edən münasibətlər formasında ola bilər.″Hakimiyyət-tabeçilik″ münasibəti polis əməkdaşı tərəfindən hüquqpozmaların xəbərdar edilməsi, qarşısının alınması və hüquqpozanın məsuliyyətə cəlb edilməsi ilə əlaqədar funksiyaların həyata keçirilməsi zamanı yaranır. Belə hallarda polis əməşdaşı hakimiyyət nümayəndəsi, dövlət hakimiyyət səlahiyyətləri ilə təmin edilmiş şəxs kimi çıxış edir. Belə ki, 1999-cu il 28 oktyabr tarixli ″Polis haqqında″ Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsinə əsasən, polis əməkdaşının ümumi hüquqları, 18-20-ci maddələrinə əsasən isə polisin fəaliyyətinin əsas istiqamətləri sahəsində polis əməkdaşının hüquqları müəyyən edilmişdir. Vətəndaş polis əməkdaşının qanuni tələblərinə tabe olmalıdır, əks halda o, Azərbaycan Respublikasının İXM-nin 310-cu maddəsinə əsasən, inzibati məsuliyyətə cəlb oluna bilər.

Bununla belə DİO ilə inzibati hüququn digər subyektləri arasında yaranan bir çox münasibətlər tərəflərin bərabərliyi ilə xarakterizə olunur. Məsələn: vətəndaş öz hüquq və qanuni maraqlarının qorunması üçün polis əməkdaşına müraciət edə bilər. Vətəndaşın bu hüququna, polisin vətəndaş qarşısında onun hüquqlarını qorumaq və pozulmuş hüquqların bərpa edilməsi kimi əsas vəzifəsi və vəzifə borcu uyğun gəlir. Polisin səlahiyyətlərinə aid olan məsələlər üzrə vətəndaşın polisə müraciəti zamanı axırıncının vəzifəsidir ki, vətəndaşın müraciətinə baxsın, edilmiş müraciət üzrə qərar qəbul etsin və bu haqda vətəndaşa məlumat versin. Polis əməkdaşı tərəfindən bu vəzifələrin yerinə yetirilməməsi və ya lazımi səviyyədə yerinə yetirilməməsi onlar üçün qanunvericiliklə nəzərdə tutulmuş intizam və cinayət məsuliyyətinə gətirib çıxara bilər.

N Ə T İ C Ə

Mühazirəmizin gedişatı prosesində qeyd etdik ki, müasir şəraitdə hər bir dövlətin demokratik imici onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insan hüquqlarının vəziyyəti ilə müəyyən olununr. İlk milli Konstitusiyamızın 24-71-ci maddələri ilə müəyyən edilmiş insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi, həm də inzibati hüquq normaları vasitəsi ilə həyata keçirildiyi üçün bu günkü mühazirəmizin mövzusunun

mənimsənilməsi vasitəsi ilə əldə edəcəyiniz nəzəri biliklərin sizin hər birinizin gələcək fəaliyyətinizdə böyük əhəmiyyəti olacaqdır.

″İnzibati hüquq″ fənninin predmetini öyrənərkən qeyd etdik ki, bu fənnin predmetini icra hakimiyyətinin təşkili və həyata keçirilməsi prosesində yaranan, dəyişən və xitam olunan ictimai münasibətlər təşkil edir. Bu ictimai münasibətlər də əsasən, inzibati hüquq normaları vasitəsi ilə nizama salınırlar.

Mühazirəmizin mövzusunun mahiyyəti də ondan ibarətdir ki, icra hakimiyyətinin təşkili və həyata keçirilməsi prosesində yaranan, dəyişən və xitam olunan ictimai münasibətlərin qanunvericiliyə müvafiq olaraq həyata keçirilməsinə yalnız inzibati-hüquqi normalar, onların növləri və həyata keçirilmələri barədə nəzəri biliklərə yiyələnməklə nail olmaq olar. Digər tərəfdən isə Sizin hər biriniz hansı xidməti sahədə xidmət edəcəyinizdən asılı olmayaraq, gələcək xidməti fəaliyyətlərinizi həyata keçirərkən xidməti vəzifələrinizin yerinə yetirilməsi zamanı yaranan ictiami münasibətlərin əksəriyyətinin inzibati hüquq normaları vasitəsi ilə nizama salmış olacaqsınız.

Bu günkü mühazirəmizin mövzusunu mənimsəməklə siz birinci növbədə Konstitusiyamızın 12-ci maddəsindən irəli gələn tələblərin, yəni dövlətin ali məqsədi olan ″insan və vətəndaş hüquqlarının və azadlıqlarının tam təmin edilməsi tələblərinin yerinə yetirilməsində üzərinizə düşən vəzifələri qanunçuluq çərçivəsində yerinə yetirmiş olarsınız. İkinci növbədə isə, bu mövzunu mənimsəməklə Siz, Azərbaycan Respublikası prezidentinin 9 avqust 1994-cü il ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ və 22 fevral 1998-ci il ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Fərmanlarından irəli gələn tələbləri qanunçuluq çərçivəsində yerinə yetirmiş olarsınız.

Mövzu № 4: ″İnzibati- hüquqi münasibətləri″

P L A N :

GİRİŞİnzibati- hüquqi münasibətlərin anlayışı və onların əsas xüsusiyyətləri.

1. İnzibati- hüquqi münasibətlərin quruluşu və növləri.
2. DİO-nun fəaliyyətində inzibati hüquq münasibətləri.

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T :

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.2000-ci il.
3. ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
4. ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 9 avqust 1994-cü il.
5. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.

6. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
7. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
8. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
9. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
10. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

Hüquqi dövlət quruculuğunun başlıca vəzifələrindən biri də dövlət idarəetmə sistemində yaranan inzibati hüquq münasibətlərin nizama salınması, onların istiqamətləndirilməsi və mühafizə edilməsidir.

Bu günkü mühazirəmizin mövzusunun köməkliyi ilə dövlət idarəetmə sistemində yaranan hüquqi munasibətlərin anlayışı, onların növləri, quruluşu və xüsusiyyətləri haqqında anlayış əldə etmiş olacağıq. Qeyd etmək lazımdır ki, dövlət idarəetmə sistemində yaranan hüquq münasibətlərinin növlərindən biri də inzibati hüquq münasibətlərdir.

Hüquq-mühafizə orqanlarının əmkdaşları kimi bizim dövlət idarəetmə sistemində yaranan inzibati hüquq münasibətləri haqqında anlayış, nəzəri biliklər əldə etməyimizin böyük əhəmiyyəti vardır. Çünki əsas vəzifələrindən biri də dövlət idarəetmə sistemində yaranan inzibati hüquq münasibətlərin mühafizəsini həyata keçirməkdir. İkinci tərəfdən isə inzibati hüquq münasibətləri, təkcə dövlət idarəetmə sistemində yaranmır. Hüquq mühafizə orqanların işinin təşkilində və onların qarşısında duran vəzifələrin yerinə yetirilməsində inzibati hüquq münasibətləri yaranır. Lakin dövlət idarəetmə sistemində yaranan inzibati hüquq münasibətlərdən fərqli olaraq, hüquq mühafizə orqanların fəaliyyətində yaranan inzibati hüquq münasibətləri özünə məxsus xüsusiyyətlərə malikdirlər. Bu xüsusiyyətlər haqqında anlayışın əldə edilməsinin və onların yaranmasının əsaslarının və qaydasının öyrənilməsinin böyük əhəmiyyəti vardır.

Sual 1.
İnzibati hüquq münasibətlərin anlayışı və onların əsas xüsusiyyətləri

Azərbaycan Respublikasının hüquq sistemini təşkil edən hüquq sahələri müxtəlif ictimai münasibətləri tənzimləyir. Lakin həm də hər bir hüquq sahəsi özünəməxsus ictimai münasibətləri tənzimləyir. Bu da, müxtəlif hüquq sahələrinin tənzimlənən sahəsindən (predmetindən) danışmağa imkan yaradır.

İnzibati hüquq da digər hüquq sahələri kimi özünəməxsus ictimai münasibətləri tənzimləyir, yəni inzibati hüququn tənzimləmə predmeti mövcuddur.

İnzibati hüququn predmetini dövlət idarəetmə sahəsində icra hakimiyyətinin təşkili və həyata keçirilməsi zamanı yaranan, dəyişən və xitam olunan ictimai münasibətlər təşkil edir. Bu idarəetmə xarakterli ictimai münasibətlər də inzibati hüquq münasibətləri adlanırlar. İnzibati hüquq münasibətləri inzibati hüquq normaları vasitəsi ilə tənzimlənir.

İnzibati hüquq münasibətləri - dövlət idarəetmə sistemində yaranan hüquq münasibətlərinin növlərindən biri olaraq, hüquqi normalar vasitəsi ilə tənzimlənir.

İnzibati hüquq münasibətləri hüquq münasibətlərinin növlərindən biri olmaqla, onlara xas olan əlamətlərin (xüsusiyyətlərin) hamısını özlərində cəmləşdirir.

Hüquq münasibətlərinə xas olan əsas əlamətlər (xüsusiyyətlər) inzibati hüquq münasibətlərə də aiddir. Bu əlamətlər (xüsusiyyətlər) aşağıdakılardır:

- hüquq münasibəti hüquq norması əsasında yaranır; bu da həmin ictimai münasibətin hüquq norması vasitəsi ilə tənzimləyici təsirinin nəticəsidir ki, bu xüsusiyyət ona hüquqi forma verir;
- hüquq münasibətlərinin tərəflərinin hərəkətləri (davranışları) hüquq normaları ilə tənzimlənir;
- hüquq münasibətlərinin tərəfləri hüquq normaları ilə müəyyən edilmiş qarşılıqlı hüquq və vəzifələrin daşıyıcıları kimi çıxış edirlər;
- hüquq münasibətləri şüurlu-iradəvi mahiyyətə malikdirlər; onlar bir tərəfdən insanların (orqanların) şüurlu-iradəvi fəaliyyətinin məhsulu olan hüquq normaları əsasında əmələ gəlir, digər tərəfdən isə hüquq münasibətlərinin iştirakçıları hüquq normalarında nəzərdə tutulmuş hüquq və vəzifələrini öz iradəvi, şüurlu hərəkətləri vasitəsi ilə həyata keçirirlər;
- hüquq münasibətlərinə dövlət tərəfindən təminat verilir və zəruri hallarda onlar dövlətin məcburetmə vasitələri ilə qorunurlar.

Yuxarıda göstərilənlərə uyğun olaraq, inzibati hüquq münasibətləri dedikdə – inzibati hüquq normaları vasitəsi ilə tənzimlənən idarəetmə xarakterli ictimai münasibətlər başa düşülür. Bu münasibətlərdə tərəflər inzibati hüquq normaları ilə müəyyən edilmiş və təminat verilmiş qarşılıqlı hüquq və vəzifələrin daşıyıcıları kimi çıxış edirlər.

İnzibati hüquq münasibətlərin ümumi xarakteristikasını tamamlayan bəzi amilləri qeyd etmək lazımdır. Çünki onlar inzibati hüquq münasibətlərini başqa hüquq münasibətlərindən fərqləndirməyə imkan verirlər. Bu amillər inzibati hüquq münasibətlərin təbiətinə təsir göstərirlər, ona görə də onların araşdırılması lazımınca zəruridir. Bunlar aşağıdakılardır:

- onların yaranma sahəsi (icra hakimiyyəti mexanizminin fəaliyyət göstərdiyi sahə);
- inzibati-hüquqi tənzimlənmənin spesifik xüsusiyyətləri (idarəetmə subyektinin iradəsinin amiranə və birtərəfli ifadə edilməsi);
- inzibati hüquq normaların hüquqi məzmunu.

İnzibati hüquq münasibətlərin problemləri daim kəskin surətdə diskussiyalı olmuşdur. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra dövlət idarəetmə sisteminin bazar iqtisadiyyatı vəziyyətinə keçirilməsi ilə əlaqədar olaraq bu problem daha da kəskinləşib.

Ona görə də bu problem ümumiyyətlə inzibati hüququn, xüsusilə də inzibati-hüquqi tənzimlənmə vasitələrinin mövcudluğunu başa düşmək üçün prinsipial əhəmiyyətə malikdir. Beləliklə, inzibati hüquqi münasibətlərin mahiyyətini xarakterizə edə bilən elə elementlərin ayrılması əsas əhəmiyyət kəsb edir ki, onların köməkliyi ilə hüquq münasibətləri sistemində həmin elementlərin real yerlərinin müəyyən edilməsi mümkündür.

İnzibati hüquq münasibətlərin xüsusiyyətləri aşağıdakılardır:

1. <u>İnzibati hüquq münasibətləri</u> haqqında geniş fikir yayılmışdır ki, digər hüquq münasibətlərindən (birinci növbədə mülki-hüquqi) fərqli olaraq, onlar <u>″hakimiyyət-tabeçilik″ əsasında təşkil edilmiş ″hakimiyyət münasibətləri″ kimi mövcuddurlar.</u>

İnzibati hüquq münasibətlərin belə qiymətləndirilməsi üçün müəyyən əsaslar mövcuddur. Lakin onların ″hakimiyyət-münasibəti″ kimi şərh edilməsi bir çox dəqiqləşdirmələrin, araşdırmaların və əlavələrin açıqlanmasını tələb edir. Qeyd etmək lazımdır ki, hüquq ictimai münasibətlərin xüsusi tənzimləyicisidir. Özünün sosial və hüquqi məzmununa görə o, lazımi dərəcədə ″hakimiyyət″ başlanğıcını əks etdirir.

İnzibati hüquq münasibətləri hakimiyyət münasibətləri kimi adlandırmaqla, ifrata qapılmaq və inzibati hüququn rolunu polis səviyyəsinə gətirmək, inzibati hüquq münasibətləri isə son dərəcədə dövlət məcburetməsinə əsaslanmış kimi qəbul etmək lazım deyil. Lakin onların xarakteristikasına bilavasitə belə yanaşma daha geniş yayılmışdır.

Hakimiyyət münasibətinə bir kateqoriya kimi inzibati hüquq münasibətin spesifik xüsusiyyəti kimi baxmaq olmaz. Digər tərəfdən isə onların məhz bu əlamətləri üstünlük təşkil edir, çünki onların bu əlaməti dövlət idarəetmə fəaliyyətinin əsasən birinci əlaməti kimi müəyyən edilmişdir.

Dövlət idarəetmə fəaliyyətinin təbiəti sosial idarəetmənin istənilən başqa növləri kimi, idarəetmə subyektlərinin yeni hakimiyyət səlahiyyətlərinə malik olan tərəfin mövcudluğu zəruriyyətini tələb edir. Qeyd etdiklərimizə əsaslanaraq göstərmək olar ki, idarəedən subyektin iradəsi (vahid idarəetmə iradəsi) müəyyən dərəcədə üstünlüyə malikdir. Buna uyğun olaraq da onun öz şüurlu-iradəvi təsirini göstərməsi idarəetmə obyektinin davranışının tənzimlənməsinə yönəldilmişdir. İdarəetmə obyektinin davranışlarının tənzimlənməsi yönəldilmiş tənzimlənmənin təcrübi cəhətdən belə ifadə edilməsi, adətən ″göstəriş″ kimi xarakterizə edilir, bu da ″hakimiyyət-tabeçilik″ əlaqəsinə körpü vasitəsidir.

Əlbəttə, ″göstəriş″ sözü burada lazımınca sərt formada səslənir. Lakin həmişə real vəziyyəti nəzərə almaq lazımdır ki, hər şey tənzimlənən vəziyyətdən asılıdır. Bəzi hallarda (məsələn, fövqəladə vəziyyət şəraitində) onu həqiqətən daha sərt formada, lakin bəzi hallarda isə inzibati hüquq münasibətlərin iştirakçılarının davranışlarına yumşaq formada təsir göstərmə kimi (məsələn, icazə vermə, mükafatlandırma) hiss etmək olar. Bir halda ki, dövlət idarəetməsi hakimiyyət xarakteri daşıyır, onda idarə olunanların iradələrinə, şüurlarına və davranışlarına tənzimləmənin təsir etmə prosesini digər formada təsvir etmək çətindir.

İnzibati hüquq münasibətlərin - ″hakimiyyət münasibəti″ kimi xarakterizəsi - bir tərəfin, yəni idarəedən tərəfin (idarəetmə subyektinin) ″hakim mövqe tutma″ vəziyyəti ilə müəyyən edilir. Belə hallarda ″hakimiyyət – iradə başlanğıcı″ özünün birbaşa ifadə formasını sosial idarəetmənin istənilən növünə xas olan, lakin müxtəlif formalarda ifadə olunan formada tapır. Bu, dövlət idarəetmə sahəsində, yəni icra hakimiyyətinin funksiyaları bilavasitə həyata keçirildikdə və ya inzibati hüquq münasibətlərdə özünü hüquqi cəhətdən daha qabarıq şəkildə biruzə verir. Xüsusən buna görə də onlar bir çox hallarda hakimiyyət münasibətləri kimi xarakterizə olunurlar.

2. Dövlət idarəetmə fəaliyyəti prosesində inzibati hüquq münasibətləri icra hakimiyyətinin vəzifə, funksiya və səlahiyyətlərinin təcrübi cəhətdən həyata keçirilməsi ilə birbaşa bağlıdırlar. Onların bu xüsusiyyəti hüquq münasibətlərinin istənilən iştirakçlıranın davranışlarına müəyyən iz (yer) qoyur; onların vəzifə və hüquqları icra hakimiyyətinin mərkəzdə və yerlərdə təcrübi cəhətdən həyata keçirilməsi ilə hökmən bağlıdır.

Beləliklə də, inzibati hüquq münasibətlərin müəyyən edilmiş xüsusiyyətinin mahiyyəti ondan ibarətdir ki, onlar, bir qayda olaraq dövlət və ictimai həyatın xüsusi sahələrində dövlət idarəetmə sahəsində yaranırlar.

3. Dövlət idarəetmə sahəsi - dövət fəaliyyətinin elə sahəsidir ki, burada xüsusi növ subyektlər fəaliyyət göstərirlər. Ümumilikdə, onları ya dövlət idarəetmə orqanları, ya da icra hakimiyyəti orqanları adlandırırlar. Bu, o deməkdir ki, inzibati hüquq münasibətlərdə dövlət idarəetməsi öz əksini tapmış olur, yəni dövlət fəaliyyətinin bu növündə müvafiq subyektlərin səlahiyyətləri ifadə olunurlar.

Müxtəlif inzibati hüquq münasibətlər yalnız dövlət idarəetmə sahəsində yaranmır (burada mülki-hüquqi münasibətlər də yarana bilər), onların yaranma sahələri daha genişdir. İnzibati hüquq münasibətlər icra hakimiyyətinin səlahiyyətli subyektlərinin idarəetmə səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar və səbəbindən də asılı olaraq yarana bilər. Məsələn: vətəndaşlarla idarəetmə orqanları arasında yaranan inzibati hüquq münasibətlərin konkret məzmunu məhz belədir. Bu münasibətlərdə açıq-hüquqi marağın ifadə edilməsi əsasdır. Lakin belə münasibətlər vətəndaşlar arasında, həmçinin qeyri-hökumət təşkilatları arasında və onların daxilində yarana bilməz.

İnzibati hüquq münasibətlərin bu xüsusiyyəti onunla izah olunur ki, inzibati hüquq tənzimləmənin əsas obyektini təşkil edən idarəetmə fəaliyyəti - dövlətin iradəsini və marağını birbaşa və bilavasitə əks etdirir. Onları yalnız elə subyektlər ifadə edə bilərlər ki, onlar:

- birincisi, dövlətin adından fəaliyyət göstərirlər;
- ikincisi, dövlət-hakimiyyət xarakterinə malik olan müvafiq səlahiyyətlərin daşıyıcılarıdırlar.

Ona görə də inzibati hüquq münasibətlərdə daim tərəflərdən biri icra hakimiyyətinin (geniş mənada - dövlət idarəetməsinin) rəsmi və səlahiyyətli subyekti olmalıdır. Başqa cür desək, inzibati-hüquqi münasibətlərdə müxtəlif tərəflərin iştirak etmələrinə baxmayaraq, onlarda daim mütləq tərəf olmalıdır (iştirak etməlidir), onlarsız bu növ münasibətlər ümumiyyətlə yarana bilməzlər. Beləliklə, onlar yalnız açıq hüquqi maraq təmsil edən müvafiq icra hakimiyyəti orqanının (vəzifəli şəxsin) mütləq iştirakı şəraitində yaranırlar. Bunun da birbaşa nəticəsində dövlət idarəetmə fəaliyyətinin ″hakimiyyət təbiəti″ özünü əks etdirir.

Göründüyü kimi, məsələn, vətəndaş müxtəlif inzibati hüquq münasibətlərin potensial iştirakçısı olmasına baxmayaraq, o, belə rollarda çıxış edə bilməz.

4. İnzibati hüquq münasibətləri öz mahiyyətinə görə təşkilatçılıq xarakteri daşıyırlar. Nəzərə almaq lazımdır ki, icra hakimiyyəti funksiyasının həyata keçirilməsi ilə onların birbaşa əlaqəsi, öz məzmununa görə başlıca olaraq ″hüquq icraetmə″ prosesinin təşkilinə yönəldilmişdir. Onların çərçivəsində ″hüquq icraetmə″ prosesi və bu prosesin struktur, kadr, maddi və digər rəmzlərlə təmin edilməsi yaranır, onlarsız da dövlət idarəetmə mexanizminin fəaliyyəti mümkün deyil.

Beləliklə, inzibati hüquq münasibətləri ″təşkilati münasibətlərin″ xüsusi növlərindən biridir və onlar yalnız idarəetmə aparatının özünəməxsus işinin təşkili məqsədini güdmür, həm də özünün ″təşkiletmə″ çərçivəsindən kənara çıxan müxtəlif növlü təşkilati aspektləri də əhatə edirlər. Məsələn, quruluş mənasında müxtəlif idarəetmə strukturlarının təşkili; yaranan qeyri-hökumət təşkilatlarının qeydiyyatı və s.

Funksional mənada isə bu, dövlət idarəetmə sahəsi ilə əlaqəsi olanların hamısının davranışlarına gündəlik tənzimləyici təsirlərin göstərilməsindən ibarətdir. Əgər inzibati hüquq münasibətlər öz mahiyyətinə görə ″təşkilatçılıq″ xarakteri daşıyırlarsa, onlar dövlət idarəetmə orqanlarının xüsusi subyektlərinin fəaliyyəti ilə bilavasitə bağlıdırlar və belə

hallarda onlar spesifik hüquq normaları, xüsusən də inzibati hüquq normaları əsasında yaranırlar.

5. İnzibati hüquq münasibətləri tərəflərin birinin təşəbbüsü ilə yaranır. Lakin onların yaranmasında ikinci tərəfin razılığı və ya istəyi bütün hallarda məcburi şərt kimi qəbul edilə bilməz. Onlar ikinci tərəfin istəyindən və ya razılığından asılı olmayaraq da yarana bilər.

İnzibati hüquq münasibətlərin bu əlaməti onları mülki hüquq münasibətlərdən daha yüksək dərəcədə fərqləndirir.

İnzibati hüquq münasibətlərin bu xüsusiyyəti başlıca olaraq onunla müəyyən edilir ki, onlarda hakimiyyət subyektlərinin iştirakı məcburi xarakter daşıyır. Belə şəraitdə də inzibati-hüquqi normalar, həmin subyektlərə elə hərəkətlərin həyata keçirilməsini məcbur edir ki, onların yerinə yetirilməsi nəticəsində konkret inzibati hüquq münasibətlərin yaranması baş verir. Beləliklə, göstərilən subyekt başqa tərəflə müqavilə əlaqəsinə girməmək şərti ilə öz təşəbbüsü və hərəkətləri ilə belə hüquqi nəticələri yaratmağa borcludur, bu da mülki-hüquqi münasibətlərə xasdır. Belə hallarda inzibati hüquq normaları faktiki olaraq ″mümkün olan″ davranışı yox, inzibati hüquq münasibətləri yaradan tərəflər üçün ″məcburi″ davranışı dürüst ifadə edir.

6. İnzibati hüquq münasibətlərin tərəfləri arasında mübahisələr mümkündür. Məsələn: icra hakimiyyəti orqanı (vəzifəli şəxs) tərəfindən vətəndaşa qarşı tətbiq edilən tənbehlərin qanunauyğunluğu mübahisə doğura bilər.

Bu mübahisə hüquq münasibətinin yaranmasına heç bir təsir göstərə bilmir, lakin bu narazılıq müəyyən hüquqi nəticələrin yaranmasına səbəb olur (məsələn: vətəndaş tətbiq edilmiş tənbehin qanuni olub-olmamasına etiraz etmək hüququna malikdir). Konkret inzibati-hüquqi mübahisələr belə yaranırlar.

Məlumdur ki, mülki hüquq mübahisələrin həll edilməsi üçün xüsusi prosessual qayda müəyyən edilmişdir (iddia icraatı). İnzibati hüquq mübahisələrin həll edilməsi üçün də belə qayda mövcuddur. Bir qayda olaraq, bu növ mübahisələr inzibati qaydada, yəni məhkəmədən kənar qaydada həll edirlər. Bunun məzmunu ondan ibarətdir ki, mübahisələrin həll edilməsi dövlət idarəetmə sahəsi çərçivəsindən kənara çıxmır, əksinə o, dövlət idarəetmə fəaliyyətinin rəmzlərindən biri kimi mövcuddur. İnzibati hüquq mübahisələrin həll edilməsinin mahiyyəti belə hallarda səlahiyyətli icra hakimiyyəti orqanı (vəzifəli şəxs) tərəfindən mübahisə predmeti üzrə hüquqi hakimiyyət qərarının qəbul edilməsindən ibarətdir. Beləliklə də, mübahisə vəziyyətini yaradan qərarın (hərəkətin) qanuniliyi bu qaydada həll edilir.

Qüvvədə olan qanunvericilik bir çox hallarda inzibati hüquq mübahisələrin məhkəmə qaydası ilə həll edilməsini müəyyən etmişdir.

İnzibati hüquq mübahisələrin həllinə prokurorluq orqanlarının nəzarət fəaliyyətinin yanakı münasibəti var. Onlar icra hakimiyyəti subyektlərinin qeyri-qanuni qərarlarına qarşı protest vermək hüququna malikdirlər, lakin belə hallarda da mübahisələr həll edilmir və yaxud da idarəetmə aktına qarşı verilən protest, onalrın ″avtomatik olaraq″ ləğv edilməsinə səbəb olmur.

7. Mülki hüquq münasibətlər üçün bir tərəfin digər tərəf qarşısında məsuliyyət daşıması xasdır. İnzibati-hüquqda isə inzibati hüquq normaların tələblərinin pozulmasına görə, inzibati hüquq münasibətlərin tərəflərinin məsuliyyətinin digər qaydası müəyyən edilmişdir. Belə hallarda hüquq münasibətləri iştirakçılarının məsuliyyəti bir tərəfin ikinci tərəf qarşısında yox, birbaşa dövlət qarşısında, onun adından çıxış edən müvafiq orqan (vəzifəli şəxs) qarşısında məsuliyyət daşıması kimi başa düşülür. Bu onunla izah olunur ki,

belə hallarda icra hakimiyyəti sahəsində açıq-hüquqi maraqların faktiki olaraq pozulmasından söhbət gedir. Buna görə icra hakimiyyəti orqanları (vəzifəli şəxslər) inzibati hüquq normaların tələblərini pozanlara qarşı müstəqil olaraq təsir tədbirlərini (intizam və inzibati məsuliyyət tədbirləri) tətbiq etmək səlahiyyətlərinə malikdirlər.

İdarəetmə subyektləri özləri də bu kimi (buna oxşar) tələblərin pozulmasına görə məsuliyyət daşıyırlar.

Birinci sualı yekunlaşdıraraq qeyd etmək istərdim ki:

1. İnzibati hüquq münasibətlər dedikdə inzibati hüquq normalar vasitəsi ilə tənzimlənən idarəetmə xarakterli ictimai münasibətlər başa düşülür. Bu münasibətlərdə tərəflər inzibati hüquq normaları ilə müəyyən edilmiş və təmin edilmiş qarşılıqlı hüquq və vəzifələrin daşıyıcıları kimi çıxış edirlər.

2. İnzibati hüquq münasibətlərin aşağıdakı xüsusiyyətləri mövcuddur:

- onlar ″hakimiyyət-tabeçilik″ əsasında təşkil edilmiş, hakimiyyət münasibətləri kimi mövcuddurlar;
- dövlət idarəetmə fəaliyyətinin təbiəti idarəetmə subyektlərinin fərqləndirilməsi zəruriyyətini tələb edir, yəni inzibati hüquqla nizama salınan idarəetmə münasiətlərinin o tərəfini ki, hansıların ki, əllərində hakimiyyət cəmləşdirilmişdir;
- İnzibati hüquq münasibətləri icra hakimiyyətinin vəzifə, funksiya və səlahiyyətlərinin təcrübi cəhətdən həyata keçirilməsi ilə birbaşa bağlıdırlar;
- İnzibati hüquq münasibətlərdə daima tərəflərdən biri icra hakimiyyətinin rəsmi və səlahiyyətli subyekti olmalıdır;
- İnzibati hüquq münasibətlər öz mahiyyətinə görə təşkilatçılıq xarakteri daşıyırlar;
- İnzibati hüquq münasibətləri, tərəflərin birinin təşəbbüsü ilə yaranır. Lakin, onların yaranmasında ikinci tərəfin razılığı və ya istəyi bütün hallarda məcburi şərt kimi qəbul edilə bilməz. Onlar, ikinci tərəfin istəyindən və ya razılığından asılı olmayaraq da yarana bilər;
- İnzibati hüquq münasibətlərin tərəfləri arasında mübahisələr mümkündür (bu mübahisələrin həlli ya inzibati qaydada və ya məhkəmə qaydasında mümkündür);
- İnzibati hüquq normaların tələblərini pozan və inzibati-hüquqi münasbətin tərəfinin məsuliyyəti birbaşa dövlət qarşısında yaranır (onun səlahiyyətli orqan və vəzifəli şəxsi).

Sual 2.

İnzibati hüquq münasibətlərin quruluşu və növləri

Birinci sualda qeyd etdiyimiz kimi, inzibati hüquq münasibətləri dövlət idarəetmə sahəsində yaranan və inzibati hüquq normaları vasitəsi ilə tənzimlənən ictimai münasibətlərdir. Göstərdiyimiz kimi, inzibati hüquq münasibətləri ümumilikdə hüquq münasibətlərinin növlərindən biri olduqları üçün onlara (hüquq münasibətlərinə) xas olan bütün ümumi əlamətlərə malikdirlər. Bununla yanaşı, inzibati hüquq münasibətlərin özünəməxsus xüsusiyyətləri mövcuddur.

Bu xüsusiyyətlər ondan ibarətdir ki, inzibati hüquq münasibətləri dövlət idarəetməsi sahəsində yaranır, yəni iqtisadiyyatın, sosial-mədəni və inzibati-siyasi sahələrin idarə edilməsində, həmçinin də digər dövlət idarəetmə sahələrində idarəetmə fəaliyyətinin həyata keçirilməsi zamanı meydana çıxır.

İnzibati hüquq münasibətləri inzibati hüquq normaları kimi də daxili quruluşa malikdirlər.

İnzibati hüquq münasibətlərin elementləri (əsas hissələri) aşağıdakılardır:

- İnzibati hüquq münasibətlərin subyektləri;
- İnzibati hüquq münasibətlərin obyektləri;
- İnzibati hüquq münasibətlərin hüquqi faktları.

İndi isə bu elementlərin hər birini ayrı-ayrılıqda açıqlayaq.

1. İnzibati hüquq münasibətlərin subyektləri inzibati hüquq və vəzifələrə malik olan şəxslər ola bilərlər.

İnzibati hüquq münasibətlərin subyektləri aşağıdakılardır:

- Azərbaycan Respublikasının vətəndaşları;
- əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;
- dövlət orqanları və onların struktur bölmələri, dövlət idarə, müəssisə və təşkilatları;
- qeyri-hökumət təşkilatları;
- dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının qulluqçuları və xidmətçiləri;
- inzibati hüquqlara və vəzifələrə malik olan qeyri-hökumət təşkilatlarının üzvləri.

Bütün hallarda inzibati hüquq münasibətlərin subyektləri inzibati hüquqlara və vəzifələrə malik olmalıdırlar. Bu da onların inzibati hüquq subyektivliyini yaradır. İnzibati hüquq subyektivliyi inzibati hüquq qabiliyyətindən və inzibati fəaliyyət qabiliyyətindən ibarətdir.

İnzibati hüquq qabiliyyəti dedikdə vətəndaşın dövlət idarəetmə sahəsində inzibati hüquqları və vəzifələri daşımaq (sahib olmaq) qabiliyyəti başa düşülür.

İnzibati fəaliyyət qabiliyyəti dedikdə müəyyən yaş həddinə çatmaqla vətəndaşa dövlət idarəetmə sahəsində verilmiş hüquqları öz hərəkətləri ilə həyata keçirmək, üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək, bunun nəticəsində yeni hüquq və vəzifələr əldə etmək və öz davranışına görə hüquqi məsuliyyət daşımaq qabiliyyəti başa düşülür.

Azərbaycan Respublikasının vətəndaşlarında inzibati hüquq subyektivliyi onların doğulduğu vaxtdan yaranır və ölümləri ilə xitam olunur. Dövlət orqanlarında, müəssisələrdə, idarələrdə, təşkilatlarda və başqa dövlət bölmələrində isə onların müəyyən edilmiş qaydada təsis olunduqları (təşkil edildikləri) gündən yaranır.

Dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının qulluqçularında inzibati hüquq subyektivliyi isə onların vəzifəyə təyin olunduqları gündən yaranır.

İnzibati hüquq normaların tənzimlənməsinin ümumi obyektini başqa hüquq normalarında olduğu kimi, ictimai münasibətlər, bilavasitə obyektini isə ictimai münasibətlərdə iştirak edən subyektlərin davranışları təşkil edir.

Hər bir konkret inzibati hüquq münasibətdə iştirakçılar hüquq münasibətlərinin obyektini təşkil edən və onlara verilmiş hüquqları və üzərinə qoyulmuş vəzifələri həyata keçirirlər.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki:

2. İnzibati hüquq münasibətlərin obyektini həmin münasibətlərin yaranma səbəbi təşkil edir.

İnzibati hüquq münasibətlərin obyektlərinin iki növü mövcuddur:

a) subyektin(lərin) qanunauyğun davranışı nəticəsində yaranan inzibati hüquqi münasibətlər (məsələn, şəxsiyyət vəsiqəsinin alınması ilə əlaqədar vətəndaşın DİO-ya müraciəti);

b) subyektin(lərin) qanunazidd davranışı(ları) nəticəsində yaranan inzibati hüquqi münasibətlər (məsələn, vətəndaşın inzibati xəta törətməsi).

İnzibati hüquq münasibətlərin yaranmasında, dəyişməsində və xitam olunmasında hüquqi faktlar əsas rol oynayırlar.

3. Hüquqi faktlar elə faktlardır ki, onlar inzibati-hüquqi nəticələr yaradırlar.

İnzibati hüquq münasibətləri inzibati hüquq normaları ilə nəzərdə tutulmuş şəraitin mövcud olduğu hallarda yaranır, dəyişir və xitam olunur. Bunlar hüquqi faktlardır. Hüquqi faktlar kimi, bir qayda olaraq, hərəkət, bəzi hallarda isə hadisə çıxış edir.

Hadisələr bu, elə təzahürlərdir ki, onlar şəxslərin (fərdlərin) iradəsindən, davranışından asılı olmayaraq yaranırlar.

Hər bir inzibati hüquqi münasibətlər onun iştirakçısının hüquq və vəzifələrinin müəyyən edilmiş qarşılıqlı əlaqələridir. İnzibati hüquqi normalar qabaqcadan tərəflərin səlahiyyətlərinin həcmini, onların qarşılıqlı hüquq və vəzifələrini, həm də vəzifələrin yerinə yetirilməməsinə və ya hüquqlarının pozulmasına görə hüquqi məsuliyyətlərini müəyyən edirlər. Subyektlərin birinin subyektiv hüququna görə səlahiyyətləri həmişə başqasının (digərinin) hüquqi vəzifəsinə uyğun olmalıdır və əksinə.

Hərəkətlər hüquqi fakt kimi subyektin iradəsinin ″aktiv″ ifadə edilməsinin nəticəsidir.

İNZIBATI HÜQUQ MÜNASIBƏTLƏRIN NÖVLƏRI

İnzibati hüquq münasibətləri öz məzmunlarına, onların iştirakçılarının hüquq və vəzifələrinin nisbətinə, onları yaradan hüquqi faktların xarakterinə və onların mühafizə üsullarına görə fərqlənirlər.

1. İnzibati hüquq münasibətləri hüquqi məzmununa görə iki yerə bölünürlər:

- maddi inzibati hüquq münasibətləri;
- prosessual inzibati hüquq münasibətlər.

Maddi inzibati hüquq münasibətləri dedikdə, dövlət idarəetmə sahəsində yaranan o ictimai münasibətlər başa düşülür ki, onlar inzibati hüququn maddi normaları ilə tənzimlənir.

Prosessual inzibati hüquq münasibətləri dedikdə isə dövlət idarəetmə sahəsində yaranan o ictimai münasibətlər başa düşülür ki, onlar konkret fərdi işin həlli ilə bağlı olur və inzibati hüququn prosessual normaları ilə tənzimlənir.

İnzibati prosessual münasibətlərə misal olaraq vətəndaşların ərizə, təklif və şikayətlərinin dövlət idarəetmə orqanları və onların vəzifəli şəxsləri tərəfindən baxılması və həll edilməsi zamanı yaranan hüquq münasibətlərini göstərmək olar.

Maddi və prosessual inzibati hüquqi münasibətlərin qarşılıqlı əlaqəsi onunla xarakterizə olunur ki, maddi münasibətlər prosessual münasibətlər vasitəsi ilə yerinə yetirilirlər. Bundan əlavə inzibati prosessual münasibətlər hüququn bir sıra başqa sahələrinin hüquq münasibətlərinə xidmət edir, onların yerinə yetirilməsini təmin edirlər. Məsələn, inzibati prosessual münasibətlərin vasitəsi ilə maliyyə, əmək və hüququn başqa sahələrinin maddi münasibətləri realizə olunurlar.

2. İnzibati hüquq münasibətlərini yaradan hüquqi faktlar öz xarakterlərinə görə iki yerə bölünürlər:

- qanunauyğun hərəkətlər əsasında yaranmış (meydana gəlmiş) inzibati hüquqi münasibətlər;

- qanunazidd hərəkətlər əsasında yaranmış (meydana gəlmiş) inzibati hüquqi münasibətlər.

Qanunauyğun hərəkətlər inzibati-hüquqi normaların tələbinə uyğun olur. İnzibati hüquq münasibətlərin iştirakçıları olan subyektlərin qanunauyğun hərəkətlərini hüquqi fakt kimi göstərmək olar. Məsələn, vətəndaş tərəfindən şikayətin verilməsi ilə onunla ərizənin ünvanlandığı icra hakimiyyəti orqanı (vəzifəli şəxs) arasında konkret inzibati hüquqi münasibət yaranır.

Hüquqi faktların inzibati hüquqa, əsasən, xüsusiyyəti ondan ibarətdir ki, hüquqi hərəkətlərin əsas növləri icra hakimiyyəti subyektlərinin hüquqi aktları hesab edilirlər. Qəbul edilmiş bu hüquqi aktlar fərdi xarakter daşıyır, yəni onlar konkret ″ünvançıya″ və ya inzibati işə aid olurlar. Onların birbaşa hüquqi nəticələri inzibati hüquq münasibətlərin yaranması, dəyişməsi və ya xitam olunmasıdır. Məsələn, vəzifəyə təyin etmə haqqında əmr, həmin şəxsin dövlət-qulluq münasibətlərinin yaranmasına səbəb olur.

Qanunazidd hərəkətlər isə inzibati hüquq normaların tələblərinə cavab vermir, yəni onların tələblərini pozur. Bunlar intizam və inzibati xətalardır, onlar dövlət idarəetmə sahəsi üçün daha xarakterikdirlər.

3. Subyektlərin hüquq və vəzifələrinə və ya bir-birinə qarşı olan münasibətlərinə görə inzibati hüquq münasibətləri iki qrupa bölmək olar:

İnzibati hüquq münasibətlərinə görə bir subyekt o birinə tabe olur (şaquli xətt üzrə subyektlərin hüquq münasibətləri, ″hakimiyyət-tabeçilik″);

İnzibati hüquq münasibətlərinə görə subyektlər bir-birinin tabeçiliyində olmurlar (üfiqi hüquq münasibətləri, əlaqələndirmə münasibətləri (koordinasiya və razılaşdırma)).

Birinci qrupa aid olan subyektlər inzibati hüquq münasibətlərinə görə tabeçilik çərçivəsində biri-birinə tabe olurlar. Məsələn, aşağı səlahiyyətli orqanlar yuxarı səlahiyyətli orqana tabe olurlar; dövlət idarəetmə orqanlarının struktur bölmələrinin öz aralarındakı tabeçilik münasibətləri və s.

Şaquli xətt üzrə inzibati hüquq münasibətlər, inzibati hüquqi münasibətin bir subyektinin normativ aktının icrası qanunvericiliyə uyğun olaraq, başqa subyekt üçün məcburi xarakter daşıyan hallarda da yaranır. Belə ki, çox vaxt dövlət idarəetmə orqanı normativ akt qəbul etmək səlahiyyətinə malik olur, qəbul edilmiş akt yalnız onun bilavasitə tabeçiliyində olan orqan və təşkilat üçün məcburi xarakter daşıyır, o, həm də onun tabeçiliyində olmayan orqanlar, təşkilatlar, idarələr, müəssisələr, xidmətçilər və vətəndaşlar üçün də məcburi xarakter daşıya bilər.

Şaquli xətt üzrə yaranan inzibati-hüquqi münasibətlər üçün bir tərəfin iradəsinin ifadə edilməsi əsasında yaranması xarakterikdir, lakin onların yaranmasında onları yaradan orqan və ya vəzifəli şəxsin səlahiyyətləri nəzərə alınır. Şaquli inzibati hüquq münasibətləri hüquq münasibətinin başqa subyektinin iradəsindən kənar və ya asılı olmayaraq da yarana bilər.

İkinci qrupa aid olan subyektlər isə inzibati hüquq münasibətlərinə görə bir-birinə tabe olmurlar. Məsələn: dövlət idarəetmə sistemində elə münasibətlər vardır ki, bu münasibətlərin iştirakçıları olan idarə, müəssisə, təşkilatlar öz quruluşlarına görə bir-birinə tabe deyillər, lakin dövlət idarəetmə sistemində onlar eyni bir vəzifəni yerinə yetirən zaman onların hər biri ayrı-ayrılıqda öz hüquq və vəzifələrini həyata keçirirlər.

4. Müdafiə üsullarına görə inzibati hüquq münasibətlər inzibati və məhkəmə qaydasında müdafiə olunan inzibat hüquq münasibətlərə bölünürlər.

İnzibati hüquq münasibətlər inzibati hüquq münasibəti iştirakçılarının inzibati hüquqi normalarda ifadə olunan tələblərə uyğun davranışıdır. Bu tələblərin pozulması hallarında, onların inzibati və ya məhkəmə qaydasında müdafiəsinin zərurəti yaranır.

İnzibati hüquqi münasibətlərin əksəriyyəti inzibati hüququn subyektlərinin qanunauyğun hərəkətlərindən, əsasən də fəal (aktiv) hərəkətlərindən yaranır. İnzibati hüquqi münasibətlərin bir hissəsi də hüquqpozmaların törədilməsi ilə əlaqədar olaraq yaranır. Məsələn: polis ilə hüquqpozmanı törətmiş vətəndaş arasında yaranan münasibətlər.

İnzibati hüquqi münasibətlərin müdafiəsindən söz açarkən hər iki halda yaranan münasibətlərdən danışmaq lazımdır.

Qanunauyğun hərəkətlər əsasında yaranan inzibati hüquq münasibətlərin müdafiəsi onların qanunvericiliyə muvafiq olan dəqiq inkişafının təmin edilməsindən ibarətdir.

Hüquqpozmalar əsasında yaranan inzibati hüquqi münasibətlərin müdafiəsinə isə aşağıdakı tələblər qoyulur:

- qanunvericiliyin tələblərinə uyğun olaraq onların inkişafı və xitam olunması;
- şəxsin hüquqlarının müdafiəsinin təmin edilməsi;
- qanunvericilikdə göstərilən məcburetmə tədbirlərinin prosessual qaydalara ciddi riayət edilməsi ilə tətbiq edilməsi.

Bu tədbirlərdən istənilən formada yayınmanın qarşısı qətiyyətlə alınmalıdır. Bu qrupa aid olan inzibati hüquqi münasibətlərin də müdafiəsi bundan ibarətdir.

Qeyd etdiyimiz kimi, qanunvericilikdə inzibati hüquqi münasibətlərin müdafiəsinin iki üsulu inzibati və məhkəmə üsulları müəyyən edilmişdir.

<u>İnzibati hüquq münasibətlərin inzibati qaydada müdafiəsi</u> icra hakimiyyəti orqanları (vəzifəli şəxslər) tərəfindən vətəndaşların şikayətlərinə və ərizələrinə baxılmasından və inzibati hüquq münasibətlərin yaranmasına, dəyişməsinə və xitam olunmasına nəzarətin həyata keçirilməsindən ibarətdir. Məsələn: qəbul edilmiş qərarların icrasına nəzarətin keçirilməsi dövlət orqanlarının vəzifəsidir; ali hakimiyyət orqanları tərəfindən vəzifəyə təyin edilmiş vəzifəli şəxslər onlara qarşı tətbiq edilmiş intizam tənbehləri barədə şikayəti yalnız yuxarı instansiya orqanlarına verə bilərlər.

<u>İnzibati hüquq münasibətlərin məhkəmə qaydasında müdafiəsi</u> - dövlət orqanlarının və vəzifəli şəxslərin qərarlarından (hərəkətlərindən və hərəkətsizliklərindən) verilmiş şikayətlər məhkəmə qaydasında baxıla bilər. Bununla yanaşı, Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsində hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilməsi barədə müvafiq müddəalar mövcuddur. Azərbaycan Respublikasının vətəndaşlarının şikayət vermə qaydası ″Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında″ Azərbaycan Respublikasının 11 iyun 1999-cu il tarixli Qanunu ilə tənzimlənmişdir.

İkinci sualı yekunlaşdıraraq qeyd etmək istərdim ki:

1. İnzibati hüquq münasibətlərinin elementləri (əsas hissələri) aşağıdakılardır:

- İnzibati hüquq münasibətlərin subyektləri;
- İnzibati hüquq münasibətlərin obyektləri;
- İnzibati hüquq münasibətlərin hüquqi faktları.

2. İnzibati hüquq münasibətləri hüquqi məzmununa görə iki yerə bölünürlər:

- maddi inzibati hüquq münasibətləri;
- prosessual inzibati hüquq münasibətləri.

3. Onları yaradan hüquqi faktların xarakterinə görə:

- qanuna uyğun faktlar əsasında yaranan inzibati hüquq münasibətlər;
- qanuna zidd faktlar əsasında yaranan inzibati hüquq münasibətlər

4. Müdafiə üsuluna görə:

- inzibati qaydada müdafiə olunan;
- məhkəmə qaydasında müdafiə ounan inzibati hüquq münasibətləri.

Sual 3.
DİO-nun fəaliyyətində inzibati hüquqi münasibətlər

DİO-nun qarşısında duran əsas vəzifələrin yerinə yetirilməsi prosesində daxili işlər orqanları inzibati-hüquqi tənzimlənmə mexanizminin vasitələrindən istifadə edirlər.

Daxili işlər orqanları və onun vəzifəli şəxsləri özlərinin bilavasitə funksiyalarını həyata keçirərkən inzibati hüquq normaların həyata keçirilməsi üçün özünün tətbiqetmə aktlarını qəbul edir.Daxili işlər orqanları və onun vəzifəli şəxsləri öz vəzifələrini həyata keçirərkən və yaxud da inzibati hüququn başqa subyektləri ilə hüquqi münasibətlər yaradarkən bu münasibətdə olan iştirakçıların hüquq və vəzifələrinin mövcudluğu əsas amil olmalıdır, yəni onların mövcud olması vacibdir. Çünki inzibati hüquq münasibətdə olan subyektin birinin hüququ o birisinin vəzifəsinin yerinə yetirilməsini tələb edir və ya əksinə, yəni bir subyekt öz vəzifəsini yerinə yetirməklə o birisinin hüququnun həyata keçirilməsini təmin etmiş olur.DİO-nun fəaliyyətində inzibati hüquq münasibətdə olan subyektlərin hüquqlarından və vəzifələrindən asılı olaraq subyektlərin biri o birinə tabe olur və yaxud da onların olduqları münasibətdən asılı subyektlər eyni hüquqa və vəzifəyə malik olurlar.

İnzibati-hüquqi tənzimlənmə mexanizmində DİO-nun əməkdaşları elə inzibati hüquqi münasibətlərdə olurlar ki, həmin münasibətlərdə DİO-nun əməkdaşları dövlət nümayəndəsi kimi iştirak edirlər, yəni onlar öz vəzifələrini yerinə yetirərkən dövlət adından çıxış edirlər.

DİO-nun əməkdaşları dövlət-hakimiyyət səlahiyyətinə malikdirlər. Bu da ki, inzibati-hüquqi tənzimləmə mexanizmində onların qarşısında duran vəzifələrin yerinə yetirilməsinə kömək edir. Bu mexanizmin həyata keçirilməsi ilə onlar ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsini həyata keçirirlər. Daxili işlər orqanlarının əməkdaşları həm də ictimai qaydaların pozulmasının qarşısını alırlar. Bu cür qaydaların pozulmasına şərait yaradan səbəbləri aydınlaşdırır və gələcəkdə onların yenidən törədilməsinin qarşısını almaq üçün tədbirlər həyata keçirirlər.

Bundan başqa vətəndaşlar tərəfindən ictimai qayda pozularsa, onda həmin vətəndaşlar DİO-nun əməkdaşları tərəfindən inzibati qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada tutulub saxlanılır və inzibati məsuliyyətə cəlb olunurlar. Hər bir vətəndaş isə Respublikamızda mövcud olan qayda-qanunlara riayət etməli və DİO-nun əməkdaşlarının qanuni tələblərinə tabe olmalıdırlar.

Daxili işlər orqanları ilə vətəndaşlar arasında yaranan inzibati-hüquqi münasibətlərdə hər iki tərəf çox vaxt eyni hüquq və vəzifəyə malik olurlar.Məsələn, hər iki vətəndaşdan biri özünün hüquq və qanuni marağını həyata keçirmək üçün və yaxud da pozulmuş hüquq və qanuni marağını bərpa etmək üçün DİO-nun əməkdaşlarına müraciət edə bilər. Daxili işlər orqanlarının əməkdaşları isə hər bir vətəndaşın müraciətinə bir vaxtda öz səlahiyyətləri çərçivəsində baxmalıdırlar. Əgər vətəndaşın hüquq və qanuni marağı pozulubsa, tezliklə onun bərpasını təmin etməlidirlər.

Bundan başqa əgər vətəndaş daxili işlər orqanlarına ərizə ilə müraciət edibsə, DİO-nun əməkdaşları vətəndaşın bu ərizəsinə qanunla müəyyən edilmiş qaydada baxmalı və vaxtında

cavab verməlidirlər. Vətəndaşın ərizəsində qanun pozuntusu aşkar edilərsə, pozulmuş qanun tezliklə bərpa olunmalıdır.

Vətəndaş daxili işlər orqanlarına ərizə ilə müraciət edibsə, DİO-nun əməkdaşları həmin ərizəni vaxtında həll etməlidirlər. Əgər həll edilmə vaxtı pozurlarsa və yaxud da ərizəyə baxılmazsa, onda DİO-nun əməkdaşları inzibati və yaxud cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Beləliklə, yuxarıda qeyd edilənləri nəzərə almaqla DİO-nun fəaliyyəti sahəsində yaranan, dəyişən və xitam olunan aşağıdakı növ inzibati hüquq münasibətləri qeyd etmək olar:

1. sistemdaxili münasibətlər, - bu elə münasibətlərdir ki, onların yaranması, dəyişməsi və xitam olunması daxili işlər orqanlarının sistemində baş verir (məsələn, yeni qurumun yaradılması, kadrların yerləşdirilməsi və s.);
2. xarici münasibətlər, yəni sistemdənkənar münasibətlər, - bu elə növ münasibətlərdir ki, onların yaranması, dəyişməsi və xitam olunması DİO-nun qarşısında duran vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar baş verir (yəni DİO-nun sistemindən kənarda). Məsələn: inzibati xəta törətmiş vətəndaşın məsuliyyətə cəlb edilməsi zamanı yaranan inzibati hüquq münasibətlər, vətəndaşlara şəxsiyyət vəsiqəsi verilməsi ilə əlaqədar yaranan inzibati hüquq münasibətləri və s.;
3. şaquli (hakimiyyət-tabeçilik) münasibətləri, məsələn: Azərbaycan Respublikası DİN və Polis Akademiyası arasında yaranan münasibətlər və s.;
4. üfiqi (razılaşdırma və koordinasiya) münasibətləri. Məsələn: Nəsimi RPİ və Səbail RPİ arasında yaranan münasibətlər və s.

N Ə T İ C Ə

Mühazirəmizi yekunlaşdıraraq qeyd etmək istərdim ki, bu günkü mühazirəmizin mövzusunun sullarının açıqlanması vasitəsi ilə əldə etdiyimiz hüquqi biliklərin Sizin gələcək fəaliyyətinizdə həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyəti vardır.

Mühazirəmizin birinci sualının açıqlanması vasitəsi ilə dövlət idarəetmə sahəsində yaranan inzibati-hüquqi münasibətlər, onların əsas xüsusiyətləri və qanunverici aktların maddələrindən irəli gələn tələblərə müvafiq olaraq onların mühafizəsi barədə nəzəri biliklər əldə etmiş oluruq.Mühazirəmizin ikinci sualının açıqlanması vasitəsi ilə isə dövlət idarəetmə sahəsində yaranan inzibati hüquq münasibətlərin quruluşu, onun quruluşunu təşkil edən elementlər, inzibati hüquqi münasibətlərin növləri barədə nəzəri biliklər əldə etmiş oluruq.Ən nəhayət, mühazirəmizin üçüncü sualı vasitəsi ilə DİO-nun fəaliyyətində yaranan inzibati-hüquqi münasibətlər haqqında da nəzəri biliklər əldə etmiş olduq.

″Polis haqqında″ Azərbaycan Respublikası Qanunun 3-cü maddəsinin 2-ci bəndinə əsasən polisin qarşısında duran əsas vəifələrin yerinə yetirilməsində daxili işlər orqanlarının təşkilati-hüquqi formalarından biri olan inzibati fəaliyyətin həyata keçirilməsi zaman daxili işlər orqanları müxtəlif xarakterli inzibati hüquq münasibətlərlə olurlar. Bu məqsədlə də bu günkü mühazirəmizin mövzusunun mahiyyəti ondan ibarətdir ki, Siz onların yaranma, dəyişmə və xitam olunmalarının əsaslarını və qaydaları barədə ətraflı məlumat əldə etdiniz.

Mühazirəmizin mövzusunu mənimsəməklə Siz, AR Konstitusiyasının 12-ci maddəsində dövlətin ali məqsədi kimi müəyyən edilmiş ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının yerinə yetirilməsi″ndə hüquq mühafizə orqanlarının üzərinə düşən vəzifələrin daha da səmərəli və qanunçuluğun tələblərinə müvafiq olaraq yerinə yetirilməsinə nail olmuş olarsınız.

Mövzu № 5: ″İnzibati hüququn fərdi və kollektiv subyektləri″

P L A N:

GİRİŞ

1. Azərbaycan Respublikası vətəndaşlarının inzibati-hüquqi statuslarının əsasları. Fərdi subyektlərin xüsusi inzibati-hüquqi statusu.
2. Vətəndaşların hüquq və azadlıqlarının müdafiə üsulları.
3. İnzibati hüququn kollektiv subyektləri.

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. ″Azərbaycan Respublikasının vətəndaşlığı haqqında″ Azərbaycan Respublikasının Qanunu. 30.09.1998-ci il.
3. ″Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında″ Azərbaycan Respublikasının Qanunu. 13.03.1996-cı il.
4. ″Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında″ Azərbaycan Respublikasının Qanunu (sonrakı əlavə və dəyişikliklərlə). 14.06.1994-cü il.
5. ″Vətəndaşların müraciətlərinə baxılması qaydaysı haqqında″ Azərbaycan Respublikasının Qanunu. 10 iyun 1997-ci il.
6. ″Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə müraciət edilməsi haqqında″ Azərbaycan Respublikasının Qanunu. 11 iyun 1999-cu il.
7. Azərbaycan Respublikasının Mülki Məcəlləsi.
8. ″Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında″ Azərbaycan Respublikasının 10.06.2000-ci il tarixli Qanunu.
9. ″Dini etiqad azadlığı haqqında″ Azərbaycan Respublikasının 20.08.1992-ci il tarixli Qanunu (əlavə və dəyişikliklərlə).
10. ″Sahibkarlıq fəaliyyəti haqqında″ Azərbaycan Respublikasının 15.12.1992-ci il tarixli Qanunu (sonrakı əlavə və dəyişikliklərlə).
11. ″Təhsil haqqında″ Azərbaycan Respublikasının .08.2009-ci il tarixli Qanunu
12. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
13. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
14. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
15. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
16. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
17. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

Son illərdə Azərbaycan dövlətinin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda inamla addımlaması, Avropa Şurasına daxil olması və Avropa hüquq zonası ilə

birləşməsi insan hüquqları haqqında beynəlxalq sənədlərə uyğun olaraq öz üzərinə götürdüyü hüquqi öhdəliklərlə yanaşı Respublikanın hüquq sistemində də böyük islahatlar aparılmışdır. Respublikamızın hüquq sistemində aparılan hüquqi islahatların aparılmasının əsas məqsədi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinə yönəldilmişdir.

Müasir şəraitdə hər bir dövlətin demokratik imici onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insan hüquqlarının vəziyyəti ilə müəyyən olunur. Demokratiya və insan hüquqları bir-biri ilə qırılmaz surətdə bağlıdır və biri digərini tamamlayır. Yalnız cəmiyyətdə mövcud olan demokratik iqlim insan hüquqlarının qorunmasına real təminat verə bilər.

Bu günkü mühazirəmizin mövzusunun da əsas mahiyyəti ondan ibarətdir ki, mühazirənin planına daxil edilmiş sualların açıqlanması vasitəsi ilə birinci növbədə Respublikamızda dövlət idarəetməsində Azərbaycan Respublikası vətəndaşlarının inzibati-hüquqi statuslarının əsasları haqqında geniş biliklər əldə etmiş olacağıq.

Respublikamız öz müstəqilliyini bərpa etdikdən sora dövlətimizin beynəlxalq əlaqələri daha da genişləndikcə Respublikamıza gəlib-gedən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı günbəgün artır. Bu məqsədlə də, Respublikamızda yaşayan və gəlib-gedən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin inzibati-hüquqi statusları açıqlanacaq.

Mühazirənin ikinci sualının açıqlanması vasitəsi ilə vətəndaşların hüquqlarının müdafiəsinin əsasları, üsulları və qaydaları barədə nəzəri biliklər əldə etmiş olacaqsınız.

Dövlət idarəetməsində vətəndaşlarla yanaşı kollektiv subyektlər də iştirak etdiyi üçün mühazirənin üçüncü sualı kollektiv subyektlərə və onların inzibati-hüquqi statuslarına həsr edilmişdir.

Bu biliklərin əldə edilməsinin Sizin hər birinizin gələcək fəaliyyətinzdə öz xidməti vəzifələrinizi qanunçuluq çərçivəsində həyata keçirilməsi üçün həm nəzəri, həm də təcrübə cəhətdən böyük əhəmyyəti vardır.

Sual 1.
Azərbaycan Respublikası vətəndaşlarının inzibati-hüquqi statuslarının əsasları. Fərdi subyektlərin xüsusi inzibati-hüquqi statusu

Azərbaycan Respublikası vətəndaşlarının inzibati-hüquqi statusu dövlət idarəetmə sahəsində onlara verilən hüquq və azadlıqların, onların üzərinə qoyulmuş vəzifələrin məcmusu ilə müəyyən edilir.

Öz təbiətinə görə vətəndaşların dövlət idarəetmə sahəsində hüquq, azadlıq və vəzifələri vətəndaşların iqtisadi, siyasi və sosial-mədəni həyatın bütün sahələrində malik olduqları ümumi hüquq, azadlıq və vəzifələrdən heç nə ilə fərqlənmirlər. Azərbaycan Respublikasının bütün vətəndaşları mənşəyindən, sosial və maddi vəziyyətindən, milli və irqi mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, məşğuliyyətinin növü və xarakterindən, yaşayış yerindən və digər amillərdən asılı olmayaraq qanun qarşısında bərabərdirlər.

Vətəndaşların əsas hüquq, azadlıq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası və ″Azərbaycan Respublikasının vətəndaşlığı haqqında″ 30 sentyabr 1998-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir.

Vətəndaşların inzibati hüquq sahəsində hüquq və vəzifələri əsasən Azərbaycan Respublikasının Konstitusiyasından törəyir və müxtəlif normativ-hüquqi aktlar vasitəsi ilə dəqiqləşdirilir.

Vətəndaşın inzibati-hüquqi statusunun məzmunu vətəndaşların inzibati hüquq normaları ilə təsbit edilmiş hüquq və vəzifələrin məcmusundan, bu hüquq və vəzifələrin həyata keçirilməsinə təminatın verilməsindən, onların qanunla mühafizə edilməsindən və dövlət hakimiyyət orqanları tərəfindən qorunmasından ibarətdir.

Lakin, insanın və vətəndaşın bütün hüquq və vəzifələri onun konstitusiya-hüquqi statusundan törəmir. İnsan və vətəndaşın elə hüquq və vəzifələri vardır ki, onlar insan və vətəndaşın konstitusiya-hüquqi statusundan kənarda qalır və Azərbaycan Respublikasında insan və vətəndaşın vəziyyəti barədə konstitusiya konsepsiyasına müvafiq olan konkret normativ aktlarla müəyyən edilir. Məsələn, nəqliyyat vasitələrinin idarə edilməsi ilə əlaqədar yaranan hüquq və vəzifələr.

Vətəndaşın statusu haqqında inzibati hüquq normaları aşağıdakı aktlarda öz əkslərini tapırlar:

1. Vətəndaşların statusunu müəyyən edən ümumi-hüquqi aktda (Azərbaycan Respublikasının Konstitusiyası).
2. İnsan və vətəndaşın statusuna aid olan normaların yalnız bir hissəsi əks olunmuş hüquqi aktlarda (torpaq haqqında, mülkiyyət haqqında aktlarda və s.).
3. İnsan və vətəndaşın statusunun konkret məsələlərini nizamlayan xüsusi-hüquqi aktlarda (″Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında″ Azərbaycan Respublikasının Qanunu və s.).

Vətəndaşın inzibati-hüquqi statusunun müəyyən edilməsinə aid olan hüquqi aktlar aşağıdakılardan asılı olaraq bir neçə növə bölünə bilər:

a) hakimiyyətlərin bölünməsi prinsipinə görə: nümayəndəli hakimiyyət orqanının aktlarına və icra hakimiyyəti orqanlarının aktlarına;

b) hüquqi qüvəsinə görə: qanunlara və qanunqüvvəli aktlara;

v) onları qəbul edən orqanların səlahiyyətinin xarakterinə görə: ümumi, sahəvi və sahələrarası səlahiyyətli orqanların aktlarına.

Göstərilənlərə aid olaraq bir çox məsələlər Azərbaycan Respublikası Prezidentinin aktları ilə də nizamlanır. Məsələn: ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanı.

Vətəndaşların dövlət idarəetmə sahəsində hüquqi vəziyyətini (inzibati-hüquqi statusunu) müəyyənləşdirən institutun ilkin mənbəyi inzibati-hüquq subyektivliyidir. Bu da ki, özündə inzibati-hüquq qabiliyyəti və inzibati-fəaliyyət qabiliyyəti kimi elementləri cəmləşdirir.

İnzibati hüquq qabiliyyəti - yəni vətəndaşın dövlət idarəetmə sahəsində hüquq və vəzifələrin subyekti (sahibi) olmaq qabiliyyətidir.

Bu qabiliyyət vətəndaşlarda anadan olduğu andan yaranır və ölümləri ilə xitam olunur. İnzibati hüquq qabiliyyətinin məzmunu qanunlarla və onlara əsaslanan dövlət idarəetmə aktları ilə müəyyən edilir. Vətəndaşların inzibati-hüquq qabiliyyətini müəyyən edən müvafiq inzibati-hüquqi normalar öz əkslərini müəyyən qanunlarda, idarəetmə aktlarında tapmış olurlar.

Vətəndaşların inzibati hüquq qabiliyyəti nə alına bilər, nə də başqasına verilə bilər. Onun həcmi yanız qanunla dəyişdirilir. Ayrı-ayrı vətəndaşlar üçün inzibati hüquq qabiliyyəti qanunla müəyyən edilmiş hallarda və qaydada müəyyən müddətə məhdudlaşdırıla bilər. Məsələn: vətəndaş tərəfindən cinayətin və ya inzibati xətanın törətməsi ilə əlaqədar olaraq

müəyyən edilmiş qaydada onların azadlıqdan məhrum edilməsi və ya onlara verilmiş xüsusi hüquqların məhdudlaşdırılması kimi sanksiyalar tətbiq edilə bilər. Belə ki, Azərbaycan Respublikasının CM-nin 46-cı maddəsi vətəndaşın müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə kimi cəza tədbirlərinin tətbiq edilməsinə imkan yaradır.

İnzibati hüquq da eyni zamanda bir sıra inzibati xətalara görə ayrı-ayrı vətəndaşların hüquqlarının müəyyən müddətə məhdudlaşdırılması hallarını müəyyən etmişdir. Məsələn: Azərbaycan Respublikasının İXM-nin 28-ci maddəsi fiziki şəxsə ona verilmiş xüsusi hüququn məhdudlaşdırılmasını nəzərdə tutur. ″Fövqəladə vəziyyət haqqında″ Azərbaycan Respublikasının Qanunu fövqəladə vəziyyət rejimi tətbiq edildikdə vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması və həmin ərazidə fəaliyyət göstərən orqanların iş rejiminin dəyişdirilməsini və s. dəyişikliklərin edilməsini müəyyən edir.

Azərbaycan Respublikasının Konstitusiyasında məhdudlaşdırmaya məruz qalmayan hüquq və azadlıqların növləri təsbit edilmişdir (yaşamaq hüququ, vicdan azadlığı və s.).

Vətəndaşların inzibati hüquq qabiliyyətliyi hər bir vətəndaşın digər vətəndaşlarla maraqlarının nisbətini ifadə edən, hüquq və vəzifələrinin qırılmaz əlaqəsi ilə xarakterizə olunur. Vətəndaşların hüquqları onların ümumilikdə cəmiyyət qarşısında olan müəyyən vəzifələri ilə uyğunlaşdırılır.

İnzibati hüquq qabiliyyətinin əsas xüsusiyyəti onun icra hakimiyyəti sistemi ilə müxtəlif şəraitdə və qarşılıqlı əlaqə xarakterində həyata keçirilməsinin nəzərdə tutulmasından ibarətdir.

Vətəndaşların inzibati hüquq qabiliyyəti - onların inzibati fəaliyyət qabiliyyətinin əsasını təşkil edir. İnzibati fəaliyyət qabiliyyəti hüquq qabiliyyətinin həyata keçirilməsinin əsasını, həmçinin də bir sıra inzibati-hüquqi münasibətlərdə vətəndaşların subyektiv hüquq və vəzifələrinin həyata keçirilməsi əsasını təşkil edir.

İnzibati fəaliyyət qabiliyyəti - yəni müəyyən yaş həddinə çatmaqla vətəndaşa verilmiş hüquqların öz hərəkətləri ilə həyata keçirmək, üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək, bunun nəticəsində yeni hüquq və vəzifələr əldə etmək və öz davranışına görə hüquqi məsuliyyət daşımaq qabiliyyətidir.

İnzibati fəaliyyət qabiliyyətinin yaranma vaxtı qanunvericilikdə dəqiq müəyyən olunmayıb. Vətəndaşın tam həcmli inzibati fəaliyyət qabiliyyəti bir qayda olaraq, onun yaş həddinin 18 yaşa çatmasından sonra yaranır. Lakin inzibati fəaliyyət qabiliyyətinin yaranma vaxtı qeyri-müəyyən olaraq qalır. Müxtəlif sahələrdə fərdin inzibati fəaliyyət qabiliyyəti 18 yaşa çatmamış da yarana bilər. Belə ki, inzibati xətanın subyekti 16 yaşa çatmış şəxslər sayılır, müəyyən intizam cəzaları (məktəbdən qovulma) orta məktəb şagirdlərinə tətbiq edilə bilər.

Ümumi qayda üzrə Azərbaycan Respublikasının bütün vətəndaşları bərabər inzibati fəaliyyət qabiliyyətinə malikdirlər. Lakin onların bəziləri sağlamlıqları ilə əlaqədar olaraq tam və ya natamam fəaliyyət qabiliyyətinə də malik deyillər (məsələn, ruhi xəstələr, əqli cəhətdən zəif olan şəxslər və s.). Belə ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 20-ci maddəsinə əsasən xroniki psixi xəstəlik vəziyyətində inzibati xəta törətmiş şəxs inzibati məsuliyyətə cəlb edilmir.

İnzibati hüquq qabiliyyəti əsasında fəaliyyət qabiliyyətli vətəndaşlar konkret inzibati hüquq münasibətlərinə girərək öz subyektiv hüquq və vəzifələrini həyata keçirirlər. Belə münasibətlərdə vətəndaşlar onlara aid inzibati hüquq normalarda olan tələbləri yerinə

yetirməli olan tərəf kimi çıxış edə bilərlər (məsələn, yol hərəkəti qaydalarına riayət etmək vəzifəsi), həmçinin də bu münasibətlərdə vətəndaşlar onlara məxsus olan hüquqların həyata keçirilməsi ilə bağlı hüquq münasibətlərinə girən tərəf kimi çıxış edə bilər (məs., təqaüd təyin etmək haqqında ərizə).

Müxtəlif hallarla əlaqədar yaranan inzibati hüquq münasibətləri müxtəlif cür olur:

a) vətəndaşlar tərəfindən onlara məxsus olan hüquqların (sağlamlığının qorunması, tibbi yardım almaq hüququ və s.) həyata keçirilməsi ilə əlaqədar yaranan inzibati hüquq münasibətləri;

b) vətəndaşlar tərəfindən onların üzərinə qoyulmuş vəzifələrin (təbiəti qorumaq, vətəni qorumaq və s.) yerinə yetirilməsi ilə əlaqədar yaranan inzibati hüquq münasibətləri;

v) icra hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri tərəfindən vətəndaşların hüquq və qanuni maraqlarının pozulması ilə bağlı olan (məsələn, şikayətin verilməsi ilə əlaqədar yaranan münasibət) inzibati hüquq münasibətləri;

q) vətəndaşların üzərinə qoyulmuş inzibati hüquq vəzifələrin pozulması ilə əlaqədar yaranan (məsələn, inzibati xətanın törədilməsi) inzibati hüquq münasibətləri.

Vətəndaşların subyektiv hüquqları, onları həyata keçirilməsi imkanı dərəcəsinə görə aşağıdakı növlərə bölünürlər:

1. Mütləq hüquqlar
2. Nisbi hüquqlar

Mütləq hüquqlar o hüquqlardır ki, onların həyata keçirilməsi yalnız vətəndaşın iradəsindən asılı olur. Belə hüquqlara misal olaraq, vətəndaşın dövlət idarəetməsində müvafiq formalarda iştirak etmək hüququ; ali təhsil almaq hüququ; tibbi yardım almaq hüququ; şəxsiyyətin toxunulmamazlığı hüququ; adını, soyadını dəyişmək hüququ.

Nisbi hüquqlar o hüquqlardır ki, onların həyata keçirilməsi yalnız vətəndaşların iradəsindən yox, həm də bu hüquqların həmin vaxtda və həmin yerdə həyata keçirməsi üçün lazım olan faktiki imkanların mövcud olmasından da asılıdır. Onlara aiddir: ali təhsil məktəblərinə qəbul olmaq hüququ (onun həyata keçirilməsi qəbul imtahanlarının nəticəsindən asılıdır); nəqliyyat vasitəsini idarə etmək hüququ (bu, vətəndaşın sağlamlığından və imtahanın nəticəsindən asılıdır).

Hüquqlardan fərqli olaraq vətəndaşların üzərinə qoyulmuş bütün vəzifələr mütləqdir. Dövlət vətəndaşların üzərinə yalnız yerinə yetirilməsi mümkün olan vəzifələr qoyur. Vəzifələrin yerinə yetirilməsi yolları müxtəlifdir. Onların həyata keçirilməsi vəzifələri konkret məzmunundan asılıdır. Bir sıra vəzifələr aktiv hərəkətlər vasitəsi ilə, digərləri isə qanunla qadağan edilmiş hərəkətlərdən çəkinməklə yerinə yetirilir. Vətəndaşlar tərəfindən vəzifələrə riayət etməni təmin etmək üçün əsas metod inandırma, tərbiyələndirmə və həmçinin də ictimai təsir tədbirlərinin (kollektivdə müzakirə) həyata keçirilməsi hesab edilir. Bununla yanaşı vəzifəni yerinə yetirməkdən boyun qaçırma, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən dövlət məcburetmə tədbirlərinin tətbiq edilməsinə gətirib çıxarır (inzibati, intizam və cinayət məsuliyyəti). Bunların tətbiq edilmə şəraiti və qaydası qanunvericiliklə müəyyən edilir.

Vətəndaşların dövlət idarəetmə sahəsində hüquq və vəzifələri ümumi və xüsusi olur.

Ümumi hüquq və vəzifələr yəni, vətəndaşların bu hüquq və vəzifələri dövlət idarəetməsinin bütün sahələrinə aiddirlər: dövlət idarəetməsində iştirak etmək hüququ; vəzifəli şəxslərin, dövlət və ictimai orqanların hərəkətlərindən şikayət etmək hüququ və s.

Ümumi vəzifələrə misal olaraq - qanun və qanunqüvvəli aktlara riayət etmək vəzifəsi; əmək intizamına riayət etmək vəzifəsi və s.

Xüsusi hüquq və vəzifələr vətəndaşların dövlət idarəetməsinin müəyyən bir sahəsində olan hüquq və vəzifələridir. Məsələn, səhiyyə sahəsində idarəetmədə sağlamlığın qorunması hüququ; mədəniyyət sahəsində idarəetmədə mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ. Səhiyyə sahəsində idarəetmədə vəzifələrə gigiyena və sanitariya qaydalarına riayət etmək vəzifəsi, təhsil sahəsində idarəetmədə orta təhsil almaq vəzifəsi və s.

İnzibati hüquq normalarda və hüququn digər sahələrinin normalarında vətəndaşların konstitusiya azadlıqları detallaşdırılır. Belə ki, söz azadlığı, mətbuat, mitinq, küçə yürüşləri və piket azadlığı vətəndaşlara və onların birliklərinə inzibati bina, küçə və meydanların verilməsi ilə təmin edilir. Vətəndaşların mətbuatdan, televiziyadan və radiodan istifadə etmək üçün imkan və hüquqları var. Onlar sərbəst olaraq dövlət və ictimai işləri müzakirə edə bilir; öz fikirlərini bildirir, təklif yürüdür, dövlət orqanları və ictimai təşkilatlar tərəfindən keçirilən iclaslarda dövlət idarəetmə orqanlarının fəaliyyətində və vəzifəli şəxslər tərəfindən buraxılan səhvləri və çatışmamazlıqları tənqid edirlər və s.

Real həyatda fərdi subyektlərin inzibati-hüquqi statusların bir çox müxtəlifliyi mövcuddur.

Fərdi subyektlərin ictimai həyatda onların fəaliyyətlərindən, yaşadığı inzibati-ərazi vahidinin xüsusiyyətlərindən, iştirak etdiyi inzibati hüquq münasibətlərdən və digər amillərdən asılı olaraq onların inzibati-hüquqi statuslarında müəyyən ″xüsusilik″ yaranır. Bu da öz növbəsində fərdi subyektlərin ″xüsusi inzibati-hüquqi status″dan danışmağa kifayət qədər əsas verir.

″Xüsusi inzibati-hüquqi status″a malik olan şəxslər aşağıdakılardır:

1. İnzibati kollektivlərin üzvləri;
2. İnzibati qəyyumluğun subyektləri;
3. Xüsusi inzibati-hüquqi rejimli ərazinin sakinləri;
4. İcazəvermə sisteminin subyektləri.
5. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər.

1. Hüquq ədəbiyyatında ″inzibati kollektiv″ anlayışı işlədilmir, lakin onun işlədilməsi lazımdır. Qanunvericilikdə ″əmək kollektivi″ anlayışı yazılır və istifadə edilir. Bu anlayış altında hüququn müstəqil subyekti və müəyyən təşkilatın işçiləri başa düşülür. İkinci halda söhbət öz əməyi ilə təşkilatın fəaliyyətində iştirak edən təşkil olunmuş insanlar qrupundan gedir. Əmək kollektivi üzvlərinin müəssisə müdiriyyəti ilə münasibəti və onların arasında olan münasibətlər əmək hüququ ilə nizamlanır.

İnzibati kollektiv təşkilatın şəxsi heyəti adlanır ki, burada onun üzvləri ilə müdiriyyət arasındakı münasibətlər, onların şəxsi hüquq və vəzifələri inzibati hüquqla nizamlanır. Belə inzibati kollektivlərə misal olaraq DİO-nun hərbi hissələrini, hərbiləşdirilmiş yanğınsöndürmə dəstələrini, tələbə kollektivlərini və s. göstərmək olar.

Əmək və inzibati kollektivlə yanaşı məhkum edilmişlərin kolektivləri də mövcuddur. Bu kollektivlərin hüququ statusu Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilir. Bu məcəllənin normaları məhkum olunmuşların cəzaçəkmə müəssisəsinin müdiriyyəti ilə münasibətini tənzimləyir. İstintaq təcridxanasının, müvəqqəti saxlama təcridxanalarının və CÇM-nin sıravi və rəhbər heyətləri müvafiq inzibati kollektivdir. Onların şəxsi heyəti Ədliyyə Nazirliyinin və DİN-in sistemlərinə daxil olan müvafiq orqanlarda xidmət edən şəxslərdən ibarətdir.

Bundan başqa qarışıq kollektivlər də mövcuddur. Məsələn, mülki ali təhsil müəssisəsində müəllimlər və digər əməkdaşlar əmək kollektivlərini, tələbələr isə inzibati kollektivi təşkil edirlər. Təhsil müəssisəsinin müdiriyyəti və müəllimlər burada digər formada, yəni vəzifə səlahiyyətlərinin daşıyıcısı kimi daxildirlər.

Vətəndaş inzibati kollektivin üzvü olmaqla xüsusi inzibati-hüquqi status, yəni kompleks hüquq və vəzifələr əldə etmiş olur. Məsələn: tələbə, hərbi və s. Burada söhbət xidməti hüquq və vəzifələrdən yox, şəxsi hüquq və vəzifələrdən gedir və yaxud da burada xidməti hüquq və vəzifələr təşkilatın kollektiv subyektinin səlahiyyətlərinin konkretləşməsini müəyyən edir.

Attestasiyadan keçmiş polis əməkdaşının statusunun misal göstərilməsində bu, özünü əyani surətdə xüsusi göstərir. Onun şəxsi hüquqlarına 28 oktyabr 1999-cu il tarixli ″Polis haqqında″ Qanunla möhkəmləndirilmiş işdən çıxarkən məhkəmə mühafizəsi hüququ, öldükdə və ya xəsarət aldıqda dövlət sığortası və ziyanın ödənilməsi, yaşayış sahəsi ilə təmin olma və s. misal olaraq göstərmək olar.

İnzibati hüquq inzibati kollektivlərin üzvlərinin intizam məsuliyyətinin, onların təhsil, iş və istirahət vaxtını, onlara əmək haqqının verilməsinin əsasını, məbləğini və verilmə qaydasını nizama salır. Bir qayda olaraq hərbiçilərin (polis əməkdaşlarının, tələbələrin və s.) müdiriyyətlə olan mübahisələri məhkəmə üsulu ilə yox, əsasən müvafiq prosedur xarakterli inzibati-hüquq normalar vasitəsi ilə nizamlanır.

Eyni zamanda bəzi hallarda hamiləliklə əlaqədar məzuniyyətin verilməsi, ezamiyyətdə olan vaxtda əmək hüququnun ödənilməsi və s. inzibati kolektivlərin üzvlərinin şəxsi hüquqlarına tam və ya qismən əmək hüququ normaları da aid edilir, bəzi hüquqları isə məhkəmə müdafiəsi ilə təmin edilir.

İnzibati kollektiv üzvlərinin statusları arasında aşağıdakı statuslar fərqlənirlər:

a) təhsil alanlar (tələbələr, aspirantlar və s.);

b) hərbi xidmətçilər (hərbiçilər, polis işçiləri və s.).

Aydındır ki, quru qoşunlarda, hərbi-dəniz donanmasında, daxili qoşunlarda və s. növ qoşunlarda hərbi xidmətdə olan şəxslərin hüquqi vəziyyətləri müxtəlifdir, yəni onların hüquqi vəziyyətləri müvafiq normativ-hüquqi aktlarla müəyyən edilir.

2. Dövlətin açıq-aydın sosial siyasətini əks etdirən amilərdən biri köməyə ehtiyacı olan şəxslər üzərində dövlət qəyyumluğunun olmasıdır.

Qəyyumluq pul məbləğinin verilməsində, yaşayış yeri ilə təmin edilməsində, xüsusi tibbi xidmətin göstərilməsində, müxtəlif güzəştlərin edilməsində öz əksini tapır.

Sosial müdafiəyə ehtiyacı olan şəxslərə köməklik göstərilməsində praktiki fəaliyyəti yerli icra hakimiyyəti yerinə yetirir. Onun subyektləri qaçqınlar, Çernobıl iştirakçıları, Böyük Vətən müharibəsi əlilləri, Əfqanıstan müharibəsi iştirakçıları, Qarabağ müharibəsi iştirakçıları, yetim uşaqlar, siyasi represiya qurbanları, çoxuşaqlı valideynlər, şəkər, vərəm və talassemiya xəstəliyə yoluxmuş xəstələr, psixi xəstəliyi olan uşaqlar və bir sıra digər kateqoriyalı vətəndaşlardır.

Göstərilən siyahıdan görünür ki, xüsusi inzibati-hüquqi statusun əldə edilməsinin əsasları müxtəlif texniki və iqtisadi fəlakətlər, demoqrafik hallar və mənfi sosioloci faktorlar ola bilər.

İnzibati qəyyumluğu sosial müdafiənin digər formalarından, yəni əmək fəaliyyəti, hərbi və ona uyğun xidmətlə təqaüdlərin verilməsindən fərqləndirmək lazımdır. Buradakı sosial təminat əsasən görülən işdən, iş stacından, əmək haqqının məblğindən asılıdır və

ardıcıl olaraq təqaüdün verilməsindən ibarətdir. Lakin təqaüdçülərə də yaşına görə, əlilliyinə görə və digər vəziyyətlərinə görə də vergi, nəqliyyat güzəştləri edilə bilər və s.

3. İnzibati hüquq nəzəriyyəsinin əsas aspektlərindən biri də onun ərazi rejimi ilə bağlı olmasıdır. Onlardan bəziləri isə daimi və ya müvəqqəti olaraq (müəyyən edilməmiş vaxta kimi) xüsusi hüquqi vəziyyətdə olurlar. Xüsusi ərazi rejimlərinin əsas növ müxtəlifliyi xüsusi inzibati rejimlərdir. Bunlara misal olaraq dövlət sərhədi rejimi, bağlı şəhərlər və qoruqlar. Fövqəladə (hərbi) vəziyyət rejimi olan ərazilər, sərbəst iqtisadi zonalar və s. xüsusi inzibati rejimlərin adlarını çəkmək olar.

Belə ərazilərdə daimi və ya müvəqqəti yaşayan sakinlər xüsusi inzibati-hüquqi status əldə edirlər. Buraya əsasən daxildir: əraziyə (zonaya) xüsusi giriş və çıxış qaydaları, orada hərəkət etmə və fəaliyyət göstəmə qaydaları, inzibati nəzarətin həyata keçirilməsi, inzibati məcburetmə təsir tədbirlərinin tətbiq edilməsi və s.

Xüsusi ərazi rejimləri arasında «sərt» rejimlərlə yanaşı (hərbi), güzəştli ərazilər də var (sərbəst iqtisadi zona). Əgər bir qayda olaraq zonalarda ciddi nəzarət mövcuddursa, sərbəst iqtisadi zonada isə maliyyə, gömrük nəzarəti zəif olur. Yəni güzəştli olur.

Bir çox hallarda ərazilərə daimi xüsusi rejim statusu qanun əsasında verilir. Müvəqqəti vəziyyətə uyğun recimlər isə ayrı-ayrı əraziələrdə həm ali, həm də yerli dövlət orqanları tərəfindən qoyula bilər. Belə hüquqlara Milli Məclis, Prezident, Nazirlər Kabineti, yerli icra hakimiyyəti orqanları malikdir.

4. İcazə sistemi həyata keçirilməsi icazənin alınmasını tələb edən, müəyyən qaydada həyata keçirilən qaydalar, nizam-intizam və fəaliyyətlər məcmusundan ibarət olan fəaliyyətidir.

İcazə sisteminin aşağıdakı kimi xüsusiyyətlərini göstərmək olar:

– bu qanunlarda və qanunqüvvəli aktlarda olan hüquq normaları ilə nizama salınan xüsusi fəaliyyət qaydasıdır;

– icazə sistemi inzibati hüquq münasibətləri çərçivəsində bir tərəfdən icra hakimiyyəti orqanları, vəzifəli şəxslər, digər tərəfdən isə icazə almaq istəyən fərdi və kollektiv subyektər arasında həyata keçirilir. Müvafiq münasibətlərin yaranmasına səbəb olan hüquqi fakt maraqlı və səlahiyyətli subyektlər tərəfindən ərizələrin verilməsidir. Bu münasibətlər idarəetmə subyektlərinin təşəbbüsü ilə yaranmır;

– bu hüquq münasibətlərinin əsasını hərəkət etmək (hərəkətsizlik) üçün icazənin alınmasıdır, yəni əməlləri leqallaşdıran fərdi aktın qəbul edilməsidir. İcazə müəyyən və qeyri-müəyyən müddətə verilə bilər. Verilən icazə lisenziya, potent, viza buraxılış, sertifikat və s. kimi adlandırıla bilər;

– icazə verilən işlərin necə həyata keçirilməsinə inzibati nəzarətin həyata keçirilməsidir;

– icazə sistemi qaydalarının pozulmasına görə təqsirkara qarşı müxtəlif inzibati məcburetmə təsir tədbirləri tətbiq edilir.

Beləliklə də, vətəndaş təsadüfi olaraq yox, müəyyən edilmiş vaxtda (müddətdə) icazə sistemin təsirinə düşür və o, həmin müddətə xüsusi inzibati-hüquqi statusun sahibinə çevrilir. Belə vəziyyətdə icazə sisteminin xüsusi inzibati-hüquqi statusunun sahibi aşağıdakı kimi vəzifələrin yerinə yetirilməsinə borclu olur:

♦ icazə sistemi təsiri altında olan fəaliyyət ilə məşğul olmaq üçün icazə alınan zaman ərizənin və ona əlavə olunan sənədlərin tərtib etmək;

♦ yoxlamaya, nəzarətə dözmək və ona hər vasitə ilə köməklik etmək;

- icazə verilmiş hərəkətlərin həyata keçirilməsi qaydalarına riayət etmək və s.

İcazə sisteminin xüsusi inzibati-hüquqi statusunun sahibinin əlavə vəzifələrin yerinə yetirilməsindən başqa, onun inzibati, həmçinin də yeni inzibati hüquqların əldə etməsi (alması) ilə bağlıdır. Məsələn: nəqliyyat vasitəsini idarəetmə hüququ, ov silahının əldə edilməsi, radioverici qurğunun işlədilməsi və s.

Qeyd etmək lazımdır ki, icazənin qüvvəsi vətəndaş tərəfindən qeyri-qanuni hərəkətlər edildikdə, vətəndaşın səhhəti pozulduqda, yeni yaranmış şəraitə əsasən normativ aktın qüvvəyə minməsi nəticəsində dayandırıla bilər. Məslən: fövqəladə vəziyyət, yeni texniki vasitələrin meydana çıxması və s.

Azərbaycan Respublikasının vətəndaşlarından başqa əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də inzibati-hüquqi subyektivliyə malikdirlər.

Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbacan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə müəyyən edilir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyətini müəyyən edən əsas aktlar bunlardır:

1. Azərbaycan Respublikasının Konstitusiyası, m. 69;
2. ″Ölkəyə gəlmək, ölkədən getmək və pasportlar haqqında″ Azərbaycan Respublikasının 14 iyun 1994-cü il tarixli Qanunu (sonrakı əlavə və dəyişikliklər ilə).
3. ″Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında″ Azərbaycan Respublikasının 13 mart 1996-cı il tarixli Qanunu (sonrakı əlavə və dəyişikliklər ilə).

Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşamasından asılı olmayaraq əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkənin qanunlarına tabe olmalıdırlar. Bu qayda Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə müəyyən edilir. Qanunvericilik Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşları, xarici vətəndaşları və Azərbaycan Respublikasının ərazisində müvəqqəti olanları bir-birindən fərqləndirir. Buna əsaslanaraq da onların müxctəlif hüquqi statusları da mövcuddur. Əcnibələr və vətəndaşlığı olmayan şəxslər ″Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında″ Azərbaycan Respublikasının Qanunun 5-ci maddəsinə əsasən nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikasının ərazisinə daimi və müvəqqəti olaraq yaşaya bilərlər. Müvəqqəti yaşayanlara nisbətən daimi yaşayan xarici vətəndaşlar bir sıra sahələrdə böyük həcmdə hüquqlara malik olurlar (əmək fəaliyyəti sahəsində, sosial təminat məsələləri sahəsində və s). Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə digər qaydalar nəzərdə tutulmayıbsa, belə hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları ilə eyni həcmdə hüquqlardan istifadə edirlər və eyni vəzifələr daşıyırlar. Azərbaycan Respublikası beynəlxalq normalara uyğun olaraq əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin inzibati hüquq subyektivliyinin həcmi Azərbaycan Respublikası vətəndaşların hüquq subyektivliyin həcminə nisbətən azdır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşlığı ilə qırılmaz surətdə bağlı olan hüquq və vəzifələrə malik deyillər. Azərbaycan Respublikası əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün hüquq və azadlıqlar müəyyən edilən zaman Azərbaycan Respublikası vətəndaşlarına üstünlük verilmişdir. Azərbaycan Respublikasının

vətəndaşları kimi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin də dövlət orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni hərəkətlərindən, qərarlarından şikayət etmək hüququ vardır; azadlıq və şəxsi toxunulmamazlıq; mənzil toxunulmamazlığı; əmək hüququ; sağlamlığın qorunması və tibbi yardım almaq; təhsil almaq hüququ və s. hüquqları vardır. Lakin Azərbaycan Respublikası vətəndaşlarından fərqli olaraq xarici vətəndaşlar üçün onların başqa dövlətə mənsub olması ilə əlaqədar olaraq əmək sahəsində məhdudiyyətlər müəyyən edilmişdir. Məsələn: onlar seçki hüququnan istifadə etmirlər və müvafiq dövlət hakimiyyəti orqanlarına seçilmirlər; onlar referendumda iştirak etmirlər, onlar müəyyən növ əmək fəaliyyəti ilə məşğul ola bilməzlər.

Azərbaycan Respublikasının təhsil müəssiələrində təhsil alan xarici tələbələr Azərbaycan Respublikasının ərazisində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq Azərbaycan Respublikasının tələbələrinə məxsus olan hüquqlardan istifadə edirlər və tələbələrə aid bütün vəzifələri yerinə yetirməyə borcludurlar.

Azərbaycan Respublikasında yaşamaq qaydalarına riayət etməklə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində hərəkət etmək hüququna malik olurlar. Yaşayış yerinin seçilməsi və hərəkət etmələrinin məhdudlaşdırılması dövlət təhlükəsizliyinin təmin ediməsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığının, hüquqlarının və qanuni maraqlarının mühafizəsi məqsədi ilə müəyyən edilir.

Hüquq və azadlıqdan istifadə edərək xarici vətəndaşlar Azərbaycan Respublikası vətəndaşlarının üzərinə qoyulmuş müəyyən vəzifələri yerinə yetirmirlər. Belə ki, onlar hərbi xidmət vəzifəsini daşımırlar. Lakin onlar müəyyən olunmuş vəzifələri Azərbaycan Respublikası qarşısında daşıyırlar.

Azərbaycan Respublikasında daim yaşamaq üçün gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, yaşamaq üçün icazə almalı və müəyyən olunmuş müddətə daxili işlər orqanlarında qeydiyyata düşməlidirlər.

Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayn şəxslər qanunlara riayət etməli və Azərbaycan Respublikasının Konstitusiyasına, azərbaycan xalqının adət və ənənələrinə hörmət etməlidirlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olma qaydalarını və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçmə qaydalarını pozduqlarına görə Azərbaycan Respublikasının ″Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti″ haqqında 13 mart 1996-cı il tarixli və ″Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında″ 04 aprel 1996-cı il tarixli Qanunlarına əsasən məsuliyyətə cəlb edilirlər.

Azərbaycan Respublikasında imtiyazlara və diplomatik imunitetə malik olan əcnəbilərin hüquqi vəziyyəti Azərbaycan Respublikasının xüsusi qanunvericiliyi və beynəlxalq müqavilələrlə müəyyən edilir. Məsələn, onlar bizim dövlətin inzibati yurisdiksiyasından imunitet hüququna malikdirlər.

Xarici vətəndaşların statusunu müəyyən edən ümumi qanunvericilikdən fərqli olaraq, MDB dövlətlərin vətəndaşlarının hüquqi statusları digər qayda da müəyyən edilir. Onlar Azərbaycan Respublikası sərhədlərini keçmək üçün böyük sərbəstliyə malikdirlər. Onların bu statusları MDB dövlətləri arasındakı razılaşmalarla müəyyən edilir.

İctimai həyatın digər sahələrində olduğu kimi dövlət idarəetmə sahəsində də vətəndaşların hüquq və azadlıqları real olaraq sosial ictimai şəraitlərlə təmin edilir. Bizim

ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının iqtisadi, siyasi, təşkilati və hüquqi təminat sistemi mövcuddur.

İqtisadi təminat vətəndaşların hüquqlarının və azadlıqlarının faktiki həyata keçirilməsi üçün maddi şəraitdir. Bunlar Azərbaycan Respublikasının iqtisadi sistemində öz əksini tapır ki, onun da əsasını bazar iqtisadiyyatı, dövlət əmlakının özəlləşdirilməsi və sair təşkil edir.

Siyasi təminata aiddir: dövlət hakimiyyətinin xalqa məxsusluğu, demokratizm, siyasi plyuralizm, vətəndaşların dövlət və ictimai işlərdə iştirak etmək imkanı (Azərbaycan Respublikasının Konstitusiyası, mad: 1; 53-55).

Təşkilati təminat dövlət orqanlarının, əsasən də hüquq mühafizə orqanlarının, vətəndaşların hüquq və azadlıqlarının, həmçinin də vəzifələrinin praktiki surətdə həyata keçirilməsindən ibarətdir.

Hüquqi təminat vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinin şərait və qaydasını, həmçinin də onların mühafizəsini və qorunmasını müəyyən edən hüquq normaları sistemindən ibarətdir.

Bu sistemdə aparıcı yer hüquq normalarına aiddir ki, onlar da aşağıda sadalananları təsis edirlər:

- dövlət idarəetmə sahəsində vətəndaşların hüquq və azadlıqlarını;
- vətəndaşların hüquq və qanuni maraqlarının pozulmasına görə idarəetmə orqanlarının və vəzifəli şəxslərin məsuliyyətini;
- vətəndaşların idarəetmə orqanlarının və s. vəzifəli şəxslərin qeyri-qanuni hərəkətlərindən (hərəkətsizlikdən) şikayət etmək hüququnu;
- idarəetmə orqanı öz vəzifələrini yerinə yetirərkən və vəzifəli şəxslərin qeyri-qanuni hərəkətləri nəticəsində dəymiş zərərin ödənilməsi hüququnu.

Vətəndaşların hüquq və azadlıqlarının hüquqi təminatı sahəsində əsas rollardan birini də prokuror nəzarəti və dövlət orqanlarının yoxlama-nəzarət fəaliyyətləri oynayırlar.

Birinci sualın sonunda qeyd etmək istərdim ki:

1. Vətəndaşların inzibati-hüquqi statusu dedikdə dövlət idarəetmə sahəsində vətəndaşlara verilmiş hüquqların, azadlıqların və həmçinin də onların üzərinə qoyulmuş vəzifələrin məcmusu başa düşülür.

2. İnzibati-hüquqi statusun məzmunu aşağıdakılardan ibarətdir:

- vətəndaşların inzibati hüquqla təsbit edilmiş hüquq və vəzifələrinin məcmusundan;
- bu hüquq və vəzifələrin həyata keçirilməsi təminatından; buraya onların qanunla mühafizəsi və dövlət hakimiyyət orqanları tərəfindən qorunması mexanizmi də daxildir.

3. Vətəndaşların inzibati-huquqi statusunun elementləri aşağıdakılardır:

- inzibati hüquq qabiliyyəti;
- inzibati fəaliyyət qabiliyyəti;
- inzibati hüquqlar və vəzifələr (ümumi və xüsusi);
- məsuliyyət.

4. Dövlət idarəetməsində vətəndaşların hüquqlarının təminatı növləri aşağıdakılardır:

a) iqtisadi təminatlar;
b) siyasi təminatlar;
v) təşkilati təminatlar;
q) hüquqi təminatlar.

5. Xüsusi inzibati-hüquqi statusa malik olan şəxslər:

– inzibati kollektivlərin subyektləri;
– inzibati qəyyumluğun subyektləri;
– xüsusi inzibati-hüquqi rejimlə ərazilərin sakinləri;
– icazə vermə sisteminin subyektləri;
– əcnəbilər və vətəndaşlığı olmayan şəxslər.

Sual 2:
Vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi üsulları

Həyatın, sağlamlığın, azadlığın, mülkiyyətin və digər nemətlərin müdafiəsi hüququ vətəndaşların ən mühüm və ayrılmaz hüququdur. Dövlət hüququ qanuniləşdirir, onun həcmini dəqiqləşdirir, həyata keçirilməsi qaydasını təsbit edir, vətəndaşların müraciətlərinə müəyyən müddətlərdə baxılması və bunlarla əlaqədar olaraq tədbirlər görülməsi sahəsində dövlət orqanlarının və ictimai orqanların, vəzifəli şəxslərin vəzifəsini müəyyənləşdirir, həmin hüququ dövlət məcburetməsi ilə təmin edir və o, qanunla tənzimlənən yuridik hüquq olur.

Əgər vətəndaşların subyektiv hüququ hüquq normaları ilə təsbit edilmiş, lakin lazımi müdafiə ilə təmin olunmamışdırsa, onda belə normalar formaldır. Vətəndaşların şəxsi hüquqlarının əlaqələndirilmiş təminatları sisteminin yaradılması hüquqi dövlətin təşəkkülünün zəruri şərtidir.

Ümumiyyətlə, vətəndaşların hüquqi müdafiəsinin iki başlıca istiqamətlərindən danışmaq olar:

– vətəndaşların cinayətlərdən və digər qeyri-qanuni hərəkətlərindən müdafiəsi;
– vətəndaşların hakimiyyət subyektlərinin qanunazidd və məqsədəuyğun olmayan hərəkət və hərəkətsizlikdən müdafiəsi.

Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsində deyilir: ″Hər kəsin qanunla qadağan olmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır″.

İnzibati hüquq vətəndaşların hüquqlarının dövlət hakimiyyəti subyektlərinin, yerli özünüidarəetmə orqanlarının düzgün olmayan hərəkətlərindən müdafiə işində xüsusi rol oynayır.

Azərbaycan Respublikası vətəndaşlarının aşağıdakı hüquqları da mövcuddur:

– dövlət idarəetmə orqanlarının və vəzifəli şəxslərin qanunsuz hərəkətlərindən vətəndaşların məhkəmə qaydasında şikayət vermə hüququ;
– icra hakimiyyətinin və onun vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsinə vətəndaşa dəymiş ziyanın ödənilməsinin tələb edilməsi hüququ;
– təhqiqat, ibtidai istintaq, prokurorluqn və məhkəmə orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququ;
- idarəetmə aktlarından şikayət vermə hüququ və s.

Dövlət orqanlarının, vəzifəli şəxslərin və digər hakimiyyət səlahiyyətli subyektlərin fəaliyyətində sui-istifadə, bürokratizm, səriştəsizlik və s. hallarında vətəndaşların hüquq və mənafelərinin müdafiəsinin əsas vasitələri aşağıdakılardır:

1) başlıca vəzifəsi hüquq qaydalarının mühafizəsi olan orqanların yaradılması və onların gündəlik fəaliyyəti (məhkəmələrin, prokurorluq orqanlarının, polisin və s.);

2) dövlətdən asılı olmayan və vətəndaşlara kömək göstərməyə imkanı olan təşkilatların mövcudluğu və onların fəaliyyəti (vəkilliklər, həmkarlar ittifaqları, kütləvi informasiya vasitələri və s.);

3) öz hüquqlarının müdafiəsi zamanı vətəndaşların özlərinin aktiv fəaliyyəti (məsələn: zəruri müdafiə hüququ, silah saxlamaq və onu tətbiq etmək hüququ və s.)

Azərbaycan Respublikasının qanunvericiliyi vətəndaşların hüquqların müdafiəsinin iki üsulunu müəyyən edir:

– inzibati qaydada, yəni burada vətəndaşların hüquqları məhkəməyə müraciət etmədən müdafiə olunur;

– məhkəmə qaydasında, burada vətəndaş pozulmuş hüququn bərpa edilməsi barədə birbaşa məhkəməyə müraciət edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 57-ci maddəsi hər bir vətəndaşın müraciət etmək hüququnu təsbit edir.

Vətəndaşların müraciətlərinə baxılması mexanizmi isə Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli ″Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında″ Qanunu ilə tənzimlənir.

″Vətəndaşların müraciətlərinə baxılması haqqında″ Qanunun 3-cü maddəsinə əsasən, müasir şəraitdə vətəndaşların müraciətlərinin əsas növləri təklif, ərizə və şikayətlərdən ibarətdir. Bu müraciətlər arasındakı əsaslı fərqlər aşağıdakılardan ibarətdir:

Təklif - dövlət hakimiyyəti orqanı, idarə, təşkilat və müəssisənin fəaliyyətinin yaxşılaşdırılmasını, təhsil, elmi, texniki, hüquq, yaradıcılıq və və başqa sahələrlə bağlı məsələlərin həllini nəzərdə tutan müraciətdir.

Ərizə - vətəndaşlara məxsus hüquqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciətdir.

Şikayət - dövlət orqanına, idarəsinə, təşkilatına və müəssisəsinə vətəndaşın pozulmuş hüququnun bərpası tələbi barədə müraciətdir.

Vətəndaşların müraciətlərinin baxılması qaydası və maddələri müraciətlərin növündən asılı olmayaraq eynidir.

Qeyd etdiyimiz normativ-hüquqi akt vətəndaşların müraciətləri arasında şikayətləri xüsusilə fərqləndirir. Müəlliflərin çoxu onun ümumi inzibati şikayət növünü və xüsusi inzibati şikayət növünü fərqləndirir.

Ümumi inzibati şikayətin baxılması qaydası ″Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında″ Qanunla müəyyən edilir.

Vətəndaşlar təklifləri və ərizələri həmin məsələni bilavasitə həll etməli olan dövlət hakimiyyəti orqanlarına, idarələrə, təşkilatlara, müəssisələrə və ya vəzifəli şəxslərə verirlər.

Dövlət hakimiyyəti orqanları, idarələr, təşkilatlar, müəssisələr, onların rəhbərləri və digər vəzifəli şəxsləri müraciətdə irəli sürülən məsələlərin həlli, onların səlahiyyətinə aid olmadıqda, bunları beş gündən gec olmayaraq müvafiq təşkilata göndərir və bu barədə müraciət edənə məlumat verir, şəxsi qəbul zamanı isə hara müraciət etmək lazım olduğunu izah edir.

Müraciətdə göstərilən məsələyə baxdıqda və bu barədə vətəndaşa əsaslandırılmış cavab verildikdə müraciət baxılmş hesab olunur.

Dövlət hakimiyyəti orqanı başqa orqanlara, idarələrə, təşkilatlara, müəssisələrə vətəndaşların müraciətini aidiyyəti üzrə baxılması üçün göndərdikdə və həmin müraciətin baxılması nəzarətdə saxlandıqda isə həmin orqanlar, idarələr, təşkilatlar, müəssisələr müraciətlə bağlı dövlət hakimiyyəti orqanına əsaslandırılmış və bu qanunda nəzərdə tutulmuş müddətdə cavab verməlidir. Dövlət hakimiyyəti orqanına müraciətlə bağlı cavab məktubu müvafiq orqanın, idarənin, təşkilatın, müəssisənin rəhbəri tərəfindən imzalanmalıdır.

Müraciəti qəbul etməkdən imtina qadağandır. Məlumatın verilməsi barədə müraciət baxılmağa qəbul olunarkən müraciət edəndən həmin məlumatın əldə edilməsinin zəruriliyini əsaslandırmağı tələb etmək qadağandır.

Yazılı müraciət vətəndaş tərəfindən imzalanmalı, vətəndaşın adı, atasının adı, soyadı, ünvanı, yaxud işlədiyi yer göstərilməlidir.

Müraciətdə həmin məlumatlar göstərilmədikdə onlar anonim sayılır, anonim müraciətlər baxılmır.

Vətəndaşların şikayətlərini baxılmaq üçün qanuna zidd hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə göndərmək qadağandır.

Vətəndaşların təklif, ərizə və şikayətləri mütləq kargüzarlıqda qeydiyyatdan keçirilir.

Sənədlərə daxil olma tarixini və nömrəsini göstərən ştamp vurulur. Vətəndaşın tələbi ilə təklifin, ərizənin və şikayətin qeydə alınma nömrəsi və tarixi ona bildirilir. Vətəndaşdların müraciətləri ilə bağlı aparılan kargüzarlıq işini orqanın rəhbəri təmin edir.

Müraciətə bir ay müddətinədək əlavə öyrənilməsi və yoxlanması tələb edilməyən müraciətə isə ən geci 15 gün ərzində baxılmalıdır.

Müraciətə baxılmaq üçün xüsusi yoxlama keçirmək, əlavə materiallar tələb etmək, yaxud başqa tədbirlər görmək, lazım gəldiyi hallarda müvafiq orqanın, idarənin, təşkilatın, müəssisənin rəhbəri və ya onun müavini müraciəti müraciətə baxılma müddətini müstəsna hallarda ən çoxu bir ay uzada bilər. Bu barədə müraciət edən vətəndaşa müraciətin baxılması dövlət hakimiyyəti orqanı tərəfindən nəzarətdə saxlandıqda isə dövlət hakimiyyəti orqanına məlumat verilməlidir.

Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətlərinə daxil olduğu gündən etibarən ən geci 15 gün ərzində baxılır.

Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq baxılmalıdır.

Öz təklifi, ərizəsi, şikayəti barəsində qəbul edilmiş qərarla razılaşmayan vətəndaş bu qərarı qəbul etmiş orqanın, idarənin, təşkilatın, müəssisənin və ya vəzifəli şəxsin bilavasitə tabe olduqları orqana və ya vəzifəli şəxsə həmin qərar barəsində şikayət etmək hüququna malikdir.

Şikayət qanunvericilikdə nəzərdə tutulan qaydada məhkəməyə verilə bilər. Məhkəmə qaydasında şikayət vermək hüququnun xüsusi inzibati şikayət hüququ adlanır, o, ümumi inzibati şikayəti əvəz etmir, onu tamamlayır.

Xüsusi inzibati şikayətlərin verilməsi və onların baxılması xüsusi inzibati-hüquqi aktlarla müəyyən edilir (məsələn, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi; Azərbaycan Respublikasının Gömrük Məcəlləsi; İntizam Nizamnaməsi və s.)

Xüsusi şikayətin aşağıdakı xüsusiyyətləri mövcuddur:

– onun baxılmasının xüsusi qaydası mövcudluğu;

– qanunvericiliklə müəyyən edilmiş şəxslər tərəfindən verilə bilər;
– qanunvericiliklə müəyyən edilmiş şikayət verənin xüsusi əsasları mövcudluğu;
– yalnız yazılı formada verilməlidir;
– onun baxılmasının xüsusi müddətlərin mövcudluğu;
– verilən şikayətlərin hüquqi nəticələrin olması və s.

İkinci suala yekun olaraq bir daha demək istərdim ki:

1) Vətəndaşların hüquqi müdafiəsinin iki başlıca istiqamətlərindən danışmaq olar:
– vətəndaşların cinayətlərdən və digər qeyri-qanuni hərəkətlərindən müdafiəsi;
– vətəndaşların hakimiyyət subyektlərinin qanunazidd və məqsədəuyğun olmayan hərəkət və hərəkətsizlikdən müdafiəsi.

2) Azərbaycan Respublikasının qanunvericiliyi vətəndaşların hüquqların müdafiəsinin iki üsulunu müəyyən edir:
– inzibati qaydada, yəni burada vətəndaşların hüquqları məhkəməyə müraciət etmədən müdafiə olunur;
– məhkəmə qaydasında, burada vətəndaş pozulmuş hüququn bərpa edilməsi barədə birbaşa məhkəməyə müraciət edir.

3) Vətəndaşların müraciətlərinin aşağıdakı növləri mövcuddur:
– təklif;
– ərizə;
– şikayət;

4) Vətəndaşların şikayətlərinin iki növü mövcuddur:
– ümumi şikayətlər;
– xüsusi şikayətlər.

Sual 3. İnzibati hüququn kollektiv subyektləri

Kollektiv subyektlər başqa subyektlərlə münasibətdə tam bir vahid kimi çıxış etmək hüququna malik olan mütəşəkkil özünüidarəedən insanlar qrupudur (belə hüquqlara ərizə və şikayətləri etmiş vətəndaşlar qrupu malik ola bilməz).

Kollektiv bir qayda olaraq, hansısa maraq və ya məqsəd əsasında təşkil edilir. O, funksional cəhətdən təbəqələnmişdir, yəni fəaliyyət istiqamətlərinin və səlahiyyətlərin bölüşdürülməsi və qanun əsasında fəaliyyət göstərir, özünüidarəetmə mexanizminə malikdir və burada hər kəsin rolu müəyyən edilmişdir.

İnzibati hüquq münasibətlərdə kollektiv subyektlər bir tərəfdən öz adından fəaliyyət göstərirlər, onun üzərinə müəyyən öhdəliklər qoyulur, ona hüquqlar verilir, digər tərəfdən isə konkret şəxsləri şəxssizləşdirir. Buna görə də şəxsi heyətdə olan dəyişikliklər onun adına və hüquqi vəziyyətinə təsir etmir. Məsələn, dövlət idarəetmə orqanının şəxsi heyəti bütövlükdə dəyişə bilər, lakin bu, onun səlahiyyətlərinə təsir etməyəcəkdir (Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibinin dəyişməsi).

Yaranma məqsədlərindən, təşkil edilməsinin müstəqillik dərəcəsindən və buradan yaranan öhdəliklərindən və hüquqi vəziyyətindən asılı olaraq inzibati hüququn kollektiv subyektlərini dörd qrupa ayırmaq olar:

1. təşkilatlar;
2. təşkilatların struktur bölmələri;

3. təşkilatların və onların struktur bölmələrinin əmək və digər kollektivləri;
4. mürəkkəb təşkilatlar.

Əgər mülkiyyət formasını və müəyyən sistemə məxsusluğunu bir əsas kimi götürsək, onda dövlət, ictimai, dini və digər (aksioner, qarışıq, xarici və s.) birliklər formasında olan təşkilatlar barəsində danışmaq olar.

Hər bir dövlət təşkilatı - yuxarı dövlət orqanının rəhbərliyi altında işləyən, təşkilati və hüquqi müstəqilliyə malik olan dövlət mexanizminin bir hissəsidir. Onun əsas əlamətləri kimi dövlət mülkiyyəti hesabına təsis edilməsini, strukturunu və fəaliyyətin hüquqi cəhətdən tənzimlənməsini, hüquqi məcburetmədən istifadə etmək imkanına malik olmasını qeyd etmək olar.

Onu da qeyd etmək lazımdır ki, dövlət təşkilatı özünün yox, ″özgənin″, dövlətin mənafeyini və deməli, ümumi, açıq mənafeyi həyata keçirən kollektivdir.

Müstəqil təşkilatlar qrupunda fəaliyyət məqsədinə, hüquqi statusunun xüsusiyyətlərinə görə dövlət orqanı, idarə, müəssisə və digər (məsələn, hərbi hissələr) təşkilatları bir-birindən fərqləndirilir. Eyni olaraq ictimai və dini təşkilatlar arasıda müstəqil təşkilatları, həmçinin də mürəkkəb, ictimai və dini biliklərin tərkib elementləri kimi olan orqan, idarə və müəssisələri fərqləndirmək olar. Digərlər qrupuna aid etdiyimiz təşkilatların sayı və müxtəlifliyi son illər kəskin surətdə artmış və yenə də artacaqdır. Xarici təşkilatlara qarışıq, beynəlxalq, kollektiv, aksioner, ailə, şəxsi (fərdi) təşkilatlarda əlavə olunubdur.

Funksional fəaliyyətin bölüşdürülməsi - təşkilatın əsas əlamətidir. İş həcminin artması ilə təşkilat yeni struktur bölmələri ilə təmin edilir, onun vəzifələrinin müəyyən hissəsini yerinə yetirən özünüidarə edən bölmələr yaradılır.

Struktur bölmələrin yaradılması bir tərəfdən əməyin ixtisaslaşmasına, onun effektivliyinin artmasına, hakimiyyətin qeyri-mərkəzləşdirilməsinə, qərarların qəbul edilməsi təbəqəsinin aşağı düşməsinə köməklik edir, digər tərəfdən isə idarəedənlərin sayını artırır.

Struktur bölmə - təşkilatın tərkib hissəsi olub, onun işlərinin müəyyən hissəsini yerinə yetirir. Eyni zamanda - aralarında vəzifələri bölüşdürülmüş işçilərin mütəşəkkil qrupudur. Struktur vahidin başında kollektiv tərəfindən seçilmiş və ya təyin edilmiş rəhbər durur, orada tabeçilik əlaqələri mövcudur, özünüidarəetmə həyata keçirilir. Nəhayət, struktur bölmələrin elementlərindən biri də onların öz adlarının və belə təşkilati vahidin təşkil edilməsi barədə hüquqi aktın olmasıdır.

Təşkilatların təsnifatlaşdırma meyarlarına görə struktur bölmələri də təsnif etmək olar. Bu zaman onların kimə məxsus olduğunu nəzərə almaq lızımdır. Belə halda dövlət təşkilatlarının (orqan, idarə, müəssisələrinin), ictimai təşkilatlarının, dini birliklərinin struktur bölmələrini ayırmaq olar. Heç də bütün dövlət orqanları struktur bölmələrinə malik deyil (məsələn, rayon prokurorluqları). Eyni zamanda bu bir çox ictimai və dini qurumlara da aid edilə bilər.

Əmək, ərazi və digər kollektivlər - inzibati hüququn kollektiv subyektlərinin üçüncü növüdürlər. Onlar dövlət hüququ və inzibati hüquq sahəsində, həmçinin də digər hüquq sahələrində olan hüquq subyektivliyinə malikdirlər (əmək, cinayət-prosessual və s. hüquq sahələrində).

Kollektivin xüsusiyyətləri bunlardır:

- birincisi, o, öz maraqlarını ifadə edir və qoruyur;
- ikincisi, onda tabeçilik əlaqələri yoxdur, onun bütün üzvləri bərabərdirlər.

Əmək kollektivində üzvlük işə, ali məktəbə və ya kooperativə daxil olmaqla yaranır.

Hüquqi aktlarda dövlət orqanlarının əmək kollektivləri barədə heç nə deyilmir. Bu, təsadüfi deyil. İş ondadır ki, orqan əmək kollektivinə malik deyil, lakin o, bütün fəhlə və xidmətçilərin işlədiyi eyni adlı idarədə var. Belə ki, məhkəmə ədalət mühakimə orqanı kimi hakimlərdən ibarətdir. Lakin hüquq müəssisəsi kimi o özündə hakimləri, katibləri, makinaçıları və s. işçiləri cəmləşdirir ki, onlar da onun əmək kollektivini təşkil edirlər. Şəhər (rayon) icra hakimiyyəti barədə də eyni ilə danışmaq olar, yəni orqan və təşkilat kimi özündə müxtəlif hüquq subyektlərini və insanların müxtəlif kollektivlərini cəmləşdirir.

Mürəkkəb təşkilatlara misal olaraq Azərbaycan Dövlət Dəmir Yolu, Azərbaycan Respublikasının DİN-ni və s. göstərmək oar. Müxtəlif təşkilatların ″mürəkkəb təşkilatlar″a aid edilməsi üçün əsas şərt kimi aşağıdakını nəzərə almaq lazımdır:

- mürəkkəb təşkilatlar özünün əsas fəaliyyət növü ilə yanaşı başqa fəaliyyət növlərini də yerinə yetirirlər. Məsələn: DİO cinayətkarlıqla mübarizəni aparmaqla özünün təhsil, səhiyyə, istirahət, tikinti və s. təşkilatları mövcuddur.

Mürəkkəb təşkilatları 2 qrupa bölmək məqsədəuyğundur: dövlət və ictimai (″Bilik″ cəmiyəti, Lal-Karlar cəmiyyəti, Korlar Cəmiyyəti və s.)

İnzibati hüququn kollektiv subyektlərinin anlayışı və növlərini nəzərdən keçirdikdən sonra, onların inzibati-hüquqi statusunun məzmununu araşdırılması zərurəti yaranır.

Kollektiv subyektin inzibati-hüquqi statusunun məzmunu əsasən aşağıdakı amillərdən asılıdır:

- o, dövlət mexanizminin hissəsidir ya yox;
- o, hansı növ fəaliyyətlə məşğul olur (təsərrüfat, mədəni-tərbiyəvi və s.);
- o, müstəqil təşkilati vahiddir, yoxsa daha mürəkkəb təşkilatın strukturuna daxil edilib.

Dövlətin kollektiv subyektlərinin inzibati-hüquqi statusunu təşkil edən normaları üç əsas qrupa bölmək olar:

a) məqsədli;
b) təşkilati-struktur;
v) səlahiyyətli.

Dövlətin kollektiv subyektlərinin inzibati-hüquqi statusunun birinci elementi onun hüquqi cəhətdən müəyyən edilmiş yaranma məqsədi, vəzifələri və funksiyalarıdır. Əsasnamələrdə, nizamnamələrdə və digər idarəçilik aktlarda isə məqsəd - vəzifələrin və yerinə yetirilən funksiyaların siyahısında dəqiqləşdirilir.

Hüquqi statusun - ikinci təşkilati-struktur elementi özü kifayət qədər mürəkkəb bir sistemdir.

Buraya daxildir:

a) subyektlərin yaradılması, leqallaşdırılması, yenidən təşkili, ləğv edilməsi qaydalarının normativ nizama salınması;
b) onların tabeçiliyi və bir təşkilatın aidiyyatlından digərlərinin tabeçiliyinə verilməsi;
v) onların təşkilati strukturlarının müəyyən edilməsi və dəyişdirilməsi;
q) təşkilatın müqəddaratını həll etmək hüququ;
d) fəaliyyət prosedurası;
e) rəsmi rəmzlərə malik olma hüququ.

Səlahiyyətlər kollektiv subyektlərinin hüquqi statusunun bir hissəsidir və aidiyyatında olan məsələlərin həlli üzrə hakimiyyət səlahiyyətlərinin məcmusundan ibarətdir.

Dövlət kollektiv subyektlərinin ümumi hüquq və vəzifələrinə aşağıdakıları misal olaraq qeyd etmək olar:

Ümumi hüquqlara: idarəçilik əmirlərin ünvançısı olmaq, vəzifələrin dəqiq müəyyən edilməsini və onların yerinə yetirilməsi üçün lazımi şəraitin yaradılmasını tələb etmək, müxtəlif təşkilatlara təkliflə müraciət etmək, məlumat almaq, tabeçilikdə olanlara göstərişlər vermək hüquqlarını aid etmək olar.

Ümumi vəzifələr bunlardır: təbii ehtiyatları səmərəli işlətmək, təbiətə qayğı ilə yanaşmaq, sanitariya və yanğından mühafizə qaydalarına riayət etmək, idarəçilik əmrlərini yerinə yetirmək, vaxtı-vaxtında kollektiv üzvlərinin və vətəndaşların müraciətlərini araşdırmaq.

Dövlət mexanizminin kollektiv struktur vahidlərinin inzibati-hüquqi statusunun analizi qeyri-dövlət kollektiv subyektlərinin inzibati-hüquqi statusunun məzmunu haqqında məsələni asanlıqla həll etməyə imkan verir. Çox təsadüfi hallarda birincilərdə olan statusun bütün elementləri (məqsədli, təşkilati, səlahiyyət blokları), ikincilərdə də olur, əksərən isə onlarda bəzi elementlər olmur.

Qeyri-dövlət kollektiv subyektlərin hüquqi statusu xüsusən də inzibati-hüquqi statusları adətən bu subyektlərin yaranması və fəaliyyəti qaydalarını nizamlayan normativ-hüquqi aktlarda müəyyən edilir.

Qeyri-dövlət kollektiv subyektlərin inzibati-hüquqi statusu onların daxili nizamnamələrində və əsasnamələrində öz əksini tapa bilər.

Qeyri-dövlət kollektiv subyektinin inzibati-hüquqi statusunun minimal həcminə daxildir: yaradılma hüququ və qaydası, dövlət tərəfindən tanınma, ada malik olmaq hüququ, müstəqil olaraq dövlət orqanları ilə inzibati-hüquqi münasibətlərdə olmaq hüququ.

MÜƏSSISƏ VƏ TƏŞKILATLAR - INZIBATI HÜQUQUN SUBYEKTLƏRI KIMI

Müəssisə və təşkilatlar icra hakimiyyəti orqanlarından fərqli olaraq idarəetmə funksiyalarını yox, dövlətin, cəmiyyətin, vətəndaşların maddi, mənəvi və digər tələbatlarını ödəmək məqsədilə iqtisadi, sosial-mədəni və digər funksiyaları həyata keçirirlər. Buna görə də onlar hüquqi-hakimiyyət səlahiyyətlərinə malik deyildirlər və idarəetmənin subyekti sayılmırlar. Müəssisə və təşkilatlar öz təyinatlarına görə bir-birindən fərqlənirlər.

Müəssisə - mülkiyyət formasından asılı olmayaraq, qanuna müvafiq olaraq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektidir.

Təşkilatlar - sosial-mədəni və ya inzibati-siyasi funksiyaları yerinə yetirirlər. Onlar əsasən qeyri-istehsal xarakterli sosial dəyərlər yaradırlar (məsələn, təhsil, mədəniyyət, səhiyyə müəssisələri).

Müəssisə və təşkilat arasındakı fərq onların əsas fəaliyyətlərinin məzmunu və nəticələridir. Bununla belə təşkilatlar eyni zamanda müəssisələr üçün xarakterik olan ayrı-ayrı funksiyaları yerinə yetirir və əksinə, müəssisələr eyni zamanda təşkilatlar üçün xarakterik olan işi yerinə yetirə bilərlər (məsələn, elmi tədqiqat institutlarında eksperimental zavodlar və digər istehsalat bölmələri fəaliyyət göstərir).

Müəssisə və təşkilatlar müxtəlif əsaslara görə də növlərə bölünə bilərlər. Müəssisələrin təşkilati-hüquqi formaları Azərbaycan Respublikasının Mülki Məcəlləsində, təşkilatların isə təşkilati-hüquqi formaları müxtəlif qanunvericilik və digər hüquqi aktlarla təsbit edilmişdir.

Müəssisələrin təsnifatı mülki qanunvericilikdə verilir. Onlar aşağıdakılardan asılı olaraq növlərə bölünür:

a) mülkiyyət növlərindən asılı olaraq: dövlət, xüsusi və bələdiyyə mülkiyyəti formalı müəssisələr;

b) daxili hüquqi təşkili prinsipindən asılı olaraq: təsərrüfat ortaqlıqları və cəmiyyətləri, tam ortaqlıqları; kommandit ortaqlıqları; məhdud məsuliyyətli cəmiyyətlər, səhmdar cəmiyyətlər, açıq və qapalı səhmdar cəmiyyətləri.

Təşkilatların növlərini təsbit edən hüquqi normalar mədəniyyət, təhsil, səhiyyə və s. inzibati-siyasi və sosial-mədəni fəaliyyətin ayrı-ayrı sahələrindəki münasibətləri nizama salan hüquqi aktlarda əks edilibdir (məsələn, səhiyyə, təhsil, mədəniyyət, idman və s.).

Təşkilatlar dövlət, qeyri-dövlət və fərdi formalı ola bilər. Onlar, əsasən yerinə yetirdikləri müəyyən növ fəaliyyətlərinə görə ixtisaslaşırlar (səhiyyə təşkilatları, təhsil təşkilatları, idman təşkilatları və s.).

Müəssisə və təşkilatların inzibati-hüquqi statusunu müəyyən edən hüquq normaları üç əsas qrupa bölmək olar:

a) bütün təşkilati-hüquqi formalı müəssisə və təşkilatlara aid olan normalar;

b) dövlət müəssisə və təşkilatlarına aid olan (ünvanlandırılan) normalar;

v) qeyri-dövlət müəssisə və təşkilatlarına aid olan normalar.

Bütün təşkilati-hüquqi formalı müəssisə və təşkilatlara aid olan normalar müəssisə və təşkilatların dövlət orqanları, əsasən də icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqələrinin prinsipial mövqelərini təsbit edir. Onlar bir qayda olaraq dövlətin və onun orqanlarının müəssisə və təşkilatların fəaliyyətinə qarışmasına qadağa qoyur, dövlət qeydiyyatından keçmə, qeydiyyatın həyata keçirilmə qaydasını və qeydiyyatdan keçmənin rədd edilməsinin əsasının göstərilməsi, müəssisələrdə mühasibat və statistik qeydiyyatın aparılmasının vacibliyi və vergi yığımı üçün dövlət orqanlarına lazımi məlumatların verilməsi kimi prinsipləri müəyyən edir.

Hüquqi-təşkilati formasından və mülkiyyət növündən asılı olmayaraq müəssisələr qanunvericiliyə riayət etməli, təbiətdən istifadənin hüquqi reciminə, istehsalatda təhlükəsizlik qaydalarına, istehlakçıların, əhalinin və müəssisənin işçilərinin sağlamlıqlarının mühafizəsi üzrə sanitariya-gigiyena normalarına və tələblərinə riayət etməlidirlər.

Səlahiyyətli dövlət orqanları müəssisələr tərəfindən müvafiq qanunvericiliyə riayət olunmasına nəzarət edir və bu sahədə onların fəaliyyətinə müdaxilə edə bilərlər, onu pozanlara qarşı qanunvericilikdə nəzərdə tutulmuş məcburetmə təsir tədbirlərini tətbiq edə bilərlər.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 17-ci maddəsinə əsasən müəssisələr müxtəlif növ inzibati xətaların subyekti kimi tanına bilərlər. Bir qayda olaraq müəssisələr gömrük, vergi, sanitariya-gigiyena və ətraf mühitin mühafizəsi qaydalarının pozulmasına görə məsuliyyətə cəlb oluna bilərlər. ″Sahibkarlıq fəaliyyəti haqqında″ Azərbaycan Respublikasının 15.12.1992-ci il tarixli Qanununun 11 maddəsinə əsasən: ″1. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin bəzi növləri yalnız xüsusi razılıq (lisenziya) əsasıda həyata keçirilir...″.

Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinə aşağıdakıları aid etmək olar:

- hərbi texnikanın, sursatın, silahın, müdafiə vasitələrin, hərbi sursatların istehsalı, təmiri, satışı və ləğvi;

- ov və idman odlu silahlarının, onlar üçün döyüş sursatının, habelə soyuq silahların istehsalı, təmiri və satışı;
- orden və medalların, möhür və ştampların hazırlanması;
- detektiv fəaliyyəti;
- notariat fəaliyyəti;
- bank fəaliyyəti və s.

Dövlət müəssisələrinin inziati-hüquqi statuslarının xüsusiyyətləri bu müəssisələrin dövlət mülkiyyətində olmasından yaranır. Dövlət orqanlarının səlahiyyətlərinə aiddir: müəssisələrin təsis edilməsi, onların idarə edilməsi, onların fəaliyyət istiqamətinin və yerinin müəyyən edilməsi, nizamnamələrin təsis edilməsi, rəhbərlərin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi, dövlət müəssisələrinin fəaliyyətlərinin dayandırılması, müəyyən edilmiş hallarda dövlət siyasətini onların nəzərinə çatdırması, müəssisələrin təsviyyəsi və ləğvi.

Bir sıra fəaliyyət növləri ilə məşğul olmağa yalnız dövlət müəssisələrinə icazə verilir və bu fəaliyyət icazə vermə sistemi recimin çərçivəsində həyata keçirilir: istənilən növ silahların, döyüş sursatlarının və partlayıcı maddələrin istehsalı, narkotik maddələrin hazırlanması və satışı və s.

Dövlət müəssisələrinin vəzifəli şəxsləri dövlət hakimiyyət xarakterli səlahiyyətlərə malikdirlər. Səlahiyyətli dövlət orqanlarının və vəzifəli şəxslərin intizam hakimiyyəti onlara aid edilir.

Qeyri-dövlət müəssisələrinin inzibati-hüquqi statuslarının xüsusiyyətləri. Belə müəssisələr təşkilati-hüquqi formalarından asılı olmayaraq, bütün müəsissələr üçün xas olan inzibati-hüquqi recim çərçivəsində fəaliyyət göstərirlər. Onlarla münasibətdə dövlətin rolu hüquq normalarının müəyyən edilməsi və onlara riayət edilməsinə nəzarətin həyata keçirilməsində ifadə olunur.

Dövlət müəssisələrindən fərqli olaraq dövlətin qeyri-dövlət müəssisələrinə təsiri məhduddur. Dövlət onların təsis edilməsi, onların fəaliyyət istiqamətlərinin və onların idarəedilməsi kimi məsələləri müəyyən etmir.

Qeyri-dövlət müəssisələrində müxtəlif məsələlər üzrə qərarlar təsisçilər və ya onların səlahiyyət verdiyi orqanlar, sahibkarlar tərəfindən qəbul edilir, qəbul edilmiş qərarlar da dövlət orqanları üçün hüquqi və qeyri-hüquqi faktlar kimi əhəmiyyət kəsb edirlər.

Qeyri-dövlət müəssisələrinin fəaliyyətinə qanunvericiliklə heç bir məhdudiyyət qoyulmur, lakin cəmiyyətin və vətəndaşların təhlükəsizliyi naminə onların fəaliyyətinin məhdudlaşdırılmasını qanunvericilik istisna etmir.

Beləliklə, dövlətin qeyri-dövlət müəssisələrinə təsiri onların əsas fəaliyyətinə dövlət rəhbərliyi xarakterini daşımayan spesifik xarakterə malikdir.

Qeyri-dövlət müəssisələrindən fərqli olaraq dövlət müəssisələrinin dövlət idarəetməsi ümumi olub, lakin o, funksional cəhətdən istiqamətləndirilmişdir. O, sahənin spesifikasından asılı olan istehsalat-təsərrüfat və maliyyə müstəqilliyi şəraitində həyata keçirir. Onlar öz fəaliyyətini yuxarı orqanın rəhbərliyi altında həyata keçirirlər, lakin bu orqan onların fəaliyyətinə bilavasitə rəhbərlik etmək hüququna malik deyil. Yalnız müstəsna hallarda dövlət orqanları dövlət və qeyri-dövlət müəssiələrinə aid olan konkret məsələləri həll edirlər.

Müəssisə və təşkilatın yaradılması mülkiyyətçinin və ya onun səlahiyyət verdiyi orqanın hüququdur.

Müəssisə və təşkilatlar dövlət qeydiyyatından keçməlidirlər. Qeydiyyatdan keçməmiş müəssisə və təşkilatın fəaliyyət göstərməsi qadağandır.

Müəssisə və təşkilatın dövlət qeydiyyatından keçməsi üçün təsisçi aşağıdakı sənədləri təqdim etməlidir:

a) təsisçinin ərizəsi;

b) müəssiəsə və təşkilatın nizamnaməsi (əsasnaməsi);

v) müəssisə və təşkilatın yaradılması haqqında qərar və ya təsis müqaviləsi;

q) qeydiyyat rüsumunun ödənilməsi haqqında sənəd.

Müəssisə və təşkilatın dövlət qeydiyyatından keçməsi üçün Azərbaycan Respublikası qanunları ilə nəzərdə tutulmayan sənədlərin tələb edilməsi yol verilməzdir.

Müəssisə və təşkilatın ləğvi ya yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) mülkiyyətçinin, iqtisad məhkəməsinin və ya müvafiq müəssisələri yaratmaq səlahiyyəti olan orqanın qərarı ilə edilir.

Müəssisə və təşkilat Azərbaycan Respublikasının dövlət qeydiyyat reyestrindən çıxarıldığı andan o, ləğv edilmiş və ya yenidən təşkil edilmiş sayılır. Müəssisə ləğv edildikdə və ya yenidən təşkil edildikdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq işdən çıxarılan işçilərin hüquq və maraqlarına riayət edilməsi haqqında təminat verməlidir.

Müəssisə və təşkilatların müstəqilliyinin təminatı üçün əsas kimi - dövlətin və onun orqanlarının müəssisə və təşkilatın fəaliyyətinə qarşmasına ümumi qadağanın qoyulması və yalnız qanunvericiliklə bu kimi istisna halların müəyyən edilməsidir. Bu, bütövlükdə icra hakimiyyəti orqanları ilə müəssisə və təşkilatların arasındakı münasibətlərə də aid edilir.

Müəssisə və təşkilatların müstəqilliyini qanuna zidd olaraq məhdudlaşdıran və icra hakimiyyəti orqanlarının səlahiyyətlərini təsbit edən normalar hüquqi maneə kimi çıxış edirlər. Onların səlahiyyətlərinin xarakteri belədir ki, onlar müəssisə və təşkilatların fəaliyyətinin gündəlik və bilavasitə idarəedilməsindən kənarlaşdırılırlar və cari idarəetmənin forması kimi onlara qarşı inzibati-sərəncamvermə aktların qəbul etmə hüquqlarına malik deyildirlər.

Bununla yanaşı, qanunvericilikdə müəssisə və təşkilatların müstəqillik hüququnun inzibati və məhkəmə qaydasında qorunması da nəzərdə tutulmuşdur. Belə ki, onların fəaliyyətinin yoxlanılmasını aparan dövlət orqanlarının səlahiyyətlərinə aid olmayan tələblərini yerinə yetirməmək və yoxlamaya aid olmayan materiallarla tanış etməmək hüququna malikdirlər.

QEYRI-HÖKUMƏT TƏŞKILATLARI İNZİBATİ HÜQUQUN SUBYEKTLƏRİ KİMİ

Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsində qeyd olunub ki:

″1. Hər kəsin başqaları ilə birləşmək hüququ vardır.

2. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir.

1. Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.

2. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.″

İnzibati hüququn subyekti kimi qeyri-hökumət təşkilatlarından danışarkən, ictimai özfəaliyyətin bütün müxtəlif formalarını yox, sabit təşkilati vahidliyə, öz tərkibinin və strukturunun sabitliyinə, aydın müəyyən edilmiş fəaliyyət məqsədinə və üzvləri arasında daimi əlaqələrə malik olan, daimi fəaliyyət göstərən fiziki və ya hüquqi şəxslərin kollektiv birliklərini başa düşmək lazımdır.

Azərbaycan Respublikasında ictimai birliklərin və fondların yaradılması və fəaliyyət göstərməsi ilə bağlı münasibətləri ″Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında″ 13 iyun 2000-ci il tarixli Azərbaycan Respublikasının Qanunu tənzimləyir.

Bu qanun hüquqi şəxslər kimi qeyri-hökumət təşkilatlarının yaradılmasını, fəaliyyətini, yenidən təşkil edilməsi və ləğv edilməsi qaydalarını, qeyri-hökumət təşkilatlarının fəaliyyətini, idarə olunmasını, dövlət hakimiyyəti orqanları ilə münasibətlərini müəyyən edir.

Bu qanun siyasi partiyalara, həmkarlar ittifaqlarına, dini birliklərə, yerli özünüidarə orqanlarına və başqa qanunlarla tənzimlənən digər qeyri-hökumət təşkilatlarına şamil edilmir.

″Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında″ Azərbaycan Respublikasının 13 iyun 2000-ci il tarixli Qanununa əsasən:

İctimai birlik təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır.

Fond - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən könüllü əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədləri daşıyan qeyri-hökumət təşkilatıdır.

Qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında Ümumazərbaycan, regional və yerli statusla təsis oluna və fəaliyyət göstərə bilərlər. Qeyri-hökumət təşkilatının fəaliyyət ərazisi təşkilat tərəfindən müstəqil müəyyən olunur.

Ümumazərbaycan qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir. Regional qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının iki və ya artıq inzibati ərazi vahidini əhatə etməlidir. Yerli qeyri-hökumət təşkilatları bir inzibati ərazi vahidinin çərçivəsində fəaliyyət göstərirlər.

Beynəlxalq qeyri-hökumət təşkilatları öz fəaliyyət dairəsi ilə Azərbaycan Respublikasının və ən azı başqa bir xarici dövlətin ərazilərini əhatə edən ictimai birliklərdir.

Qeyri-hökumət təşkilatı onun təsis edilməsi nəticəsində, habelə möv-cud olan qeyri-hökumət təşkilatının yenidən təşkili nəticəsində yaradıla bilər.

Qeyri-hökumət təşkilatının təsis edilməsi nəticəsində yaradılması təsisçilərin (təsisçinin) qərarı ilə həyata keçirilir. Bu halda təsis yığıncağı çağırılır və təşkilatın nizamnaməsi qəbul olunur.

Qeyri-hökumət təşkilatının nizamnaməsində qeyri-hökumət təşkilatının adı və yerləşdiyi yer, fəaliyyətinin məqsədləri və idarəolunma qaydası, üzvlərin hüquq və vəzifələri, ictimai birliyin üzvlüyünə qəbulun və ondan çıxmanın şərtləri və qaydası, qeyri-hökumət təşkilatının əmlakının formalaşma mənbələri, nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası, qeyri-hökumət təşkilatının ləğv edilməsi və ləğv edildiyi halda əmlakından istifadə qaydası müəyyən edilməlidir.

Fondun nizamnaməsində həm də fondun ″fond″ sözü daxil edilmiş adı, onun olduğu yer, fondun məqsədi, onun orqanları, o cümlədən Himayəçilik Şurası və onların formalaşma qaydası, fondun vəzifəli şəxslərinin təyin edilməsi və onların azad edilməsi və fondun ləğv edildiyi halda onun əmlakının müqəddəratı haqqında məlumatlar olmalıdır.

Qeyri-hökumət təşkilatı yalnız dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə edir.

DINI QURUMLAR İNZİBATİ HÜQUQUN SUBYEKTLƏRİ KİMİ

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin vicdan və dinə etiqad azadlığını möhkəmlədir. Vətəndaşlar dinə etiqad hüququndan təkbaşına, həmçinin də dini qurumların yaradılması yolu ilə başqaları ilə birlikdə istifadə edə bilərlər. Dini etiqad azadlığının həyata keçirilməsinin məhdudlaşdırılması, yalnız dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik baxımından və Azərbaycan Respublikasının beynəlxaq öhdəliklərinə uyğun olaraq hüquq və azadlıqların mühafizəsi zəruriliyi olduqda ola bilər.

Dini etiqad azadlığı haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq dini etiqad azadlığının və dini qurumların fəaliyyətinin əsas təminatını müəyyən edən ″Dini etiqad azadlığı haqqında″ 20.08.92-ci il tarixli Qanundan, Azərbaycan Respublikasının ona uyğun başqa qanunvericilik aktlarından ibarətdir.

Dini etiqad qanunvericiliyinin vəzifələri aşağıdakılardır:

- dini etiqad azadlığı hüququnun həyata keçirilməsi üçün təminatın yaradılması;
- vətəndaşların dinə münasibətindən asılı olmayaraq onların hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin təmin edilməsi;
- dini qurumlarla münasibətdə dövlətin və dini qurumların dövlət və cəmiyyət qarşısında vəzifələrinin müəyyən edilməsi;
- dini qurumların fəaliyyəti ilə əlaqədar münasibətləri nizama salmaq.

″Dini etiqad azadlığı haqqında″ Qanunun 7-ci maddəsinə əsasən:

Dini qurumlar yetkinlik yaşına çatmış şəxslərin dini etiqad azadlığı hüququnun birgə həyata keçirilməsi, həmçinin dini etiqadı və dini yaymaq üçün yaradılmış könüllü təşkilatlardır.

Dini qurumların aşağıdakı növləri mövcuddur:

- dini icmalar;
- dini idarələr və mərkəzlər;
- dini qardaşlıqlar;
- dini tədris müəssisələri və s..

Dini mərkəz və idarələr öz nizamnamələrində (əsasnamələrində) nəzərdə tutulmuş qaydada ibadətgahlar, ziyarətgahlar, dini tədris müəssisələri və dini qardaşlıqlar yarada bilər.

Azərbaycan Respublikasında islam dini qurumları öz tarixi islam dini mərkəzində - Qafqaz Müsəlmanları İdarəsində birləşirlər.Təşkilati mərkəzləri xaricdə olan qeyri-islam dini qurumları öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda həmin mərkəzlərin nizamnamələrini rəhbər tuta bilərlər.Dini qurumun nizamnaməsi (əsasnaməsi) dindar şəxslərin ümumi yığıncağında və ya dini qurultaylarında, konfranslarda qəbul edilir.Dini qurumun nizamnaməsində (əsasnaməsində) aşağıdakılar göstərilməlidir:

1. dini qurumun növü, dini mənsubiyyəti və yeri;
2. dini qurumun dini birliyin təşkilat quruluşunda yeri;

3. dini qurumun əmlak vəziyyəti;

4. dini qurumun müəssisələr, kütləvi informasiya vasitələri, digər dini qurumlar və tədris müəssisələri təsis etmək hüquqları;

5. dini qurumun nizamanməsinə (əsasnaməsinə) dəyişikliklər və əlavələr əldə etmək qaydası;

6. dini qurumun fəaliyyətinə xitam verildikdə əmlak məsələlərin və başqa məsələlərin həlli qaydası.

Dini icmanın dövlət qeydiyyatına alınması üçün onu yaratmış azı on nəfər yetkin yaşlı şəxs icmanın təsis protokolu və nizamnaməsi (əsasnaməsi) əlavə olunmuş ərizə ilə dini mərkəzə və ya idarəyə müraciət edir. Dini məruzə və ya idarə 15 gün ərzində həmin sənədləri öz təqdimatı ilə birlikdə dini işlər üzrə müvafiq icra hakimiyyəti orqanına göndərir.

Dini etiqad azadlığı haqqında qanunvericiliyn pozulmasında günahkar olan vəzifəli şəxslər və vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

N Ə T İ C Ə

Bütün deyilənləri ümumiləşdirərək daxili işlər orqanlarının inzibati hüququn kollektiv subyektləri ilə qarşılıqlı münasibətinin əsas formaları haqqında danışmaq istərdim.

Bildiyimiz kimi hüquq mühafizə orqanların qarşısında duran əsas vəzifələrdən biri də ictimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsidir. Vətəndaşların ictimai qaydanın mühafizəsində iştirak etmələri ictimai qaydanın mahiyyətindən asılı olaraq müəyyən edilir. Bu da bütövlükdə cəmiyyətin maraqlarına və ayrı-ayrılıqda onun hər bir üzvünün mraqlarına uyğun olaraq müəyyən edilir. Vətəndaşların ictimai qaydanın mühafizəsində iştirak etmələrinin təşkilati formalarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- ictimai orqanlar;
- ictimai qaydanın mühafizəsi üzrə xüsusi ictimai qurumlar.

İctimai qaydanın mühafizəsində, hüquqpozmaların xəbərdar edilməsində və cinayətkarlığa qarşı mübarizədə ictimai orqanlar hakimiyyət və idarəçilik orqanlarına böyük köməklik göstərir: bunlar küçə və ev komitələri, qadın şuraları, valideynlər şurası, veteranlar şurası, yetkinlik yaşına çatmayanların işləri və hühuqlarının müdafiəsi üzrə komissiyalar və s. Bu ictimai orqanlar ictimai birliklərin nümayəndələrindən və vətəndaşlardan təşkil edilirlər. Onların fəaliyyəti yerli icra hakimiyyəti və ya da müvafiq təşkilatlar tərəfindən istiqamətləndirilir. Baxdığımız ictimai birliklərin səlahiyyətləri, onlar haqqında müvafiq nizamnamələr (əsasnamələr) ilə müəyyən edilir.

Sadaladığımız təşkilatlardan hər birinin səlahiyyətlərinin xüsusiyyətlərinə baxmayaraq, onların hamısı bu və ya digər formada ictimai qaydanın mühafizəsində iştirak edir, vətəndaşlarda hüquq düşüncənin və intizamın formalaşmasına zəmin yaradır, dövlət orqanlarının üzərinə qoyulmuş funksiyalarının həyata keçirilməsində onlara köməklik göstərir. İctimai qaydanın mühafizəsi işində effektivliyinin əsas şərti bu işdə iştirak edən ictimai təşkilatlar və əmək kollektivləri ilə müvafiq hüquq mühafizə orqanların qarşılıqlı əlaqənin təşkil edilməsi və onun təkmilləşdirilməsidir.

Bu qarşılıqlı əlaqə ictimai qaydanın mühafizəsi sahəsində birliklərin və əmək kollektivlərin üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsində daxili işlər orqanların onlara köməklik göstərməsində, ictimai qaydanın vəziyyəti haqqında məlumat mübadiləsinin aparılmasında, hüquqpozmaların xəbərdar edilməsi üzrə tədbirlərin birgə planlaşdırılmasında və həyata keçirilməsində və s. ifadə olunur.

Mövzu № 6: ″İcra hakimiyyəti orqanları″

P L A N :

G I R I Ş

1. İcra hakimiyyəti orqanlarının anlayışı, növləri və onların inzibati-hüquqi statusu.
2. İcra hakimiyyəti sahəsində Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin səlahiyyətləri.
3. İcra hakimiyyətinin mərkəzi və yerli orqanları. Yerli icra hakimiyyəti.

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. ″Polis haqqında″ Azərbaycan Respublikasının Qanunu. 28.10.1999.
3. ″Normativ-hüquqi aktlar haqqında″ Azərbaycan Respublikasının Qanunu. 14.01.2001.
4. ″Dövlət qulluğu haqqında″ Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli Qanunu.
5. ″Yerli icra hakimiyyəti haqqında Əsasnamə″. 16 iyun 1999-cu il tarixdə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmişdir.
6. ″Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə″. 30 iyun 2001-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmişdir.
7. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
8. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
9. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
10. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
11. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
12. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G I R I Ş

12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş Konstitusiyamızın 7-ci maddəsinin 3-cü bəndinə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilmişdir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyəti Azərbaycan Respublikasının məhkəmələri tərəfindən həyata keçirir.

Azərbaycan Respublikasının Konstitusiyasının müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Bü günkü mühazirəmizdə Azərbaycan Respublikasında dövlət hakimiyyətinin müstəqil əsaslarından biri olan icra hakimiyyətinin Azərbaycan Respublikasının Prezidentinə

mənsubluğu, onu həyata keçirən icra hakimiyyəti orqanları haqqında anlayışlar, onların növləri və hüquqi statusları, onların əsas vəzifələri və fəaliyyətlərinin əsas istiqamətləri öyrəniləcəkdir.

Digər tərəfdən gələcək fəaliyyətiniz bilavasitə Respublikamızda qüvvədə olan normativ-hüquqi aktların icrası və onların icrasına nəzarət ilə bağlı olduğu üçün bu günkü mövzumuzun Sizin tərəfinizdən daha da dərindən mənimsənilməsi böyük əhəmiyyət kəsb edir. Çünki bu biliklərə yiyələnməklə Siz, gələcək fəaliyyətinizi qanunçuluğun tələblərinə müvafiq olaraq həyata keçirməklə Konstitusiyamızın 12-ci maddəsində nəzərdə tutulmuş dövlətin ali məqsədi olan ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsində″ öz vəzifə borclarınızı müvəffəqiyyətlə yerinə yetirmiş olarsınız.

Sual 1.

İcra hakimiyyəti orqanlarının anlayışı, növləri və onların

inzibati-hüquqi statusu

Orqan dedikdə, təşkilat, kollektiv və ya idarə olunan insanlar qrupu başa düşülür. Təşkilat sosial bir qurumdur. O müəyyən yaranma və fəaliyyət məqsədinə, daxili struktur və funksional təbəqələşməyə malikdir. Göstərilən bu xüsusiyyətləri dövlət orqanlarına aid etmək olar.

Dövlət orqanlarının özünəməxsus əlamətləri aşağıdakılardır:

- dövlət aparatının nisbətən müstəqil hissəsidir;
- dövlət funksiyalarını və ictimai maraqları həyata keçirir;
- dövlətin, yerli inzibati orqanların və eyni zamanda öz adından fəaliyyət göstərir;
- müvafiq səlahiyyətlərə malikdir;
- fəaliyyətlərinə görə dövlət qarşısında məsuliyyət daşıyır;
- yuxarı dövlət orqanlarına tabedir;
- dövlət tərəfindən təsis edilir;
- hüquqi vəziyyəti, strukturu və fəaliyyəti hüquqla nizama salınır.

Bəzi alimlərin fikrincə, orqan dövlət aparatının bir hissəsidir. O mütəşəkkil insanlar qrupu olmaqla yanaşı tamın bir hissəsidir. Tam hissənin mövcudluğunu, onun məzmununu və fəaliyyət formalarını, eləcə də dövlət aparatındakı yerini və daxili təşkilini müəyyən edir. Hal-hazırda bu problem ″Dövlət qulluğu haqqında″ Azərbaycan Respublikasının Qanunu ilə həll edilmişdir. ″Dövlət qulluğu haqqında″ Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli Qanununun 7.1 maddəsində dövlət orqanının anlayışı aşağıdakı kimi verilmişdir.

Dövlət orqanı dedikdə, Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış dövlət qulluqçularının qurumu başa düşülür (slayd 1).

Göstərilən Qanunda dövlət orqanının anlayışının verilməsindən istifadə edib qanunvericilik, məhkəmə və icra hakimiyyəti orqanlarına onu tətbiq etmək olar. Dövlət orqanının anlayışını əsas götürərək icra hakimiyyəti orqanına aşağıdakı kimi anlayış vermək olar.

İcra hakimiyyəti orqanı - müvafiq səlahiyyətlərə, struktura, fəaliyyət ərazisinə malik olan, qanunla və digər normativ-hüquqi aktlarla nəzərdə tutulmuş qaydada təşkil edilən, dövlətin tapşırığı ilə dövlətin adından çıxış etmək hüququna malik və icraedici-

sərəncamverici fəaliyyət qaydasında gündəlik olaraq iqtisadi, sosial-mədəni və inzibati-siyasi quruculuğu həyata keçirən dövlət aparatının bir hissəsidir.

İcra hakimiyyətinə mənsub olan hər bir orqan müvafiq struktura və ştata malikdir. Onun orqanlarının strukturu və ştatları idarəetmənin ayrı-ayrı sahələrinin xüsusiyyətləri nəzərə alınmaqla Azərbaycan Respublikasının dövlət və inzibati-ərazi quruluşuna əsasən təşkil edilir.

İcra hakimiyyəti orqanlarının əsas əlamətləri aşağıdakılardır:

- idarəetmə (icraedici və sərəncamverici) fəaliyyətini həyata keçirir;
- daxili təşkilati quruluşa malikdir;
- dövlət-hakimiyyət səlahiyyətinə malikdir;
- büdcənin icrası ilə bağlı müvafiq orqanların nəzarəti altında olurlar;
- müvafiq səlahiyyətlərə və operativ müstəqilliyə malikdir ;
- bir qayda olaraq daimi ştata malikdir;
- yuxarı orqanlar tərəfindən təşkil edilir;
- onların təşkili, strukturu və fəaliyyət qaydaları əsasən inzibati-hüquqi normalar ilə nizama salınır.

Qeyd etmək lazımdır ki, göstərilən əlamətlər bir-biri ilə qarşılıqlı surətdə bağlıdır. Bu xüsusiyyətlərin məcmusu və onların ciddi nisbəti icra orqanları üçün səciyyəvidir.

İcra hakimiyyəti orqanının strukturu aşağıdakı elementlərdən ibarətdir :

1. Rəhbərlik (orqanın rəhbəri, onun müavinləri, kollegiya).
2. Sahəvi bölmələr (baş idarələr, şöbələr, bölmələr və s.).
3. Funksional bölmələr (idarələr, şöbələr və s.)
4. Köməkçi və xidmətedici bölmələr (katiblik, dəftərxana və s.)

İcra hakimiyyəti orqanının göstərilən bu strukturu daimi deyil, təxmini xarakter daşıyır. Lakin aşağıda göstərilən əlamətlər hər bir icra hakimiyyəti orqanlarına aid edilə bilər:

- hər bir icra hakimiyyəti orqanı rəsmi qaydada müəyyən edilmiş ştat cədvəlinə malikdir;
- hər bir icra hakimiyyəti orqanının ştat cədvəlində aşağıdakı elementlər öz əksini tapmalıdır:
    - struktur bölmələrinin sayı və adları;
    - vəzifələrin adı və sayı;
    - vəzifə səlahiyyətləri;
    - vəzifə maaşları və s.
- hər bir dövlət orqanı hüquqla nizama salınmış struktura malikdir.

Hər bir icra hakimiyyəti orqanında yuxarıda göstərilən struktur bölmələr və vəzifələr ola bilər. Lakin müstəsna hallarda onların olmaması da mümkündür. (məsələn: yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya).

İcra hakimiyyəti orqanlarının strukturu və ştatları onları təsdiq etməyə səlahiyyəti olan yuxarı təbəqəli idarəetmə orqanı tərəfindən təsdiq edilir. Məsələn, Azərbaycan Respublikasının Nazirlər Kabineti nazirliklərin, dövlət komitələrinin, baş idarələrin, departamentlərin, idarələrin və s. strukturunu, eləcə də onların idarəçilik aparatlarının işçilərinin sayını təsdiq edir.

İcra hakimiyyəti orqanlarının fəaliyyətlərinin əsas istiqamətləri (funksiyaları) aşağıdakılardır:

- proqnozlaşdırma - elmi nailiyyətlərə və təcrübi məlumatlara əsasən, hər hansı bir hadisə və ya proseslərin inkişafında ola biləcək dəyişikliklərin qabaqcadan təsviri, görülməsi və s.;
- planlaşdırma - bu və ya digər fəaliyyətin istiqamət, məqsəd, vəzifə və nəticələrinin müəyyən edilməsi;
- təşkiletmə - idarəedən və idarəolunan sistemaltıların təşkil edilməsi;
- nizamasalma - hər hansı bir fəaliyyət rejiminin müəyyən edilməsi;
- ümumi rəhbərlik və operativ sərəncamvermə - ümumi rəhbərliklə yanaşı operativ surətdə sərəncamvermənin həyata keçirilməsi;
- koordinasiya - eyni bir vəzifənin yerinə yetirilməsi zamanı müxtəlif idarəetmə orqanların və təşkilatların fəaliyyətinin razılaşdırması və uzlaşdırması;
- yoxlama və nəzarət - aşkar edilmiş çatışmamazlıqların və nöqsanların aradan qaldırılması, eləcə də bərpa edilməsi məqsədi ilə işin faktiki vəziyyətinin yoxlanılması;
- uçot - görülən, yerinə yetirilən işlərin və onun nəticələrinin qeydiyyatının aparılması və s.

Hüquqi ədəbiyyatlarda ″idarəetmə orqanı″ və ″dövlət müəssisəsi″ (idarəsi) anlayışlarının nisbəti haqqında müxtəlif fikirlər yürüdülür. Bir sıra müəlliflərin fikrincə, müəssisələr dövlət orqanları sırasına aid edilməlidir. İnzibati hüquqla bağlı ədəbiyyatlarda isə başqa fikir hökm sürür. Bu ədəbiyyatlarda qeyd edilir ki, idarəçilik orqanları hakimiyyət - təşkilati fəaliyyəti həyata keçirir. Bu orqanlar onlardan kənarda olan, yəni onların struktur bölməsi sisteminə daxil olmayan obyektlərə rəhbərlik edir və dövlətin adından çıxış edir. Müəssisələr və təşkilatlar isə təsərrüfat fəaliyyəti və sosial xidməti həyata keçirir. Birincilərin ″məhsulu″ əksərən qərarlar formasında, ikincilərin ″məhsulu″ maddi nemətlər və xidmətlər formasında obyektiv aləmdə gerçəkləşir.

İcra hakimiyyəti orqanlarında mərkəzi orqanlardan başlayaraq aşağı təbəqəli orqanlara kimi bütün işçilər (xidmətedici heyətdən başqa) müxtəlif səlahiyyətlərə malik olub, idarəçiliyin müxtəlif funksiyalarını həyata keçirirlər. Başqa cür desək, onların işi idarəçilik fəaliyyətidir. Müəssisədə və təşkilatlarda bu işlər başqa formadadır. Burada əmək kollektivinə daxil olan şəxslər müxtəlif xarakterli fəaliyyətlə məşğul olur.

Kollektivin bir hissəsi bilavasitə istehsal prosesi ilə məşğul olub, maddi nemətlər istehsal edir, digər hissəsi isə idarəçilik və hakimiyyət-təşkilati fəaliyəti həyata keçirir. Fəaliyyətin bu növü əsas deyil, lakin o istehsalı qaydaya salır və təmin edir.

Müəssisə (təşkilat) bütövlükdə özü idarəçilik funksiyalarını yerinə yetirmir, bununla həmin müəssisədə (təşkilatda) xüsusi təşkil edilmiş adamlar qrupu ″müdiriyyət″ məşğul olur. O dövlət idarəçilik orqanı kimi yox, idarəetmənin subyekti kimi təsəvvür olunmalıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, idarəçiliyin iki növü fərqləndirilir:

- yuxarı təbəqəli orqanlar tərəfindən həyata keçirilən idarəetmə;
- yerli özünüidarəetmə orqanı tərəfindən həyata keçirilən idarəetmə.

İcra hakimiyyəti orqanlarının inzibati-hüquqi statusu 3 qrup normalardan ibarətdir :

1. Məqsədli qrup normalar icra hakimiyyəti orqanın yaranma məqsədi, vəzifələri, funksiyaları və fəaliyyətinin prinsiplərini müəyyən edir.

2. Təşkilati-struktur qrup normaları aşağıdakı hüquqi nizamasalma göstərişlərindən ibarətdir:

a) orqanın yaranma, yenidənqurma və ləğv edilməsi qaydası;

b) onların strukturu;

v) xətti və funksional tabeçilik;
q) fəaliyyət qaydaları;
d) təşkilati özünü idarəetmə hüququ;
e) onların istifadə etdiyi rəsmi rəmzlər və s.

3.Orqanın səlahiyyətlərini müəyyən edən qrup normalar onun başqa subyektlərə nisbətdə səlahiyyətlərini təsbit edir.

İcra hakimiyyəti orqanlarının inzibati hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti eyni vaxtda yaranır və onların ləğv edilməsi ilə xitam olunur. İcra hakimiyyəti orqanlarının səlahiyyəti müvafiq qanunlarda, əsasnamələrdə və digər normativ-hüquqi aktlarda öz əksini tapır və möhkəmləndirilir.

İcra hakimiyyəti orqanlarının inzibati-hüquqi statusu aşağıdakı əlamətlərlə xarakterizə olunur:

- icra hakimiyyəti orqanlarının fəaliyyəti xaraktercə qanun qüvvəlidir;
- hüquqi aktlar qəbul etmək hüququ vardır;
- aşağı təbəqəli orqanlar yuxarı orqanlar qarşısında hesabat verir və onların nəzarəti altındadır;
- öz səlahiyyətləri çərçivəsində icra hakimiyyəti orqanları operativ müstəqilliyə malikdir.

İcra hakimiyyəti müxtəlif sahələrdə (iqtisadi, sosial-mədəni, inzibati-siyasi) həyata keçirilir. Bu öz növbəsində müxtəlif icra hakimiyyəti orqanlarının olmasını tələb edir. İcra hakimiyyəti orqanlarını aşağıdakı kimi təsnifləşdirmək məqsədəuyğundur :

I. Fəaliyyətinin ərazi həcminə görə:

- ümumdövlət fəaliyyətli (Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Azərbaycan Respublikası Nazirlər Kabineti, Səhiyyə, Müdafiə, Daxili İşlər və s. kimi nazirliklər);
- müəyyən inzibati ərazi vahidində (fövqəladə və hərbi vəziyyət elan edilən ərazilərdə Azərbaycan Respublikası Prezidentinin nümayəndəliyi).

II. Səlahiyyətlərinin həcminə görə:

- Azərbaycan Respublikasının Konstitusiyası ilə əsas səlahiyyətləri müəyyən edilən ali dövlət orqanları (1-ci kateqoriya dövlət orqanları);
- Azərbaycan Respublikası Prezidenti tərəfindən səlahiyyətləri müəyyən edilən dövlət orqanları (2-ci kateqoriya dövlət orqanları);
- Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən səlahiyyətləri müəyyən edilən dövlət orqanları (3-cü kateqoriya dövlət orqanları).

III. Səlahiyyətlərinin xarakterinə görə:

- ümumi səlahiyyətli (Azərbaycan Respublikasının Nazirlər Kabineti);
- sahəvi səlahiyyətli (Səhiyyə Nazirliyi, DİN-in və s.);
- xüsusi səlahiyyətli (Vergilər Nazirliyi, Gömrük Komitəsi).

IV. Səlahiyyətinə aid məsələlərin həlli üsuluna görə:

- kollegial qaydada (Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti);
- vahid rəhbərlik qaydasında (şəhər, rayon icra hakimiyyətləri).

V. Maliyyələşmə mənbəyinə görə:

- dövlət büdcəsindən (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi);
- təsərrüfat hesablı (Azərbaycan Resupblikası DİN-in BMİ və s.).

Birinci suala yekun olaraq aşağıdakıları qeyd etmək lazımdır:

1. İcra hakimiyyəti orqanı müvafiq səlahiyyətlərə, struktura, fəaliyyət ərazisinə malik olan, qanunla və digər normativ-hüquqi aktlarla nəzərdə tutulmuş qaydada təşkil edilən, dövlətin tapşırığı ilə dövlətin adından çıxış etmək hüququna malik və icraedici-sərəncamverici fəaliyyət qaydasında gündəlik olaraq iqtisadi, sosial-mədəni və inzibati-siyasi quruculuğu həyata keçirən dövlət aparatının bir hissəsidir.

2. İcra hakimiyyəti orqanının strukturu aşağıdakı elementlərdən ibarətdir:

- rəhbərlik;
- sahəvi bölmələr;
- funksional bölmələr;
- yardımçı və xidmətedici bölmələr.

3. İcra hakimiyyəti orqanlarının fəaliyyətinin əsas istiqamətləri (funksiyaları) aşağıdakılardır:

- proqnozlaşdırma;
- planlaşdırma;
- təşkiletmə;
- nizama salma;
- ümumi rəhbərlik və operativ sərəncamvermə;
- koordinasiya (razılaşdırma);
- yoxlama və nəzarət;
- qeydiyyat və uçot.

4. İcra hakimiyyəti orqanının inzibati-hüquqi statusu 3 qrup normalardan ibarətdir:

a) yaranma məqsədini müəyyən edən qrup normalar;

b) təşkilati-strukturu müəyyən edən qrup normalar;

v) səlahiyyətlərini müəyyən edən qrup normala

Sual 2.

İcra hakimiyyəti sahəsində Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin səlahiyyətləri

Azərbaycan Respublikası Konstitusiyasının 100-cu maddəsinə əsasən, yaşı 35-dən aşağı olmayan, 10 ildən çox daimi Azərbaycan Respublikasının ərazisində yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətlərə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli olan və ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

Azərbaycan Respublikasının Prezidentinin statusu Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmişdir. Prezident dövlət başçısı kimi dövlət hakimiyyətini həyata keçirir. Dövlətin ali vəzifəli şəxsi kimi böyük səlahiyətlərə malikdir. Onun səlahiyyətləri Konstitusiyanın 109-cu maddəsi ilə müəyyən edilmişdir. O, dövlətin daxili və xarici siyasətini müəyyən edir, danışıqlar aparır və Azərbaycan Respublikasının adından beynəlxalq müqavilələr imzalayır. Onun Azərbaycan Respublikasının diplomatik nümayəndələrini təyin etmək və geri çağırmaq, diplomatik nümayəndələrin etimadnamələri və geri çağırma sənədlərini qəbul etmək hüququ vardır.

Prezident qanunverici, icra və məhkəmə hakimiyyətinin işgüzar əməkdaşlığını təmin etməyə borcludur.

O, Azərbaycan Respublikasının vahidliyini, suverenliyini və bütövlüyünü təcəssüm etdirir və vətəndaşların hüquq və azadlıqlarının təminatçısı olmalıdır. Prezident Respublikanın ali vəzifəli şəxsi kimi Azərbaycan Respublikasının xalqına müraciət edir, dövlət təltifləri ilə mükafatlandırır, xüsusi və fəxri rütbələr verir, qanuna uyğun olaraq vətəndaşlıq məsələlərini, siyasi sığıncaq vermə məsələlərini həll edir. O, Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum olunmuş vətəndaşları əfv etmək hüququna malikdir.

Azərbaycan Respublikasında Prezident, Nazirlər Kabineti, ayrı-ayrı nazirliklər, rayon icra hakimiyyətləri, Naxçıvan MR-in Nazirlər Kabineti Azərbaycan Respublikasında icra hakimiyyətinin vahid sistemini təşkil edirlər. Prezident idarəçilik ierarxiyasının və bütün icra hakimiyyəti sisteminin başçısı kimi böyük səlahiyyətlərə malikdir.

O, Nazirlər Kabinetinin fəaliyyətinə rəhbərlik edir və hökumət tərəfindən öz səlahiyyətlərinin səmərəli həyata keçirilməsi üçün tədbirlər görür. Azərbaycan Respublikasının Milli Məclisinin razılığı ilə hökumət başçısını təyin edir və hökumət başçısının təqdimatı ilə nazirliklərin, komitələrin və Azərbaycan Respublikasının digər mərkəzi orqanlarının rəhbərlərini işə təyin edir və işdən azad edir. Prezident dövlətin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görməlidir. O, Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasına başçılıq edir, qanunla müəyyən edilmiş qaydada hərbi və fövqəladə vəziyyət elan edir. Prezident Respublikanın bütün ərazisində icrası məcburi olan fərman və sərəncamlar vermək və onların icrasını yoxlamaq hüququna malikdir.

O, təşkilati cəhətdən heç kəsə tabe deyil və digər dövlət orqanlarından fərqli olaraq yüksək dərəcəli müstəqilliyə malikdir. Lakin onun hüquqi statusunu nizamlayan normativ-hüquqi aktlarda ″Prezident hakimiyyəti″nin ikinci dərəcəli, qanunqüvvəli olması qeyd edilir. Prezidentin fərmanları Azərbaycan Respublikasının qanunları əsasında və onların icrası məqsədi ilə qəbul edilir və qanuna zidd ola bilməz.

Qanunverici orqan olan Milli Məclis dövlət büdcəsinin miqdarını, onun mədaxilini və məxaricini, idarəçilik aparatının fəaliyyətinin təmin edilməsi üçün vəsaitlərin miqdarını müəyyən etməklə icra hakimiyyətinin fəaliyyətinin qurulmasında iştirak edir.

Prezident öz fəaliyyətini İcra Aparatı vasitəsi ilə reallaşdırır. İcra Aparatı fərman və digər aktların layihələrini hazırlayır, müxtəlif iclasları təşkil edir, təsərrüfat xidməti və kargüzarlıqla məşğul olur, qeyri-hökumət təşkilatları və KİV-lə əlaqələr yaradır.

Azərbaycan Respublikasının Konstitusiyasının 113-cü maddəsinə əsasən ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Prezidenti Fərmanlar qəbul edir, digər məsələlərə görə isə sərəncamlar qəbul edir. Əgər Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamlarında başqa qayda nəzərdə tutulmayıbsa, onda bu fərman və sərəncamlar dərc olunduğu gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Prezidenti səlahiyyətlərinin həyata keçirməsini təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır. Azərbaycan Respublikası Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinə tabedir və onun qarşısında cavabdehdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilir.

Nazirlər Kabineti Prezidentin səlahiyyət müddəti çərçivəsində fəaliyyət göstərir və yeni seçilmiş Prezident vəzifəsini tutduğu, səlahiyyətə başladığı gün istefa verir. (ARK maddə 116)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibinə Azərbaycan Respublikasının Baş naziri, onun müavinləri, nazirlər və digər mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildir.

Nazirlər Kabineti Azərbaycan Respublikasının hökuməti və icra hakimiyyətinin yuxarı orqanıdır. O dövlət idarəetmə orqanları sisteminə rəhbərlik edir, onların razılaşdırılmış və qarşılıqlı fəaliyyətlərini təmin edir. Nazirlər Kabineti ümumi səlahiyyətli idarəetmə orqanı kimi ölkənin bütün həyat sahələrinə təsir göstərə bilən geniş səlahiyyətlərə malikdir. İqtisadiyyat sahəsində hökumət əsas iqtisadi inkişaf proqramlarının layihələrini hazırlayır və iqtisadi prosesləri tənzimləyir. Azad sahibkarlıq üçün şərait yaradır, pul və kredit sisteminin möhkəmləndirilməsini təmin edir, vahid qiymət siyasətini aparır və təbii sərvətlərin səmərəli istifadə olunması üçün şərait yaradır. Nazirlər Kabineti Respublikanın dövlət büdcəsini hazırlayır və onun icrasını təmin edir. Hökumət sosial inkişaf proqramlarını hazırlayır, Respublikada səhiyyə və təhsil sistemini təşkil edir, mədəniyyətin inkişafına zəmin yaradır. Onun fəaliyyətin istiqamətlərindən biri də sosial təminata rəhbərlik etmək və əhalini sosial cəhətdən müdafiəsini təmin etməkdir. Nazirlər Kabinetinin fəaliyyətinin əsas istiqamətlərindən biri də dövlətin mənafelərini, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, dövlətin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin olunmasıdır. Azərbaycan Respublikasının xarici dövlətlər və beynəlxalq təşkilatlarla münasibəti, xarici iqtisadi fəaliyyəti, elmi, texniki və mədəni əməkdaşlıq sahəsində ayrı-ayrı sahələrə rəhbərlik edilməsi Nazirlər Kabinetinin üzərinə qoyulmuşdur. Tapşırılan vəzifələrin bir hissəsini Nazirlər Kabineti bilavasitə özü, qalan hissəsini isə ona tabe olan orqanların vasitəsi ilə yerinə yetirir. O icra hakimiyyətinin mərkəzi orqanlarının işini istiqamətləndirməklə onların fəaliyyətini əlaqələndirir və fəaliyyətlərinə nəzarət edir. Nazirlər Kabineti öz səlahiyyətləri çərçivəsində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və yerli icra hakimiyyətlərinin işini yoxlayır və istiqamətləndirir. O icra hakimiyyəti orqanları və yerli icra hakimiyyəti başçıları tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə, Prezidentin və hökumətin qəbul etdikləri normativ-hüquqi aktlara zidd olaraq çıxarılan qərarları ləğv etmək hüququna malikdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 119-cu maddəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin səlahiyyətləri müəyyən edilmişdir.

Konstitusiyanın bu maddəsinə əsasən Nazirlər Kabineti aşağıdakı səlahiyyətləri həyata keçirir:

- Azərbaycanın dövlət büdcəsinin layihəsini hazırlayır və onu Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;
- Azərbaycan Respublikasının dövlət büdcəsinin icrasını təmin edir;
- maliyyə-kredit və pul siyasətinin həyta keçirilməsini təmin edir;
- dövlətin iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;
- nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;
- Azərbaycan Respublikasının Prezidenti onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti öz səlahiyyətləri çərçivəsində müvafiq normativ-hüquqi aktları qəbul etmək səlahiyyətinə malikdir. Azərbaycan Respublikasının Konstitusiyasının 120-ci maddəsinə əsasən, Nazirlər Kabineti ümumi qaydalar müəyyən etdikdə qərarlar, digər məsələlər üzrə isə sərəncamlar qəbul edir. Əgər

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarında başqa qaydalar nəzərdə tutulmayıbsa, qərar və sərəncamlar dərc edildiyi gündən qüvvəyə minir. Nazirlər Kabinetinin iclasları rübdə bir dəfədən az olmayaraq keçirilir. İclasda hökumət üzvlərinin azı üçdə ikisi iştirak etdikdə o səlahiyyətli hesab olunur və qərarlar hökumət üzvlərinin səsçoxluğu ilə qəbul edilir.

İkinci suala yekun vuraraq bir daha qeyd etmək istərdim ki, icra hakimiyyəti sahəsində Azərbaycan Respublikasının Prezidentinin və Nazirlər Kabinetinin səlahiyyətlərini araşdırdıq. Təhlil nəticəsində məlum oldu ki, Azərbaycan Respublikasında icra hakimiyyəti Prezidentə məxsusdur. O, icra səlahiyyətlərinin həyata keçirilməsini təşkil etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini təşkil edir.

Sual 3.

İcra hakimiyyətinin mərkəzi və yerli orqanları. Yerli icra hakimiyyəti

Azərbaycan Respublikasında icra hakimiyyəti mərkəzi orqanlarının aşağıdakı kimi təşkilati-hüquqi formaları mövcuddur:

- Nazirliklər;
- Dövlət komitələri;
- Departamentlər, xidmətlər;
- Azərbaycan Respublikası Nazirlər Kabineti yanında xüsusi idarələr və təşkilatlar;
- digər orqanlar.

İcra hakimiyyəti orqanları dövlət idarəetməsinin aşağıdakı sahələri üzrə fəaliyyət göstərirlər:

a) iqtisadi sahədə fəaliyyət göstərən nazirliklər: İqtisadi İnkişaf nazirliyi, Kənd təsərrüfatı nazirliyi və s.;

b) sosial-mədəni sahədə fəaliyyət göstərən nazirliklər, komitələr: Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, və s.;

v) inzibati-siyasi sahədə fəaliyyət göstərən nazirliklər, xidmətlər: Müdafiə, Ədliyyə, Daxili işlər, Xarici işlər və s. nazirliklər.

Mərkəzi icra hakimiyyəti orqanları Nazirlər Kabinetinə tabedirlər. Onlar qanun və qanun qüvvəli aktlar əsasında fəaliyyət göstərirlər.

Hər bir mərkəzi icra hakimiyyəti orqanı haqqında Əsasnamə Azərbaycan Respublikasının Prezidenti və ya onun göstərişi ilə hökumət tərəfindən təsdiq edilir. Onların fəaliyyətinin hüquqi əsasını xüsusi əsasnamələr təşkil edir.

Nazirlər Kabineti nazirliklərin, dövlət komitələrinin və digər mərkəzi orqanların işçilərinin sayını müəyyən edir və onların təmin edilməsi üçün büdcədən ayrılan vəsaitin miqdarını müəyyənləşdirir. Lazımi hallarda Nazirlər Kabineti ayrı-ayrı məsələlərin həllini onlara həvalə edə bilər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin müavinlərini, onların kollegiya və komitələrinin üzvlərini işə təyin edir və işdən azad edir, eləcə də onların fəaliyyətinə nəzarət edir.

Bir qayda olaraq mərkəzi icra hakimiyyəti orqanı müəyyən bir idarəyə rəhbərlik edir, onun mərkəzi funksiyalarını yerinə yetirir, idarə qarşısında duran bütün islahatlar və bununla yanaşı iqtisadi-sosial və s. vəzifələrin yerinə yetirilməsini təmin edir.

Mərkəzi icra hakimiyyəti orqanı adətən bu sxem üzrə qurulur:

1. Rəhbərlik (rəis (müdir)), onun müavinləri, kollegiya, komitə, elmi, idarə və digər şuralar.

2. İstehsalat struktur bölmələri həmin idarənin təşkil olunmasına səbəb olan vəzifələri bilavasitə yerinə yetirilməsinə xidmət edir (DİN-in BCAİ və s.).

3. İdarə çərçivəsində daxili təşkilati fəaliyyətlə məşğul olan qərargah bölmələri (mühasibat, kadrlar və s.)

″Nazirlik″, ″Komitə″, ″Müfəttişlik″ sözləri ikili məna bildirir və müxtəlif anlayışları ifadə edirlər.

Birinci mənada nazirlik, dövlət komitəsi rəhbərlik edən mərkəzi icra hakimiyyəti orqanı, baş idarənin mərkəzi aparatı, onun qərargahıdır. İkinci mənada nazirlik, dövlət komitəsi srukturun sistemidir, yəni inzibati idarədir (təsisatdır).

İcra hakimiyyəti mərkəzi orqanlarının bütün təşkilati-hüquqi formalarına aid olan əlamətlərlə yanaşı onların arasında müəyyən fərqlər də var:

1. Nazirliklər mərkəzi vahid rəhbərliyi həyata keçirən sahəvi orqanlardır. Onlar Azərbaycan Respubikası Prezidenti tərəfindən qanuna müvafiq olaraq təşkil edilir, dəyişdirilir və ləğv edilir.

Prezident müstəqil olaraq xarici işlər, daxili işlər, müdafiə, təhlükəsizlik nazirlərini Milli Məclisin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

Nazirliyə təkbaşına nazir rəhbərlik edir və vəzifəsinə görə hökumətin tərkibinə daxildir. O, fəaliyyət prosesində qərarlar qəbul edir, əmrlər verir və müavinləri arasında vəzifələri bölüşdürür. Nazirliklərdə məşvərətçi orqan - kollegiyalar yaradılır. Onların tərkibi bir qayda olaraq nazirliyin rəhbər işçilərindən təşkil edilir. Kollegiyanın sədri bir qayda olaraq nazir olur. Kollegiyanın qərarları nazirin əmri ilə həyata keçirilir.

2. Dövlət komitələri sahələrarası idarəçiliyi həyata keçirən mərkəzi orqanlardır. Onlar geniş funksional hakimiyyətə malik olur, Milli Məclisin razılığı ilə Prezident tərəfindən təşkil edilir, dəyişdirilir və ləğv edilir. Dövlət komitəsinə sədr rəhbərlik edir. O, Prezidentin fərmanı ilə təyin edilir və işdən azad edilir. Komitənin sədri öz vəzifəsinə görə hökumətin tərkbinə daxildir.

İdarəetmənin mərkəzi orqanı kimi ″Dövlət komitəsi″ iki qrup vəzifələri yerinə yetirir:

a) həvalə olunmuş sahədə sahələrarası (funksional) idarəçiliyi. Bu xarici təşkilati fəaliyyətdir və onun həyata keçirilməsi orqanın əsas vəzifəsidir;

b) tabe olan təşkilatlara xətti rəhbərlik etmək.

Sahələrarası nizama salma kollegiallıq əsasında həyata keçirilir. Belə məsələlər üzrə əhəmiyyət kəsb edən qərarlar komitənin üzvləri ilə birgə qərar şəklində qəbul edilir.

Komitənin üzvləri Azərbaycan Respublikası hökuməti tərəfindən dövlət komitəsinin rəhbər işçilərindən, digər idarələrin nümayəndələrindən və aparıcı alimlərdən təyin edilir.

Dövlət komitəsinin sahələrarası fəaliyyətinə və idarədaxili idarəetməyə operativ rəhbərliyi sədr təkbaşına həyata keçirir.

Sədr öz vəzifəsinə görə Azərbaycan Respublikası hökumətinin tərkibinə daxildir. O, fəaliyyət prosesində əmrlər, sərəncamlar vermək, müavinləri arasında vəzifələri bölüşdürmək hüququna malikdir.

Üçüncü qrup mərkəzi orqanlar komitələr, xidmətlər, nəzarət orqanları müfəttişliklər adlanır. Bir qayda olaraq bunlar funksional və ya qarışıq səlahiyyətli orqanlar olub, sahələrarası hakimiyyət səlahiyyətlərinə malikdirlər. Onlar sahələrarası əlaqələndirmə, nəzarət və sahələrarası digər funksiyalarla məşğul olurlar. Bu orqanlar Prezident tərəfindən

təşkil edilir, dəyişdirilir və ləğv edilir. Onlar vahid rəhbərlik əsasında təşkil edilir. Onların rəhbərləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən işə təyin edilir və işdən azad edilir. Həmin orqanlar sırasına qanunlar əsasında fəaliyyət göstərən strukturlar daxildir. Bu qanunlar müvafiq idarələrin fəaliyyətini nizama salır. Məsələn: ″Sanitar-epidemioloji salamatlıq haqqında″ Azərbaycan Respublikasının 11.11.92-ci il tarixli Qanunu Səhiyyə Nazirliyinin tərkibində fəaliyyət göstərən Gigiyena və Epidemiologiya Mərkəzlərinin fəaliyyətini tənzimləyir.

4. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında lazımi hallarda komitələr, baş idarələr və digər idarələr yaradıla bilər. Elmi ədəbiyyatda onlar xüsusi orqanlar adlandırılır. Onların rəhbərlərini Baş Nazir vəzifəyə təyin edir, lakin onlar hökumətin tərkibinə daxil deyillər.

Yerli icra hakimiyyəti

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinə uyğun olaraq ″Yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər...″

Yerli icra hakimiyyətlərinin səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinin 188 nömrəli 16 iyun 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş ″Yerli icra hakimiyyəti haqqında Əsasnamə″ ilə müəyyən edilmişdir.

Yerli icra hakimiyyəti başçısının fəaliyyəti aşağıdakı prinsiplərə əsasən həyata keçirilir:

- vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi;
- müvafiq ərazinin əhalisinin rifahının yaxşılaşdırılması naminə iqtisadiyyatın, sosial və mədəni sahələrinin inkişafının təmin edilməsi;
- qanunçuluq;
- dövlət mənafelərinin və yerli mənafelərin uzlaşdırılması;
- aşkarlıq və ictimai rəyin nəzərə alınması.

İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikası Prezidenti vəzifəyə təyin edir və vəzifədən azad edir.

İcra hakimiyyəti başçıları öz işlərinə görə Azərbaycan Respublikasının Prezidenti qarşısında məsuliyyət daşıyırlar. İcra hakimiyyəti başçısının ikili vətəndaşlığına, başqa dövlətlər qarşısında öhdəliyinə yol verilmir. O, din xadimi ola bilməz. İcra hakimiyyətlərinin başçıları eyni zamanda heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər. O, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa, heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməz, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməz.

″Yerli icra hakimiyyəti haqqında Əsasnamə″də icra hakimiyyəti başçılarının vəzifə və səlahiyyətləri müəyyən edilmişdir.

Yerli icra hakimiyyəti başçılarının səlahiyyətləri aşağıdakı sahələr üzrə müəyyən edilmişdir:

- planlaşdırma, büdcə, maliyyə və uçot sahəsində;
- sərəncamına verilmiş əmlak və ərazisində yerləşən müəssisə, idarə və təşkilatlarla münasibətdə səlahiyyətləri;
- memarlıq fəaliyyəti, tarix və memarlıq abidələrinin qorunması sahəsində səlahiyyətləri;
- qaçqınlar və məcburi köçkünlərlə münasibətdə səlahiyyətləri;

- yaşayış məntəqələrində küçə və meydanlara ad verilməsi sahəsində səlahiyyətləri;
- tikinti, nəqliyyat və rabitə sahələrində səlahiyyətləri;
- mənzil-kommunal təsərrüfatı, ticarət və əhali üçün digər xidmətlərin təşkil edilməsi sahələrində səlahiyyətləri;
- əhaliyə sosial-mədəni xidmətlərin göstərilməsi sahəsində səlahiyyətləri;
- əhalinin sosial müdafiəsi sahəsində səlahiyyətləri;
- qanunçuluğun təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahələrində səlahiyyətləri.

İcra hakimiyyəti başçısı öz yanında rayonun, şəhərin və şəhər rayonunun iqtisadi, sosial-mədəni və digər yerli məsələlərin baxılması (müzakirəsi) və onların həllinə dair təkliflərin hazırlanması məqsədi ilə daimi məşvərətçi orqan olan Şura yaradır. Şuranın tərkibi 15 nəfər ola bilər.

İcra hakimiyyəti başçısı yanında Şuranın tərkibinə aşağıdakılar daxildir:

- icra başçısı;
- icra başçısının müavinləri;
- icra başçısı aparatının şöbə, idarə və digər xidmətlərinin rəhbərləri;
- rayonun və şəhərin ərazisində yerləşən idarələrin, təşkilatların və müəssisələrin rəhbərləri.

İcra hakimiyyəti başçısının yanında Şuranın iclasları bir ayda iki dəfədən az olmayaraq keçirilir.

Şuranın iclaslarında qəbul edilmiş qərarlar protokollarla rəsmiləşdirilir və tövsiyə xarakteri daşıyır.

İcra hakimiyyəti başçısı səlahiyyətləri daxilində sərəncam və əmrlər verir.

Yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları başqa qayda nəzərdə tutulmayıbsa, dərc edildiyi gündən qüvvəyə minir.

Yerli icra hakimiyyəti orqanının səlahiyyətləri çərçivəsində qəbul edilmiş normativ xarakterli aktlar müvafiq ərazidə yerləşən hüquqi şəxslər və vətəndaşlar tərəfindən yerinə yetirilməlidir.

Yerli icra hakimiyyəti başçıları, onların aparatlarının, şöbə, idarə və digər xidmətlərinin vəzifəli şəxsləri fəaliyyətlərində qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Yerlərdə icra hakimiyyəti vəzifəli şəxslərinin qərarları qanunvericiliyə zidd olduqda, vətəndaşların hüquqlarını və qanuni mənafelərini pozduqda onların qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ vardır.

Müvafiq rayonun, şəhərin və şəhər rayonunun ərazisində yerləşən rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhərdə rayon icra hakimiyyəti başçısının müvafiq yerli icra hakimiyyətinin nümayəndəliyi təşkil edilir və fəaliyyət göstərir.

Rayon, şəhər, şəhər rayonu icra hakimiyyəti orqanının nümayəndəliyinə rayon, şəhər, şəhər rayonu icra hakimiyyəti başçısı tərəfindən təyin olunmuş nümayəndə rəhbərlik edir.

Rayon, şəhər, şəhər rayonu icra hakimiyyətinin nümayəndəsi:

- rayon, şəhər, şəhər rayonu icra hakimiyyəti başçısının səlahiyyətlərini həyata keçirilməsinə kömək göstərir, onun səlahiyyətlərinə aid olan məsələlərə dair təkliflər verir və onun tapşırıqlarını həyata keçirir;
- vətəndaşların qəbulunu həyata keçirir, onların şikayət, ərizə və təkliflərinə baxır və lazımi tədbirlər görür;

➢ qanunvericiliklə müəyyən edilmiş qaydada vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını aparır, müəyən notariat işlərini görür, vətəndaşlara onların şəxsiyyətini, ailə vəziyyətini təsdiq edən arayışlar və qanunvericiliklə nəzərdə tutulmuş digər arayışlar verir.

➢ Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasında göstərilir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibinə Azərbaycan Respublikasının Baş Naziri, onun müavinləri, nazirlər və icra hakimiyyətinin digər mərkəzi orqanlarının rəhbərləri daxildir.

N Ə T İ C Ə

Mühazirəmizi yekunlaşdıraraq qeyd etmək istərdim ki, mövzumuzun köməkliyi ilə əldə etdiyiniz hüquqi biliklərin Sizə gələcək xidməti vəzifələrin yerinə yetirilməsində böyük köməkliyi olacaqdır.

Çünki bu gün biz icra hakimiyyəti orqanları haqqında, onların hüquqi vəziyyəti, səlahiyyətləri və qəbul etdikləri aktlar haqqında hüquqi bilikləri əldə etmiş olduq. Qeyd olunanlar gələcək ali təhsilli, peşəkar hüquqşünas kimi Sizin hər birinizin qarşısında duran xidməti vəzifələrinizin həyata keçirilməsinə bilavasitə hüquqi yardım göstərmiş olacaq və onların yerinə yetirilməsi üçün hüquqi baza yaratmaqla fəaliyyətinizi istiqamətləndiricəkdir.

İkinci tərəfdən bu biliklərin peşəkar hüquqşünas kimi Sizin hər biriniz tərəfindən əldə edilməsi hüquq mühafizə orqanlarında müstəqil dövlət qulluqçusu kimi fəaliyyət göstərən zaman qanunçuluğa düzgün və dürüst riayət edilməsinə köməklik etmiş olacaqdır.

Konstitusiyamızın 12-ci maddəsində göstərilmişdir ki, dövlətin ali məqsədi insan və vətəndaşların hüquq və azadlıqlarının tam təmin edilməsidir. Dövlətin ali məqsədinin təmin edilməsində Sizin də icra hakimiyyəti orqanları sisteminə daxil olan hüquq mühafizə orqanların gələcək əməkdaşları kimi, yəni ictimai qaydanın qorunmasını və ictimai təhlükəsizliyin təmin edilməsini və cinayətkarlığa qarşı mübarizəni bilavasitə həyata keçirən əməkdaşlar kimi üzərinizə az vəzifə düşməyəcək. Dövlətin bu ali məqsədinin həyata keçirilməsində, Siz bilavasitə iştirak etmiş olacaqsınız.

Mövzu № 7: ″Dövlət qulluğu və dövlət qulluqçuları″

P L A N :

GİRİŞ

1. Dövlət qulluğu anlayışı, əsas vəzifələri və prinsipləri.
2. Dövlət qulluqçusu anlayışı, onun növləri və hüquqi statusu.
3. Dövlət qulluğu keçmə anlayışı və onun mərhələləri. Dövlət qulluğunun şərtləri.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T :

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, 2001.
3. Azərbaycan Respublikasnını Əmək Məcəlləsi.
4. ″Dövlət qulluğu haqqında″ Azərbaycan Respublikasının Qanunu. 21 iyul 2000-ci il (sonrakı əlavə və dəyişikliklərlə)
5. ″Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə″. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli Qanunu ilə təsdiq edilmişdir.
6. ″Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə barədə Əsasnamə″nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 18 iyul 2001-ci il.
7. ″Hərbi quluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamənin təsdiqi haqqında″ Azərbaycan Respublikasının 10 yanvar 1995-ci il tarixli Qanunu.
8. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
9. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
10. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
11. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
12. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
13. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi - referendum olu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası əsas verir ki, Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malik olsunlar.

Konstitusiyanın 55-ci maddəsinin 1-ci bəndinə əsasən müəyyən edilmişdir ki, Azərbaycan Respublikası vətəndaşlarının dövlət idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələrin vasitəsi ilə həyata keçirə bilər.

Konstitusiyanın 55-ci maddəsinin 2-ci bəndinə əsasən isə Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasında təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul

edilə bilərlər. Konstitusiyamızın bu müddəalarının həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə ″Dövlət qulluğu haqqında″ Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli Qanunu qəbul edilmişdir.

Mühazirənin mövzusunun ″Dövlət qulluğu və dövlət qulluqçuları″ köməkliyi ilə birinci növbədə dövlət qulluğu haqqıqnda anlayış, onun əsas vəzifələri və prinsipləri, dövlət quluqçularının növləri, əsas vəzifələri, hüquqları və təminatları haqqında anlayışlar acığlanacaq.

Mühazirinin üçüncü sualında dövlət qulluğunu keçmə mərhələləri, inzibati vəzifənin tutulması qaydası və dövlət qulluğunun şərtləri barədə məlamat veriləcək.

Yuxarıda göstərilənlərin hər bir tələbə tərəfindən və gələcəkdə ali hüquq təhsilli və peşəkar hüquqşünas kimi fəaliyyət göstərən əməkdaş kimi dərindən öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Siz, hüquq mühafizə orqanlarında qulluq edərkən dövlət qulluqçusu kimi öz hüquq və vəzifələrinizi, fəaliyyətinizin əsas prinsiplərini, forma və metodlarını düzgün və dürüst həyata keçirməklə qanunçuluğun tələblərinə riayət etmiş olarsınız.

Sual 1.

Dövlət qulluqçusu anlayışı, əsas vəzifələri və prinsipləri

Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinin 2-ci bəndinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək hüququna malikdirlər. Konstitusiyanın bu maddəsinə əsasən, dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər.

Azərbaycan Respublikasında dövlət qulluğu Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinə və 21 iyul 2000-ci il tarixli ″Dövlət qulluğu haqqında″ Qanuna müvafiq olaraq təşkil edilir və həyata keçirilir.

″Dövlət qulluğu haqqında″ Azərbaycan Respublikasının Qanununun - dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə aid müddəaları prokurorluq, ədliyyə, milli təhlükəsizlik, daxili işlər, gömrük, vergi, xarici işlər orqanlarında, Azərbaycan Respublikasının Milli Bankında dövlət qulluğu keçən şəxslərə də şamil edilir.

″Dövlət qulluğu haqqında″ Qanun hərbi qulluqçulara və müvafiq icra hakimiyyəti orqanlarının tabeçiliyində olan müəssisələrin işçilərinə şamil edilmir. Müvafiq icra hakimiyyəti orqanlarının tabeçiliyində olan müəsissələrin işçilərinin qulluğu ilə bağlı məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

Dövlət qulluğu - Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

Dövlət qulluğu hüquq vasitəsi ilə ifadə olunur. Dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyətini nizamlayan normalar dövlət qulluğu institutunu yaradır. Dövlət qulluğu institutuna konstitusiya, əmək, mülki, maliyyə və digər hüquq sahələrinin normaları da daxildir. Dövlət qulluğu məsələlərini nizamlayan inzibati-hüquqi normalar inzibati hüququn müstəqil institutunu təşkil edir.

Dövlət qulluğu haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, ″Dövlət qulluğu haqqında″ Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, Azərbaycan Respublikasının dövlət qulluğunu hüquqi cəhətdən tənzim edən və dövlət qulluqçularının hüquqi vəziyyətinin xüsusiyyətlərini müəyyən edən digər qanunvericilik aktlarından ibarətdir.

Dövlət qulluğunun növlərə bölünməsi, Azərbaycan Respublikasının dövlət quruluşundan, hakimiyyətlərin bölgüsü prinsipindən və dövlət fəaliyyətinin istiqamətlərindən irəli gəlir.

Dövlət qulluğunun aşağıdakı növləri mövcuddur:

- icra hakimiyyəti orqanlarında keçirilən dövlət qulluğu;
- qanunvericilik hakimiyyəti orqanlarının aparatında keçirilən dövlət qulluğu;
- məhkəmə hakimiyyəti orqanlarının aparatlarında keçirilən dövlət qulluğu.

Dövlət qulluğunun əsas vəzifələri aşağıdakılardır:

- Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;
- dövlət orqanlarının səlahiyyət hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarət edilməsi;
- dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə salahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi.

Azərbaycan Respublikasında dövlət qulluğu aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

1. qanunçuluq;
2. Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi;
3. dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi;
4. yuxarı dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı dövlət orqanları və vəzifəli şəxslər tərəfindən mütləq yerinə yetirilməsi;
5. bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması;
6. dövlət qulluğuna girmənin şəffaflığı;
7. vətəndaşların dövlət qulluğuna müsabiqə əsasında girməsi;
8. vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi;
9. irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən, habelə qulluqçuların işgüzarlıq keyfiyyətlərinə dəxli olmayan başqa səbəblərdən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi;
10. dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələləri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi;
11. qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluqçusunun hərəkətlərinə görə dövlət orqanlarının cavabdehlik daşıması.

Azərbaycan Respublikasında ″Dövlət qulluğu haqqında″ Qanunun tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ-metodiki təminatını, Azərbaycan Respublikasında dövlət

qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etməyi Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası həyata keçirir. Dövlət Qulluğunu İdarəetmə Şurası 18 nəfər üzvdən ibarətdir. Həmin Şuranın 6 nəfər üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən, 6 nəfər üzvü Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən, 6 üzvü isə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təyin edilir. Adı çəkilən Şuranın səlahiyyətləri Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli Qanunu ilə təsdiq edilmiş ″Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə″ ilə müəyyən edilir.

Qeyd olunan Şura dövlət orqanı deyil və onun üzvləri öz səlahiyyətlərini ictimai əsaslarla həyata keçirirlər. Şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün müvafiq olaraq Azərbaycan Respublikasının Pezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təmin edilir.

Birinci sualın açıqlanmasını yekunlaşdıraraq, qeyd etmək istərdim ki:

1. Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərinin yerinə yetirilməsidir.
2. Dövlət qulluğunun növləri hakimiyyətlərin bölgüsü prinsipindən irəli gəlir:
   - icra hakimiyyəti orqanlarında keçirilən dövlət qulluğu;
   - qanunvericilik hakimiyyəti orqanlarında keçirilən dövlət qulluğu;
   - məhkəmə hakimiyyəti orqanlarında keçirilən dövlət qulluğu.
3. Dövlət qulluğununun özünəməxsus tələbləri və prinsipləri mövcuddur.
4. Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət quluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyən ″Dövlət qulluğu haqqında″ 21 iyul 2000-ci il tarixdə Qanun qəbul edilmişdir.

Sual 2.
Dövlət qulluqçusu anlayışı, onun növləri və hüquqi statusu

″Xidmət″ sözü bir çox mənada istifadə olunur. O, həm insanların fəaliyyət növü, həm də müvafiq idarə, bölmə və s. kimi (vergi, gömrük və əkskəşfiyyat xidməti, DİN-in sistemində cinayət-axtarış xidməti və s.) başa düşülür.

Xidmət - ödənişli, ictimai faydalı fəaliyyətin növlərindən biridir. O, özündə idarəetməni və idarəetmə ilə bağlı zəruri xidmətləri (kargüzarlıq, texniki-təminat və s.), eləcə də insanlara sosial-mədəni xidmət göstərilməsini nəzərdə tutur.

Xidmətçilər – istənilən təşkilatda vəzifə tutan və idarəçilik fəaliyyətini və ya sosial-mədəni xidməti (həkim, müəllim, telefonçu, inspektor, sex rəisi və s.) ödənişli yerinə yetirən vətəndaşlardır. Qeyd olunmalıdır ki, xidmətçilərin tərkibi müxtəlifdir. Onlar müxtəlif dövlət və ya qeyri-dövlət təşkilatlarında xidmət edir, dövlət xarakterli olan fərdi təcrübə ilə (notariuslar) məşğul olurlar.

Dövlət qulluqçuları xidmətçilərin bir növü olub, bütün xidmətçilər arasında inzibati hüququn fərdi subyektlərinin əsas qrupunu təşkil edirlər.

Azərbaycan Respublikasının ″Dövlət qulluğu haqqında″ 21 iyul 2000-ci il tarixli Qanununun 14-cü maddəsində dövlət qulluqçusunun anlayışı aşağıdakı məzmunda verilmişdir:

Dövlət qulluqçusu bu Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır.

Qanunun məzmunundan aydın olur ki, deputatlar və hakimlər dövlət qulluqçuları hesab olunmur.

İnzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri olan dövlət qulluqçusu dövlət vəzifəli şəxs sayılır.

Göründüyü kimi, hər bir dövlət qulluqçusu dövlət aparatında müəyyən bir vəzifə tutur. ″Dövlət qulluğu haqqında″ Qanunun 9-cu maddəsində ″Dövlət qulluğu vəzifəsi″nin anlayışı verilmişdir. Həmin maddəyə əsasən, dövlət qulluğu vəzifəsinin anlayışı müvafiq inzibati təcrübə əsasında formalaşmışdır.

Dövlət qulluğu vəzifəsi - dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan struktur vahididir.

Dövlət qulluğu vəzifəsini tutan şəxsin səlahiyyət və funksiyalarının hüdudları həmin orqanın səlahiyyətindən asılı olaraq müəyyən edilir.

Vəzifə dövlət qulluqçusunun xidməti vəzifələrini, hüquqların dairəsini və məsuliyyətin həddini, onun peşə hazırlığına aid olan tələbləri müəyyən edir. O, qulluqçu tərəfindən görülən işin məzmununu əks etdirir, onun hüquqi vəziyyətini müəyyən edir. Hər bir vəzifə sərəncam vermə qaydasında yaranır. Səlahiyyətli orqanların hüquqi aktları ilə bu vəzifənin adı, xidməti ierarxiyada onun yeri, onun tutulma qaydası və s. halları müəyyən edilir.

Dövlət orqanının ştat cədvəlində vəzifələrin adları həmin orqanın fəaliyyətinin profilini əks etdirməlidir.

Dövlət orqanlarında vəzifələr normativ məzmun baxımından, bu vəzifələrin məzmunundan, səlahiyyətlərin mənbəyindən və tutulması üsullarından asılı olaraq inzibati və yardımçı vəzifələrə bölünür.

Siyasi vəzifələr - Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilən Azərbaycan Respublikasının ali dövlət orqanları rəhbərlərinin, rəhbərlərin birinci müavinlərinin, müavinlərinin və əsas səlahiyyəti Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilən dövlət orqanlarının rəhbərlərinin vəzifələridir.

Siyasi vəzifələri tutan şəxslərin hüquqi statusu digər qanunvericilik aktları ilə müəyyən olunur və təhlil olunan qanunun qüvvəsi onlara şamil edilmi

İnzibati vəzifələr I-VII kateqoriya dövlət orqanları aparatları və bölmələri rəhbərlərinin, onların müavinlərinin və dövlət qulluğunda çalışan mütəxəssislərin vəzifələridir. İnzibati vəzifə tutan şəxsin hüquqi statusu aidiyyəti orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə və vəzifə təlimatları ilə müəyyən edilir.

Yardımçı vəzifələr I-VII kateqoriya dövlət orqanlarında texniki işləri həyata keçirən mütəxəssislərin (kargüzar, makinaçı, kuryer, arxiv qeydiyyatçısı, sürücü, liftçi və s.) vəzifələridir. Yardımçı vəzifə tutan şəxsin hüququ statusu müvafiq orqanın səlahiyyətini müəyyən edən qanunvericilik aktları, eləcə də vəzifə təlimatları ilə müəyyən edilir.

İnzibati vəzifələrin aşağıdakı təsnifatı vardır:

- birinci təsnifat - I kateqoriya dövlət orqanlarının aparat rəhbərlərinin və işlər müdirlərinin vəzifələri, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin həyata keçirilməsini bilavasitə təmin edən aidiyyəti orqanların rəhbərlərinin vəzifələri;

➢ ikinci təsnifat – Azərbaycan Respublikası Prezidentinin müşaviri (köməkçisi) vəzifəsi, I kateqoriya dövlət orqanları bölmələri rəhbərlərinin vəzifələri, II kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri;

➢ üçüncü təsnifat - I kateqoriya dövlət orqanları bölmələri rəhbərləri müavinlərinin vəzifələri, I kateqoriya dövlət orqanları işlər müdirləri müavinlərinin vəzifələri, II kateqoriya dövlət orqanları rəhbərləri müavinlərinin vəzifələri, II kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin vəzifələri, III kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri;

➢ dördüncü təsnifat – I kateqoriya dövlət orqanları mütəxəssislərinin vəzifələri, II kateqoriya dövlət orqanları bölmə rəhbərləri müavinlərinin vəzifələri, III kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin vəzifələri, IV kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri, VII kateqoriya dövlət orqanı- Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavinlərinin vəzifələri;

➢ beşinci təsnifat - III kateqoriya dövlət orqanları mütəxəssislərinin vəzifələri, III kateqoriya dövlət orqanları bölmə rəhbərləri müavinlərinin vəzifələri, IV kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri, V kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri, VI kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri, VII kateqoriya yerli icra hakimiyyəti orqanları başçıları müavinlərinin vəzifələri;

➢ altıncı təsnifat – III-V kateqoriya dövlət orqanları mütəxəssislərinin vəzifələri, VI kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri, VII kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

➢ yeddinci təsnifat – VI kateqoriya dövlət orqanları mütəxəssislərinin vəzifələri, VII kateqoriya dövlət orqanlarının mərkəzi icra hakimiyyəti orqanlarının ikili tabeliyində olan yerli bölmələri rəhbərlərinin, yerli icra hakimiyyəti orqanlarının bölmə rəhbərlərinin vəzifələri; QALIB.

➢ səkkizinci təsnifat - 2-ci dərəcə böyük inspektorların vəzifələri;

➢ doqquzuncu təsnifat - 3-cü dərəcə böyük inspektorların vəzifələri;

➢ onuncu təsnifat - 1-ci dərəcə inspektorların vəzifələri;

➢ on birinci təsnifat - 2-ci dərəcə inspektorların vəzifələri;

➢ on ikinci təsnifat - 3-cü dərəcə inspektorların vəzifələri;

➢ on dördüncü təsnifat - 2-ci dərəcə kiçik inspektorların vəzifələri.

Rəhbərin və onun birinci müavininin vəzifələri eyni təsnifata aid edilir. Rəhbərin müavininin vəzifə təsnifatı rəhbərin vəzifə təsnifatından bir pillə aşağı olur.

İnzibati vəzifələrin təsnifat toplusuna vəzifələrin ixtisas dərəcələri, adları, dərəcələr üzrə bölgü və vəzifələrin tutulması şərtləri haqqında məlumatlar daxildir.

İnzibati vəzifələrin təsnifat toplusu dövlət orqanlarının ştat cədvəlinin yaradılması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsasdır. İnzibati vəzifələrin təsnifat toplusunu Azərbaycan Respublikasının Milli Məclisi müəyyən edir.

İnzibati vəzifələr sahəsində ixtisas tələbləri vəzifə iddiasında olan şəxsin səriştəsinin müəyyən edilmiş funksiyalara uyğunluğunu təmin edir.

Vəzifə iddiasında olan şəxs üçün aşağıdakılar vacibdir:

1) birinci-doqquzuncu təsnifat inzibati vəzifələr üçün:

profilli ali təhsilin olması, başqa ali təhsil olduqda isə hazırlığı dəyişdirib inzibati vəzifənin profilinin öyrənilməsi;

2) onuncu-on dördüncü təsnifat inzibati vəzifələr üçün:

profilli orta təhsilin olması, başqa orta təhsil və ümumi orta təhsil olduqda isə hazırlığı dəyişdirib inzibati vəzifənin profilinin öyrənilməsi.

İnzibati vəzifələr sahəsində başqa tələblər qanunvericilik aktlarında və vəzifə təlimatında müəyyən edilir.

Yardımçı vəzifələr sahəsində tələblər vəzifə təlimatında və əmək müqaviləsində (kontraktda) müəyyən edilir.

Qeyd etdiyimiz kimi, dövlət qulluqçusu ″Dövlət qulluğu haqqında″ Qanunla müəyyən edilmiş qaydada, maaşlı, dövlət qulluğu vəzifələrini tutan və Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır.

Dövlət qulluqçularının vasitəsi ilə cəmiyyətin və dövlətin müxtəlif sahələrində dövlət orqanlarının səlahiyyətləri həyata keçirilir.

Dövlət qulluqçularının tərkibi eyni tipli deyil, ona görə də onlar eyni şəraitdə işləmirlər və dövlət orqanlarının səlahiyyətlərinin həyata keçirilməsi üzrə onların funksional təyinatı eyni deyil. Bu meyarlar üzrə dövlət qulluqçularının aşağıdakı növlərini müəyyən etmək olar:

1. Dövlət hakimiyyəti orqanlarının fəaliyyəti miqyasına görə:

- Azərbaycan Respublikasının miqyasında fəaliyyət göstərən dövlət orqanlarının dövlət qulluqçuları;
- Naxçıvan Muxtar Respublikası miqyasında fəaliyyət göstərən dövlət orqanlarının dövlət qulluqçuları.

2. Hakimiyyətlərin bölünməsi prinsipi əsasında:

- icra hakimiyyəti orqanlarının dövlət qulluqçuları;
- qanunvericilik hakimiyyəti orqanının dövlət qulluqçuları;
- məhkəmə hakimiyyəti orqanlarının dövlət qulluqçuları.

3. Dövlət orqanlarında dövlət qulluğunun xüsusiyyətlərinə görə:

- mülki dövlət qulluqçuları;
- hərbiləşdirilmiş dövlət qulluqçuları.

4. Səlahiyyətlərin xarakterinə görə:

- vəzifəli şəxslər sayılan dövlət qulluqçuları;
- yardımçı heyətə aid edilən dövlət qulluqçuları.

Vəzifəli şəxslər sayılan dövlət qulluqçuları - dövlət qulluqçularının elə növüdür ki, onlar öz səlahiyyətləri çərçivəsində hakimiyyət xarakterli, hüquq əhəmiyyətli hərəkətləri, yəni hüquqi nəticələr yaradan hərəkətlər etmək hüququna malikdirlər.

Bunların da iki növü mövcuddur:

- rəhbərlər, onlara həvalə edilmiş orqanların idarə olunması üzrə geniş səlahiyyətlərə malikdirlər;
- hakimiyyət nümayəndələri - bu elə dövlət qulluqçularıdır ki, onlar təşkilati və xidməti tabeçiliyində olmayan fiziki və hüquqi şəxslər barəsində icrası mütləq olan qərarların qəbul edilməsi və hüquqi-hakimiyyət tələblərinin tətbiq edilməsi hüququna malikdirlər (polis əməkdaşları, məhkəmə icraçıları və s.);
- funksional işçilər (mütəxəssislər) - bu növ dövlət qulluqçuları bu və ya digər idarəçilik qərarlarının hazırlanması ilə bağlı olan funksiyaların həyata keçirilməsi üzrə səlahiyyətlərə malik olan və xüsusi bilik və ya peşə fəaliyyətinin yerinə yetirilməsini tələb edən mütəxəssislər qismində çıxış edirlər.

Birinci qrup mütəxəssislərə müxtəlif sahələr üzrə biliklərə malik olan məsləhətçilər və müşavirlər aiddirlər. Onlar təşkilati-sərəncam verici funksiyaları bilavasitə həyata keçirmirlər, lakin onların məsləhətləri, rəyləri, tövsiyələri və s. sözsüz ki, hüquqi əhəmiyyətə malikdirlər və hüquqi nəticələr yaradırlar.

İkinci qrup mütəxəssislərə - xüsusi biliklərə malik olan və bilavasitə hüquqi nəticələr yarada bilən hərəkətlər törətmək səlahiyyətlərinə malik olan vəzifəli şəxslər aiddirlər. Bu vəzifəli şəxslərə müəllimlər (tələbəyə imtahan qiymətləri verir), həkimlər (xəstəlik vərəqəsi verə bilir) və s. vəzifəli şəxslər aiddirlər.

Yardımçı heyətə (tərkibə) – fəaliyyətləri, bir qayda olaraq, hüquqi nəticə yaratmayan dövlət qulluqçuları aiddirlər. Onlar maddi-texniki əməliyyatlar törədirlər, yəni rəhbərlərin, inzibati hakimiyyət nümayəndələrinin, mütəxəssislərin və digər vəzifəli şəxslərin xidməti fəaliyyətlərini təmin edirlər, onlar tərəfindən xidməti vəzifələrin yerinə yetirilməsi üçün lazımi şərait yaradılır. Yardımçı heyətə aid edilən qulluqçular sənədləri tərtib edir və saxlayır, statistik və hesabat əməliyyatlarını və s. yerinə yetirirlər. Lakin onların vəzifələrinə hüquqi əhəmiyyətə malik olan texniki əməliyyatların törədilməsi də daxil edilə bilər. Məsələn: orqana daxil olan təklif, ərizə və şikayətlərin dəftərxana işçisi tərəfindən qeydiyyata alınması hüquqi əhəmiyyət kəsb edir, çünki onların qeydiyyata alındığı gündən qanunvericiliklə müəyyən edilmiş baxılma müddətləri hesablanır. Yardımçı heyətə (tərkibə) texniki icraçılar, kargüzarlar və s. aiddirlər.

5. Dövlət qulluqçularını qulluğun müddətinə görə aşağıdakı növlərə bölmək olar:

- müəyyən olunmamış müddətə vəzifəyə təyin edilən qulluqçular (məsələn, inzibati vəzifələri tutan dövlət qulluqçuları);
- müəyyən olunmuş müddətə vəzifəyə seçilən və təyin edilən dövlət qulluqçuları (məsələn, siyasi vəzifələr tutan qulluqçular - Nazirlər Kabineti);
- sınaq müddətinə vəzifəyə təyin edilmiş dövlət qulluqçuları.

6. İxtisas tələbinə görə dövlət qulluqçuları iki qrupa bölünürlər:

- profilli ali təhsilin olmasını tələb edən vəzifələri tutan dövlət qulluqçuları;
- profilli orta təhsilin olmasını tələb edən vəzifələri tutan dövlət qulluqçuları.

7. İxtisas dərəcələrinə görə dövlət qulluqçularının növləri:

- həqiqi dövlət müşaviri;
- 1-ci, 2-ci və 3-cü dərəcə dövlət müşavirləri;
- dövlət qulluğunun baş müşaviri;
- dövlət qulluğunun kiçik müşaviri;
- dövlət qulluğunun 1-ci dərəcə referenti;
- dövlət qulluğunun 2-ci və 3-cü dərəcə referenti;
- dövlət qulluğunun kiçik referenti.

Bundan əlavə, dövlət qulluqçularının qanunvericilikdə başqa təsnifat meyarları və növləri də nəzərdə tutulub. Məsələn, DİO-nun əməkdaşları sıravi və rəhbər heyətə bölünür.

Yuxarıda göstərilən dövlət qulluqçularının təsnifatının təhlili belə bir qanunauyğun nəticəyə gətirib çıxarır ki, dövlət qulluqçularının hamısı vəzifəli şəxslərə aid edilə bilməz. Ona görə də inzibati qanunvericilikdə ″vəzifəli şəxs″ anlayışı vəzifə anlayışından irəli gəlmir. Belə ki, bütün dövlət qulluqçuları dövlət orqanlarında müəyyən vəzifə tuturlar. Vəzifəli şəxs anlayışı xüsusi vəzifə səlahiyyətlərinin, yəni hüquqi nəticələr yaradan hərəkətləri həyata keçirmək hüququnun mövcudluğu ilə xarakterizə edilir.

Dövlət qulluqçularının hüquqi statusu

Bütün dövlət qulluqçuları hüququn subyektləri sayılırlar və aydın məsələdir ki, onların müəyyən hüquq və vəzifələri mövcuddur; ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyası ilə təsis edilmiş insan və vətəndaş hüquq və azadlıqları; başqa normativ-hüquqi aktlarla müəyyən edilmiş hüquq və vəzifələr. Eyni zamanda, dövlət qulluqçusu dövlət vəzifəsini tutduğu andan o, xüsusi dövləti-xidməti münasibətlərin subyekti olur; onda xüsusi hüquq və vəzifələr yaranır və bunların yerinə yetirilməməsinə görə üzərinə məsuliyyət qoyulur.

Dövlət qulluqçuları vəzifə borclarını yerinə yetirərkən Azərbaycan Respublikası Konstitusiyasını və qanunlarını rəhbər tuturlar və siyasi partiyaların və ictimai birliklərin qərarlarının onlara dəxli yoxdur.

Bununla da yanaşı, dövlət qulluqçularına verilən hüquq və vəzifələrin iki qrupa ayrılması zəruridir:

- dövlət qulluqçularının ümumi hüquq və vəzifələri;
- tutduğu vəzifənin səlahiyyətlərini müəyyən edən hüquq və vəzifələr.

Dövlət qulluqçularının ümumi hüquq və vəzifələri ilk dəfə olaraq ″Dövlət qulluğu haqqında″ Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu hüquq və vəzifələr 2-ci və 3-cü kateqoriya dövlət orqanlarının qulluqçularına aid edilirlər. 1-ci kateqoriya dövlət orqanları qulluqçularının hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası və xüsusi qanunvericilik aktları ilə müəyyən edilir.

Hər bir dövlət qulluqçusu tutduğu vəzifədən asılı olmayaraq aşağıdakı vəzifələrə malikdir (mad. 18):

- qanunvericilik və dövlət orqanlarının qəbul etdikləri başqa normativ-hüquqi aktları həyata keçirmək;
- rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrləri, sərəncamları və göstərişləri yerinə yetirmək;
- dövlət orqanında müəyyən edilmiş qulluq reqlamentinə riayət etmək;
- başqa dövlət qulluqçularının işini çətinləşdirən, yaxud işlədiyi dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməmək;
- vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmaq və öz səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etmək;
- lazım gəldikdə öz ixtisası hüdudunda rəhbərin göstərişi ilə əlavə iş görmək;
- dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə o cümlədən, işdən çıxdıqdan, istefaya və ya pensiyaya getikdən sonra da saxlamaq;
- vəzifə borcunun yerinə yetirilməsi vaxtı daxil olan vətəndaşların şəxsi həyatı, şərəfi və ləyaqəti ilə bağlı məlumatları gizli saxlamaq və qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə, belə məlumatların verilməsini tələb etməmək;
- qulluq etdiyi orqanın rəhbərinə hər il öz gəlirləri və əmlak vəziyyəti haqqında maliyyə hesabatı vermək, orada əlavə gəlirlərin mənbəyini, növünü və məbləğini göstərmək;
- qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada müvəqqəti olaraq başqa yaşayış yerinə keçmək, başqa yerdə işləmək və ya başqa vəzifələri icra etmək;

- qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada öz fiziki və əqli qabiliyyətinin və ya tapşırılan funksiyaların icrasına yararlı olmasının müəyyən edilməsi üçün tibbi komissiyalarda müayinə keçmək;
- qulluq etikası normalarına əməl etmək.

Hər bir dövlət qulluqçusu tutduğu vəzifədən asılı olmayaraq aşağıdakı hüquqlara malikdir (mad.19):

- vəzifə borcunu yerinə yetirmək üçün dövlət orqanlarından, ictimai birliklərdən, müəssisə, idarə və təşkilatlardan müəyyən edilmiş qaydada lazımi informasiya və ya materiallar tələb etmək və almaq;
- dövlət qulluqçusunu işə götürmək və işdən azad etmək hüququna malik olan şəxsdən öz qulluq vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların icrası üçün şərait yaradılmasını tələb etmək;
- dövlət maaşı almaq;
- ixtisasının artması və qulluq vəzifələrinin yerinə yetirilməsinə münasibəti nəzərə alınmaqla qulluqda irəli çəkilmək və ya dövlət maaşının məbləğinin artırılması iddiasında olmaq;
- elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, işlədiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq;
- əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürmək;
- ilk tələbdən öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməsi əsas olan rəylər və digər sənədlərlə tanış olmaq, habelə öz izahatlarının şəxsi işə tikilməsini tələb etmək;
- şərəf və ləyaqətinə xələl gətirən məlumatları təkzib etmək üçün xidməti təhqiqat aparılmasını tələb etmək;
- müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarının mənafeyini müdafiə etmək;
- həmkarlar ittifaqlarına birləşmək;
- işlədiyi dövlət orqanının rəhbərindən aldığı icrası məcburi olan göstərişin və ya əmrin qanuniliyi və ya dürüstlüyü dövlət qulluqçusunda şübhə doğurursa, həmin göstərişin və ya əmrin yazılı şəkildə ona verilməsini tələb etmək;
- qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa və bu, dövlət qulluqçusu funksiyalarının icrası ilə bir araya sığmayan deyilsə, ictimai birliklərdə üzv olmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət vəsaiti hesabına təhsil almaq və müvafiq təlim keçmək, habelə təhsil məqsədilə məzuniyyət almaq;
- qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada məzuniyyətlər (sosial məzuniyyətlər, özünün və ya ailə üzvlərinin müalicəsi ilə əlaqədar və elmi məzuniyyətlər), özünün və ya ailə üzvlərinin əlilliyi ilə əlaqədar pensiyalar və müavinətlər almaq;
- dövlət qulluğunda irəli çəkilmək hüququ.

Tutduğu vəzifənin səlahiyyətlərini müəyyən edən xüsusi hüquq və vəzifələr dövlət orqanının vəzifə və funksiyalarından törəyir və onun səlahiyyətlərini ifadə edirlər. Xüsusi hüquq və vəzifələr qanunlarda və qanunqüvvəli aktlarda (nizamnamələrdə, əsasnamələrdə, vəzifə təlimatlarında və digər normativ-hüquqi aktlarda) əks ediliblər. Belə ki, polis əməkdaşının hüquq və vəzifələri ″Polis haqqında″ Azərbaycan Respublikası Qanununun 13-27-ci maddələrində təsis edilib, tutduğu vəzifəyə aid edilən hüquq və vəzifələr isə digər

normativ-hüquqi aktlarda müəyyən edilir. Məsələn: PPX əməkdaşının hüquq və vəzifələri isə PPX haqqında Nizamnamə ilə müəyyən edilmişdir.

Dövlət qulluqçularının hüquq və vəzifələrdən əlavə olaraq dövlət qulluqçusu dövlət qulluğuna qəbul olunarkən könüllü olaraq qanunvericiliklə müəyyən edilmiş qadağaları və məhdudiyyətləri də öz üzərinə götürür.

Bu qadağalar və məhdudiyyətlər Azərbaycan Respublikasının ″Dövlət qulluğu haqqında″ Qanununun 20-ci maddəsində qeyd edilmişdir. Qanuna əsasən, dövlət qulluqçularına:

- dövlət orqanlarında əlavə ödənişli vəzifə tutmağa;
- elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, işlədiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmağa;
- dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa;
- istefaya getdikdən, işdən və ya pensiyaya çıxdıqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə;
- işlədiyi dövlət orqanının rəhbərinə bildirmədən xarici ölkənin hesabına oraya getməyə;
- qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməyə;
- tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə;
- dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə qadağa qoyulur.

Dövlət qulluqçusu bu tələblərə zidd hərəkət etdikdə, əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, xəbərdarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq etdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir.

Dövlət aparatının effektiv fəaliyyəti üçün dövlət qulluqçularının qanunvericiliklə müəyyən edilmiş təminatlar sistemi mühüm rol oynayır.

Dövlət qulluqçuları üçün aşağıdakılara təminat verilir (mad. 21):

- dövlət qulluqçusunun layiqli həyat səviyyəsini təmin edən dövlət məvacibi və digər ödənişlər;
- lazımi qulluq şəraiti;
- haqqı ödənilən məzuniyyət;
- dövlət qulluqçularının və onların ailə üzvlərinin icbari tibbi sığortası;
- təkrar hazırlıq və ixtisasartırma;
- dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlmə və ya başqa dövlət orqanında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda üstünlük;
- pensiya təminatı və dövlət sosial sığortası;
- qulluq vəzifələrinin icrası ilə əlaqədar olaraq qanunla müəyyən edilmiş qaydada sığorta;

- icra edilən vəzifə öhdəliklərinin xarakteri nəzərə alınmaqla xidməti nəqliyyat və ya müvafiq kompensasiya almaq;
- dövlət qulluqçusunun vəzifə öhdəliklərinin icrası ilə əlaqədar olaraq ona və onun ailə üzvlərinə qarşı törədilən zorakılıqdan, hədələrdən və təhqirlərdən dövlət qulluqçusunun və ailə üzvlərinin müdafiəsi;
- dövlət qulluqçusu sosial sığorta və məşğulluq fondlarına ödənişlərdən azaddır;
- dövlət qulluqçusu yalnız öz razılığı ilə aşağı maaşlı vəzifəyə irəli keçirilə bilər:
- dövlət hakimiyyəti orqanlarının, habelə dövlət orqanları rəhbərliyinin tərkibinin dəyişməsi dövlət qulluğuna xitam verilməsi üçün əsas deyildir;
- yardımçı vəzifələr tutan dövlət qulluqçuları üçün təminatlar Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilir.

Dövlət qulluqçularının xidməti hüquq və vəzifələrinin həyata keçirilməsi üçün dövlət tərəfindən normal şərait yaradılır. Məsələn, hakimiyyət nümayəndəsinə müqavimət göstərmə və ya zor tətbiq etməyə görə (Azərbaycan Respublikasının CM-nin 315-ci mad.), təhqir etməyə görə (Azərbaycan Respublikasının CM-nin 148-ci mad.) və dövlət qulluqçularının vəzifələrinin yerinə yetirilməsinə maneçilik törədən və ya onların şəxsiyyətini və ləyaqətini alçaldan hərəkətlərə görə, cinayət məsuliyyəti nəzərdə tutulur. Bundan əlavə polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmamağa görə inzibati məsuliyyət nəzərdə tutulur (Azərbaycan Respublikasının İXM-nin 310-cu maddəsi).

İşçilərin xidməti fəaliyyəti üçün normal şəraitin yaradılması rəhbər şəxslərin əsas vəzifələrindən biridir. Bu vəzifələrin yerinə yetirilməməsinə görə onlar intizam məsuliyyətinə cəlb edilə bilərlər.

Dövlət qulluqçularının mükafatlandırılması və məsuliyyəti

Dövlət qulluqçusunun vəzifə borclarını yerinə yetirərkən səylə çalışması hərtərəfli mükafatlandırılır. Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları qanunvericiliklə müəyyənləşdirilir.

Dövlət qulluqçularının xidmətdə peşəkarlıq səviyyəsinin artması və vəzifə borcuna və andına sədaqəti dövlət tərəfindən qiymətləndirilməlidir. Onun xidmətlərinin dövlət tərəfindən qiymətləndirilməsi ″Vətənə xidmətə görə″ ordeninin üç dərəcəsi, ″Dövlət qulluğunda fərqlənməyə görə″ medalı ilə, digər orden və medallarla təltif olunmasında, habelə Azərbaycan Respublikasının fəxri adlarını almasından ibarətdir. Dövlət qulluqçularının orden və medallarla təltif olunması və onlara fəxri adların verilməsi haqqında əsaslar və qaydalar qanunvericiliklə müəyyən edilir.

Dövlət qulluqçularına həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və yaxud lazımi şəkildə yerinə yetirilməməsi, həmçinin müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.

Dövlət qulluqçularına aşağıdakı intizam tənbeh tədbirləri tətbiq oluna bilər (mad.25):

- töhmət;
- bir il müddətinədək vəzifə maaşının 5 faizindən 30 faizinədək azaldılması;
- həmin dərəcədən olan, lakin vəzifə maaşı aşağı olan işə keçirilməsi;
- daha aşağı dərəcəli işə keçirilməsi;
- ixtisas dərəcəsinin aşağı keçirilməsi;
- ixtisas dərəcəsindən məhrum edilməsi;

- dövlət qulluğundan azad edilməsi.

Tətbiq olunmuş intizam tənbeh tədbirinin ləğv edilməsi üçün 7 gün ərzində yuxarı dövlət qulluğunu idarəetmə orqanına şikayət vermək olar. Bu zaman intizam tənbeh tədbiri 10 gün ərzində həmin orqan tərəfindən ya ləğv olunmalı, ya da qüvvədə saxlanılmalıdır. Çıxarılmış intizam tənbeh tədbirindən şikayət verilməsi qaydası bu müddəaları nəzərə almaqla Azərbaycan Respublikasının müvafiq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati məsuliyyətə və cinayət məsuliyyətinə cəlb oluna bilərlər.

Dövlət qulluqçuları onların təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyırlar. Dövlət qulluqçularının qanunauyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Siyasi vəzifələr tutan dövlət qulluqçuları qanunvericiliklə nəzərdə tutulan hallarda və qaydada vəzifədən çıxarıla bilərlər.

Dövlət qulluqçusu öz hərəkətlərinin qanuniliyi üçün cavabdehdir.

Rəhbər işçinin göstərişini qanunsuz sayan dövlət qulluqçusunun etirazına baxmayaraq, həmin rəhbər işçi öz göstərişini qüvvədə saxlayırsa və ondan yuxarı vəzifəli rəhbər işçi həmin göstərişi ləğv etmirsə, dövlət qulluqçusu məsuliyyətdən azad olunur.

İkinci sualın açıqlanmasını yekunlaşdırıraq bir daha qeyd etmək istərdim ki:

1. Dövlət qulluqçusu ″Dövlət qulluğu haqqında″ Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsi tutan və Azərbycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır.

2. Dövlət qulluğu vəzifəsi dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan struktur vahididir.

3. Dövlət qulluğu vəzifələri həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq siyasi, inzibati və yardımçı vəzifələrə bölünürlər.

4. Azərbaycan Respublikası ″Dövlət qulluğu haqqında″ 21 iyul 2000-ci il tarixli Qanununda dövlət qulluqçuları; onların əsas vəzifələri və hüquqları müəyyən edilmişdir.

Sual 3.
Dövlət qulluğu kekçmə anlayışı və onun mərhələləri.
Dövlət qulluğunun şərtləri.

Dövlət qulluğu keçmə - dövlət-xidməti münasibətlərinin yaranması, dəyişməsi və xitam edilməsini törədən faktların məcmusu kimi başa düşülür.

Bu hüquqi faktlara aşağıdakılar aiddirlər:

- dövlət qulluğuna qəbul;
- inzibati vəzifələrin tutulması;
- dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi;
- dövlət qulluqçularının attestasiyası;
- dövlət qulluğunda irəli çəkilmə;

- dövlət qulluğuna xitam verilməsi.

I. <u>Dövlət qulluğuna qəbul.</u>

″Dövlət qulluğu haqqında″ Qanunun 27.1-ci maddəsinə əsasən: Azərbaycan Respublikasının 16 yaşına çatmış irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan vətəndaşların dövlət qulluğuna girmək hüququ vardır.

Hər hansı şəxs dövlət qulluğuna aşağıdakı hallarda götürülə bilməz:

- onun fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilərsə;
- məhkəmə onu müəyyən müddətə dövlət vəzifəsini tutmaq hüququndan məhrum etmişsə;
- bilavasitə tabeliyində və ya nəzarəti altında işləyən vəzifəli şəxslə yaxın qohumluq və ya qudalıq (ər-arvadların valideynləri), qardaşları, bacıları, övladları) əlaqəsi olduqda;
- qanunvericilikdə müəyyən edilmiş başqa hallarda.

Dövlət qulluğuna qəbul edilən şəxsin dövlət qulluğunda işləməsinin mümkün olub-olmaması qabaqcadan yoxlanıla bilər. Yoxlamanın qaydası qanunvericiliklə müəyyən edilir. Dövlət qulluğuna qəbul edilən şəxsin şəxsi (ailə) həyatının təfsilatı yoxlanılmamalıdır.

Dövlət qulluğuna vətəndaşlar müsabiqə əsasında qəbul edilirlər. Dövlət qulluğunda boşalan vəzifələrə vətəndaşlar müsabiqə əsasında təyin edilirlər.

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini müvafiq dövlət qulluğunu idarəetmə orqanına təqdim edirlər. Müsabiqə sənədlərin qəbulu başa çatdıqdan sonra 10 gün ərzində keçirilir və test imtahanından və söhbətdən ibarət olur. Müsabiqənin elan edilməsi, keçirilməsi və yekunlarına dair müvafiq qərarın qəbul edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Test imtahanından müvəffəqiyyətlə çıxanlar söhbətə buraxılır. Test nümunələri Azərbaycan Respublikasının müvafiq qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada hazırlanır və təsdiq olunur.

Qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, müsabiqədən keçmiş namizədlər dövlət orqanı rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədləri seçərək öz qərarı ilə bir il müddətində stajçı kimi qulluğa götürür və boş vəzifəyə təyin edir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işinə göz qoyur və staj müddəti qurtardıqdan sonra stajçının dövlət qulluğuna götürülməsinin məqsədəuyğun olub-olmaması barədə tövsiyə təqdim edir. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, tövsiyə müsbət olarsa, stajçı əmək haqqı müqaviləsi (kontrakt) bağlamaq yolu ilə iki illik sınaq müddəti ilə qəbul edilir. Sınaq müddəti ilə işə qəbul kontraktının nümunəsi Azərbaycan Respublikasının müvafiq qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanının müəyyən etdiyi qaydada təsdiq olunur. Sınaq müddəti ərzində kontrakt pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri kontraktın şərtlərinə əməl etməklə işləmiş şəxsin daimi dövlət qulluğuna götürülməsi haqqında əmr verir və bu şəxslə müvafiq kontrakt bağlanır. Sınaq müddəti ilə bağlı digər məsələlər qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

Daimi dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının adından müvafiq dövlət orqanının sənədi ilə təsdiq edilir.

II. Vəzifələrin tutulması

İnzibati vəzifələrin (birinci-doqquzuncu) təsnifatlarına uyğun olan vəzifələrin tutulması qulluqda müsabiqə və yüksəliş yolu ilə həyata keçirilir.

Boşalmış vəzifənin tutulması üçün namizəd seçilərkən müsabiqə vaxtı aşağıdakılar nəzərə alınmalıdır:

- ixtisas dərəcəsi;
- attestasiyanın nəticələri;
- boşalmış vəzifənin tələblərinə uyğun olaraq təkrar hazırlıq keçilməsi və ixtisasın artırılması.

Müsabiqədə başqa hakimiyyət qolunda dövlət qulluğu keçən dövlət qulluqçuları da iştirak edə bilərlər.

Vətəndaş dövlət qulluğuna daxil olarkən and içir.

Andiçmə təntənəli şəraitdə Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla həyata keçirilir. Andiçmə bir dəfə olur. Andın imzalanmış mətni dövlət qulluqçusunun şəxsi işində saxlanılır. Dövlət qulluğunun ayrı-ayrı növlərində andın status xüsusiyyətləri Azərbaycan Respublikasının qanunvericilik atkları ilə müəyyən edilir. Yardımçı dövlət qulluğu vəzifəsinə qəbul edilənlər and içmirlər.

III. Dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi

Dövlət qulluqçusunun ixtisas dərəcəsi onun ixtisas səviyyəsini göstərir, onun tuta bildiyi dövlət qulluğu növlərinin və dövlət vəzifələrinin təsnifat siyahısını müəyyənləşdirir, dövlət qulluqçusuna vəzifə maaşına əlavə haqq almaq və sosial təminatlardan istifadə etmək hüququ verir.

İxtisas dərəcəsi tutulan inzibati vəzifənin təsnifatına uyğun müəyyən edilir:

- həqiqi dövlət müşaviri;
- 1-ci, 2-ci və 3-cü dərəcə dövlət müşavirləri;
- dövlət qulluğunun baş müşaviri;
- dövlət qulluğu müşaviri, dövlət qulluğunun kiçik müşaviri, dövlət qulluğunun 1-ci dərəcə referenti;
- dövlət qulluğunun 2-ci və 3-cü dərəcə referentləri, dövlət qulluğunun kiçik referenti.

İxtisas dərəcəsi dövlət qulluqçusunun ixtisasına, tutduğu vəzifəyə və qulluq stajına uyğun olaraq, habelə əvvəllər verilmiş dərəcə nəzərə alınmaqla ardıcıl qaydada verilir.

İxtisas dərəcələrinin verilməsi qaydası Azərbaycan Respulikasının müvafiq qanunvericilik, icra və məhkəmə hakimiyyəti oranı tərəfindən müəyyən edilir. 3-cü dərəcə dövlət müşaviri və ondan yuxarı olan ixtisas dərəcələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü və 32-ci bəndlərində nəzərdə tutulmuş qaydada verilir. Bu ixtisas dərəcələri alan dövlət qulluqçusuna müvafiq hüquqi akt və vəsiqə verilir.

İstefada olan dövlət qulluqçusu ona verilmiş ixtisas dərəcəsini saxlayır.

IV. Dövlət qulluqçularının attestasiyası

İnzibati və yardımçı vəzifələri tutan hər bir dövlət qulluqçusu beş ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilməlidir. Attestasiya kollegial, obyektiv surətdə, müstəqil mütəxəssislərin cəlb edilməsi ilə keçirilir. Attestasiya komissiyasının tərkibini və attestasiyanın nəticələrini müvafiq dövlət qulluğunu idarəetmə orqanı təsdiq edir, dövlət qulluqçusunun tutduğu vəzifəyə keçirilməsi və ya azad edilməsi məsələsini qoyur.

Attestasiya zamanı dövlət qulluqçusunun peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri qiymətləndirilir və onun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyi barədə nəticə çıxarılır.

Attestasiya ümumi kadr potensialının aşkara çıxarılmasına və dövlət orqanının funksional təyinatının optimal surətinin təmin edilməsinə kömək göstərməlidir.

Attestasiyanın əsas məqsədləri aşağıdakılardır

- dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi;
- işçinin potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, onun peşə sərişləliliyini artırmağa stimullaşdırılması;
- qulluqçunun ixtisasının, peşə hazırlığının yüksəldilməsinə və ya təkrar hazırlıq keçməsinə zərurət dərəcəsinin müəyyənləşdirilməsi;
- kadrların irəli çəkilməsinin uzunmüddətli planını tərtib etmək imkanının təmin edilməsi, habelə dövlət qulluqçusunun vaxtında vəzifədən azad edilməsi və ya daha aşağı ixtisaslı işə keçirilməsi.

Attestasiyanın keçirilməsi üçün sədrdən, katibdən və azı beş komissiya üzvündən ibarət tərkibdə attestasiya komissiyası təsdiq edilir. Tərkibi vaxtaşırı dəyişən attestasiya komissiyasına yüksək ixtisaslı mütəxəssislər, dəvət edilmiş elmi ekspertlər daxil olurlar.

İşçi attestasiyadan keçirilərkən onun işlədiyi struktur bölməsinin rəhbəri orada iştirak etməlidir. Attestasiya komissiyası attestasiyadan keçən işçinin fəaliyyəti haqqında onun məlumatını dinləyir və təqdim edilmiş materialları nəzərdən keçirir.

Dövlət qulluqçusu üzürlü səbəb olmadan attestasiya komissiyasının iclasına gəlmədikdə komissiya attestasiyanı onsuz keçirə bilər.

Dövlət qulluqçusunun attestasiyanın nəticələri əsasında attestasiya komissiyası aşağıdakı qiymətlərdən birini verə bilər:

- tutduğu vəzifəyə uyğun gəlir;
- işini yaxşılaşdırsa və komissiyanın tövsiyələrini yerinə yetirsə, bir ildən sonra təkrar yoxlamadan keçmək şərti ilə tutduğu vəzifəyə uyğun gəlir;
- tutduğu vəzifəyə uyğun gəlmir.

Attestasiya komissiyası attestasiyanın nəticələri əsasında ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlərə görə mükafatlandırılması, müvafiq vəzifələr üzrə vəzifə maaşlarının dəyişdirilməsi, vəzifə maaşlarına əlavələr müəyyən edilməsi, irəli çəkilmək üçün ehtiyata daxil edilməsi, vəzifələrin aşağı salınması və ya tutduğu vəzifədən azad edilməsi haqqında tövsiyələr verə bilər, habelə attestasiyadan keçən şəxslərin ixtisasının yüksəldilməsi, qulluq fəaliyyətinin, işinin nəticələrinin yaxşılaşdırılması barədə təkliflər irəli sürərkən hansı mülahizələrə əsaslandığını göstərməlidir.

Dövlət qulluqçusunun fəaliyyətinə verilən qiymət açıq səsvermə yolu ilə qəbul edilir.

Attestasiya və səsvermə təsdiq edilmiş tərkibdə olan attestasiya komissiyasının üzvlərinin ən azı üçdə iki hissəsinin iştirakı ilə keçirilir. Səsvermənin nəticələri səs çoxluğu ilə müəyyən edilir.

Attestasiyanın nəticələri (qiymət və tövsiyələr) bir nüsxədə tərtib edilən, sədr, katib və attestasiya komissiyasının səsvermədə iştirak etmiş üzvləri tərəfindən imzalanan attestasiya vərəqinə (əlavəyə) yazılır. Attestasiyadan keçən dövlət qulluqçusunun attestasiya vərəqi və xasiyyətnaməsi onun şəxsi işində saxlanılır və onların bir surəti attestasiyadan keçən dövlət qulluqçusunun özünə verilir.

Dövlət qulluqçusu attestasiyanın nəticələrinin yekunundan yuxarı dövlət qulluğunu idarəetmə orqanına şikayət edə bilər.

V. Dövlət qulluğunda irəli çəkilmə

Dövlət qulluqçusu daha yüksək dərəcəli vəzifəyə təyin edilməsi, habelə ona daha yüksək ixtisas dərəcəsi verilməsi üsulu ilə, habelə müsabiqə nəticəsində dövlət qulluğunda irəli çəkilə bilər.

Dövlət qulluğunda irəli çəkilmək hüququ dövlət qulluqçularının öz vəzifələrini müvəffəqiyyətlə və vicdanla yerinə yetirməsi, boşalmış vəzifə olması, habelə boşalmış vəzifənin tələblərinə uyğun olaraq təcrübə, təkrar hazırlıq keçməyin və ixtisas artırmağın nəticələri nəzərə alınmaqla həyata keçirilir.

Qulluqçunun irəli çəkilməsindən imtina edilməsi barədə qanunvericilikdə müəyyən olunmuş qaydada, yəni yalnız müsabiqənin və ya attestasiyanın keçirilməsi qaydasının pozulduğu hallarda şikayət etmək olar.

Yeni vəzifəyə təyinat Azərbaycan Respublikasının adından həyata keçirilir və müvafiq orqanın sənədi (vəsiqəsi) ilə təsdiq edilir.

VI. Dövlət qulluğuna xitam verilməsi

Dövlət qulluğuna aşağıdakı əsaslarla xitam verilə bilər:

- siyasi vəzifə tutan dövlət qulluqçusunun istefa verməsi;
- inzibati vəzifə tutan və ixtisas dərəcəsi olan dövlət qulluqçusunun istefa verməsi;
- inzibati vəzifə tutan dövlət qulluqçusunun işdən azad edilməsi;
- yardımçı vəzifə tutan dövlət qulluqçusunun əmək qanunvericiliyinə müvafiq surətdə işdən azad edilməsi;
- Azərbaycan Respublikası vətəndaşlığından çıxması ilə əlaqədar olaraq işdən azad edilməsi;
- bir ildən çox müddətə azadlıqdan məhrum edilməyə səbəb olan cinayət məsuliyyətinə cəlb edilməsi.

Siyasi vəzifə tutan dövlət qulluqçusunun istefası aşağıdakı formada həyata keçirilir:

- vəzifə səlahiyyətlərinin müddətinin başa çatması nəticəsində istefa. Belə istefaya çıxana 12 aylıq vəzifə maaşı məbləğində birdəfəlik haqq verilir və həmin haqdan vergi tutulmur;
- vəzifəyə seçən və ya təyin edən orqanın və ya rəhbərin qərarı ilə icbari istefa;
- vəzifəyə seçilmiş və ya təyin etmiş orqanın və ya rəhbərin qərarı ilə prinsipcə razılaşmamaq nəticəsində istefa.

Siyasi vəzifə tutmuş dövlət qulluqçusunun istefası haqqında qərar qəbul edildikdən sonra ona 6 ay ərzində vəzifə maaşı verilir.

İnzibati vəzifə tutan və ixtisas dərəcəsi olan dövlət qulluqçusunun istefası aşağıdakı formada həyata keçirilir:

- yaş həddinə, yəni 65 yaşa çatmasına görə istefa. Bu cür istefaya çıxanlara hesablanmış pensiyanın 6 aylıq məbləği qədər birdəfəlik haqq verilir və ondan vergi tutulmur;
- Azərbaycan Respublikasında müəyyən edilmiş pensiya yaşına çatdıqda könüllü pensiyaya çıxma. Bu cür pensiyaya çıxanlara hesablanmış pensiyanın 6 aylıq məbləği qədər birdəfəlik haqq verilir və ondan vergi tutulmur;
- dövlət orqanları rəhbərlərinin təqdimatı ilə Azərbaycan Respublikasının qanunvericilik, müvafiq icra və məhkəmə hakimiyyəti orqanının qərarı ilə müvəqqəti istefa.

Müvəqqəti istefaya göndərilən dövlət qulluqçusu ″ehtiyatda″ olan sayılır. Müvəqqəti istefa dövründə ona vəzifə maaşı ödənilir. Dövlət qulluğuna qayıtdıqdan sonra ona əvvəlki vəzifəsi, yaxud həmin dərəcədən olan başqa vəzifə verilə bilər;

➢ dövlət qulluqçusu öz istəyi ilə istefaya çıxdıqda, əgər tərəflərin sazişində (kontraktda) digər şərt nəzərdə tutulmayıbsa, dövlət qulluqçusu istefa haqqında ərizə verdikdən sonra üç ay ərzində qulluğunu davam etdirməlidir;

➢ dövlət qulluqçularının yuxarı orqanın və ya rəhbərin qərarından və hərəkətindən narazılıq əsasında istefası. İstefa qəbul edildikdə dövlət qulluqçusuna 6 ay ərzində maaş verilir.

İnzibati vəzifə tutan dövlət qulluqçusunun işdən azad edilməsinə müvafiq orqanın rəhbərinin qərarı ilə aşağıdakı hallarda icazə verilir:

➢ andın pozulması;
➢ əgər dövlət vəzifəsinin tutulması Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu ilə bir araya sığmırsa, Azərbaycan Respublikası Milli Məclisi deputatının səlahiyyətlərindən əl çəkməkdən imtina etməsi;
➢ dövlət qulluğundan kənarda başqa işə keçmə.

Əmək müqaviləsində başqa şərt nəzərdə tutulmayıbsa, ixtisas dərəcəsi olmayan dövlət qulluqçusu öz istəyi ilə işdən çıxmaq barədə ərizə verdiyi gündən ən çoxu 3 ay müddətində işdən azad edilir.

Dövlət qulluqçusu öz istəyi ilə və onu həmin vəzifəyə təyin etmiş rəhbərin razılığı ilə haqqı ödənilmədən uzunmüddətli məzuniyyətə göndərilə bilər.

Dövlət qulluğunun keçirilməsi zamanı ″Dövlət qulluğu haqqında″ Qanunla müəyyən edilmiş şərtlərə riayət olunmalıdır.

Dövlət qulluğunda iş vaxtı həftədə 40 saatdır. Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qanunla müddəti qısaldılmış iş vaxtı müəyyən edilə bilər. Qulluq üçün zəruri olduqda dövlət orqanının rəhbəri müstəsna hallarda iş vaxtını ayda əvəzi ödənilmədən 5 saatdan çox artıranda, işlədiyi hər saata görə dövlət qulluqçusuna əlavə haqq ödənilməlidir.

Dövlət qulluqçularına ildə bir dəfə 30 təqvim günü qədər haqqı ödənilən məzuniyyət verilir. Uzun illər işləməyə görə haqqı ödənilən əlavə məzuniyyət aşağıdakı qaydada verilir:

➢ 5 ildən 10 ilədək qulluğa görə - 2 təqvim günü;
➢ 10 ildən 15 ilədək qulluğa görə - 4 təqvim günü;
➢ 15 ildən çox qulluğa görə - 6 təqvim günü.

Xidməti ezamiyyətə göndərilən dövlət qulluqçusu aşağıdakılarla təmin olunur:

➢ mehmanxanada və ya xidməti yaşayış sahələrində yer, altı aydan çox müddətə ezamiyyətə göndəriləndə isə ayrıca xidməti mənzil sahəsi;
➢ iş yeri, rabitə vasitələrindən istifadə etmək imkanı;
➢ digər zəruri texniki xidmətlər və sosial-məişət xidmətləri, o cümlədən onu göndərən orqanın vəsaiti hesabına xidmətlər.

Müvəqqəti olaraq başqa yerə qulluğa keçirilən dövlət qulluqçusunun ailəsini özü ilə aparmağa ixtiyarı vardır. Ona müəyyən edilmiş yaşayış normalarına uyğun gələn məişət ləvazimatı ilə komplektləşdirilmiş xidməti mənzil verilir, habelə əvvəl işlədiyi yerdə yaşayış sahəsi saxlanılır. Dövlət qulluqçusunun ailə üzvlərinə işə və ya təhsil müəssisəsinə düzəlməkdə kömək göstərilir, məktəbəqədər uşaq müəssisələrində yer verilir və lazım gəldikdə, onu göndərən orqanın vəsaiti hesabına haqqı ödənilən tibbi xidmət göstərilir.

Müvəqqəti olaraq başqa yerə qulluğa keçirilməklə bağlı olan başqa məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzim olunur.

Yardımçı vəzifələr tutan dövlət qulluqçularının əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

N Ə T İ C Ə

Mühazirəmizi yekunlaşdıraraq qeyd etmək istərdim ki, bu günkü mövzumuz vasitəsi ilə əldə etdiyiniz biliklərin Sizin gələcək fəaliyyətinizdə həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyəti olacaqdır.

Azərbaycan Respubliasında aparılan hüquqi islahatların nəticələrindən biri də Konsitusiyamızın 55-ci maddəsinin müddəalarının həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə ″Dövlət qulluğu haqqında″ 21 iyul 2000-ci il tarixli Qanunun qəbul edilməsidir.

Siz gələcədə Polis Akademiyasını bitirdikdən sonra dövlət hakimiyətinin müstəqil qollarından biri olan icra hakimiyyətinin həyata keçirilməsində dövlət qulluqçuları kimi bilavasitə iştirak edəcəksiniz. Ona görə də bu günkü mövzumuzun Sizin gələcək fəaliyyətinizdə əhəmiyyəti ondan ibarətdir ki, onun vasitəsi ilə birinci növbədə dövlət qulluğu, onun əsas vəzifələri və prinsipləri barədə anlayışlar və hüquqi biliklər əldə etmiş oldunuz. İkinci növbədə isə bu mövzumuzun vasitəsi ilə dövlət qulluqçusu, onun növləri, əsas vəzifələri, hüquqları və təmnatları bərədə anlayışlar və hüquqi biliklər əldə etmiş oldunuz. Ən nəhayət Siz, bu günkü mövzumuzun vasitəsi ilə dövlət qulluğu keçmə, inzibati vəzifənin tutulması qaydası və dövlət qulluğunun şərtləri barədə anlayışlar və hüquqi biliklər əldə etmiş oldunuz.

Bu günkü mövzumuz vasitəsi ilə əldə etdiyiniz hüquqi bilikləri gələcək fəaliyyətinizdə rəhbər tutmaqla və onlara riayət etməklə öz xidməti vəzifələriinizi qanunçuluğun tələblərinə müvafiq olaraq yerinə yetirmiş olarsınız. Öz xidməti vəzifələrinizi düzgün və dürüst yerinə yetmrməklə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində üzərinizə düşən vəzifə borclarınızı yerinə yeirmiş olarsınız. Bu isə hər bir dövlət qulluqçusunun əsas vəzifə borcu və məqsədi olmalıdır.

Mövzu № 8: ″İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formaları″

P L A N :

GİRİŞ

4. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının anlayışı və mahiyyəti.
5. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının təsnifatı və növləri.
6. İnzibati-hüquqi müqavilə.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. ″Normativ-hüquqi aktlar haqqında″ Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli Qanunu.
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
4. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
5. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
6. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
7. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
8. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
9. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyəti qanunverici, icra və məhkəmə hakimiyyətindən ibarətdir. Bu mühazirədə biz, icra hakimiyyətinin hansı formalarda həyata keçirildiyini nəzərdən keçirəcəyik.

Onu da qeyd etmək istərdim ki, mühazirənin məzmunu həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir. Çünki icra hakimiyyətinin realizəsində hüquq mühafizə orqanları öz gündəlik fəaliyyətində inzibati-hüquqi formalarından geniş istifadə edirik.

İcra hakimiyyəti orqanlarının qarşısında duran vəzifələrin məzmunundan, xüsusiyyətlərindən və məqsədlərindən asılı olaraq, icra hakimiyyəti orqanları həmin vəzifələri həyata keçirən zaman müxtəlif növ hərəkətlər görürlər. Bu hərəkətlər də müxtəlif zahiri formada olmalıdırlar.

Buna görə də, birinci növbədə araşdırmaq lazımdır ki, icra hakimiyyətinin realizəsi formalarının hansı növləri mövcuddur və onların həyata keçirilməsinin əsas qaydası nədən ibarətdir.

Gələcək fəaliyyətinizdə də həmin formalardan qanun çərçivəsində istifadə etmək məqsədi ilə bu mövzu böyük əhəmiyyət kəsb edir.

İndi isə keçək mühazirənin birinci sualının açıqlanmasına.

Sual 1.
İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının anlayışı

Hakimiyyətlərin bölgüsü vahid dövlət hakimiyyətinin hər ″budağının″ yalnız funksional səlahiyyətlərinin müəyyənləşdirilməsini nəzərdə tutmur, o, həm də onların təcrübi fəaliyyətlərinə təsir göstərən müəyyən mexanizmlərlə təchizatını müəyyənləşdirir.

Dövlət hakimiyyəti müxtəlif ictimai münasibətlərdə fəaliyyət göstərməli, özünü müvafiq surətdə biruzə verməlidir. Bu da onun hakimiyyət budaqlarına ″dinamik″ xarakter verən realizə (həyata keçirən) mexanizminin lazım olduğunu göstərir.

Dövlət hakimiyyəti öz-özünə həyata keçirilmir. O, daim onun məzmun və istiqamətlərini özündə əks etdirən, onun subyektləri tərəfindən (müvafiq dövlət orqanları tərəfindən) həyata keçirilən müxtəlif növ konkret hərəkətlərdə ifadə olunur. Bu şərti bütövlükdə icra hakimiyyətinə, daha dəqiq desək, onu gündəlik və müxtəlif formalarda həyata keçirən icra hakimiyyəti orqanlarının fəaliyyətinə tətbiq etmək olar.

Göstərilənlər spesifik elmi-praktiki kateqoriya olan – dövlət idarəetmə fəaliyyətinin formalarını (idarəetmə formaları) müəyyən etməyə imkan yaradır. Qüvvədə olan qanunvericiliyə əsasən, göstərilən kateqoriya icra hakimiyyətinin realizəsinin formaları kimi qiymətləndirilə bilər.

Bəs, icra hakimiyyətinin realizəsinin formaları dedikdə, nə başa düşülür?

Ümumi elmi şərhə görə, ″forma″ belə planlı digər kateqoriya ilə, daha dəqiq desək isə, ″məzmun″la üzvi surətdə bağlıdır. Belə aspektdə ″forma″ dedikdə, ″məzmun″un ifadəsinin müxtəlif variantları başa düşülür. İcra hakimiyyətinə aid edildikdə isə, forma – onun dövləti-hüquqi məzmununun, yəni onun vahid dövlət hakimiyyətinin spesifik budağını xarakterizə edən bütün keyfiyyətlərinin, ilk növbədə, hüquqi keyfiyyətlərinin ifadə olunma vasitəsidir. Bu, metodoloji planda düzgün, lakin müəyyən dərəcədə ümumi bir mühakimədir. İş ondadır ki, icra hakimiyyətinin məzmunu onun qarşısına qoyulmuş vəzifələrdə, onun subyektlərinin funksiyalarında və səlahiyyətlərində, onun subyektləri tərəfindən fəaliyyətlərində istifadə etdikləri metodlarda açıqlanır. Bütün bunlar icra hakimiyyəti sisteminin nə üçün təşkil edilməsi, bu sistemin və onun ayrı-ayrı təbəqələrinin idarəçilik funksiyalarının yerinə yetirilməsi və idarəçilik vəzifələrinin həlli, yəni dövlət-idarəçilik fəaliyyətinin həyata keçirilməsi üçün praktiki olaraq nə etmələri barədə təsəvvür yaradır.

Bu zaman bu və ya digər icra hakimiyyəti orqanının təşkilati-hüquqi statusundan asılı olmayaraq, icra hakimiyyəti subyektlərinin əsas fəaliyyət istiqamətlərinə xas olan hərəkətlər nəzərdə tutulur. Bununla da, dövlət idarəetmə fəaliyyətinin məzmununun daha dəqiq mənimsənilməsi mümkün olur. Lakin yalnız bunun təsdiqi ilə kifayətlənmək olmaz. Ona görə ki, aşağıdakı əhəmiyyətli bir hal da diqqəti cəlb etməyə bilməz. Hər bir icra hakimiyyəti orqanı və ya onun vəzifəli şəxsi ona verilmiş səlahiyyətlər çərçivəsində bu və ya digər konkret hallarda müxtəlif formada fəaliyyət göstərmək hüququna malikdir. Belə imkanın reallığa çevrilməsi mütləq qaydada onlar tərəfindən müəyyən aktiv hərəkətlərin həyata keçirilməsini nəzərdə tutur (məsələn, qərarın qəbul edilməsi, vətəndaşın şikayətinə baxılması və həll edilməsi və s.). Belə hərəkətlər dövlət idarəetmə funksiyalarının məzmununu ifadə edirlər, bu hərəkətlərdə idarəedən subyektin səlahiyyətləri realizə edilir.

Bəs, onda onların törədilməsi nə deməkdir? Bu, hər şeydən əvvəl, onlara xarici ifadə olunma variantının verilməsidir. Yalnız, belə ifadə olunduqda, onlar idarəetmənin vəzifə və funksiyalarını yerinə yetirən işlək vasitə kimi real olurlar.

Lakin icra hakimiyyətinin subyektləri tərəfindən törədilən hərəkətlər öz xarakter və təyinatına görə müxtəlifdir. Deməli, onların xarici ifadə olunma variantları da müxtəlif olmalıdır. Bu zaman, yalnız müvafiq icra hakimiyyətinin subyekti tərəfindən idarəetmənin obyektinə bilavasitə nizamlayıcı təsiri əks etdirən ifadə formaları xüsusi əhəmiyyət kəsb edirlər. Başqa formada idarəetmənin məqsədinə, ümumiyyətlə, nail olmaq mümkün olmur.

Digər tərəfdən, icra hakimiyyəti orqanları idarəetmə təsiri ilə bilavasitə bağlı olmayan bir çox başqa hərəkətlər də həyata keçirirlər. Məsələn, idarəetmə təsirinin effektivliyini təmin edən hərəkətlər, idarəetmə təsirinin nəticələri haqqında məlumatların toplanmasını (idarəetmə qərarlarının layihələrinin hazırlanması, qəbul edilmişlərin yerinə yetirilməsini yoxlama və s.) təmin edən tədbirlərdir.

Müxtəlif təyinatlı hərəkətlərin məcmusu icra hakimiyyəti mexanizmində daim ″hərəkət″ vəziyyəti yaradır, bu da ona praktiki surətdə özünün konstitusion təyinatını həyata keçirməyə imkan verir.

Bu hərəkətlərin xarici ifadəsi müxtəlif formada həyata keçirilir. Əgər icra hakimiyyətinin subyekti bilavasitə idarəetmənin təsiretmə funksiyalarını yerinə yetirirsə, onun bu növ hərəkətləri öz xarici ifadəsini daim öz aparatından ″kənarda″ tapır, yəni onun idarəetmə obyektləri ilə qarşılıqlı əlaqəsində (məs.: aşağı orqanlarla, vətəndaşlarla və s.).

Əgər onun hərəkətləri belə növ təsiretməni həyata keçirmirsə, onlarda müvafiq xarici ifadə forması olmalıdır, yəni, bir qayda olaraq, ″təşkilatdaxili″ və yaxud ″aparatdaxili″ münasibətlərə xarici ifadə formasını almalıdırlar. Lakin onlar da öz təyinatına görə müxtəlif cür olurlar. Belə ki, onların sırasına təşkilatın marağı naminə gündəlik olaraq həyata keçirilən və həmin orqanın iş qaydasını, yəni həmin orqanın heyətinin və bütün struktur bölmələrinin normal qarşılıqlı əlaqələrini təmin edən idarəetmə hərəkətləri aiddirlər. Faktiki olaraq bu hərəkətlər icra orqanının rəhbəri tərəfindən həyata keçirilən hərəkətlərdir (məs.: təlimatlandırma, iclasların keçirilməsi və s.).

İdarəetmə hərəkətlərinin zahirən ifadə olunan nəticələri də böyük əhəmiyyət kəsb edir. Bir halda onlar birbaşa hüquq xarakterli nəticələr yaradır, digər hallarda isə belə nəticələr yaranmır.

Aydındır ki, birinci halda bilavasitə idarəetmə təsirini həyata keçirən hərəkətlər nəzərdə tutulur (aparatdaxili və aparatdankənar).

Beləliklə, idarəetmə formalarından danışarkən nəzərə almaq lazımdır ki, onlar aşağıdakı formalarda çıxış edə bilər:

- icra hakimiyyətinin realizəsi formasında;
- dövlət idarəetmə fəaliyyəti formasında.

İcra hakimiyyətinin fəaliyyəti mexanizmində əsas başlıca əhəmiyyət birincilər kəsb edir, çünki onlar xarici-hüquqi təsiri ifadə edirlər. Onlarda faktiki olaraq icra hakimiyyətinin özü öz atributları ilə birlikdə zahirən ifadə olunur. Bu, həqiqi mənada idarəetmə formasıdır.

Dövlət idarəetmə fəaliyyəti formalarını isə geniş mənada başa düşmək lazımdır, yəni icra hakimiyyəti orqanlarının fəaliyyəti prosesində həyata keçirilən bütün hərəkətlərin məcmusunu (birbaşa hüquqi təsiretmə xarakteri daşıyan və belə təsiri daşımayan hərəkətləri) daxil etmək lazımdır. Onlar da ümumi kateqoriya kimi öz tərkibinə icra hakimiyyətinin həyata keçirilməsi formalarını daxil edirlər. Lakin onlar qısa mənada da, yəni icra hakimiyyəti orqanları tərəfindən idarəetmə təsiri çərçivəsindən kənarda qalan hərəkətlərin məcmusu kimi də başa düşülə bilərlər.

Burada növbəti metodoloji və faktiki fikir üzə çıxır: belə ki, dövlət idarəetmə fəaliyyətində həyata keçirilən hərəkətlərin heç də hamısı icra hakimiyyətinin vəzifə və funksiyalarını əks etdirmir, idarəetmə xarakterli bir çox hərəkətlər ″özünü təşkiletmə″ maraqlarına xidmət edir.

Şərh edilənləri ümumiləşdirərək, belə nəticəyə gəlmək olar ki, idarəetmə forması dedikdə – icra orqanın (vəzifəli şəxsin) səlahiyyətləri çərçivəsində həyata keçirilən və müəyyən nəticələr yaradan zahirən ifadə olunan hərəkətlər başa düşülür.

Əgər belə növ idarəetmə hərəkətləri hüquq xarakterli nəticələr yaradırlarsa və yaxud da müəyyən hüquqi əhəmiyyət kəsb edirlərsə, onları bütövlükdə icra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formaları kimi qeyd etmək olar.

Beləliklə, icra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forması dedikdə icra hakimiyyəti orqanının (vəzifəli şəxsin) öz səlahiyyətləri çərçivəsində həyata keçirdiyi və müəyyən hüquqi nəticələr yaradan və yaxud da müəyyən hüquqi əhəmiyyət kəsb edən zahirən ifadə olunan hərəkətlər başa düşülür.

İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının mahiyyəti ondan ibarətdir ki, onların vasitəsilə icra hakimiyyəti orqanları:

- idarəetmənin vəzifə və funksiyalarının həyata keçirilməsini;
- qanunlar əsasında və onların icra edilməsi məqsədi ilə təsərrüfat, sosial-mədəni və inzibati-siyasi sahəyə bilavasitə rəhbərliyi təşkil edirlər.

Birinci suala yekun olaraq bir daha qeyd etmək istərdim ki:

1. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forması dedikdə – icra hakimiyyəti orqanın (vəzifəli şəxsin) öz səlahiyyətləri çərçivəsində həyata keçirdiyi və müəyyən hüquqi nəticələr yaradan və yaxud da müəyyən hüquqi əhəmiyyət kəsb edən zahirən ifadə olunan hərəkətlər başa düşülür.
2. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının mahiyyəti aşağıdakılardan ibarətdir:

- idarəetmənin vəzifə və funksiyalarının həyata keçirilməsi;
- qanunların icrası;
- sosial-siyasi, sosial-mədəni və iqtisadi sahələrdə idarəetmənin həyata keçirilməsi.

Sual 2.
İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının təsnifatı və növləri

İdarəetmə fəaliyyətinin formaları müxtəlifdir. Müxtəlif şəraitdə bu və ya digər idarəetmə formalarının seçilməsi bir çox hallardan asılıdır. Məsələn, onun seçilməsinə aşağıdakı hallar təsir göstərir:

- orqanın (vəzifəli şəxsin) səlahiyyətlərinin xarakteri;
- idarəetmə təsirinə məruz qalan obyektin xüsusiyyətləri (mülkiyyət forması, onun idarəedilməsi üsulu və s.);
- idarəetmənin məqsədləri;
- həll edilən məsələlərin xarakteri;
- baş vermiş nəticələrin xarakteri və s.

Müvafiq idarəetmə formalarının seçilməsi konkret idarəetmə şəraiti, effektivlik və məqsədəuyğunluq tələbləri nəzərə alınmaqla aparılmalıdır. İdarəetmə fəaliyyətinin konkret

formasının növü dövlət idarəetmə orqanlarının üzərinə düşən funksiyaların həyata keçirildiyi zaman yerinə yetirilən hərəkətlərin xarakteri ilə müəyyən edilir.

Bəzi hallarda bu hərəkətlər hüquqi nəticələr yaradır, digər hallarda isə yox (məs.: kütləvi-təşkilati iş).

Buna müvafiq olaraq dövlət idarəetmə orqanlarının fəaliyyəti aşağıdakı formalarda özünü biruzə verir:

- hüquqi forma;
- qeyri-hüquqi forma.

İdarəetmə fəaliyyətinin hüquqi formaları

İdarəetmənin hüquqi formasının xarakterik cəhəti ondan ibarətdir ki, burada idarəetmə orqanlarının və onların vəzifəli şəxslərinin dövlət hakimiyyəti, icraedici-sərəncam verici və qanunqüvvəli xarakterli səlahiyyətləri daha çox aydın surətdə ifadə olunur. Onlar arasında fərq, bir qayda olaraq, onların törətdikləri nəticələrin xarakterinə görə qoyulur. Hüquqi formalar öz ardınca daimi dəqiq ifadə olunmuş hüquqi nəticələr yaradırlar, buna görə də onlar idarəetmənin inzibati-hüquqi forması kimi göstərilməsinə maksimum dərəcədə yaxındırlar. Bu, icra hakimiyyətinin müvafiq subyektlərinin zahirən ifadə olunan və müəyyən hüquqi nəticələrin yaranmasına səbəb olan istənilən hərəkətləridir. Onlar sözün əsl mənasında idarəetmənin inzibati-hüquqi formalarıdır, yəni icra hakimiyyətinin hüquqi-hakimiyyət səlahiyyətlərinin məzmunundan ibarət olan həyata keçirilmə formalarıdır. Qeyri-hüquqi formalara gəldikdə isə, onlar birbaşa hüquqi nəticələr yaratmırlar.

Əsas budur ki, idarəetmə fəaliyyəti o halda hüquqilər sırasına aid edilə bilər ki, icra hakimiyyəti subyektinin törətdiyi hərəkətlərdə dövlət idarəetməsinə xas olan iradə hüquqi formada dəqiqliyi ilə ifadə olunsun, icra hakimiyyətinin həyata keçirilməsinin hüquqi formasının mahiyyəti də bundan ibarətdir.

İcra orqanları (vəzifəli şəxslər) tərəfindən gündəlik olaraq müxtəlif variantlarda həyata keçirilən, lakin icra hakimiyyətinin bilavasitə həyata keçirilməsi ilə bağlı olmayan digər hərəkətlər,qeyri-hüquqilərə aiddirlər (məs.: təşkilati və analitik işi, təminedici tədbirlər və s.).

İcra hakimiyyəti isə onun xüsusiyyətlərini nəzərə almaqla, yalnız onun subyektləri tərəfindən və yalnız hüquqi formalarda həyata keçirilir. Lakin bu, qeyri-hüquqi formaların əhəmiyyətini, əlbəttə ki, azaltmır.

Bir qayda olaraq, idarəetmə fəaliyyətinin formalarına aşağıdakılar daxildir:

- normativ aktların qəbul edilməsi;
- fərdi (inzibati) aktların qəbul edilməsi;
- inzibati müqavilələrin bağlanması;
- təşkilati (təşkilati-texniki) hərəkətlərin edilməsi;
- maddi-texniki əməliyyatların yerinə yetirilməsi.

Bəzən, yuxarıda qeyd etdiyimiz siyahıya inzibati məcburetmə tədbirlərinin tətbiqini də əlavə edirlər. Bu isə açıq-aydın səhvdir, belə ki, belə növ tədbirlər öz-özünə həyata keçmir, onlar mütləq qaydada müvafiq hüquqi aktlarla ″rəsmiləşdirilir″ və yaxud da belə aktlar əsasında ″hüquqi əhəmiyyət kəsb edən hərəkətlər″ çərçivəsində həyata keçirilir (məs.: fiziki məcburetmə tədbirləri).

Müqavilələrə gəldikdə isə, bununla o vaxt razılaşmaq olar ki, onlar inzibati-hüquqi müqavilə kimi qiymətləndirilsin, belə halda onlar hüquqi formanın tərkibinə daxil edilirlər.

Təşkilati-texniki və maddi-texniki əməliyyatlara (hərəkətlərə) gəldikdə isə nəzərə almaq lazımdır ki, axırıncılar ümumiyyətlə idarəetmə fəaliyyətinin forması kimi baxıla

bilməz. Onlar yalnız köməkçi rolu oynayırlar (kargüzarlıq, nəqliyyat daşımaları, mühafizə və s.), lakin ifadə formasına görə isə onlar qeyri-hüquqidirlər. İcra hakimiyyətinin həyata keçirilməsini, əlbəttə ki, onlar ifadə etmirlər, onlar idarəetmə ilə məşğul olan işçilər tərəfindən yox, köməkçi heyət tərəfindən həyata keçirilirlər. Təşkilati hərəkətlərin təbiəti və təyinatı tamamilə başqadır. Onlar həmin icra orqanının üzərinə qoyulmuş gündəlik vəzifələrin həyata keçirilməsi zamanı dövlət qulluqçularının (inzibati idarəetmə işçilərinin) hərəkətlərində öz əksini tapmış olurlar.

Beləliklə, idarəetmə formalarının təsnifatı, əvvəl qeyd etdiyimiz kimi hüquqi və yaxud da qeyri-hüquqi formaların olmasına gətirib çıxarır. İcra hakimiyyətinin həyata keçirilməsi yalnız inzibati-hüquqi formada mümkündür. Dövlət idarəetmə fəaliyyəti hər iki formada ifadə edilə bilər.

İdarəetmənin hüquqi formaları hərəkətlərin xarakterinə, məqsədyönlüyünə və ifadə olunma üsuluna görə təsnifləşdirilir.

I. Hərəkətlərin xarakterinə görə idarəetmənin hüquqi forması aşağıdakı növlərə bölünür:

- hüquq yaratma (hüquq müəyyən etmə) fəaliyyəti;
- hüquq tətbiqetmə fəaliyyəti;
- hüquqi əhəmiyyət kəsb edən digər hərəkətlərin həyata keçirilməsi.

Hərəkətlərin xarakterinə görə idarəetmənin hüquqi forması hüquqyaradıcı (hüquqmüəyyənedici) və hüquqtətbiqedici olur.

Hüquqyaratma fəaliyyəti – bu növ fəaliyyət hüquq normaların, yaradılmasından, onların təkmilləşdirilməsindən, dəyişdirilməsindən və ləğv edilməsindən, yəni idarəetmə aktlarının qəbul edilməsindən ibarətdir.

Hüquqyaratma fəaliyyətinin mərhələləri aşağıdakılardır:

- idarəetmə aktının, layihəsinin işlənib hazırlanmasının zəruriliyi haqqında idarəetmə orqanının qərarı;
- layihənin mətninin hazırlanması, onun ilkin müzakirəsi, yenidən işlənməsi, razılaşdırılması, müvafiq orqan tərəfindən razılığın verilməsi, layihənin hüquqyaradıcı orqana verilməsi;
- hüquqyaradıcı orqanda layihənin müzakirəsi;
- layihənin qəbul və ya təsdiq edilməsi;
- qəbul edilmiş idarəetmənin normativ aktının dərc edilməsi.

Sadalanan hüquqyaratma hərəkətlərinin kompleksi tam həcmdə, bir qayda olaraq, kollegial orqanların hüquqyaradıcı fəaliyyətinə xasdır. Vahid rəhbərlik orqanlarının hüquq yaradıcılıq fəaliyyətinə gəldikdə isə, onların normativ aktlarının qəbulu ″texnologiyası″ nisbətən asandır. Məsələn, layihə hazır olduqdan sonra nazirliyin, idarənin və ya digər vahid rəhbərlik orqanının rəhbəri onu müzakirə etmədən təsdiq edə bilər.

İdarəetmə sahəsində olan bütün ictimai münasibətlərin müxtəlifliyini və dinamikasını nəzərə almaq və onların hamısını tənzimləməyə qanunun normaları qadir deyil. Ona görə də icra hakimiyyəti subyektlərinin hüquqyaradıcı fəaliyyəti – idarəetmə münasibətlərinin ətraflı və tam həcmdə hüquqi tənzimləmə məqsədinə xidmət etmək üçün təşkil edilir. Onun digər hüquq yaradıcılıq formaları ilə nisbəti ″tabeçiliklə″ xarakterizə edilir, belə ki, icra hakimiyyəti orqanlarının hüquqyaradıcı fəaliyyəti qanunların və yuxarı icra hakimiyyəti orqanlarının normativ aktları əsasında və onların icrası məqsədilə həyata keçirilir.

Hüquqyaratma fəaliyyətinin nəticəsi – idarəetmə sahəsində olan münasibətləri tənzimləyən qanunqüvvəli idarəetmə aktlarının qəbuludur.

İdarəetməni həyata keçirən orqan və vəzifəli şəxslərin **hüquqtətbiqetmə fəaliyyəti** – idarəetmə subyektləri tərəfindən fərdi aktların qəbulu yolu ilə konkret hüquqi əhəmiyyətə malik olan faktların müvafiq hüquq normasına uyğunlaşdırılmasından ibarətdir, yəni hüquq normaları əsasında konkret idarəetmə işlərin, (məsələlərin) həll edilməsidir.

Hüquqtətbiqetmə fəaliyyəti aşağıdakı mərhələlərdən ibarətdir:

– işin faktiki hallarının müəyyən edilməsi;
– bu halda tətbiq ediləcək müvafiq hüquq normasının seçilməsi, tapılması (normanın qüvvədə olmasının yoxlanılması, onun qüvvəsinin zaman və məkan daxilində həddinin tapılması);
– normanın şərhi, yəni onun məzmununun və mahiyyətinin araşdırılması;
– iş üzrə qərarın (fərdi aktın) qəbul edilməsi;
– hüquq normasının tətbiqi haqqında aktın yerinə yetirilməsi.

İcra hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri tərəfindən tətbiq edilən hüquq normalarının məzmunu və xüsusiyyətlərinə görə hüquqtətbiqetmə fəaliyyəti iki formada olur:

– hüquqi tənzimləmə;
– hüquq mühafizə etmə.

Hüquqtətbiqetmə fəaliyyətinin hüquqi tənzimləmə forması – idarəetmədə təşkilati və konkret fərdi işlərin, o cümlədən iqtisadi, sosial-mədəni və sosial-siyasi sahələrdə müxtəlif xarakterli məsələlərin həlli və idarəetmə sahəsində vətəndaşların, idarə, müəssisə və təşkilatların hüquq və qanuni mənafelərinin həyata keçirilməsi üçün istifadə edilir.

Hüquqtətbiqetmə fəaliyyətinin hüquq mühafizə forması hüquq normaları ilə tənzimlənən idarəetmə münasibətlərinin mühafizəsinə yönəlmiş və onların toxunulmazlığının təminetmə vasitəsi kimi çıxış edir. Fəaliyyətin bu forması vasitəsilə idarəetmə sahəsində yaranmış hüquqi mübahisələr həll edilir, idarəetmə sahəsində vətəndaşların, idarə, müəssisə və təşkilatların hüquq və qanuni mənafelərinin müdafiəsi həyata keçirilir, inzibati hüquqi və digər hüquqi vəzifələri yerinə yetirməyən şəxslərə qarşı dövlət məcburetmə tədbirləri tətbiq edilir.

Dövlət idarəetmə orqanlarının **digər hüquq əhəmiyyətli hərəkətləri** sırasına daxil etmək olar:

– Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən, vətəndaşların müraciətlərinə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavabın verilməsi;
– qanunla nəzərdə tutulmuş hallarda notariat hərəkətlərinin aparılması (məs.: rayon, şəhər, şəhər rayonu icra hakimiyyətinin nümayəndəsi tərəfindən notariat işlərinin görülməsi və s.).

II. Məqsədyönlüyünə (istifadə məqsədinə) görə idarəetmənin hüquqi formaları aşağıdakı formalara bölünürlər:

– idarəetmə fəaliyyətinin daxili hüquqi formaları;
– idarəetmə fəaliyyətinin xarici hüquqi formaları.

İdarəetmə fəaliyyətinin daxili hüquqi formaları təşkilati-ştat məsələlərinin həlli, kargüzarlığın aparılması, orqanın daxilində struktur bölmələrə və əməkdaşlara rəhbərlik etmək üçün, həmçinin də aşağı təbəqəli orqanları idarə etmək üçün istifadə edilir.

İdarəetmə fəaliyyətinin xarici hüquqi formaları orqanın üzərinə qoyulmuş və idarəetmə fəaliyyətinin məzmununu təşkil edən vəzifə və funksiyaların yerinə yetirilməsini təmin etmək məqsədi ilə istifadə edilir.

İdarəetmənin daxili və xarici hüquqi formaları, həm hüquqyaradıcı, həm də hüquqtətbiqedici formada ola bilərlər.

III. İfadə olunma üsuluna görə idarəetmənin hüquqi formaları aşağıdakı növlərə bölünürlər:

- sözlə deyilən (yazılı və şifahi);
- konklyudent (işarə ilə).

İdarəetmə fəaliyyətinin hüquqi formalarının bu və ya digər ifadə olunma üsulunun seçilməsi onun hüquqi xüsusiyyətlərinə əsasən edilir.

Hüquqyaratma fəaliyyətinin yeganə münasib ifadə üsulu kimi sözlə (şifahi) və ya yazılı üsulunun adını çəkmək lazımdır. Dövlət idarəetmə subyektlərinin hüquqyaratma fəaliyyətinin nəticəsi – rəsmi sənəd olan normativ-hüquqi aktdır.

Normativ akt yalnız özünün ″rəsmi yazılı sənəd″ təsvirində hüquq normalarının daşıyıcısı olan, hüquqi forması kimi baxıla bilər.

Hüquqtətbiqetmə fəaliyyəti yazılı, şifahi və konklyudent üsullarla ifadə olunur.

İdarəetmənin hüquqtətbiqetmə fəaliyyətinin nəticəsinin ən geniş yayılmış ifadə olunma üsulu – fərdi yazılı akt – sənəddir. O, əhəmiyyətli məsələlərin (işlərin) həllində hüquqtətbiqetmənin təsbit edilməsində, o cümlədən onun sabitliyi və dəqiqliyi üçün istifadə edilir.

Şifahi üsul da geniş istifadə olunur (şifahi əmrlər, göstərişlər, sərəncamlar). Bu üsül, əsasən, operativ xarakterli məsələlərin həlli zamanı tətbiq edilir.

Hüquqtətbiqetmə fəaliyyəti (idarəetmə subyektinin qərarı), həmçinin müəyyən jestlər, siqnallar, hərəkətlər, işarələr və digər konklyudent hərəkətlər vasitəsi ilə ifadə oluna bilər.

<u>İdarəetmə fəaliyyətinin qeyri-hüquqi formaları</u>

İdarəetmə fəaliyyətinin qeyri-hüquqi formalarına təşkilati və maddi-texniki hərəkətlər aiddir.İdarəetmə fəaliyyətinin hüquqi formaları kimi də qeyri-hüquqi formalar da idarəetmə subyektlərinin səlahiyyətləri ilə bağlı olub, idarəetmənin məqsəd və vəzifələrinə uyğun gəlməlidirlər. İdarəetmə fəaliyyətinin qeyri-hüquqi formalarının xüsusiyyəti ondan ibarətdir ki, onlar bilavasitə hüquqi nəticə yaratmırlar.

İdarəetmənin qeyri-hüquqi formalarına aşağıdakıları aid etmək olar:

- təşkilati hərəkətlərin görülməsi;
- maddi-texniki hərəkətlərin görülməsi.

<u>Təşkilati hərəkətlər</u> – iclasların, müzakirələrin, yoxlamaların aparılması, qabaqcıl təcrübənin yayılması, proqnozların hazırlanması, mühasibat və statistik qeydiyyatın aparılması, sərgilərin təşkili, mətbuat konfranslarının keçirilməsi, əmək kollektivlərinin və ictimai birliklərin nümayəndələri ilə görüşlərin keçirilməsi formasında ifadə oluna bilər.

Təşkilati tədbirlər konkret inzibati-hüquqi münasibətlərin yaranması və ləğv edilməsi ilə bilavasitə bağlı deyillər. Onlar gündəlik idarəetmə fəaliyyətində həyata keçirilirlər.

<u>Maddi-texniki hərəkətlər</u> köməkçi əhəmiyyətə malikdir, lakin onların köməkliyi ilə dövlət idarəetməsinin bütün formalarının həyata keçirilməsi maddi cəhətdən təmin edilir. Məsələn: arayışların, hesabatların tərtib edilməsi, kargüzarlığın aparılması, sənədlərin tərtib edilməsi, faktların qeydiyyatı, material və sənədlərin çoxaldılması və s. maddi-texniki hərəkətlərə aid etmək olar.

Maddi-texniki hərəkətlər idarəetmə subyektlərinin işinin dəqiqliyinin və effektivliyinin (səmərəliliyinin) təmin edilməsinə xidmət edir. Onlar idarəetmə prosesini yüngülləşdirir, idarəçilik əməyi mədəniyyətini və səmərəliliyini artırırlar. İdarəetmə prosesləri mürəkkəbləşdikcə maddi-texniki hərəkətlərin əhəmiyyəti və həcmi də artır.

Maddi-texniki hərəkətlərə polis işçilərinin, inzibati həbs haqqında qərarın icrası, sərxoş halda olan şəxslərin polis orqanlarına gətirilməsi və inzibati tənbeh haqqında qərarların icrası kimi hərəkətləri də aiddir. İdarəetmənin hüquqi və qeyri-hüquqi formalarının təhlilini başa çatdıraraq qeyd etmək lazımdır ki, idarəetmə formalarının növlərə bölünməsi şərtidir, çünki onlar bir-biri ilə sıx bağlıdır, bir-birinə qarışırlar və biri digərini tamamlayır. Lakin onları fərqləndirmək lazımdır. Çünki onlar müxtəlif hüquqi əhəmiyyətə malikdirlər.

Onu da qeyd etmək lazımdır ki, idarəetmə fəaliyyətinin səmərəliliyi həmin formaların bacarıqla uzlaşdırılmasından asılıdır. Birtərəfli qaydada hüquqi aktların qəbuluna aludəçiliyin göstərilməsi onların təşkilati və maddi-texniki hərəkətlərlə təmin edilməməsi hallarında müvafiq icra hakimiyyəti orqanını ″qanunvericilik orqanı″ formasına gətirib çıxara bilər.

Təşkilati hərəkətlərə isə üstünlük verən və hüquqi vasitələrin əhəmiyyətini dərk etməyən rəhbərlər onların qarşısında duran məsələləri həll edə və istənilən nəticəni ala bilməzlər.Məlumdur ki, ədalət mühakiməsi daim özünün əsas əlaməti olan prosessual formada həyata keçirilməlidir. İdarəetmə və icra hakimiyyəti isə prosessual formada ola və olmaya da bilər. Buna müvafiq olaraq idarəetmənin prosessual və qeyri-prosessual formalarını bir-birindən fərqləndirmək lazımdır.

Hüquqi prosesi prosessual normalarla tənzimlənən və konkret hüquqi işlərin həllinə yönəlmiş səlahiyyətli subyektlərin hakimiyyət fəaliyyəti kimi başa düşmək olar. Bu anlayışı açıqlayaraq, prosesin əsas əlamətlərini göstərmək olar:

Birinci, burada hakimiyyət səlahiyyətləri həyata keçirilir. Burada müvafiq münasibətlərdə vətəndaşlar və təşkilatlar iştirak edir, lakin aparıcı rol hakimiyyət daşıyıcısına məxsusdur. Onu da qeyd etmək lazımdır ki, prosesin gedişində hakimiyyət səlahiyyətləri ″idarədən kənar″ işlərin həlli üçün istifadə edilir.

İkinci, prosessual fəaliyyətin nəticəsində hüquqi işlər həll edilir (normativ aktın qəbul edilməsi, sanksiyaların tətbiqi və s.). Buna görə də o, müxtəlif sənədlərlə rəsmiləşdirilir.

Üçüncü, prosesin iştirakçılarının hüquq və vəzifələri, hərəkətlərin ardıcıllığı və müddəti, sənədlərin tərtib edilmə qaydaları, qərarın qəbulu, ondan şikayət vermə və icrası qaydası prosessual normalarla tənzimlənir.

İkinci suala yekun olaraq bir daha qeyd etmək istərdim ki:

1. Dövlət idarəetmə orqanlarının fəaliyyəti aşağıdakı formalarda özünü biruzə verir:
- hüquqi forma;
- qeyri-hüquqi forma.

2. İdarəetmənin hüquqi forması aşağıdakı növlərə bölünür:
- hüquq yaratma (hüquq müəyyən etmə) fəaliyyəti;
- hüquq tətbiqetmə fəaliyyəti;
- hüquqi əhəmiyyət kəsb edən digər hərəkətlərin həyata keçirilməsi.

3. İdarəetmənin qeyri-hüquqi formalarına aşağıdakıları aid etmək olar:
- təşkilati hərəkətlərin görülməsi;
- maddi-texniki hərəkətlərin görülməsi.

Sual 3.
İnzibati-hüquqi müqavilə

Mülki hüquq müqavilələrin iştirakçıları bərabər hüquqlu subyektlər olduğu halda idarəetmə münasibətlərində isə ilk növbədə subyektlər hakimiyyət və tabeçilik münasibətlərində olurlar. Hüquqi əlaqələrin prinsipcə müxtəlif olan bu növləri arasında qarışıq tipli münasibətlər özünə yer tapır. Bu hüquq münasibətlərində hakimiyyət və hüquq bərabərliyi bu və ya digər nisbətdə uzlaşır. Məsələn, sərnişinlərin daşınması haqqında mülki-hüquqi müqavilə nəqliyyatda biletsiz getməyə görə bir tərəfin inzibati cərimənin tətbiq etmə hüququ ilə bağlıdır (Azər. Res. İXM, m. 149).

İnzibati müqavilə əqd növü olub, burada tərəflərin hüquq bərabərliyi razılaşan tərəflərin birinin və yaxud hər ikisinin hakimiyyət səlahiyyətləri ilə bağlıdır.

Dövlət hakimiyyəti orqanları öz fəaliyyətində bir tərəfli hərəkətləri ilə yanaşı, tərəflərin razılığına əsaslanan iki tərəfli aktlardan da istifadə edir. Bunlara isə inzibati müqavilələr də aiddirlər.

Əqdlərin növ müxtəlifliyini nəzərə alaraq, inzibati-hüquqi müqavilələr ictimai maraqları təmin edən idarəetmə münasibətlərin fərdi nizamasalma vasitələridir. Lakin, hüquq normalarından fərqli olaraq, inzibati müqavilələrlə müəyyən edilən qaydalar, yalnız onların tərəfləri üçün mütləqdir bəzi hallarda isə onlara tabe olan təşkilatlar üçün mütləqdir.

İnzibati və mülki müqavilələr arasında xeyli fərqlər vardır. Bunlar aşağıdakılardır:

- inzibati müqavilələr bir qayda olaraq ″təşkilati″ məzmuna malikdir, onların məqsədi ictimai əhəmiyyətli nəticələrə nail olmaqdır;
- inzibati müqavilə həmişə müvafiq məsələlərin həllində müəyyən müs-təqilliyə malik olan subyektlərin fəaliyyətinin hüquqi forması kimi çıxış edir. Hətta, onlar ″hakimiyyət-tabeçilik″ münasibətlərində olmasalar da, tərəflərin hüquq və vəzifələri bərabər deyil, çünki söhbət əmlak səlahiyyətlərindən yox, idarəetmə səlahiyyətlərindən gedir. Müqavilənin tərəflərindən biri inzibati hakimiyyətin subyektləridir və müqavilə inzibati hüququn subyektləri arasında bağlanılır;
- Azərbaycan Respublikasında inzibati müqavilə məhkəmə müdafiəsi ilə təmin edilmir və tərəflərdən biri və ya hər ikisinin öz üzərlərinə götürdükləri vəzifələrin yerinə yetirilməməsi əmlak sanksiyalarının tətbiqinə səbəb olmur;
- inzibati müqavilə inzibati orqan tərəfindən öz vəzifələrinin həyata keçirilməsi vasitəsi kimi çıxış edir;
- inzibati müqavilələrin normativ bazasını mülki hüquq normaları yox, inzibati hüquq normaları təşkil edirlər.

Mövcüd olan inzibati hüquq normaları müqavilələrin konkret növlərinin məqsədli istiqamət daşıması tələbini özündə cəmləşdirir, onların iştirakçılarının tərkibinə, əqdlərin formasına dair tələbləri müəyyənləşdirir.

Məzmununa görə inzibati hüquqi müqavilələrin aşağıdakı növləri vardır:

a) səlahiyyətlər haqqında olan müqavilələr (yəni səlahiyyətlərin məhdudlaşdırılması, səlahiyyətlərin verilməsi və s.);

b) müştərək (birgə) fəaliyyət haqqında olan müqavilələr (normayaradıcılığı, hüquqtətbiqetmə, xidmət etmək haqqında və s.);

c) dövlət sifarişlərinin yerinə yetirilməsi haqqında olan müqavilələr və s.

İnzibati-hüquqi müqavilələr aşağıdakı subyektlər arasında bağlana bilər:

- icra hakimiyyətinin subyektləri arasında;

– icra hakimiyyəti subyektləri və digər dövlət və bələdiyyə təşkilatları arasında;
– icra hakimiyyəti subyektləri və qeyri-hökumət təşkilatları arasında;
– icra hakimiyyəti subyektləri və vətəndaşlar arasında.

Subyektlərin qarşılıqlı münasibətlərindən asılı olaraq 2 tip inzibati müqavilələri ayırmaq lazımdır:

➢ bir-birinə qarşı hakimiyyət səlahiyyətlərinə malik olmayan subyektlər arasında bağlanan inzibati müqavilələr;

➢ əks tərəfə qarşı münasibətdə hakimiyyət səlahiyyətlərinə malik olan subyektlər arasında bağlanan inzibati müqavilələr.

Başqa sözlə şaquli və üfiqi tipli müqavilələr haqqında danışmaq olar. Şaquli müqavilələrə aşağdakılar daha xasdır:

– hakimiyyət səlahiyyətlərinə malik olan tərəflərin müəyyən üstünlüyü (məsələn, digər tərəfi təlimatlandırma hüququ, göstərişlərinin yerinə yetirilməsini yoxlamaq hüququ, müqavilənin şərtlərini dəyişmək hüququ, onu birtərəfli qaydada ləğv etmək hüququ);

– digər tərəfin ″maliyyə müvazinətinə″ olan hüququ. Əgər ″maliyyə bərabərliyi″nin pozulması hakimiyyət subyektinin təqsiri hesab edilə bilməyən şəraitin nəticəsində yaranmışdırsa (vergi qanunvericiliyinin dəyişməsi və s.), onda ″maliyyə bərabərliyi″nin bərpa edilməsi vəzifəsi hakimiyyət səlahiyyətli subyektinə həvalə edilmir.

Müqavilənin 3 əsas şərti: müstəqilliyi, dəyişməzliyi və tərəflərin bərabərliyi təmin edilməyən hallarda, inzibati-hüquqi münasibətləri yaradan, dəyişən və ləğv edən hüquqi fakt kimi inzibati müqavilələri istifadə etmək məsqədəuyğundurmu kimi sualı yaranır. Belə suala cavab müsbət olmalıdır.

Əgər müqavilə ilə şaquli, yaxud ierarxiya əlaqəsi yaranarsa, onda aşağıda duran idarəetmənin obyekti müqavilə münasibətlərinin subyektinə çevrilir. Buna görə də, o, öz imkanlarını təhlil etməli, öz tələb və öhdəliklərini anlamalı və onları əsaslandırmağa çalışmalıdır. Onu dinləyəcəklər və onun rəyi müəyyən dərəcədə nəzərə alınacaq, bu da işin hallarını, yaranmış şəraiti, əks tərəfin imkanlarını lazımi səviyyədə öyrəndikdən sonra idarəetmə qərarın qəbul edilməsinə şərait yaratmış olur.

Aidiyyəti olan subyekt isə qəbul edilən qərarların məqsədəuyğunluğunu daha yaxşı və düzgün başa düşəcək. Başqa sözlə desək, müqavilənin hazırlama prosesi yuxarıda duran tərəfə onun qarışacağı vəziyyəti daha da yaxşı təhlil et-məyə, aşağı tərəfə isə öz tələblərini əsaslandırmağa və müqaviləyə daxil edilən şərtləri başa düşmək üçün imkan verir. Və bu müqavilələr əsasında yaranan münasibətlər, hakimiyyət başlanğıcı əsasında yarananlara nisbətən daha de-mokratik olur. Bir çox halda müqavilə vasitəsi ilə inzibati akt dəyişdirilə bilər. Müqavilənin pozulmasına görə nəinki ictimai, həm də intizam, siyasi, bir sıra hallarda isə maddi, maliyyə təsir tədbirləri, güzəştlərin ləğv edilməsi, icazəli (lisenziyalı) fəaliyyətinin dayandırılması kimi tədbirlərin tətbiq edilməsi mümkün olur.

N Ə T İ C Ə

Bu günki mühazirənin sonunda qeyd etmək istərdim ki, biz icra hakimiyyətinin həyata keçirilməsinin əsas formalarını nəzərdən keçirdik.

Sizin aldığınız biliklər sizə sonrakı fəaliyyətinizdə lazım olacaq, çünki Siz də gələcək hüquqşünas kimi icra hakimiyyətinin hansı formalarda həyata keçirilməsinin əsaslarını və qaydalarını bilməlisiniz.

İkinci tərəfdən hüquq mühafizə orqanlarının qarşısında duran vəzifələrin dairəsindən, məzmun və xüsusiyyətlərindən asılı olaraq, həmin vəzifələri həyata keçirən zaman idarəetmənin müxtəlif növlü inzibati-hüquqi formalarından istifadə edilir. Ona görə də qarşıda duran vəzifələrin həyata keçirilməsində istifadə olunan hər bir inzibati-hüquqi forma yalnız qanun çərçivəsində və qanuçuluğa riayət edilməklə həyata keçirilməlidir.

Qanunun bu tələblərinə riayət edilməsi üçün də bizim bu günki mühazirəmizdə əldə etdiyimiz biliklər sizin gələcək fəaliyyətinizdə həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir.

Mövzu № 9: ″İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metodları″

P L A N :

GİRİŞ

1. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metodlarının anlayışı, mahiyyəti və onların növləri.
2. İnzibati məcburetmə.
3. Xüsusi inzibati-hüquqi rejimlərin anlayışı, mahiyyəti və növləri.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T :

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
2. ″Fövqəladə vəziyyət haqqında″ Azərbaycan Respublikasının Qanunu, 04.02.92-cü il (sonrakı əlavə və dəyişikliklərlə).
3. ″Hərbi vəziyyət haqqında″ 06.01.94-cü il tarixli Azərbaycan Respublikasının Qanunu.
4. ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
5. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
6. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
7. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
8. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
9. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
10. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

Bu mühazirədə icra hakimiyyəti öz məqsədinə çatmaq üçün özünün fəaliyyətində istifadə edilən icra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metodlarını nəzərdən keçirəcəyik. İnandırma və məcburetmə yolu ilə həyata keçirilən inzibati-hüquqi metodların məqsədini, əsaslarını və tətbiqi qaydalarını, həmçinin, inandırma və məcburetmənin anlayışı və növlərini, onların həyata keçirilməsi forma və metodlarını araşdıracağıq.

Bu günkü mühazirəmizin mövzusunun mahiyyəti bir də ondan ibarətdir ki, onun planını təşkil edən sualların açıqlanması vasitəsilə Azərbaycan Respublikasının

Konstitusiyasının 111 və 112-ci maddələrinə əsasən hərbi və fövqəladə vəziyyətlərdə icra hakimiyyətinin həyata keçirilməsi zamanı istifadə olunan metodların seçilməsi və onların tətbiq edilməsi qanunvericiliyin tələblərinə müvafiq olaraq həyata keçirilmiş olar.

Digər tərəfdən isə belə vəziyyətlərdə icra hakimiyyətinin həyata keçirilməsi zamanı imstifadə olunan idarəetmənin ikinci əsas metodu olan məcburetmə metodundan istifadə edrəkən qanunun aliliyinə ciddi riayət etmək qanunçuluğun əsas tələblərindən biridir.

Gələcəkdə hüquq mühafizə orqanlarının əməkdaşları kimi bilməlisiniz ki, Azərbaycanda qəbul edilən qanunlar və qanun qüvvəli aktlar Azərbaycan Respublikası vətəndaşların nəzərinə çatdırılır və onların yerinə yetirilməsi və riayət olunması inandırma metodları ilə həyata keçirilir. Onlar yerinə yetirilmədikdə və ya pozulduqda, dövlətin məcburetmə qüvvəsi ilə təmin edilirlər, həmçinin qeyd etmək lazımdır ki, idarəçiliyin inzibati-hüquqi metodlarının tətbiqi Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə dəqiq və dürüst riayət olunmasına əsaslanır. Onların tətbiq edilməsi həmçinin, Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli ″İnsan və vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsi üzrə tədbirlər haqqında″ Fərmanından irəli gələn tələblərə də əsaslanmalıdır. Çünki, onların tətbiqi şəxslərə qarşı mənəvi, maddi və ya fiziki tədbirlərin tətbiqi ilə bağlıdır. Lakin, onların tətbiqi vətəndaşlar tərəfindən qanunçuluğun tələblərinin yerinə yetirməməsi ilə bağlıdır və Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsində göstərilən dövlətin ali məqsədinə çatmasına yönəldilmişdir. Dövlətin ali məqsədi ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi – dövlətin ali məqsədidir″.

Sual 1. ″İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metodlarının anlayışı, mahiyyəti və onların növləri″

Ümumi qəbul olunmuş mənada metod – nəyinsə həyata keçirilməsinin üsul və fəndləri başa düşülür. Dövlət idarəetmə fəaliyyətinə uyğun olaraq, metod – dedikdə, müəyyən olunmuş hədlərdə və müvafiq formada, təhkim edilmiş səlahiyyətlər əsasında icra hakimiyyəti orqanlarının (vəzifəli şəxslərin) gündəlik fəaliyyətində icra hakimiyyətinin vəzifə və funksiyalarının həyata keçirilməsinin praktiki üsul və fəndləri başa düşülür. Belə anlayışda metod – icra hakimiyyətinin fəaliyyəti haqqında, idarəçilik funksiyalarının necə həyata keçirilməsi haqqında və bu zaman hansı vasitələrdən istifadə olunması haqqında lazımi məlumatlar almağa imkan verir. Bu kateqoriya buna əsasən icra hakimiyyətinin həyata keçirilməsi prosesinin mahiyyətinin xarakteristikasına aid edilir və onun vacib elementlərindən biridir.

İdarəetmə metodu dövlət idarəetmə fəaliyyətinin funksiyalarını həyata keçirmə üsulu, icra hakimiyyəti orqanının öz məqsədinə çatmaq üçün idarə olunan obyektlərə təsiretmə vasitəsidir.

İstənilən fəaliyyətin metodları müxtəlifdir. Eyni dərəcədə bu həm də, idarəetmə metodlarına da aiddir, çünki, öz təyinatına görə həm icra hakimiyyəti subyektləri, həm də onların təsiri altında olan obyektlər müxtəlifdir. Onların hər ikisi özlərinin təyinatı və təşkilati-hüquqi statusuna münasibətdə öz xüsusiyyətlərinə malikdirlər.

İdarəetmə metodlarına əsasən aşağıdakılar xasdır:

- onlar vahid dövlət hakimiyyətinin praktiki həyata keçirilməsinin xüsusi variantı kimi, bu növ dövlət fəaliyyətinin məqsədli təyinatı ilə bağlıdırlar;

- onlar icra hakimiyyəti subyektlərinin müvafiq obyektlərə idarəetmə təsirini ifadə edirlər;
- onlar icra hakimiyyətinin həyata keçirilməsinin bilavasitə praktiki forması kimi dövlət idarəetməsinin subyekt və obyektləri arasındakı əlaqələrdə ifadə olunurlar;
- onlar icra hakimiyyəti subyektləri tərəfindən səlahiyyətlərinin həyata keçirilməsi vasitəsi kimi istifadə olunurlar;
- idarəetmə metodu daimi müvafiq ünvançıya, yəni obyektə malikdir (fərdi və ya kollektiv);
- idarəetmə metodu daimi dövləti səlahiyyətlərin və hüquqi hakimiyyət xarakterli icra səlahiyyətlərini bilavasitə ifadə edir;
- idarəetmə metodlarına ifadə olunmasının hüquqi forması xasdır;
- idarəetmə təsirin konkret metodlarının seçilməsi nəinki icra hakimiyyəti subyektlərinin təşkilati-hüquqi statusunun xüsusiyyətlərindən, həm də idarəetmə obyektinin xüsusiyyətlərindən asılıdır (məsələn: mülkiyyət forması və s.).

Beləliklə, özünün əsas göstəriciləri üzrə, idarəetmə metodu məqsədyönlü idarəetmə (təsiretmə) vasitəsidir. Onun dərk olunmasına belə yanaşma, onu idarəetmə xarakterli ictimai münasibətlərinin hüquqi nizamlanma metodu ilə yaxınlaşdırır. Onların hər ikisi nizamlayıcı vasitələrdir, yəni inzibati-hüquqi sərəncamların, qadağanların və icazələrin ″daşıyıcısı″ rolunda ifadə olunurlar. Lakin, ″vurğular″ bu zaman müxtəlif olur: çünki, söhbət ya prinsipcə hüququn bütün sahələri üçün eyni olan hüquqi nizamasalma metodlarından gedir, ya da konkret icra orqanları tərəfindən onların qarşısında duran gündəlik vəzifələri həll etmək üçün istifadə edilən idarəetmə üsulların məcmusundan gedir.

Hüquqi nizamasalma metodları bu orqanlar da daxil olmaqla, nizamasalınan ictimai münasibətlərin bütün iştirakçılarına aid edilir.

İdarəetmə metodları isə yalnız icra hakimiyyəti orqanları tərəfindən istifadə edilirlər.

Lakin, bu da onların eyniləşdirilməsinə gətirir. Özünün hüquqi ifadə olunma formasına görə idarəetmə metodu hüquqi nizamasalma metodu ilə eyni də ola bilər. Bunun üçün o, mütləq normativ-hüquqi formada tərtib olunmalı və ifadə olunmalıdır, belə ki, hüquqi nizamasalma daimi normativ xarakter daşıyır.

Dövlət idarəetmə fəaliyyətinin metodlarının inzibati-hüquqi nizamasalma metodlarından seçilməsi mütləqdir. Qeyd etmək lazımdır ki, inzibati-hüquqi nizamasalma metodu – inzibati hüququn funksiyasıdır, idarəetmə metodu isə inzibati hüququn subyektinin funksiyasıdır, bütün subyektlərin yox, yalnız icra hakimiyyətinin (dövlət idarəetməsinin) subyektlərinin.

İdarəetmə metodu icra hakimiyyəti orqanı tərəfindən müvafiq obyektə bilavasitə idarəetmə təsir vasitəsi olub, o, özündə müxtəlif hüquqi hakimiyyət səlahiyyətləri daşıyır.

İcra hakimiyyətinin orqanları (vəzifəli şəxsləri) fəaliyyətlərində müxtəlif vasitələr məcmusundan istifadə edirlər. Bu vasitələr də, öz növbəsində idarəetmə təsirinin həyata keçirilməsinə xidmət edir. Lakin, bu vasitələrin heç də hamısında idarəetmə təsiri öz ifadəsini tapmır. Bununla belə, onlar idarəetmə metodları kimi təsnifləşdirilirlər.

İdarəetmə orqanlarının işində istifadə olunan və idarəetmə təsirini özündə daşımayan vasitələrin əhəmiyyəti sözsüzdür. Onlar idarəetmə ilə bağlı olmayan vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar istifadə edilirlər. Burada müxtəlif metodlar istifadə olunur – sosioloji, riyazi, qrafiki və s. Bu metodlar qərar qəbul edilənə qədər, onun daha effektiv variantının seçilməsi üçün, istifadə edilir. Bunlarda idarəetmə təsiri hələ yoxdur, o, öz əksini gələcək

idarəetmə qərarında tapacaq. Eyni ilə bu formada idarəetmə xarakterli digər hərəkətləri də xarakterizə etmək olar. Məsələn, idarəetmə qərarlarını qəbul etmə üsulları (kollegial, təkbaşına, razılaşma əsasında, birgə və s.)

İdarəetmə orqanların aparatında, onların struktur bölmələri və ayrı-ayrı vəzifəli şəxsləri arasında səlahiyyətlərin və məsuliyyətlərin bölüşdürülməsi də baş verir. Burada idarəetmə işinin üsul və fəndləri üzə çıxır. Lakin, onları idarəetmə metodları kimi qəbul etmək üçün əsas yoxdur, çünki onların hamısı bilavasitə idarəetmə təsirini ifadə etmirlər. Eyni zamanda, burada idarəetmənin obyektləri və subyektləri arasında münasibətlər yoxdur, çünki, həmin hərəkətlər müvafiq icra hakimiyyəti orqanın aparatı çərçivəsində istifadə edilir. Əgər bunlarda idarəetmə təsiri yoxdursa, deməli, idarəetmə metodları da yoxdur. Elə buna görə də riyazi, qrafiki, sosioloji, təhqiqat, tərbiyəvi metodlarını müstəqil idarəetmə metodları kimi adlandırmaq olmaz. Bu növ hərəkətlər öz xarici ifadəsini bir qayda olaraq dövlət idarəetməsinin qeyri-hüquqi formalarında tapan və xarici hüquqi nəticələr yaratmayan (idarəetmənin obyektinə təsir göstərməyən) təşkilati tədbirlərə aid etmək olar.

Beləliklə, aşağıdakıları ayırmaq lazımdır:

a) idarəetmənin təsiretmə metodları daimi xarici hüquqi-hakimiyyət əhəmiyyətinə və iradəsinə malikdirlər, onlar idarəetmə metodlarıdırlar;

b) idarəetmə aparatının işinin təşkili metodları: onlar yalnız aparatdaxili əhəmiyyət daşıyırlar;

c) ayrı-ayrı idarəetmə hərəkətlərinin həyata keçirmə metodları bu prosedur xarakterli metodlardır.

Bunlardan birinciləri – inzibati-hüquqi metodlardır və bunlarda dövlət idarəetmə fəaliyyətinə xas olan bütün əsas keyfiyyətlər öz əksini tapır. İcra hakimiyyətin subyektlərinin ixtiyarında olan bu növ metodların köməyi ilə obyektə edilən idarəetmə təsiri idarəetmənin inzibati-hüquqi formalarından istifadə etməklə həyata keçirilir. Bunlardan da inzibati-hüquqi formalar və inzibati-hüquqi metodlar arasında olan birbaşa əlaqə üzə çarpır. Bir qayda olaraq idarəetmənin bu və ya digər metodu öz əksini hüquqi aktlarda tapır.

İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metodlarının növləri

İcra hakimiyyətinin həyata keçirilməsi metodları çox müxtəlifdir. Onlar müxtəlif əsaslar üzrə təsnifləşdirilir, əsasən də, idarəetmə subyektlərinin funksiyaları üzrə. Onları ümumi, yəni idarəetmə prosesinin bütün mərhələlərində istifadə edilən və xüsusi, yəni idarəetmə prosesinin ayrı-ayrı mərhələlərində və ya ayrı-ayrı funksiyaların həyata keçirilməsi zamanı tətbiq edilən metodlara bölmək olar.

İdarəetmənin ümumi metodları kimi inandırma və məcburetmə metodları seçilir. Bunlar lazımi davranışın, hüquq qaydalarının təminetmə mexanizminin vahid iki qarşılıqlı və əlaqəli tərəfləridir. Onlar bir-birini tamamlayırlar.

İcra hakimiyyəti orqanları öz fəaliyyətlərinin əsas metodu kimi inandırma metodundan istifadə edirlər. İnandırma müxtəlif izahedici, tərbiyəvi, təşkilati tədbirlərin istifadəsi zamanı özünü göstərir. İnandırmanın köməyi ilə qanunverici müxtəlif subyektlərin vahid iradəsinə və davranışına nail olur. Bu da hərəkətlərin birliyinin əhəmiyyətli şərtidir.

İnandırmanın mahiyyəti ondan ibarətdir ki, o, ictimai münasibətlərə təsiretmə metodudur. Onun məzmunu isə insanların şüuruna və davranışına təsir edən konkret olan müxtəlif tədbirlər kompleksindən ibarətdir.

İnandırma – ardıcıl surətdə həyata keçirilən hərəkətlər prosesi olub, diqqətin yetirilməsi, marağın oyadılması, istəyin yaradılması və hərəkətlərin stimullaşdırılması kimi elementləri özündə cəmləşdirir.

Bununla yanaşı inandırma əsasən, mənəvi xarakterli vasitələrlə insanın şüur və iradəsinə təsiri nəzərdə tutur. Belə təsir nəticəsində özgə iradə könüllü və şüurlu surətdə şəxsin öz iradəsinə çevrilir, onda onu inandıran şəxsin baxışlarına uyğun olan baxışlar formalaşır. Bu baxışlar mənəvi motivlər formasını alır və insan öz fəaliyyətində onları rəhbər tutur. Lakin, inandırma təsirin əsasən ideoloci, mənəvi xarakter daşıması heç də o demək deyil ki, inandırma yalnız sözlə ifadə olunan hüquqi təbliğatdır və s. Buna görə də, inandırma tədbirlərin sisteminə tam əsaslı olaraq müxtəlif təşkilati və təşəbbüs xarakterli tədbirlər də daxil edilir.

Beləliklə, dövlət idarəetməsində inandırma – vətəndaşların hüquq şüurunun yüksəldilməsi və onların Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına, insan və vətəndaş hüquq və azadlıqlarına riayət edilməsi ruhunda tərbiyə etmək məqsədilə tərbiyəvi, izahedici təşəbbüs yaradan kompleks tədbirlərindən ibarət olan, insanların şüuruna və davranışına təsir etmək üsuludur.

Daxili işlər orqanlarında inandırma metodu

Daxili işlər orqanları ictimai qaydanın mühafizəsində və ictimai təhlükəsizliyin təmin edilməsində, hüquqpozmalarla mübarizədə demokratik və humanist metodlardan istifadə edirlər.

Daxili işlər orqanlarının fəaliyyəti sahəsində nizama salınan və mühafizə olunan ictimai münasibətlərin həcminə görə ən çox yer tutan DİO-nun inzibati fəaliyyətidir. Əməliyyat-axtarış və cinayət-prosessual fəaliyyətindən fərqli olaraq inzibati-hüquqi mühafizə, ictimai qaydanın mühafizəsi və hüquqpozanlara qarşı mübarizədə inandırmanın istifadə edilməsi imkanları daha çoxdur.

Buna görə də, daxili işlər orqanlarının inzibati fəaliyyətində olan inandırma – inzibati xətaların xəbərdar edilməsi və qarşısının alınması, həmçinin də hüquq pozanların tərbiyələndirilməsi üçün işlək vasitədir.

Daxili işlər orqanlarının inzibati fəaliyyətində inandırma metodu aşağıdakı məqsədlərə nail olmağa xidmət edir:

a) vətəndaşlarda hüquqi davranış adətlərinə daxili tələbat və dözümlüyünün tərbiyə edilməsi;

b) hüquqazidd hərəkətlərin xəbərdar edilməsi;

v) hüquqpozanlara təsir etmək.

Daxili işlər orqanlarının inzibati təcrübəsində inandırmanın aşağıdakı əsas formalarını ayırmaq olar:

- əhali arasında tərbiyəvi işin və hüquqpozmaların törədilməsinə meyilli olan vətəndaşlarla fərdi işin aparılması;
- təbliğat-təşviqat fəaliyyətinin aparılması;
- xidmət göstərilən ərazidə ictimai qaydanın mühafizəsinin vəziyyəti haqqında dövlət orqanlarına və əhaliyə məlumat vermə;
- ictimai qaydanın mühafizəsində iştirak edən vətəndaşların təltif edilməsi və s.

Dövlət idarəetmə sistemində inandırma vasitələri təsir etmədiyi hallarda məcburetmə təsiri lazım olur. Bu hallarda, lazımi davranışı təmin etmək üçün məcburetmədən istifadə etmək lazım olur.

Məcburetmə dövlət idarəetməsinin əsas olmasa da, lakin köməkçi metodudur. Belə ki, məcburetmə hüquq qaydalarının, mülkiyyətin, vətəndaşların və ictimai təşkilatların hüquq və maraqlarının mühafizəsi, hakimiyyət aparatının fəaliyyəti üçün normal şəraitin yaradılması üçün vacibdir.

Cəmiyyətdə məcburetmənin müxtəlif növləri vardır. Üsuluna görə fiziki, psixi və təşkilati təsirlər vardır.

Fiziki təsir şəxsə, onun əmlakına yönələ bilər. Fiziki məcburetmənin bilavasitə obyekti rolunda şəxsiyyət və onun maddi vəziyyəti çıxış edir. Fiziki məcburetmə şəxsiyyətə, onun əmlakına və pul vəsaitinə təsir göstərən konkret tədbirlərdə ifadə oluna bilər, yəni o, subyektin sərəncamında olan bəzi nemətlərin müəyyən miqdarda məhrum edilməsi və ya məhdudlaşdırılması yolu ilə həyata keçirilir.

Psixi məcburetmənin bilavasitə obyekti insanın psixikası – onun ağlı, emosiyaları, iradəsidir. Onlara təsir etməklə insanın iradəsini ″daxilən″ formalaşdırmaq və onu lazımi ictimai davranışa sövq etmək olar. Bu metod qanunçuluğun və dövlət intizamının tələblərinə riayət etməkdən yayınan və ya inzibati-hüquqi normalarla müəyyən edilmiş davranış qaydalarını pozan şəxslərə tətbiq olunur.

Təşkilati tədbirlərə misal kimi hüquqların məhdudlaşdırılmasını və məhrum etməsini (işdən çıxarılma, təşkilatın ləğv edilməsini) göstərmək olar.

Belə bölgü əsasən şərti xarakter daşıyır, belə ki, vətəndaşlara və təşkilatlara tətbiq edilən bu təsir vasitələri bir-biri ilə uzlaşırlar.

Məcburetmə tədbirləri hüququn həm fərdi, həm də kollektiv subyektlərinə tətbiq edilə bilərlər.

Hüquqi amillərə görə leqal (hüquqi) və qeyri-leqal, yəni qanuna əsaslanan və qanuna əsaslanmayan məcburetməni ayırmaq lazımdır. Qeyri-leqal məcburetmənin növləri kimi, başqa dövlətlərin təcavüzünü, zəbt etməni, zor tətbiq etməni misal çəkmək olar. ″Dövlətin daxilində törədilən zorun mənbəyi – cinayətkarlıq, oxlokratiya (kütlənin hakimiyyəti), bandokratiya (yarımleqal birləşmələrin, mafiyanın və s. hakimiyyəti), həmçinin də bəzən hakimiyyət strukturlarının sui-istifadələrə yol vermələri, vəzifəli şəxslərin səlahiyyətsizliyi, səhlənkarlığı və inzibati özbaşınalığı ola bilər.

Hüquq elmi dövlət hakimiyyət göstərişlərinə riayət edilməsinin məcbur edilməsi ilə məşğul olur, yəni hüquq normaları əsasında və onların pozulmasına görə tətbiq edilən hüquqi məcburetmələri öyrənir.

Hüquqi (leqal) məcburetmə tədbirlərinə aiddir:

- intizam məcburetməsi;
- inzibati məcburetmə;
- mülki-hüquqi məcburetmə;
- cinayət-hüquqi məcburetmə.

Dövlət idarəetmə metodu kimi, məcburetmə üçün aşağıdakılar xasdır:

- o, cəmiyyət üçün zərərli, qanunazidd əməllərlə əlaqədar olaraq həyata keçirilir;
- onun istifadə olunması, normada ifadə olunan dövlət iradəsi ilə onu pozan fərdi şəxsin iradəsi arasındakı münaqişədən irəli gəlir.

Hüquqi məcburetmə hüquq normalarını pozan şəxsə, hüququn subyektlərinə tətbiq edilir. Məcburetmə fərdiləşdirilib, bu hüquqi göstərişləri yerinə yetirmək, yeni hüquqpozmalara yol verməmək, təqsirkarı və ətrafdakıları tərbiyə etmək üçün subyektə xaricdən göstərilən təsirdir. Konkret subyektin fiziki, təşkilati, əmlak və mənəvi sahələrə təsir etməklə məcburetmə fəaliyyətinin nəticələrinə çatmaq olar.

Hüquqi məcburetmə hüquq tətbiqetmə aktlarının vasitəsilə həyata keçirilir. Normalar özü özlüyündə yalnız məcburetmənin mümkünlüyünü nəzərdə tuturlar, onu da reallığa çevirmək üçün hüquq tətbiqetmə aktları qəbul edilməlidir.

Məcburetmə ciddi olaraq yalnız qanun əsasında tətbiq edilir.

Hüquq normaları – hansı tədbirlərin, hansı şəraitdə, hansı qaydada və hansı orqanlar tərəfindən tətbiq edilə biləcəyini nizamlayırlar. Məcburetmə tədbirlərinin dəqiqliklə nizamlanması Azərbaycan Respublikasının Konstitusiyası ilə elan edilən, vətəndaşın şəxsiyyətinin və şəxsi əmlakın toxunulmazlığı prinsiplərinin konkretləşdirici və hüquqi təminatçısıdır.

Səlahiyyətli orqanlar tərəfindən məcburetmə tədbirlərinin tətbiq edilməsinin əsasları məcburetmə tədbirlərinin tətbiq edilməsi üçün vacib olan əlamətlər (hüquqpozmanın tərkibi) qanunvericiliklə müəyyən edilir. Qanuni əsaslar olduqda, hansı məcburetmə tədbirlərin tətbiq edilməsi normativ qaydada müəyyən edilir. Məcburedici vasitələrin tətbiq edilməsi qaydasının dəqiq nizamlanması, məcburetmə subyektlərinin dairəsinin və onların səlahiyyətlərinin müəyyən edilməsi böyük əhəmiyyət kəsb edir. Məcburetmə tədbirlərin tətbiqi qaydası qanunla müəyyən edilir. Bu zaman vətəndaşların və təşkilatların hüquq və maraqlarının mühafizəsi üçün lazımi təminatlar verilir.

Yalnız, dövlət hüquq normalarını qəbul etmək və orada olan sanksiyaları tətbiq etmək hüququna malikdir. Məcburetmə aparatına malik olan dövlət vətəndaşlara qarşı məcburetmə tədbirlərini tətbiq etmək hüququna malikdir. İctimai və digər qeyri-dövlət təşkilatlarına gəldikdə isə, onlar yalnız öz əməkdaşlarına məcburetmə ilə bağlı olan tədbirləri tətbiq edə bilərlər. İctimai orqanlar isə vətəndaşlara qarşı məcburetməni yalnız dövlətin tapşırığı ilə, qanunla müəyyən olunmuş hallarda və bir qayda olaraq, dövlət nəzarəti altında həyata keçirə bilərlər.

Beləliklə, məcburetmə xüsusi səlahiyyətli dövlət orqanları tərəfindən hüquq tətbiqetmə aktlarının tətbiq edilməsi vasitəsi ilə, hüququn yalnız konkret subyektlərinin qanunazidd hərəkətləri ilə əlaqədar olaraq onlara qarşı, hüquq əsasında tətbiq edilən, hüquq qaydasının təmin edilməsi üsuludur.

Dövlət idarəetməsində inandırma və məcburetmə öz əksini inzibati, iqtisadi və sosial-psixoloji metodlarda tapırlar və həyata keçirilirlər.

İnzibati metodlar

İnzibati metodlar müvafiq idarəetmə orqanlarının hüquqi hakimiyyət iradəsinin birtərəfli ifadəsini əks etdirirlər. Onların məzmununda daimi belə orqanların hüquqi göstərişləri olur.

İnzibati metodlar imperativ xarakterə malikdirlər. İdarəetmə orqanları tabeçilikdə olan müəssisələr, təşkilatlar və vətəndaşlar üçün icrası hüquqi cəhətdən məcburi olan idarəetmə qərarlarını qəbul edirlər. Onların yerinə yetirilməsi izahetmə, təşkiletmə, tərbiyələndirmə və stimullaşdırma, həm də məcburetmə ilə təmin edilir (məsələn, hüquqi məsuliyyətə cəlbetmə).

İnzibati metodlara (hüquqi ədəbiyyatda onları ″birbaşa təsir metodları″ da adlandırırlar) aşağıdakı əlamətlər xasdır:

a) iradəyə birbaşa təsir etmək;

b) əmredici xarakter;

c) komandaların bir mənalı olması, yəni tabeçiliyində olanlara əmr edildiyi kimi yerinə yetirməyi məcbur edir;

ç) idarəetmə müxtəlif, əmrlər isə eyni mənalı olduğuna görə onları çoxlu sayda qəbul etmək lazım olur, bu da tabeçilikdə olanların fəaliyyətini tam nizamlamaq üçün çoxlu norma və sərəncamların olmasına gətirir;

d) nəzarət edən aparatın olması;

e) həvəsləndirmə tədbirlərinin tətbiqi və s.;

ə) qeyri-iqtisadi məcburetmənin geniş istifadə olunması.

İnzibati metodlar aşağıdakı növlərə bölünürlər:

➢ <u>ifadə formasına görə:</u>
- inzibati-hüquqi;
- inzibati-təşkilati;

➢ <u>hüquqi xüsusiyyətlərinə görə:</u>
- normativ;
- fərdi

➢ <u>təsir üsuluna görə:</u>
- həvəsləndirici;
- səlahiyyətverici;
- təltifedici

➢ <u>göstərişlərin formasına görə:</u>
- qəti;
- həvaləedici;
- tövsiyəedici.

İnzibati metodlar birtərəfli idarəetmə təsirinin bu və ya digər variantını daima ifadə edən çoxlu sayda konkret olan müxtəlif təzahürlərə malikdirlər. Bunlar aşağıdakılar ola bilər:

- idarəetmə sahəsində davranış qaydalarının təyin edliməsi (məs: ictimai qaydanın mühafzəsi sahəsində);
- tabeçilikdə olanlar üçün məcburi olan tapşırıqların verilməsi;
- müəyyən hərəkətlərin edilməsi haqqında göstəriş (məsələn, tabeçilikdə olan təşkilatda təftiş aparmaq üçün Nazirin əmri);
- vəzifəyə təyin etmə;
- vətəndaşların qanuni tələblərinin təmin edilməsi;
- nəzarətin həyata keçirilməsi.

İnzibati metodların istifadəsinin bütün hallarında idarəetmə orqanının birtərəfli iradə ifadəsi və onun hüquqi hakimiyyətinin təzahür etməsinin bu və ya digər variantı aydın surətdə üzə çarpır.

İdarəetmənin iqtisadi metodları

Öz mahiyyətinə görə idarə edilənlərin davranışına birbaşa təsir vasitəsi olan idarəetmənin inzibati metodları ilə birgə dövlət idarəetmə təcrübəsində, həmçinin

idarəetmənin iqtisadi metodlarından da istifadə olunur (hüquqi ədəbiyyatda onlar ″dolayı təsir metodları″ adlanırlar).

Onların köməyi ilə icra hakimiyyəti orqanı (vəzifəli şəxs) idarə olunan obyektin maddi maraqlarına təsir etməklə istənilən davranışa nail olur.

İdarəetmənin iqtisadi metodlarına aşağıdakı xüsusiyyətlər xasdır:

a) idarəedici təsir dolayı yolla, icraçıların tələbatlarını və maraqlarını nəzərə alaraq, lazımi davranışı təmin etmək üçün şərait yaratmaqla həyata keçirilir;

b) idarəetmə aktları müəyyən hərəkətləri etməyə hüquq verir;

v) tabeçilikdə olanlarda bir neçə variant davranışdan birini və ya əksər davranış variantlarını seçməyə imkan var;

q) stimullaşdırmanın avtomatik fəaliyyət göstərən mexanizmi hüquqi normalar və adətlərlə möhkəmləndirilib (gəlirin, güzəştlərin əldə edilməsi);

d) inkişaf etmiş ədalət mühakiməsi mexanizminin olması, mübahisələrin həlli, vətəndaşların və onların kollektivlərinin qanuni maraqlarının təmin edilməsi.

İdarəetmənin iqtisadi metodlarına aşağıdakıları aid etmək olar:

- mükafatın verilməsi;
- kreditin verilməsi;
- vergilərdən azad etmə;
- güzəştlərin verilməsi;
- qiymətlərin buraxılması;
- iqtisadi sanksiyaların tətbiq edlməsi.

İqtisadi metodlardan istifadə edilməsi dərhal arzu edilən nəticəni vermir, lakin, icraçıların aktivliyini aşkar etdirir, buna görə də, alınan nəticələr möhkəm olur. Yuxarıların və aşağıların yaxşı qarşılıqlı fəaliyyət sistemi sabitliyi və inkişafı təmin edir, strateci nailiyyətlərin əldə olunmasını təmin edir. İqtisadi metodların və stimulların idarəetmənin inzibati metodları ilə qarşı-qarşıya qoyulması yolverilməzdir. Bu, öz mahiyyətinə görə vahid idarəetmə təsirinin iki istiqamətidir. İnzibati göstərişlər kimi, iqtisadi təsir vasitələri də, hüquqi cəhətdən tərtib olunmasını tələb edir və bu da onları yaxınlaşdırır. Belə ki, maddi təltif sistemləri, qiymətlər, gəlirdən çıxma normativləri və s. idarəetmənin hüquqi aktları ilə təsdiq edilir, yəni, inzibati vasitələrin köməyi ilə özlərinin həyat maraqlarını əldə edirlər. Bu, o deməkdir ki, iqtisadi metodlar inzibati-metodların vasitəsilə hərəkətə gətirilir.

İcra hakimiyyəti orqanları tərəfindən iqtisadi və inzibati metodlardan başqa sosial-psixoloji metodlar da tətbiq edilə bilər.

Bu metodlara aiddir:

1. <u>Sosioloji metodlar:</u>

- sosial-kütləvi proseslərin idarəetmə metodları;
- kollektivlərdə idarəetmə metodları;
- şəxsiyyətin fərdi davranışının idarəetmə metodları.

2. <u>Psixoloji metodlar:</u>

- əməyin humanistləşdirilməsi metodu;
- psixoloji həvəsləndirmə metodu;
- psixoloji əsaslar əsasında işçilərin xırda qrupların və kollektivlərin komplektləşdirilməsi metodu;
- işçilərin psixoloji xarakterinə görə peşəkar seçilməsi və yerləşdirilməsi.

Subyektin obyektə olan müxtəlif təsir fəndləri idarəetmənin qarşılıqlı əlaqəli vasitələrin vahid istifadə edilməsi prosesi şəklində olmalıdır. Vəziyyəti, fəaliyyət sahəsini, kadr və texniki potensialı nəzərə almaqla vətəndaşlara və təşkilatlara edilən müxtəlif təsir metodlarından səmərəli istifadə etməli və onları bir-biri ilə əlaqələndirmək lazımdır. İdarəetmə metodları, düzgün idarəetmə zamanı vahid təsir vasitələri sistemini yaradır və bir-biri ilə bağlı olur.

Lakin, bu və ya digər metodlar və ya obyektiv şəraitin əksinə, ya da əsassız surətdə geniş tətbiq olunduqda, ziddiyyətlər də yaranır. Təcrübəli rəhbər idarəetmənin bütün metodlarından bacarıqla istifadə etməli və daha çox effektivliyə nail olmalıdır.

Birinci suala yekun olaraq, bir daha qeyd etmək istərdim ki:

1. İdarəetmə metodu dövlət fəaliyyətinin funksiyalarının praktiki surətdə həyata keçirilməsi və məqsədlərinə çatmaq vasitəsidir.
2. Hüquqi nizamasalma metodu – bu, inzibati hüququn subyektlərinin funksiyasıdır: idarəetmə metodu – inzibati hüququn subyektinin funksiyası, bununla belə bütün subyektlərin yox, yalnız icra hakimiyyətinin subyektlərinin funksiyasıdır.
3. Aşağıdakı metodları ayırmaq lazımdır:

- idarəetmə təsirinin metodları;
- idarəetmə aparatının işinin təşkili metodları;
- ayrı-ayrı idarəetmə təsirlərinin həyata keçirilməsi metodları.

4. İdarəetmənin iki əsas metodu var:

- inandırma;
- məcburetmə.

Onlar da inzibati, iqtisadi və sosial-psixoloji metodların köməyi ilə həyata keçirilir.

Sual 2. İnzibati məcburetmə

İcra hakimiyyətinin realizəsinin metodları arasında məcburetmə xarakterli tədbirlərin də adı çəkilmişdir ki, onlardan istifadə etməklə icra hakimiyyəti orqanları (vəzifəli şəxslər) nizama salınan ictimai münasibətlərə lazımi təsir göstərilməsini təmin edirlər. İdarə olunanların lazımi davranışını məcburi təmin etmə tədbirlərinin məcmusu inzibati hüququn institutunu təşkil edir.

İnzibati məcburetmə dövlət məcburetmə növlərindən biri olaraq, dövlətin adından və onun nümayəndələri tərəfindən tətbiq edilir.

Ən geniş mənada inzibati məcburetmə inzibati-hüquqi normalarda əks olunmuş davranış qaydalarının yerinə yetirilməsinin təmin edilməsinə yönəlmişdir.

Məcburetmə tədbirlərinin belə adlandırılması (inzibati məcburetmə tədbirləri) sübut edir ki, onların tətbiq edilməsi üçün məhkəmədən kənar qayda xasdır, yəni onların tətbiqi məhkəməyə müraciət etmədən müvafiq icra hakimiyyəti orqanlarının (vəzifəli şəxslərin) səlahiyyətlərinə aid edilib. Lakin, qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş hallarda ayrı-ayrı inzibati məcburetmə tədbirləri məhkəmələr tərəfindən tətbiq edilir. Bu, əsasən, inzibati xətaların törədilməsinə görə inzibati tənbehlərin tətbiq edilməsinə aid edilir.

Beləliklə, inzibati məcburetmə dövlət məcburetməsinin xüsusi növü olaraq, funksional hakimiyyətin subyektləri tərəfindən inzibati xətalarla əlaqədar, inzibati hüquq normaları əsasında tətbiq olunan məcburetmə tədbirlərinin tətbiqindən ibarətdir.

İnzibati məcburetmə üçün aşağıdakılar xasdır:

1. İnzibati məcburetmə dövlət idarəetmə sahəsində yaranan ictimai münasibətlərin mühafizəsinə yönəlmiş dövlət məcburetməsinin xüsusi növüdür. İnzibati məcburetmə tədbirlərin tətbiq edilməsinin məqsədi, əsası və tətbiq edilmə qaydaları dövlət tərəfindən müəyyən edilir. Onlar, müvafiq dövlət orqanların və vəzifəli şəxslərin icraedici-sərəncamverici fəaliyyətləri prosesində istifadə edilir. Bu da onların dövlət hakimiyyət səlahiyyətlərinin təzahür etməsinin nəticəsidir. Bütün inzibati məcburetmə tədbirlərinə dövlət hakimiyyət xarakteri xasdır.

2. İnzibati məcburetmənin tətbiq edilməsi üçün əsas bir qayda olaraq, inzibati xətanın törədilməsi və ya hüquqi normada nəzərdə tutulan xüsusi şəraitin yaranmasıdır. İnzibati məcburetmə tədbirləri bu və ya digər təhlükəli nəticələrin yaranmasını xəbərdar etmək üçün istifadə edilir (məsələn: epidemiya, epizootiya, təbii fəlakət və digər fövqəladə hallar).

3. İnzibati məcburetmə tədbirlərini tətbiq etməyə səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) dairəsi normativ-hüquqi aktlarla müəyyən edilir. Onlara aiddir: yerli icra hakimiyyəti, icra hakimiyyəti orqanları və digər dövlət idarəetmə orqanları və vəzifəli şəxslər və s. Beləliklə, inzibati məcburetmə onu tətbiq etməyə səlahiyyəti olan subyektlərin çoxluğu ilə xarakterizə edilir.

4. İnzibati məcburetmənin tətbiqi xidməti tabeçilik münasibətləri ilə bağlı deyil. Bu, sübut edir ki, inhzibati məcburetmə hüquq subyektlərinin geniş dairəsinə tətbiq edilə bilər.

5. İnzibati məcburetmə tədbirləri cinayət cəzalarından fərqli olaraq daha az həcmdə hüquqi məhdudiyyətləri nəzərdə tutur. Dövlət idarəetmə sahələrində tətbiq edildiyinə görə, onların tətbiqinin prosessual qaydası öz operativliyi, sadəliyi və qənaətliyi ilə fərqlənir.

6. Bəzi hallarda inzibati yurisdiksiyanın həyata keçirilməsi hüququ ilə hakimlər də təmin edilirlər. İnzibati tənbehlərin tətbiqi sahəsində onların fəaliyyəti əsl mənada ədalət mühakiməsi yox, inzibati prosesin bir hissəsidir, yəni onlar dövlət idarəetməsini həyata keçirirlər.

7. İnzibati məcburetmə bütün icra hakimiyyəti orqanları (vəzifəli şəxslər) tərəfindən yox, yalnız inzibati hakimiyyəti həyata keçirməyə səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər) tərəfindən tətbiq edilir. Bu xüsusiyyət onunla bağlıdır ki, inzibati məcburetmə tədbirləri səlahiyyətli icra hakimiyyəti orqanlarının (vəzifəli şəxslərin) bilavasitə tabeçiliyində olmayan şəxslərə qarşı tətbiq edilir.

8. İnzibati məcburetmə tədbirləri dövlət idarəetmə sahəsində ümumməcburi davranış qaydalarını formalaşdırır (məsələn, yol hərəkətinin təhlükəsizlik qaydaları, sanitar təhlükəsizliyinin təmin edliməsi və s.).

9. Bir qayda olaraq, inzibati məcburetmə tədbirləri dövlət idarəetmə sahəsində mühafizə funksiyalarını həyata keçirməyə səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər) tərəfindən tətbiq edilir.

10. Hüquq qaydasının pozulmasını müəyyən edərkən və ya öz qanuni tələblərinə qarşı müqavimətə rast gəldikdə, dövlət idarəetmə orqanlarının vəzifəli şəxsləri müstəqil surətdə və gecikməyə yol vermədən qanunazidd hərəkətlərin xəbərdar edilməsi və ya qarşısının alınması və inzibati xəta törədən şəxslərin cəzalandırılması üçün lazımi tədbirlər görməlidirlər. Deməli, inzibati məcburetmənin xüsusiyyəti törədilmiş hüquq pozuntusuna qarşı dərhal tətbiq edilməsindədir.

İnzibati məcburetmə hüquq qaydasının mühafizəsində əsas rol oynayır. Hüquqpozmalarla mübarizədə onun profilaktik əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır.

Bu, onunla izah edilir ki, daxili işlər orqanları, dövlət müfəttişlikləri və icraedici-sərəncamverici fəaliyyətinin digər subyektləri müvafiq qaydalara riayət olunmasına sistematik olaraq nəzarət edir və vaxtında hüquqpozmalara reaksiya verə bilərlər.

İnzibati məcburetməyə çoxlu sayda qarşısınıalma vasitələri daxildir (vətəndaşların inzibati qaydada tutulması, mexanizmlərin istismarının qadağan edilməsi və s.) ki, onların tətbiqi ictimai zərərli nəticələrin baş verməsinin qarşısını alır. Bir çox hallarda inzibati məcburetmə tədbirləri şüurunda cəmiyyətə zidd davranış möhkəmlənməyən və birinci dəfə təsadüfən hüquqpozma törədən şəxslərə qarşı tətbiq edilir. Buna görə bu tədbirlər tərbiyəedici təsir göstərməklə cinayətlərin profilaktikasında böyük yer tutur. Həyat inandırıcı şəkildə sübut edir ki, xırda pozuntuların cəzasızlığı, təqsirkarlara qarşı inzibati-hüquqi məcburetmə tədbirlərinin tətbiq edilməməsi yeni xətaların və cinayətlərin törədilməsi ehtimalını artırır.

İnzibati məcburetmə tədbirləri çoxsaylı və müxtəlifdir. Onlar tətbiq edilməsinin məqsədlərinə, əsaslarına və qaydasına görə fərqlənirlər. Bu da onların təsnifləşdirilməsi üçün əsas yaradır.

Bütün inzibati məcburetmə tədbirlərini aşağıdakı növlərə bölmək olar:

1. İnzibati xəbərdaretmə tədbirləri.

Onlar bir qayda olaraq xətaların yaranmadığı vaxtda təbtiq edilirlər, ola biləcək zərərli, arzuedilməz nəticələrin və ya hüquqpozmaların xəbərdar edilməsi vasitəsi kimi ictimai və dövlət maraqlarının, vətəndaşların təhlükəsizliyinin mühafizəsi məqsədilə həyata keçirilirlər. Bu tədbirlərin tətbiq edilməsi heç bir hüquqpozmaların törədilməsi ilə bağlı deyil. Onlar inzibati məhdudiyyətlər rolunda və ya müxtəlif inzibati qadağalar rolunda çıxış edirlər.

Bunlara aiddir:

- epidemiya və epizootiya zamanı karantinin tətbiq edilməsi;
- sərhəd sahələrinin bağlanması (məsələn: epidemiya yarandıqda);
- hərəkət təhlükəsizliyinə təhlükə yarandıqda, nəqliyyatın hərəkət etməsi üçün yolun və ya küçənin müəyyən hissələrinin bağlanması (məsələn: evlərin uçması, torpaq sürüşməsi və s.);
- mülki hava gəmilərinin sərnişinlərinin və onların əşyalarının yoxlanılması;
- şəxsiyyəti təsdiq edən sənədlərin yoxlanılması;
- nəqliyyat vasitələrinin texniki baxışı;
- ictimai yeyinti müəssisələrinin sanitar vəziyyətinin və orada işləyən şəxslərin məcburi tibbi müayinəsi;

2. İnzibati qarşısınıalma tədbirləri. Bu tədbirlərin tətbiq edilməsinin məqsədi baş vermiş və zamanda davam edən xətaların qarşısını almaqdır.

Bu tədbirlərin sırasına aiddir:

- gətirilmə;
- inzibati xəta törədən şəxsin inzibati qaydada tutulması;
- təhlükəli olan xəstələrin məcburi müayinəsi və müalicəsi;
- hüquqazidd hərəkətlərin dayandırılması tələbinə tabe olmadıqda bilavasitə fiziki qüvvənin tətbiqi;
- asayişi pozan kütləvi ixtişaşların və qrup halında olan zorakı hərəkətlərin qarşısını almaq məqsədi ilə xüsusi vasitələrin tətbiq edilməsi (rezin dəyənəklər, göz yaşardıcı qaz və s.);
- xüsusi hallarda odlu silahın təbtiq edilməsi;

- yoluxucu xəstəliyə yoluxmuş xəstələrin müvəqqəti olaraq işdən kənarlaşdırılması;
- texniki vəziyyəti müəyən olunmuş tələblərə cavab verməyən nəqliyyat vasitələrinin istismarının qadağan edilməsi;
- odlu ov silahlarının və döyüş sursatlarının götürülməsi (məsələn, şəxs sistematik ictimai qayda pozduqda, spirtli içkilərdən sui-istifadə etdikdə və ya onlar psixi xəstəliklərə tutulduqda);

3. Normal prosessual fəaliyyət üçün şərait yaratmaq məqsədilə tətbiq edilən inzibati-prosessual təminetmə tədbirləri. Onlara aiddir:
- gətirilmə;
- inzibati qaydada tutma;
- şəxsi axtarış, fiziki şəxsdə olan şeyləri yoxlama;
- nəqliyyat vasitəsinə baxış;
- şeyləri və sənədləri götürmə;
- nəqliyyat vasitəsini idarə olunmasından kənar etmə;
- sərxoşluq vəziyyətini müəyyən etmə;
- nəqliyyat vasitələrini saxlama və onların istismarını qadağan etmə.

4. İnzibati tənbehlər:
- xəbərdarlıq;
- inzibati cərimə;
- inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması;
- inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi;
- inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması;
- əcnəbilərin və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma;
- inzibati həbs.

5. Bərpaetmə tədbirləri ziyanın ödənilməsi və əşyaların əvvəlki vəziyyətinin bərpa edilməsi üçün tətbiq edilir. Onlara aiddir:
- maddi məsuliyyət tədbirləri (ziyanın ödənilməsi);
- özbaşına tikilmiş tikililərin sökülməsi;
- özbaşına tutulmuş yaşayış yerlərindən inzibati çıxartma;
- qanunsuz əldə olunmuş gəlirin təşkilatlardan alınması.

Müxtəlif dövlət məcburetmə tədbirləri tətbiq edildiyi şəxslərin azadlığını məhdudlaşdıran və onların hüquq və maraqlarına toxunan çox təsiredici vasitədir.

Onları düzgün istifadə olunmamasını istisna etmək üçün dövlət onların tətbiq edilməsini dəqiqliklə hüquqla nizamlayır və onları tətbiq etməyə səlahiyyəti olan şəxslərə lazımi təminatlar verir. Müxtəlif inzibati məcburetmə tədbirləri çoxlu sayda vətəndaş və təşkilatlara qarşı tətbiq edilir.

Məcburetmə tədbirlərinin tətbiqi qanunvericiliklə ciddi nizamlanır, xüsusən də odlu silahın tətbiqi, məcburi qaydada müalicə, inzibati qaydada tutma və s. İnzibati məcburetmə tədbirlərinin tətbiqi dövlətin nəzarəti altındadır.

Qeyd edildiyi kimi, inzibati məcburetmə tədbirlərini tətbiq etmək hüququ yalnız xüsusi səlahiyyətlər verilmiş dövlət idarəetmə orqanları (vəzifəli şəxslər) malikdir. Başqa

sözlə desək, bu orqanların dairəsi məhduddur. Bu isə məcburetmə tədbirlərinin tətbiqinə nəzarəti asanlaşdırır.

İnzibati xəbərdaretmə tədbirləri və inzibati qarşısınıalma tədbirləri əsasən, ictimai qaydanın və bütövlükdə, hüquq qaydalarının mühafizəsi ilə bağlıdır. Buna görə də onları əsasən daxili işlər orqanları və digər nəzarət – təftiş orqanları tətbiq edirlər. Onların həyata keçirilməsində böyük rol səhiyyə orqanlarına məxsusdur. Lakin, onlar da bu tədbirləri əsasən öz yoxlama-nəzarət funksiyalarının icrası zamanı tətbiq edirlər (sanitar nəzarəti və s.). İnzibati qaydada tutma kimi inzibati qarşısınıalma tədbirinin tətbiq edilməsi hüququ Azərbaycan Respublikasının İXM-nin 398-ci maddəsinə əsasən yalnız Daxili İşlər Orqanları, Dövlət sərhəddi xidməti, mühafizə olunan obyektin olduğu yerdə hərbiləşdirilmiş mühafizə dəstəsinin yuxarı vəzifəli şəxsinə, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə və fövqəladə vəziyyət elan olunmuş yerin komendantlığının və xüsusi idarəetmə orqanlarının vəzifəli şəxslərinə məxsusdur.

İnzibati tənbehləri tətbiq edən orqanların siyahısı Azərbaycan Respublikasının İXM-nin 357-ci maddəsində göstərilib. Bunlara aiddir: rayon (şəhər) məhkəmələri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, seçki komissiyaları, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları (vəzifəli şəxslər) və Azərbaycan Respublikasının Milli Bankı. Bu orqanların siyahısı ″Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsbiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikasının Qanununun təsdiq edilməsi barədə″ Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli Fərmanında göstərilib.

Bu fakt da əhəmiyyətlidir ki, qanun inzibati qaydada tətbiq edilə biləcək məcburetmə tədbirlərinin növlərini məhdudlaşdırır. Azərbaycan Respublikasının Konstitusiyasında əks edilmiş qanunçuluq prinsipinə uyğun olaraq dövlət idarəetmə orqanları yalnız qanuna əsasən və qanunvericilikdə nəzərdə tutulmuş hallarda inzibati məcburetmə tədbirlərini tətbiq edə bilərlər. İnzibati məcburetmə tədbirlərinin başqa formada tətbiqi qanunazidd sayılır. Qanunla müəyyən olunmuş qayda inzibati məcburetmə tədbirlərin tətbiq edliməsi zamanı qanunçuluğun təmin edilməsi böyük rol oynayır.

Barələrində inzibati məcburetmə tədbirləri tətbiq edilən vətəndaşlar və təşkilatlar şikayət vermək hüququna malikdirlər. Bəzi hallarda belə tədbirlərə görə şikayətlər birbaşa məhkəmələrə verilə bilər. Əksər hallarda inzibati məcburetmə tədbirlərinin tətbiq edilməsi barədə idarəetmə orqanının (vəzifəli şəxsin) hərəkətindən şikayət yalnız yuxarı orqana və ya vəzifəli şəxsə verilə bilər. Bu sahədə qanunçuluğun təmin olunmasının vacib vasitəsi – prokuror nəzarətidir. Prokurorluq məcburetmə tədbirlərin düzgün tətbiq edilməsinə, bütün orqanların fəaliyyətinə nəzarət edirlər.

Qanunçuluğun pozulması aşkar edildikdə, prokuror protest verə bilər, təqdimat yaza bilər və ya cinayət işinin başlanması barədə qərar qəbul edə bilər.

Daxili işlər orqanlarının fəaliyyətində inzibati məcburetmə

Daxili işlər orqanlarının fəaliyyətində, xüsusən də ictimai qaydanın mühafizəsi prosesində inzibati məcburetmə tədbirləri geniş tətbiq olunur. Məcburetmə tədbirlərinin tətbiqi daxili işlər orqanları əməkdaşlarının səlahiyyətlərinin dövlət hakimiyyət xarakterli olmasını əks etdirir. Daxili işlər orqanlarının və onların əməkdaşlarının məcburetmə

tədbirlərini tətbiq etmək üzrə səlahiyyətləri qanunlarla və digər normativ-hüquqi aktlarla müəyyən edilir.

İnzibati məcburetmə tədbirləri ictimai münasibətləri hüquqazidd qəsdlərdən qorumaq və hüquq qaydalarını kobudcasına pozan şəxsləri hüquq normalarına riayət etməyə məcbur etmək və onları məcburi olaraq hüquq qaydasına tabe etmək hüququna malikdirlər.

İctimai qaydanın mühafizəsi polis əməkdaşlarının hüquqpozmaya müstəqil və operativ reaksiya vermək və icazə verilən tədbirləri operativ istifadə etmək tələbini irəli sürür. İctimai qaydanın pozulması müəyyən edildikdə və ya öz qanuni tələblərinə qarşı müqavimətə rast gəldikdə polis əməkdaşları müstəqil surətdə və gecikmədən hüquqazidd hərəkətləri dayandırmaq və qarşısını almaq, inzibati xəta törətmiş şəxslərə qarşı inzibati məcburetmə tədbirlərini tətbiq etmək hüququna malikdirlər.

İctimai qaydanın mühafizəsinin xüsusiyyətlərini nəzərə alaraq, daxili işlər orqanların əməkdaşlarına inzibati məcburetmə tədbirlərini operativ tətbiq etmə üzrə səlahiyyətlər verilir. Qanunçuluğa riayət olunması, hüquq qaydalarının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiə edilməsi məqsədi ilə qanun və qanunqüvvəli aktlarda konkret inzibati məcburetmə tədbirlərinin tətbiq edilməsinin əsasları və qaydaları müəyyən edilib.

İnzibati məcburetmə tədbirlərinin məzmunu şəxsə hər hansı mənəvi, maddi və ya fiziki ziyanın vurulmasından, onun şəxsi və əmlak hüquqlarının mədudlaşdırılmasından ibarətdir. Məcburetmənin bu xüsusiyyəti bir sıra məqsədlərə nail olmaq üçün istifadə edilir. Hər şeydən əvvəl, DİO-nun əməkdaşları ola biləcək hüquqpozmaların və cəmiyyət üçün təhlükəli nəticələrinin yaranmasını xəbərdar etmək üçün vətəndaşlara qarşı inzibati məcburetməni tətbiq edirlər. Belə ki, hüquqpozmanı həmişə xəbərdar etmək mümkün olmasa da polis əməkdaşları baş vermiş hüquqazidd hərəkətlərin qarşısını almaq üçün inzibati məcburetmə tədbirlərini tətbiq edirlər.

Polis əməkdaşları ictimai qaylanı qoruyarkən aşağıdakı inzibati məcburetmə tədbirlərindən istifadə edirlər:

- sənədlərin yoxlanması;
- vətəndaşların yaşayış yerlərinə daxil olmaq;
- nəqliyyatın və piyadaların hərəkətinin dayandırılması və məhdudlaşdırılması;
- nəqliyyat vasitələrindən xidməti məqsədlər üçün istifadə etmək;
- yoxlama.

Polis əməkdaşları tərəfindən tətbiq edilən inzibati qarşısınıalma tədbirləri qrupunda adi və xüsusi tədbirləri ayırmaq olar.

a) adi tədbirlərə aiddir:

- vətəndaşların inzibati qaydada tutulması;
- texniki vəziyyəti hərəkət təhlükəsizliyinə təhlükə yaradan və ətraf mühitə ziyan vuran avtonəqliyyatın istismarının qadağan edilməsi;
- icazə vermə sistemi obyektlərinin işini dayandırmaq;
- daxili işlər orqanlarına gətirmə və s.

b) xüsusi tədbirlərə aiddir: silahın, fiziki qüvvənin, əl qandallarının tətbiq edilməsi. Onlar qanunvericiliklə xüsusi ilə nəzərdə tutulmuş hallarda və xüsusilə təhlükəli hərəkətlərin qarşısını almaq üçün tətbiq edilir.

Hüquqpozanları məsuliyyətə cəlb edərkən, polis əməkdaşları inzibati-prosessual təminetmə tədbirlərini tətbiq edirlər. Məsələn: gətirilmə, inzibati qaydada tutma, fiziki

şəxsdə olan şeyləri yoxlama, nəqliyyat vasitəsinə baxış, şeyləri və sənədləri götürmə, nəqliyyat vasitəsini idarə olunmasından kənar etmə, sərxoşluq vəziyyətini müayinə etmə, nəqliyyat vasitələrini saxlama və onların istismarını qadağan etmə.

İnzibati tənbeh kimi daxili işlər orqanları xəbərdarlıq, nəqliyyat vasitələrinin idarə edilməsi hüququnun məhdudlaşdırılması, inzibati cərimələri və əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edə bilərlər.

Bununla belə, daxili işlər orqanları digər dövlət orqanları tərəfindən tətbiq edilən inzibati tənbehlərin tətbiq edlməsi haqqında qərarları icra edirlər (məsələn: inzibati həbs və s.).

İkinci suala yekun olaraq bir daha qeyd etmək istərdim ki:

1. İnzibati məcburetmə dövlət məcburetməsinin xüsusi növü olaraq, funksional hakimiyyətin subyektləri tərəfindən inzibati xətalarla əlaqədar, inzibati hüquq normaları əsasında tətbiq olunan məcburetmə tədbirlərinin tətbiqindən ibarətdir.

2. İnzibati məcburetmə tədbirləri çoxsaylı və müxtəlifdir. Onlar tətbiq edilməsinin məqsədlərinə, əsaslarına və qaydasına görə fərqlənirlər. Bu da onların təsnifləşdirilməsi üçün əsas yaradır.

3. İnzibati məcburetmə tədbirləri aşağıdakı növlərə bölünürlər:

- inzibati xəbərdaretmə tədbirləri;
- inzibati qarşısınıalma tədbirləri;
- inzibati-prosessual təminetmə tədbirləri;
- inzibati tənbehlər;
- inzibati bərpaetmə tədbirləri.

4. Polis əməkdaşları tərəfindən tətbiq edilən inzibati qarşısınıalma tədbirləri qrupunda adi və xüsusi tədbirləri ayırmaq olar.

a) adi tədbirlərə aiddir:

- vətəndaşların inzibati qaydada tutulması;
- texniki vəziyyəti hərəkət təhlükəsizliyinə təhlükə yaradan və ətraf mühitə ziyan vuran avtonəqliyyatın istismarının qadağan edilməsi;
- icazə vermə sistemi obyektlərinin işini dayandırmaq;
- daxili işlər orqanlarına gətirmə və s.

b) xüsusi tədbirlərə aiddir: silahın, fiziki qüvvənin, əl qandallarının tətbiq edilməsi. Onlar qanunvericiliklə xüsusi ilə nəzərdə tutulmuş hallarda və xüsusilə təhlükəli hərəkətlərin qarşısını almaq üçün tətbiq edilir.

Sual 3.
Xüsusi inzibati-hüquqi rejimlərin anlayışı, mahiyyəti və növləri

Həyatda icra hakimiyyəti orqanların fəaliyyəti sahəsində yaranan və inzibati-hüquqi normalar ilə nizamasalınan ictimai münasibətlərin dəyişməsi hallarından qaçmaq olmaz. Belə dəyişikliklər icra hakimiyyəti orqanları üçün gözlənilən və gözlənilməz, az əhəmiyyətli və əhəmiyyətli, mənfi və müsbət ola bilərlər.

Əgər baş verən dəyişikliklər cəmiyyət üçün müsbət və əhəmiyyətli xarakter daşıyırlarsa, onda icra hakimiyyəti orqanların bu şəraitdə fəaliyyəti belə dəyişikliklərin dəstəklənməsinə və inkişafına yönəlməlidir.

Və əksinə, baş verən (vermiş) dəyişikliklər cəmiyyət üçün mənfi və qeyri-adi xarakter daşıyırlarsa, onda icra hakimiyyəti orqanların fəaliyyəti bu cür dəyişikliklərin qarşısının alınmasına yönəlməlidir və yaranmış vəziyyətin tezliklə normallaşdırılması vəzifəsi yaranır. Əgər bu dəyişikliklər nəzarət edilməz xarakter alırlarsa və adi tədbirlərlə onların qarşısının alınması mümkün deyilsə, belə hallarda icra hakimiyyəti orqanları tərəfindən adi dövlət idarəetmə təsir tədbirlərindən əsaslı surətdə fərqlənən xüsusi dövlət idarəetmə tədbirlərindən istifadə edirlər.

Cəmiyyətin inkişafı özü-özlüyündə mürəkkəb və ziddiyyətli prosesdir. Bizim cəmiyyətin həyat fəaliyyətinin müəyyən mərhələlərində təbiət və cəmiyyət arasındakı ziddiyyətlərin artması və kəskinləşməsi baş verir. Öz növbəsində bu da etnik və sosial, siyasi və hərbi toqquşmaların, ekoloji fəlakətlərin, iri miqyaslı sənaye qəzaların və s. yaranmasına gətirir. Fövqəladə vəziyyət insanların həyat və sağlamlığı üçün təhlükə yaradır, külli miqdarda maddi və mənəvi dəyərlərin məhv edilməsi üçün şərait yaradır.

Fövqəladə vəziyyət dedikdə şəxsiyyətin, cəmiyyətin və dövlətin əsas həyati maraqlarına, təhlükəsizliyinə təhlükə yaradan və özünün nizama salınması üçün adi şəraitdə tətbiq edilənlərdən fərqli olaraq, başqa normativ təsiri, başqa idarəetmə sistemini tələb edən, cəmiyyət üçün təhlükəli olan amillərin məcmusudur.

Yaranmış fövqəladə vəziyyətin aradan qaldırılması durmadan müxtəlif tədbirlərin, ən əvvəl isə hüquqi, təşkilati, iqtisadi, maddi texniki tədbirlərin görülməsini tələb edir.

Bu tədbirlərin məcmusu xüsusi inzibati-hüquqi rejimlərin anlayışını aşağıdakı kimi xarakterizə edirlər.

Beləliklə, xüsusi inzibati-hüquqi rejim dedikdə, dövlət idarəetməsinin müvafiq sahələrində mənfi halların (hadisələrin) aradan qaldırılmasına yönəlmiş və inzibati-hüquqi normaların əsasında icra hakimiyyəti orqanların xüsusi qaydada fəaliyyət göstərmələri başa düşülür.

Xüsusi inzibati-hüquqi rejimlərin tətbiq edilməsinin zəruriliyi – məcburi tədbirdir və icra hakimiyyəti orqanlarının fəaliyyətinin xüsusi hallarına aid edilir.

Hüquq normaların yenidən qurulmasına səbəb olan hüquqi rejimləri fövqəladə rejimlər adlandırmaq olar. Onlar inzibati-hüquqi rejimin əsasında fərdi nizamlama qurğunu qurarkən inzibati hüquqda qadağanlara və hakimiyyət-məcburetmə tədbirlərinə aid olan nə varsa hamısını ″sıxıb çıxarır″. Şəraitin stabilləşməsi üçün göstərişlərə sözsüz əməl edilməsi, bütün subyektlərin maksimal dərəcədə bir-birinə tabe olunması tələb edilir.

Fövqəladə rejimlər – fövqəladə vəziyyət yaranan ərazidə əhalinin həyatı, sahibkarlığın və hakimiyyət orqanlarının fəaliyyətinin həyata keçirilməsinin xüsusi hüquqi rejimləridir. Onların əsas məzmunu ərazidə fəaliyyət göstərən subyektlərin hüquqi statusunu dəyişdirməkdən, vəziyyətin nizama salınması üçün müxtəlif tədbirlərin tətbiq edilməsindən ibarətdir.

Bu və ya digər fövqəladə rejimin seçilməsi yaranmış vəziyyətin gərginliyindən və kəskinliyindən asılıdır. Bu zaman aşağıdakı amilləri nəzərə almaq lazımdır:

- təhlükəsizliyə doğru yönəlmiş təhlükənin gərginlik dərəcəsi;
- fövqəladə proseslərin vaxt amili;
- əhatə miqyası;

- ictimai həyatın müxtəlif sahələrinə təhlükənin göstərdiyi təsir;
- nəticələrin müxtəlifliyi, onların zəncirvari xüsusiyyəti.

Səlahiyyətli orqan fövqəladə vəziyyəti qiymətləndirərkən vəziyyətin stabilliyini, təhlükənin aradan qaldırılmasını və normal həyat fəaliyyətinin bərpa olunmasını təmin edə bilən hüquqi alətlər seçməlidir.

İnzibati-hüquqi rejim – hüquqi təsir etmənin imperativ metodu vasitəsilə ifadə olunan inzibati-hüquqi nizamlama vasitələrinin məcmusudur. Bu zaman hüquq münasibətlərinin subyektləri müxtəlif hüquqi statusa malikdirlər. Hüquqi təsir isə ″hakimiyyət – tabeçilik″ əsasında həyata keçirilir. Bu zaman hüquqi göstərişlər hakimiyyət səlahiyyətinə malik olan subyekt tərəfindən verilir və bununla da subordinasiya və tabeçilik münasibətləri yaranır.

Müxtəlif inzibati-hüquqi rejimlərin fəaliyyətinə gəldikdə isə, onlar bir-birindən fərqlənə bilər. Bu isə müxtəlif sayda qadağanların, öhdəliklərin və ya imtiyaz və icazələr sisteminin mövcudluğunda ifadə olunur. Onlar vətəndaşların və təşkilatların subyektiv hüquqlarının realizəsi imkanlarının istifadə olunması azadlığın həcmi ilə, vətəndaşların və təşkilatların konstitusion statusundakı dəyişikliklərin dərinliyi ilə, dövlət idarəetmə orqanların funksional vəzifələrin sayı ilə, tətbiqinin vaxtı, ərazisi və sair ilə fərqlənirlər.

İnzibati-hüquqi rejim – vətəndaşların və hüquqi şəxslərin qanunvericilik qaydasında müəyyən edilmiş fəaliyyətləri, hərəkət və ya davranışları qaydalarının məcmusu, həmçinin də müəyyən şəraitdə (vəziyyətdə) onlar tərəfindən öz hüquqlarının həyata keçirilməsi qaydası və dövlətin müdafiəsi və suverenliyinin, təhlükəsizlik maraqlarının və ictimai qaydanın qorunmasının təmin edilməsi və mühafizə edilməsi məqsədi ilə xüsusi yaradılmış dövlət idarəetmə orqanlarının fəaliyyətidir.

İnzibati-hüquqi rejimlərin aşağıdakı növləri mövcuddur:

1. Dövlət əhəmiyyətli rejimlər:
- ölkənin müdafiə rejimi;
- ölkənin səfərbərlik sisteminin təmin edilməsi rejimi;
- hərbi vəziyyət recimi;
- dövlət sərhəddinin mühafizəsi rejmi;
- fövqəladə vəziyyət rejimi;
- gömrük rejimi;
- məxfiçilik rejimi.
2. Ərazi meyarlarına görə:
- ümumdövlət miqyasında;
- inzibati ərazi vahidi miqyasında;
- ekoloji fəlakət zonası.
3. Nizamlama predmetinə görə:
- fəaliyyət növünün rejimi;
- ayrı-ayrı obyektlərin rejimi;
- müxtəlif sənədlərin rejimi.
4. Zamanda təsirinə görə:
- daimi;
- müvəqqəti (vəziyyətlə əlaqədar olaraq);
- ekstremal şərait ilə əlaqədar tətbiq edilən recimlər;

İnzibati-hüquqi rejimlərin yaradılmasında və həyata keçirilməsində aşağıdakılar böyük rol oynayır:

- normativ-hüquqi əsaslar;
- təşkilati tədbirlər;
- maddi-texniki tədbirlər.

Normativ-hüquqi əsaslar dedikdə müxtəlif qanun və qanunqüvvəli aktlar nəzərdə tutulur ki, onlara əsaslanaraq icra hakimiyyəti orqanları inzibati-hüquqi rejimlərin tətbiqinə dair qərar qəbul edirlər. Məsələn: Azərbaycan Respublikası Prezidenti qanuna əsaslanaraq fövqəladə vəziyyətin tətbiq edilməsi barədə Fərman verir. Öz növbəsində yaradılmış müvəqqəti idarəetmə orqanı qanun və fərmanı rəhbər tutaraq komendant saatını tətbiq edir.

Təşkilati tədbirlərə isə yeni strukturların yaradılmasını, oybektlərin fəaliyyəti barədə məlumatların toplanmasını və onların emalını, rejimin fəaliyyətini təmin edən subyektlərin qarşılıqlı fəaliyyətlərinin kompleks proqramlarının hazırlanmasını və s. aid etmək olar.

Maddi-texniki tədbirlərə isə müxtəlif iqtisadi və maddi-texniki məsələlərin həllini aid etmək olar. Məsələn, xilas və təmir işlərinin aparılması, zərərçəkənlərə yardımın göstərilməsi, xüsusi yardım və maliyyə fondların yaradılması, rejimin fəaliyyətini təmin edən qüvvə və vasitələrin hazırlanması və s.

Azərbaycan Respublikasının Konstitusiyasında iki xüsusi inzibati-hüquqi rejim barədə xüsusi maddələr mövcuddur:

- hərbi vəziyyət rejimi;
- fövqəladə vəziyyət rejimi.

Bu rejimlərin hər birini ayrı-ayrılıqda açıqlamaq istərdim:

Hərbi vəziyyət rejimi

Hərbi vəziyyət rejiminin hüquqi əsaslarına Azərbaycan Respublikasının 111-ci maddəsini və ″Hərbi vəziyyət haqqında″ Azərbaycan Respublikasının 06 yanvar 1994-cü il tarixli Qanununu aid etmək olar.

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının digər qanunlarına və beynəlxalq öhdəliklərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində hərbi vəziyyətin tətbiq edilməsinin əsaslarını, qaydasını və hüquqi nəticələrini müəyyənləşdirir.

Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin tətbiq edilməsi üçün aşağıdakılar əsas ola bilər:

1) Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında müharibə vəziyyətinin elan olunması;
2) Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsinin olması;
3) Azərbaycan Respublikası ərazisinin, yaxud onun ayrı-ayrı yerlərinin xarici dövlət və ya dövlətlər tərəfindən qurudan, sudan və havadan blokadası, havadan belə blokada üçün real təhlükənin olması;
4) xarici dövlətin və ya dövlətlərin Azərbaycan Respublikasına müharibə elan etməsi;
5) Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsinin faktiki işğalı.

Hərbi vəziyyət Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tətbiq edilir.

Azərbaycan Respublikasının Milli Məclisi işlədiyi dövrdə Azərbaycan Respublikasının Prezidenti hərbi vəziyyətin tətbiq edilməsi haqqında fərmanı dərhal Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir. Azərbaycan Respublikasının Milli Məclisi 24 saat ərzində bu məsələyə dair qərar qəbul edir.

Azərbaycan Respublikası Milli Məclisinin iclasları arasındakı dövrdə hərbi vəziyyət tətbiq edilərsə, Azərbaycan Respublikası Milli Məclisinin sədri dərhal Azərbaycan Respublikası Milli Məclisinin iclasını çağırır. İclasda bu məsələyə dair qərar Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının Azərbaycan Respublikası Milli Məclisinə təqdim edildiyi andan ən çoxu 72 saat keçənədək qəbul edilir.

Hərbi vəziyyətin tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı barədə qərar Azərbaycan Respublikası Milli Məclisi deputatlarının tərkibinin azı üçdə ikisindən ibarət səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikası Prezidentinin hərbi vəziyyət tətbiq edilməsi haqqında fərmanı Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edilməzsə, həmin fərman dərhal qüvvədən düşür.

Hərbi vəziyyətin tətbiqi halları aradan qaldırıldıqda və yaxud müharibə aparan dövlət və ya dövlətlərlə sülh müqaviləsi bağlandıqda Azərbaycan Respublikasının Milli Məclisi öz təşəbbüsü və ya Azərbaycan Respublikası Prezidentinin təklifi ilə hərbi vəziyyəti dərhal ləğv edir.

Hərbi vəziyyətin tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı qüvvəyə minməsinə azı 6 saat qalmış kütləvi informasiya vasitələri ilə, bu mümkün deyilsə başqa üsullarla yayılır.

Əhalinin həyatının və təhlükəsizliyinin qorunması üçün təxirəsalınmaz tədbirlər görülməsi tələb olunduğu hallarda hərbi vəziyyətin tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanının yayılması vaxtı Azərbaycan Respublikası Prezidenti tərəfindən dəyişdirilə bilər.

Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət tətbiq edilən dövrdə Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, başqa seçkili dövlət orqanlarının, habelə ayrı-ayrı yerlərdə hərbi vəziyyət tətbiq edilən dövrdə həmin ərazinin seçkili dövlət orqanlarının səlahiyyət müddətləri başa çatdıqda onlar öz səlahiyyətlərini hərbi vəziyyət ləğv edildikdən sonra Azərbaycan Respublikasının müvafiq qanunlarında nəzərdə tutulmuş qaydada seçkilər keçirilənədək davam etdirirlər.

Hərbi vəziyyət elan olunan gündən və ya hərbi vəziyyət qurtardıqdan sonra üç ay ərzində referendum təyin edilə və keçirilə bilməz.

Hərbi vəziyyət elan olunduqda referenduma çıxarılmış məsələnin müzakirəsi dayandırılır və təyin edilmiş referendum başqa vaxta keçirilir.

Hərbi vəziyyətin tətbiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanında aşağıdakılar göstərilməlidir:

a) hərbi vəziyyətin tətbiq edilməsinin əsasları;

b) hərbi vəziyyət tədbirlərinin siyahısı və hədləri;

c) hüquq və azadlıqların müvəqqəti məhdudiyyətlərinin tam siyahısı;

ç) hərbi vəziyyət tədbirlərinin həyata keçirilməsi üçün cavabdeh olan dövlət orqanları və onların səlahiyyətləri;

d) hərbi vəziyyət tətbiq olunan ərazinin sərhədləri;

e) fərmanın qüvvəyə minməsi vaxtı.

Hərbi vəziyyətin tətbiqi ilə bağlı nəzərdə tutulan tədbirlər yaranmış vəziyyətin kəskinliyindən irəli gələn hüdudlar daxilində həyata keçirilməli və Azərbaycan Respublikasının qüvvədə olan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə zidd olmamalıdır.

Hərbi vəziyyətin tətbiqi ilə bağlı həyata keçirilən tədbirlər beynəlxalq hüquqda qəbul edilmiş yaşamaq hüququnu, fikir, vicdan və din azadlıqlarını, hüquq subyektliyini məhdudlaşdıra bilməz və işgəncələrin tətbiq edilməsinin, köləliyin və qul alverinin yalnız hər hansı müqavilə öhdəliyinin yerinə yetirilməsinə görə azadlıqdan məhrum edilmənin, ayrı-ayrı şəxslərə və ya əhali qruplarına qarşı yalnız irqinə, milliyətinə, cinsinə, dilinə, siyasi əqidəsinə və ya sosial mənşəyinə görə hər hansı ayrı-seçkiliyin qadağan olunmasını və əmələ görə cəza müəyyən edən və ya cəzanı ağırlaşdıran qanunun geriyə qüvvəsinin tətbiqinin yolverilməzliyini aradan qaldıra bilməz.

Hərbi vəziyyət tətbiq edilmiş yerlərdə müdafiə, ictimai asayiş və dövlət təhlükəsizliyi ilə əlaqədar yerli icra və nümayəndəli dövlət orqanlarının səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi əsasında hərbi komandanlıq tərəfindən həyata keçirilir.

Daxili işlər və milli təhlükəsizlik orqanlarının hərbi vəziyyət elan edilmiş ərazilərdə yerləşən qüvvələri həmin ərazinin hərbi komandanlığının tabeliyinə keçir.

Hərbi vəziyyət elan olunduqdan sonra səfərbərlik planlarına müvafiq olaraq silahlı qüvvələrin hazırlıq vəziyyətinə gətirilməsi və ölkə iqtisadiyyatının və ya onun müəyyən hissələrinin hərbi vəziyyətə keçirilməsi üçün ümumi və ya qismən səfərbərlik elan olunur.

Səfərbərlik keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilir.

Hərbi vəziyyət dövründə dövlət müstəqilliyini, ərazi bütövlüyünü və əhalinin təcavüzdən qorunmasını təmin etmək məqsədilə konkret şəraitin kəskinliyi nəzərə alınaraq Azərbaycan Respublikası Prezidentinin Fərmanında aşağıdakı tədbirlər nəzərdə tutula bilər:

1) hərəkət sərbəstliyinin məhdudlaşdırılması:

a) günün müəyyən edilmiş vaxtlarında xüsusi icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədlər olmadan küçələrdə və başqa ictimai yerlərdə olmağın qadağan edilməsi;

b) xüsusi icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədlər olmadıqda hərbi vəziyyət elan edilən yerlərdə olmağın qadağan edilməsi;

c) hərbi vəziyyət tətbiq edilən əraziyə, habelə hərbi əməliyyatlar bölgəsinə gediş-gəlişin xüsusi qaydaları;

ç) əhalinin və hüquqi şəxslərin hərbi əməliyyat bölgəsindən evakuasiyası;

d) Azərbaycan Respublikasına gəlmə və Azərbaycan Respublikasından getmənin xüsusi qaydalarının müəyyən edilməsi;

2) kütləvi informasiya azadlığının məhdudlaşdırılması:

a) senzuranın tətbiq edilməsi;

b) kütləvi informasiya vasitələrinin fəaliyyətinin dayandırılması haqqında müvafiq orqanlara təqdimatlar verilməsi;

c) hərbi vəziyyət tətbiq edilmiş ərazidə, hərbi əməliyyatlar bölgəsində, cəbhə boyu zolaqda kütləvi informasiya vasitəsi məhsullarının yoxlanılması;

ç) hərbi komandanlığın və müvafiq dövlət orqanlarının nümayəndələrinə hərbi vəziyyətin ehtiyacları üçün kütləvi informasiya vasitələrindən istifadə etməkdə üstünlük hüququnun verilməsi;

3) əmək hüquqlarının məhdudlaşdırılması:

a) qüvvədə olan qanunvericiliyə uyğun olaraq əhalinin müdafiə işlərinə, yolların və vacib obyektlərin mühafizəsinin həyata keçirilməsinə, yanğın, epidemiya və başqa fəlakətlərlə mübarizə işində iştirak etməyə cəlb edilməsi;

b) müdafiə ehtiyaclarının yerinə yetirilməsini təmin etmək məqsədilə mülkiyyət formasından asılı olmayaraq istənilən müəssisələrdə işçilərin iş vaxtından artıq işə cəlb olunması, növbəti məzuniyyətlərin pul ilə əvəz etməklə başqa vaxta keçirilməsi, əmək müqaviləsinin bağlanması və xitam edilməsi;

c) tətillərin qadağan olunması;

4) mülkiyyət toxunulmazlığı hüququnun məhdudlaşdırılması:

a) mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrin, idarələrin və təşkilatların ehtiyatlarının hərbi vəziyyətin ehtiyacları üçün səfərbərliyə alınması. Onların iş reciminin dəyişdirilməsi, fəaliyyətinin zəruri məhsulların istehsalına yönəldilməsi;

b) xüsusi və kollektiv mülkiyyətdə olan nəqliyyat və qoşqu vasitələrinin müəyyən edilmiş qaydada əvəzi ödənilməklə, dövlət mülkiyyətində olan nəqliyyat və qoşqu vasitələrinin əvəzsiz olaraq hərbi vəziyyətin ehtiyacları üçün alınması;

5) mülkiyyət formasından asılı olmayaraq ticarət, ictimai iaşə və kommunal xidməti müəssisələrinin, kinoteatrların, teatrların, mədəniyyət evlərinin və başqa xidmət təşkilatlarının iş reciminin dəyişdirilməsi;

6) ərzaq və sənaye məhsullarının norma ilə buraxılması yaxud ticarətin xüsusi qaydalarının müəyyən edilməsi;

7) əhalinin mülki müdafiə hazırlığı ilə əlaqədar məcburi tədbirlərin həyata keçirilməsi;

8) təhsil müəssisələrinin fəaliyyətinin yeni reciminin müəyyən edilməsi, yaxud dayandırılması;

9) dövlət orqanlarına, siyasi partiyalara, həmkarlar ittifaqlarına və ictimai birliklərə məxsus bina və otaqların, nəqliyyat vasitələrinin yoxlanılması, təhlükəsizlik baxımından zərərli hesab edilən əşyaların müvəqqəti alınması;

10) yığıncaqlar, mitinqlər, küçə yürüşləri və nümayişləri, habelə başqa kütləvi tədbirlərin keçirilməsinin qadağan edilməsi;

11) hərbi vəziyyət şəraitində müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyaların, həmkarlar ittifaqlarının və ictimai birliklərin fəaliyyətinin dayandırılması haqqında müvafiq orqanlara təqdimatlar verilməsi.

Hərbi vəziyyət dövründə Azərbaycan Respublikası Milli Məclisi öz reqlamentinə uyğun olaraq iclaslarını davam etdirir.

Hərbi vəziyyət rejiminin pozulması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş cinayət, inzibati, intizam və maddi məsuliyyətə səbəb olur.

Hərbi vəziyyət ləğv olunduqda hərbi vəziyyəti təmin edən aktlar hərbi vəziyyətin qurtarması ilə bir vaxtda əlavə məlumat verilmədən qüvvədən düşür.

Hərbi vəziyyət ləğv edildikdə hərbi vəziyyət qaydasının pozulmasına dair işlərin icraatı xitam olunur və hərbi vəziyyət qaydasının pozulması üstündə inzibati qaydada həbs edilən şəxslər dərhal azad edilir.

Hərbi vəziyyət təbtiq edilən dövrdə Azərbaycan Respublikası Konstitusiyasının 163-cü maddəsinə uyğun olaraq təsis edilən bütün məhkəmələr fəaliyyətlərini davam etdirirlər.

Bütün məhkəmələrdə mühakimə icraatı Azərbaycan Respublikasının hərbi vəziyyət tətbiq edilən vaxt qüvvədə olan qanunlarına uyğun aparılır.

Hər hansı fövqəladə məhkəmə formalarının və növlərinin təsis edilməsi, mühakimə icraatının sürətləndirilmiş və ya fövqəladə növlərindən və formalarından istifadə olunması qadağandır.

Hərbi vəziyyətin tətbiq edildiyi dövrdə Azərbaycan Respublikasının prokurorluq orqanları Azərbaycan Respublikasının qanunverciliyi ilə müəyyən edilmiş qaydada fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti hərbi vəziyyət dövründə vətəndaşların hüquq və azadlıqlarının vətəndaş hüquqları və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda nəzərdə tutulan öhdəliklərdən kənara çıxan məhdudiyyətləri, bu məhdudiyyətlərin həcmi və belə qərarın səbəbləri haqqında Birləşmiş Millətlər Təşkilatının Baş katibinə üç gün müddətində məlumat verilməsi üçün tədbirlər görür.

Fövqəladə vəziyyət rejimi

Fövqəladə vəziyyət rejiminin hüquqi əsaslarına Azərbaycan Respublikasının Konstitusiyasının 112-ci maddəsini və ″Fövqəladə vəziyyət haqqında″ Azərbaycan Respublikasının 04 fevral 1992-ci il tarixli Qanununu aid etmək olar.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasının müdafiəsi və onun vətəndaşlarının təhlükəsizliyi üçün Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərində müvəqqəti olaraq fövqəladə vəziyyət tətbiq edilə bilər.

Fövqəladə vəziyyət dövlət hakimiyyəti və idarəetmə orqanlarının, vətəndaşların ictimai birliklərinin, müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətinin elə bir xüsusi hüquqi recimidir ki, bu, vətəndaşların hüquq və azadlıqlarının, hüquqi şəxslərin hüquqlarının qanun ilə müəyyən edilən məhdudiyyətlərinə, habelə onlara əlavə vəzifələr tapşırılmasına yol verir.

Fövqəladə vəziyyət tətbiq edilməsinin məqsədi şəraiti tezliklə normallaşdırmaq, vətəndaşların hüquq və azadlıqlarını, qanunçuluğu və hüquq qaydasını bərpa etmək, təbii fəlakətlərin, ekoloci və bəşqa qəzaların nəticələrini aradan qaldırmaqdır.

Fövqəladə vəziyyətin tətbiq edilməsi üçün aşağıdakılar əsas ola bilər:

a) təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloci və başqa qəzalar;

b) Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, onun Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəldilən hərəkətlər, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən millətlərarası münaqişələr.

Fövqəladə vəziyyət yalnız ″Fövqəladə vəziyyət haqqında″ Azərbaycan Respublikasının Qanununda göstərilən hallar respublikanın vətəndaşlarının və ya Konstitusiya quruluşunun təhlükəsizliyi üçün real, fövqəladə, labüd təhlükə doğurduqda bu təhlükəni fövqəladə tədbirlər görmədən aradan qaldırmaq mümkün olmadıqda tətbiq edilir.

Azərbaycan Respublikasnın bütün ərazisində və ya ayrı-ayrı yerlərində fövqəladə vəziyyət Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tətbiq edilir. Azərbaycan Respublikası Milli Məclisi sessiyasının işlədiyi dövrdə Azərbaycan Respublikası Prezidenti fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərmanı imzalayan kimi dərhal Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir. Azərbaycan Respublikası Milli Məclisi 24 saat ərzində bu məsələyə dair qərar qəbul edir.

Azərbaycan Respublikası Milli Məclisinin sessiyaları arasındakı dövrdə fövqəladə vəziyyət tətbiq edildikdə Azərbaycan Respublikası Milli Məclisinin sədri dərhal Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasını çağırır. Sessiyada bu məsələyə dair

qərar Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanını imzaladığı andan 72 saat keçənədək qəbul edilir.

Fövqəladə vəziyyətin tətbiq edilməsi məsələsinə dair qərar Azərbaycan Respublikası Milli Məclisinin tərkibinin azı üçdə ikisindən ibarət çoxluqda qəbul edilir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, onun Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəldilən hərəkətlər, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən millətlərarası münaqişələrə görə fövqəladə vəziyyət tətbiq edilməzdən əvvəl Azərbaycan Respublikası Prezidenti fövqəladə vəziyyətin tətbiqinə əsas verən hərəkətlərin təşəbbüsçü və ya iştirakçısı olan şəxslərə, təşkilatlara, idarələrə xəbərdarlıqla müraciət etməli, müraciətdə müəyyən olunan müddətdə hüquqa zidd hərəkətləri dayandırmağı onlardan tələb etməlidir.

Həmin şəxslər, təşkilatlar və idarələr müraciətə tabe olmayıb, hüquqa zidd hərəkətləri davam etdirdikdə, göstərilən müddət başa çatan kimi fövqəladə vəziyyət tətbiq edilir.

Əhalinin həyatının və təhlükəsizliyinin qorunması üçün təxirəsalınmaz tədbirlər görülməsi tələb olunduğu hallarda fövqəladə vəziyyət xəbərdarlıq edilmədən dərhal tətbiq edilə bilər. Azərbaycan Respublikası Prezidentinin bu barədə olan fərmanı Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verilir.

Fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərmanda aşağıkılar göstərilməlidir:

a) fövqəladə vəziyyətin tətbiq edilməsinin səbəbləri;

b) fövqəladə tədbirlərin siyahısı və hədləri, vətəndaşların hüquq və azadlıqlarının müvəqqəti məhdudiyyətlərinin tam siyahısı;

c) fövqəladə vəziyyət tədbirlərinin həyata keçirilməsi üçün cavabdeh olan dövlət orqanları və onların fövqəladə səlahiyyətlərinin dəqiq hədləri;

ç) fövqəladə vəziyyətin qüvvədə olduğu ərazinin sərhədləri;

d) fərmanın qüvvəyə minməsi vaxtı, habelə fövqəladə vəziyyətin tətbiq olunduğu müddət.

Əhalinin həyatının və təhlükəsizliyinin qorunması üçün təxsirəsalınmaz tədbirlər görülməsi tələb olunduğu hallar istisna olmaqla, fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərman qüvvəyə minməsinə azı 6 saat qalmış kütləvi informasiya vasitələri ilə elan olunur.

Fövqəladə vəziyyətin tətbiq edlməsi haqqında fərman qanunla müəyyən edilən qaydada və müddətdə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə təsdiq edilmədikdə qüvvədən düşür və kütləvi informasiya vasitələrində müvafiq ərazinin əhalisinə bu barədə dərhal məlumat verilir.

Fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərmanla fövqəladə vəziyyətin müddəti 60 gündən çox ola bilməz.

Bu müddət başa çatdıqda fövqəladə vəziyyət Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə ləğv edilir, yaxud Milli Məclis müəyyən etdiyi müddətə Azərbaycan Respublikası Milli Məclisinin tərkibinin ümumi sayının səs çoxluğu ilə uzadılır.

Fövqəladə vəziyyət tətbiq edilərkən Azərbaycan Respublikası Milli Məclisinin sessiyası fövqəladə vəziyyətin qüvvədə olduğu bütün müddət ərzində öz iclaslarını davam etdirir.

Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında Fərmanla, yaxud ayrıca fərmanla müvəqqəti prezident idarə üsulu tətbiq edilə bilər.

Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti və idarəetmə orqanları fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fəaliyyət göstərən aşağı orqanların hər hansı qərarını ləğv edə bilərlər.

Vəziyyəti tezliklə normallaşdırmaq, hüquq qaydasını və qanunçuluğu bərpa etmək, vətəndaşların təhlükəsizliyini təmin etmək üçün zəruri olan tədbirlərin görülməsindən ötrü fövqəladə vəziyyət şəraitində idarəetməni həyata keçirən dövlət orqanlarına fövqəladə səlahiyyətlər verilə bilər. Göstərilən fövqəladə tədbirlər siyasi hüquqlar haqqında Beynəlxalq Müahidədə və Azərbaycan Respublikasının ona zidd olmayan qanunlarında sadalanan hüquq və azadlıqlar istisna olmaqla vətəndaşların hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmasını nəzərdə tuta bilər.

Fövqəladə vəziyyətin tətbiq olunduğu ərazinin icra hakimiyyəti orqanları bilavasitə Azərbaycan Respublikası Prezidentinə, yaxud onun təyin etdiyi orqana tabe etdirilə bilər.

Fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olan halların aradan qaldırılması üçün işləri əlaqələndirdməkdən ötrü, habelə fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin dövlət idarəetmə oqanları öz funksiyalarını lazımınca yerinə yetirmədikdə Azərbaycan Respublikasının Prezidenti xüsusi müvəqqəti orqanlar yarada bilər.

Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazilərdə dövlət hakimiyyəti və idarəetmə orqanlarının səlahiyyətləri (ali dövlət hakimiyyəti orqanlarının səlahiyyətləri istisna olmaqla) bütünlüklə və ya qismən bu müvəqqəti orqanlara verilə bilər.

İctimai qaydanı təmin etmək, vətəndaşların həyatını, sağlamlığını, təhlükəsizliyini, hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini qorumaq üçün fövqəladə vəziyyətin elan oldunduğu ərazinin daxili işlər və milli təhlükəsizlik orqanlarının qüvvələrindən və vasitələrindən istifadə edilir.

Azərbaycan Respublikası daxili işlər nazirinin və ya milli təhlükəsizlik nazirinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti Daxili İşlər Nazirliyinin və Milli Təhlükəsizlik Nazirliyinin əlavə qüvvələrindən və vasitələrindən istifadə olunmasına dair qərar qəbul edir.

Fövqəladə vəziyyət tətbiq olunarkən müstəsna hallarda Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin qüvvələrini və vasitələrini cəlb edir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, onun Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəldilən hərəkətlər, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən millətlərarası münaqişələrə görə fövqəladə vəziyyət tətbiq edilərkən Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Respublikasının daxili işlər nazirinə, Azərbaycan Respublikasının milli təhlükəsizlik nazirinə və Azərbaycan Respublikasının müdafiə nazirinə birgə əməliyyat qərərgahı yaratmaq və fövqəladə vəziyyət tətbiq olunan ərazinin komendantını təyin etmək tapşırıla bilər.

Dövlət idarəetmə orqanları fövqəladə vəziyyət rejiminin təmin olunması məsələlərinə dair müvafiq ərazidə hökmən icra edilməli olan əmrlər və sərəncamlar verə bilərlər.

Fövqəladə vəziyyət zamanı idarəetmə orqanları yaradıldıqda Azərbaycan Respublikası Konstitusiyasının 1214 maddəsinin 3-cü bəndinə uyğun olaraq yerli icra hakimiyyətlərinin

səlahiyyətləri Azərbaycan Respublikası Prezidenti tərəfindən müvəqqəti məhdudlaşdırıla və ya dayandırıla bilər.

Fövqəladə vəziyyət tətbiq edildiyi ərazidə olan bütün dövlət orqanları, müəssisələri, idarələri, ictimai təşkilatlar və vətəndaşlar müvafiq ərazidə xüsusi idarəetməni həyata keçirən Azərbaycan Respublikasının dövlət orqanlarına hərtərəfli kömək göstərməli, onların məcburi olan sərəncamlarını və əmrlərini yerinə yetirməlidirlər.

Fövqəladə vəziyyət dövründə konkret şəraitdən asılı olaraq aşağıdakı tədbirlər müəyyən edilə bilər:

1) fövqəladə vəziyyətin tətbiq edildiyi əraziyə gediş-gəlişlin xüsusi recimi, habelə bu ərazidə hərəkət sərbəstliyinin məhdudlaşdırılması;

2) ictimai qaydanın və əhalinin, xalq təsərrüfatının həyat fəaliyyətini təmin edən obyektlərin mühafizəsinin gücləndirilməsi;

3) yığıncaqlar, mitinqlər, küçə yürüşləri və nümayişlər, habelə digər kütləvi tədbirlər keçirilməsinin qadağan edilməsi;

4) tətillərin qadağan edilməsi;

5) nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması və onların yoxlanılması;

6) qadağan saatı qoyulması – xüsusi verilmiş icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədlər olmadan günün müəyyən vaxtında küçələrdə və başqa ictimai yerlərdə olmağın qadağan edilməsi;

7) qabaqcadan senzura qoymaq yolu ilə mətbuatın və digər kütləvi informasiya vasitələrinin azadlığının məhdudlaşdırılması; səs ucaldan texniki vasitələrin və surətçıxarma aparatlarının müvəqqəti alınması;

8) vəziyyətin normallaşdırılmasına ciddi mane olan siyasi partiyaların, ictimai təşkilatların və kütləvi hərəkatların fəaliyyətinin müvafiq xəbərdarlıqdan sonra dayandırılması;

9) vətəndaşların toplaşdığı yerlərdə sənədlərin yoxlanması, müstəsna hallarda isə vətəndaşlarda silah olması barədə məlumat olduqda şəxsi yoxlama aparılması, əşyaların və nəqliyyat vasitələrinin yoxlanması;

10) silah, zəhərli və ya partlayıcı maddələr, döyüş sursatı, spirtli içkilər gəzdirilməsinin, əldə edilməsinin və satılmasının məhdudlaşdırılması və ya qadağan edilməsi; müstəsna hallarda vətəndaşlardan odlu və soyuq silahın, döyüş sursatının, zəhərli və partlayıcı maddələrin, müəssisələrdən, idarələrdən və təşkilatlardan isə həmçinin təlim hərbi texnikasının və radioaktiv maddələrin müvəqqəti alınması;

11) fövqəladə vəziyyət rayonunun sakini olmayan və ictimai qaydanı pozan şəxslərin fövqəladə vəziyyət elan olunan ərazinin hüdudlarından çıxarılması;

12) yaşayış üçün təhlükəli olan rayonlardan stasionar və ya müvəqqəti mənzillər verməklə vətəndaşların müvəqqəti köçürülməsi;

13) ərzaq məhsullarının və birinci tələbat mallarının bölüşdürülməsində xüsusi qaydanın tətbiq edilməsi;

14) karantin qoyulması və digər sanitariya tədbirləri, epidemiya və epizootiya əlehinə tədbirlər görülməsi;

15) dövlət və başqa müəssisələrin, idarələrin və təşkilatların ehtiyatlarının səfərbərliyə alınması, onların iş reciminin dəyişdirilməsi, fəaliyyətlərinin fövqəladə vəziyyət şəraitində zəruri olan məhsullar istehsalına yönəldilməsi, istehsal fəaliyyətində qəza-xilasetmə və bərpa işləri üçün zəruri olan gigər dəyişikliklər edilməsi;

16) dövlət idarələrinin, müəssisələrinin və təşkilatların rəhbərləri öz vəzifələrini lazımınca icra etmədikdə onların fövqəladə vəziyyət dövründə işdən kənar edilməsi və vəzifələrinin müvəqqəti icrası üçün başqa şəxslərin təyin olunması;

17) müstəsna hallarda təxirə salınmaz qəza-xilasetmə işləri aparmaq üçün əmək təhlükəsizliyini hökmən təmin etmək şərtilə əmək qabiliyyətli əhalinin və vətəndaşların nəqliyyat vasitələrinin səfərbərliyə alınması;

18) rabitədən istifadə üçün xüsusi qaydalar qoyulması.

Fövqəladə vəziyyət şəraitində görülən və dövlət hakimiyyəti və idarəetmə orqanlarının qanunla müəyyən edilən səlahiyyətlərinin, ictimai birliklərin hüquqlarının, həmçinin vətəndaşların hüquq, azadlıq və vəzifələrinin dəyişdirilməsinə səbəb olan tədbirlər yaranmış vəziyyətin kəskinliyindən irəli gələn hüdudlar daxilində həyata keçirilməlidir. Respublika ərazisinin bir hissəsində belə tədbirlərin görülməsi başqa yerlərdə və bütövlükdə respublikada dövlət hakimiyyəti və idarəetmə orqanlarının səlahiyyətlərinin, ictimai təşkilatların hüquqlarının, habelə vətəndaşların hüquq və vəzifələrinin dəyişdirilməsinə səbəb ola bilməz.

Bu tədbirlər insan hüquqları sahəsində Azərbaycan Respublikasının qüvvədə olan beynəlxalq müqavilələrindən irəli gələn öhdəliklərinə uyğun olmalı, habelə ayrı-ayrı şəxslərin və ya əhali qruplarının irqinə, milliyətinə, cinsinə, dilinə, dininə, siyasi əqidəsinə və ya sosial mənşəyinə görə hər hansı ayrı-seçkiliyinə səbəb olmamalıdır.

Fövqəladə vəziyyətin tətbiq edilməsi vətəndaş hüquqları və Siyasi hüquqlar haqqında Beynəlxalq Müahidədə və Azərbaycan Respublikasının ona zidd olmayan qanunlarında başa düşülən mənada həyat hüququnun, fikir, vicdan və din azadlığı hüququnun hər hansı şəkildə məhdudlaşdırılmasına, işgəncələr tətbiq olunmasına, qəddar, amansız, yaxud insan ləyaqətini alçaldan rəftar edilməsinə və ya cəza verilməsinə əsas ola bilməz. Eləcə də əmələ görə cəza müəyyən edən və ya cəzanı ağırlaşdıran qanunun geriyə qüvvəsinin tətbiqinə yol verilmir.

Fövqəladə vəziyyət elan olunmuş yerlərdə ziyan çəkmiş və ekoloci şəraitin əlverişsiz olduğu ərazilərdə yaşayan vətəndaşların qanunvericilikdə müəyyən edilmiş qaydada pulsuz tibbi yardım, sanatoriya, kurort, bərpa müalicəsi almaq, dərman vasitələri, immunbioloci preparatlar və tibbi məmulatlarla təmin olunmaq, eləcə də həyat və sağlamlıq üçün təhlükəli amillərin aradan qaldırılması məqsədilə gigiyenik və əksepidemik tədbirlərdən istifadə etmək hüquqları vardır.

Fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların pulsuz müalicə, o cümlədən sanatoriya-kurort müalicəsi və reabilitasiyanın bütün növləri ilə təmin olunma, qanunvericilikdə müəyyən edilmiş qaydada müavinət almaq hüquqları vardır.

Güc işlədilməsinin, daxili işlər və milli təhlükəsizlik orqanlarının sərəncamında olan xüsusi vasitələrin və odlu silahların tətbiq olunmasının qaydası və şərtləri Azərbaycan Respublikasının qanunları ilə tənzim edilir və fövqəladə vəziyyət şəraitində dəyişidirilə bilməz.

Fövqəladə vəziyyət elan olunduqda referenduma çıxarlımış məsələnin müzakirəsi dayandırılır və təyin edilmiş referendum başqa vaxta keçirilir.

Qadağan saatı qaydalarını pozan vətəndaşlar hüquq mühafizə qüvvələri tərəfindən tutulub qadağan saatı qurtaranadək, üstündə sənədləri olmayan şəxslər isə şəxsiyyətləri müəyyən edilənədək, ən çoxu üç gün müddətinə saxlanırlar; tutulan şəxslər və onların yanlarında olan əşyalar yoxlanıla bilər.

Qadağan saatı qaydaları istisna olmaqla, fövqəladə vəziyyət reciminin müəyyən edilən tələblərinin vətəndaşlar tərəfindən pozulması, bu pozuntular Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə cinayət məsuliyyətinə səbəb olmadıqda, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində müəyyən edilən qaydada inzibati tənbehə səbəb olur.

Fövqəladə vəziyyətin elan edildiyi yerlərdə fitnəkar şaiyələrin yayılmasına, hüquq qaydalarının pozulmasına səbəb olan və ya milli ədavəti qızışdıran, habelə ictimai qaydanı pozan hərəkətlər, vətəndaşların və vəzifəli şəxslərin öz qanuni hüquq və vəzifələrini həyata keçirməsinə fəal surətdə mane olmaq, eləcə də ictimai qaydanın qorunması sahəsində xidməti vəzifələrini yerinə yetirərkən daxili işlər və ya milli təhlükəsizlik orqanlarının əməkdaşının, habelə hərbi qulluqçunun qanuni sərəncamına və ya tələbinə mane olmamaq, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə cinayət məsuliyyətinə səbəb olmadıqda, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində müəyyən edilən qaydada tənbehə səbəb olur.

Fövqəladə vəziyyət rejiminin təmin edilməsi üçün qəbul olunan aktlar fövqəladə vəziyyətin qurtarması ilə bir vaxtda, xüsusi məlumat verilmədən qüvvədən düşür.

Fövqəladə vəziyyətin ləğv edilməsi fövqəladə vəziyyət rejiminin pozulmasına dair işlərin icraatının xitam olunmasına və inzibati qaydada həbs edilən şəxslərin dərhal azad edilməsinə səbəb olur.

Daxili işlər, milli təhlükəsizlik orqanları əməkdaşlarının və hərbi qulluqçuların qanunsuz güc işlətməsi, vəzifəli şəxslərin xidmət səlahiyyətlərindən kənara çıxması, o cümlədən vətəndaşların hüquqlarının müəyyən edilmiş təminatlarını pozması Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə məsuliyyətə səbəb olur.

Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə ədalət mühakiməsini yalnız məhkəmə həyata keçirir. Bu ərazidə Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq təsis edilən bütün məhkəmələr fəaliyyət göstərir. Hər hansı fövqəladə məhkəmə formalarının və ya növlərinin təsis edilməsi qadağandır.

Bütün məhkəmələrdə mühakimə icraatı Azərbaycan Respublikasının fövqəladə vəziyyət tətbiq edilən vaxt qüvvədə olan qanunlarına uyğun surətdə aparılır. Sürətləndirilmiş və ya fövqəladə mühakimə icraatının hər hansı növlərindən və formalarından istifadə olunması qadağandır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarı ilə fövqəladə vəziyyət tətbiq edilən ərazidə cinayət işlərinin və mülki işlərin ərazi məhkəmə aidiyyəti dəyişidirilə bilər.

Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə Azərbaycan Respublikasının prokurorluq orqanları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən qaydada fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Milli Məclisi bütün fövqəladə vəziyyət müddətində qanunlara riayət olunmasına nəzarət edir və müvafiq ərazilərdə yoxlama aparır. Bütün vəzifəli şəxslər Azərbaycan Respublikası Milli Məclisinin göstərilən funksiyalarının həyata keçirilməsinə kömək etməyə və tələb olunan məlumatı dərhal verməyə borcludurlar.

Fövqəladə vəziyyətin tətbiq edilməsinə gətirib çıxaran halların səbəb və nəticələrini aradan qaldırmaq üçün lazım olan işlərin maliyyələşdirilməsi qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

Fövqəladə vəziyyət elan edildikdə Azçərbaycan Respublikasının vətəndaş hüquqları və Siyasi hüquqlar haqqında Beynəlxalq Müahidədən irəli gələn beynəlxalq-hüquq

öhdəliklərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti, yaxud Azərbaycan Respublikasının Milli Məclisi vətəndaşların hüquq və azadlıqlarının göstərilən beynəlxalq Müahidədə nəzərdə tutulan öhdəliklərdən kənara çıxan məhdudiyyətləri, bu məhdudiyyətlərin həcmi və belə qərarın səbəbləri haqqında BMT-nin Baş katibinə üç gün müddətində məlumat verilməsi üçün tədbirlər görürlər.

N Ə T İ C Ə

Mühazirəmizi yekunlaşdıraraq qeyd etmək istərdim ki, mühazirəmizin gedişatında qeyd etdiyimiz kimi Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinə əsasən ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi″ dövlətin ali məqsədi kimi müəyyən edilmişdir. Dövlətin bu ali məqsədinin təmin edilməsində iştirak edən dövlət hakimiyyəti orqanları içərsində icra hakimiyyəti orqanları xüsusi yer tuturlar. Hüquq mühafizə orqanları qarşılarında duran vəzifələrin yerinə yetirilməsində idarəetmə metodlarından daha geniş istifadə edirlər.

Ona görə də real vəziyyətdən asılı olaraq, bu vəzifələri yerinə yetirərkən konkret metodların seçilməsi və onlardan istifadə edilməsi peşəkarlıq və dərin hüquqi biliyə malik olmanı tələb edir. Ona görə də bu günkü mühazirəmizin mövzusu da öz mahiyyətinə və əhəmiyyətinə görə həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir.

Beləliklə, biz idarəetmənin inziati-hüquqi metodlarının əsas növlərini nəzərdən keçirdik. Bu metodlar icra hakimiyyəti və hüquq mühafizə orqanları tərəfindən geniş istifadə olunurlar. Bunu da qeyd etmək istərdim ki, idarəetmənin metodlarından istifadə edərkən, Azərbaycan Respublikası Konstitusyiası, Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli ″İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi üzrə tədbirlər haqqında″ fərmanı əsas götürülür.

Siz, gələcəkdə öz xidməti fəaliyyətlərinizi bir hüquqşünas kimi qüvvədə olan qanunvericiliyə ciddi riayət etməklə həyata keçirməlisiniz. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası qanunvericiliyi ilə inzibati məcburetmə tədbiri tətbiq etmək səlahiyyəti olan orqanların siyahısı məhdudlaşdırılıb və onları tətbiq etməyə səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) səlahiyyət hədləri müəyyən edilmişdir.

Mövzu № 10: ″İdarəetmənin (icra hakimiyyəti orqanlarının) hüquqi aktları″

P L A N :

GİRİŞ

4. İdarəetmə aktlarının anlayışı, əhəmiyyəti və əsas xüsusiyyətləri.
5. İdarəetmə aktların təsnifatı və növləri, onların səmərəliliyinin şərtləri.
6. İdarəetmə aktlarına qoyulan tələblər və onlara riayət edilməməsinin nəticələri.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T :

11. Azərbaycan Respublikasının Konstitusiyası. .
12. ″Normativ-hüquqi aktlar haqqında″ Azərbaycan Respublikasının Qanunu. 14.01.2000-ci il.
13. ″İcra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarına, baxılması, qəbul edilməsi və təsdiqi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə″ Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı.
14. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
15. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
16. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ 1 hissə. Dərs vəsaiti. Bakı, 2007.
17. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
18. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
19. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

İcra hakimiyyətinin həyata keçirilməsi formalarından biri, yəni idarəetmənin inzibati-hüquqi forması, idarəetmənin hüquqi aktlarının qəbul edilməsində ifadə olunur.

İdarəetmənin hüquqi aktı idarəetmə qərarının hüquqi ifadə olunan formasıdır. Belə aktı qəbul etməklə, idarəetmə orqanı (vəzifəli şəxs) qanun əsasında onun səlahiyyətinə aid olan bu və ya digər məsələni həll edir. Belə idarəetmə qərarı icraedici-sərəncamverici fəaliyyətin vəzifə və funksiyalarının həyata keçirilməsi üsuludur.

İcra hakimiyyəti orqanları onların üzərinə qoyulmuş funksiyaları həyata keçirərək, tədbirlərin keçirilməsi məsələlərinə aid olan müxtəlif hüquqi aktlar qəbul edirlər. Təbiidir ki, idarəetmə aktlarının qəbul edilməsi qanuna riayət etməklə həyata keçirilməlidir.

Bu mövzu həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir. Bu mövzuda normativ-hüquqi aktlar haqqında ümumi anlayış, onların qəbul edilməsi və qüvvədə olmasının əsaslarını və qaydasını açıqlayacaq.

İkinci tərəfdən qeyd etmək istərdim ki, hüquq mühafizə orqanları icra hakimiyyətinin həyata keçirilməsi prosesində qanunla əsaslandırılmış birtərəfli hüquqi hakimiyyət iradəsini ifadə edən hüquqi aktlardan geniş istifadə edirlər.

Ən nəhayət, bu mövzunun köməkliyi ilə idarəetmənin hüquqi aktlarına qoyulan tələblər və onlara riayət edilməməyə görə törənən nəticələr də ətraflı açıqlanacaq.

İndi isə keçək birinci sualın açıqlanmasına.

Sual 1.
İdarəetmə aktlarının anlayışı, əhəmiyyəti və əsas xüsusiyyətləri

İdarəetmə aktları dövlət idarəetmə orqanlarının, onların struktur bölmələrinin və şəxsi heyətin idarəetmə fəaliyyətlərinin formalarından biridir.

″Akt″ sözü latın sözü olan ″Aktus″ sözündən yaranmış, tərcüməsi isə, fəaliyyət, hərəkət, əməl deməkdir. Lakin, inzibati hüquqda ″akt″ anlayışına məzmun əlavə edildiyindən ona icraedici-sərəncamverici fəaliyyətin hüquqi forması kimi idarəetmə orqanların hakimiyyət xarakterli göstərişlərinin həyata keçirilməsi və möhkəmləndirilməsi vasitəsi, eləcədə də həmin orqan qarşısında qoyulan məsələlərin həlli variantı kimi baxılır.

Azərbaycan Respublikasının 14.01.2000-ci il tarixli ″Normativ-hüquqi aktlar haqqında″ Qanunun 2-ci maddəsinə əsasən:

″Azərbaycan Respublikasının normativ-hüquqi aktı – səlahiyyətli dövlət orqanları tərəfindən qəbul edilmiş, göstərişləri ümumi məcburi xarakter daşıyan, hüquq normalarını müəyyən edən, dəyişdirən və ya ləğv edən, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş rəsmi yazılı sənəddir″.

Normativ-hüquqi aktların növlərindən biri də idarəetmənin hüquqi aktıdır:

İdarəetmə aktı – dövlət-idarəetmə fəaliyyətinin vəzifə və funksiyalarının həyata keçirilməsi məqsədi ilə inzibati-hüquqi normaların (inzibati-hüquqi münasibətlərin) yaranmasına, dəyişməsinə və xitam olunmasına yönəlmiş icra hakimiyyətinin səlahiyyətli subyektinin qanuna əsaslanan, birtərəfli, hüquqi hakimiyyət iradəsini bildirən rəsmi yazılı sənəddir.

Məzmun baxımından idarəetmə aktı – idarəetmə qərarıdır. Onda idarəetmə subyektlərinin fəaliyyətinin məqsədi, vəzifəsi, funksiya və metodları bilavasitə öz əksini tapmış olur. İdarəetmə aktların vasitəsilə dövlət idarəetmə funksiyalarının həyata keçirilməsi prosesində yaranan müxtəlif xarakterli idarəetmə məsələləri həll edilir.

İdarəetmənin hüquqi aktları icra hakimiyyətinin vəzifə və funksiyalarının həyata keçirilməsinin əsas hüquqi (inzibati-hüquqi) formasıdır.

Dövlət idarəetmə aktlarının hüquqi əhəmiyyəti müxtəlifdir:

- onlar hüquq normalarını müəyyən edir, dəyişdirir və ləğv edir (söhbət idarəetmənin normativ aktlarından gedir);
- müxtəlif subyektlərin üzərinə konkret vəzifələr qoyur;
- onlara müəyyən hüquqlar verir (məsələn, idarəetmə sahəsində bu və ya digər hərəkətlər etmək hüququ, dövlət vəsaitlərinə sərəncam vermək və s.).

İdarəetmə aktları hüquqi faktlar kimi çıxış edir, yəni idarəetmə sahəsində hüquq münasibətlərinin yaranmasının, dəyişməsinin və xitam olunmasının əsası kimi çıxış edir (məsələn, vətəndaşın polis əməkdaşları sırasına qəbul edilməsi müvafiq xidməti münasibətləri yaradan hüquqi fakt kimi çıxış edir).

İdarəetmənin bir növ aktları, digər idarəetmə aktlarının qəbul edilməsinə əsas ola bilər (məsələn, yuxarı təbəqəli orqanın aktı əsasında aşağı təbəqəli orqan öz aktını qəbul edir).

İdarəetmə aktları məhkəmə üçün sübut kimi çıxış edə bilərlər və ya məhkəmədə işinin başlanması üçün əsas kimi çıxış edə bilərlər (məsələn, işdən xaric etmə haqqında əmr, daxili işlər orqanları tərəfindən vətəndaşa odlu silah almaq üçün icazənin verilməsi və s.).

Göründüyü kimi, inzibati-hüquqi nizamasalmada idarəetmənin hüquqi aktlarının təyinatı çox müxtəlifdir.

İdarəetmə aktlarının xüsusiyyətləri aşağıdakılardır:

- idarəetmə aktları idarəetmə qərarın hüquqi variantını ifadə edir.

Onlar icra hakimiyyətinin vəzifə və funksiyalarının həyata keçirilməsi məqsədi ilə icra hakimiyyəti orqanın (vəzifəli şəxsin) fəaliyyəti prosesində qəbul edilir və müxtəlif məsələləri həll edirlər;

- idarəetmə aktları qanunvericiliyə əsasən icra hakimiyyətinin səlahiyyətli subyektləri tərəfindən öz səlahiyyətləri çərçivəsində qəbul edilir;

- idarəetmə aktı – müvafiq icra hakimiyyəti subyektinin hüquqi hakimiyyət iradəsinin birtərəfli ifadəsidir;

- idarəetmə aktları imperativ xarakter daşıyırlar.

Onlar ünvanlandığı subyekt üçün icrası məcburi olan icra hakimiyyəti subyektinin hüquqi hakimiyyət göstərişini özündə əks etdirirlər;

- idarəetmə aktları – dövlət idarəetmə sahəsində lazımi davranış qaydalarını müəyyən edirlər;

- idarəetmə aktları – inzibati-hüquqi münasibətlərin yaranması, dəyişməsi və ləğv olunması üçün hüquqi əsaslar yarada bilər, yaxud belə hüquq münasibətlərini bilavasitə yaradan, dəyişən və ləğv edən hüquqi fakt kimi çıxış edə bilərlər;

- idarəetmə aktları – qanunqüvvəlidir. Çünki onlar icra hakimiyyətinin səlahiyyətli subyektləri tərəfindən qanunların icrası məqsədi ilə qəbul edilirlər;

- idarəetmə aktlarının ierarxiyası mövcuddur. Burada aşağı icra hakimiyyəti orqanlarının (vəzifəli şəxslərin) aktlarının yuxarı icra hakimiyyəti orqanlarının aktlarına uyğun olması nəzərdə tutulur;

- idarəetmə aktları – icra hakimiyyəti orqanlarının (vəzifəli şəxslərin) fəaliyyəti prosesində daima istifadə edilən xidməti-hüquqi sənədlərin növlərindən biridir. Bu sənədlər (arayışlar, vəsiqələr, protokollar, təftiş və yoxlama aktları və s.) hüquqi əhəmiyyət kəsb edən müəyyən halları əks etdirirlər və ya faktları təsdiq edirlər. Qeyd etmək lazımdır ki, bu sadalanan aktlar idarəetmənin hüquqi aktları sayılmır, çünki onlarda hüquqi təsir yoxdur;

- idarəetmə aktları – bir qayda olaraq yazılı hüquqi sənəd kimi dərc edilir, yalnız şifahi də ifadə oluna bilər (məsələn, hərbi döyüş şəraitində verilən əmrlərin çoxu şifahi formada verilir);

- idarəetmə aktları müəyyən edilmiş qaydada qəbul edilir;

- idarəetmə aktlarından qanunvericiliklə müəyyən edilmiş qaydada protest və ya şikayət verilə bilər;

- idarəetmə aktları icra olunmadıqda təqsirkar tərəfin məsuliyyəti yaranır (bir qayda olaraq intizam və inzibati məsuliyyət yaranır).

Qeyd etdiyimiz kimi idarəetmə aktları – icra hakimiyyəti orqanlarının (vəzifəli şəxslərin) fəaliyyəti prosesində daima istifadə edilən xidməti-hüquqi sənədlərdən biridir. Onu da qeyd etmək lazımdır ki, icra hakimiyyəti orqanları (vəzifəli şəxslər) icra hakimiyyətinin məqsəd və vəzifələrinə nail olmaq məqsədilə öz fəaliyyətlərində müxtəlif hüquqi aktlardan və sənədlərdən istifadə edirlər. Bu fərqləri aşağıdakı kimi təsvir etmək olar.

İdarəetmə aktları qanundan onunla fərqlənir ki, onlar qanunqüvvəli xarakter daşıyırlar, yəni qanun əsasında və onu icra etmə məqsədi ilə qəbul edilirlər.

Hüquqi aktlar sistemində qanun ali hüquqi qüvvəyə malikdir, heç bir idarəetmə aktı qanunu dəyişə və ya ləğv edə bilməz. Əgər, idarəetmə aktı qanuna ziddirsə, onda qanun tətbiq edilir, belə hallarda qanun idarəetmə aktının təsirini dayandıra və ya onu ləğv edə bilər.

Azərbaycan Respublikası Milli Məclisinin aktları ilə müqayisədə idarəetmə aktları az dərəcədə hüquqi qüvvəyə malikdirlər, çünki Milli Məclis dövlət hakimiyyətinin ali orqanıdır.

Yerli icra hakimiyyəti başçısının hüquqi aktları (qərar və sərəncamlar) onlara tabe olan orqanların və vəzifəli şəxslərin qəbul etdiyi idarəetmə aktları ilə müqayisədə daha çox hüquqi qüvvəyə malikdirlər.

İdarəetmə aktları hüquqi xüsusiyyətlərinə, qəbul edilmə əsaslarına və qaydalarına görə məhkəmələrin hökmlərindən, qərarlarından və qərardadlarından fərqlənirlər.

Məhkəmə aktı – ədalət mühakiməsini hüquqi formada ifadə edir. O, vətəndaşların, idarə, müəssisə və təşkilatların hüquq və qanuni maraqlarını pozmuş şəxslərə qarşı hüquq normalarının tətbiqi aktıdır. Buna görə də məhkəmə aktı – məhkəmə tərəfindən hüquqpozma və ya hüquqi mübahisə barədə olan işlərin baxılması və həll edilməsi ilə bağlı tətbiq edilən aktdır. İdarəetmə aktların əksəriyyəti isə idarəetmə sahələrinə rəhbərlik etmək məqsədi ilə idarəetmə subyektləri tərəfindən hüquqi hərəkətlərinin edilməsi ilə əlaqədar olaraq qəbul edilir.

Məhkəmə aktları müstəqil olan və yalnız qanuna tabe olan hakimlər tərəfindən çıxarılır. Deməli, heç kəs məhkəmə tərəfindən baxılan işin necə həll edilməsi barədə göstəriş verə bilməz. Bundan fərqli olaraq, idarəetmə aktları idarəetmə subyektləri tərəfindən nəinki qanuna uyğun olmalıdırlar, hətta idarəetmənin yuxarı təbəqəli subyektlərinin göstərişləri (sərəncamları) əsasında da qəbul edilə bilər.

Prokuror nəzarəti aktlarından (protest, qərar, təqdimat) idarəetmə aktları hüquqi xüsusiyyətlərinə, qəbul edilmə əsaslarına və qaydalarına görə fərqlənirlər. Prokuror nəzarəti aktları prokurorun qanunçuluğun pozulmasına dair reaksiya formasıdır, onlar özlərində hüquqi normalar, həmçinin də idarəetmə aktlarına xas olan idarəetmə (icraedici-sərəncamverici) xarakterli göstərişləri əks etdirmirlər.

İdarəetmə aktları mülki-hüquqi aktlarından (əqdlərdən) öz hüquqi təbiətlərinə və qəbul edilmə əsaslarına görə fərqlənirlər. Mülki-hüquqi aktlara tərəflərin qarşılıqlı formada iradələrinin ifadəsi xasdır. Mülki-hüquqi akt tərəflərin (müqavilənin iştirakçılarının) qarşılıqlı razılaşmanın nəticəsidir. Belə ki, idarəetmə aktı maraqlı tərəflərin razılığı olmadan da qəbul edilə bilər.

Dövlət idarəetmə aktları hüquqi əhəmiyyət kəsb edən sənədlərdən və xidməti sənədlərdən də fərqlənir.

Hüquqi əhəmiyyət kəsb edən sənədlər (pasport, xidməti vəsiqə, diplom, inzibati xəta haqqında protokol və s.) özü-özlüyündə konkret hüquq münasibətlərini müəyyən etmir, dəyişmir və ləğv etmir. Müəyyən olunmuş formada tərtib olunmuş bu sənədlər yalnız müəyyən faktları təsdiq edirlər.

Xidməti sənədlər (arayışlar, məlumat vərəqəsi, iclasların stenoqrammaları və s.) hüquqi əhəmiyyət daşımır, lakin onlar informasiya mənbələridirlər. İdarəetmə aktları xidməti sənədlər, eləcə də hüquqi əhəmiyyət kəsb edən sənədlər əsasında qəbul edilə bilər (məsələn,

işçi tərəfindən xidməti tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsi haqqında raport əsasında, orqanın rəhbəri onun mükafatlandırlıması haqqında əmr verə bilər).

İdarəetmə aktları, həmçinin qeyri-hökumət təşkilatlarının (ictimai birliklər və fondların) aktlarından fərqlənirlər. Onlar qeyri-hökumət təşkilatların adından qəbul edilirlər. Onlar, yalnız onların üzvləri üçün məcburidir, bu aktların həyata keçirilməsi qeyri-hökumət təşkilatın özünün vasitə və metodları ilə təmin edilir. Qeyri-hökumət təşkilatların aktları dövlət hakimiyyəti xarakterinə malik deyildirlər. Bununla belə dövlət orqanlarının ayrı-ayrı funksiyalarının yerinə yetirilməsi qanunla qeyri-hökumət təşkilatlarına tapşırılan hallarda, onların aktları dövlət-hakimiyyət xarakteri daşıya bilər (məsələn, həmkarlar təşkilatı tərəfindən əməyin mühafizəsi qaydalarına, təhlükəsizlik texnikası və sənaye sanitariyası qaydalarına nəzarət).

Birinci sualı yekunlaşdıraraq qeyd etmək istərdim ki:

1. İdarəetmə aktı – dövlət-idarəetmə fəaliyyətinin vəzifə və funksiyalarının həyata keçirilməsi məqsədi ilə inzibati-hüquqi normaların (inzibati-hüquqi münasibətlərin) yaranmasına, dəyişməsinə və xitam olunmasına yönəlmiş icra hakimiyyətinin səlahiyyətli subyektinin qanuna əsaslanan, birtərəfli, hüquqi hakimiyyət iradəsini bildirən rəsmi yazılı sənəddir.

2. İdarəetmə aktların müxtəlif xüsusiyyətləri mövcuddur. Bunlardan əsasları isə aşağıdakılardır:

- idarəetmə aktları idarəetmə qərarın hüquqi variantını ifadə edir. Onlar icra hakimiyyətinin vəzifə və funksiyalarının həyata keçirilməsi məqsədi ilə icra hakimiyyəti orqanın (vəzifəli şəxsin) fəaliyyəti prosesində qəbul edilirlər və müxtəlif məsələləri həll edirlər;
- idarəetmə aktları – dövlət idarəetmə sahəsində tələb olunan lazımi davranış qaydalarını müəyyən edirlər;
- idarəetmə aktları – inzibati-hüquqi münasibətlərin yaranması, dəyişməsi və ləğv olunması üçün hüquqi əsaslar yarada bilərlər, ya da belə hüquq münasibətlərini bilavasitə yaradan, dəyişən və ləğv edən hüquqi fakt kimi çıxış edə bilərlər;
- idarəetmə aktları – qanunqüvvəlidirlər, yəni onlar icra hakimiyyətinin səlahiyyətli subyektlər tərəfindən qanunların icrası məqsədi ilə qəbul edilirlər;
- idarəetmə aktları müəyyən edilmiş qaydada qəbul edilirlər;
- idarəetmə aktlarından qanunvericiliklə müəyyən edilmiş qaydada protest və ya şikayət verilə bilər;
- idarəetmə aktları icra olunmadıqda təqsirkar tərəfin məsuliyyəti yaranır (bir qayda olaraq intizam və inzibati məsuliyyət yaranır).

3. İdarəetmə aktları icra hakimiyyəti orqanlarının (vəzifəli şəxslərin) fəaliyyəti prosesində istifadə edilən müxtəlif hüquqi aktlardan, xidməti sənədlərdən və hüquqi əhəmiyyət kəsb edən sənədlərdən hüquqi xüsusiyyətlərinə, məzmununa, qəbul olunma əsaslarına və qaydalarına görə fərqlənirlər.

Sual 2.

İdarəetmə aktların təsnifatı və növləri, onların effektivliyinin şərtləri

İcra hakimiyyətinin məqsədi, vəzifələri və funksiyaları müxtəlif xarakterli və məzmunlu idarəetmə aktlarının köməyi ilə təcrübi olaraq həyata keçirilir. Bu da idarəetmə

aktlarının müxtəlif meyarlara əsasən təsnifatının və onların növ müxtəlifliyinin labüdlüyünü yaradır.

İdarəetmə aktları hüquqi xüsusiyyətlərinə, ifadə olunma formasına, qüvvədə olma müddətinə, aktı qəbul edən orqanlara, qüvvədə olan əraziyə və onları qəbul edən orqanların səlahiyyətlərinin xarakterinə görə müxtəlif növlərə bölünür.

1. Hüquqi xüsusiyyətlərinə görə idarəetmənin hüquqi aktları aşağıdakılardı:

a) normativ;

b) fərdi (inzibati) aktlara bölünürlər;

c) ümumi əhəmiyyətli.

İcra hakimiyyətinin normativ aktları – nəzərdə tutulmuş bütün hallarda dəfələrlə tətbiq edilmək üçün şəxsiz xarakterli qaydaları müəyyən edirlər. Onlar eyni tipli ictimai münasibətləri nizamlayan inzibati-hüquqi normalarından ibarətdirlər. Məsələn, DİO-da xidmət keçmə haqqında Əsasnamə, odlu ov silahının əldə edilməsi qaydaları və s.

Normativ aktlar müəyyən edilməmiş müddətdə qüvvədə olurlar. Onlar ləğv edilməyənə qədər və ya onları dəyişən yeni aktların qəbul edilməməsinə qədər tətbiq edilir. Bu növ aktlara nəzəriyyədə və təcrübədə qanunlardan fərqli olaraq ″Azərbaycan Respublikasının qanunvericiliyi″ kimi adlandırırlar. Normativ aktda əsas – onun ″normayaradıcı əhəmiyyəti″dir, yəni onda qüvvədə olan inzibati hüquq normalar sisteminə əlavələr edən, dəyişdirən və onları aydınlaşdıran vacib müddəaların olmasıdır. Bir sözlə, idarəetmənin normativ-hüquqi aktı – hüququn əsas mənbələrindən biridir.

İdarəetmənin fərdi aktları – icra hakimiyyəti orqanları (vəzifəli şəxsləri) tərəfindən qəbul edilən və ən geniş istifadə edilən hüquqi aktların növüdür. İcra hakimiyyətinin fərdi aktlarının məzmununda hüquq normaları, ümumi qaydalar yoxdur. Onlar icra hakimiyyətinin səlahiyyətlərinə daxil olan konkret məsələlər üzrə qərarları müəyyən edir. Burada daim müəyyən şəxslərə aid olan konkret hüquqi göstərişlər olur (məs.: vəzifəyə təyin etmə haqqında əmr və s.). Bu aktlarda hüquq normalarını konkret şəxslərə və hallara tətbiq edilir. Onlar hüquqi faktlar kimi çıxış etməklə konkret inzibati hüquq münasibətləri yaradır, dəyişdirir və ya ləğv edir.

İdarəetmənin fərdi aktlarında icra hakimiyyəti orqanlarının fəaliyyəti öz əksini tapır. Bu aktların köməyi ilə idarəetmə aparatının heyəti yaradılır, işdə olan çatışmamazlıqların operativ surətdə aradan qaldırılması təmin edilir və dövlət intizamını pozanlara qarşı təsir tədbirləri tətbiq edilir.

Ümumi əhəmiyyətli idarəetmə aktları – normativ və fərdi aktlara xas olan əlamətlərə malikdir. Onların məzmununda ümumi davranış qaydaları olur, yəni onlar konkret icraçılara yox, qeyri-məhdud şəxslər dairəsinə ünvanlanır, eyni zamanda onların bir dəfə tətbiq edilməsi nəzərdə tutulur (məs.: istirahət gününün bir tarixdən digər tarixə keçirilməsi haqqında Nazirlər Kabinetinin qərarı). Ədəbiyyatda ümumi əhəmiyyətli idarəetmə aktları, həm də qarışıq (mürəkkəb) tipli aktları kimi də adlandırır.

2. İdarəetmə aktları ifadə olunma formasına görə yazılı, şifahi və konklyudent olurlar.

Yazılı aktlarla yanaşı, şifahi aktlar da olur (əmrlər, sərəncamlar). Onlar müxtəlif idarəetmə məsələlərinin operativ surətdə həlli prosesində istifadə edilir. Yazılı aktlar kimi şifahi aktlar da hüquqi nəticələr yaradır. Onların icrası dövlətin məcburetmə qüvvəsi ilə təmin edilir. Şifahi aktın yerinə yetirilməməsi və ya lazımi dərəcədə yerinə yetirilməməsi hüquqi məsuliyyət yarada bilər.

İdarəetmə subyektinin iradəsi ayrı-ayrı cestlər, işarələr, siqnallar və digər konklyudent hərəkətlər vasitəsilə ifadə oluna bilər. Bunlara Dövlət Yol Polisi əməkdaşı tərəfindən nəqliyyatın və sərnişinlərin hərəkətini nizamlayan jestlər, dəmiryolu, su və hava nəqliyyatında istifadə edilən siqnallar və s. xüsusi işarələri aid etmək olar.

Konklyudent aktlar da inzibati-hüquqi və digər hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və ləğv olunmasına səbəb olur. Dövlət Yol Polisi əməkdaşlarının nəqliyyatın hərəkətini qadağan edən jesti polisin səlahiyyətli işçisinin göstərişidir, buna görə də sürücü nəqliyyat vasitəsinin hərəkətini icazə verən işarə verilənə qədər dayandırmalıdır, əks halda müxtəlif məcburetmə tədbirləri tətbiq edilə bilər.

3. Qüvvədə olma müddətinə görə idarəetmə aktları: təsir müddəti müəyyən edilməmiş (müddətsiz), müddətli və müvəqqəti olur. Əgər, idarəetmə aktında onun qüvvədə olan müddəti göstərilməyibsə, onda o müddətsiz sayılır və ləğv edilənə qədər qüvvədə olacaqdır.

Əgər idarəetmə aktında onun qüvvədə olma müddəti göstərilibsə, onda müddət çatdıqdan sonra akt öz qüvvəsini itirir. Müvəqqəti aktlar bir qayda olaraq, müəyyən bir müddət ərzində, adətən qısa müddətdə qüvvədə olurlar. Belə aktların adında onların müvəqqəti olması göstərilir.

4. İdarəetmə aktlarını qəbul edən orqanlara görə: fərmanlara, qərarlara, əmrlərə, sərəncamlara, göstərişlərə və təlimatlara bölünür.

Azərbaycan Respublikasının Konstitusiyasının 113-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti icra hakimiyyətinin təşkili məsələləri üzrə fərmanlar və sərəncamlar qəbul edir. Ümumi qaydalar müəyyən edildikdə Azərbaycan Respublikasının Prezidenti fərmanlar, digər məsələlər üzrə isə sərəncamlar qəbul edir. Məsələn, o, Azərbaycan Respublikası Baş Nazirinin, Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, özünün səlahiyyətli nümayəndələrini, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin edir və azad edir (Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsi).

Qərar və sərəncamlar Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilir.

Qərarları, sərəncamlardan fərqləndirən yeganə əhəmiyyətli əlamət onların qəbul edilmə qaydasıdır. Qərarlar kollegial qaydada qəbul edilir, sərəncamlar isə qərar əsasında təkbaşına qəbul edilir. Lakin, onları bir-birindən fərqləndirən nisbi xarakter daşıyan digər əlamətlər də var. Belə ki, sərəncamlara nisbətən qərarlar əsasən normativ xarakter daşıya bilər. Qərarlar orqanların səlahiyyətləri çərçivəsində daha vacib məsələlər üzrə qəbul edilirlər.

Qərarlar kollegial qaydada yerli icra hakimiyyəti orqanların səlahiyyətlərinə aid olan məsələlər üzrə qəbul edilirlər. Məsələn, təsərrüfat və sosial-mədəni məsələlər üzrə, ictimai qaydanın mühafizəsi üzrə və s. Qərarlar yalnız kollegial qaydada qəbul edilə bilər və normativ və ya qeyri-normativ xarakter daşıyırlar. Yerli icra hakimiyyəti başçılarının qərarları, sərəncamları və göstərişləri arasındakı fərqi onların qəbul edildiyi məsələlərin əhəmiyyətliliyi və mürəkkəbliyi, o cümlədən qəbul etmə qaydasına görə aparmaq olar.

Əmrlər bir qayda olaraq, vahid rəhbərlik orqanlarının rəhbəri qəbul edirlər (nazirlər, dövlət komitələrinin, müəssisələrin, birliklərin və digər təşkilatların rəhbərləri). Əmr idarəetmə orqanı rəhbərinin tabeçiliyində olan subyektlərə ünvanlanmış, icrası məcburi olan qanunqüvvəli göstərişidir. Əmr normativ və fərdi xarakterli ola bilər.

Təlimatlar da əmrlər kimi, bir qayda olaraq idarəetmə orqanın rəhbəri tərəfindən qəbul edilir. Təlimatın əsas xüsusiyyəti ondan ibarətdir ki, o, qanunun və ya yuxarı təbəqəli orqanın aktının yerinə yetirilməsi qaydasını müəyyən edir (məsələn, Azərbaycan Respublikası DİN-in 69 saylı 14.02.1995-ci il tarixli əmri ilə təsdiq edilmiş ″Azərbaycan Respublikasının vətənaşlarına xarici pasportların verilməsi haqqında″ Təlimat Azərbaycan Respublikasının 14.06.1994-cü il ″Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında″ Qanunun yerinə yetirilməsi məqsədi ilə qəbul edilib. Buna görə əmrlərdən fərqli olaraq, təlimat normativ aktdır. O, yuxarı təbəqəli orqanların müxtəlif normativ aktlarını və qanunlarını detallaşdıran hüquq normalarından ibarət olur, müəyyən işlərin yerinə yetirilməsi və ayrı-ayrı hərəkətlərin edilməsi qaydalarını müəyyən edir.

5. Qüvvədə olma ərazisinə görə: idarəetmə aktları Azərbaycan Respublikasının ərazisində qüvvədə olan, Naxçıvan Muxtar Respublikasının ərazisində və inzibati-ərazi vahidlərin ərazisində qüvvədə olan aktlara bölünürlər. Birinci növ idarəetmə aktları Azərbaycan Respublikası Prezidenti və Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilirlər və onlar Azərbaycan Respublikasının bütün ərazisində qüvvədə olurlar. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanı tərəfindən qəbul edilən aktlar Muxtar Respublika ərazisində qüvvədə olur. İnzibati-ərazi vahidləri çərçivəsində qüvvədə olan hüquqi aktlar yerli icra orqanları tərəfindən qəbul edilirlər və müvafiq olaraq onlar rayonun, şəhər rayonunun, qəsəbənin, kəndin ərazisində qüvvədə olurlar.

Qanunçuluğun tələblərinə uyğun olaraq yerli idarəetmə orqanlarının aktları mərkəzi orqanların aktlarına uyğun olmalıdırlar.

6. Aktları qəbul edən orqanların səlahiyyətlərinin xarakterinə görə aktlar – ümumi, sahələrarası və sahəvi idarəetmə aktlarına bölünürlər.

Ümumidarəetmə aktları ümumi səlahiyyətli idarəetmə orqanları tərəfindən qəbul edilirlər (Azərbaycan Respubikası Nazirlər Kabineti) və onlar sahəvi və sahələrarası aktlara nisbətən daha yüksək hüquqi qüvvəyə malikdirlər. Sahələrarası idarəetmə aktları dövlət idarəetməsinin sahələrarası idarəetməni aparan orqanlar tərəfindən qəbul edilirlər (Azərbaycan Respublikası Maliyyə Nazirliyi və s.) həmin orqanlar adətən sahələrarası məsələləri həll edirlər. Sahəvi idarəetmə aktları dövlət idarəetməsinin müəyyən sahədə idarəetməni nizama salırlar. Belə aktlar nazirliklərin, idarə və orqanların rəhbərləri tərəfindən qəbul edilirlər.

İcra hakimiyyətinin fəaliyyətinin əsas göstəricisi – onun səmərəliyidir. İcra hakimiyyəti və onun aktları insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinə, cəmiyyətin və dövlətin məqsədlərinə xidmət etməlidirlər.

İdarəetmə qərarlarının səmərəliyi – onların keyfiyyətindən və icrasının təşkilindən, ictimai münasibətlərin stabilliyindən, kadrların ixtisas dərəcəsindən və s. kimi bir çox amillərdən asılıdır. Aktların keyfiyyəti onları qəbul edənlər tərəfindən aktlara qoyulan tələblərə riayət olunmasından asılıdır.

Beləliklə, idarəetmə aktların səmərəliliyinin əsas şərtləri – aktların məqsədəuyğunluğu, onların qanuniliyi və mədəniliyidir.

Birinci şərt – aktın məqsədəuyğunluğu, aktın şəxsi və aparat baxımından yox, ictimai maraqlar baxımından faydalı olmasını nəzərdə tutur. Aktın əsasında rəhbərin tərsliyi və ya nazı yox, ictimai rifah olmalıdır. Aktın məqsədəuyğun olması üçün o elmi cəhətdən əsaslandırılmalı, real şəraitə uyğun olmalı, vaxtında qəbul olunmalıdır. Aktda idarə

olunanların şüur səviyyəsini, onların mədəniyyətini və maraqlarını, problemlərinin həlli imkanlarını və başqa nizamlama mexanizmlərinin mövcud olmalarını nəzərə almaq lazımdır. Məsələlərin kompleks şəkildə həllini təmin etmək və əvvəllər qəbul olunmuş aktların tələblərinin nəzərə alınması da vacibdir.

İcra hakimiyyətinin subyektləri idarəetmə aktlarını qəbul edərkən çox vaxt hərəkətlərin və ola biləcək nəticələrin bütün mümkün variantlarını hesablamaq, lazım olan bütün məlumatları vaxtında almaq və onları araşdırmaq imkanına malik olmur. Bəzi hallarda qərarlar məlumat çatışmamazlığı şəraitində qəbul olunur. Buna görə də, vəzifəli şəxslərin peşəkarlığı və təcrübəsi, onların ustalığı bu şəraitdə böyük rol oynayır.

İnzibati-hüquqi nizamasalma idarəetmə aktların məqsədəuyğunluğunu, onların yararlığını və əsaslılığını təmin etmək məqsədini güdür. Özü-özlüyündə hüquq belə nəticələrin yaranmasını təmin etmir, o, yalnız bunun üçün şərait yarada bilər. Buna görə də hüquq normaları əsasında idarəetmə aktlarının qəbul edilməsi prosedurası (layihələrin mütləq müzakirəsi layihənin razılaşdırılması, qəbul edilməsi aktın qüvvədə olma müddətinin müəyyən edilməsi, səsvermə qaydasına riayət edilməsi) onların əsaslılığının artmasına köməklik edir. Aktın məqsədəuyğun olmaması onun effektivliyini heçə endirir. Bundan başqa, belə qərarın icrası cəmiyyətə böyük ziyan vura bilər və ya müqayisə edilməz xərclərə səbəb ola bilər. Buna misal olaraq, 1985-1989-cu illərdə sərxoşluğa qarşı mübarizə üzrə düşünülməmiş tədbirlər nəticəsində Respublikamıza vurulmuş ziyanı göstərmək olar. Bunun nəticəsində respublikamızda böyük miqdarda üzümçülük sahələri dağıdılmış və məhv edilmişdir.

İdarəetmə aktların effektivliyinin növbəti şərti, onların qanuniliyidir. Bu aşağıdakı şərtlərə riayət edilməsi deməkdir:

- onun müəlliflərində müvafiq səlahiyyətlərin olması;
- aktın mahiyyəti üzrə qanunauyğun olması;
- qanunun məqsədinə uyğun olması;
- onların qanunla müəyyən edilmiş müddətdə qəbul edilməsi;
- aktların dərc olunmasının prosessual qaydalarına riayət olunması.

Səlahiyyətləri müəyyən edən normalar işlərin aidiyyatlığını və hakimiyyət subyektlərinin səlahiyyətlərini müəyyən edir. Səlahiyyətlər daimi və ya müvəqqəti ola bilər (yuxarı rəhbərin müvəqqəti əvəz edilməsi, fövqəladə vəziyyətin tətbiq edilməsi, səlahiyyətlərin verilməsi və s.).

Səlahiyyətlərin müəyyən edilməsi şərti – orqan və vəzifəli şəxslər arasında işlərin baxılması və həllini, qanunvericiliyə müvafiq olaraq həyata keçirilməsini təmin edir. Aktın qanuniliyini qiymətləndirirkən birinci növbədə qərarın müəllifinin səlahiyyətli olması müəyyən edilir.

Mahiyyəti üzrə qanuna müvafiq olması aktın bütövlükdə və onun ayrı-ayrı hissələrin qüvvədə olan qanunların tələblərin çərçivəsindən kənara çıxmaması deməkdir. O, nəinki qanuna, hətta yuxarı icra hakimiyyəti orqanlarının qərarlarına zidd olmamalıdır.

İcra hakimiyyətinin subyekti hüquqi aktları qəbul edərkən yuxarı, icra hakimiyyəti orqanın göstərişləri və ictimai rifahı rəhbər tutmalıdır. Əgər aktın müəllifi öz səlahiyyətlərini həyata keçirərkən başqa məqsəd güdürsə bu, qəbul edilmiş aktı qüsurlu edir. Məsələn, kənd təsərrüfatı məhsullarının rayondan çıxarılmasına maneçilik törətmək məqsədilə karantinin tətbiq edilməsi.

Yuxarıda qeyd olunanlara əsaslanaraq belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, nazirliklərin, komitələrin və digər mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və onlardan daha yüksək hüquqi qüvvəsi olan başqa normativ-hüquqi aktlara uyğun olmalıdır.

Bəzi hallarda idarəetmə aktlarının qəbul etmə müddətləri (vaxtı) müəyyən edilir. Belə ki, inzibati tənbeh etmə haqqında qərar inzibati xəta törədildiyi gündən ən geci iki ay keçənədək verilə bilər. İki ay keçəndən sonra qəbul edilmiş akt qanunsuz sayılır (AR İXM - m. 36).

Aktın qanuniliyi, həmçinin də onun qəbul edilməsinin zəruri prosessual qaydalarının yerinə yetirilməsi ilə bağlıdır. Onların sırasına mütəxəssislərin rəylərinin (məs: məcburi müalicəyə göndərilən zaman tibbi rəyin) alınması, müvafiq tədbirlərin həyata keçirilməsi üçün əsasın (ərizənin, şikayətin, protestin, təqdimatın) olması sonradan təsdiq etmə, aktın dərc olunması və ya aktın vətəndaşların və təşkilatların nəzərinə çatdırılması kimi tələblərə riayət edilməsi daxildir.

İdarəetmənin hüquqi aktlarının səmərəliliyinin 3-cü şərti aktın tərtibatının mədəniliyidir. Bu hər şeydən əvvəl aktın ″dilinin″ mədəniyyətinə və məna məzmununa qoyulan tələblərdir. O aid olduğu şəxslər üçün aydın, dəqiq, anlaşılan və yığcam olmalıdır. Onun qrammatik tərtibatı səhvsiz, qüsursuz olmalıdır, istənilən səhvlər onun mənasını dəyişdirə bilər.

Aktın mədəniliyi onun xarici tərtibatı ilə də bağlıdır, yəni ona nömrənin verilməsi, mətndə qəbul edilmə tarixinin, onun harada və kim tərəfindən qəbul olunması, imzaların olması və s. məlumatların olmasını nəzərdə tutur. Bir qayda olaraq aktın mətni çap edilməlidir. Yazılı aktlar – xidməti sənədlərin xüsusi növüdür və bəzi hallarda onlar xüsusi blanklarda yazılmalı və onlarda möhür və ştamplar dəqiq əksi olmalıdır.

Mədənilik, həm də lazımi formada rəsmiləşdirilmiş aktların vaxtında icraçılara və marağı olan subyektlərin nəzərinə çatdırılmasını və s. kargüzarlıq hərəkətlərin düzgün aparılmasını nəzərdə tutur.

Beləliklə, idarəetmə aktlarının məqsədəuyğunluğunu, qanuniliyi və mədəniliyi onun effektivliyinin vacib şərtləridir. Hüquqi aktların effektivliyi şərtləri icra hakimiyyətinin istənilən aktlarına aid edilir.

İdarəetmə aktlarının qəbul etmə prosesi inzibati prosesin bir hissəsidir və aktların qəbul edilməsi üzrə ayrı-ayrı hərəkətləri özündə cəmləşdirir.

Bu fəaliyyət müxtəlif hüquqi normalar və ″təşkilati adətlərlə″ nizama salınır. İdarəetmə aktların qəbulunun aşağıdakı mərhələləri mövcuddur:

- aktın qəbulu haqqında təşəbbüsün qaldırılması;
- layihənin hazırlanması;
- layihənin müzakirəsi;
- aktın qəbul edilməsi və dərc olunması;
- aktın aidiyyatı olan subyektlərin nəzərinə çatdırılması;
- aktın qüvvəyə minməsi.

Bu prosesin birinci mərhələsi – aktın qəbul olunması barədə təşəbbüsün qaldırılmasıdır və ya məsələnin qoyulmasıdır. Bu mərhələdə yaranmış faktiki vəziyyətin

təhlili zamanı həlli tələb olunan problemin faktiki vəziyyəti və yaranmış problemin həllinin mümkün variantları müəyyənləşdirilir.

Aktın qəbul edilməsi üçün faktiki (obyektiv tələbat) və hüquqi əsaslar olmalıdır. Adətən, idarəetmə aktları qanunların və ya yuxarı təbəqəli orqanların aktlarının yerli şəraiti nəzərə alaraq onları konkretləşdirir və ya ərizə, şikayət və s. əsasında qəbul edilirlər. Aktın qəbulu və ləğv edilməsinə əsas - icra hakimiyyətinin subyektlərinin təşəbbüsü, yuxarı təbəqəli orqanın tapşırığı, prokurorun protesti, deputatın, təşkilatın müraciəti, vətəndaşın ərizəsi, şikayəti, qəzetdə olan məqalə və s. ola bilər.

Bu prosesin ikinci mərhələsi – aktın layihəsinin hazırlanmasıdır. Bu mərhələdə layihəni hazırlayan orqan bir qayda olaraq, orqanın əməkdaşlarından, mütəxəssislərdən və alimlərdən layihənin hazırlanması üçün komissiya yaradır. Layihənin hazırlanmasına elmi müəssisələrin, marağı olan dövlət təşkilatlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri cəlb oluna bilərlər.

Normativ-hüquqi aktların layihəsini hazırlayan orqan bu layihənin işlənib hazırlanması zərurətini əsaslandırmaqla yanaşı, bu aktların qəbul edilməsinin məqsədini, əsas müddəalarının və qüvvədə olan qanunvericilik sistemində onların yerinin, tətbiqindən gözlənilən sosial-iqtisadi və başqa nəticələrin geniş xarakteristikasını əks etdirən konsepsiyada hazırlayır və layihəyə əlavə edir.

Hər hansı normativ-hüquqi aktın layihəsi ilə birlikdə bu layihənin qəbul edilməsi ilə qüvvədə olan qanunvericilikdə dəyişikliyi nəzərdə tutan aktın layihəsi də baxılmaq üçün təqdim edilir.

Normativ-hüquqi aktın layihəsi ilə birlikdə aşağıdakılar da təqdim edilməlidir:

- layihənin hazırlanmasında iştirak etmiş və layihə barədə razılığı alınmış şəxslərin ortaya çıxan ixtilaflar və onlar barədə əsaslandırılmış rəyləri;
- həyata keçirilməsi əlavə maddi və başqa məsrəflər tələb edən layihə təqdim edilərkən onun maliyyə-iqtisadi əsasları;
- normativ-hüquqi aktın layihəsinin keyfiyyətinin qiymətləndirilməsi üçün ekspertiza keçirildiyi təqdirdə ekspertlərin rəyi.

İnzibati ərazi vahidlərinin səlahiyyəti və mənafeyi ilə bağlı layihələr hazırlanarkən onların müvafiq orqanları bu işə cəlb olunmalıdır.

Layihənin hazırlanmasında, həmçinin onu tərtib edən orqan və təşkilatların hüquq şöbələrinin əməkdaşlarının da iştirakı vacibdir.

Layihənin hazırlanması zamanı Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası və digər inzibati-ərazi vahidlərinin xüsusiyyətləri, deputatların və elmi müəssisələrin təklifləri kütləvi informasiya vasitələrində irəli sürülən təkliflər və əhalinin müraciəti də nəzərə alına bilər.

Dövlət idarəetməsinin ayrı-ayrı sahələri üzrə qəbul edilən aktların layihələrinin hazırlanmasına müxtəlif nazirliklər, dövlət komitələri və başqa mərkəzi icra hakimiyyəti orqanları cəlb oluna bilərlər.

Bu prosesin üçüncü mərhələsi – aktın layihəsinin müzakirəsidir. İdarəetmə aktlarının layihələri hazır olduqdan sonra onların müzakirəsi prosesi başlanır. Adətən layihənin müzakirəsində aidiyyatı olan orqanlar və icraçılar iştirak edirlər.

Razılıq alınması müvafiq orqanın rəhbərlərinin və ya onun müavininin vizası ilə, yaxud ayrıca məktubu ilə təsdiq edilir.

Razılaşdırılmaq üçün təqdim edilən layihəyə etiraz (irad və təkliflər) olduğu halda, məktubda və ya xüsusi rəydə hələ razılaşdırılmamış məsələlər sadalanır, mövcud iradları və təklifləri qəbul etməyin məqsədəuyğunluğun olması dəlillərlə əsaslandırılır.

Normativ-hüquqi akt onu qəbul edən dövlət orqanı aparatının struktur bölmələri tərəfindən hazırlanır və onun layihəsi mütləq həmin aparatın hüquq bölmələri ilə razılaşdırılmalıdır.

Sahələrarası məsələlərə aid layihələr hazırlanarkən onlar həmin sahələrə aid olan struktur bölmələri ilə razılaşdırılmalıdır.

Yuxarı dövlət orqanı tərəfindən onun tabeliyində olan orqana normativ-hüquqi aktın layihəsinin hazırlanması və aidiyyatı orqanlarla razılaşdırılması tapşırıla bilər. Bu zaman tapşırıqda layihənin baxılmağa təqdim edilmə müddəti və layihənin razılaşdırılması vacib olan orqanlar göstərilməlidir.

Zərurət olduğu hallarda yuxarı dövlət orqanının tapşırığı əsasında hazırlanan normativ-hüquqi aktın layihəsinin tapşırıqda göstərilən baxılma müddəti bu layihəni hazırlayan orqanın təqdimatı əsasında həmin tapşırığı verən dövlət orqanı tərəfindən uzadıla bilər.

İqtisadiyyatın, dövlət idarəçiliyinin ayrı-ayrı sahələri üzrə hazırlanan layihələr bu sahələrin inkişafı və vəziyyəti üçün cavabdeh olan orqanlarla razılaşdırılmalıdır.

Bu müzakirə zamanında müxtəlif çatışmamazlıqlar və nöqsanlar aradan qaldırılır. Ali hüquqi qüvvəyə malik olan aktların layihələri əhalinin nəzərinə kütləvi informasiya vasitələri və digər üsullarla çatdırıla da bilər.

Azərbaycan Respublikasının Milli Məclisi öz təşəbbüsü ilə və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təşəbbüsü ilə qəbul etdiyi qərarla Azərbaycan Respublikasının qanun layihələrini qanunla müəyyən edilmiş qaydada ümumxalq müzakirəsinə verilə bilər.

Bu prosesin dördüncü mərhələsi – aktın qəbul edilməsi və dərc edilməsidir.

Normatvi-hüquqi aktlar qəbul etmək səlahiyyəti olan dövlət orqanları və bu səlahiyyətlərin hüdudları Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə məyyən edilir.

Hazırlanmış və qəbul edilmək üçün təqdim edilmiş normativ-hüquqi aktın layihəsinə dövlət orqanının rəhbərinin müavini viza qoymalıdır.

Viza layihənin və onun hər bir əlavəsinin son vərəqəsinin arxa tərəfindən qoyulur və sonra dövlət orqanının rəhbəri tərəfindən imzalanır.

Normativ-hüquqi akt onu qəbul və təsdiq etmək səlahiyyəti olan dövlət orqanının rəhbəri tərəfindən şəxsən və ya həmin dövlət orqanının kollegial qərarı ilə qəbul edilir. Normativ-hüquqi aktın qəbul edilməsi barədə dövlət orqanının kollegial qərarı bu orqanın rəhbəri tərəfindən təsdiq edilir.

Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları istisna olmaqla, özündə dövlət sirlərini əks etdirən normativ-hüquqi aktların yayılması və qüvvəyə minməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

Rəsmi qaydada dərc olunmuş normativ-hüquqi aktlar qüvvəyə mindikdən sonra, onların hər hansı orqan tərəfindən yerlərə göndərilmə faktından asılı olmayaraq, bütün dövlət orqanları və vəzifəli şəxslər tərəfindən tətbiq və icra olunmalıdır.

Azərbaycan Respublikasının qanunları, Azərbaycan Resublikası Prezidentinin fərmanları və sərəncamları rəsmi nəşrlər sayılan ″Azərbaycan″ qəzetində və ″Azərbaycan Respublikasının qanunvericilik toplusu″nda dərc olunur.

Azərbaycan Respublikası Milli Məclisinin qərarları ″Azərbaycan″ qəzetində və ″Azərbaycan Respublikası Milli Məclisinin məlumatı″nda dərc olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları rəsmi nəşr sayılan ″Azərbaycan Respublikası qanunvericilik toplusu″ və ″Respublika″ qəzetində dərc olunur, zəruri hallarda onların dərhal və geniş yayımının təmini üçün digər kütləvi informasiya vasitələrinin köməyindən istifadə olunur.

Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəsmi nəşr sayılan ″Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının bülleteni″ndə dərc olunur.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının Milli Məclisi və müvafiq icra hakimiyyəti orqanları qəbul etdikləri normativ-hüquqi aktları rəsmi dərc edə bilərlər.

Normativ-hüquqi aktlar, həmçinin istənilən kütləvi informasiya vasitələri və nəşriyatlar tərəfindən dərc oluna bilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları və dərc olunmalı qərardadları rəsmi nəşr sayılan ″Azərbaycan″ qəzetində və ″Azərbay-can Respublikasının Konstitusiya Məhkəməsinin məlumatı″nda dərc olunur.

Bu prosesin beşinci mərhələsi – aktın dövlət idarəetməsinin səlahiyyətli və ya mükəlləfiyyətli subyektlərin nəzərinə çatdırılmasıdır.

İdarəetmə aktların icrasına görə məsuliyyət daşıyan orqan və vəzifəli şəxslər:

- icraçıları aktla tanış etməli (zəruri hallarda imza ya iltizamnamə ilə);
- zəruri hallarda aktların surətləri, onlardan çıxarışlarla icraçıları təmin etməli, aktları görünən yerlərdə asmalı, aktın qüvvəsi şamil edilən təşkilat, orqan və şəxslərin nəzərinə çatdırmaq üçün zəruri tədbirlər görməlidirlər.

Bu prosesin sonuncu mərhələsi – aktın qüvvəyə minməsidir.

Azərbaycan Respublikası Qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, onların özündə başqa müddət nəzərdə tutulmamışdırsa, dərc edildiyi gündən qüvvəyə minir.

Müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları, yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının və Azərbaycan Respublikası Milli Bankının normativ aktları müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçdikdən sonra, özlərində başqa qayda nəzərdə tutulmamışdırsa, dərc edildiyi gündən qüvvəyə minir.

Normativ-hüquqi aktın hissəsinin (fəslinin, maddəsinin, bəndinin) qüvvəyə minməsi üçün normativ-hüquqi aktın bütövlükdə qüvvəyə minməsinə dair məyyən edilmiş müddətdən fərqli müddət təyin edilə bilər.

Fiziki və hüquqi şəxslərin, hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ-hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ-hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.

Normativ-hüquqi akt, onun özündə ayrı hal nəzərdə tutulmamışdırsa, müddətsiz qüvvədə olur.

Akt bütövlükdə, yaxud onun bir hissəsi müvəqqəti ola bilər. Bu halda aktda onun və ya onun müvafiq hissəsinin qüvvədə olma müddəti göstərilir. Göstərilən müddət qurtarana kimi akt, yaxud onun müvafiq hissəsi əlavə elan olmadan qüvvədən düşür. Göstərilən müddət qurtaranadək aktı qəbul etmiş orqan aktın qüvvədə olma müddətinin artırılması və ya ona müddətsiz xarakter verilməsi haqqında qərar qəbul edilə bilər.

Normativ-hüquqi aktı (onun hissəsi) aşağıdakı hallarda öz qüvvəsini itirir:

- müvəqqəti aktın (aktın hissəsinin) müddəti başa çatdıqda;
- əvvəllər qəbul edilmiş aktın müddəaları yeni qəbul edilmiş akta zidd olduqda;
- əvvəllər qəbul edilmiş aktın müddəaları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə zidd olduqda;
- Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-3, 6, 8-ci bəndlərində nəzərdə tutulmuş hallarla əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı qəbul edildikdə;
- aktı qəbul etmiş və ya qanunla müəyyən edilmiş qaydada bu səlahiyyətləri almış orqan tərəfindən onun qüvvədən düşməsi və yaxud dayandırılması barədə qərar qəbul edildikdə.

Normativ-hüquqi akt onu qəbul etmiş orqanın aktı ilə və ya bunun üçün qanunvericiliklə müvəkkil edilmiş orqanın aktı ilə qüvvədən düşmüş hesab edilir.

Beləliklə, sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki:

1. İdarəetmə aktları müxtəlif amillərə (meyarlara) əsasən aşağıdakı növlərə bölünürlər:
- hüquqi xüsusiyyətlərinə görə: normativ, ümumi əhəmiyyətli, fərdi (inzibati);
- ifadə formasına görə: sözlə (yazılı və şifahi) və konklyudent (işarə ilə);
- qüvvədə olma müddətinə görə: qeyri-müəyyən müddətə qüvvədə olan aktlar (müddətsiz), müddətli və müvəqqəti;
- aktı qəbul edən orqanlara görə: fərmanlar, qərarlar, sərəncamlar, əmrlər, təlimatlar;
- qüvvədə olma ərazisinə görə: Azərbaycan Respublikası miqyaslı, Naxçıvan Muxtar Respublikası miqyaslı, inziati-ərazi vahidi miqyaslı;
- səlahiyyət xarakterinə görə: ümumi, sahələrarası və sahəvi.

2. İdarəetmə aktlarının effektivliyi şərtləri aktlarının məqsə-dəuyğunluğundan, qanuniliyindən və mədəniliyindən ibarətdir.

3. İdarəetmə aktlarının qəbul edilməsi prosesi aşağıdakı mərhələlərdən ibarətdir:
- aktın qəbul edilməsi məsələsinin qoyulması;
- layihənin hazırlanması;
- layihənin müzakirəsi;
- aktın qəbul edilməsi və dərc olunması;
- aktın aidiyyatı olan subyektlərin nəzərinə çatdırılması;
- aktın qüvvəyə minməsi.

Sual 3.
İdarəetmə aktlarına qoyulan tələblər və onlara riayət edilməməsinin nəticələri. Daxili işlər orqanlarının aktları

İdarəetmə aktları icra hakimiyyətinin həyata keçirilməsinin hüquqi forması olduğu üçün idarəetmə aktların qəbul edilməsinə müəyyən tələblərin qoyulması nəzərdə tutulmuşdur. Onlardan əsası ondan ibarətdir ki, idarəetmə aktı qanunçuluq prinsipinin

tələblərinə ciddi uyğun olmaqla, qanunlar əsasında və onların icrası üçün qəbul edilir. Qanuna uyğun olmayan idarəetmə aktları ləğv edilməlidirlər. Bununla yanaşı onlar dövlət hakimiyyəti orqanların və yuxarı təbəqəli orqanlarının aktlarına da zidd ola bilməz.

İdarəetmə aktlarının qəbul edilməsinə qoyulan tələblər aşağıdakılardır:

1. İdarəetmə aktları səlahiyyətli orqan tərəfindən, onun səlahiyyətləri çərçivəsində qəbul edilməlidirlər.

Əgər orqan və ya vəzifəli şəxs tərəfindən qəbul edilmiş akt yuxarı orqan və ya vəzifəli şəxsin səlahiyyətlərinə aid olan məsələlər üzrə qəbul edilibsə, onda həmin idarəetmə aktı ləğv edilməlidir, çünki həmin akt orqanın səlahiyyətlərinə aid olmayan məsələlər üzrə qəbul edilmişdir.

İdarəetmə aktlarının qəbul edilməsinə qoyulan bu tələbə riayət olunması bütün dövlət idarəetmə orqanlarının fəaliyyətinin uyğunlaşdırılmasının əsas şərtidir. İdarəetmə aktı vətəndaşların hüquqlarını pozmamalı və digər dövlət orqanlarının aktlarına zidd olmamalıdır.

Əgər qəbul edilmiş aktın nəticəsində dövlət orqanlarının səlahiyyətlərində və ya orqanın səlahiyyətləri və vətəndaşların hüquqları (vəzifələri) arasında ziddiyyət yaranıbsa onda ya yuxarı orqanın aktı tətbiq edilir və ya bu aktlar bir orqanın aktlarıdırsa o zaman axırıncı qəbul edilən akt tətbiq edilir.

2. İdarəetmə aktı vətəndaşların, qeyri-hökumət təşkilatların, aşağı təbəqəli orqanların və tabeçilikdə olan orqan və müəssisələrin hüquq və qanuni maraqlarını pozmamalıdır.

3. İdarəetmə aktının hüquqi cəhətdən əsaslandırılması tələb olunur. Bu o deməkdir ki, qəbul edilmiş akt qanuna və ya yuxarı təbəqəli orqanın normativ aktına istinad etməlidir, yəni aktın hüquqi cəhətdən əsaslandırılması mütləqdir. Akt qanunda və yuxarı orqanın aktında nəzərdə tutulan məqsədlərə uyğun olmalıdır, ona görə ki, qəbul edilən idarəetmə aktı məhz elə onların icrası üçün də qəbul edilir. İqtisadi məsələlər həll edilərkən akt həmçinin də iqtisadi cəhətdən əsaslandırılmalıdır.

4. İdarəetmə aktı müəyyən olunmuş qaydada qəbul edilməlidir. Məsələn, kollegial orqan tərəfindən qəbul edilən aktlar, bu orqanların iclasında kvorum olduqda müzakirə olunmalıdır, yəni adi və ya ixtisaslaşdırılmış (üçdə ikisindən az olmamaqla) səs çoxluğu olduqda qəbul edilir.

Vahid rəhbərlik əsasında idarə olunan orqanlarda müzakirəsi tələb olunmayan məsələlər üzrə aktlar orqanların rəhbərləri tərəfindən bir tərəfli qaydada qəbul edilirlər, lakin onların da qəbul edilməsi zəruriyyətini yaradan bütün hallar dəqiq öyrənilməlidir.

Lazım olan hallarda onlar mütəxəssislərlə razılaşdırıldıqdan sonra və ya layihə məsləhətçi (məşvərətçi) orqanın iclasında müzakirə edildikdən sonra qəbul eidlməlidir (məsələn, nazirliklərin kollegiya iclaslarında və s.).

5. İdarəetmə aktı müəyyən edilmiş formada dərc edilməli və zəruri hallarda imzalanmalıdır. Aktın forması (strukturu, ″dili″ və ifadə olunma üsulu) onun məzmununa aktiv surətdə təsir göstərir. O, idarəetmə subyektini işin həllinə xüsusi diqqətlə yanaşmasına vadar edir. Belə ki, iş üzrə qəbul edilən qərarın əsaslandırılması tələbi, idarəetmə subyektini aktın qəbul edilməsinin səbəblərini əsaslı surətdə öyrənməyə məcbur edir. Qəbul edilmiş aktın qanuna istinad etməsi tələbi, idarəetmə subyektini ″aktın qanuniliyi″ nöqteyi-nəzərdən akta dəqiqliklə yanaşmağa vadar edir. Aktın imzalanması tələbi, idarəetmə subyektinin onun məzmununa görə məsuliyyətini, cavabdehliyini müəyyən edir.

Deməli, aktın formasına riayət etmə məsələsi, texniki məsələ deyil, o idarəetmə işinin düzgün həll edilməsinin əhəmiyyətli amilidir.

6. İdarəetmə aktı müəyyən olunmuş qaydada qüvvəyə minir. İdarəetmə aktları bir qayda olaraq, dərc olunduğu andan qüvvəyə minir. Bəzi hallarda idarəetmə aktı özündə qüvvəyə minmə müddəti göstərir. Bəzən aktlarda onların qüvvədə olma müddəti göstərilir, onun başa çatması ilə onların təsiri dayandırılır və ya rəsmi surətdə uzadılır.

7. Bəzi hallarda idarəetmə aktlarının müəyyən müddətlərdə qəbul edilməsi müəyyən edilə bilər. Məsələn, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 36-cı maddəsində göstərilmişdir ki, ″36.1. İnzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci iki ay keçənədək verilə bilər…″ İnzibati tənbehin tətbiq edilməsi də müvafiq qərarın qəbulu ilə həyata keçirilir.

8. Bəzi idarəetmə aktları, yalnız yuxarı orqanın xüsusi icazəsi olduqda qəbul edilə bilər.

9. Müəyyən edilmiş hallarda ayrı-ayrı idarəetmə aktlarının sonradan yuxarı təbəqəli orqan tərəfindən təsdiq edilməsi tələb olunur.

10. İdarəetmə aktları səlahiyyətlərin bölüşdürülməsi və operativ rəhbərliyin tələblərinə müvafiq olmalıdır.

11. Xüsusi hallarda aktın təyinatından və məzmunundan asılı olaraq o, əlavə tələblərə müvafiq olmalıdır.

12. İdarəetmə aktı dəqiq, ümumi formada başa düşülən dildə ifadə olunmalıdır. O, icraçılar qarşısında duran vəzifələri müəyyən etməlidir.

Dövlət idarəetmə sahəsində idarəetmə aktlarının ″düzgünlüyü prezumpsiyası″ mövcuddur. Bu o deməkdir ki, idarəetmə aktı qanunla müəyyən edilmiş tələblərə riayət olunmaqla qəbul edilir və deməli, o ləğv edilənə qədər hamı üçün məcburidir.

Yuxarıda göstərilən tələblərin pozulduğu halda, idarəetmə aktları qeyri-qanuni sayıla bilər və pozuntunun xarakterindən asılı olaraq onlar əhəmiyyətsiz və mübahisəli sayıla bilər.

<u>İdarəetmənin əhəmiyyətsiz aktları</u> – qanunsuz aktlar olub, hüquqi yararsızlığı o dərəcədə aydındır ki, onlar icra edilə bilməzlər. Onlar hüquqi nəticələr yaratmır, dövlət qulluqçuları onları icra etmək hüququna malik deyillər və bundan başqa, onların icrasına görə məsuliyyət daşıyırlar.

Əhəmiyyətsiz akt – idarəetmə aktı kimi o, dərc edildiyi andan hüquqi qüvvəyə malik olmur.

Aktlar aşağıdakı hallarda əhəmiyyətsiz hesab edilirlər:

a) qanunun pozulmasına birbaşa göstəriş olduqda;

b) inzibati xətalar haqqında işlərin aidiyyatlılığı ciddi surətdə pozulduqda (bu halda inzibati özbaşınalıqdan danışmaq olar, məsələn, DİO-nın rəisi, Azərbaycan Respublikası İXM-nin 310-cu maddəsi, ″Polis işçisi və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama″ əlamətləri ilə inzibati xəta haqqında işə baxaraq, 35 gün müddətində inzibati həbs tətbiq etmişdir. Burada Azərbaycan Respublikasının İXM-nin 301, 310 və 360 maddələrinin tələblərinin pozulması aşkar görünür);

c) aktın qəbul olunması üçün qanuni əsas olmadıqda (ərizə, təqdimat və s.);

ç) aktın qəbul olunma müddəti pozulduqda;

d) aktda cinayətin törədilməsinə birbaşa göstəriş olduqda.

<u>Əhəmiyyətsiz aktlarla yanaşı, idarəetmənin mübahisəli aktları da ola bilər.</u> Bu elə aktlardır ki, onlar mütləq icra edilməlidirlər, lakin qanunla müəyyən edilmiş qaydada onlardan şikayət və ya protest verilə bilər. Belə aktın müqəddəratı haqqında məsələ onu qəbul edən orqan tərəfindən həll oluna bilər, əgər bu orqan göstərilən qanun pozuntularının

yol verilməsini qəbul edirsə və onları bilavasitə özü aradan götürürsə, bəzi hallarda bu aktın müqəddəratı haqqında məsələ yuxarı orqan və ya məhkəmə tərəfindən həll edilir. Belə aktın qiymətləndirilməsi nəticəsində onda aşkar olunan səhvlər aradan qaldırıldıqdan sonra o, qanuni və ya etibarlı sayıla bilər.

İdarəetmə aktlarına qoyulan tələblər pozulduqda hansı nəticələr yarana bilər?

İdarəetmənin hüquqi aktı – qanunvericiliyin pozulması ilə qəbul edildiyi hallarda, aktın özü üçün müəyyən hüquqi nəticələr yaranır. Belə nəticələr aşağıdakılar ola bilər: idarəetmənin hüquqi aktlarının təsirinin dayandırılması, dəyişdirilməsi və xitam olunmasıdır.

Deməli, idarəetmə aktının qəbul edilməsi zamanı qanunçuluğun pozul-ması aktın dayandırılması (dəyişdirilməsi və ləğvi) kimi nəticələrin yaranması-na səbəb olur. İdarəetmə aktının dayandırılması (dəyişdirilməsi və ləğvi) üçün əsas kimi aktdan prokuror tərəfindən protestin verilməsi, aktdan şikayətin verilməsi, icranın yoxlanmasının nəticələri, mətbuat məlumatları və s. çıxış edə bilər. Bir sözlə, bu və ya digər hərəkətlər idarəetmə aktının qeyri-qanuni olması haqqında məntiqi nəticəyə gəlməyə imkan verir.

İdarəetmə aktının bütövlükdə, həm də onun ayrı-ayrı hissələrinin (maddələrinin, bəndlərinin) təsirini dəyişmək, dayandırmaq və ləğv etmək olar. Dəyişikliklər etmək üçün bir qayda olaraq aktı qəbul etmiş orqan və ya vəzifəli şəxs tərəfindən yeni qərarın qəbul edilməsi tələb olunur.

Aktın təsirinin dayandırılması həm xüsusi qərarın qəbul edilməsi yolu ilə, həm də ″hüquqi avtomatizm″ əsasında mümkündür. Aktın müəllifi aktın təsirini qanuna uyğunluq və məqsədəuyğunluq baxımından dayandıra bilər. Aktın təsiri, həmçinin də müəyyən ərazidə dayandırılması mümkündür.

Aktın təsirinin qurtarması faktiki və hüquqi ola bilər.

Əgər qüvvədə olma müddəti başa çatdısa və hüquqi nizamasalma vacibliyi aradan qaldırılıbsa yeni akt qəbul eidlmədən aktın təsir qüvvəsi faktiki olaraq qurtarır.

Aktın təsir qüvvəsinin hüquqi cəhətdən qurtarması birbaşa və dolayı ola bilər. Birinci halda, akt birbaşa ləğv edilir, ikinci halda isə yenisi qəbul olunur, onun qüvvəyə minməsi ilə köhnə akt öz hüquqi qüvvəsini itirir.

Ümumi qaydaya görə idarəetmə aktını qəbul edən orqan və yuxarı orqan (vəzifəli şəxs) ləğv edə bilər. Bundan başqa, bir çox aktları məhkəmələr də qanunsuz hesab edə bilər.

Beləliklə, səlahiyyətli orqanların (vəzifəli şəxslərin) məsuliyyətinin artırılması məqsədi ilə ümumi qayda müəyyən olunub ki, onların aktlarını yuxarı orqanlar, yalız qanunçuluq nöqteyi-nəzərinə görə ləğv edə bilərlər. Xüsusi səlahiyyətli orqanlara gəldikdə isə, onların qərarlarını yuxarı orqanlar nəinki qanunçuluq baxımından, həm də məqsədəuyğunluq baxımından ləğv etmək hüququna malikdirlər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tabeçilik qaydasında aidiyyatında olan orqanların aktlarını ləğv etmək hüququna, yerli icra hakimiyyətinin başçıları isə tabeliyində olan struktur bölmələrinin və orqanlarının aktlarını ləğv etmək hüququna malikdirlər.

Daxili işlər orqanlarının aktları

Daxili işlər orqanları onların üzərinə qoyulmuş funksiyaları həyata keçirərkən, hüquqi aktlar qəbul edirlər. Bu aktlar inzibati (idarəetmə) fəaliyyətin, həmçinin də təhqiqatın və istintaqın həyata keçirilməsi ilə əlaqədar qəbul edilir. Təhqiqat və istintaqın həyata keçirilməsi zamanı daxili işlər orqanları cinayət-prosessual xarakterli hüquqi aktlar qəbul

edirlər. Onların qəbul edilməsi qaydası cinayət-prosessual qanunvericiliyi ilə nizamlanır. DİO tərəfindən qəbul edilən aktların əksəriyyəti dövlət idarəetmə aktlarına aiddir. Bu aktların xüsusiyyəti ondan ibarətdir ki, onlar daxili işlər sahəsində, ictimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində yaranan məsələlərin həllinə və nizamlanmasına yönəlmişdir.

Daxili işlər orqanları normativ və fərdi idarəetmə aktları qəbul etməyə də səlahiyyətlidirlər. DİO tərəfindən normativ aktların qəbul edilməsi daxili işlər sahəsində yaranan ictimai münasibətlərin nizamlanmasının vacibliyi ilə şərtləndirilir. DİO-nun səlahiyyətli rəhbərləri əmrlər, təlimatlar, əsasnamələr, nizamnamələr və digər normativ aktlar qəbul edirlər. DİO-nun normativ yara-dıcılıq səlahiyyətləri eyni deyil, onun həcmi bu orqanın DİO-nın ierarxiya sis-temində tutduğu yerdən, onun funksiyasından asılı olaraq müəyyən edilir. Belə ki, mərkəzi orqanlar (Azərbaycan Respublikası DİN, Naxçıvan MR DİN) yerli daxili işlər orqanlarına nisbətdə, normativ aktların qəbul edilməsində daha çox hüquqlara malikdirlər. Azərbaycan Respublikası Daxili İşlər Nazirli-yi normativ akt qəbul edərkən, Daxili İşlər Nazirliyinin struktur bölmələrinin (baş idarələrin, idarə və bölmələrin) səlahiyyətlərini, ayrı-ayrı vəzifəli şəxslərin (DİO növbətçilərinin, polis sahə inspektorlarının və s.) səlahiyyətlərini müəyyən edir.

Azərbaycan Respublikası DİN-in normativ aktları ilə ayrı-ayrı iş istiqamətləri və məsələləri üzrə DİO-nun işinin təşkili və fəaliyyəti qaydası nizamlanır (pasport sisteminin, icazə sisteminin və s.). Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi öz səlahiyyətləri çərçivəsində dövlət hakimiyyəti orqanlarının aktlarını və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aktlarını rəhbər tutaraq, normativ aktlar qəbul edir.

Fərdi idarəetmə aktları isə DİO tərəfindən daxili işlər sahəsində yaranan konkret hüquqi mübahisəli məsələlərin həlli ilə bağlı olaraq, qəbul edilir.

İstənilən daxili işlər orqanı bu və ya digər həcmdə fərdi idarəetmə aktlarını qəbul etmək hüququna malikdir. DİO-nun fərdi aktları – nizamlayıcı və hüquqmühafizəedici aktlar qəbul edirlər. Hüquqi norma əsasında qəbul edilən nizamlayıcı aktlar konkret ictimai münasibətləri nizamlayır, hüquqi münasibəti iştirakçılarının subyektiv hüquq və vəzifələrini müəyyən edirlər. Məsələn, vətəndaşa odlu silah əldə etməyi icazə verən idarəetmə aktı, bu vətəndaşla silah satan mağaza arasında yaranan münasibətləri nizama salır. DİO fərdi idarəetmə aktları qəbul etmək yolu ilə daxili işlər sahəsində, ictimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin olunması sahəsində ictimai münasibətlərin inkişafı prosesinə aktiv surətdə təsir göstərirlər.

DİO-nun hüquq-mühafizə xarakterli fərdi aktları hüquq normaları ilə nizamlanan ictimai münasibətlərin mühafizəsinə yönəlib və onların toxunul-mazlığının təmin edilməsinə xidmət edir. Bu aktlar vasitəsilə vətəndaşların, or-qan,müəssisə və təşkilatların hüquq və qanuni maraqları mühafizə olunur. İda-rəetmənin hüquq mühafizəetmə aktları hüquqpozmanın dayandırılması haq-qında tələb (göstəriş) kimi, hüquqpozmanın qarşısının alınması, inzibati məs-uliyyətə cəlb edilməsi, inzibati tənbehin tətbiq edilməsi kimi qəbul edilə bilər.

DİO-nun idarəetmə aktları yazılı, şifahi və konklyudent formada ola bilər. Onlar müddətli və müddətsiz, mərkəzi və yerli daxili işlər orqanlarının aktı kimi ola bilərlər.

DİO-nun bütün aktları, dövlət idarəetmə aktlarına qoyulan tələblərə müvafiq olmalıdırlar.

N Ə T İ C Ə

Nəticə etibarı ilə qeyd etmək istərdim ki, idarəetmənin hüquqi aktı – bu, dövlət idarəetmə fəaliyyətinin vəzifə və funksiyalarını həyata keçirmək məqsədilə inzibati-hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və xitam olunmasına və ya inzibati hüquq normalarının müəyyən olunmasına yönəlmiş, icra hakimiyyətinin səlahiyyətli subyektinin qanuna Əsaslanan, bir tərəfli hüquqi hakimiyyətli iradəsini ifadə edən rəsmi sənəddir.

İdarəetmə aktlarının təsnifatı hüquqi nizamasalma mexanizmindəki təyinatına görə, hüquqi xüsusiyyətlərinə görə, ifadə formasına, qüvvədə olma müddətinə, onları dərc edən orqanlara, qüvvədə olma ərazisinə və səlahiyyətlərinin xarakterinə görə müxtəlif növlərə bölünürlər.

Bundan əlavə, idarəetmə aktlarının effektivliyi şərtləri: onların məqsədəuyğunluğunu, qanuniliyi və mədəniliyidir.

İdarəetmə aktlarına qoyulan tələblərin və onlara riayət olunması böyük əhəmiyyət kəsb edir, ona görə ki, əks halda bu növ aktlar heç bir hüquqi qüvvəyə malik olmurlar.

Qeyd etmək istərdim ki, bu mövzu hüquqşünasların fəaliyyətində həm nəzəri, hə də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir. Çünki gündəlik fəaliyyətlərində onlar bilavasitə vəzifə və funksiyalarını qanunlara və qanun qüvvəli aktlara əsaslandıraraq, həyata keçirirlər. Bundan əlavə, qanun və qanunqüvvəli aktlardan başqa, onlar digər xidməti sənədlərdən də geniş istifadə edirlər. Buna görə də, bunları bir-birindən fərləndirməyin böyük əhəmiyyəti vardır.

Mövzu № 11: ″İnzibati məsuliyyət və inzibati xəta″

P L A N :

GİRİŞ
1. İnzibati məsuliyyətin anlayışı və əsas xüsusiyyətləri.
2. İnzibati xətanın anlayışı və onun əlamətləri.
3. İnzibati məsuliyyətdən azad etmə.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi.
5. ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 22 fevral 1998-ci il.
6. ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 09 avqust 1994-cü il.
7. ″Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası″. F.Y.Səməndərovun redaksiyası ilə. Bakı, ″Digesta″, 2001.
8. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
9. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.

10. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ II hissə. Dərs vəsaiti. Bakı, 2006.
11. E.Abdullayev. ″Vətəndaşların inzibati məsuliyyəti″. Dərs vəsaiti. B.,1992.
12. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
13. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
14. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.
15. V.R.Kisin. ″Administrativnoe pravonaruşenie: ponətie, sostav, kvalifikaüiə″. Dərs vəsaiti. Moskva, 1991.
16. A.M.Staxov. "Administrativnaə otvetstvennostğ". Dərs vəsaiti. Moskva, 2004

G İ R İ Ş

Hüquq məsuliyyəti şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafelərinin müdafiəsinin mühüm vasitələrindən biridir. O hüquq normalarının tələbləri pozulduqda, hüququn tələblərini pozana qarşı dövlət məcburiyyəti tədbirlərinin tətbiqində ifadə olunur.

Hüquq məsuliyyətinin əsas əlaməti onun dövlət tərəfindən müəyyən olunmasında və səlahiyyətli orqanlar tərəfindən tətbiq edilməsindədir. Törədilmiş hüquq pozuntusunun xarakterindən asılı olaraq hüquq məsuliyyəti intizam, inzibati, maddi, mülki və cinayət məsuliyyət növlərinə ayrılırlar. Hüquq məsuliyyətinin hər bir növü özünəməxsus dövlət məcburiyyət tədbirlərinə və onların tətbiqinin xüsusi qaydasına malikdir.

Bu mühazirənin mahiyyəti ondan ibarətdir ki, onun vasitəsi ilə hüquq məsuliyyətinin növlərindən biri olan inzibati məsuliyyət, onun əsas əlamətləri və tətbiq edilməsi qaydası haqqında nəzəri biliklər açıqlanacaq. İnzibati məsuliyyət hüquq məsuliyyətinin növlərindən biri olduğu üçün o, həm də hüquq məsuliyyətinə xas olan əlamətlərə də malikdir.

Hüquq məsuliyyəti hüquqpozma törətmiş şəxsə qarşı hüquq normaları sanksiyalarının, onlarda əks olunmuş müəyyən məsuliyyət tədbirlərinin tətbiqindən ibarətdir. Müasir cəmiyyətdə hüquq məsuliyyəti ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə, vətəndaşların qanuna hörmət, hüquqauyğun davranışın zəruriliyi və faydalılığının dərk edilməsi ruhunda tərbiyə olunmasına yönəlmişdir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 22-ci və 23-cü maddələri ilə inzibati məsuliyyətin tətbiq edilməsinin məqsədləri və onun tətbiqini ifadə edən inzibati tənbehlərin növləri müəyyən edilmişdir. Digər tərəfdən isə inzibati xətalar qanunvericiliyi ilə inzibati məsuliyyəti tətbiq etməyə səlahiyyəti olan səlahiyyətli orqanların (vəzifəli şəxslərin) dairəsi və onun tətbiq edilməsi qaydası müəyyən edilmişdir.

İnzibati məsuliyyətin əsasını inzibati xəta təşkil etdiyi üçün bu günkü mühazirəmizin mövzusunun vasitəsi ilə inzibati xəta, onun tərkibi və əsas əlamətləri barədə də nəzəri biliklər əldə etmiş olacağıq.

Mühazirəmizin mövzusu vasitəsi ilə əldə edəcəyiniz biliklərin sizin gələcək fəaliyyətinizdə həm nəzəri, həm də təcrübi əhəmiyyət kəsb edəcək. Çünki bu biliklərə yiyələnməklə siz, gələcəkdə öz xidməti vəzifələrinizi yerinə yetirərkən İXM-nin 4-cü

maddəsində müəyyən edilmiş inzibati xətalar qanunvericiliyinin prinsiplərinə riayət etmiş və İXM-nin 21-ci maddəsinin tələblərini yerinə yetirmiş olarsınız.

Sual 1.

İnzibati məsuliyyətin anlayışı və əsas xüsusiyyətləri

İnzibati məsuliyyət hüquqi məsuliyyətin növlərindən biri olaraq səlahiyyətli orqan və ya vəzifəli şəxslər tərəfindən inzibati xəta törətmiş şəxsə qarşı inzibati tənbehin tətbiq olunması ilə ifadə olunur.

İnzibati məsuliyyət hüquqi məsuliyyətin növlərindən biri olaraq sonuncuya xas olan bütün əlamətlərə malikdir:

- dövlət hakimiyyətinin həyata keçirilməsini və hüquq qaydalarının qorunmasını təmin edən vasitədir;
- hüquq normalarının sanksiyalarının tətbiqindən ibarətdir;
- hüquqa zidd olan təqsirli əməlin nəticəsidir;
- hüquqpozan şəxsin və onun törətdiyi əməlin ictimaiyyət tərəfindən pislənməsi ilə müşayiət edilməsidir;
- hüquq pozan şəxs üçün mənfi nəticə yaradan mənəvi və maddi xarakterli məcburetmə tədbirləri ilə bağlıdır;
- müvafiq prosessual formalarda həyata keçirilir.

Bununla yanaşı inzibati məsuliyyətin özünə məxsus xüsusiyyətləri də mövcuddur ki, bu da inzibati məsuliyyəti digər məsuliyyət növlərindən fərqləndirməyə kifayət qədər əsas verir. Bunlar aşağıdakılardır:

1. İnzibati məsuliyyət Azərbaycan Respublikasının İXM-nin 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının İnzibati Xətalar qanunvericiliyi ilə müəyyən edilir. Deməli o özünün normativ hüquqi əsasına malikdir.

İnzibati məsuliyyətin normativ-hüquqi əsası dedikdə, inzibati tənbehlərin tətbiqini nizamasalan hüquq normalarının sistemi başa düşülür.

Məzmununa görə onları:

- maddi-hüquqi;
- inzibati-prosessual;
- təşkilati normalara bölmək olar.

Onlar aşağıdakılardır:

a) inzibati məsuliyyətin ümumi məsələlərini nizamlayan normalar (inzibati xətalar qanunvericiliyinin sistemini, inzibati məsuliyyətin əsaslarını və subyektlərini, inzibati tənbehlərin sistemini və s. müəyyən edən normalar);

b) inzibati xətaların tərkibini müəyyən edən normalar;

v) inzibati xətalar haqqında işlərin icraatını müəyyən edən normalar;

q) müvafiq icra hakimiyyəti orqanlarının, yetknlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların və inzibati yurisdiksiyanın digər subyektlərinin yaranma qaydasını, onların hüquqi vəziyyətini müəyyən edən normalar.

İnzibati məsuliyyətlə əlaqədar olan normalar inzibati hüququn müstəqil institutunu təşkil edir. Bundan fərqli olaraq, cinayət məsuliyyəti yalnız qanunla müəyyən edilir, intizam məsuliyyəti əmək qanunvericiliyi ilə, həmçinin də ayrı-ayrı kateqoriya fəhlə və qulluqçuların vəziyyətini müəyyən edən müxtəlif qanun və qanunqüvvəli aktlarla, maddi məsuliyyət əmək

qanunvericiliyi, mülki qanunvericiliklə və ayrı-ayrı hallarda isə inzibati hüquq normaları ilə müəyyən edilir.

2. İnzibati məsuliyyətin əsasını inzibati xəta təşkil edir. Cinayət məsuliyyətində cinayətin, intizam məsuliyyətinin yaranmasında intizam xətasının, maddi məsuliyyətdə isə maddi ziyanın vurulması və ya mülki-hüquqi deliktin (hüquqpozmanın) olması vacibdir.

3. İnzibati məsuliyyətin subyektləri fiziki və hüquqi şəxslər ola bilər. Cinayət və intizam məsuliyyətinin subyekti fiziki şəxslərdir. Orqan və təşkilatların intizam məsuliyyəti haqqında məsələ isə hələ də müzakirəlidir. Lakin onun qaldırılması əsaslıdır, çünki icra hakimiyyəti orqanlarının istefası, ictimai birliklərin qanunsuz fəaliyyətlərinin dayandırılması və s. nəzərdə tutulur. İnzibati məsuliyyətin subyekti kimi fiziki şəxslər qismində vətəndaşlar, vəzifəli şəxslər, yetkinlik yaşına çatmayanlar və s. şəxslər ola bilərlər.

4. İnzibati xətaya görə inzibati tənbehlərin tətbiqi nəzərdə tutulmuşdur. Cinayətlərə görə cinayət cəzaları, intizam xətalarına görə intizam tənbehləri tətbiq edilir, maddi məsuliyyət isə əmlak sanksiyalarının tətbiqi ilə ifadə olunurlar.

5. İnzibati tənbehlər müxtəlif orqan və vəzifəli şəxslər tərəfindən tətbiq edilirlər. Bu orqan və vəzifəli şəxslər Azərbaycan Respublikasının İXM-nin 357-ci maddəsinə əsasən aşaqıdakılardı:

- rayon (şəhər) məhkəmələri;
- yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar;
- seçki komissiyaları;
- Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları;
- Azərbaycan Respublikasının Milli Bankı.

Hüquq məsuliyyətinin digər növlərinin tətbiqi isə qanunvericiliklə aşaqıdakı kimi müəyyən edilib. Məsələn: cinayət cəzaları yalnız məhkəmə tərəfindən, intizam tənbehləri intizam hakimiyyətinə malik olan orqan və vəzifəli şəxslərin səlahiyyətləri çərçivəsində, maddi məsuliyyət tədbirləri məhkəmələr tərəfindən tətbiq edilir.

6. İnzibati tənbehlər orqan və vəzifəli şəxslərə tabe olmayan və inzibati xəta törədən şəxslərə qarşı tətbiq edilir. Bu əlamətə görə inzibati məsuliyyət intizam məsuliyyətindən fərqlənir. Burada işçilərə qarşı tətbiq edilən tədbirlər hakimiyyət – tabeçilik qaydasında yuxarı orqan (vəzifəli şəxs) tərəfindən tətbiq edilir.

7. İnzibati tənbehin tətbiq edilməsi məhkumluğa və işdən çıxarılmağa səbəb olmur. İnzibati xətalar qanunvericiliyinə əsasən barəsində inzibati tənbeh tətbiq olunmuş şəxs tənbehin icrasının qurtardığı gündən etibarən bir il ərzində yeni inzibati xəta törətməmişsə, o, inzibati məsuliyyətə cəlb edilməmiş sayılır.

8. İnzibati tənbehlər Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinə müvafiq olaraq tətbiq edilir. Cinayət işlərinə cinayət-prosessual qanunvericiliyi əsasında, maddi məsuliyyət haqqında işlərə mülki mühakimə icraatı qaydasında baxılır.

9. İnzibati tənbehlərin tətbiq edilməsi haqqında çıxarılmış qərardan Azərbaycan Respublikasının İXM-nin 430-cu maddəsinə əsasən inzibati və ya məhkəmə qaydasında şikayət, o çümlədən protest verilə bilər.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin prinsipləri inzibati məsuliyyətin müəyyən edilməsi zamanı rəhbər tutulur. Bu prinsiplər Azərbaycan Respublikası İXM-nin 4-cü maddəsində göstərilmişdir.

Bunlar aşağıdakılardır:

- insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipi (Azərbaycan Respublikası İXM-nin 5-ci maddəsi);
- qanunçuluq prinsipi (Azərbaycan Respublikası İXM-nin 6-cı maddəsi);
- qanun qarşısında bərabərlik prinsipi (Azərbaycan Respublikası İXM-nin 7-ci maddəsi);
- təqsirsizlik prezumpsiyası prinsipi (Azərbaycan Respublikası İXM-nin 8-ci maddəsi);
- ədalətlilik prinsipi (Azərbaycan Respublikası İXM-nin 9-cu maddəsi);
- inzibati xətaların qarşısının alınması prinsipi (Azərbaycan Respublikası İXM-nin 10-cu maddəsi).

İnsan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipi. Dövlətimizin qanunvericilik sisteminin əsasını təşkil edən Azərbaycan Respubikasının Konstitusiyasında göstərilir ki, şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

Azərbaycan Respublikasının Konstitusiyasının əsasını təşkil edən bu prinsip, Azərbaycan Respublikasının Prezidentinin 22 fevral 1998-ci il tarixli ″İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması sahəsində tədbirləri haqqında″ fərmanında bütünlüklə öz əksini tapmışdır. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi olaraq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. ″İnsan hüquqları haqqında Ümumi Bəyannamə″nin 1-ci maddəsində göstərilir: ″Bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların şüurları və vicdanları var və bir-birlərinə münasibətdə qardaşlıq ruhunda da davranmalıdırlar″.

İnsan və vətəndaş hüquqları və azadlıqları ali dəyərə malikdir. Bu hüquqların və azadlıqların pozulmasına yol verən bütün dövlət orqanları (vəzifəli şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

İnzibati xətalar haqqında işlər üzrə icraatın təmin edliməsi tədbirləri tətbiq edilərkən insan ləyaqətini alçaldan qərarların verilməsinə və hərəkət edilməsinə yol verilmir (İXM-nin 5-ci mad.).

Qanunçuluq prinsipi bütün dövlət və qeyri-dövlət idarə və təşkilatları, onların qulluqçuları və vəzifəli şəxsləri, habelə vətəndaşlar tərəfindən Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və onlara uyğun tətbiq edilmiş hüquqi aktların göstərişlərinə riayət edilməsi və icra olunmasıdır. İnzibati hüquqda qanunçuluq inzibati hüququn subyektləri tərəfindən İnzibati Xətalar qanunvericiliyinin tələblərinin ciddi və tam yerinə yetirilməsidir.

İnzibati xətalara görə inzibati tənbeh Azərbaycan Respublikasının İXM-nə uyğun olaraq tətbiq edilir.

İnzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirləri tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə şikayət etmək hüququ ilə təmin edilir.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqinə yol verilmir (İXM-nin 6.3-cü mad.).

Qanun qarşısında bərabərlik prinsipi. Göstərilən prinsip öz əksini Azərbaycan Respublikasının Konstitusiyasında, İnsan hüquqları haqqında Ümumi Bəyannamədə tapmışdır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 26-cı maddəsində göstərilir:

″Bütün insanlar qanun qarşısında bərabərdir və heç bir ayrı-seçkilik qoyulmadan müdafiə olunmaq hüququna malikdir″.

İnsanların hüquqlarının və azadlıqlarının bərabərliyi dedikdə, həmin hüquqların və azadlıqların eyni hüquqi qaydalar əsasında həyata keçirilməsi, hüquqi imkanların bərabərliyi başa düşülür.

İnzibati xəta törətmiş şəxslər irqindən, milliyyətindən, dinindən, dilindən, mənşəyindən, cinsindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabərdirlər və inzibati məsuliyyətə cəlb olunurlar.

Hüquqi şəxslər mülkiyyət formasından, olduqları yerdən, təşkilati-hüquqi formalarından və tabeçiliyindən asılı olmayaraq inzibati məsuliyyətə cəlb olunurlar (İXM-nin 7-ci mad.).

Təqsirsizlik prezumpsiyası prinsipi. Təqsirsizlik prezumpsiyası (lat. praesumptio - ″güman″ sözündən) prinsipi əsasən Azərbaycan Respubikasının Konstitusiyasının 63-cü maddəsində öz əksini tapmışdır. Orada deyilir: ″Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır″. Bu prinsip həm də İnsan hüquqları haqqında Ümumi Bəyannamənin müddəalarında qeyd edilmişdir.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin təqsiri Azərbaycan Respublikasının İXM ilə nəzərdə tutulmuş qaydada sübuta yetmədikdə və bu, inzibati xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı ilə müəyyən edilmədikdə o, təqsiri olmayan hesab edilir.

İnzibati məsuliyyətə cəlb olunmuş şəxs öz təqsirsizliyini sübut etməyə borclu deyildir.

İnzibati məsuliyyətə cəlb olunan şəxsin təqsirli olması barəsində olan şübhələr onun xeyrinə həll olunur (İXM-nin 8-ci mad.).

Ədalətlilik prinsipi. Ədalət hüquqi və sosial-siyasi şüur anlayışı olaraq, əxlaqi kateqoriyaya aiddir. O cəmiyyətdə ayrı-ayrı fərdlərin (sosial qrupların) təcrubi rolu ilə onların ictimai vəziyyəti arasında, hüquq və öhdəlikləri, cinayət və cəza, insanların xidmətləri və bunların ictimaiyyət tərəfindən qəbul edilməsi arasında uyğunluq nisbətini ifadə edir. Bu nisbətin pozulması ədalətsizlik kimi qiymətləndirilir. Bu prinsip Konstitusiya, beynəlxalq hüquq normalarına və inzibati xətalar qanunvericiliyinə uyğun olduqda ədalətli sayılır.

İnzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalıdır, yəni inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına uyğun, qanuni və əsaslı olmalıdır.

Bir inzibati xətaya görə heç kəs iki dəfə inzibati məsuliyyətə cəlb oluna bilməz (İXM-nin 9-cu mad.).

İnzibati xətaların qarşısının alınması prinsipi. Dövlət və ya yerli özünüidarəetmə orqanları, inzibati xətaların qarşısının alınması inzibati xətaların törədilməsinə kömək edən səbəblərin və şəraitin aşkar edilməsi və aradan qaldırılması vətəndaşların hüquq şüurunun və mədəniyyətin yüksəldilməsinə, Azərbaycan Respublikasının qanunlarına ciddi əməl etmək ruhunda tərbiyə olunması sahəsində tədbirlər hazırlayırlar və həyata keçirirlər.

Dövlət hakimiyyəti orqanları, idarələr, təşkilatlar, müəssisələr, onların rəhbərləri, digər vəzifəli şəxslər vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməyə və səlahiyyətləri daxilində qanunla müəyyən edilmiş qaydada və müddətlərdə baxmaq, lazımi tədbirlər görmək və onlara cavab verməklə yanaşı, eləcə də vətəndaşların hüquqa, qanunçuluğa, ədalət mühakiməsinə münasibətini, onların əməllərinin hüquqi və ya hüquqazidd olması haqqında

təsəvvürlərini ifadə edən görüşləri təşkil etməlidirlər. Eləcə də göstərilənlər tarixi inkişaf gedişində əldə edilmiş və yenidən təkrar olunan hüquq sərvətlərinin prinsiplərin, normaların, kateqoriyaların, biliklərin, hüquqi-texniki, hüquqi-təşkilati normaların dövlət və ya yerli özünüidarəetmə orqanları tərəfindən vətəndaşlara kütləvi informasiya vasitələri ilə çatdırılması inzibati xətaların qarşısının alınmasında mühüm rol oynayır.

İnzibati məsuliyyət tədbirləri əsasən bir qayda olaraq, dövlət idarəetmə sahəsində törədilən inzibati xətalara görə müəyyən edilir. Digər tərəfdən isə dövlət idarəetmə sistemində baş verən inzibati xətaların xəbərdar edilməsi və onların qarşısının alınması polis orqanlarının və onun əməkdaşlarının əsas vəzifələrindən biridir. ″Polis haqqında″ Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 2-ci bəndinə əsasən, polisin fəaliyyətinin əsas istiqamətlərindən biri olan ″ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi″ fəaliyyəti bilavasitə dövlət idarəetmə sistemində baş verən inzibati xətaların xəbərdar edilməsi və onların qarşısının alınmasına yönəldilmişdir.

Birinci suala yekun olaraq bir daha qeyd etmək istərdim:

1. İnzibati məsuliyyət - hüquqi məsuliyyətin növlərindən biri olaraq, səlahiyyətli orqan və ya vəzifəli şəxs tərəfindən inzibati xəta törətmiş şəxsə qarşı inzibati tənbehin tətbiq olunması ilə ifadə olunur.

2. İnzibati məsuliyyətin əsas xüsusiyyəti: onun əsasını inzibati xəta, tədbirlərini isə inzibati tənbehlər təşkil edir.

3. İnzibati məsuliyyətin prinsipləri aşağıdakılardır:

- qanunçuluq prinsipi;
- qanun qarşısında bərabərlik prinsipi;
- təqsirsizlik prezumpsiyası prinsipi;
- ədalətlilik prinsipi;
- inzibati xətaların qarşısının alınması prinsipi.

Sual 2.

İnzibati xətanın anlayışı və onun əlamətləri

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 12-ci maddəsində inzibati xətanın anlayışı verilmişdir:

″Bu Məcəllə ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıq üzündən törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur″.

Hər bir inzibati xətanın əsasını əməl təşkil edir. Əgər inzibati xətada əməl yoxdursa deməli burada heç bir inzibati xətadan, inzibati məsuliyyətdən, inzibati tənbehlərin tətbiq edilməsindən danışmaq olmaz.

Əməl-iradəvi davranış aktıdır. Davranış aktının iki halı mövcuddur:

1. Hərəkət - yəni hüququn subyekti tərəfindən üzərinə qoyulmuş vəzifənin aktiv surətdə yerinə yetirilməməsi və ya müəyyən edilmiş qadağanın pozulması. Məsələn, qadağan edilmiş üsulla ovun edilməsi (İXM – mad.111.2).

2. Hərəkətsizlik - yəni hüququn subyekti tərəfindən üzərinə qoyulmuş vəzifənin passiv olaraq yerinə yetirilməsi və yaxud subyekt tərəfindən hərəkət etməli olduğu halda

hərəkət etməməsi. Məsələn, polis işçisinin ictimai qaydanın mühafizəsi ilə əlaqədar olan qanuni tələbinə qəsdən tabe olmama (İXM – mad.310.1).

Bununla yanaşı, əməlin inzibati xəta olub-olmamasından danışmazdan əvvəl əməlin hüquqi əlamətləri barədə danışmaq daha məqsədəuyğundur. Ona görə ki, əməlin inzibati xəta kimi sayılması üçün onun hüquqi əlamətləri olmalıdır. Yalnız aşağıdakı əlamətlər bir və ya bir neçə əməldə (əməllərdə) mövcud olduqda törədilmiş əməli inzibati xəta kimi qiymətləndirmək olar.

Beləliklə, əməlin hüquqi əlamətləri aşağıdakılardır:

1. əməl hüquqazidd olmalıdır;
2. əməl təqsirli sayılmalıdır (yəni qəsdən və ya ehtiyatsızlıq üzündən törədilməlidir);
3. əməl inzibati məsuliyyətə səbəb olmalıdır.
4. əməl Azərbaycan Respublikasının İXM ilə qorunan ictimai münasibətlərə qəsd etməlidir.

Əməlin hüquqazidd olması. Özünün sosial mahiyyətinə görə əməl vətəndaşların, cəmiyyətin, dövlətin maraqlarına zidd olmalıdır və bu maraqlara zərər vurmalıdır. Digər tərəfdən isə əməl müxtəlif hüquq normalarını pozmalıdır.

Əməl təqsirli sayılmalıdır. Bu o deməkdir ki, əməl ya aktiv hərəkətlə, ya da hərəkətsizliklə törədilməlidir. Təqsir şəxsin qəsdən və ya ehtiyatsızlıq üzündən törədilən hüquqazidd hərəkətə və ya hərəkətsizliyə psixi münasibətidir. Təqsirin olması inzibati xətanın vacib əlamətlərindən biridir. Əməlin hüquqazidd olmasına baxmayaraq onda təqsirin olmaması əməlin inzibati xəta kimi sayılmamasına səbəb olur (İXM-nin 3-cü mad.). Məsələn, anlaqsız vətəndaş piyadalar üçün müəyyən olunmuş qaydaları pozur.

Əməlin inzibati məsuliyyətə səbəb olması. Konkret əməl o vaxt inzibati xəta sayılır ki, onun törədilməsi Azərbaycan Respublikasının İXM-nin Xüsusi hissəsində inzibati xəta kimi müəyyən edilsin və onun törədilməsinə görə müxtəlif sanksiyalarının tətbiq edilməsi nəzərdə tutulsun.

Əməl Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə qorunan ictimai münasibətlərə qəsd etməlidir. Bu o deməkdir ki, Azərbaycan Respublikasının İXM müxtəlif hüquq normaları (hüquq sahələri) ilə nizamlanan ictimai münasibətləri mühafizə edir. Əgər əməl Azərbaycan Respublikasının İXM ilə mühafizə olunan ictimai münasibətlərə qəsd edərsə, onda həmin əməl inzibati xəta kimi qiymətləndirilə bilər.

İnzibati xətanın yuxarıda göstərilən əlamətlərini onun tərkibindən fərqləndirmək lazımdır. Ona görə ki, bəzən əməldə inzibati xətanın hüquqi əlamətləri mövcud olmasına baxmayaraq həmin əməl inzibati xəta kimi qiymətləndirilmir. Məsələn, 13 yaşlı şəxs tərəfindən yol hərəkəti qaydaları pozulmuşdur. Buna baxmayaraq, həmin şəxs inzibati məsuliyyətə cəlb edilmir. Çünki, Azərbaycan Respublikasının İXM-nin 15.1-ci maddəsində qeyd edilib ki, inzibati xəta törədərkən 16 yaşı tamam olmuş fiziki şəxslər inzibati məsuliyyətə cəlb olunurlar. Deməli, belə halda törədilmiş əməl inzibati xəta sayılmır.

Qanunvericiliklə ″inzibati xətanın tərkibi″ anlayışı müəyyən edilməyib. Bununla yanaşı, inzibati hüquq nəzəriyyəçiləri belə hesab edirlər ki:

″İnzibati xətanın tərkibi dedikdə, hüquqla müəyyən edilmiş elementlər məcmusu başa düşülür ki, onların mövcudluğunda törədilmiş əməl inzibati xəta sayılır″.

İnzibati xətanın tərkibi aşağıdakı elementlərdən ibarətdir:

1. İnzibati xətanın obyekti.
2. İnzibati xətanın obyektiv tərəfi.

3. İnzibati xətanın subyekti.
4. İnzibati xətanın subyektiv tərəfi.

İnzibati xətanın obyekti

İnzibati xətanın obyekti müxtəlif hüquq normaları (sahələri) ilə nizamlanan və yalnız inzibati hüquq normaları ilə mühafizə olunan ictimai münasibətlərdir. Məsələn, Azərbaycan Respublikası İXM-nin 39-cu, 40-cı, 41-ci, 42-ci və s. maddələri ilə konstitusiya hüquq normaları ilə nizamlanan ictimai münasibətlər mühafizə olunurlar.

İnzibati xətaların obyektini təşkil edən ictimai münasibətlərin aşağıdakı xüsusiyyətləri mövcuddur:

a) onlar hüququn müxtəlif sahələri ilə nizamlanırlar (məsələn, əmək hüququ, konstitusiya hüququ, ekologiya hüququ və s.);

b) bu ictimai münasibətlər inzibati tənbehlərin vasitəsi ilə mühafizə olunurlar.

İnzibati xətanın obyektin 4 (dörd) növü mövcuddur:

1. İnzibati xətanın ümumi obyekti - müxtəlif hüquq normaları ilə nizamlanan və inzibati hüquq normaları ilə mühafizə olunan ictimai münasibətlərdir. Belə münasibətlərə vətəndaşların siyasi, sosial və əmək hüquqları, əhalinin sağlamlığı, sanitar-epidemioloci salamatlığı, mülkiyyət, iqtisadi fəaliyyət, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat, ətraf mühit və idarəçilik qaydaları ilə əlaqədar yaranan ictimai münasibətlər aiddirlər. Belə ictimai münasibətlər yalnız inzibati tənbehlərlə qorunduğu halda göstərilən obyektə aid edilir.

2. İnzibati xətanın xüsusi obyekti - ümumi obyektin ayrılmaz və müstəqil hissəsini təşkil edən ictimai münasibətlərin bir hissəsidir ki, bu münasibətlərin yaranma sahəsi eynidir (məsələn, nəqliyyatdan istifadə edilməsi ilə əlaqədar yaranan münasibətlər, rabitədən istifadə ilə əlaqədar yaranan münasibətlər və s.).

Azərbaycan Respublikasının İXM-nin Xüsusi hissəsinin 2 (ikinci) bölməsində, yəni 6-24-cü fəsillərində inzibati xətaların xüsusi obyektləri qeyd edilib.

3. İnzibati xətanın növlü obyekti - bu, elə ictimai münasibətlərdir ki, onlar xüsusi oybektin bir qrupudur. Məsələn: Azərbaycan Respublikası İXM-nin 22-ci fəsli ″İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar″ adlanır. Bu fəsildə inzibati hüquq normaları ilə mühafizə olunan ictimai münasibətlər inzibati xətaların xüsusi obyektini təşkil edir. Bu fəsildə nəzərdə tutulmuş inzibati xətaların növlü obyektindən danışarkən qeyd etmək lazımdır ki, burada 3 (üç) növlü obyekt mövcuddur.

a) ictimai qaydanın təmin edilməsi və mühafizəsi ilə əlaqədar yaranan və inzibati tənbehlərlə mühafizə olunan ictimai münasibətlər. Məsələn, Azərbaycan Respublikası İXM-nin 296-cı, 297-ci, 298-ci və 306-cı maddələri;

b) ictimai təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar yaranan və inzibati tənbehlərlə mühafizə olunan ictimai münasibətlər. Məsələn, Azərbaycan Respublikası İXM-nin 299-cu, 301-ci, 302-ci, 303-cü, 304-cü, 305-ci maddələri.

v) ictimai mənəviyyatın təmin edilməsi və mühafizəsi ilə əlaqədar yaranan və inzibati tənbehlərlə mühafizə olunan ictimai münasibətlər. Məsələn, Azərbaycan Respublikası İXM-nin 300, 307, 307.1, 308 və 309-cu maddələri.

4. İnzibati xətanın bilavasitə obyekti - belə ictimai münasibət inzibati xətanın törədilməsi nəticəsində bilavasitə ziyan çəkir. Məsələn, Azərbaycan Respublikası İXM-nin

346-cı maddəsi: ″Mülki silahın və döyüş sursatının saxlanılması, daşınması və ya satılması qaydalarının pozulması″.

Bu növ inzibati xətanın bilavasitə obyekti kimi aşağıda göstərilən ictimai münasibətlər ola bilər:

a) mülki silahın və döyüş sursatının saxlanılması qaydalarını təşkil edən ictimai münasibətlər;

b) mülki silahın və döyüş sursatının daşınması qaydalarını təşkil edən ictimai münasibətlər;

v) mülki silahın və döyüş sursatının satılması qaydalarını təşkil edən ictimai münasibətlər.

İnzibati qanunvericilik bəzi hallarda inzibati xətanın bilavasitə obyekti simasında konkret ictimai münasibətin elementi kimi qəsd edilən predmeti nəzərdə tutur. Belə ki, Azərbaycan Respublikası İXM-nin 26-cı və 27-ci maddələrində inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması və müsadirəsi müəyyən edilmişdir.

Ümumiyyətlə, inzibati xətanın obyektinə dair yuxarıda göstərilənləri aşağıdakı sxem şəklində təsvir etmək olar:

İnzibati xətanın obyektiv tərəfi

<u>İnzibati xətanın obyektiv tərəfi</u> - törədilən (törədilmiş) inzibati xətanın xarici görünüşü və ya inzibati hüquq normaları ilə nəzərdə tutulan və inzibati xətanın xarici görünüşünü xarakterizə edən elementlər sistemidir.

İnzibati xətaların obyektiv tərəfinin aşağıdakı elementləri mövcuddur:

1. İctimai təhlükəli, hüquqazidd əməl (hərəkət və hərəkətsizlik).
2. Bilavasitə səbəbli əlaqə.
3. Nəticə.
4. Yer.
5. Vaxt.
6. Üsul.
7. Vasitə.
8. Şərait.

<u>İnzibati xətanın obyektiv tərəfinin əsas elementini ictimai təhlükəli, hüquqazidd əməl (hərəkət və ya hərəkətsizlik) təşkil edir.</u> Əgər inzibati xətada qeyd etdiyimiz əlamətlərə malik olmayan əməl yoxdursa, deməli burada heç bir inzibati xəta yoxdur.

Ümumiyyətlə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün hüquqpozmaları ictimai təhlükəlilik dərəcəsinə görə cinayətlərə, xətalara və s. ayırmaq olar.

Hüquq ədəbiyyatında bu məsələyə dair müxtəlif fikirlər söylənilir. Lakin hər bir əməli onun ictimai-təhlükəlilik dərəcəsinə görə fərqləndirmək lazımdır.

Məlum olduğu kimi müxtəlif ictimai münasibətlər cinayət hüququ normaları və inzibati hüquq normaları vasitəsi ilə mühafizə olunurlar. Qəsd olunan ictimai münasibətlərə

görə əməlin ictimai təhlükəliliyi özünü biruzə verir. Digər tərəfdən isə törədilmiş əməlin cəmiyyətdə verdiyi əks-sədaya (rezonansa) görə də onun ictimai təhlükəliliyindən danışmaq olar.

Qeyd etdiyimiz, kimi inzibati xətanın obyektiv tərəfinin əsasını ictimai təhlükəli əməl təşkil edir, digər elementlər isə ″əlavə″ xarakterə malikdirlər.

Ümumiyyətlə, inzibati hüquq və cinayət hüququ məhz elə hüquq-mühafizə sahəsində toqquşurlar və burada ″birgə″ fəaliyyət göstərirlər. Bu sahəni sxem formasında aşağıdakı formada təsvir etmək olar:

Cinayət hüququnda cinayətin obyektiv tərəfinin əsas elementləri sırasına ictimai təhlükəli, hüquqazidd əməl, nəticə və səbəbli əlaqə daxildir. Burada olan normalar əsasən maddi tərkiblidirlər.

İnzibati qanunvericilik isə əsasən formal tərkibli normalardan ibarətdir. Bu nə deməkdir?

Birincisi, cinayət hüququ ilə inzibati hüquq hüquq-mühafizə sahəsində ″birgə″ fəaliyyət göstərirlər.

İkincisi, cinayət hüququ əsasən maddi tərkibli əməlləri cəzalandırır, inzibati hüquq isə əsasən formal tərkibli əməlləri tənbeh edir.

Beləliklə, formal tərkibli inzibati xətada yalnız qanunvericiliklə qadağan edilmiş ictimai-təhlükəli, hüquqazidd əmələ görə tənbeh (cəza) tətbiq edilir.

Maddi tərkibli inzibati xətada isə aşağıdakı zəruri əlamətlər mütləq olmalıdır:

a) ictimai təhlükəli, hüquqazidd əməl;

b) hüquqazidd, ziyanlı nəticə;

v) bilavasitə səbəbli əlaqə.

Yəni burada əsas fərq məhz elə vurulmuş ziyana görə müəyyən edilə bilər.

Formal tərkibli əməldə vurula biləcək ziyan ehtimal olunur (məsələn, İXM-nin 296-cı maddəsi, ″Xırda xuliqanlıq″ burada vurula biləcək ziyan ehtimal olunur və ictimai qaydanın pozulmasına səbəb olan əməl tənbeh edilir.

Maddi tərkibli əməldə isə vurulmuş ziyan müxtəlif formada hesablana bilər. Məsələn, İXM-nin 69-cu maddəsi ″Xırda talama″. Bu maddənin qeydində göstərilib ki, ″... Talanmış əmlakın dəyəri şərti maliyyə vahidi məbləğinin otuz mislindən yuxarı olmadıqda bu, xırda talama hesab edilir″.

Deyilən formal və maddi tərkibli inzibati xətaları sxem şəklində aşağıdakı kimi təsvir etmək olar:

FT=Ə

MT=Ə+SƏ+N

Bilavasitə səbəbli əlaqə maddi tərkibli inzibati xətanın əsas elementlərindən biridir. Əgər ictimai təhlükəli əməl nəticəsində ziyan vurulubsa, burada mütləq bilavasitə səbəbli əlaqə olmalıdır.

Məhz elə vurulmuş ziyan da bilavasitə həmin ictimai-təhlükəli əməl nəticəsində vurulmalıdır. Məsələn, İXM-nin 152.5-ci maddəsi ″... Bu Məcəllənin 152.1 və 152.2-ci

maddələrində nəzədə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsə maddi zərər vurulmasına görə - ...″ Burada maddi zərər yalnız İXM-nin 152.1 və 152.2-ci maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində yaranmalıdır və məsuliyyətə səbəb olmalıdır. Əgər maddi zərər başqa xəta nəticəsində vurulubsa, deməli, İXM-nin 152.5-ci maddəsinə görə məsuliyyət yaranmır.

Bəzən Azərbaycan Respublikasının İXM-nin Xüsusi hissəsinin normalarında inzibati xətanın obyektiv tərəfinin tövsifedici əlamətləri içərisində inzibati xətaların törədilmə yeri, vaxtı, üsulu, alət və şəraiti göstərilir.

Məsələn:

1. Azərbaycan Respublikası İXM-nin 301.0.1-ci maddəsi: ″Fövqəladə vəziyyət recimi tətbiq edildiyi əraziyə gediş-gəlişin xüsusi reciminin və bu ərazidə hərəkət sərbəstliyinin məhdudlaşdırılmasının pozulmasına...″

2. Azərbaycan Respublikası İXM-nin 306-cı maddəsi: ″...gecə vaxtı saat 24-dən 7-dək...″

3. Azərbaycan Respublikası İXM-nin 111.2-ci maddəsi: ″...qadağan edilmiş alətlərlə və ya üsullarla ov edilməsinə...″

4. Azərbaycan Respublikası İXM-nin 301.0.2-ci maddəsi və 298-ci maddələrdə göstərilən əməllər məzmunca eynidirlər, lakin törədilmə şəraitinə görə müxtəlif tənbehlər tətbiq edilir.

İnzibati xətanın obyektiv tərəfini təşkil edən elementlərdən biri də, bu və ya digər formada münasibətlərdə olan ″başqa şəxs″ əlamətidir.

Məsələn, Azərbaycan Respublikası İXM-nin 307-ci maddəsi: ″... və ya başqa şəxslər tərəfindən...″; İXM-nin 133.1-ci mad.″...olan şəxslərin gəmi komandirinin sərəncamlarını yerinə yetirməməsinə görə″; İXM-nin 310-cu mad. ″Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmamağa görə″ inzibati məsuliyyət yaranır.

″Başqa şəxslər″ kateqoriyasına aşağıdakı şəxslər daxildir:

a) zərərçəkmiş (məsələn: İXM-nin 155.4 mad. ″... nəticəsində zərər çəkən şəxsin sağlamlığına ...″);

b) inzibati xətanın iştirakçısı (məsələn, İXM-nin 152.1-ci mad. ″...və ya nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini idarə etmək üçün idarə etmə hüququ olmayan şəxsə verilməsinə görə ...″)

Tövsifedici əlamət kimi bəzən inzibati xətanın obyektiv tərəfi, yəni əməlin xarakteri də çıxış edir. Obyektiv tərəfin məzmununa görə əməlin təkrarlığı, uzanan və davam edən inzibati xətaları ayrımaq lazımdır.

Təkrarlıq - il ərzində inzibati tənbeh almış şəxs tərəfindən eyni inzibati xətanın törədilməsini nəzərdə tutur. Məsələn, Azərbaycan Respublikasının İXM-nn 151.5-ci maddəsi: ″...Bu Məcəllənin 151.2, 151.3-cü və 151.4-cü maddələrində nəzərdə tutulmuş xətalar il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə, yəni 10 və daha çox cərimə balı toplamasına görə...″.

Uzanan inzibati xəta - təqsirkarın üzərinə qanunla qoyulmuş vəzifələrin uzun müddətdə yerinə yetirilməməsini nəzərdə tutur. Məsələn, Azərbaycan Respublikası 329-cu maddəsi: ″Şəxsiyyət vəsiqəsi olmadan və ya yaşayış yeri üzrə qeydiyyatdan keçmədən yaşama″.

Davam edən inzibati xəta - eyni şəxs tərəfindən bir neçə eyni inzibati xətaların törədilməsidir ki, onların hər birinə görə o, inzibati məsuliyyətə cəlb olunmalıdır. Məsələn, Azərbaycan Respublikası İXM-nin 225.2-ci maddəsi: ″...Satılmış malların dəyişdirilməsi və ya geri qaytarılması qaydalarının pozulmasına görə ...″; İXM-nin 308-ci maddəsi: ″Fahişəliklə məşğul olma″.

İnzibati xətanın subyekti

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi - inzibati xətanın subyektinin dəqiq bir anlayışını təklif etmir. Buna baxmayaraq inzibati xətalar qanunvericiliyin təhlili belə bir nəticəyə gəlmək imkanı yaradır ki:

İnzibati xətanın subyekti - inzibati xətanın tərkibini yerinə yetirən, qanunla müəyyən edilmiş yaş həddinə çatmış, anlaqlı fiziki şəxsdir və ya inzibati hüquq subyektliyinə malik olan hüquqi şəxsdir.

Beləliklə, inzibati xətanın subyektləri sayılır:

a) fiziki şəxslər;

b) hüquqi şəxslər.

Fiziki şəxslər inzibati xətanın subyekti kimi aşağıdakı hallarda tanınırlar:

birincisi, onlar Azərbaycan Respublikası İXM-nin 15.1-ci maddəsinə uyğun olaraq inzibati xətanı törədərkən onların on altı yaşı tamam olmuş olsun,

ikincisi, onlar anlaqlı, yəni öz hərəkətlərini dərk etmə və idarə etmə qabiliyyətinə malik olsunlar. Anlaqlığa iki əlamət daxildir: intellektual və iradəvi. Bu əlamətlər şəxsin obyektiv surətdə mövcud olan psixi qabiliyyətini xarakterizə edir.

İntellektual qabiliyyət - subyektdə həqiqət təzahürünə düzgün qiymət vermək imkanını müəyyənləşdirir, əməl və nəticə arasında mövcud olan əlaqə və qarşılıqlı asılılığı başa düşmək, yaranmış vəziyyəti düzgün qiymətləndirmək, öz hərəkətlərinin verə biləcək nəticələrini əvvəlcədən görmək, mürəkkəb şəraitdə düzgün qərar tapmaq imkanını verir.

İradəvi qabiliyyət isə, şəxsin şüurlu surətdə öz hərəkətlərini nəzərdə saxlamaq, onları aktiv surətdə idarə etmək, maneələri dəf etmək, öz davranışını şüurlu surətdə qoyulmuş məqsədə tabe etmək imkanını yaradır.

Fiziki şəxslər qismində aşağıdakı şəxslər çıxış edə bilərlər:

a) Azərbaycan Respublikasının vətəndaşları;

b) vəzifəli şəxslər;

v) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

q) digər kateqoriyalı şəxslər (sürücülər, piyadalar, hərbi vəzifəlilər və s.).

İnzibati xətanın subyektinin (fiziki şəxslərin) iki növü mövcuddur: ümumi və xüsusi subyektlər.

Ümumi subyektlər - 16 yaşına çatmış, anlaqlı, fiziki şəxslərdir;

Xüsusi subyektlər - yuxarıda göstərilən əlamətlərdən (16 yaş, anlaqlı) əlavə digər xüsusiyyətlərə malik olan fiziki şəxslərdir (vəzifəli şəxs, sürücü, hərbi vəzifəli).

İnzibati xətanın xüsusi subyektinin əlamətləri onların hüquqi vəziyyətlərinin müxtəlifliyi ilə xarakterizə edilir. Bu da onların yerinə yetirdiyi peşəkar və sosial funksiyalarla, sağlamlığının vəziyyəti və s. ilə ifadə edilir. Ümumi qaydada bu xüsusiyyətlər müvəqqəti xarakter daşıyırlar, lakin bu xüsusiyyətlərə şəxs uzun müddətdə də malik ola bilər və ya fəaliyyəti nəticəsində bir neçəsini itirə bilər, yenilərini əldə edə bilər və s.

Araşdırdığımız qrupa aşağıdakı şəxsləri daxil etmək olar:

- əlilləri;
- hamilə qadınları;
- hərbi vəzifəliləri;
- hərbi qulluqçuları;
- az yaşlı uşağı olan qadınları;
- il ərzində inzibati tənbeh almış şəxsləri və s.

Azərbaycan Respublikası İXM-nin 16.1-ci maddəsinə uyğun olaraq: ″Vəzifəli şəxslər öz qulluq vəzifələrinin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi ilə bağlı inzibati xətalara görə inzibati məsuliyyətə cəlb olunurlar″.

Fiziki şəxs aşağıdakı hallarda vəzifəli şəxs kimi hesab edilə bilər:

a) dövlət hakimiyyətinin nümayəndəsi funksiyalarını həyata keçirdiyi halda;

b) dövlət orqanlarında, yerli özünüidarəetmə orqanlarında, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış başqa qoşun birləşmələrində, dövlət və qeyri-dövlət təşkilatlarında, idarə və müəssisələrində təşkilati-sərəncamverici və inzibati-təsərrüfat vəzifələrində daimi və ya müvəqqəti işlədiyi halda;

v) hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla təşkilati-sərəncamverici və ya inzibati təsərrüfat səlahiyyətlərini yerinə yetirdiyi hallarda.

2000-ci ilin sentyabırın 1-dən qüvvəyə minən Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi inzibati xətanın subyekti, o cümlədən inzibati məsuliyyətin subyekti kimi hüquqi şəxsləri də sayır. Hüquqi şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi barədə Azərbaycan Respublikasının İXM-nin 17-ci maddəsində qeyd edilir: ″Hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxslər bu Məcəllə ilə nəzərdə tutulmuş inzibati xətalara görə ümumi əsaslarla inzibati məsuliyyətə cəlb olunurlar″

Hüquqi şəxslərin inzibati xətanın subyekti kimi çıxış etməsi üçün onların inzibati hüquq qabiliyyətinə və inzibati fəaliyyət qabiliyyətinə malik olması zəruridir.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyini təhlil edərək belə bir nəticəyə gəlmək olar ki, hüquqi şəxslər aşağıdakı sahələrdə törədilən inzibati xətalara görə inzibati məsuliyyətə cəlb edilirlər:

- vergi sahəsində;
- gömrük sahəsində;
- ətraf mühitin mühafizəsi sahəsində;
- əməyin təhlükəsizliyinin təmin edliməsi sahəsində;
- yanğın təhlükəsizliyinin təmin edliməsi sahəsində və s.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin Ümumi hissəsində inzibati məsuliyyətin subyekti kimi fiziki şəxslər barəsində heç nə göstərilməmişdir. Lakin Məcəllənin Xüsusi hissəsinin maddələrində inzibati xətanın subyekti özünü biruzə verir. Məcəllədə o cümlədən, inzibati xətanın subyektinin anlayışı da yoxdur. Buna baxmayaraq, inzibati xətanın subyektini inzibati məsuliyyətin subyektindən fərqləndirmək lazımdır. Belə ki, inzibati məsuliyyətin subyektlərinin dairəsi inzibati xətanın subyektlərinin dairəsi ilə üst-üstə düşmür. Ola bilər ki, şəxs inzibati xətanın subyekti olsun, lakin inzibati məsuliyyətə cəlb edilməsin. Məsələn, müddətli həqiqi hərbi xidmət qulluqçuları inzibati xətalara görə intizam məsuliyyətinə cəlb edilirlər.

İnzibati xətanın subyektiv tərəfi

İnzibati xətanın subyektiv tərəfi - şəxsin törətdiyi hüquqazidd əmələ və onun zərərli nəticələrinə daxili psixi münasibətidir.

İnzibati xətanın subyektiv tərəfinin əsas elementi təqsir (qəsd və ehtiyatsızlıq), əlavə elementləri isə aşağıdakılardır:

1. Emosional vəziyyət.
2. Motiv.
3. Məqsəd

Bu əlamətlər yalnız inzibati xətanın qəsdən törədilməsi zamanı özünü biruzə verirlər.

Azərbaycan Respublikasının İXM-nin 3-cü maddəsində qeyd edildiyi kimi: ″Yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş inzibati xətaların törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli (hərəkət və ya hərəktsizlik) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur və tənbeh edilir″. Qeyd edildiyi kimi inzibati məsuliyyət o vaxt yarana bilər ki, şəxs inzibati xətanın törədilməsində təqsirkar sayılsın.

Təqsir - şəxsin öz hüquqazidd əməlinə və onun zərərli nəticələrinə qəsd və ya ehtiyatsızlıq formasında psixi münasibətidir.

Təqsir inzibati məsuliyyətin əsas şərtlərindən biridir. Əgər şəxsin əməlində təqsir yoxdursa, zərərli nəticələr təsadüf şəraitində yaranıbsa, deməli inzibati xətanın subyektiv tərəfi yoxdur və ümumiyyətlə inzibati məsuliyyət də yoxdur.

Təqsirin forması - bu inzibati xətalar qanunvericiliyi ilə müəyyən olunmuş xətanı törətmiş şəxsin iradəsi və zəruri elementlərinin müəyyən qarşılıqlı təsiridir. Bu da törədilmiş inzibati xətaya onun psixi münasibətini qəsd və ehtiyatsızlıq formasında ifadə olunmasını xarakterizə edir.

Beləliklə, təqsirin iki forması mövcuddur:

a) qəsd;

b) ehtiyatsızlıq.

Bu barədə Azərbaycan Respulikasının İXM-nin 13-cü və 14-cü maddələrdə müvafiq maddələr mövcuddur.

Azərbaycan Respublikasının İXM-nin 13-cü maddəsi: ″İnzibati xətanın qəsdən törədilməsi.

İnzibati xəta törətmiş şəxs öz əməlinin (hərəkətinin və ya hərəkətsizliyin) hüquqazidd xaraktrini dərk etmiş, onun zərərli nəticələrini qabaqdan görmüş və ya bunları arzu etmişdirsə, yaxud belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu xəta qəsdən törədilmiş xəta hesab olunur″.

Bu maddəyə uyğun olaraq qeyd etmək olar ki, qəsdin iki növü mövcuddur:

Birbaşa qəsd - təqsirin elə formasıdır ki, inzibati xəta törətmiş şəxs öz əməlinin (hərəkət və hərəkətsizliyinin) hüquqa zidd xarakterini dərk edir, onun ziyanlı nəticələrini əvvəlcədən görür və bu nəticələri arzulayır. Məsələn, İXM-nin 331-ci maddəsi ″... şəxsiyyət vəsiqəsinin və ya pasportun ... qəsdən korlanması″.

2. Dolayı qəsd - təqsirin elə formasıdır ki, inzibati xəta törətmiş şəxs öz əməlinin (hərəkət və hərəkətsizliyinin) hüquqa zidd xarakterini dərk edir, onun zərərli nəticələrinin baş verməsini arzu etmir, lakin belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir. Məsələn, Azərbaycan Respublikasının İXM-nin 92.2-ci maddəsi ″Meşəqırma bileti (orderi) olmadan köküstə yaş ağacların və kolların qanunsuz kəsilməsi və zədələnməsi, meşə bitkilərin və cavan ağacların məhv edilməsi və zədələnməsi.″

Emosional vəziyət əsasən, birbaşa qəsdlə törədilən inzibati xətalar üçün xarakterikdir. Bu əlamətin dispozisiyada nəzərdə tutulması normanın tətbiqində onun müəyyən olunmasını zəruri edir. Baxmayaraq ki, emosional vəziyyəti əks etdirən və məsuliyyəti yüngülləşdirən konkret norma yoxdur, amma inzibati tənbeh tətbiq edilərkən Azərbaycan Respublikasının İXM-nin 33.2 maddəsinə uyğun olaraq məsuliyyəti yüngülləşdirən hal kimi hesab edilə bilər. Məsələn, şəxsə onun yaxın qohumunun vəfat etməsi barədə xəbər verilməsi nəticəsində, həmin şəxsin nəqliyyat vasitəsi ilə müəyyən olunmuş sürət həddini aşmaqla özünün hadisə yerinə çatdırması.

İnzibati xətanın motivi - bu şəxsi hər hansı bir əməlin törədilməsinə vadar edən amillərdən, yəni ona sövq etdirən səbəb və niyyətdən (tamah, xuliqanlıq, niyyəti, özündən razı olma və sair) ibarətdir. Motiv - latınca ″moveo″ sözündən götürülüb, hərəkət edirəm deməkdir.

İnzibati xətanın məqsədi - şəxsin törədiləcək xətanın xarici aləmdə yaradacağı və arzu olunan dəyişiklik barədə təsəvvürüdür. İnsanın daxilindəki meyl və hissi hərəkətverici motivə çevirən də məhz məqsəddir. Məsələn, Azərbaycan Respublikasının İXM-nin 200-cü maddəsi: ″... yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədilə...″

Qeyd etmək lazımdır ki, inzibati hüquq normalarında inzibati xətanın məqsədi, motivi və şəxsin emosional vəziyyəti barədə az danışılır. Buna baxmayaraq, onların üzə çıxarılması əməlin subyektiv və obyektiv tərəflərinin düzgün qiymətləndirilməsi və tövsifi üçün lazımdır. Yuxarıda göstərilənlərdən, belə nəticəyə gəlmək olar ki, motiv - sövq edəndirsə, məqsəd isə son nəticədir.

Azərbaycan Respublikası İXM-nin 14-cü maddəsi ″İnzibati xətanın ehtiyatsızlıq üzündən törədilməsi.

İnzibati xəta törətmiş şəxs öz əməlinin (hərəkətinin və ya hərəkətsizliyinin) zərərli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüşdürsə, lakin onların qarşısının alacağına yüngül fikirlə ümid bağlamışdırsa, yaxud nəticənin baş verəcəyini qabaqcadan görə bilməli və görməli olduğu halda onları görməmişdirsə, bu xəta ehtiyatsızlıq üzündən törədilmiş xəta hesab olunur″.

Bu maddənin məzmunundan göründüyü kimi ehtiyatsızlığın iki növü mövcuddur:

1. Hüquqazidd özünə güvənmə - təqsirin elə növüdür ki, burada inzibati xəta törətmiş şəxs öz əməlinin zərərli nəticələr verə biləcəyi imkanını qabaqcadan görür, lakin yüngül fikirlik edib, onların qarşısının alınmasına ümid bağlayır.

Məsələn, Azərbaycan Respublikası İXM-nin 155.2.3-cü maddəsi: ″... tormoz sistemi, sükan idarə mexanizmi nasaz olan nəqliyyat vasitələrinin idarə olunması...″ nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarəti yetirilmişdir və buna görə də Azərbaycan Respublikasının İXM-nin 155.4-cü maddəsinə uyğun olaraq inzibati məsuliyyət yaranır.

2. Hüquqazidd etinasızlıq - təqsirin elə növüdür ki, burada inzibati xəta törətmiş şəxs öz əməlinin zərərli nəticələr verə biləcəyini qabaqcadan görə bilməli və görməli olduğu halda, onları görməmişdir.

Məsələn, Azərbaycan Respublikası İXM-nin 130.4-ci maddəsi ″Aerodrom avadanlığının, aerodrom işarələrinin, hava gəmilərinin və onların avadanlığının zədələnməsinə görə -...″.

İnzibati məsuliyyətin prinsiplərindən biri də təqsirə görə məsuliyyətdir. Təqsir isə inzibati xətanın subyektiv tərəfinin əsas əlamətidir. Fiziki şəxslərin təqsiri onun qanuna zidd

əməlinə və zərərli nəticələrinə daxili psixi münasibətidir. Hüquqi şəxslərin təqsiri isə başqa formada müəyyən edilir, yəni hüquqi şəxslərin təqsiri aşağıdakı iki meyardan ibarətdir:

- subyektiv təqsir, yəni hüquqi şəxsin kollektiv, müdiriyyət və vəzifəli şəxs qismində hüquqazidd əməlinə münasibətidir;
- obyektiv təqsir, yəni müəyyən edilmiş qaydanı pozan hüquqi şəxsin konkret əməlinin xarakterindən asılı olaraq digər səlahiyyətin, dövlət orqanının nöqteyi-nəzərindən təşkilatın təqsiridir.

İnzibati məsuliyyətin subyektinin hüquqi şəxslər olmasına baxmayaraq, burada faktiki olaraq inzibati xətanın törədilməsində vəzifəli şəxslər və ya hüquqi şəxsin nümayəndəsi təqsirkardır. Ona görə hüquqi şəxsə inzibati tənbehin verilməsi vəzifəli şəxslərin və ya təşkilatın nümayəndələrini inzibati məsuliyyətdən azad etmir.

İnzibati xətaların tərkiblərinin öyrənilməsi, inzibati xətaları onlara oxşar cinayətlərdən fərqləndirmək üçün lazımdır. Qanunvericilikdə onların fərqləndirilməsi, onların tərkib elementlərinin hüquqi meyarına əsasən keçirilir.

Hüquq elmində hüquqpozmaları sosial mahiyyətinə görə cinayətlərə və xətalara bölürlər, yəni əsas, maddi əlamətinə görə. Cinayətlər xətalardan daha da çox onların keyfiyyət göstəricilərinə görə seçilirlər. Belə ki, cinayətlər ictimai-təhlükəli əməldirlər, xətalar isə ictimai təhlükəlilik xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə bir-birindən fərqlənirlər, onların arasında keyfiyyətcə fərq yoxdur.

Cinayətlərin və xətaların fərqləndirilməsi və ümumiyyətlə, hüquqpozmaların xətalara və cinayətlərə bölünməsi böyük əhəmiyyət kəsb edir. Bir sıra alimlər belə hesab edir ki, ictimai təhlükəlilik dərəcəsinə görə xətalar cinayətlərə nisbətən az ictimai təhlükəlidirlər. Digərləri isə hesab edir ki, onlar arasında əsas fərq ondadır ki, cinayətər ictimai-təhlükəli əməldirlər, xətalar isə yox. Bunlara baxmayaraq, əsas nəzəri baza birdir. Hüquqpozmaları onların cəmiyyətdəki sosial əhəmiyyətinə görə qiymətləndirmək lazımdır.

Azərbaycan Respublikasının qanunvericiliyi inzibati xətanı cinayətdən fərqləndirmək üçün onun ümumi cəhətini, yəni əməlin az əhəmiyyətli olmasını göstərir. Əməlin az əhəmiyyətli olması məsələsi onun bütün subyektiv və obyektiv əlamətlərini nəzərə almaqla həll edilir (vurulan ziyan, inzibat xətanın törədilməsi yeri, üsulu, vasitəsi, əməlin xarakteri, şəxsin təqsiri, motivi, məqsədi, subyektin xüsusi keyfiyyətləri və s.).

Cinayət cinayət qanununda nəzərdə tutulan ictimai təhlükəli əməlidir. İnzibati xəta isə inzibati hüquq norması ilə mühafizə olunan obyektə qəsd edən hüquqazidd əməldir. Elə hüquqpozmalar var ki, onlar həmişə inzibati xəta kimi qiymətləndirilirlər. Məsələn, avtobusda biletsiz getmə, səhlənkar saxlama nəticəsində pasportun itirilməsi. Belə hallarda hüquq tətbiq edənin qarşısında bunların cinayət və ya xəta olması məsələsi qalxmır. Bununla yanaşı elə hüquqpozmalar da var ki, şəraitdən asılı olaraq, onlar ya xəta, ya da cinayət kimi qiymətləndirilə bilər. Məsələnin həlli üçün hüquqpozmanın törədilməsi yeri onun hüquqazidd nəticəsi və s. kimi amillərdən istifadə edilir.

Bir çox hallarda cinayət və xətaların mürəkkəb tərkibini ayırmaq və sanksiyanın düzgün tətbiq edilməsini təmin etmək üçün qanunverici onların tərkiblərində konkret əlamətləri möhkəmləndirir. Məsələn, Azərbaycan Respublikasının İXS-nin 346-cı maddəsi ″Mülki silahın və döyüş sursatının saxalanılması, daşınması və ya satılması qaydalarının pozulması″ və Azərbaycan Respublikasının CM-nin 230-cu maddəsi: ″Odlu silahı diqqətsiz saxlama″. Göründüyü kimi hər iki halda silahın saxlanması qaydalarından söhbət aparılır. Əgər silahın saxlama qaydaları pozulubsa və heç bir nəticə yoxdursa, onda məsuliyyət

Azərbaycan Respublikası İXM-nin 346-cı maddəsinə uyğun olaraq yaranır. Əgər ″odlu silahın diqqətsiz saxlanılması … nəticəsində... həmin silahdan başqa şəxsin istifadə etməsi ağır nəticələrə səbəb olduqda...″ məsuliyyət Azərbaycan Respublikasının CM-nin 230-cu maddəsinə uyğun olaraq yaranır.

Cinayət qaydasında cəzalandırılan qanunsuz ov etmə (Azərbaycan Respublikasının CM-nin 258-ci maddəsi) və inzibati qaydada tənbeh edilən ov qaydalarının pozulması (Azərbaycan Respublika-sının İXM-nin 111.2-ci mad.) vurulmuş ziyanın miqdarına görə fərqləndirilir, baxmayaraq ki, hər iki halda maddələrin dispozisiyalarında eyni əməllər qadağan edilir.

İnzibati xətalar və cinayətlər həm də əməlin törədilmə üsuluna, təqsirin formalarına, hüquqpozmanın motivinə və digər əlamətlərinə görə fərqlənirlər. Eyni əməl eyni zamanda həm cinayət, həm də inzibati xəta ola bilməz. Azərbaycan Respublikasının İXM-nin 3-cü maddəsində qeyd edilib ki:

″Yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş inzibati xətaların törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli (hərəkət və hərəkətsizlik) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur və tənbeh edilir″. Demək olar ki, eyni tərkibli maddə də Azərbaycan Respublikası CM-nin 3-cü maddəsində öz əksini tapıb. Beləliklə, belə bir qərara gəlmək olar ki, cinayətin və inzibati xətanın məcmusu mümkün deyil.

Qanunverici cinayət məsuliyyətinin üstünlüyünü təyin edib: əgər əməldə həm cinayətin, həm də xətanın əlamətləri olarsa, onda əməl cinayət kimi qiymətləndirilir və təqsirkar şəxs daha ciddi məsuliyyətə cəlb olunur. Bu əmələ görə ona qarşı inzibati tənbeh tətbiq edilmir, çünki şəxs eyni zamanda həm inzibati məsuliyyətə, həm də cinayət məsuliyyətinə cəlb edilə bilməz, belə hallarda şəxsə qarşı həmin fakt üzrə cinayət işinin başlanmasına icazə verilir (Azərbaycan Respublikasının CPM-nin 207.5.1-ci maddəsi).

Əgər məhkəmənin hökmü ilə hüquqpozma cinayət sayılsa, o eyni zamanda inzibati xəta ola bilməz. Deməli, əvvəlcədən bu əmələ görə tətbiq edilmiş inzibati tənbeh məhkəmə tərəfindən cəza tədbiri seçilərkən nəzərə alınmalıdır.

İnzibati və intizam xətaları bir qayda olaraq cinayət hüquqpozmaları deyildirlər. Çünki onların hər ikisi bir qayda olaraq yüksək ictimai-təhlükəlilik dərəcəsinə malik deyildirlər. İntizam və inzibati xətalar üzrə araşdırmalar (təhqiqat) və onlara görə sanksiyaların tətbiqi icraedici-sərəncamverici fəaliyyət prosesində həyata keçirilir. İntizam və inzibati xətaların digər oxşar cəhətləri də mövcuddur (hüquqazidd, təqsirlilik və s.). Bunlara baxmayaraq inzibati və intizam xətaları bir-birindən aşağıdakı əlamətlərə görə fərqlənirlər:

Birincisi, onların normativ-hüquqi bazaları eyni deyil. İnzibati xətalar inzibati hüquq normalarında qeyd olunub, burada da xətaların anlayışından başqa konkret inzibati xətaların təsviri verilir. İntizam xətaları isə düzünə və ya dolayı yolla əmək normalarında, cəza-icra hüququ normalarında verilir, lakin istisna hallardan başqa (üzürsüz səbəbdən işə çıxmama və s.) bu normalar intizam xətalarının tərkiblərini əks etdirmir.

İkincisi, intizam xətasının subyekti müəyyən sabit kollektivin üzvüdür, nəzarət edən və məcburetmə tədbirini tətbiq edən subyekt isə bu kollektivin rəhbəridir. İnzibati xətanın subyekti isə vətəndaşlar, vəzifəli şəxslər və ya hüquqi şəxslər ola bilərlər ki, onlar nəzarət edən və məcburetmə tədbirlərini tətbiq edən subyekt ilə sabit təşkilati əlaqədə deyldirlər.

Üçüncüsü, intizam xətası sabit kollektivin üzvü olan şəxsin bu kollektivdə olması ilə əlaqədar üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməməsindən ibarətdir. Buna görə də

intizam xətası daim sabiq kollektivdə mövcud olan intizam qaydalarının pozulmasıdır. İnzibati xəta isə şəxsin harada işləməsindən və hansı işin yerinə yetirməsindən asılı olmayaraq, bütün vətəndaşlara aid olan ümumməcburi qaydaların pozulmasından və vəzifələrin yerinə yetirilməsindən ibarətdir. Düzdür, bəzi hallarda vəzifəli şəxslərin, sürücülərin, ticarət işçilərinin hüquq və vəzifələri üst-üstə düşür, həm də inzibati xəta hesab edilir.

Dördüncüsü, intizam xətalarına görə təqsirkar şəxsə qarşı sanksiya onun üzv olduğu kollektivin rəhbəri tərəfindən tətbiq edilə bilər (müəssisənin müdiri, hərbi hissənin komandiri və s.). İnzibati xətalara görə isə inzibati tənbehlər funksional-hakimiyyətin sübyekti tərəfindən tətbiq edilir.

Beşincisi, intizam xətalarına görə intizam tənbehi, inzibati xətalara görə isə inzibati tənbehlər tətbiq edilir.

İkinci suala yekun olaraq qeyd etmək istərdim:

1. İnzibati xətanın tərkibi hüquqla müəyyən edilmiş elementlər məcmusudur ki, onların mövcudluğunda törədilmiş əməl inzibati xəta sayılır.

2. İnzibati xətanın tərkibinin elementləri aşağıdakılardır:

- inzibati xətanın obyektiv inzibati hüquq normaları ilə mühafizə olunan ictimai münasibətlərdir;
- inzibati xətanın obyektiv tərəfi inzibati xətanın xarici görünüşüdür;
- inzibat xətanın subyekti 16 yaşına çatmış, anlaqlı fiziki şəxsdir və ya inzibati hüquq subyektivliyinə malik olan hüquqi şəxsdir;
- inzibati xətanın subyektıı tərəfi şəxsin öz əməlinə və onun nəticələrinə daxili psixi münasibətidir.

Sual 3.
İnzibati məsuliyyətdən azad etmə

İnzibati xətalarla mübarizədə inzibati məsuliyyət effektli bir vasitədir, o həm də dövlət idarəetməsinin bütün sahələrində qanunçuluğun və intizamın möhkəmləndirilməsinin təsirli bir alətdir. Azərbaycan Respublikasının qanunvericiliyi demokratizm, humanizm, dövlət məcburetmə vasitələrinin qənaətliyi prinsiplərini, inandırma və ictimai təsir metodlarının tətbiqi sahəsinin genişləndirilməsini əsas tutaraq hüquqpozma törətmiş şəxsin hüquq məsuliyyətindən azad etmə imkanını nəzərdə tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi təsbit edilmişdir: ″Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüquq vardır″. Bu məqsədlə də İXM-nin 18-19-cu maddələrində son zərurət və zəruri müdafiə halları müəyyən edlmişdir. Vətəndaşlar da son zərurət və zəruri müdafiə hallarında öz konstitusion hüquqlarını müdafiə etdikdə inzibati məsuliyyətdən azad edilirlər.

Azərbaycan Respulikasının inzibati xətalar qanunvericiliyi inzibati məsuliyyəti istisna edən halları, inzibati məsuliyyətdən azadetmənin əsaslarını, şərtlərini, nəticələrini və inzibati məsuliyyətin məhdudlaşdırılması hallarını müəyyən edir.

İnzibati məsuliyyəti istisna edən hallar

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi inzibati məsuliyyəti istisna edən aşağıdakı 3 (üç) halı müəyyən etmişdir:

1. Son zərurət (İXM-nin 18-ci maddəsi).
2. Zəruri müdafiə (İXM-nin 19-cu maddəsi).
3. Anlaqsızlıq (İXM-nin 20-ci maddəsi).

Azərbaycan Respublikasının İXM-nin 18-ci maddəsi: ″Son zərurət″. Bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş əməllərin əlamətlərinə uyğun gəlmiş olsa da, son zərurət vəziyyətinə, yəni dövlətin və cəmiyyətin mənafeyini, həmin şəxsin və ya başqa şəxsin sağlamlığını, hüquqlarını və qanuni mənafelərini qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün edilmiş hərəkət, əgər bu təhlükə başqa vasitə ilə aradan qaldırıla bilməzdisə və əgər vurulmuş zərər qarşısı alınmış zərərdən daha az əhəmiyyətli olmuşsa, bu, inzibati xəta hesab olunmur.

Son zərurət zamanı iki marağın toqquşması baş verir, yəni son zərurət halında hüquqla mühafizə olunan bir mənafelərə zərər vurma təhlükəsi digər mühafizə olunan mənafelərə az əhəmiyyətli zərərin vurulması ilə qarşısı alınır. Son zərurət institutu insanların sosial fəallığın artmasına, hüquq qaydalarının mühafizəsində iştirak etməsinə şərait yaradır.

Son zərurət halı mühafizə olunan mənafelərə qarşı həqiqi, real, cüzi olmayan təhlükə olduqda yaranır.

Son zərurət zamanı yaranan təhlükənin mənbəyi aşağıdakılar ola bilər:

a) təbii fəlakət qüvvələri: daşqın, zəlzələ, yanğın, sel və s.;

b) vəhşi və ev heyvanları (insanlara hücum etdikdə);

v) yüksək təhlükə mənbələri (məsələn, nasaz maşınlar və s.);

q) insan orqanizmində baş verən fizioloci və bioloci proseslər (məsələn, xəstəlik, aclıq).

Hüquqla mühafizə olunan mənafelərə qarşı təhlükəni aradan qaldıran şəxsin hərəkəti Azərbaycan Respublikasının İXM-nin müvafiq maddələrində nəzərdə tutulmuş bir və ya bir neçə inzibati xətanın tərkibini formal surətdə yaradır. Məsələn, sürücü Məmmədov yol hərəkəti qaydalarını pozaraq hərəkət hissəsinin qarşıdan gələn nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş hərəkət zolağına çıxmış və bununla da qəza şəraitini yaratmışdır (Azərbaycan Respublikası İXM-nin 151.3-cü maddəsi), belə ki, qarşı hərəkət zolağı ilə yaxınlaşan sürücü Həsənov yol nəqliyyat hadisəsinin qarşısını almaq məqsədilə idarə etdiyi nəqliyyat vasitəsini yolun hərəkət hissəsindən kənara çıxartmış və yolun çəpərləyici qurğusunu zədələmişdir (Azərbaycan Respublikası İXM-nin 151.7-ci maddəsi).

Son zərurət vəziyyətinin müəyyən edliməsi üçün iki qrup halların araşdırılması zəruridir:

1. yaranan təhlükəyə aid olan hallar:

- hüquqla mühafizə olunan mənafelərə qəsd edən təhlükənin yaranması;
- yaranmış təhlükə həqiqi olmalıdır, onun reallığı şübhə yaratmamalıdır;
- yaranmış təhlükənin həmin vəziyyətdə başqa vasitələrlə aradan qaldırılması mümkün olmamalıdır.

2. təhlükənin qarşısının alınması fəaliyyətinə aid olan hallar:

- dövlətin və cəmiyyətin mənafeyini, həmin şəxsin və ya başqa şəxsin sağlamlığını, hüquqlarını və qanuni mənafelərinin müdafiə edilməsi üzrə zərər vurulmalıdır;

- bir qayda kimi zərər üçüncü şəxslərə vurulmalıdır;
- vurulmuş zərər qarşısı alınmış zərərdən daha az əhəmiyyətli olmalıdır.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən hər iki qrup halların mövcudluğunda törədilmiş hərəkət inzibati xəta hesab edilmir və şəxs inzibati məsuliyyətə cəlb edilmir.

Son zərurət vəziyyətini aşağıdakı sxem şəklində təsvir etmək olar:

Son zərurət vəziyyətində hətta bərabər zərərin vurulmasının da sadəcə olaraq əhəmiyyəti yoxdur. Buna görə də inzibati xətalar qanunvericiliyi son zərurət vəziyyətində edilmiş hərəkətlərin qanuniliyini qarşısı alınan zərər ilə müqayisədə daha az zərər vurulması şərtinin yerinə yetirilməsi ilə əlaqələndirilir.

Bu şərt qanunla qorunan mənafelərin mühafizə edilən və zərər vurulan mənafeləri hər dəfə dəyərləndirmək, onların əhəmiyyətini müqayisə etmək zərurətini nəzərdə tutur. Məsələn, insanın həyatı və sağlamlığı əmlak mənafeyindən daha mühüm əhəmiyyət kəsb edən mənafedir. Deməli, əmlaka vurulan zərər insanın sağlamlığına vurulan ərərdən az əhəmiyyətli olacaqdır.

İnzibati məsuliyyəti istisna edən hallardan biri də zəruri müdafiə vəziyyətidir.

Azərbaycan Respublikasının İXM-nin 19-cu maddəsi: **″Zəruri müdafiə″.**

Bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş əməllərin əlamətlərinə uyğun gəlmiş olsa da, zəruri müdafiə vəziyyətində, yəni dövlətin və cəmiyyətin mənafeyinə, özünü müdafiə edənin və ya başqa şəxsin sağlamlığına, hüquqlarına və ya qanuni mənafeyinə qəsd edənə zərər vurmaq yolu ilə hüquqazidd qəsddən qoruyarkən edilmiş hərəkət inzibati xəta hesab olunmur.

Azərbaycan Respublikasının İXM-də nəzərdə tutulmuş zəruri müdafiə hüququ dövlətin və cəmiyyətin mənafeyinə, özünü müdafiə edənin və ya başqa şəxsin sağlamlığına, hüquqlarına və ya qanuni mənafeyinə qarşı törədilən istənilən qəsddən qorumaq üçün konstitusiyada nəzərdə tutulan huquqlarının həyata keçirilməsində vətəndaşlara verilən ən vacib təminatlardan biridir. Zəruri müdafiə hüququ əhalinin inzibati xətalarla mübarizəyə, onların xəbərdar edilməsinə və qarşısının alınmasına cəlb etməyə zəmin yaradır.

Zəruri müdafiə zamanı qarşısı alınan qəsd Azərbaycan Respublikasının İXM-nin 19-cu maddəsində göstərilən hüquq və mənafelərə zərər vurmalı, ya da belə zərərin vurma təhlükəsini yaratmalıdır. Zəruri müdafiə zamanı qarşısı alınan qəsd hüquqazidd olmalıdır, yəni İXM-nin xüsusi hissəsində inzibati xəta kimi qeyd edilməlidir. Qəsdin həmin anda təqsirli olması vacib deyil. Zəruri müdafiə eyni zamanda azyaşlı və anlaqsız şəxslə qarşı da nəzərdə tutulub. Lakin bu zaman müdafiə edilən şəxs mümkün dərəcədə elə tədbir seçməlidir ki, onlara az zərər yetirilsin və ya zərər ümumiyyətlə, yetirilməsin. Eyni zamanda vəzifəli şəxslərin qanunauyğun hərəkətlərinə qarşı zəruri müdafiənin həyata keçirilməsinə yol verilmir. Məsələn, pois əməkdaşı xırda xuliqanlıq törətmiş şəxsi yaxaladıqda.

Zəruri müdafiənin müəyyən edilməsinin iki qrup şərtlərinin araşdırılması zəruridir:

<u>1. qəsdə aid olan şərtlər:</u>

- qəsd ictimai təhlükəli olmalıdır;
- qəsd mövcud olmalıdır;

- qəsd real olmalıdır.

2. müdafiəyə aid olan şərtlər:

- dövlətin və cəmiyyətin mənafeyini, özünü müdafiə edənin və ya başqa şəxsin sağlamlığına, hüquqlarına və qanuni mənafeyinin müdafiəsinə icazə verilir;
- müdafiə zamanı zərər yalnız qəsd edənə vurulmalıdır;
- müdafiə zəruri müdafiə həddini aşmamalıdır.

Zəruri müdafiə qəsd edənə zərər vurmaq yolu ilə həyata keçirilir, son zərurətdə isə zərər üçüncü şəxsə vurulur. Məsələn: Azərbaycan Respublikasının İXM-nin 305-ci maddəsində ″Yaşayış məntəqələrində... odlu silahın atəş açmağa görə - silah və döyüş sursatı müsadirə edilməklə və ya edilməməklə şərti maliyyə vahidi məbləğinin on mislindən iyirmi mislinədək miqdarda cərimə edilir. Lakin əgər şəxs özünü və ailəsini silahlı basqından müdafiə etməsi silahından atəş açırsa, aydın məsələdir ki, o, inzibati məsuiyyətə cəlb edilə bilməz, ona görə ki, o, zəruri müdafiə vəziyyətində silahdan atəş açıb.

Son zərurətin zəruri müdafiədən fərqi aşağıdakı meyarlar əsasında aparıla bilər:

1. Təhlükə mənbəsinə görə:

- son zərurətdə - nəinki, insanın ictimai təhlükəli əmelləri, eləcə də təbii fəlakətlər, vəhşi və ev heyvanları və s. ola bilər;
- zəruri müdafiədə - yalnız insanın hüquqazidd, ictimai təhlükəli əmelləri təhlükə mənbəyi ola bilər.

2. Üsuluna görə:

- son zərurətdə - zərərin vurulması yaranmış təhlükənin aradan qaldırılmasının yeganə üsulu olmalıdır.
- zəruri müdafiədə - zərərin vurlması həm də qəsdən qaçmaq və ya kömək üçün başqa şəxsə və ya başqa orqana müraciət etmək imkanı olduqda mümkündür.

3. Vurulmuş zərərə görə:

- son zərurətdə - zərər üçüncü şəxslərə vurulur;
- zəruri müdafiədə - zərər yalnız qəsd edənə vurulur.

4. Qarşısı alınmış və vurulmuş zərərin nisbətinə görə:

- son zərurətdə - vurulmuş zərər qarşısı alınmış zərərdən az əhəmiyyətli omalıdır.

zəruri müdafiədə - qəsd edənə vurulan zərər qarşısıalınan zərərlə bərabər və ya ondan az olmalıdır.

İnzibati məsuliyyəti istisna edən hallardan biri də inzibati xəta törətmiş şəxsin anlaqsız vəziyyətdə olmasıdır.

Azərbaycan Respublikasının İXM-nin 20-ci maddəsi: **Anlaqsızlıq**

″Hüquqazidd əməl (hərəkət və ya hərəkətsizlik) törədən zaman şəxs anlaqsızlıq vəziyyətində olduqda, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllılıq və ya başqa psixi xəstəlik nəticəsində öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya onu idarə etmək iqtidarında olmadıqda o, inzibati məsuliyyətə cəlb edilmir″.

Bu maddədə nəzərdə tutulmuş anlaqsızlıq iki meyardan ibarətdir:

tibbi meyar - xroniki psixiki xəstəliyi, psixi fəaliyyətin müvəqqəti pozulmasını, kəmağıllığı və başqa psixi xəstəliyi əhatə edir;

hüquqi meyar - şəxs öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya onu idarə etmək iqtidarında olmamasını əhatə edir.

Qeyd etmək lazımdır ki, şəxsi anlaqsız hesab etmək üçün onda eyni zamanda həm tibbi, həm də hüquqi meyarlar cəmləşməlidir. Və əgər inzibati xəta törətmiş şəxsdə hər hansı bir psixi xəstəliyinin olması barədə kifayət qədər məlumat və ya şübhə varsa, psixiatriya ekspertizası təyin olunmalıdır. İşin materialarında da ekspert rəyi olmalıdır.

Anlaqsızlığın tibbi meyarı xroniki psixi xəstəlikdən, psixi fəaliyyətin müvəqqəti pozulmasından, kəmağıllıqdan və ya başqa psixi xəstəlikdən ibarətdir.

Xroniki ruhi xəstəlik dedikdə, daimi və ya uzun müddət fasiləsiz olaraq davam edən, çətin müalicə olunan və daimi güclənməyə meyil göstərən psixi xəstəlik başa düşülür.

Burada şizofreniya, epilepsiya, proqressiv paraliç, maniakal-depressiv psixozlar, beyin sifilisi və başqa xəstəliklər aiddir.

Ruhi fəaliyyətin müvəqqəti pozulması dedikdə, müəyyən müddətə davam edən və şəxsin sağalması ilə nəticələnən (şəxsi tutmalarla xarakterizə olunan) psixi xəstələnmə başa düşülür.

Burada qısamüddətli, qəflətən baş verən və tezliklə ötüb keçən psixi vəziyyətlər, patoloci affekt, patoloci sərxoşluq, alkoqol psixozla, kəskin infeksion psixozlar aid edilə bilər.

Kəmağıllılıq (oliqrofreniya) - anadan gəlmə və ya uşaqlıq dövründə meydana gələn, ya da getdikcə şiddətlənən bu və ya digər psixi xəstəlik nəticəsində inkişaf edən əqli zəiflik vəziyyətidir.

Kəmağllılığın üç forması mövcuddur:

- idiotizm - psixi cəhətdən inkişaf etməmənin ən dərin forması;
- inbesillik - kəmağıllılığın az ağır forması;
- debillik - kəmağıllılığın ən yüngül forması.

Başqa psixi xəstəlik - psixi pozuntusunun ağır formalarını əks etdirən müxtəlif xəstəliklərdir. Məsələn: psixopatiyanın bəzi formaları, ruhi pozuntular, narkomanlarla abstinensiya (lomka) və s.

Anlaqsızlığın hüquqi meyarı şəxsə öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək (qiymət vermək) və ya onu idarə etmək (rəhbərlik etmək) iqtdarında maneçilik törədən psixi xəstəliyin olmasıdır.

Anlaqsızlığın hüquqi meyarı iki ünsürdən ibarətdir:

- intellektual, yəni şəxsin öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyni dərk etmə iqtidarında olmaması;
- iradəvi, yəni şəxsin öz əməlini idarəetmə iqtidarında olmaması.

Əgər şəxs öz əməlini dərk etmirsə (ona qiymət verə bilmirsə), deməli, o, əməlini də idarə edə bilməz. Eyni zamanda öz hərəkətlərinə qiymət verməsi şəxsin iradəsinin zəiflənməsi nəticəsində öz hərəkətlərinin idarəetməsi istisna etmir. Məsələn, şəxs öz əməlinin hüquqazidd xarakterini dərk edir, lakin psixi xəstəliyin təsiri altında özünü belə əməldən çəkindirə bilmir (məsələn, piromanlarda - bu şəxslər oda baxmağı sevirlər, kleptomanlar - bu şəxslər alınmaz istək nəticəsində oğurluq edirlər).

Azərbaycan Respulikasının inzibati xətalar qanunvericiliyi inzibati məsuliyyətdən azad etmənin əsaslarını, şərtlərini və nəticələrini müəyyən edir.

İnzibati məsuliyyətdən azad etmənin əsasları, şərtləri və nəticələri Azərbaycan Respublikasının İXM-nin 15.2-ci və 21-ci maddələrində qeyd edilib.

Azərbaycan Respublikasının İXM-nin 15.2-ci maddəsi: ″İşin konkret halları, psixi inkişafı, həyat şəraiti, səhhəti və təhsili nəzərə alınmaqla inzibati xəta törətmiş on altı

yaşından on səkkiz yaşınadək şəxslər yetkinlik yaşına çatmyanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar tərəfindən inzibati məsuliyyətdən azad oluna və onların barəsində ″Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə″ ilə müəyyən edilmiş təsir tədbirləri tətbiq edilə bilər.

Ümumiyyətlə bu maddənin Azərbaycan Respublikasının İXM-də olması inzibati məsuliyyətdən azad etmənin əsaslarından biridir.

İnzibati məsuliyyətdən azad etmənin şərtləri: inzibati xəta törətmiş on altı yaşından on səkkiz yaşınadək olan şəxsin psixi inkişafı, həyat şəraiti, səhhəti, təhsili və işin konkret halları nəzərə alınmaqla şəxs inzibati məsuliyyətdən azad edilə bilər.

İnzibati məsuliyyətdən azad etmənin nəticəsi: şəxs inzibati məsuliyyətdən azad edilə və onlar barəsində ″Yetkinlik yaşına çatmyanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə″ ilə müəyyən edilmiş təsir tədbirləri tətbiq edilə bilər.

İnzibati məsuliyyətdən azad etmənin əsası Azərbaycan Respublikasının İXM-nin 21-ci maddəsi: ″İnzibati xəta az əhəmiyyətli olduqda daha yüngül inzibati tənbeh tətbiq etmə və ya inzibati məsuliyyətdən azadetmə.

Törədilmiş inzibati xəta az əhəmiyyətli olduqda inzibati tənbeh tətbiq etmə hüququ olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xəta törətmiş şəxslər barəsində tətbiq edilməsi nəzərdə tutulan inzibati tənbehi daha yüngül inzibati tənbeh növü ilə əvəz edə və ya həmin şəxsi inzibati məsuliyyətdən azad edə bilər″.

Bu maddədə inzibati məsuliyyətdən azadetmənin vahid bir şərti göstərilmişdir: ″törədilmiş xəta az əzəmiyyətli olduqda″.

İnzibati xətanı az əhəmiyyətli kimi qiymətləndirmək üçün aşağıdakıları nəzərə almaq lazımdır:

- inzibati xətanın tərkibini;
- törədilmiş xətaya görə nəzərdə tutulmuş sanksiyanı;
- inzibati xətanın törədilməsinin səbəb və şəraitini;
- inzibati xətanın xarakterini və s.

Məsuliyyətdən azad etmənin nəticələri ilə işə baxan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən şəxs inzibati məsuliyyətən azad edilə bilər.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 21-ci maddəsində göstərilən müddəanı: ″...nəzərdə tutulan inzibati tənbehi daha yüngül inzibati tənbeh növü ilə əvəz edə ... bilər″ məsuliyyətdən azad etmə halı kimi qiymətləndirilə bilməz, ona görə ki, şəxs burada faktiki olaraq inzibati məsuliyyətə cəlb edilir, yəni maddənin sanksiyasında nəzərdə tutulmuş inzibati tənbeh daha yüngül inzibati tənbeh növü ilə əvəz edilir.

İnzibati məsuliyyəti istisna edən halları. İnzibati məsuliyyətdən azad etmənin hallarını inzibati məsuliyyəti məhdudlaşdıran hallardan fərqləndirmək lazımdır.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi inzibati məsuliyyətin məhdudlaşdırılması hallarını aşağıdakı meyarlara görə fərqləndirir:

- inzibati xətanın subyektinə görə;
- inzibati tənbehlərin tətbiq edilməsinə görə;
- inzibati tənbehlərin icrasına görə.

İnzibati xətanın subyektinə görə inzibati məsuliyyətin məhdudlaşdırılması halları:

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Naziliyi, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyət və

İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi və Azərbaycan Respublikası Hərbi Əks-Kəşfiyyat xidməti əməkdaşları intizamnamələrində bilavasitə nəzərdə tutulmuş hallarda inzibati xətalara görə intizam məsuliyyəti daşıyırlar, qalan hallarla ilə ümumi əsaslarla inzibati məsuliyyət daşıyırlar (Azərbaycan Respublikasının İXM-nin 15.3-cü maddəsi).

Azərbaycan Dövlət Dəmir Yolunda və Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyində qulluq vəzifələrinin icrası zaman inzibati xətalar törətməyə görə intizam nizamnamələrində və ya intizam haqqında Əsasnamələrdə bilavasitə nəzərdə tutulmuş hallarla intizam məsuliyyəti, qalan hallarda isə ümumi əsaslarla inzibati məsuliyyət daşıyırlar (Azərbaycan Respublikası 15.4-cü maddəsi).

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən, Azərbaycan Respublikasında toxunulmazlıq hüququndan istifadə edən əcnəbilərin Azərbaycan Respublikasının ərazilərində törətdikləri inzibati xətalara görə məsuliyyət məsələsi beynəlxalq hüquq normalaına uyğun olaraq həll edilir (Azərbaycan Respublikasının İXM-nin 15.7-ci maddəsi).

İnzibati tənbehin tətbiq edilməsinə görə inzibati məsuliyyətin məhdudlaşdırılması halları:

❋ əsas dolanacaq mənbəyi ov olan şəxslərin odlu silahı, döyüş sursatı və digər ov alətləri müsadirə edəilə bilməz (Azərbaycan Respublikasının İXM-nin 27.3-cü maddəsi);

❋ nəqliyyat vasitələrini sərxoş halda idarəetmə halları istisna olmaqla, nəqliyyat vasitələrindən əlilliyi ilə əlaqədar istifadə edən şəxslərin nəqliyyat vasitələrini idarəetmə hüququ məhdudlaşdırıla bilməz (Azərbaycan Respublikasının İXM-nin 28.2-ci maddəsi);

❋ əsas dolanacaq mənbəyi ov olan fiziki şəxslərin hüququ məhdudlaşdırıla bilməz (Azərbaycan Respublikasının İXM-nin 28.4-cü maddəsi);

❋ hamilə qadınlar və ya himayəsində azyaşlı uşağı olan qadınlar, on səkkiz yaşına çatmayan şəxslər, birinci və ya ikinci qrup əlillər, habelə altmış yaşına çatmış qadınlar və altmış beş yaşına çatmış kişilər barəsində inzibati həbs tətbiq edilə bilməz (Azərbaycan Respublikasının İXM-nin 30.2-ci maddəsi);

❋ Azərbaycan Respublikası Müdafiə Nazirliyi; Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi; Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi; Azərbaycan Respublikası Ədliyyə Nazirliyi; AR DH və İOBMİ və ARƏKX əməkdaşlarına inzibati həbs tətbiq edilə bilməz (Azərbaycan Respublikası İXM-nin 15.3-cü maddəsi);

❋ müddətli həqiqi hərbi xidmət qulluqçularına inzibati həbs və inzibati cərimə tətbiq edlə bilməz (Azərbaycan Respublikasının İXM-nin 15.3-cü maddəsi).

İnzibati tənbeh tətbiq etmə haqqında qərarın icrasına görə inzibati məsuliyyətin məhdudlaşdırılması halları:

- yetkinlik yşına çatmayanın müstəqil qazancı olmadıqda, inzibati cərimə onun valideynləri və ya onları əvəz edən şəxslərdən tutulur (Azərbaycan Respublikasının İXM-nin 451.2-ci maddəsi);

- nəqliyyat vasitələrini idarə etmə hüququnun və ya ov hüququnun uzun müddətə məhdudlaşdırılması barədə qərar qəbul etmiş səlahiyyətli vəzifəli şəxs göstərilən hüququn məhdudlaşdırlıması müddətini, təyin edilmiş müddətin azı yarısı keçdikdən sonra nəqliyyat vasitələrini idarə etmə hüququ və ya ov hüququ məhdudlaşdırılmış şəxsin işlədiyi və ya oxuduğu müəssisənin, idarənin, təşkilatın vəsatəti ilə azalda bilər (Azərbaycan Respublikasının İXM-nin 455.5-ci maddəsi).

N Ə T İ C Ə

Mühazirəmizi yekunlaşdıraraq qeyd etmək istərdim ki, 01.09.2000-ci il tarixdən qüvvəyə minmiş inzibati xətalar qanunvericiliyi ilə əlaqədar olaraq bu günkü mühazirəmiz həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir.

Mühazirəmizin birinci sualının açıqlanmsı ilə qeyd etdik ki, köhnə ″İnzibati hüquqpozmalar haqqında Məcəllədən″ fərqli olaraq, qüvvədə olan ″İnzibati Xətalar Məcəlləsinin″ müvafiq maddələrinə əsasən inzibati xətalar qanunvericiliyi ilə inzibati məsuliyyətin əsasları, inzibati xətalar qanunvericiliyinin prinsipləri müəyyən edilmişidir. İnzibati xətalar qanunvericiliyindən irəli gələn tələblərə riayət etməklə insan və vətəndaşların hüquq və azadlıqları təmin edilmiş olar.

Mühazirəmizin ikinci sualının açıqlanması vasitəsi ilə İnzibati Xətalar Məcəlləsinin müvafiq müddəalarına müvafiq olaraq inzibati xəta haqqında, onun növləri, fiziki, vəzifəli və hüquqi şəxslərin məsuliyyətləri barədə nəzəri biliklər əldə etmiş olduq.

Ən nəhayət, mühazirəmizin üçüncü sualının açıqlanması vasitəsi ilə İnzibati Xətalar Məcəlləsinin müvafiq müddəalarına əsasən inzibati məsuliyyəti istisna edən hallar barəsində hüquqi biliklər əldə etmiş olduq.

Bu günkü mühazirəmizin müddəalarının açıqlanması vasitəsi ilə əldə etdiyimz nəzəri biliklərin əhəmiyyəti və mahiyyəti ondan ibarətdir ki, hər bir hüquqşünas və inzibati xətalar haqqında işlər üzrə icraatı həyata keçirən səlahiyyətli vəzifəli şəxslər tərəfindən onlara riayət edilməklə qanunçuluğa, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinə nail olmuş olarıq.

Mövzu № 12: ″ İnzibati tənbehlər və onların tətbiq edilmə qaydası″

P L A N :

GİRİŞ
4. İnzibati tənbehlərin anlayışı və mahiyyəti.
5. İnzibati tənbehlərin sistemi və növləri.
6. İnzibati tənbehlərin tətbiq edilməsinin ümumi qaydaları.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, 2000.
3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı, 2000.
4. «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu. 13 mart 1996-cu il.
5. ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22.02.1998-ci il.
6. ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 09.08.1994.
7. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.

8. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
9. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ II hissə. Dərs vəsaiti. Bakı, 2006.
10. E.Abdullayev. ″Vətəndaşların inzibati məsuliyyəti″. Dərs vəsaiti. B.,1992.
11. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
12. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
13. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.
14. V.R.Kisin. ″Administrativnoe pravonaruşenie: ponətie, sostav, kvalifikaüiə″. Dərs vəsaiti. Moskva, 1991.
15. A.M.Staxov. "Administrativnaə otvetstvennostğ". Dərs vəsaiti. Moskva, 2004

G İ R İ Ş

Mühazirənin birinci sualda inzibati tənbehlərin normati anlayışı, nəzəri şərhi veriləcək və onun mahiyyəti açıqlanaçaqdır.

İkinci sualın açıqlanması vasitəsi ilə siz, inzibati tənbehlərin sistemi və növləri barədə nəzəri biliklər əldə etmiş olacaqsınız. Çünki, təcrübədə yaranmış real vəziyyətdən asılı olaraq, təqsirkar şəxsə qarşı bu və ya digər tənbeh növü tətbiq edilir. Məhz bu səbəbdən siz, hansı inzibati tənbehlərin əsas, hansı inzibati tənbehlərin əlavə olmasını öyrənməlisiniz.

Mühazirəmizin üçüncü sualın açıqlanması ilə əldə edəcəyiniz nəzəri biliklərin vasitəsi ilə siz, gələcək fəaliyyətinizdə qanunvericiliyə müvafiq olaraq bu və ya digər tənbeh növünün tətbiqini düzgün həyata keçirmiş olacaqsınız.

Gələcək xidməti fəaliyyətinizdə Azərbaycan Respublikası Prezidentinin 09 avqust 1994-cü il ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ və 22 fevral 1998-ci il ″İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Fərmanlarından irəli gələn tələblərə riayət etmək üçün mühazirəmizin məzmunu ilə Sizlərdə hüquqi baza yaranacaqdır.

Sual 1.
İnzibati tənbehlərin anlayışı və mahiyyəti

Azərbaycan Respublikasının İXM-nin 22-ci maddəsinə əsasən, inzibati tənbeh məsuliyyət tədbiridir və inzibati xəta törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş şəxs, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq məqsədilə tətbiq olunur.

İnzibati tənbeh inzibati xəta törədilməsinə görə tətbiq edilən inzibati məsuliyyət tədbiridir. Bu məsuliyyət tədbirləri İXM-nin 23-cü maddəsi ilə təsbit olunub. Bunlardan başqa İXM-də başqa təsir tədbirləri də nəzərdə tutulub. Lakin bu o demək deyil ki, İXM-nin

30-cu fəslində nəzərdə tutulan ğətirilmə (mad. 397), inzibati qaydada tutma (mad. 398), şəxsi axtarış, fiziki şəxsdə olan şeyləri yoxlama (mad. 402), şeylərin və sənədlərin götürülməsi (mad. 404) və s. inzibati məcburetmə tətbirləri inzibati tənbeh sayılır. Çünki adları qeyd edilən tədbirlər İXM-nin 396-cı maddəsinə əsasən inzibati xətalar haqqında işlərin icraatını təmin etmək üçün müəyyən olunmuş inzibati-prosessual məcburetmə tətbirləridir və onların tətbiqi inzibati məsuliyyət demək deyil.

İnzibati tənbeh həm törədilmiş inzibati xətaya, həm də inzibati xəta törədən şəxsə qarşı olan mənfi münasibətin nəticəsidir. İnzibati xətalara qarşı mübarizədə inzibati tənbehlərin tətbiq edilməsi vacib olsa da əsas deyil, köməkçi bir vasitədir. İnzibati tənbehlər tətbiq edilərkən inandırma və məcburetmə metodları uzlaşdırılır. Çünki inzibati tənbehlər inzibati məcburetmə tədbirləri olmaqla yanaşı, eyni zamanda tərbiyəedici xarakterə də malikdir.

İnzibati tənbehlərin tətbiq edilməsinin aşağıdakı məqsədləri mövcuddur:

- inzibati xəta törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək;
- inzibati xəta törətmiş şəxs tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq;
- başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq.

İnzibati tənbehlərin məzmunu inzibati xəta törətmiş şəxsin subyektiv hüquqlarının və maddi mənafelərinin məhdudlaşdırılmasından ibarətdir.

Belə ki, inzibati həbsin tətbiqi inzibati xəta törətmiş şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılmasına gətirir, inzibati cərimə, «ödənişlə alınma» və «müsadirə» isə maddi itkilərlə bağlıdır. Bu tədbirlər dövlət məcburetmə xarakterlidir, çünki onların köməyi ilə dövlət təqsirli şəxsin arzusundan asılı olmayaraq, onun şəxsi və əmlak hüquqlarını müəyyən dərəcədə məhdudlaşdırır.

İnzibati tənbehlər bir qayda olaraq inzibati xəta törətmiş şəxsə maddi və ya mənəvi təsirin göstərilməsi ilə ifadə olunur. Bəzi inzibati tənbehlər özündə eyni zamanda mənəvi məzəmməti, maddi təsiri və inzibati xəta törətmiş şəxsin hüquqlarının müəyyən müddətə məhdudlaşdırılmasını uzlaşdırır (məsələn, inzibati həbs, «…xüsusi hüququn məhdudlaşdırılması», inzibati cərimə). Bu sanksiyaların tətbiq edilməsi ilə səlahiyyətli dövlət orqanlarının və onların vəzifəli şəxslərinin hakimiyyət səlahiyyətləri həyata keçirilir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 1.3-cü maddəsinə uyğun olaraq: ″İnzibati məsuliyyət müəyyən edən və inzibati xətalar törətmiş şəxsin tənbeh edilməsini nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olduqdan sonra tətbiq edilir″. Bu o deməkdir ki, İXM ilə nəzərdə tutulmayan hüquqa zidd əməl inzibati xəta deyil və buna ğörə inzibati tənbeh tətbiq edilə bilməz.

İnzibati tənbehlər dövlət orqanlarının və vəzifəli şəxslərin geniş dairəsi tərəfindən tətbiq edilməsində xarakterizə olunur. Bu orqan və vəzifəli şəxslərin dairəsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 357-ci maddəsi ilə müəyyən edilib. Bunlara aiddir: rayon (şəhər) məhkəmələri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, seçki komissiyaları, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları (vəzifəli şəxslər) və Azərbaycan Respublikasının Milli Bankı. Bundan əlavə «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli Fərmanın 3-cü bəndində inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların dəqiq siyahısı ğöstərilmişdir. İnzibati tənbehləri müxtəlif orqan və vəzifəli şəxslər tətbiq etdiyi üçün onlar həm təkbaşına,

həm də kollegial qaydada tətbiq olunur. Məsələn, dövlət idarəetmə orqanlarında və məhkəmələrdə bu məsələ bir qayda olaraq təkbaşına, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalarda isə kollegial formada həyata keçirilir.

İnzibati tənbehlərin tətbiq edilməsi müəyyən hüquqi nəticələr, yəni ″inzibati məsuliyyətə cəlb olunma vəziyyətini″ yaradır və bu müddətdə yeni inzibati xətanın törədilməsi inzibati məsuliyyəti ağırlaşdıran hal kimi çıxış edir.

Azərbaycan Respublikası İXM-nin 37-ci maddəsinə əsasən, ″inzibati məsuliyyətə cəlb olunma vəziyyəti″ tənbeh etmə haqqında qərarın icrasının qurtardığı gündən etibarən bir il ərzində davam edir və bu müddət bitdikdə hər hansı dövlət orqanının (vəzifəli şəxsin) xüsusi qərarı olmadan öz-özünə ləğv olunur. Bu müddət bitdikdə şəxs inzibati məsuliyyətə cəlb edilməmiş şəxs kimi sayılır.

İnzibati tənbehlər səlahiyyətli orqanlar və ya vəzifəli şəxslər tərəfindən xüsusi fərdi idarəetmə aktların qəbulu yolu ilə tətbiq edilir. Təqsirkarlar törətdikləri xətaya (əmələ) görə tənbeh edilir. Tətbiq edilən inzibati tənbehlər ədalətli olmalı, əməlin xarakterinə və inzibati xəta törətmiş şəxsin şəxsiyyətinə müvafiq olmalıdır. İnzibati tənbehin ″ağırlığı″ törədilən əməlin (xətanın) ″ağırlığından″ asılıdır.

Tənbehlər hüquq qaydasını dolayı yolla müdafiə edir, yəni onlar hüquqi vəzifələrin bilavasitə icrasını təmin edə bilmir, lakin əlavə vəzifələri müəyyən edərək vətəndaşın hüquqlarını məhdudlaşdırır və gələcəkdə şəxs tərəfindən qanunun tələblərini pozmamağa və onu nümünəvi davranışa həvəsləndirir.

Birinci sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki, bu sualda biz aşağıdakı kimi müddəaları açıqladıq:

1. İnzibati tənbeh Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi əsasında səlahiyyətli dövlət orqanı və ya vəzifəli şəxslər tərəfindən inzibati xəta törətmiş şəxsə qarşı tətbiq edilən təsir (tənbeh) tədbiridir.
2. İnzibati tənbehlər inzibati xəta törətmiş şəxslərin «tənbehetmə» funksiyalarını yerinə yetirən inzibati məcburetmə tədbirlərin növlərindən biridir.
3. İnzibati tənbehlərin tətbiq edilməsinin məqsədləri inzibati xəta törətmiş şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş şəxs, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısının alınmasından ibarətdir.
4. İnzibati tənbehlərin məzmunu şəxsin müəyyən hüquq və maddi mənafelərinin məhdudlaşdırılmasından ibarətdir.
5. İnzibati tənbehlər inzibati xətalar qanunvericiliyi ilə səlahiyyət verilmiş müvafiq dövlət orqanları və ya vəzifəli şəxslərin geniş dairəsi tərəfindən tətbiq olunur.
6. İnzibati tənbehlərin tətbiq edilməsi nəticəsində ″inzibati məsuliyyətə cəlb olunma vəziyyəti″ yaranır. Bu isə tənbeh etmə haqqında qərarın icrasının qurtardığı gündən bir il ərzində davam edir və bu müddət keçdikdən sonra avtomatik olaraq ləğv olunur.

Sual 2.
İnzibati tənbehlərin sistemi və növləri

Qanunvericikdə nəzərdə tutulmuş inzibati tənbehlər məzmun baxımından fərqlidir. Bu isə öz növbəsində inzibati xətaların xarakterini və təqsirli şəxsin şəxsiyyətini nəzərə almaqda onlara qarşı ədalətli tənbehin tətbiq edilməsinə imkan verir.

Azərbaycan Respublikasının İXM-nin 23-cü maddəsinə əsasən inzibati xətaların törədilməsinə görə aşağıdakı inzibati tənbehlər tətbiq oluna bilər:

1. Xəbərdarlıq (İXM-nin 24-cü mad.)
2. İnzibati cərimə (İXM-nin 25-ci mad.)
3. İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması (İXM-nin 26-cı mad.)
4. İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi (İXM-nin 27-ci mad.)
5. İnzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması (ov etmək hüququ, nəqliyyat vasitəsini idarəetmə hüququ) (İXM-nin 28-ci mad.)
6. Əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma (İXM-nin 29-cu mad.)
7. İnzibati həbs (İXM-nin 30-cu mad.)

Göstərilən maddədə inzibati tənbehlər öz xarakterinə görə və tətbiq olunacaq subyektlərin dairəsindən asılı olaraq sistemləşdirilmişdir. Burada qanunverici inzibati tənbehləri həm təsir dərəcəsinə, həm də təsir nəticəsinə görə «yünğüldən» «ağıra» doğru ardıcıllıqla düzmüşdür. Bununla da inzibati tənbehləri tətbiq edən orqan və vəzifəli şəxsdə təqsirli şəxsə qarşı ədalətli və məqsədəuyğun tənbeh növünün seçilməsinə imkan yaranır. Bu zaman törədilmiş xətanın xarakteri, onu törədən şəxsin şəxsiyyəti, onun təqsirinin dərəcəsi, əmlak vəziyyəti, həmçinin məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar nəzərə alınır. İnzibati xəta törətmiş şəxslərə qarşı tətbiq olunan digər məcburetmə təsir tədbirləri inzibati tənbehlərə aid edilmir.

İnzibati xəta haqqında işə baxan orqan inzibati xətaya görə məsuliyyəti müəyyən edən normativ aktın maddəsinin sanksiyasında göstərilən inzibati tənbehi tətbiq edə bilər. Azərbaycan Respublikasının İXM-nin 23-cü maddəsində göstərilmiş inzibati tənbeh növlərindən bəziləri, qanunda dəqiq göstərilmiş müəyyən kateqoriya şəxslərə tətbiq oluna bilməz (məsələn, inzibati həbs hamilə qadınlara qarşı və s. kateqoriya şəxslərə tətbiq oluna bilməz).

Qüvvədə olan inzibati xətalar qanunveriçiliyi inzibati tənbehləri mütləq, nisbi müəyyən və alternativ növlərə bölür. Birinciyə misal olaraq, Azərbaycan Respublikasının İXM-nin 149.1-ci maddəsini göstərmək olar: Trolleybusda, tramvayda, şəhər və şəhərətrafı avtobuslarda, marşrut taksisində sərnişinlərin biletsiz getməsinə görə şərti maliyyə məbləğinin üç misli miqdarında cərimə edilir. İkinciyə misal olaraq, Azərbaycan Respublikasının İXM-nin 149.2-ci maddəsini göstərmək olar: Dəmir yolu nəqliyyatında sərnişinlərin biletsiz getmələrinə görə onlar şərti maliyyə vahidi məbləğinin on beş mislindən otuz mislinədək miqdarda cərimə edilir. Üçüncüyə misal olaraq İXM-nin 69-cu maddəsində göstərilən xırda talamanı göstərmək olar: « … özgəsinin əmlakını talamağa görə - şərti maliyyə vahidinin otuz beş mislindən qırx mislinədək cərimə edilir <u>və ya</u> işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət saylmadıqda isə on beş günədək müddətə inzibati həbs tətbiq edilir».

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyində inzibati tənbehlərin əsas və əlavə növləri göstərilmişdir:

Xəbərdarlıq, inzibati cərimə və ya inzibati həbs yalnız əsas inzibati tənbeh növləri kimi tətbiq edilir.

İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması, yaxud müsadirəsi, inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma həm əsas, həm də əlavə inzibati tənbeh növləri kimi tətbiq edilə bilər.

Bir inzibati xətaya görə əsas tənbeh, yaxud əsas və əlavə tənbeh təbtiq edilə bilər.

Sanksiya alternativ kimi göstərilən hallarda (məsələn, İXM-nin 346.1-ci maddəsinin sanksiyası «… silah və döyüş sursatı ödənişlə alınmaqla və ya alınmamaqla şərti maliyyə vahidinin iyirmi beş mislindən otuz beş mislinədək miqdarda cərimə edilir.) inzibati xəta haqqında işə baxan orqan işin hallarına görə əlavə tənbeh növünü tətbiq edə və ya tətbiq etməyə bilər. Əgər xüsusi hissənin maddəsi əsas tənbehlə birlikdə əlavə tənbehi də tətbiq etməyə məcbur edirsə, belə hallarda həmin orqan əlavə tənbehi tətbiq etməkdən yayına bilməz (məsələn, İXM-nin 346.2-ci maddəsinin sanksiyası «… silah və döyüş sursatı ödənişlə alınmaqla və ya müsadirə edilməklə şərti maliyyə vahidinin otuz mislindən qırx mislinədək miqdarda cərimə edilir.).

İnzibati xətanın törədilməsinə görə əsas tənbeh növlərindən yalnız biri tətbiq edilə bilər. İki əsas tənbeh növünün eyni zamanda tətbiq olunması yolverilməzdir.

İnzibati tənbehlərin sistemi ilə yanaşı onun növlərinə diqqət yetirək.

Azərbaycan Respublikasının İXM-nin 24-cü maddəsinə əsasən:

Xəbərdarlıq inzibati tənbeh növü olmaqla hüquqazidd əməlin yolveril-məzliyi barədə şəxslərə edilən rəsmi xəbərdaredici tədbirdir. Xəbərdarlıq yazılı formada edilir.

Xəbərdarlıq tərbiyəvi xarakterli inzibati tənbeh növlərindən biridir. Xə-bərdarlıq əsasən cüzi inzibati xətalar törədildikdə təqsirli şəxslərə qarşı tətbiq olunur. Xəbərdarlıq İnzibati Xətalar Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrində göstərilən sanksiya ilə nəzərdə tutulan hallarda tətbiq oluna bilər.

Əksər hallarda xəbərdarlıq sanksiyalarda inzibati cərimə ilə alternativ olaraq nəzərdə tutulur. Bununla belə, qanunvericilik səlahiyyətli subyektlərə törədilmiş inzibati xətanın az əhəmiyyətli olmasından irəli gələrək sanksiyada nəzərdə tutulmayan xəbərdarlıq tənbeh növünün təqsirli şəxslərə tətbiqinə və ya həmin şəxsi inzibati məsuliyyətdən azad etməyə yol verir (İXM-nin 21-ci mad.).

Xəbərdarlığın tətbiq edilməsi digər inzibati tənbehin tətbiq edilməsinə bərabərdir və təqsirli şəxs üçün müvafiq hüquqi nəticələr yaradır. Bu tənbehə cəlb olunmuş şəxs tənbehin icrasının qurtardığı gündən bir il ərzində inzibati məsuliyyətə cəlb edilməmiş şəxs sayılır (İXM-nin 37-ci mad.).

Qüvvədə olan qanunvericilik xəbərdarlıq kimi inzibati tənbehin tətbiqinin yazılı formasını nəzərdə tutur. İnzibati xəta haqqında işə baxan orqan (vəzifəli şəxs) tərəfindən bu tənbehin tətbiqi haqqında qərar çıxarılır.

Azərbaycan Respublikasının İXM-nin 25-ci maddəsinə əsasən:

İnzibati cərimə bu Məcəllədə nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir.

İnzibati cərimənin aşağıdakı meyarları vardır:

- inzibati xətanın başa çatdığı və ya qarşısının alındığı vaxt Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən şərti maliyyə vahidinin miqdarı;

- inzibati xətanın başa çatdığı və ya qarşısının alındığı vaxt inzibati xətanın bilavasitə obyekti olmuş predmetin dəyəri;
- inzibati xətanın başa çatdığı və ya onun qarşısının alındığı vaxt ödənilməli olan, lakin ödənilməmiş ödənişlərin, vergilərin məbləği.

İnzibati xətalara görə, alınan cərimənin miqdarı şərti maliyyə vahidinin 3 (üç) mislindən az ola bilməz.

Şərti maliyyə vahidi ilə hesablanan və inzibati xətalara görə fiziki şəxslərdən alınan inzibati cərimənin miqdarı şərti maliyyə vahidinin qırx mislindən, vəzifəli şəxslərdən alınan inzibati cərimələrin miqdarı şərti maliyyə vahidinin doxsan mislindən, hüquqi şəxslərdən alınan inzibati cərimələrin miqdarı şərti maliyyə vahidinin üç yüz mislindən artıq ola bilməz.

İnzibati xətanın bilavasitə obyekti olmuş predmetin dəyəri ilə ölçülən cərimənin miqdarı həmin predmetin dəyərinin yüz faizindən, ödənilməmiş ödənişlərin, vergilərin məbləği ilə ölçülən cərimənin miqdarı isə həmin ödənişlərin, vergilərin yüz əlli faizindən artıq ola bilməz.

Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, inzibati cərimə Azərbaycan Respublikasının dövlət büdcəsinə keçirilir.

Hüquqi məsuliyyət tədbiri kimi cərimə yalnız inzibati hüquqda yox, həm də digər hüquq sahələrində (cinayət hüqüqü, mülki hüquq və s.) geniş tətbiq olunur. Məhz bu səbəbdən də aydınlıq üçün ona ″inzibati″ sözü əlavə edilmişdir.

İnzibati cərimə əmlak xarakterli inzibati tənbeh növüdür. O təqsirli şəxsin əmək haqqının, əmlakının və ya başqa gəlirinin bir hissəsinə müvafiq ölçüdə olan və dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir. İnzibati cərimə qanunvericilik tərəfindən inzibati tənbeh növü kimi əksər inzibati xətalara görə nəzərdə tutulub. Cərimə növündə inzibati tənbeh təqsirli şəxsin şüuruna təsir edərək, hər şeydən əvvəl onun əmlak maraqlarını məhdudlaşdırır. Cərimənin «ağırlığının» əsas göstəricisi onun miqdarıdır.

Qanunvericilik bu tənbehin «yuxarı» və «aşağı» həddini müəyyən etmişdir. İXM-nin Xüsusi hissəsində nəzərdə tutulmuş konkret növ inzibati xətalara görə məsuliyyəti nəzərdə tutan müvafiq normaların sanksiyalarında inzibati cərimənin miqdarı inzibati xətanın ictimai təhlükəlilik dərəcəsindən irəli gələrək müəyyən edilir. Bu zaman cərimənin miqdarı normada nəzərdə tutulmuş inzibati xəta üçün müəyyən edilmiş «yuxarı» həddən artıq ola bilməz. Məcəllənin Xüsusi hissəsinin normaları əsasən nisbi müəyyən edilmiş sanksiyalardan ibarətdir. Həmin sanksiyalarda inzibati cərimənin həm «yuxarı», həm də «aşağı» miqdarı göstərilmişdir. Qanunun bu müddəası səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati cərimənin miqdarını müəyyən edərkən törədilmiş inzibati xətanı və təqsirkarın şəxsiyyətini xarakterizə edən bütün halları nəzərə almaga imkan verir.

İnzibati cərimə əsas inzibati tənbeh növüdür. O digər tənbehlərin əvəzedicisi kimi tətbiq edilə bilməz. Qanunvericilikdə nəzərdə tutulmuş hallarda cərimə əlavə inzibati tənbehlərlə birlikdə tətbiq edilə bilər. Məsələn, İXM-nin 343-cü maddəsinin sanksiyası «… inzibati xətanın törədilməsində bilavasitə obyekt olmuş predmetlər müsadirə edilməklə və ya edilməməklə şərti maliyyə vahidinin otuz beş mislindən qırx mislinədək miqdarda cərimə edilir.»

İnzibati cərimənin tətbiq edilməsi zamanı işə baxan orqan (vəzifəli şəxs) tərəfindən qərar çıxarılır. İnzibati Xətalar Məcəlləsinin 412-ci maddəsində göstərilmiş hallarda inzibati cərimə inzibati xətanın törədildiyi yerdə protokol tərtib edilmədən tətbiq edilir və alınır. Bunu ücün aşağıdakı şərtlər vacibdir:

- törədilmiş inzibati xətaya görə inzibati tənbeh növü kimi xəbərdarlıq və ya inzibati cərimənin miqdarı şərti maliyyə vahidinin səkkiz mislindən (44 000 manat) artıq olmasın;
- təqsirkar ona qarşı tətbiq edilən inzibati cərimə ilə razılaşsın;
- inzibati cəriməni yerində ödəməyə imkanı olsun.

Göstərilən hallardan biri olmadıqda inzibati xəta haqqında protokol tərtib edilir. İnzibati xəta törədildiyi yerdə inzibati cərimə tutulduqda fiziki şəxsə müəyyən edilmiş nümunədə qəbz verilir. Qəbzdə İnzibati Xətalar Məcəlləsinin 452-ci maddəsində göstərilən məlumatlar öz əksini tapmalıdır.

Azərbaycan Respublikasının İXM-nin 26-cı maddəsinə əsasən:

İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmet ödənişlə, məcburi qaydada alınır, sonra satılır və əldə edilən məbləğ həmin predmetin satılması ilə əlaqədar xərclər çıxıldıqdan sonra onun keçmiş sahibinə verilir.

İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması hakim tərəfindən tətbiq edilir.

Əsas dolanacaq mənbəyi ov olan şəxslər barəsində odlu silahın, döyüş sursatının və digər ov alətinin ödənişlə alınması tətbiq edilə bilməz.

Predmetin ödənişlə alınması qaydası bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunvericiliyi ilə müəyyən edilir.

«Ödənişlə alınma» əmlak xarakterli inzibati tənbehdir və yalnız xətanın törədilməsində alət kimi istifadə edilən və ya inzibati xətanın bilavasitə obyekti olan predmetlərin sahibləri barəsində tətbiq edilə bilər. Azərbaycan Respublikasının İXM-nin 404-cü maddəsinə əsasən təqsirkar şəxsə məxsus olan predmetlərin məcburi qaydada götürülməsi inzibati tənbeh sayılmır.

Məzmununa görə «predmetin ödənişlə alınması» üç qarşılıqlı əlaqəli hərəkətlərdən ibarətdir:

1. hüquqpozan şəxsdən predmetin məcburi alınması;
2. bu predmetin satılması;
3. alınmış predmetin satılması ilə əlaqədar xərclər çıxıldıqdan sonra əldə edilən məbləğin keçmiş sahibinə qaytarılması.

«Ödənişlilik» əlamətinə görə bu alınma digər inzibati tənbehdən, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsindən fərqlənir. Müsadirə olunmuş predmetlər ödənişsiz olaraq dövlətin mülkiyyətinə keçirilir.

Predmetin ödənişlə alınması həm əsas, həm də əlavə inzibati tənbeh növü kimi tətbiq edilə bilər.

Bununla yanaşı, qanunverici bu inzibati tənbehin tətbiq edilməsində məhdudiyyətlər də qoyur. Odlu silahın və döyüş sursatının ödənişlə alınması, əsas dolanacaq mənbəyi ov olan şəxslər barəsində tətbiq edilə bilməz.

Bu növ inzibati tənbehin tətbiq edilməsi yalnız hakim tərəfindən tətbiq edilə bilər.

Azərbaycan Respublikasının İXM-nin 27-ci maddəsinə əsasən:

İnzibati xəta törətmiş şəxsin xüsusi mülkiyyətində olan, habelə inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş hallarda həmin predmetin məcburi qaydada və ödənişsiz dövlətin mülkiyyətinə keçməsindən ibarətdir.

İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi hakim tərəfindən tətbiq edilir.

Əsas dolanacaq mənbəyi ov olan şəxslərin odlu silahı, döyüş sursatı və digər ov alətləri müsadirə edilə bilməz.

Müsadirənin tətbiqi qaydası bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunvericiliyi ilə müəyyən edilir.

İnzibati tənbeh növü kimi tətbiq olunan «müsadirə» inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişsiz və məcburi qaydada dövlətin mülkiyyətinə keçməsindən ibarətdir. Təqsirkar şəxsin yalnız xüsusi mülkiyyətində olan predmet müsadirə oluna bilər. Müsadirənin tətbiq edilməsinin bu qaydasından başqa Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər qaydalar da mövcuddur. Məsələn, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 237-ci maddəsinin 4-cü hissəsinə əsasən, «bilavasitə gömrük qaydalarının pozulması obyekti olan malların və nəqliyyat vasitələrinin… müsadirəsi».

İnzibati qaydada müsadirəni cinayət hüququnda cəza kimi tətbiq edilən müsadirədən fərqləndirən əlamətlər aşagıdakılardır:

- xüsusi mülkiyyətdə olan predmetin müsadirəsi cinayətə görə yox, yalnız inzibati xətaya görə tətbiq edilir;

- inzibati qaydada tətbiq edilən müsadirədə yalnız inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmet dövlətin mülkiyyətinə keçirilir (odlu ov silahı, ev şəraitində istehsal edilmiş alkoqollu içkilər və s.), cinayət qaydasında isə təqsirləndirilən şəxsin cinayət törədərkən istifadə etdiyi alət və vasitələri, habelə cinayət yolu ilə əldə etdiyi mülkiyyəti müsadirə olunur;

- cinayət hüququnda tətbiq edilən müsadirədən fərqli olaraq inzibati tənbeh kimi tətbiq edilən müsadirə həm əsas, həm də əlavə tənbeh növü kimi tətbiq oluna bilər. Cinayət qaydasında tətbiq edilən müsadirə yalnız əlavə cəza tədbiri kimi tətbiq edilir (Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 43.3-cü maddəsi).

Müsadirəni «ödənişlə almadan» və digər inzibati təsir tədbirindən fərqləndirmək lazımdır. Belə ki, predmetin «ödənişlə alınması» onun dəyərinin keçmiş sahibinə qaytarılmasında, müsadirədə isə ödənişsiz dövlətin mülkiyyətinə keçməsində ifadə olunur.

İnzibati xətaya görə tətbiq olunan müsadirə Azərbaycan Respublikasının İXM-nin 404-cü maddəsində göstərilən əşya və sənədlərin götürülməsi kimi inzibati-prosessual təmin etmə tədbirindən fərqlənir. Prosessual məqsədlə götürülən əşya və sənədlər (inzibati xətanın qarşısının alınması, işə vaxtında və düzgün baxılmasının təmin olunması, işlər üzrə qərarların icrası məqsədilə) işə baxılana qədər saxlanılır və işin nəticələrindən asılı olaraq ya müsadirə olunur, ya sahibinə qaytarılır, yaxud da məhv edilir.

Müsadirə əsas dolanacaq mənbəyi ov olan şəxslərin odlu silahı, döyüş sursatı və digər ov alətləri barədə tətbiq edilə bilməz.

İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi hakim tərəfindən tətbiq edilir.

Müsadirə haqqında qərarın icrası daxili işlər orqanları, Ekoloğiya və Təbii Sərvətlər Nazirliyi, gömrük orqanları, «Azərbayan Hava Yolları» Dövlət Konserni və səlahiyyət verilmiş digər orqanlar (vəzifəli şəxslər) tərəfindən həyata keçirilir.

Müsadirə dövlət mülkiyyətinə keçməli olan predmetin dəyərini ödəməklə əvəz oluna bilməz.

Azərbaycan Respublikasının İXM-nin 28-ci maddəsinə əsasən:

Verilmiş xüsusi hüquqdan istifadə qaydasını kobud şəkildə və ya müntəzəm pozmağa görə fiziki şəxsin həmin hüququ iki aydan iki ilədək müddətə məhdudlaşdırılır.

Nəqliyyat vasitələrini sərxoş halda idarəetmə halları istisna olmaqla, nəqliyyat vasitələrindən əlilliyi ilə əlaqədar istifadə edən şəxslərin nəqliyyat vasitələrini idarəetmə hüququ məhdudlaşdırıla bilməz.

Məcəllənin 151.2-ci, 151.3-cü, 151.4-cü, 155.3-cü və 156-cı maddələrində müəyyən edilmiş balla qiymətləndirilən xətaların yol verilməsinə görə sürücülər bir il ərzində 10 və daha çox bal topladıqda, inzibati cərimə tətbiq edilmədən onların nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılır.

Əsas dolanacaq mənbəyi ov olan fiziki şəxslərin ov hüququ məhdudlaşdırıla bilməz.

Bu inzibati tənbeh mahiyyəticə təqsirkar şəxsin müəyyən fəaliyyətlə məşğul olma və ya təbiətdən istifadə etmə kimi hüquqlarının məhdudlaşdırılmasından ibarətdir. Qanunverici bu tənbehin tətbiq edilməsi ilə təqsirkar şəxsdə yalnız nəqliyyat vasitələrinin idarəetmə hüququnu və ov etmək hüququnu məhdudlaşdırır.

Belə xüsusi hüququn verilməsi bir sıra məcburi şərtlərin olmasını ön plana çəkir. Əsasən bu nəqliyyat vasitəsinin idarəetməsi ilə bağlıdır. Yüksək təhlükə mənbəyi olan nəqliyyat vasitəsinin idarəedilməsi şəxsdə müəyyən sürüçülük vərdişlərinin olmasını, yol hərəkəti qaydalarının bilməsini, müvafiq sağlamlıq vəziyyətinin olmasını tələb edir. Qanunvericilik xüsusi biliklərin məcburi yoxlanılmasını (nəzərəi imtahan, texniki vərdişləri) nəzərdə tutur. Bu xüsusi hüquqların verilməsi müvafiq sənədlə təsdiq edilir (sürücülük vəsiqəsi, ovçu bileti).

Xüsusi hüququn məhdudlaşdırılması əsasən yol hərəkəti qaydalarını və nəqliyyatdan istifadə qaydalarını kobud şəkildə və ya müntəzəm pozmağa görə nəqliyyat vasitələrinin sürücüləri barəsində tətbiq edilir. Hərəkət təhlükəsizliyinin təmin edilməsinin təsirli vasitəsi olaraq nəqliyyat vasitəsini idarə etmə hüququnun məhdudlaşdırılması hüquqi məhdudiyyətlərlə əlaqəli olan tənbeh növüdür. Bu inzibati tənbehin tətbiq edilməsi sürücü üçün müəyyən olunmuş müddət ərzində nəqliyyat vasitələrinin idarə edilməsini qadağan edir. Nəzərə almaq lazımdır ki, bu tənbehin qüvvəsi avtomobil, traktor və digər özüyeriyən maşın, tramvay və trolleybusları, motosiklləri və digər mexaniki nəqliyyat vasitələrini idarə edən sürücülər tərəfindən müəyyən edilmiş qaydaların kobud və ya müntəzəm şəkildə pozmalarına aid edilir.

Bu inzibati tənbehin tətbiqi zaman törədilmiş inzibati xətanın xarakteri və inzibati xətanın xüsusi subyektinin (sürüçünün) şəxsiyyəti, onun əmlak vəziyyəti, təqsirinin dərəcəsi habelə məsuliyyəti yüngülləşdirən və agırlaşdıran hallar nəzərə alınır. Qanunverici bu tənbehin tətbiqini rayon (şəhər) məhkəmələrinə, Daxili İşlər Orqanlarına, Ekoloğiya və Təbii Sərvətlər Nazirliyinə və Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi yanında olan Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasına həvalə edib.

Araşdırdığımız tənbehin digər forması ov etmək hüququndan məhrum etmədir. Bu yalnız müəyyən ov qaydalarının pozulmasına görə nəzərdə tutulur. Məsələn, Azərbaycan Respublikasının İXM-nin 111.2-ci maddəsi «Ov qaydalarının kobut şəkildə pozulmasına (lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş müddətlərdə, qadağan edilmiş alətlərlə və ya üsullarla ov edilməsinə), habelə diğər ov qaydalarının müntəzəm pozulmasına ğörə … ». Göstərilən maddəyə əsasən əsas dolanacaq mənbəyi ov olan şəxslərə qarşı ov etmə hüququnun məhdudlaşdırılması kimi tənbeh tətbiq edilə bilməz. Bu inzibati tənbehi tətbiq etmək hüququ yalnız rayon (şəhər) məhkəmələrindədir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 29-cu maddəsinə deyilir:

«Bu Məcəllənin xüsusi hissəsində nəzərdə tutulmuş hallarda əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilir».

Azərbaycan Respublikası hüdudlarından kənara inzibati qaydada çıxartma milli təhlükəsizliyin təmin olunması, ictimai qaydanın qorunması, əhalinin səhhəti, hüquqları və mənafelərinin qorunması zərurəti yarandıqda, həmçinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında qanunvericiliyin tələbləri kobud surətdə pozulduqda əcnəbilər və vətənlaşlığı olmayan şəxslərə bir gündən yeddi günədək müddətdə müvafiq dövlət orqanlarının qərarlarına əsasən tətbiq edilir.

Araşdırdıqımız inzibati tənbeh həm də 13.03.1996-cı il tarixli ″Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında″ Azərbaycan Respublikasının qanunu ilə də nəzərdə tutulmuşdur.

Belə ki, bu qanunun 27-ci maddəsində deyilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası hüdudlarından çıxartma Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş qaydada həyata keçirilir.

Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma haqqında qərarda müəyyən olunmuş müddətdə ölkəni tərk etməlidirlər.

Əks halda boyun qaçıran əcnəbi və vətəndaşlıgı olmayan şəxslər barəsində Azərbaycan Respublikasının Baş Prokurorunun və Naxçıvan Muxtar Respublikasının Prokurorunun təqdimatı əsasında müvafiq məhkəmə sanksiyası ilə tutulur və məcburi qaydada ölkənin hüdudlarından kənara çıxarılır.

Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma haqqında səlahiyyətli orqanların (vəzifəli şəxslərin) qərarı daxili işlər orqanları tərəfindən icra edilir.

Azərbaycan Respublikasının ərazisindən inzibati qaydada çıxarılan əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin çıxarılmasına görə xərclər onların öz üzərinə düşür. Bu şəxslərin çıxarılması üçün onların vəsaitləri olmadıqda belə xərclərin ödənilməsi onları qəbul edən idarə, müəssisə və təşkilatların, Azərbaycan Respublikasında yaşayan və ya şəxsi işlə bağlı olaraq Azərbaycan Respublikasına gələn əcnəbilərlə və ya vətəndaşlığı olmayan şəxslərlə əlaqədar isə bu xərclərin ödənilməsi Azərbaycan Respublikasının DİN-in üzərinə düşür.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılma haqqında qərardan məhkəməyə şikayət vermək hüququna malikdirlər. Şikayətin verilməsi qərarın icrasını dayandırmır.

Azərbaycan Respublikası İXM-nin 30-cu maddəsinə əsasən:

«İnzibati həbs, yalnız müstəsna hallarda, inzibati xətaların ayrı-ayrı növlərinə görə on beş gün müddətinədək müəyyən olunur və tətbiq edilir.

Hamilə qadınlar və ya himayəsində azyaşlı uşağı olan qadınlar, on səkkiz yaşına çatmayan şəxslər, birinci və ya ikinci qrup əlillər, habelə altmış yaşına çatmış qadınlar və altmış beş yaşına çatmış kişilər barəsində inzibati həbs tətbiq edilə bilməz.

İnzibati qaydada tutma müddəti inzibati həbs müddətinə əlavə edilir».

İnzibati həbs rayon (şəhər) məhkəməsi (hakimi) tərəfindən təyin olunur.

İnzibati həbs ən «ağır» inzibati tənbeh növüdür. O inzibati xəta haqqında iş üzrə çıxarılmış qərar əsasında müəyyən olunmuş müddətə təqsirkarın azadlığını müvəqqəti məhdudlaşdırır və onu cəmiyyətdən təcrid edir. Bu tənbehin icrası çox ciddi olur, çünki inzibati həbs ictimai təhlükəlilik dərəcəsinə görə cinayətə yaxın olan inzibati xətalarla əlaqədar tətbiq edilir. Məsələn: xırda xuliqanlıq (İXM-nin 296-cı mad.); Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmamaq (İXM-nin 310-cu mad.).

İnzibati həbsin tətbiq edilməsi meyarları Məcəllənin Xüsusi hissəsinin müvafiq sanksiyalarında verilmişdir. İnzibati həbsin tətbiq edilməsi işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla sanksiyada göstərilən digər tədbirlərin tətbiq edilməsi kifayət etmədikdə həyata keçirilir.

Əgər maddənin sanksiyasında yalnız inzibati həbsin yuxarı həddi göstərilmişdirsə, bu halda inzibati həbs bir gündən göstərilən yuxarı həddə qədər (müddətədək) tətbiq edilə bilər.

Azərbaycan Respublikasının İXM-nin 30.2-ci maddəsinə əsasən inzibati həbs aşağıdakı şəxslər barəsində tətbiq olunmur:

- hamilə qadınlar;
- himayəsində azyaşlı uşağı olan qadınlar;
- on səkkiz yaşına çatmayan şəxslər;
- birinci və ikinci qrup əlillər;
- altmış yaşına çatmış qadınlar;
- altmış beş yaşına çatmış kişilər.

İnzibati həbsin tətbiqi zaman bu halların müəyyən edilməsi müvafiq sənədlə təstiq olunmalıdır. İnzibati həbsin tətbiq edilməsi məhkumluq yaratmır və işdən çıxarmaq üçün əsas sayıla bilməz.

İNZİBATİ TƏNBEHLƏRİN MÜDDƏTLƏRİ

İnzibati tənbehlərin tətbiqinin effektivliyinin artırılması baxımından inzibati tənbehlərin müddətlərinin düzgün hesablanması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün aşağıdakı meyarların əsas götürülməsi məqsədəuyğundur:

- müddətin qanunveriçiliklə müəyyən edilmiş ölçüsü;
- müddətin hesablama anı (yəni müddət hansı andan başlanır);
- müddətin son bitmə anı (yəni müddət hansı vaxt bitir);
- müddətdən çıxarışlar (yəni müddətin hesablanması üçün hər hansı istisnalar varmı).

İnzibati həbs müddəti günlərlə, xüsusi hüquqdan məhrum etmə aylarla və illərlə hesablanır.

İnzibati həbs məhkəmə tərəfindən on beş gün müddətinə qədər təyin edilə bilər (İXM-nin 30-cu mad.). İnzibati həbsin müddəti günün hissələri ilə hesablana bilməz. Məsələn, səlahiyyətli subyekt (hakim) inzibati həbs - tənbeh növünü təyin edərkən, müddəti günün tam hissəsi ilə göstərməlidir. İnzibati həbsin müddəti inzibati tənbeh etmə haqqında qərar elan edildiyi andan hesablanmalıdır. Əgər icraaat inzibati qaydada tutma ilə həyata keçirilirsə, İXM-in 458.3 maddəsinə əsasən inzibati qaydada tutma müddəti inzibati həbs müddətindən çıxılır.

Müəyyən olunmuş inzibati tənbehin müddətinin axımı inzibati xəta haqqında işə baxan orqanın (vəzifəli şəxsin) inzibati tənbeh etmə haqqında qərarı qəbul etdiyi saatdan (əgər müddət günlərlə hesablanırsa) və ya gündən (əgər müddət aylar və ya illərlə hesablanırsa) başlanır.

Ay və il dedikdə, həmin ayda və ildə olan faktiki günlərin sayından asılı olmayaraq təqvim ayı və ya təqvim ili başa düşülür. Müddət aylarla və ya illərlə hesablandıqda, bu müddət inzibati tənbehin hesablandığı ayın müvafiq tarixində bitir. Əgər həmin ayda müvafiq gün yoxdursa, müddət həmin ayın axırıncı günündə bitmiş hesab olunur.

Müddətlər günlərlə hesablandıqda, müddət axırıncı gündə gecə saat 12-də bitir.

İkinci suala yekun olaraq qeyd etmək istərdim:

1. İnzibati tənbehlərin növləri Azərbaycan Respublikası İXM-nin 23-cü maddəsində göstərilib. Onlara aşağıdakılar aiddir:

- Xəbərdarlıq (İXM-nin 24-cü mad.)
- İnzibati cərimə (İXM-nin 25-ci mad.)
- İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması (İXM-nin 26-cı mad.).
- İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi (İXM-nin27-ci mad).
- Fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması (ov etmək hüququ, nəqliyyat vastəsini idarəetmə hüququ). (İXM-nin 28-ci mad.)
- Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respubli-kasının hüdudlarından kənara inzibati qaydada çıxartma (İXM-nin 29-cu mad.).
- İnzibati həbs (İXM-nin 30-cu mad.).

2. Bundan başqa Azərbaycan Respublikası İXM-nin 31-ci maddəsinə əsasən əsas və əlavə inzibati tənbeh növləri göstərilmişdir. Bir inzibati xətaya görə əsas və yaxud da əsas və əlavə tənbeh növləri tətbiq edilə bilər.

Sual 3.
İnzibati tənbehlərin tətbiq edilməsinin ümumi qaydaları.

İnzibati tənbeh tətbiq etmənin ümumi qaydaları Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 32-ci maddəsində göstərilmişdir:

32.1. İnzibati xətaya görə tənbeh bu Məcəlləyə uyğun olaraq tətbiq edilir.

32.2. Fiziki və ya vəzifəli şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən xətanın xarakteri, inzibati xəta törədən şəxsin şəxsiyyəti, onun təqsirinin dərəcəsi, əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınır.

32.3. Hüquqi şəxslər barəsində inzibat tənbeh tətbiq edilərkən inzibati xətanın xarakteri, hüquqi şəxsin maliyyə və əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınır.

32.4. İnzibati tənbehin tətbiq edilməsi həmin inzibati tənbehə səbəb olmuş öhdəliklərin yerinə yetirilməsindən şəxsi azad etmir.

İnzibati tənbehin tətbiq edilməsinin ümumi qaydaları içərisində qanunçuluq və tənbehin fərdiliyi prinsiplərinə riayət edilməsi xüsusi yer tutur.

Qanunçuluq prinsipi hüququn ümumi prinsipi kimi inzibati tənbehin tətbiq edilməsində özünü aşağıdakı kimi göstərir:

1. İnzibati xəta haqqında işə baxan orqan (vəzifəli şəxs) təqsirkar şəxsə qanunvericiliklə müəyyən edilmiş inzibati xətanın törədilməsinə görə tənbehi normanın sanksiyasında göstərilmiş çərçivədə tətbiq edə bilər. Bu tələb öz əksini aşaqıdakılarda tapır:

- inzibati tənbehlərin sistemi və növləri qanunvericiliklə müəyyən edilib;

- hər bir tənbeh növünün qanunla müəyyən edilmiş ölçü hədləri mövcuddur. Bu ölçü hədləri hər bir inzibati tənbeh növü üçün onun «aşağı» və «yuxarı» hədlərinin (inzibati cərimədə) və ya yalnız «yuxarı» həddinin (inzibati həbsdə) göstərilməsi ilə müəyyən edilir.

- ayrı-ayrı inzibati xətalara görə məsuliyyət nəzərdə tutan normanın sanksiyasında tənbehin konkret növü və ölçüsü göstərilir.

2. Qanunçulugun tələbinə əsasən yalnız İXM-nin Xüsusi hissəsində nəzərdə tutulan hüquqa zidd əməl inzibatit məsuliyyətə səbəb olur. Bu isə istənilən əməlin inzibati xəta kimi tövsif edilməsini və həmin əmələ görə inzibati tənbehin tətbiq edilməsini istisna edir.

3. Qanuna uyğun olaraq orqan (vəzifəli şəxs) inzibati xətaya görə müəyyən edilmiş inzibati tənbehin hədlərindən kənara çıxa bilməz. Normalarda bir qayda olaraq bir neçə tənbehin tətbiq edilməsi öz əksini tapır. Bu halda işə baxan orqan (vəzifəli şəxs) işin bütün hallarını vaxtında, hərtərəfli, tam və obyektiv araşdırmalıdır.

Tənbehin fərdiliyi prinsipinin mahiyyəti tənbehin tətbiq edilməsi zamanı aşağıdakı halların nəzərə alınmasından ibarətdir:

- inzibati xətanın xarakteri;
- inzibati xəta törədən şəxsin şəxsiyyəti;
- onun təqsirinin dərəcəsi;
- əmlak vəziyyəti;
- məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar.

Bu prinsipə riayət edilməklə törədilən əməlin və təqsirkarın şəxsiyyətinin hərtərəfli qiymətləndirilməsi əsasında tərbiyə və profilaktika məqsədlərinə uyğun ən təsirli tənbehin seçilməsinə və tətbiqinə imkan yaranmış olur. Bir çox hallarda orqan (vəzifəli şəxs) sanksiyada göstərilən ən aşağı həddə tənbehi tətbiq etməyə bilər. Qanunla müəyyən olunmuş şərtlərə müvafiq olaraq orqan (vəzifəli şəxs) təqsirkar şəxsi inzibati məsuliyyətdən azad etmək və ya inzibati tənbehi daha yüngül inzibati tənbeh növü ilə əvəz etmək hüququna malikdir (İXM-in 21-ci maddəsi).

İnzibati xətanın xarakteri əməlin ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq qanunla mühafizə olunan maraqlara vurulmuş ziyandan irəli gələn xətanın ümumiləşdirilməsi və qiymətləndirilməsidir. Daha təhlükəli inzibati xətalar daha ciddi tənbehlərə məruz qalmalıdır (məs; xırda talama, fövqəladə vəziyyət rejimi tələblərinin pozulması).

İnzibati xəta törədən şəxsin şəxsiyyətinə aid olan hallar təqsirkarın şəxsi kefiyyətləri ilə baglıdır. Şəxsi kefiyyətlər dedikdə, təqsirkarın ailədə, işdə və s. yerlərdə xarakterizə olunması və birgə yaşayış qaydalarına riayət etməsi başa düşülür. Bir çox hallarda qanunverici inzibati həbsin tətbiqini təqsirkarın şəxsiyyəti ilə əlaqələndirir. Məsələn, İXM-in 296-ci maddəsinə əsasən, inzibati həbs «…pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla …» tətbiq edilir.

Təqsirinin dərəcəsini bütün hallarda nəzərə alanmalıdır çünki qəsdən törədilən inzibati xəta bütün digər şərtlərdən asılı olmayaraq ehtiyatsızlıqdan törədilənə qarşı daha ciddi tənbehə səbəb olmalıdır.

Təqsirkarın əmlak vəziyyətinin nəzərə alınmasını imkan yaradır ki, inzibati tənbehi tətbiq edən orqan (vəzifəli şəxs) təqsirli şəxsə qarşı təsirli, məqsədə uyğun, effektivli və ədalətli inzibati tənbeh növünü tətbiq etsin.

Normanın sanksiyası çərçivəsində inzibati tənbeh verildikdə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almaq lazımdır:

İXM-nin 33-cü maddəsinə əsasən, inzibati tənbeh tətbiq edilərkən məsuliyyəti yüngülləşdirən hallar aşağıdakılar hesab edilir:

- inzibati xəta törətmiş şəxsin səmimi peşimançılığı;
- törədilmiş inzibati xətanın zərərli nəticələrinin inzibati xəta törətmiş şəxs tərəfindən aradan qaldırılması və ya vurulmuş ziyanın əvəzinin könüllü surətdə ödənilməsi;
- inzibati xətanın yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsi;
- inzibati xətanın hamilə qadın və ya himayəsində azyaşlı uşağı olan qadın tərəfindən törədilməsi.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə inzibati xətaya görə məsuliyyəti yüngülləşdirən başqa hallar da nəzərdə tutula bilər. İnzibati xətalar haqqında işə baxan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) qanunvericiliklə nəzərdə tutulmayan halları da məsuliyyəti yüngülləşdirən hallar hesab edə bilər.

Qanun inzibati xəta haqqında işə baxan orqandan (vəzifəli şəxsdən) inzibati məsuliyyəti nəzərdə tutan normanın sanksiyası çərçivəsində tənbehin yüngülləşdirilməsi üçün əsas verən halları da nəzərə almağı tələb edir. İnzibati Xətalar Məcəlləsinin 33-cü maddəsinə əsasən, inzibati xətanın tərkibinə daxil edilməyən hallar yüngülləşdirici hal kimi hesab edilə bilər. Bu hallar inzibati xətanın tərkibində tövsifedici əlamət kimi çıxış edirsə məsuliyyəti yüngülləşdirən hal kimi qəbul edilə bilməz.

İnzibati xəta törətmiş şəxsin səmimi peşimançılığı dedikdə, təqsirkar tərəfindən törədilmiş əməlin hüquqazidd olmasının dərk edilməsini, törədtiyi xətaya olan mənfi münasibətini, işə baxan orqana könüllü xəbər verməsini, inzibati xətanın törədilməsində səbəb və şəraitinin izah edilməsini və baş vermiş nəticələrin könüllü olaraq aradan qaldırılmasını nəzərdə tutulur. Zərərli nəticələrin qarşısının alınması bir qayda olaraq inzibati xətanın törədilməsindən dərhal sonra baş verir. Belə ki, təqsirkar inzibati xəta törədildikdən dərhal sonra, yəni işə baxan orqan (vəzifəli şəxs) tərəfindən heç bir təklif irəli sürülmədən zədələnmiş əmlakın dəyərini zərərçəkmişə ödəyir və ya ona eyni dəyərli əmlak verir. Nəzərə almaq lazımdır ki, ziyanın könüllü ödənilməsi və vurulmuş zərərin aradan qaldırılması tam və ya qismən ola bilər. Bütün bunlar tənbehin tətbiqi zamanı nəzərə alınmalıdır.

İnzibati xətanın yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsi yüngülləşdirici hal kimi çıxış edir. Burada qanunvericilik təqsirli şəxsin həm fiziki, həm də intellektual inkişafını nəzərdə tutur. Təcrübi cəhətdən 16 yaşdan 18 yaşa qədər olan şəxslərin həyatda böyüklərin təsiri altında inzibati xəta törədilməsinə rast gəlinir.

İnzibati xətanın hamilə qadın tərəfindən törədilməsi məsuliyyəti yüngülləqşdirən hallardan biridir. Belə ki, hamiləlik yüksək streslə və əsəb ğərğinliyi ilə müşayiət olunur, bəzən inzibati xətanın törədilməsinə səbəb olur.

Qanun həmçinin azyaşlı uşağı olan qadın tərəfindən inzibati xətanın törədilməsini yüngülləşdirici hal kimi müəyyən etmişdir. Adətən təcrübədə azyaşlı uşaq dedikdə, 14 yaşınadək olan şəxslər başa düşülür. Qanunvericilikdə bu cür humanistliyin nəzərdə tutulması azyaşlılara böyüklər tərəfindən (valideyinlər və ya onları əvəz edən şəxslər) daima qaygının və himayənin göstərilməsinin vacibliyi ilə izah olunur. Nəzarətsizlik şəraitində bu kateqoriya şəxslərin mənfi təsirə məruz qalma ehtimalları daha böyükdür. Bu isə həmin şəxslər tərəfindən inzibati xəta törədilməsinə səbab və şərait yaratmış olur. Məhz, bütün bunları qanunverici arzu etmədiyinə ğörə, yetkinlik yaşına çatmayanları nəzarətsiz buraxmamaq üçün himayəsində azyaşlı uşağı olan qadın tərəfindən inzibati xətanın törədilməsi halını məsuliyyəti yünğülləşdirən hal kimi təsbit etmişdir.

Qanunverici inzibati məsuliyyəti yüngülləşdirən halların qəti siyahısını müəyyən etməmişdir. O inzibati xəta haqqında işə baxan orqana (vəzifəli şəxsə) qanunvericilikdə göstərilməyən digər halları da yüngülləşdirici hal kimi qəbul etməyə səlahiyyət verir. Bu cür səlahiyyət inzibati məsuliyyətə cəlb etmə prosesində humanizmin aşkar təzahürüdür. Təcrübədə qanunda nəzərdə tutulmayan belə hallara yaş, səhhət, əlillik, məişətdə müsbət davranış və s. aid edilir.

İXM-nin 34-cü maddəsinə əsasən inzibati tənbeh tətbiq edilərkən məsuliyyəti ağırlaşdıran hallar aşağıdakılar hesab edilir:

- səlahiyyətli şəxslərin hüquqazidd hərəkəti dayandırmağı tələb etdiklərinə baxmayaraq, bu hərəkətin davam etdirilməsi;
- inzibati xətaya görə inzibati tənbeh almış şəxsin eyni xətanı il ərzində təkrar törətməsi;
- yetkinlik yaşına çatmayanların inzibati xəta törətməyə cəlb edilməsi;
- inzibati xətanın bir qrup şəxs tərəfindən törədilməsi;
- inzibati xətanın təbii fəlakət şəraitində və ya başqa fövqəladə şəraitdə törədilməsi;
- inzibati xətanın sərxoş halda olan şəxs tərəfindən törədilməsi.

İnzibati tənbeh tətbiq edən hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətanın xarakterindən asılı olaraq İXM-nin 34.1.6-cı maddəsində göstərilən halı (inzibati xətanın sərxoş halda olan şəxs tərəfindən törədilməsi) məsuliyyəti ağırlaşdıran hal hesab etməyə də bilər.

İnzibati Xətalar Məcəlləsinin 34-cü maddəsində göstərilən hallar inzibati xətaya görə məsuliyyəti ağırlaşdıran əsas kimi çıxış edirlər. Əgər onlar inzibati xətanın tərkibinin tövsifedici əlaməti kimi çıxış edirsə bu halda, onlar məsuliyyəti ağırlaşdıran hal hesab olunmurlar. Məsələn, İXM-nin 152.2-mad. ″sərxoş vəziyyətdə nəqliyyat vasitəsinin idarə edilməsinə görə...″.

İnzibati xətaya görə məsuliyyəti yüngülləşdirən hallardan fərqli olaraq işə baxan orqan (vəzifəli şəxs) İXM-nin 34-cü maddəsində göstərilməyən hər hansı bir başqa halı ağırlaşdırıcı hal kimi hesab edə bilməz. Buna qanunvericilik yol vermir.

Səlahiyyətli şəxslərin hüquqazidd hərəkəti dayandırmağı tələb etdiklərinə baxmayaraq, bu hərəkətin davam etdirilməsi təqsirkar tərəfndən xətanın qəsdən törədilməsini, bu davranışından çəkinmək istəməməsini və səlahiyyətli şəxsin tələblərinə tabe olmamasını sübut edir. Nəzərə almaq lazımdır ki, səlahiyyətli şəxsin qanuni tələblərinə qəsdən tabe olmama bir sıra hallarda müstəqil inzibati xətanın tərkibini yaradır. Belə ki, İXM-nin 310-cu maddəsi polis işçisi və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmamağa görə məsuliyyət nəzərdə tutur.

İnzibati xətaya görə inzibati tənbeh almış şəxsin eyni xətanı il ərzində təkrar törətməsi də ağırlaşdırıcı hal sayılır. Bü təqsirkarın birinci inzibati xətaya görə ona tətbiq edilən inzibati tənbehin tərbiyəedici, xəbərdaredici təsir göstərmədiyini sübut edir. Aşağıdakı hallarda inzibati xəta təkrarən törədilmiş hesab olunur:

- eyni xətaya görə şəxs əvvəllər inzibati tənbehə məruz qalmışdırsa;
- inzibati tənbeh olunmuş şəxs tənbehin icrasının qurtardığı gündən etibarən bir il müddət ərzində eyni inzibati xəta törətdikdə.

Yetkinlik yaşına çatmayanların inzibati xəta törtəməyə cəlb edilməsi nə formada həyata keçirilməsindən asılı olmayaraq (aldatma, dilə tutma, asılı vəziyyətindən istifadə etmə və s.) ağırlaşdırıcı hal sayılır. Bu zaman yetkinlik yaşına çatmyanın yalnız inzibati xəta

törətməyə cəlb edilməsi nəzərdə tutulur. Əks halda bu şəxslərin cinayətkar fəaliyyətə cəlb edilməsi CM-nin 170-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibini yaradır. Qanunverici yetkinlik yaşına çatmayanların sərxoşluq vəziyyətinə gətirilməsinin arzuolunmaz nəticələrini nəzərə alaraq, onların sərxoşluq vəziyyətinə gətirilməsinə görə inzibati məsuliyyət nəzərdə tutub (İXM-nin 307-ci mad.)

İnzibati xətanın bir qrup şəxs tərəfindən törədilməsi yüksək təhlükə yaradır. Bu zaman onların səylərinin eyni bir inzibati xətanın (ların) törədilməsi üçün birləşdirilməsi nəzərdə tutulur. Bir neçə şəxs tərəfindən müstəqil surətdə eyni növ inzibati xətaların törədilməsi məsuliyyəti ağırlaşdıran hal sayılır.

İnzibati xətanın təbii fəlakət şəraitində və ya başqa fövqəladə şəraitdə törədilməsi məsuliyyəti ağırlaşdıran hal sayılır. Təbii fəlakət şəraiti altında zəlzələ, uçqunlar, sellər, yanğınlar, daşqınlar və s. təbii fəlakətlər başa düşülür. Digər fövqəladə hallara hərbi vəziyyət və şəraiti qəflətən mürəkkəbləşdirən və əhali üçün yüksək təhlükə yaradan digər şəraitlər aiddir.

İnzibati xəta törətmək üçün belə şəraitdən istifadə edən şəxs normanın sanksiyasının çərçivəsində yüksək inzibati məsuliyyət daşımalıdır.

İnzibati xətanın sərxoş halda törədilməsi ağırlaşdırıcı hal sayılır. Belə hal işin materialları ilə (tibbi müayinə aktı, şahidlərin izahatları ilə və s.) müəyyən edilməlidir. Bəzi növ inzibati xətalar üçün «sərxoşluq vəziyyəti» tərkibin tövsif edici əlaməti kimi çıxış edir (məsələn, İXM-nin 152.2 mad. ″... sərxoş vəziyyətdə nəqliyyat vasitəsinin idarəedilməsinə görə...″). Bu hallarda sərxoşluq əlavə olaraq məsuliyyəti agırlaşdıran hal kimi qəbul edilməməlidir. Qanun inzibati tənbeh tətbiq edən orqana (vəzifəli şəxsə) inzibati xətanın xarakterindən asılı olaraq sərxoşluq vəziyyətini ağırlaşdırıcı hal kimi hesab etməməyə səlahiyyət verir.

Azərbaycan Respublikası İXM-nin 35-ci maddəsində bir neçə inzibati xəta törədildikdə inzibati tənbehetmə qaydası göstərilmişdir.

35.1 Bir şəxs iki və ya daha çox inzibati xəta törətdikdə, onun barəsində hər bir inzibati xətaya görə ayrılıqda inzibati tənbeh tətbiq edilir.

35.2 Bir şəxsin törətdiyi bir neçə inzibati xətaya dair işlərə eyni vaxtda eyni orqan tərəfindən baxıldıqda, həmin şəxs daha ciddi xətaya görə müəyyən edilmiş sanksiya çərçivəsində tənbeh edilir. Bu halda törədilmiş xətalardan hər hansı birinə görə nəzərdə tutulmuş əlavə tənbehlərindən biri əsas tənbehə əlavə edilə bilər.

Bir neçə inzibati xəta törədilən zaman inzibati tənbehin tətbiq edilməsi İnzibati Xətalar Məcəlləsinin 35-ci maddəsinə müvafiq olaraq, aşağıdakı halların nəzərə alınması ilə həyata keçirilir:

a) şəxs tərəfindən iki və daha çox inzibati xəta törədilməsi;

b) inzibati xətaların hər biri müstəqil sanksiyası olan xüsusi hissəsinin ayrıca maddəsi ilə tövsif edilir;

v) hər bir inzibati xətaya görə inzibati məsuliyyətə cəlb etmə müddətlərinin keçməməsi;

q) bunlardan heç birinə görə şəxsin inzibati tənbehə cəlb olunmaması.

İnzibati xətaların məcmusu üzrə tənbehlərin tətbiq edilməsində törədilən əməlin bir inzibati xəta olub-olmamasını və ya törədilən əməlin tərkibində bir neçə müstəqil inzibati xətanın olub-olmamasını müəyyənləşdirmək lazımdır. Bu zaman bir sıra ardıcıl əməllərdən ayrı-ayrı müstəqil inzibati xətaların tərkibinin yaranmasının, yaxud onların uzanan və davam

edən inzibati xəta olması və ya təkrarən törədilməsi faktının müəyyən edilməsi vacibdir. Tövsif zamanı inzibati xətaların təkrar, uzanan və davam edən növlərini fərqləndirmək lazımdır.

İnzibati xətaların təkrar törədilməsi dedikdə, iki və ya daha çox eyni tərkibli inzibati xətaların il ərzində inzibati tənbeh almış şəxs tərəfindən törədilməsi başa düşülür. Məsələn: Azərbaycan Respubliksının İXM-nin 151.5-ci maddəsi: ″… Bu Məcəllənin 151.2-ci, 151.3-cü, 151.4-cü, 155.3-cü və 156-cı maddələrində nəzərdə tutulmuş xətalar il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrarən törədilməsinə, yəni 10 və daha çox cərimə balı toplanmasına görə- ...″

Davam edən inzibati xəta törədilməsi baxımından bir sıra eyni əməllərin məcmusundan ibarət olan vahid inzibati xətadır. Məsələn, İXM-nin 224-cü maddəsində nəzərdə tutulan inzibati xəta: ″Buraxılması və ya satılması qadagan olunmuş malların satılması, yaxud qadagan olunmuş işlərin (xidmətlərin) yerinə yetirilməsi (göstərilməsi)″. Burada inzibati xətanın vahid niyyət və məqsədlə (varlanma, malların tezliklə realizəsi) törədilməsi onun davam edən inzibati xəta kimi tövsifinə əsas verir.

Uzanan inzibati xəta - şəxsin hərəkəti, yaxud hərəkətsizliyi ilə başlayan və az-çox müəyyən müddətə fasiləsiz olaraq davam edən xətadır. Məsələn, İXM-nin 329-cu maddəsində nəzərdə tutulan inzibati xəta: «Şəxsiyyət vəsiqəsi olmadan və ya yaşayış yeri üzrə qeydiyyatdan keçmədən yaşama».

Azərbaycan Respublikasının İXM-nin 36-cı maddəsi inzibati məsuliyyətə cəlb etmə müddətlərini nəzərdə tutur.

36.1 İnzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci iki ay keçənədək verilə bilər. Gömrük qaydaları, ətraf mühitin qorunması qaydaları, eləcə də maliyyə, vergilərin və rüsumların ödənilməsi qaydaları əleyhinə olan inzibati xətalara görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər.

36.2 Davam edən inzibati xətalara görə inzibati tənbeh onun aşkara çıxarıldığı gündən ən geci iki ay keçənədək verilə bilər.

36.3 Cinayət işinin başlanması rədd edildikdə və ya cinayət işinə xitam verildikdə, lakin şəxsin əməllərində inzibati xəta tərkibinin bütün əlamətləri olduqda, inzibati tənbeh cinayət işinin başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında qərar qəbul edildiyi gündən ən geci iki ay keçənədək verilə bilər.

36.4 On altı yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın törətdiyi inzibati xəta haqqında iş yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq dövlət orqanına qaytarıldıqda, inzibati tənbeh həmin qaytarıldığı ğündən ən ğeci iki ay keçənədək verilə bilər.

Qanunverici tərəfindən bu maddədə müəyyən edilmiş müddətlər keçdikdən sonra tənbehetmə mümkün deyil, çünki tənbehetmə müddəti bitmiş sayılır.

Yuxarıda göstərildiyi kimi, inzibati məsuliyyətə cəlb etmə müddəti bir qayda olaraq 2 aydan, bəzi inzibati xətalar üçün isə bir ildən artıq ola bilməz. Lakin bu müddətin axımı ayrı-ayrı inzibati xətalar üçün müxtəlifdir. Bir çox inzibati xətalar üçün tənbehetmə müddətin hesablanması anı xətanın törədildiyi gündən başlayır.

Uzanan və davam edən inzibati xətalara görə tənbehetmə müddəti başqa cür hesablanır. Uzanan inzibati xəta fasiləsiz olaraq uzun və ya qısa müddətdə törədilir. Buna misal olaraq, odlu silahın saxlanılması qaydalarının, yanğın təhlükəsizliyi qaydalarının, hərbi

qeydiyyat qaydalarının pozulmasını və qeydiyyatsız yaşamanı göstərmək olar. Bu hərəkətlər müəyyən əməlin vahid tərkibinin fasiləsiz həyata keçirilməsi ilə xarakterizə olunur. Uzanan inzibati xətalar üzrə tənbehetmə müddətinin başlanğıc anı xəta törədilən andan deyil, xətanın aşkar edildiyi andan hesablanır. Məsələn: hərbi qeydiyyat qaydalarının pozulması hallarında müddət, hərbi mükəlləfiyyətli şəxsin təyin olunmuş gün müvafiq orqana gəlmədiyi gündən başlayır. Bu xəta hərbi mükəlləfiyyətli şəxsin qeydiyyata düşmək üçün gəldiyi vaxtadək uzanır. Burada inzibati xəta faktının səlahiyyətli orqan tərəfindən aşkar edilməsi anı (günü) məsuliyyətə cəlb olunma müddətinin hesablanmasında əsas götürülə bilər.

Cinayət işinin başlanması rədd edildikdə və ya cinayət işinə xitam verildikdə tənbehetmə müddəti cinayət işinin başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında əsaslı qərar çıxarıldığı gündən hesablanır. Belə hallarda inzibati tənbeh cinayət işinin başlanılmasının rədd edilməsi və ya cinayət işinə xitam verilməsi barədə qərar qəbul edildiyi gündən ən geci iki ay keçənədək verilə bilər.

Gömrük qaydaları, ətraf mühitin qorunması qaydaları, eləcə də maliyyə, vergilərin və rüsumların ödənilməsi qaydaları əleyhinə inzibati xətalara görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər.

Müddətlər hesablanan zaman onun axımı məsuliyyətə cəlbetmə günündən hesaba alınır. Cəlbetmə müddəti təyin olunmuş müddətin başa çatması ilə məsuliyyətə cəlbetmə prosesinin axırıncı günündə gecə saat 24^{00}- də bitmiş hesab edilir.

İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsinə əsasən, barəsində inzibati tənbeh tətbiq olunmuş şəxs tənbehin icrasının qurtardığı gündən etibarən bir il ərzində yeni inzibati xəta törətməmişsə, o, inzibati məsuliyyətə cəlb edilməmiş sayılır.

Yuxarıda göstərilən müddəanın məzmunundan aydın olur ki, şəxs onun barəsində inzibati tənbeh tətbiq edilməsi haqqında qərar çıxarıldığı və ona elan edildiyi andan inzibati məsuliyyətə cəlb edilmiş hesab edilir.

İnzibati məsuliyyətə cəlb olunma vəziyyətində olan şəxs tənbehin icra müddəti bitdikdən sonra bir il müddətində inzibati məsuliyyətə cəlb olunmuş şəxs hesab edilir. Bu müddət ərzində şəxsin yeni inzibati xəta törətməsi faktı onun üçün hüquqi xarakterli mənfi nəticələr yarada bilər. İnzibati məsuliyyətə cəlb olunma vəziyyətində olan şəxs yeni inzibati xəta törətdikdə onun vəziyyəti aşağıdakı kimi qiymətləndirilə bilər:

- inzibati məsuliyyəti ağırlaşdıran hal kimi;
- daha ciddi inzibati tənbehin tətbiqi üçün tövsifedici əlamət kimi;
- nəzərdə tutulmuş sanksiyanın «yuxarı» həddinin tətbiqini nəzərdə tutan hal kimi.

İnzibati məsuliyyətin ödənilməsinin bir illik müddəti inzibati xətaların və inzibati tənbehlərin növlərindən asılı olmayaraq eyni qaydada müəyyən edilmişdir. İnzibati məsuliyyətin ödənilməsi üçün bir illik müddətin hesablanmasının başlanğıc anı tətbiq edilmiş tənbehin icrasının faktiki bitməsi günündən sayılır.

Xəbərdarlıq növündə inzibati tənbehin verildiyi halda, bir illik müddətin hesablanması anı tənbehin verildiyi gün ilə üst-üstə düşür. Əgər şəxs əsas və əlavə tənbehə məruz qalmışdırsa (məsələn: ov qaydalarının pozulmasına görə eyni zamanda inzibati cərimə və ov silahının müsadirəsi tətbiq olunduqda) bir illik müddətin hesablanması anı axırıncı icra olunan tənbehin icrasının bitdiyi gündən hesablanır.

İnzibati həbs və ya fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhudlaşdırılması tətbiq edilən zaman tənbehlərin icrasının bitməsi müddəti faktiki olaraq inzibati həbsin

ödənilməsi və ya fiziki şəxsin ona verilmiş xüsusi hüquqqunun məhdudlaşlırılması müddətinin başa çatması ilə üst-üstə düşür.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 455.5-ci maddəsinə əsasən, nəqliyyat vasitələrini idarə etmə hüququnun və ya ov hüququnun müəyyən müddətə məhdudlaşdırılması barədə qərar qəbul etmiş səlahiyyətli vəzifəli şəxs göstərilən hüququn məhdudlaşdırılması müddətini, təyin edilmiş müddətin azı yarısı keçdikdən sonra nəqliyyat vasitələrini idarə etmə hüququ və ya ov hüququ məhdudlaşdırılmış şəxsin işlədiyi və ya oxuduğu müəssisənin, idarənin, təşkilatın vəsatəti ilə azalda bilər. Burada xüsusi hüququ məhdudlaşdırılmış şəxs yeni müddətin hesablandığı gündən bir il keçdikdən sonra inzibati məsuliyyətə cəlb olunmamış sayılır.

İnzibati tənbehin ödənilməsi halı heç bir sənədin tərtib edilməsi ilə həyata keçirilmir. O avtomatik olaraq qanunla müəyyən olunmuş müddətin (bir il) keçməsi ilə bitir.

Yeni inzibati xətanın törədilməsi faktı tənbehin ödənilməsi üçün tənbehetmə müddətinin axınımını kəsir. Bu zaman göstərilən müddətin axımı təqsirkara qarşı yeni inzibati tənbehin tətbiq olunması şərti ilə kəsilir. Belə hallarda faktiki tənbehetmə müddəti yeni inzibati xətanın törədilməsinə qədər ləğv edilir. Müddətin axımı yeni törədilmiş inzibati xətaya görə təyin olunmuş tənbehin icrası anından başlanır.

Azərbaycan Respublikasının İXM-nmn 38-ci maddəsinə uyğun olaraq vurulmuş əmlak zərərinin əvəzinin ödənilməsinin əsası və qaydası müəyyən edilmişdir. İXM-nin bu maddəsinə əsasən:

38.1 Hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xəta haqqında işə baxarkən vurulmuş əmlak zərərinin əvəzinin ödənilməsi barədə mübahisə olmadıqda, inzibati tənbeh tətbiq etməklə eyni vaxtda vurulmuş zərərin əvəzinin ödənilməsi barədə məsələyə də baxa bilər.

38.2 Vurulmuş əmlak zərərinin və ya mənəvi zərərin əvəzinin ödənilməsi barədə mübahisə olduqda inzibati xəta nəticəsində vurulmuş əmlak zərərinin və ya mənəvi zərərin əvəzinin ödənilməsi məsələsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll edilir.

Bu maddədə nəzərdə tutulan mübahisəli hallarda, vurulmuş əmlak zərərinin və mənəvi zərərin əvəzinin ödənilməsi Azərbaycan Respublikası Mülkü Prosessual Məcəlləsinə müvafiq olaraq irəli sürülən iddia əsasında mülkü mühakimə icraatı formasında həyata keçirilir.

DİO TƏRƏFİNDƏN TƏTBİQ EDİLƏN İNZİBATİ TƏNBEHLƏR

Qüvvədə olan inzibati xətalar qanunvericiliyinə müvafiq olaraq DİO (polis) tərəfindən aşağıdakı inzibati tənbehlər tətbiq edilə bilər:

- xəbərdarlıq (İXM-nin 24-cü mad.);
- inzibati cərimə (İXM-nin 25-ci mad.);
- fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırlıması (İXM-nin 28-ci mad.);
- əcnəbiləri və ya vətəndaşlıgı olmayan şəxslərin Azərbaycan Respublikası hüdudlarından kənara inzibati qaydada çıxartma (İXM-nin 29-cu mad.)

Azərbaycan Respublikası Prezidentinin ″Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə

məsələləri haqqında″ Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 29 avqust 2000-ci li tarixli Fərmanının 3-cü bəndinin 5-ci abzasında ″...həmin Məcəllənin 69-cu, 151.1-151.5-ci,152.1-152.3-cü, 153.1-153.5-ci, 154-cü, 155.1-155.3-cü, 156-168-ci, 221.2-ci, 232-ci, 234-cü, 296-cı, 298-301-ci, 305-ci, 306-ci, 308-ci, 309-cu, 327-331-ci, 337-ci, 339-342-ci və 344-348-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır...″ göstərilən inzibati xətalara görə DİO inzibati tənbehləri tətbiq etməyə səlahiyyətlidir.

Xəbərdarlıq səlahiyyətli polis əməkdaşı tərəfindən müəyyən olunmuş qaydada hüquqazidd əmənin yolverilməzliyi barədə inzibatt xəta törətmiş şəxslərə edilən rəsmi xəbərdaredici tədbirdir. Bu adətən az əhəmiyyətli inzibati xəta törətmiş şəxslərə qarşı tətbiq edilir.

İnzibati xətalar qanunvericiliyi ilə səlahiyyət verilmiş polis əməkdaşı tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 158.1-ci, 167-ci, 298-ci, 306-cı, 327.1-ci, 329-cu, 339.1-ci, 340-cı, 341-ci, 344-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalara görə xəbərdarlıq kimi inzibati tənbeh tətbiq oluna bilər.

Xəbərdarlıq yazılı formada və xüsusi qərarla tərtib olunduqda müəyyən hüquqi nəticələrin yaranmasına səbəb olur. Polisin təcrübəsində geniş tətbiq olunan şifahi xəbərdarlıq (irad tutma) inzibati tənbeh növü sayılmır. O inandırma metoduna aiddir.

İnzibati cərimə səlahiyyətli polis əməkdaşı tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 69-cu, 151.1-151.4-cü, 152.1-152.3-cü, 153.1-153.5-ci, 154-cü, 155.1-155.3-cü, 156-168-ci, 221.2-ci, 222-ci, 232-ci, 234-cü, 296-cı, 298-ci, 301-ci, 305-ci, 308-ci, 309-cu, 327-331-ci, 337-ci, 339-342-ci, 344-348-ci maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədilməsinə görə səlahiyyətli polis əməkdaşları təqsirkar şəxslərə inzibati cəriməni tətbiq edə bilər.

Fiziki şəxsin ona verilmiş xüsusi hüququnun (nəqliyyat vasitələrini idarə etmə hüququnun) məhdudlaşdırılması inzibati tənbeh kimi nəqliyyat vasitələrindən istifadə qaydasını kobud şəkildə və ya müntəzəm pozmağa görə iki aydan iki ilədək müddətə tətbiq edilə bilər.

DİO tərəfindən bu növ inzibati tənbehin tətbiq edliməsinin əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1. Bu inzibati tənbeh növünün tətbiq edilməsi yalnız Azərbaycan Respublikasının İXM-nin 151.5-ci maddəsində ″Bu Məcəllənin 151.2, 151.3 və 151.4-cü maddələrində nəzərdə tutulmuş xətalar il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə, yəni 10 və daha çox cərimə balı toplanmasına görə″ nəzərdə tutulmuşdur.

2. Azərbaycan Respublikasının İXM-nin 151.5-ci maddəsinin sanksiyasını ″... fiziki şəxslərin nəqliyyat vasitələrini idarə etmək hüququ bir ilədək müddətə məhdudlaşdırılır...″ nəzərə alaraq qeyd etmək olar ki, bu növ inzibati tənbeh DİO tərəfindən tətbiq edildikdə həmin tənbehin təsir müddəti yalnız iki aydan bir ilə qədər ola bilər. Burada minimal müddət (iki ay) İXM-in 28.1-ci maddəsində nəzərdə tutulmuşdur.

3. Nəqiyyat vasitələrini idarə etmə hüququnun məhdudlaşdırılması barədə qərar qəbul etmiş səlahiyyətli vəzifəli şəxs göstərilən hüququn məhdudlaşdırılması müddətini, təyin edilmiş müddətin azı yarısı keçdikdən sonra nəqliyyat vasitələrini idarə etmə hüququ məhdudlaşdırılmış şəxsin işlədiyi və ya oxuduğu müəssisənin, idarənin, təşkilatın vəsatəti ilə azalda bilər (İXM-nin 455.5-ci mad).

Nəqliyyat vasitələrini sərxoş halda idarəeətmə halları istisna olmaqla, nəqliyyat vasitələrindən əlilliyi ilə əlaqədar istifadə edən şəxslərin nəqliyyat vasitələrini idarəetə hüququ məhdudlaşdırıla bilməz (İXM-in 28.2-ci maddəsi)

Əcnəbilərin və ya vətəndaşlıgı olmayan şəxslərin Azərbaycan Respublikası hüdudlarından kənara inzibati qaydada çıxartma inzibati tənbeh növü Azərbaycan Respublikasının İXM-nin 300-cü, 330-cu və 337-ci maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədilməsinə görə DİO tərəfindən tətbiq edilir.

İnzibati xətalar qanunvericiliyinə əsasən, DİO-nun (polisin) digər səlahiyyətli orqan və ya vəzifəli şəxsləri müvafiq inzibati tənbeh növlərini tətbiq etməklə yanaşı inzibati tənbeh tətbiq etmə haqqında qərarları da icra etmək səlahiyyətinə malikdirlər. Məsələn: DİO (polis) inzibati həbs, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması və ya müsadirəsi, eləcə də əcnəbilərin və ya vətəndaşlıgı olmayan şəxslərin Azərbaycan Respublikası hüdudlarından kənara inzibati qaydada çıxartma növündə tənbehlərin tətbiqi haqqında qərarları icra etmək səlahiyyətinə malikdir.

N Ə T İ C Ə

Bu günkü mühazirəmizə yekun olaraq deyə bilərik ki, onun açıqlanması nəticəsində sizlər fəaliyyətinizdə həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edəcək biliklər əldə etdiniz.

Mühazirənin birinci sualının köməkliyi ilə inzibati tənbehlərin anlayışı, onların tətbiq edilməsinin məqsədi, əhəmiyyəti və inzibati tənbehlərin inzibati məcburetmə tədbirlərinin digər növlərindən hansı xüsusiyyətlərinə görə fərqlənməsi barədə nəzəri biliklər əldə etdiniz.

İkinci sual vasitəsi ilə inzibati tənbehlərin sistemi, növləri və onların hər birinin hüquqi xarakteristikası haqqında nəzəri müddəalar təhlil edildi.

Mühazirənin üçüncü sualında isə inzibati tənbehlərin tətbiq edliməsinin ümumi qaydası açıqlanmışdır. Onu da qeyd etmək istərdim ki, inzibati tənbeh növləri çoxluq təşkil etdiyi və onlar səlahiyyətli orqanların (vəzifəli şəxslərin) geniş dairəsi tərəfindən tətbiq edildiyi üçün, mövzumuzun köməkliyi ilə inzibati tənbeh növlərindən hansılarının DİO (polis) və onların vəzifəli şəxsləri tərəfindən tətbiq edildiyini öyrəndik.

Əldə etdiyiniz nəzəri biliklərin insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsində, ictimai qaydanın qorunmasında, ictimai təhlükəsizliyin təmin edilməsində və cinayətkarlığa qarşı mübarizədə sizə böyük köməkliyi olacaqdır.

Mövzu № 13: ″Ayrı-ayrı inzibati xəta növlərinə görə inzibati məsuliyyət″

P L A N :

GİRİŞ

1. Əhalinin sağlamlığı, mülkiyyət əleyhinə və təbiətdən istifadə qaydaları əleyhinə olan inzibati xətalar.
2. İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar.
3. İdarəçilik qaydaları əleyhinə olan inzibati xətalar.
4. İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər).

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 09 avqust 1994-cü il.
3. ″İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, 2000.
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı 2000.
6. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı 2000.
7. ″Ovçuluq haqqında″ Azərbaycan Respublikasının Qanunu. 14 may 2004-cü il.
8. ″Heyvanlar aləmi haqqında″Azərbaycan Respublikasının Qanunu. 04 iyun 1999-cu il.
9. ″Balıqçılıq haqqında″ Azərbaycan Respubikasının Qanunu. 27 mart 1998-ci il.
10. ″Xidməti və mülki silah haqqında″ Azərbaycan Respublikasının Qanunu. 30 dekabr 1997-ci il.
11. ″Yaşayış yeri və olduğu yer haqqında″ Azərbaycan Respublikasının Qanunu. 04 aprel 1996-cı il.
12. Azərbaycan Respublikası Prezidentinin 16 iyun 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş ″Yerli icra hakimiyyəti haqqında Əsasnamə″.
13. Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 1997-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş ″Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə″.
14. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. F.Səməndərovun redaktəsi ilə. Bakı, 2001-ci il.
15. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
16. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
17. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ II hissə. Dərs vəsaiti. Bakı, 2006.
18. E.Abdullayev. ″Vətəndaşların inzibati məsuliyyəti″. Dərs vəsaiti. B.,1992.
19. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
20. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
21. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.
22. V.R.Kisin. ″Administrativnoe pravonaruşenie: ponətie, sostav, kvalifikaüiə″. Dərs vəsaiti. Moskva, 1991.
23. A.M.Staxov. "Administrativnaə otvetstvennostğ”. Dərs vəsaiti. Moskva, 2004

G İ R İ Ş

Barəsində danışılacaq mövzu öz aktuallığı baxımından mühüm əhəmiyyətə malikdir. Çünki 01 sentyabr 2000-ci il tarixdən qüvvəyə minən İXM-in xüsusi hissəsinin quruluşu mühafizə olunan obyektlərin sosial mahiyyəti baxımından sistemləşdirilmişdir.

Mühazirənin birinci sualında əhalinin sağlamlığı, mülkiyyət əleyhinə və təbiətdən istifadə qaydaları əleyhinə olan inzibati xətalar haqqında təhlillər aparılacaqdır. Bu sual açıqlanarkən mülkiyyətlə bağlı talamanın ayrı-ayrı növlərinin hüquqi xarakteristikası veriləcəkdir.

Mühazirənin ikinci sualı üzrə ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar haqqında qanunvericiliyinin ayrı-ayrı müddəaları şərh olunacaq.

Mühazirənin üçüncü saulında idarəcilik qaydaları ilə bağlı inzibati xətalar müzakirə olunacaq və bu növ cinayət əməllərindən fərqləri göstəriləcəkdir.

Yekun olaraq mühazirənin dördüncü sualında inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanlar haqqında danışılıcaq.

Sual 1. Əhalinin sağlamlığı, mülkiyyət və təbiətdən istifadə qaydaları əleyhinə olan inzibati xətalar

Əhalinin sağlamlığı əleyhinə olan inzibati xətalar

Əhalinin sağlamlığı, sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə olan inzibati xətalar Azərbaycan Respublikası İXM-in VII fəslini (61–68-3-cü maddələri) əhatə edir.

Əhalinin sağlamlığına birbaşa təsir edən amillər içərisində narkotiklərlə bağlı xətalar mühüm yer tutur. Respublikada mövcud şəraitin real təhlili göstərir ki, son illər narkotiklərlə bağlı hüquqpozmalar artmışdır. ▤ Bu hüquqpozmalarla mübarizədə təcrübədə ən çox istifadə edilən normalardan biri Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 68-1-ci maddəsidir: «Narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının istehlakı, narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının, prekursorların satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının istehlakına, narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və ya emalında istifadə etmək məqsədilə prekursorların satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə-

şərti maliyyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir, işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə on beş günədək müddətə inzibati həbs tətbiq edilir.

Qeyd: Satış məqsədi olmadan hazırladığı, əldə etdiyi, saxladığı, daşıdığı və ya göndərdiyi şəxsi istehlak miqdarında narkotik vasitələri, psixotrop maddələri, onların analoqlarını və ya prekursorları könüllü surətdə təhvil verən şəxs bu qeyddə nəzərdə tutulan hərəkətlərə görə inzibati məsuliyyətdən azad edilir.»

Şərh olunan inzibati xətanın bilavasitə əsas obyekti əhalinin sağlamlığı ilə baglı olan ictimai münasibətlərdir.

Qeyd olunmalıdır ki, bu inzibati xətanın törədilməsi nəticəsində dövlət, bələdiyyə və özəl sektorda olan infrastrukturların normal fəaliyyətinin pozulması mümkündür. Məhz bu səbəbdən də şərh olunan inzibati xətanın əlavə obyekti qismində ictimai təhlükəsizlik və yuxarıda qeyd olunan infrastrukturların normal fəaliyyəti çıxış edir.

Barəsində danışılan inzibati xətanın predmetini narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları təşkil edir.

Şərh olunan maddə blanket dispoziyalıdır. Bu normanın şərh edilməsi üçün narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar yaranan ictimai münasibətlərin tənzimlənməsi, bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin müəyyən edilməsi məqsədi ilə 28 iyun 2005-ci il tarixdə qəbul edilmiş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların dövriyyəsi haqqında» Azərbaycan Respublikasının Qanununa diqqət yetirmək lazımdır.

Qanuna görə:

- narkotik vasitələr – BMT-nin 1961-ci il tarixli «Narkotik vasitələr haqqında» Vahid Konvensiyasında, 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» Konvensiyasında, 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyasında, habelə Azərbaycan Respublikasının qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir;

- psixotrop maddələr - BMT-nin 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» Konvensiyasında, 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyasında, habelə Azərbaycan Respublikasının qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır;

- prekursorlar – narkotik vəsitələrin və psixotrop maddələrin hazırlanması məqsədi ilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzlarıdır.

Obyektiv tərəfdən bu inzibati xəta fəal hərəkətlə (istehlak, hazırlama, əldə etmə, daşıma və ya göndərmə) və ya hərəkətsizliklə (saxlama) törədilir.

Bu inzibati xəta qanunvericilik quruluşuna görə formal tərkiblidir. Belə ki, dispozisiyada göstərilən hərəkətlərdən birinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla törədilməsi inzibati xətanın başa çatmış hesab edilməsinə əsas verir:

- narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının istehlakı;

- narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının satış məqsədi olmadan istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanılması daşınması və ya göndərilməsi;

- narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və ya emalında istifadə etmək məqsədi ilə prekursorların satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanması, daşınması və ya göndərilməsi;

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakı dedikdə, qanunvericiliklə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş əsasında həkimin təyinatı olmadan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsi başa düşülür.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanması dedikdə, həyata keçirilməsi üsulundan asılı olmayaraq qanunvericiliklə müəyyən edilmiş qaydaları pozmaqla istehlaka yarayan və ya yaramayan narkotik vasitələrin və psixotrop maddələrin bilavasitə hazırlanmasına, yəni narkotik vasitələrin və psixotrop maddələrin istehsalına, emalına, saflaşdırılmasına və ya bir narkotik vasitənin, yaxud psixotrop maddənin digər narkotik vasitəyə və ya psixotrop maddəyə çevirilməsi yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin alınmasına, yaxud onların təsirinin gücləndirilməsinə tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasına, narkotik vasitələrin və psixotrop maddələrin alınmasına yönədilmiş hərəkətlər başa düşürülür.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz əldə edilməsi dedikdə, həyata keçirilməsi üsulundan asılı olmayaraq qanunvericiliklə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınmasına, hədiyyə və ya qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul edilməsinə, başqa mallara və əşyalara dəyişdirilməsinə, mənimsənilməsinə və ya hər hansı digər üsulla onlara yiyələnməyə yönəldilmiş bütün hərəkətlər başa düşülür.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz daşınması və ya göndərilməsi dedikdə, həyata keçirilməsi üsulundan asılı olmayaraq qanunvericiliklə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin şəxsin özündə, poçtla, nəqliyyat vasitələri ilə, daşınan predmetin narkotik vasitələr və psixotrop maddələr olması haqqında məlumatı olmayan şəxsin vasitəsi ilə və ya digər yollarla yerinin dəyişdirilməsinə yönəldilmiş bütün hərəkətlər başa düşülür.

Bu inzibati xəta subyektiv tərəfdən qəsdlə xarakterizə edilir. Belə ki, təqsirkar dispozisiyada sadalanan əməlləri törətdiyini dərk edir və onları törətməyi arzu edir.

Əməlin tövsifedici əlaməti kimi «… satış məqsədi olmadan …» çıxış edir. Qanunvericinin iradəsinə görə şəxs xeyir və ya mənfəət götürmədən narkotik vasitələri, psixotrop maddələri və onların analoqların istifadə etmək məqsədilə şəxsi istehlak miqdarında hazırlamalı, əldə etməli, saxlamalı, daşımalı və ya göndərməlidir. Əks halda təqsirkar şəxsin əməli Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.2-ci maddəsi ilə tövsif olunmalı və cinayət məsuliyyəti yaranmalıdır.

İnzibati xətanın subyekti kimi 16 yaşına çatmış, anlaqlı Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ola bilər.

Qanunverici maddənin qeyd hissəsini yaratmaqla profilaktik fəaliyyəti həyata keçirmişdir. Qeyddə narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və ya prekursoların qanunsuz dövriyyəsinə görə inzibati məsuliyyətdən azad etmənin əsasları öz əksini tapmışdır. Əgər şəxs şərh olunan inzibati xətanın predmetini könüllü

surətdə hakimiyyət nümayəndələrinə təhvil verərsə, bu halda o, inzibati məsuliyyətdən azad edilir.

Təqsirkar şəxslər bu inzibati xətanın törədilməsinə görə şərti maliyyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir və ya işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə on beş günədək müddətə inzibati həbs tətbiq edilir.

Bu inzibati xəta haqqında iş üzrə prosessual sənədlərin toplanmasını daxili işlər orqanları həyata keçirir, işlərin baxılması isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 360-cı maddəsinə əsasən rayon (şəhər) məhkəmələrinə həvalə edilmişdir.

Mülkiyyət əleyhinə olan inzibati xətalar

Azərbaycan Respublikası Konstitusiyası ilə insan və vətəndaşlara verilmiş əsas hüquqlardan biri də mülkiyyət hüququdur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi məqsədi ilə Konstitusiyamızın 13-cü maddəsinin 1-ci bəndinə əsasən, Azərbaycan Respublikasında mülkiyyət toxunulmaz kimi müəyyən edilmiş və dövlət tərəfindən müdafiə olunur.

Mülkiyyətin mühafizəsi dövlətin mühafizəedici funksiyalarından biridir və dövlətin bu funksiyası hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilir. Mülkiyyətin mühafizəsi dövlətin sərəncamında olan cinayət-hüquqi, inzibati-hüquqi və mülki-hüquqi vasitələrin köməkliyi ilə həyata keçirilir. Mülkiyyətin mühafizəsinin həyata keçirilməsi xalqın rifahının yüksəldilməsinə xidmət edir.

Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin 2-ci bəndinə əsasən, mülkiyyətin üç növü dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti müəyyən edilmişdir. Konstitusiyanın 29-cu maddəsinin 2-ci bəndinə əsasən, mülkiyyətin heç bir növünə üstünlük verilmir və mülkiyyət hüququ, o cümlədən də xüsusi mülkiyyət hüququ qanunla qorunur. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Mülkiyyət cəmiyyətin iqtisadi özülünü təşkil edən mühüm iqtisadi və hüquqi kateqoriyadır. Maddi nemətlərə sahiblik, onlardan istifadə və onların barəsində sərəncam verməklə əlaqədar yaranan ictimai münasibətlərdən ibarət olan mülkiyyət münasibətləri hüquqla tənzimlənərək, hüquqi forma kəsb edir və konkret mülkiyyətçinin öz əmlakı barədə sahiblik, istifadə və sərəncamvermə səlahiyyətini əks etdirən hüquq münasibətinə çevrilir. Azərbaycan Respublikasının Mülki Məcəlləsi mülkiyyətin bütün formalarının bərabərliyini və mülkiyyət hüququnun bütün subyektlərinin hüquq və mənafelərinin eyni dərəcədə mühafizə edildiyini təsbit edir. Ona görə də Respublikamızın yeni inzibati xətalar qanunvericiliyində keçmiş sovet inzibati hüquqpozmalar qanunvericiliyindən fərqli olaraq, bütün mülkiyyət formalarının bərabər inzibati hüquqi mühafizəsi nəzərdə tutulmuşdur.

Mülkiyyət formalarının inzibati-hüquqi mühafizəsi öz əksini ″Polis haqqında″ Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 9-cu bəndində ″şəxsiyyəti, insan hüquq və azadlıqların və mülkiyyəti hüquqazidd əməllərdən qorumaq″ polisin əsas vəzifələrindən biri kimi müəyyən edilmişdir.

İnsan və vətəndaşların Konstitusiya ilə müəyyən edilmiş mülkiyyət hüquqlarının təmin edilməsi, onların pozulmasının qarşısının alınması və pozulmuş hüquqlarının bərpa edilməsi

məqsədi ilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 8-ci fəslində mülkiyyət əleyhinə olan inzibati xətaların dairəsi müəyyən edilmişdir.

Mülkiyyət əleyhinə olan inzibati xətalara aşağıdakılar aiddir:

- xırda talama (İXM, maddə 69);
- meşə fondu torpaqlarının özbaşına tutulması və ya həmin torpaqlardan qanunsuz istifadə edilməsi (İXM, maddə 70);
- xüsusi razılıq (lisenziya) olmadan yerin təkindən istifadə etmə (İXM, maddə 71);
- su obyektləri üzərində mülkiyyət hüququnun pozulması (İXM, maddə 72);
- heyvanlar aləmi obyektlərindən özbaşına istifadə etmə (İXM, maddə 73)
- tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə qaydalarının pozulması (İXM, m.74);
- təsərrüfat əkinlərinin korlanması (İXM, m.75).

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin bu fəslində olan inzibati xətaların:

obyekti bir qayda olaraq mülkiyyət münasibətləridir. Hüquqi mənada mülkiyyət münasibəti mülkiyyətçi tərəfindən öz əmlakına sahib olma, ondan istifadə etmə və onun üzərində sərəncamvermə hüququna malik olma kimi başa düşülür;

obyektiv tərəfi əsasən, aktiv və passiv hərəkətlərlə törədilir. Qanunvericilik quruluşuna görə mülkiyyət əleyhinə olan inzibati xətalar əsasən maddi tərkiblidir;

subyekti 16 yaşına çatmış, anlaqlı, fiziki şəxslər, vəzifəli şəxslər, hüquqi şəxslərdir;

subyektiv tərəfi qəsd və ehtiyatsızlıq üzündən törədilir. Burada məqsəd tamah ola bilər.

Bu növ xətaların törədilməsinə görə xəbərdarlıq, inzibati cərimə və inzibati həbs kimi inzibati tənbehlər tətbiq edilir.

Mülkiyyət əleyhinə olan inzibati xətaların baxılması Azərbaycan Respublikasının rayon (şəhər) məhkəmələrinə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinə, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilib.

Mülkiyyət əleyhinə olan inzibati xətalar içərisində tez-tez rast gəlinəni Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 69-cu maddəsində göstərilmiş ″Xırda talama″dır.

Xırda talama, yəni oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgəsinin əmlakını talamağa görə -

şərti maliyyə vahidinin otuz beş mislindən qırx mislinədək miqdarda cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə on beş günədək müddətdə inzibati həbs tətbiq edilir.

Qeyd: Talanmış əmlakın dəyəri şərti maliyyə vahidinin otuz mislindən yuxarı olmadıqda, bu xırda talama hesab edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə edilir. Konstitusiyamızın bu müddəası mülkiyyətin növlərinin hər birinə (dövlət, xüsusi və bələdiyyə mülkiyyətinə) eyni həcmdə aid edilir.

Fikrimizcə, xırda talama dedikdə, özgənin əmlakını tamah məqsədi ilə hüquqazidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə və (və ya) özünün və ya başqa şəxslərin xeyrinə keçirmə kimi başa düşülür.

Bu inzibati xətanın obyekti mülkiyyətçi ilə mülkiyyət arasında yaranan mülkiyyət münasibətləridir. Maddi nemətlərə sahiblik, onlardan istifadə və onların barəsində sərəncamvermə ilə əlaqədar yaranan ictimai münasibətlərdən ibarət olan mülkiyyət münasibətləri hüquqla tənzimlənərək, hüquqi forma kəsb edir və konkret mülkiyyətçinin öz əmlakı barədə sahiblik, istifadə və sərəncamvermə səlahiyyətini əks etdirən hüquq münasibətinə çevrilir. Mülkiyyət münasibətləri mülki hüquq normaları ilə nizamlanır. Lakin araşdırdığımız halda onların mühafizəsi isə inzibati hüquq normalarının vasitəsi ilə təmin olunur.

Araşdırdığımız maddənin təsiri altına düşən xırda talamada oğru başqasının mülkiyyəti hesabına əmək (əziyyət) sərf etmədən varlanır, talanmış əmlak üzərində sərəncamvermə məkanını əldə edir, yəni ondan istifadə edir (bağışlayır, satır və s.).

Talama o vaxt xırda talama sayılır ki, talanmış əmlakın dəyəri şərti maliyyə vahidinin otuz mislindən yuxarı olmasın, əks halda həmin əməllər cinayət məsuliyyətinə səbəb ola bilər (məsələn, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsi: ″Oğurluq″, 178-ci maddəsi: ″Dələduzluq″, 179-cu maddəsi: ″Mənimsəmə və israf etmə″, 179.2.3-cü maddəsi: ″…şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə…″).

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 135.2-ci maddəsinə əsasən, əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərin toplusudur. Əşyalara yalnız fiziki obyektlər deyil, habelə pul və qiymətli kağızlar da aiddir (MM, maddə 135.1).

Talanmış əmlakın dəyəri dövlət tərəfindən tənzimlənirsə, dövlət tənzimləmə qiymətləri tətbiq edilir. Digər hallarda isə talanmış əmlakın dəyəri bazar qiymətinə əsasən qiymətləndirilir. Göstərilən qaydada qiymətləndirmə mümkün olmadıqda, Azərbaycan Respublikası İXM-in 392-ci və 405-ci maddələrinə əsasən, talanmış əmlakın qiyməti ekspertin rəyi əsasında müəyyən edilir.

Bu inzibati xətanın obyektiv tərəfi aktiv hərəkətlərlə həyata keçirilir. Xırda talama yalnız İXM-in 69-cu maddəsində nəzərdə tutulan hərəkətlərin həyata keçirilməsi ilə törədilə bilər. Bu hərəkətlər sırasına oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və dələduzluq aiddir.

Oğurluq özgənin əmlakını gizli olaraq talamadır (CM, maddə 177.1).

Özgənin əmlakı dedikdə, fərdi şəxslərin, vəzifəli şəxslərin, dövlət, ictimai, bələdiyyə və digər təşkilatların sərəncamında olan əmlak başa düşülür.

Mənimsəmə inanılıb tapşırılmış əmlakın, maddi qiymətli şeylərin ayrılması, götürülməsi və onun üzərində qanunsuz sahibliyi müəyyən etmək yolu ilə özünün və ya digər şəxslərin mülkiyyətinə verilməsində ifadə olunur.

İsraf etmə dedikdə, təqsirkara müəyyən səlahiyyətləri həyata keçirmək üçün etibar edilmiş əmlakın sərf edilməsi, satılması, istehlak edilməsi, müxtəlif formalarda özgəninkiləşdirilməsi (başqa şəxslərə bağışlama, vermə) başa düşülür.

Qulluq mövqeyindən sui-istifadə etmə zamanı əmlak vəzifəli şəxsin mülkiyyətində olmur, o, qanunsuz sərəncamlardan və saxta sənədlərdən istifadə etməklə ona yiyələnir.

Dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə kimi başa düşülür (CM, maddə 178.1).

Bu maddə qanunvericilik quruluşuna görə maddi tərkiblidir, yəni burada hüquqazidd əməl, ziyanlı nəticə və səbəbli əlaqə mövcuddur.

Bu inzibati xətanın subyekti 16 yaşına çatmış, anlaqlı fiziki şəxs və ya vəzifəli şəxs ola bilər.

Subyektiv tərəfdən araşdırılan inzibati xəta düzünə qəsdlə, tamah motivi ilə və qanunsuz varlanma məqsədi ilə xarakterizə olunur. Təqsirkar, maddədə sadalanan formada xırda talama etdikdə öz əmlinin hüquqazidd xarakterini dərk etmiş, onun zərərli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmiş olur.

Bu inzibati xətanın törədilməsinə görə şərti maliyyə vahidinin otuz beş mislindən qırx mislinədək miqdarda cərimə edilir və ya işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə ona beş günədək müddətə inzibati həbs tətbiq edilir.

Xırda talama haqqında olan işlərin baxılması Daxili İşlər Nazirliyinə və rayon (şəhər) məhkəmələrinə həvalə edilmişdir. İşin hallarına görə inzibati tənbeh kimi inzibati cərimənin tətbiqi məqsədəuyğundursa, onda işin baxılmasını DİN həyata keçirir. İşin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, inzibati cərimənin tətbiqi kifayət sayılmadıqda, rayon (şəhər) məhkəmələri işin materiallarına baxaraq on beş günədək müddətə inzibati həbs tətbiq edə bilər.

Təbiətdən istifadə qaydaları əleyhinə olan inzibati xətalar

Son dövrlər bütün bəşəriyyəti narahat edən ekoloji problemlərə Azərbaycan Respublikasında da böyük diqqət yetirilir və onların həlli üçün hərtərəfli tədbirlər görülür.

XXI əsr bütün dünyada ekologiya, sabit inkişaf, sağlamlıq əsri kimi elan edilib. Məlumdur ki, Azərbaycanın sabit inkişafı ekoloji problemlərin həllindən də çox asılıdır. Bu məqsədlə Azərbaycan Respublikasında son dövrdə xeyli sayda ekologiyaya aid, o cümlədən təbiəti mühafizə sahəsində müxtəlif tədbirlər görülmüş, bir sıra qanunlar qəbul edilmiş, bu sahə ilə baglı beynəlxalq normativ hüquqi aktlar ratifikasiya edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinə əsasən:

″I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

II. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır″.

Bu hüquqla yanaşı Azərbaycan Respublikası vətəndaşlarının ətraf mühitin qorunması kimi də vəzifəsi müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsinə əsasən: ″Ətraf mühitin qorunması hər bir şəxsin borcudur″.

Bunlarla yanaşı Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar məcəllələrində ekologiya, ekoloji təhlükəsizlik və təbiətdən istifadə qaydaları əleyhinə olan müxtəlif hüquqpozmalara görə məsuliyyət nəzərdə tutan normalar mövcuddur.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin ″Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar″ adlı IX fəslində (76-113 maddələrdə) müxtəlif növ inzibati xətalar göstərilmişdir.

Praktikada ən çox rast gələn xətalardan biri İXM-in 111-ci maddəsində göstərilən inzibati xətadır.

Beləliklə, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 111-ci maddəsi: ″Balıq ehtiyatlarının mühafizəsi və ov qaydalarının pozulması″.

111.1. Balıq ehtiyatlarının mühafizə qaydalarının pozulmasına görə –

inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlər müsadirə edilməklə və ya edilməməklə, şərti maliyyə vahidi məbləğinin yeddi yüz əlli mislindən min yeddi yüz əlli mislinədək miqdarda cərimə edilir.

111.2. Ov qaydalarının kobud şəkildə pozulmasına (lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş müddətlərdə, qadağan edilmiş alətlərlə və ya üsullarla ov edilməsinə), habelə digər ov qaydalarının müntəzəm pozulmasına görə -

inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlər müsadirə edilməklə və ya edilməməklə şərti maliyyə vahidi məbləğinin min mislindən iki min mislinədək miqdarda cərimə edilir, yaxud altı aydan iki ilədək müddətə ov hüququ məhdudlaşdırılır.

Bu maddənin məqsədi ətraf mühitin əsas komponenti kimi faunanın (heyvanlar aləminin) mühafizəsinin və heyvanlar aləmindən istifadə qaydasının təmin edilməsindən ibarətdir.

Texniki-hüquqi cəhətdən bu maddə iki hissədən ibarətdir:

1. balıq ehtiyatlarının mühafizəsi;

2. ov qaydalarının kobud şəkildə pozulması (lazımi icazə olmadan və ya qadağan edilmiş müddətlərdə, qadağan edilmiş alətlərlə və ya üsullarla ov edilməsinə), habelə digər ov qaydalarının müntəzəm pozulması.

Bu maddədə nəzərdə tutulmuş iki inzibati xətanın tərkibi xətanın predmetinə və obyektiv tərəfinə görə bir-birindən fərqlənir, lakin xətanın subyektinə və subyektiv tərəfinə görə eynidirlər.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 111.1-ci maddəsi: ″Balıq ehtiyatlarının mühafizə qaydalarının pozulmasına görə…″ adlanır, onun xüsusi obyekti təbiətdən istifadə edilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir. Növlü obyekt isə balıq ehtiyatlarının mühafizəsi qaydalarını təşkil edən ictimai münasibətlərdir.

Balıq ehtiyatlarının qorunması qaydalarını əks etdirən normativ-hüquqi aktlara aşağıdakıları aid etmək olar:

1. Azərbaycan Respublikasının Su Məcəlləsi;
2. ″Azərbaycan Respublikasının ″Balıqçılıq haqqında″ 27 mart 1998-ci il tarixli Qanunu;
3. ″Heyvanlar aləmi haqqında″ 4 iyun 1999-cu il tarixli Qanununu;
4. ″Ətraf mühitin mühafizəsi haqqında″ 8 iyun 1999-cu il tarixli Qanunu;
5. «Ovçuluq haqqında» 20 aprel 2004-cü il tarixli Azərbaycan Respublikası Qanunu;
6. «Ovçuluq haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 26 may 2004-cü il tarixli Fərmanı;
7. ″Qiymətli balıq növlərinin və digər su heyvanlarının həvəskar və idman ovunun təşkil ediməsi üzrə fəaliyyətin lisenziyalaşdırılması haqqında″ Əsasnamə;
8. «Balıqçılıq və ovçuluq təsərrufatlarının ehtiyacları üçün su obyektlərindən istifadə Qaydaları». (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 may 2000-ci il tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmişdir);
9. «Heyvanlar aləmi obyektlərinin və onların əldə edilməsi həmçinin dövlət uçotuna alınması, heyvanlar aləmi obyektlərinin dövlət kadastırının aparılması və heyvanlar aləmi

obyektlərinin dövlət monitorinqinin həyata keçirilməsi Qaydaları» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 may 2001-ci il tarixli 89 nömrəli Qərarı ilə təsdiq edilmişdir);

10. «Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydalarının və Ovçuluq təsərrüfatları haqqında Əsasnamənin təsdiq edilməsi haqqında» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 nömrəli 27 yanvar 2005-ci il tarixli Qərarı.

Təhlil edilən inzibati xətanın obyektiv tərəfi aktiv hərəkətlərlə (balıqların kürütökmə yerlərində müvafiq icazə olmadan bənd çəkmək, radioaktiv, zəhərli-kimyəvi maddələrlə sututarlarını çirkləndirmək və zibilləndirmək) və hərəkətsizliklə (şəxs üzərinə qoyulmuş vəzifələrini icra etmir) ifadə oluna bilər.

Qanunvericilik quruluşuna görə bu maddə formal tərkiblidir, lakin balıq ehtiyatlarının mühafizəsi qaydalarının pozulması müəyyən dərəcədə ziyanın vurulması ilə də müşayiət edilə bilər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 257-ci maddəsində: ″Balıq ehtiyatlarının qorunması qaydalarını pozma″ğa görə məsuliyyət yalnız körpülərin, bəndlərin tikintisi, partlayış işlərinin və ya digər işlərin həyata keçirilməsi, habelə suburaxıcı qurğuların istismarı balıq ehtiyatlarının qorunması qaydalarını pozmaqla törədildikdə və bu əməllər balıqların və ya digər su heyvanlarının kütləvi məhvinə səbəb olduqda yaranır.

Cinayət Məcəlləsinin 257-ci maddəsinin dispozisiyasında göstərilən ″… balıqların və ya digər su heyvanlarının kütləvi məhvi…″ dedikdə, müəyyən ərazidə, su hövzəsində bir və ya bir neçə heyvan növünün konkret zaman ərzində olan orta təbii statistik göstəricilərdən üç dəfə və ya daha artıq dərəcədə qırılması başa düşülür.

Azərbaycan Respublikası İXM-in 111.1-ci maddəsi ilə nəzərdə tutulmuş inzibati xəta formal tərkibli olsa da, burada müəyyən ziyanın vurulması da ehtimal olunur. Törədilən əməlin inzibati xəta və ya cinayət əməli kimi qiymətləndirilməsi üçün gərək hər iki hüquqpozmanın obyektiv tərəfini xarakterizə edən bütün əlamətlər nəzərə alınmalıdır.

Bu inzibati xətanın subyektiv tərəfi təqsirin qəsd və ehtiyatsızlıq formasında ola bilər, yəni şəxs balıq ehtiyatlarının mühafizəsi qaydalarını pozarkən, öz əməlinin hüquqazidd xarakterini dərk etmiş, onun zərərli nəticələrini qabaqcadan görmüş, belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdir və ya bu nəticələrin baş verməsini qabaqcadan görə bilməli və görməli olduğu halda, onları görməmişdir.

İnzibati xətanın subyekti 16 yaşına çatmış, anlaqlı fiziki şəxslər və vəzifəli şəxslər ola bilər. Bu şəxslər öz xidməti vəzifələrinə görə və ya həyata keçirdiyi funksiyalara görə özünün istehsal fəaliyyəti nəticəsində balıq ehtiyatlarının mühafizəsi üzrə müvafiq tədbirlərin görülməsi vəzifələrini həyata keçirməlidirlər.

Bu inzibati xətanın törədilməsinə görə inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlər müsadirə edilməklə və ya edilməməklə, şərti maliyyə vahidinin on beş mislindən otuz beş mislinədək miqdarda cərimə edilir.

Adı çəkilən inzibati xəta haqqında işlərə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 360-cı maddəsinə əsasən rayon (şəhər) məhkəmələri və «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 29 avqust 2000-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanının 3.13 bəndinə əsasən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 111.2-ci maddəsi: ″Ov qaydalarının kobud şəkildə pozulmasına (lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş müddətlərdə, qadağan edilmiş alətlərlə və ya üsullarla ov edilməsinə), habelə digər ov qaydalarının müntəzəm pozulmasına görə …» inzibati məsuliyyət nəzərdə tutur.

Şərh olunan maddənin məqsədi Azərbaycan Respublikasında heyvanlar aləminin obyektlərini müxtəlif ictimai-təhlükəli qəsdlərdən qorumaqdır.

Bu inzibati xətanın obyektini heyvanlar aləminin mühafizəsi və ondan istifadə edilməsi, habelə ətraf təbii mühitin ayrılmaz tərkib elementi kimi vəhşi heyvanların genetik fondunun qorunması sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

İnzibati xətanın predmeti qismində Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, quruda, suda, torpaqda və havada təbii olaraq, sərbəst şəraitdə daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvanlar çıxış edir. Həşəratlar bu inzibati xətanın predmeti ola bilməz.

Bu inzibati xətanın obyektiv tərəfi ov qaydalarının kobud şəkildə pozulmasına və digər ov qaydalarının müntəzəm pozulmasına yönəlmiş hərəkətlər təşkil edir.

Ov qaydalarının kobud şəkildə pozulması aşağıdakı hərəkətlərdən ibarətdir:

- lazımi icazə olmadan ov edilməsi;
- qadağan edilmiş yerlərdə ov etmə;
- qadağan edilmiş müddətlərdə ov etmə;
- qadağan edilmiş alətlərlə ov etmə.
- qadağan edilmiş üsullarla ov etmə.

«Ovçuluq haqqında» Azərbaycan Respublikasının Qanununun 1.0.1-ci maddəsinə əsasən, ovçuluq – quruda və suda təbii sərbəstlik və yarım sərbəst şəraitində daimi, müvəqqəti və köçəri yaşayan, habelə təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılan suda-quruda yaşayanların, xəzdərililərin, sürünənlərin, quşların və məməlilərin, yəni vəhşi heyvanların izlənilməsi, təqib edilməsi, tutulması və vurulması üzrə fəaliyyət növüdür.

Ovçuluq fəaliyyəti «Ovçuluq haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ovçuluq üçün ayrılmış ov yerlərində həyata keçirilir.

Ovçuluq fəaliyyəti ödənişlidir. Bu fəaliyyət ovçuluq bileti və ov etmək üçün verilən icazə əsasında həyata keçirilir.

Qadağan edilmiş alət və üsullarla heyvanları şikəst edən, onlara əziyyət verən mexaniki qurğular, tələlər, torlar, vəhşi heyvanların və quşların səslərini çıxaran elektron cihazlar, onların kütləvi şəkildə tutulmasına səbəb olan tələ tipli çalalar, zərərli qazlardan və kimyəvi maddələrdən istifadə və s. aid olunur.

Ov yerlərində ov silahları, ov itləri, ovçu quşları və başqa ov vasitələri ilə olmanın özü də ov etmə kimi qiymətləndirilir.

İnzibati xətanın subyektiv tərəfi qəsd və ehiyatsızlıq formasında ifadə oluna bilər.

İnzibati xətanın subyekti 16 yaşına çatmış anlaqlı fiziki şəxsdir.

Şərh olunan inzibati xətanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 258-ci maddəsində ″Qanunsuz ov etmə″də göstərilən cinayətdən fərqləndirici əlamətləri ″xeyli″ (şərti maliyyə vahidinin 400 mislindən 1000 mislinədək) və ″külli miqdar″da (şərti maliyyə

vahidinin 1000 mislindən artıq) ziyan vurma, eləcə də, digər tövsifedici əlamətlərinin olmasıdır.

Bu inzibati xəta haqqında işlərə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 360-cı maddəsinə əsasən rayon (şəhər) məhkəmələri və «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 29 avqust 2000-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanının 3.7-ci və 3.13 bəndlərinə əsasən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır.

İnzibati xətanın törədilməsinə görə, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlər müsadirə edilməklə və ya edilməməklə şərti maliyyə vahidinin iyirmi mislindən qırx mislinədək miqdarda cərimə edilir, yaxud altı aydan iki ilədək müddətə ov huququ məhdudlaşdırılır.

Birinci sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki:

1. Xırda talama dedikdə, özgənin əmlakını tamah məqsədi ilə hüquqazidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə və (və ya) özünün və ya başqa şəxslərin xeyrinə keçirmə kimi başa düşülür.

Talama o vaxt xırda talama sayılır ki, talanmış əmlakın dəyəri şərti maliyyə vahidi məbləğinin (1.1 manat) otuz mislindən yuxarı olmasın, əks halda həmin əməllər cinayət məsuliyyətinə səbəb ola bilər.

Bu inzibati xətanın törədilməsinə görə şərti maliyyə vahidi məbləğinin otuz beş mislindən qırx mislinədək miqdarda cərimə edilir və ya işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə ona beş günədək müddətə inzibati həbs tətbiq edilir.

Xırda talama haqqında olan işlərin baxılması daxili işlər orqanlarına və rayon (şəhər) məhkəmələrinə həvalə edilmişdir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 111.1 maddəsi: ″Balıq ehtiyatlarının mühafizə qaydalarının pozulmasına görə inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlər müsadirə edilməklə və ya edilməməklə, şərti maliyyə vahidi məbləğinin on beş mislindən otuz beş mislinədək miqdarda cərimə edilir.″

Bu inzibati xəta haqqında işlərə rayon (şəhər) məhkəmələri (Azərbaycan Respublikası İXM, m.360) və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 111.2-ci maddəsi: ″Ov qaydalarının kobud surətdə pozulması (lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş müddətlərdə, qadağan edilmiş alətlərlə və üsullarla ov edilməsinə), habelə digər ov qaydalarının müntəzəm pozulmasına görə inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlər müsadirə edilməklə və ya edilməməklə, şərti maliyyə vahidinin iyirmi mislindən qırx mislinədək miqdarda cərimə edilir, yaxud altı aydan iki ilədək müddətə ov huququ məhdudlaşdırılır.

Bu növ inzibati xətalar haqqında işlərin baxılması rayon (şəhər) məhkəmələrinə və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə həvalə edilmişdir.

Sual 2. İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin 1-ci bəndinə əsasən: ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi…″ kimi müəyyən edilmişdir. Konstitusiyamızın 24-80-cı maddələrinə müvafiq olaraq insan və vətəndaşların konstitusiyon hüquqlarının, azadlıqlarının və vəzifələrinin təmin edilməsi Respublikamızda ictmai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi səviyyəsindən çox asılıdır.

″Polis haqqında″ Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən polisin fəaliyyətinin əsas istiqamətlərindən biri olan ″ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi″ bilavasitə Respublikada ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinə yönəldilmişdir. Polisin bu fəaliyyət istiqaməti ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətaların xəbərdar edilməsinə və onların qarşısının alınmasına xidmət edir. İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalara qarşı mübarizənin daha da gücləndirilməsi, Respublikadakı ictimai-siyasi vəziyyətin sabit saxlanılması, insan və vətəndaşların istirahəti və əməyi üçün normal şəraitin yaradılması ″Polis haqında″ Qanuna əsasən polis əməkdaşlarının vəzifələri kimi müəyyən edilmişdir.

İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar öz həcminə görə baş verən digər inzibati xətaların həcmindən daha çoxdur.

İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 22-ci fəslində (İXM, maddə 296-309) göstərilmişdir.

Bu sualda istifadə edilən ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat terminlərinə açıqlama vermək məqsədəmüvafiqdir.

İctimai qayda – sosial-hüquqi kateqoriya kimi, sosial normalara (hüquq normalarına, əxlaq qaydalarına, ümumqəbul olunmuş birgəyaşayış qaydalarına və s.) riayət edilməsi nəticəsində təsis edilən və toxunulmazlığına dövlət və cəmiyyətin bütün siyasi sistemi tərəfindən təminat verilən ictimai münasibətlər sistemidir.

Hüquq əbədiyyatlarında ictimai qaydaya həm geniş, həm də dar mənada baxılır.

İctimai qayda geniş mənada cəmiyyətdə yaranan bütün iqtisadi və ictimai münasibətlər sistemini əhatə edir.

Sosial kateqoriya kimi ictimai qaydanı geniş mənada, yəni bütün sosial əlaqələr və münasibətlər sistemini qanunvericilikdə və hüquq ədəbiyyatında dar mənada olan (xüsusi mənada) ictimai qaydadan fərqləndirirlər. İctimai qayda qısa mənada hüquq normaları və digər sosial normalarla tənzimlənən ictimai münasibətlərin bütün sistemini əhatə etmir, o yalnız ictimai həyatın müəyyən sahəsində yaranan hissəsini əhatə edir.

İctimai qayda anlayışının dar mənada dərk edilməsi zəruriyyəti aşağıdakı amillərlə şərtləndirilir:

- bu və ya digər sosial sahədə yaranan ictimai münasibətlərin çox tərəfliliyi ilə;
- müxtəlif növlü ictimai münasibətləri tənzimləyən xüsusi hüquqi normaların mövcudluğu ilə;
- hüquqi kateqoriya kimi ictimai qaydaya qəsd edən hüquqpozmalara görə qanunvericilik tərəfindən məsuliyyətin müəyyən edilməsi ilə;
- ictimai qaydanın qorunması üzrə xüsusi funksiyaların və bu funksiyaları realizə edən orqanların mövcud olması ilə və s.

İctimai qaydanın dar mənada, yəni xüsusi (hüquqi) mənada anlayışı haqqında qanunvericilikdə və xüsusi hüquq ədəbiyyatında vahid fikir yoxdur. İctimai qaydanın dar mənada verilmiş anlayışları içərisində müasir dövr üçün daha məqsədəuyğunu aşağıdakını hesab etmək olar:

İctimai qayda dedikdə, dövlət orqanları və qeyri-hökümət təşkilatlarının fəaliyyəti, əhalinin əməyi və istirahəti üçün normal şəraitin və ictimai həyatın əmin-amanlıq vəziyyətinin təmin edilməsi məqsədi daşıyan, ictimai yerlərdə insanların ünsiyyəti prosesində yaranan, cəmiyyətin tələbatı ilə şərtləndirilən və sosial normalarla tənzimlənən ictimai münasibətlər sistemi kimi başa düşülür.

İctimai qaydanın dar mənada belə anlayışı bir çox hüquq ədəbiyyatlarında və normativ aktlarda ümumiləşdirilərək işlədilir.

İctimai qayda cəmiyyətin digər sahəsi olan ictimai təhlükəsizliklə sıx bağlıdır.

İctimai təhlükəsizlik sahəsinə insanların həyatı və sağlamlığı, onların əmlakı üçün yaranan və ya yarana biləcək təhlükənin qarşısının alınması və ya onların qaldırılması ilə bağlı olan ictimai münasibətlər aiddir.

İctimai təhlükəsizlik vətəndaşların və vəzifəli şəxslərin fəaliyyəti nəticəsində baş verə bilən və ətrafdakılar üçün yüksək təhlükəli olan hadisə və vəziyyətlərdən digər insanların həyat və sağlamlığının mühafizə edilməsi, binaların və qurğuların dağıdılmasının və ya zədələnməsinin qarşısının alınması məqsədi ilə dövlət tərəfindən müəyyən edilmiş xüsusi təşkilati-texniki qaydalara ciddi riayət edilməsinə əsaslanan münasibətlər sistemidir.

İctimai mənəviyyat cəmiyyətdə yaranmış baxışlar, adətlər, şərəf, ləyaqət, vətəndaşlıq vəzifələri haqqında normalar sistemi və davranış qaydalarıdır.

Mənəviyyat ərəb sözü olub, insanın mənəvi keyfiyyət normaları deməkdir. Mənəviyyat həm də yüksək əxlaq deməkdir.

İctimai qayda əleyhinə olan inzibati xətalar içərisində daha geniş yayılmış xırda xuliqanlıqdır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 296-cı maddəsi: «Xırda xuliqanlıq

Xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan və ya fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə –

şərti maliyyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir, işin hallarına görə, pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, on beş günədək müddətə inzibati həbs tətbiq olunur.»

Xırda xuliqanlıq ictimai qaydaya qəsd edən inzibati xətadır. O, təqsirli şəxsin mədəniyyət və dünyagörüşü səviyyəsinin aşağı olmasını, onun təkəbbürlüyünü, özündən razı olmasını, onu əhatə edən insanların maraqlarına laqeydliyini və əxlaq qaydalarına məhəl qoyulmamasını sübut edir.

Bu inzibati xətanın obyekti ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat sahələrində yaranan ictimai münasibətlərdir. Xətanın bilavasitə obyekti isə vətəndaşların ictimai yerlərdə olması ilə əlaqədar yaranan ictimai münasibətlərdir. Bu xətaların törədilməsi zamanı, hər bir halda, ictimai qaydaya, vətəndaşların şərəf və ləyaqətinə, onların normal iş şəraitinə, istirahətinə, hüquq və qanuni maraqlarına ziyan vurulur.

Obyektiv cəhətdən xırda xuliqanlıq ictimai qaydanı pozan hərəkətlərlə törədilir. Qanunvericilik quruluşuna görə bu maddədə göstərilən inzibati xəta formal tərkiblidir. İctimai qaydanı pozan hərəkətlər:

- fiziki şəxslər üzərində zor tətbiq olunması;
- zorun tətbiq olunması hədəsi;
- özgənin əmlakının məhv edilməsi;
-özgənin əmlakının zədələnməsi ilə müşayiət edilməməlidir.

Göstərilən hallardan biri olduqda, araşdırılan əməl Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221-ci maddəsinə əsasən, xuliqanlığa görə cinayət məsuliyyətinə səbəb olur.

Xırda xuliqanlıq kimi törədilən hərəkətlərin siyahısı qanunverici tərəfindən müəyyən edilməyib. Fikrimizcə, burada müxtəlif hərəkətlər nəzərdə tutulub. Məsələn: ictimai yerlərdə nəlayiq söyüşlərin söyülməsi, vətəndaşlara təhqiramiz yanaşma, insan ləyaqətini alçaldan və ictimai mənəviyyatı təhqir edən sərxoş vəziyyətdə ictimai yerlərə gəlmə, divarlar üzərində nəlayiq söyüşlər yazma, gecə vaxtı vətəndaşların rahatlığını nümayişcəsinə pozma və s.

Xırda xuliqanlıq ictimai həyatın istənilən sahəsində törədilə bilər: məişətdə, insanların olduğu yerdə, küçələrdə, mənzillərdə, meşədə və s.

Adətən, xırda xuliqanlıq bilavasitə insanların yanında törədilir. Belə ki, yalnız belə şəraitdə təqsirli şəxs cəmiyyətə olan öz hörmətsizliyini daha böyük həcmdə nümayiş etdirir. Lakin əməlin xəta kimi qiymətləndirilməsi üçün nümayişlik (kütləvilik) və ya insanların iştirakı əsas tövsifedici əlamət kimi çıxış edə bilməz.

Subyektiv tərəfdən xırda xuliqanlıq qəsdlə, adətən düzünə qəsdlə xarakterizə olunur. Təqsirkar şəxs başa düşür ki, onun hərəkətləri hüquqaziddir. O, əvvəlcədən görür ki, bu hərəkətlərin törədilməsi zamanı ictimai qayda və vətəndaşların rahatlığı pozulacaq və bunu da arzu edir. Lakin şəxs inzibati xəta törədilməsini bunu arzu etmirsə, lakin buna şüurlu surətdə yol verirsə, xırda xuliqanlıq yanakı qəsdlə törədilir.

Xırda xuliqanlığın subyekti 16 yaşına çatmış, anlaqlı fiziki şəxsdir.

Bu inzibati xətanın törədilməsinə görə şərti maliyyə vahidinin on beş mislindən iyirmi mislinədək miqdarda cərimə edilir, işin hallarına görə, pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on beş günədək müddətə inzibati həbs tətbiq edilir.

Bu inzibati xəta haqqında işlərə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 360-cı maddəsinə əsasən rayon (şəhər) məhkəmələri və «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 29 avqust 2000-ci il tarixli Azərbaycan Respublikası Prezidenti Fərmanının 3.3 bəndinə əsasən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 22-ci fəslinə aid olan xətalardan biri də Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 298-ci maddəsində göstərilən: «Yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkilinin və keçirilməsi qaydasının pozulması» adlanır.

Həmin norma əsasında «Yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkili və keçirilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydasının pozulmasına görə-

xəbərdarlıq edilir və ya şərti maliyə vahidinin yeddi mislindən on üç mislinədək miqdarda cərimə edilir.»

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə əsasən insan və vətəndaşların konstitusiyon hüquq və azadlıqlardan biri də "sərbəst toplaşmaq azadlığı"dır. Lakin insan və vətəndaşların konstitusiyon azadlıqları kortəbii qaydada yox, sivil və demokratik ölkələrdə olduğu kimi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilməlidir. Bu baxımdan Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinin 2-ci bəndinə əsasən "hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır".

Bu hüququn sivil qaydada və demokratik prinsiplər əsasında həyata keçirilməsini təmin emək məqsədi ilə 13 noyabr 1998-ci il tarixində "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və Respublikamızda toplantıların təşkili və keçirilməsi mexanizmi müəyyən edilmişdir.

İnzibati xətanın bilavasitə obyekti ictimai qayda, ictimai təhlükəsizlik, vətəndaşların hüquq və azadlıqları, eləcə də müəyyən edilmiş idarəçilik qaydalarıdır.

İnzibati xətanın obyektiv tərəfi qanunvericiliklə müəyyən edilmiş qaydada yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkili və keçirilməsi qaydasının pozulmasıdır.

Qüvvədə olan "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən, toplantı bir neçə şəxsin xüsusi məqsədlə ictimai yerdə müvəqqəti toplaşması deməkdir. Toplantılar aşağıdakı formalarda keçirilə bilər:

♦ yığıncaq şəxslərin hər hansı məsələni birlikdə müzakirə etmək və həmin məsələyə dair qərar qəbul etmək məqsədilə toplaşmasıdır;

♦ mitinq toplanmış şəxslərin ümumi fikirlərini ifadə etmək və (və ya) ümumi çağırışlar etmək, tələblər irəli sürmək üçün keçirilən kütləvi tədbirdir;

♦ nümayiş bir qrup şəxsin ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərinin ifadəsidir;

♦ küçə yürüşü müəyyən marşrutla hərəkət edən bir qrup şəxsin ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərinin ifadəsidir;

♦ piket ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərini ifadə edən şəxslərin nümayişdə iştirak edənlərdən daha kiçik bir qrupunun müəyyən yerdə toplaşmasıdır.

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1 hissəsinə əsasən, qeyd olunan tədbirlərin keçirilməsi üçün onun təşkilatçısı (təşkilatçıları) 5 gün əvvəl rayon və ya şəhər icra hakimiyyəti orqanlarına yazılı məlumat verməlidir.

Həmin məlumatda aşagıdakılar öz əksini tapmalıdır:

- keçiriləcək tədbirin adı;

- tədbirin məqsədi;

- tədbirin keçiriləcəyi yer və vaxtı;

- tədbirdə olacaq insanların (iştirakçıların) sayı;

- tədbirin təşkilatçılarının adı, soyadı, atasının adı və ünvanı;

- yazılı xəbərdarlığın təqdim edildiyi tarix;

- tədbir küçə yürüşü formasında keçirilərsə, onun təklif olunan marşrutları və s.

Barəsində danışılan tədbirlərin iştirakçıları yalnız könüllü şəxslər olmalıdır. İstənilən vəzifəli şəxs tərəfindən bu tədbirlərin keçirilməsinə hansısa şəxsin məcburi

surətdə gətirilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309-cu maddəsi ilə tövsif olunmalıdır.

İnzibati xətanın subyekti 16 yaşına çatmış, anlaqlı kütləvi tədbirdə iştirak edən şəxslər və ya 18 yaşı olan tədbirin təşkilatçılarıdır.

Subyektiv tərəfdən bu inzibati xəta qəsd forması ilə xarakterizə olunur.

Bu inzibati xətanın törədilməsinə görə xəbərdarlıq və ya şərti maliyyə vahidinin yeddi mislindən on üç mislinədək miqdarda cərimə edilir.

Bu növ inzibati xətaların baxılması Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli ″Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə″ Fərmanının 3.3-cü bəndinə əsasən, Azərbaycan Respubikasının Daxili İşlər Nazirliyinə həvalə edilib.

İctimai təhlükəsizlik əleyhinə qəsd edən inzibati xətalardan biri də yaşayış məntəqələrində və xüsusi olaraq ayrılmamış yerlərdə, yaxud müəyyən edilmiş qaydaları pozmaqla odlu silahdan atəş açmadır. Bu norma Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 305-ci maddəsində qeyd olunmuşdur.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 305-ci maddəsi: «Yaşayış məntəqələrində və xüsusi olaraq ayrılmamış yerlərdə, yaxud müəyyən edilmiş qaydanı pozmaqla odlu silahdan atəş açma

Yaşayış məntəqələrində və xüsusi olaraq ayrılmamış yerlərdə və ya xüsusi olaraq ayrılmış yerlərdə müəyyən edilmiş qaydanı pozmaqla odlu silahdan atəş açmağa görə –

silah və döyüş sursatı müsadirə edilməklə və ya edilməməklə, şərti maliyyə vahidinin on mislindən iyirmi mislinədək miqdarda cərimə edilir.

Bu maddə ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə odlu silahdan istifadə qaydalarının pozulmasına görə məsuliyyəti müəyyən edir. Bu maddənin dispozisiyası blanket xarakteri daşıyır. Hüquqpozmanın xarakterini müəyyən etmək üçün müxtəlif şəraitlərdə: müəssisələrin, idarələrin, təşkilatların mühafizəsi zamanı, təhsil müəssisələrində, iş yerlərində, kinofilmlərin çəkilişlərində və s. yerlərdə silahdan istifadə qaydalarını nizamlayan normativ aktlara müraciət etmək lazımdır.

Bu inzibati xətanın tərkibi üçün obyektiv tərəfin aşağıdakı hərəkətlərdən birinin olması vacibdir:

a) yaşayış məntəqələrində odlu silahdan atəş açma;

b) xüsusi olaraq ayrılmamış yerlərdə odlu silahdan atəş açma;

v) xüsusi olaraq ayrılmış yerlərdə müəyyən edilmiş qaydanı pozmaqla odlu silahdan atəş açma.

«Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə görə odlu silah dedikdə, barıtın və ya digər alışan maddələrin yanmasıdan yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan cıxarmaq təyinatına malik olan silah başa düşülür. Onlara tüfəng (yivsiz lüləli ov tüfəngindən başqa), karabin, tapanca və revolver, avtomat və pulemyot, minaatan, top, qumbaraatan və kalibrindən asılı olaraq digər odlu silahlar aid edilir.

Odlu silahın funksional təyinatını müəyyən edən əsas hissələri – lülə, zərbə, buraxılış, bağlayan mexanizmlər və silahın digər hissələri kompleksdə atəş açmaga imkan verdikdə

odlu silah kimi qəbul edilməlidir. Odlu silah həm sənaye, həm də kustar üsulla istehsal edilə bilər.

Atəş açmaq üçün xüsusi ayrılmış yerlər dedikdə, atəş tirləri, atəş sahələri, ətrafdakıların təhlükəsizliyini təmin edən şərtlərə əməl etməklə DİN-in icazəsi ilə açılmış dövlət və ictimai təşkilatların atıcılıq stendləri, ov yerləri başa düşülür.

Müəyyən edilmiş qaydanı pozmaqla odlu silahdan atəş açma dedikdə, hər hansı bir konkret yerdə təhlükəsizlik tələblərinə riayət etməməklə odlu silahdan atəş açma başa düşülür. Məsələn: təlim rəhbərinin əmri olmadan və ya ″Azad″ komandasından sonra atəş açma; hədəflər olan sahədə adamlar, maşınlar və heyvanlar olduqda atəş açma; nasaz silahdan və ya təhlükəli istiqamətlərdə atəş açma; silahın başqa şəxslərə verilməsi və s. başa düşülür.

Nəzərə almaq lazımdır ki, pnevmatik silahlar, siqnal verən, idman-tikinti silahları, qaz tapançaları, siqnal raketlərini atan tapançalar, partlayan raketlər və digər imitasiya-pirotexnik və işıqlandırıcı vasitələr – odlu silaha aid edilmir.

Bu inzibati xətanın subyekti 16 yaşına satmış, anlaqlı, fiziki şəxsdir. Xidməti vəzifələrini yerinə yetirməklə əlaqədar verilən odlu silah və ya idarələrin, təşkilatların müvəqqəti istifadəsinə verilən, habelə müəyyən olunmuş qaydaları pozmaqla, bu silahdan istifadə edən və onlara sahib olan şəxslər ola bilər.

16 yaşından 18 yaşına qədər olan şəxslər odlu silahdan istifadə qaydalarını pozduqlarına görə ümumi əsaslarda inzibati məsuliyyət daşıyır.

İnzibati xətanın subyektiv tərəfi qəsd və ya ehtiyatsızlıqla xarakterizə olunur. Təqsirkar bilərəkdən odlu silahdan istifadə qaydalarını pozur və bunları arzu edir. Əməlin tövsif edilməsi üçün motiv və məqsəd əhəmiyyət kəsb etmir.

Bu inzibati xətanın tərkibi hüquqazidd əməlin törədilməsi nəticəsində zərərli nəticələrin yaranmasını nəzərdə tutmur. Buna görə də, zərərli nəticələr yaradan həmin hərəkətlər onların ağırlıq dərəcəsindən asılı olaraq (şəxsiyyətə zərər vurma, mülkiyyətə zərər vurma və s.) Azərbaycan Respublikası CM-in müvafiq maddələri ilə tövsif olunmalıdır.

Bu inzibati xətanın törədilməsinə görə silah və döyüş sursatı müsadirə edilməklə və ya edilməməklə şərti maliyyə vahidinin on mislindən iyirmi mislinədək miqdarda cərimə edilir.

Yalnız təqsirli şəxsin mülkiyyətində olan silah və döyüş sursatı müsadirə edilə bilər. Əsas dolanacaq mənbəyi ov olan şəxslərin odlu silahı, döyüş sursatı və digər ov alətləri müsadirə edilə bilməz.

Bu inzibati xəta haqqında protokol polis əməkdaşı tərəfindən tərtib olunur. İşin baxılmasına qədər odlu silah və döyüş sursatının sayı və növü haqqında protokolda qeydlər edilir. Təqsirkar könüllü olaraq odlu silahı və sursatı təhvil verməkdən imtina etdikdə, polis əməkdaşı şəxsi axtarış, fiziki şəxsdə olan şeyləri yoxlama və şeylərin və sənədlərin götürülməsi kimi müxtəlif tədbirlər keçirə bilər.

Bu inzibati xəta haqqında işlərə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 360-cı maddəsinə əsasən rayon (şəhər) məhkəmələri və «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 29 avqust 2000-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanının 3.3 bəndinə əsasən, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır.

İctimai mənəviyyat əleyhinə olan inzibati xətalardan biri Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 308-ci maddəsində göstərilmiş «Fahişəliklə məşğul olma»dır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 308-ci maddəsi: «Fahişəliklə məşğul olma

Fahişəliklə məşğul olmağa görə –

şərti maliyyə vahidinin otuz beş mislindən qırx mislinədək miqdarda cərimə edilir.»

Araşdırdığımız inzibati xətanın obyekti ictimai mənəviyyat, ictimai qayda və əhalinin sağlamlığıdır. Fahişəliyin ictimai təhlükəliliyi zöhrəvi xəstəliklərin və ya HİV-in (insanın immunçatışmamazlığı virusu) kütləvi yayılmasıdır.

İnzibati xətanın obyektiv tərəfi fahişəliklə məşğul olmaqdır. Lakin maddə hansı hüquqazidd hərəkətlərin olduğunu açıqlamır. Maddənin məzmunundan belə çıxır ki, fahişəlik cinsi əlaqədə olmaqdan maddi gəlir götürülməsinə yönəldilmiş sistematik hərəkətlər kimi başa düşülür. Buna görə də, mükafatlandırmaya görə ayrılıqda bir dəfə cinsi əlaqəyə girmə faktı şərhini verdiyimiz maddənin əlamətlərini yaratmır.

Gəlir əldə etmək fahişəliyin əsas əlamətidir. Bununla yanaşı, hər bir fakta görə alınan mükafatın həcmi və növü tövsif üçün əhəmiyyət kəsb etmir.

Maddi mükafat kimi yalnız milli manat və xarici valyuta deyil həmçinin, maddi aləmin müxtəlif əşyaları da çıxış edə bilər (qiymətli əşyalar, spirtli içkilər və s.).

Subyektiv tərəfdən bu inzibati xəta düzünə qəsdlə xarakterizə olunur, yəni təqsirli şəxs öz hərəkətlərinin hüquqazidd olmasını dərk edir və bunları törətməyi arzulayır. Bundan başqa, təqsirli şəxsdə dəqiq ifadə olunan məqsəd - maddi gəlirin əldə edilməsi mövcuddur.

Maddi gəlirin alınması fahişəliyin əsas əlamətidir. Burada məqsəd təqsirli şəxsdə cinsi əlaqəyə girməmişdən əvvəl yaranır. Buna görə də, maddi xeyir götürülmədiyi hallarda fahişəlik olmur.

İnzibati xətanın subyekti 16 yaşına çatmış anlaqlı, fiziki şəxslər ola bilər.

İnzibati xətanın törədilməsinə görə fahişəliklə məşğul olan şəxslər şərti maliyyə vahidinin otuz beş mislindən qırx mislinədək miqdarda cərimə edilir.

Bu inzibati xəta haqqında işlərə «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 29 avqust 2000-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanının 3.3 bəndinə əsasən, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır.

İkinci sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki:

1. Xırda xuliqanlıq, yəni, ictimai qaydanı pozan və ya fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərdir.

Bu inzibati xətanın törədilməsinə görə şərti maliyyə vahidinin on beş misilindən iyirmi mislinədək miqdarda cərimə edilir, işin halarına görə, pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, on beş günədək müddətə inzibati həbs tətbiq edilir.

Bu növ inzibati xətaların baxılması Azərbaycan Respubikası Daxili İşlər Nazirliyinə və rayon (şəhər) məhkəmələrinə həvalə edilib

2. Müəyyən edilmiş qaydanı pozmaqla odlu silahdan atəş açma dedikdə – hər bir konkret yerlə təhlükəsizlik tələblərinə riayət etməməklə odlu silahdan atə açma başa düşülür.

Bu inzibati xətaya görə silah və döyüş sursatı müsadirə edilməklə və ya edilməməklə şərti maliyyə vahidinin on mislindən iyirmi mislinədək miqdarda cərimə edilir.

Bu növ inzibati xətanın baxılması Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və rayon (şəhər) məhkəmələrinə həvalə edilib.

3. Fahişəlik – cinsi əlaqədə olmaqdan maddi gəlir götürülməsinə yönəlmiş mütəmadi hərəkətlər kimi başa düşülür. Buna görə də, mükafatlandırmaya görə ayrılıqda bir dəfə cinsi əlaqəyə girmə faktı şərhini verdiyimiz inzibati xətanın tərkibini yaratmır.

İnzibati xətanın törədilməsinə görə fahişəliklə məşğul olan şəxslər şərti maliyyə vahidinin otuz mislindən qırx mislinədək miqdarda cərimə edilir.

Bu növ inzibati xətaların baxılması Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə həvalə edilmişdir.

Sual 3. İdarəçilik qaydaları əleyhinə olan inzibati xətalar

Dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsində böyük rol dövlət orqanlarına məxsusdur. Bu orqanların fəaliyyəti demokratiyanın təkmilləşdirilməsi və inkişaf etdirilməsi, qanunçuluğun, hüquq qaydalarının və əmək intizamının möhkəmləndirilməsi ilə qırılmaz surətdə bağlıdır.

İdarəçilik qaydaları əleyhinə olan inzibati xətalar (Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 23-cü fəsli, maddələr 310-348) idarə, müəssisə və təşkilatların normal idarəçilik fəaliyyətini, intizamı və müəyyən olunmuş qaydaları pozur, vəzifəli şəxslərin üzərinə qoyulmuş vəzifələri yerinə yetirməyə maneçilik törədir, hökumətin nüfuzunu zəiflədir, vətəndaşların hüquq və maraqlarının pozulmasına səbəb olur.

İdarəçilik qaydaları əleyhinə olan inzibati xətaların xüsusi obyekti idarəçilik fəaliyyəti və dövlət intizamıdır.

Obyektiv tərəfdən bu xətaların çoxu aktiv hərəkətlərlə edilir. Məsələn: şəxsiyyət vəsiqəsinin qəsdən korlanması və s.

İdarəçilik qaydaları əleyhinə olan inzibati xətalar formal tərkiblidir, yəni onların bitmiş hesab edilməsi üçün hüquqazidd hərəkətlərin edilməsinin müəyyənləşdirilməsi kifayətdir və heç bir zərərli nəticələrin yaranması tələb edilmir.

Subyektiv tərəfdən bu xətalar bir qayda olaraq qəsdən törədilir.

İdarəçilik qaydaları əleyhinə olan inzibati xətaların subyekti 16 yaşına çatmış fiziki, anlaqlı şəxslərdir. Bu xətaların bəziləri yalnız xüsusi subyekt tərəfindən törədilə bilər. Məsələn, ″Vəzifəli şəxslər tərəfindən fiziki şəxsləri qeydiyyata almaqdan əsassız imtina edilməsinə…″ (İXM, maddə 327.2).

İdarəçilik qaydaları əleyhinə olan və praktikada daha çox rast gəlinən inzibati xətalardan biri Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 310-cu maddəsində göstərilmişdir: ″Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama

310.1. Polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə -

fiziki şəxslər şərti maliyyə vahidinin iyirmi mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət hesab edilmədikdə on beş günədək müddətə inzibati həbs tətbiq olunur.

310.2. Hərbi qulluqçu dövlət sərhədini mühafizə vəzifələrini icra edərkən, onun qanuni tələblərinə qəsdən tabe olmamağa görə –

fiziki şəxslər şərti maliyyə vahidinin iyirmi mislindən otuz mislinədək miqdarda cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət hesab edilmədikdə on beş günədək müddətə inzibati həbs tətbiq olunur.

Bu inzibati xətanın obyekti idarəçilik qaydaları və dövlət orqanlarının (vəzifəli şəxslərin) normal fəaliyyətidir. Bilavasitə obyekt kimi ictimai qaydanın mühafizəsi üzrə xidməti vəzifələrini icra edən polis işçisinin və ya hərbi qulluqçunun normal fəaliyyətidir.

Azərbaycan Respublikası ″Polis haqqında″ Qanununun 1-ci maddəsinə əsasən, polis əməkdaşı polis orqanlarında müəyyən vəzifə tutan və bu Qanunla müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusudur.

″Polis haqqında″ Qanununun 3-cü maddəsinin 2-ci həssəsinin 1-ci bəndinə əsasən, polisin əsas vəzifələrindən biri kimi ictimai qaydanı qorumaq və ictimai təhlükəsizliyi təmin etmək göstərilmişdir.

″Polis haqqında″ Qanununun 14-cü maddəsində göstərilmiş ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri bilavasitə DİN-nin kadrlarında sıravi və rəis heyəti əməkdaşları tərəfindən yerinə yetirilir.

Adı çəkilən xətanın qanunverici tərəfindən İXM-də yaradılmasının məqsədi ″Polis haqqında″ Qanununun 7-ci maddəsində nəzərdə tutulan müddəaların arzuolunan səviyyədə realizəsidir.

Hərbi qulluqçular dedikdə, Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının sıravi, çavuş və zabit heyətindən olan şəxslər başa düşülür. İctimai qaydanın mühafizəsi üzrə vəzifələrini icra edərkən, onlar qanunçuluğun təmin edilməsi üçün vətəndaşlara və vəzifəli şəxslərə icrası məcburi olan sərəncamlar verə bilər və lazımi tələblər irəli sürə bilərlər.

Polis əməkdaşının və hərbi qulluqçunun tələbi ayrı-ayrı istiqamətlərdə hərəkət etmək (məsələn, kütləvi tədbirlərin keçirilməsi zamanı) və ya müəyyən təhlükəsizlik tədbirlərinə riayət edilməsində (məsələn, ayrı-ayrı istiqamətlərdə hərəkətin bağlanması zamanı) ifadə oluna bilər. Polis əməkdaşının və hərbi qulluqçunun vətəndaşdan şəxsiyyəti təsdiq edən sənədi təqdim etmək tələbinin məqsədi hüquqazidd davranışın qarşısının alınması və xəbərdar edilməsidir.

Obyektiv tərəfdən bu inzibati xəta hərəkətsizliklə ifadə olunur. Onu da qeyd etmək lazımdır ki, İXM-in 310-cu maddəsi üzrə məsuliyyət yalnız hərəkətsizliyə görə yaranır və əgər təqsirli şəxsin əməllərində zorun tətbiq edilməsi və ya aktiv müqavimətin göstərilməsi mövcuddursa, əməl Azərbaycan Respublikası CM-in 315-ci maddəsi ilə tövsif edilməlidir.

Obyektiv tərəfin tövsifedici əlaməti polis işçisi və hərbi qulluqçunun tələbinin ictimai qaydanın mühafizəsi ilə əlaqədar olmasını nəzərdə tutur. Qeyd etdiyimiz tələblər isə öz növbəsində ″Polis haqqında″ Qanunun 17 və 18-ci maddələrində göstərilən hüquqların həyata keçirilməsi ilə əlaqəli olmalıdır.

Polis əməkdaşı və ya hərbi qulluqçu tərəfindən dəfələrlə təkrar edilən tələblərin məcburi icra edilməsindən imtina edildikdə, yaxud təqsirkar ictimai qaydanı mühafizə edən orqan və şəxslərə kobud hörmətsizlik edildikdə təhlili aparılan maddə ilə məsuliyyət yaranacaqdır. Polis əməkdaşının və ya hərbi qulluqçunun tələbləri dəfələrlə təkrar edilməli və inadlı formada ifadə olunmalıdır. Təqsirli şəxsin onları yerinə yetirməkdən boyun qaçırması isə jestlərlə, susmaqla və s. hərəkətlərlə qəti surətdə olmalıdır.

Polis əməkdaşı və ya hərbi qulluqçunun tələbləri qanuni olduqda, yəni qanunun müddəalarına əsaslanmaqla və onlar tərəfindən ictimai qaydanın mühafizəsi üzrə vəzifələrin

yerinə yetirilməsi zaman irəli sürüldükdə, təqsirkar İXM-in 310-cu maddəsi ilə məsuliyyətə cəlb edilir. Buna görə polis əməkdaşı və ya hərbi qulluqçu ictimai qaydanın mühafizəsi üzrə vəzifələri icra etmədiyi zaman və ya göstəriş hər hansı qanuni fəaliyyətin icrası ilə əlaqədar verilmədiyi hallarda bu norma tətbiq edilmir.

Polis əməkdaşının və ya hərbi qulluqçunun ictimai qaydanın mühafizəsi üzrə vəzifələri yerinə yetirməsini müəyyən edilmiş geyim forması, döş nişanlarının olması və müvafiq vəsiqənin təqdim edilməsi sübut edir.

Qeyd etmək lazımdır ki, əgər təqsirkarın əməli polis əməkdaşı və ya hərbi qulluqçu tərəfindən ictimai qayda pozulduğu və ya hüquqazidd davranış xəbərdar edildiyi halda edilmişsə, bu hərəkətlər İXM-in 310-cu maddəsi ilə tövsif olunur. Bəzən qəsdən tabe olmama ictimai qayda pozulduqdan sonra baş verir. Əgər bütün bu hərəkətlər faktiki olaraq inzibati xətanın tərkibini yaradırsa, onda İXM-ə müvafiq olaraq məsuliyyət yaranır.

İnzibati xəta təqsirkar qəsdən tabe olmadığı andan bitmiş hesab edilir.

Qəsdən tabe olmamanı, ictimai qaydanın mühafizəsi üzrə xidməti vəzifələri icra edən polis əməkdaşına və hərbi qulluqçuya müqavimət göstərməkdən fərqləndirmək lazımdır. İctimai qaydanın mühafizəsi üzrə vəzifələrini icra edən polis əməkdaşına və ya hərbi qulluqçuya qarşı müqavimət göstərmə tabe olmamaqdan aktiv fiziki əks təsir etməklə fərqlənir. Bu hərəkətlər zorakılıqla və zorun tətbiqi hədəsi ilə müşayiət edilir.

İctimai qaydanın mühafizəsi üzrə xidməti vəzifələri icra edən polis əməkdaşına və ya hərbi qulluqçuya müqavimət göstərməyə görə təqsirkarın əmələ CM-in 315-ci maddəsi ilə tövsif olunmalıdır.

İnzibati xətanın subyekti 16 yaşına çatmış, anlaqlı fiziki şəxslər hesab edilir. 16 yaşından 18 yaşına qədər olan şəxslər tərəfindən bu inzibati xəta törədildikdə, icraat ümumi qaydada aparılır.

Subyektiv tərəfdən bu inzibati xəta yalnız düzünə qəsdlə törədildikdə inzibati məsuliyyət yaranır. Təqsirkar dərk edir ki, o, ictimai qaydanın mühafizəsi üzrə qanuni fəaliyyəti həyata keçirən polis əməkdaşına və ya hərbi qulluqçuya qəsdən tabe olmur və qəsdən tabe olmamağı arzu edir.

Polis əməkdaşına və ya hərbi qulluqçunun qanuni tələblərinə qəsdən tabe olmama kimi inzibati xətaya Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 360-cu maddəsinə əsasən yalnız rayon (şəhər) məhkəmələrində baxılır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 314-cü maddəsi ilə billə-bilə yalan izahat və ya rəy verməyə görə inzibati məsuliyyətmüəyyən olunmuşdur. Həmin maddədə deyilir:

"İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı şahidin, zərər çəkmiş şəxsin, mütəxəssisin billə-bilə yalan izahat verməsinə və ya ekspertin billə-bilə yalan rəy verməsinə, yaxud tərcüməçinin billə-bilə yanlış tərcümə etməsinə və ya məhkəmə və digər orqanların qərarlarının icrası üzrə icraat zamanı billə-bilə səhv tərcümə etməsinə görə-

xəbərdarlıq edilir və ya şərti maliyə vahidinin on beş mislindən iyirmi mislinədək miqdarda cərimə edilir"

Bu inzibati xətanın obyekti inzibati xətalar haqqında işlər üzrə icraatı aparmaq səlahiyyəti olan orqanın (vəzifəli şəxslərin) normal fəaliyyəti və işin həllində şəxsi marağı olan şəxslərin (barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və zərər çəkmiş şəxs) hüquqlarıdır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 377-ci maddəsinin məzmunundan aydın olur ki, şahid hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) çağırışına əsasən, inzibati xətalar haqqında işlər üzrə icraata çağırılarkən vaxtında gəlməli, inzibati xəta ilə bağlı ona məlum olan məlumatı verməlidir. O, protokola daxil edilmiş izahatını imzası ilə təsdiq etməyə və verilən suallara düzgün və doğru cavab verməyə borcludur.

Azərbaycan Respublikası Konstitusiyasının 66-cı və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 377-ci maddəsinə görə, şahidin özünə, həyat yoldaşına və yaxın qohumlarına qarşı izahat verməmək, tərcüməçinin köməyindən pulsuz istifadə etmək, izahatının doğru yazılması barədə protokola müvafiq qeydlər etmək hüququ vardır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 372-ci maddəsinə əsasən, zərər səkmiş şəxs inzibati xəta nəticəsində mənəvi, fiziki və ya maddi zərər dəymiş şəxsdir. O, inzibati xəta haqqında iş üzrə bütün materiallarla tanış olmaq, izahat vermək, sübutlar təqdim etmək, vəsatət və etirazlar vermək, hüquqi yardımdan istifadə etmək, iş üzrə qəbul edilmiş qərardan şikayət vermək hüququna malikdir.

İnzibati xətalar haqqında işlər üzrə icraatda zərər çəkmiş şəxs iştirak etməlidir. Zərər çəkmiş şəxsin iştirakı olmadan işə yalnız o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddətinin ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın, yaxud belə vəsatət rədd edilmiş olsun.

Zərər səkmiş şəxs hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) çagırışı ilə göstərilən vaxtda gəlməyə, doğru izahatlar verməyə, iş üzrə ona məlum olan məlumatları bildirməyə və müvafiq suallara cavab verməlidir.

Mütəxəssis inzibati xətalar haqqında işlərin nəticəsində şəxsən marağı olmayan, sübutların aşkar edilməsində, götürülməsində və rəsmiləşdirilməsində, habelə texniki vasitələrin tətbiq edilməsində kömək göstərilməsi üçün xüsusi biliyə malik olan şəxsdir. O, hakimin və ya səlahiyyətli orqanın (vəzifəli şəxsin) çağırışına əsasən, müəyyən edilmiş vaxtda gəlməli, sübutların aşkarlanması üçün müvafiq hərəkətləri etməli və bu hərəkətlərin məzmun və nəticəsini müvafiq protokolda öz imzası ilə təsdiq etməlidir.

Ekspert elm, incəsənət, texnika və ya sənət sahəsində məsələlərin izahı üçün ekspertizanın aparılması və ekspert rəyinin verilməsi üçün kifayət qədər xüsusi biliyə malik olan və icraatın nəticəsində şəxsən marağı olmayan şəxsdir. O, səlahiyyətli orqanın (vəzifəli şəxsin) və ya hakimin müvafiq çağırışına əsasən vaxtında gəlməli, tədqiq olunmalı obyekt və materialları tam və hərtərəfli tədqiq etməli, eləcə də qoyulan suallar üzrə əsaslı rəy verməlidir.

Tərcüməçi inzibati xətalar haqqında işlərin nəticəsində şəxsən marağı olmayan, yetkinlik yaşına çatmış və tərcümə üçün zəruri olan dilləri bilən şəxsdir. O, səlahiyyətli orqanın (vəzifəli şəxsin) və ya hakimin müvafiq çağırışına əsasən vaxtında gəlməli, təqdim olunan mətni tam və dəqiq tərcümə etməyə borcludur. Tərcüməçi mətnin düzgün tərcümə edilməsini öz imzası ilə təsdiq etməlidir.

Təhlil olunan inzibati xətanın obyektiv tərəfi icraat zamanı şahidin, zərər çəkmiş şəxsin, mütəxəssisin bilə-bilə yalan izahat və yaxud ekspertin bilə-bilə yalan rəy verməsi, yaxud tərcüməçinin bilə-bilə yalan tərcümə etməsində ifadə oluna bilər.

Bu inzibati xətanın subyekti qismində dispozisiyada sadalanan subyektlərdən biri və ya bir neçəsi ola bilər.

Subyektiv tərəfdən bu inzibati xəta birbaşa qəsdlə xarakterizə olunur. Fikrimizcə, qanunverici subyektiv tərəfin əsas ünsürü kimi, təqsirin növü olan qəsdi normanın dispozisiyasında məfhum baxımından nöqsanlı istifadə etmişdir. Belə ki, «qəsdən» məhfumun əvəzinə «bilə-bilə» məfhumundan istifadə olunmuşdur.

Bilə-bilə yalan izahat və ya rəy vermə haqqında iş üzrə icraatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 360-cı maddəsinə əsasən, rayon (şəhər) məhkəmələri apara bilər.

Bu inzibati xətanın törədilməsinə görə xəbərdarlıq edilir və ya şərti maliyə vahidinin on beş mislindən iyirmi mislinədək miqdarda cərimə edilir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 329-cu maddəsi ″Şəxsiyyət vəsiqəsi olmadan və ya yaşayış yeri üzrə qeydiyyatdan keçmədən yaşama» adlanır″.

Bu maddədə deyilir: ″Vətəndaşın bir aydan artıq müddətdə şəxsiyyət vəsiqəsi olmadan yaşamasına, habelə həmin müddət ərzində yaşayış yeri üzrə qeydiyyatdan keçmədən yaşamasına görə-

xəbərdarlıq edilir və ya şərti maliyə vahidinin üç mislindən beş mislinədək miqdarda cərimə edilir″.

Təhlil olunan inzibati xətanın obyekti qanunvericiliklə müəyyən edilmiş idarəcilik qaydası və Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarıdır.

İnzibati xətanın obyektiv tərəfi aşagıdakı əməllərdə ifadə olunur:

- vətəndaşın bir aydan artıq müddətdə şəxsiyyət vəsiqəsi olmadan yaşaması;

- vətəndaşın bir aydan artıq müddətdə yaşayış yeri üzrə qeydiyyat keçmədən yaşaması;

- vətəndaşın bir aydan artıq müddətdə şəxsiyyət vəsiqəsi olmadan yaşadığı yer üzrə qeydiyyat keçmədən yaşaması.

Azərbaycan Respublikasının «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Qanununun 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən sənəd – Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsidir.

Şəxsiyyət vəsiqəsinin növləri aşagıdakılardır:

- 16 yaşına çatanadək vətəndaşa verilən şəxsiyyət vəsiqəsi;

- 16 yaşına çatdıqdan sonra vətəndaşa verilən şəxsiyyət vəsiqəsi.

Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin növündən asılı olaraq onlarda aşağıdakı məlumatlar göstərilir:

- vəsiqənin seriyası və nömrəsi;

- vətəndaşın soyadı, adı və atasının adı;

- vətəndaşın doğulduğu yer və tarix;

- cinsi;

- qan qrupu;

- boyu;

- gözlərinin rəngi;

- yaşayış yeri;

- vətəndaşın ailə vəziyyəti;

- hərbi vəzifəsi;
- şəxsiyyət vəsiqəsi sahibinin şəxsi imzası;
- fotoşəkli;
- şəxsiyyət vəsiqəsini verən orqanın adı və verilmə tarixi.

Bu məlumatları şəxsiyyət vəsiqəsinə daxil edən müvafiq dövlət orqanının məsul əməkdaşı bunları öz imzası və gerbli möhürlə təsdiqləyir və məlumatların düzgünlüyünə görə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

Şəxsiyyət vəsiqəsi Azərbaycan Respublikasının hər bir vətəndaşı və ya onun qanuni nümayəndəsinin ərizəsi, doğum şəhadətnaməsi, 16 yaşına catmış vətəndaşın fotoşəkli, dövlət rüsumunun ödənilməsi barədə qəbz və zəruri hallarda Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlər əsasında, yaşadığı yerin müvafiq dövlət orqanları tərəfindən vətəndaşın və ya onun qanuni nümayəndəsinin müraciətindən sonra ən geci 10 gün keçənədək verilir.

25,35,50 yaşına çatdıqda və ya vətəndaşın soyadı, adı, atasının adı, yaşayış yeri, ailə vəziyyəti, hərbi vəzifəsi dəyişildikdə və ya onun şəxsiyyət vəsiqəsində olan yazılar təhrif edildikdə, şəxsiyyət vəsiqəsi yararsız hala düşdükdə və ya itdikdə vətəndaş şəxsiyyət vəsiqəsini dəyişdirməlidir.

«Yaşayış yeri və oldugu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən, vətəndaşa ilk dəfə Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi verilərkən o, yaşayış yeri üzrə qeydiyyata alınır. Əgər vətəndaş yaşayış yerini dəyişirsə, o, yeni yaşayış yerinə gələrkən 10 gün ərzində qeydiyyata alınmaq üçün müvafiq polis orqanına müraciət etməlidir. Müraciətdən sonra 10 gün ərzində «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həmin vətəndaş yeni yaşayış yeri üzrə qeydiyyata alınır və ona müvafiq şəxsiyyət vəsiqəsi verilir.

Bu inzibati xətanın subyekti 16 yaşı tamam olmuş anlaqlı, Azərbaycan Respublikasının vətəndaşları ola bilər.

Təhlil olunan inzibati xəta subyektiv tərəfdən təqsirin qəsd və ya ehtiyatsızlaq formasında xarakterizə edilə bilər.

Bu növ inzibati xətaların baxılması Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli ″Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında″ Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə″ Fərmanının 3-cü bəndinə əsasən, Azərbaycan Respubikasının Daxili İşlər Nazirliyinə həvalə edilib.

Bu növ inzibati xətaların törədilməsinə görə xəbərdarlıq edilir və ya şərti maliyə vahidinin üç mislindən beş mislinədək miqdarda cərimə edilir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 331-ci maddəsi «Şəxsiyyət vəsiqəsinin və ya pasportun itirilməsi və ya qəsdən korlanması» adlanır. Bu maddədə deyilir:

«Şəxsiyyət vəsiqəsinin və ya pasportun itirilməsi və ya qəsdən korlanmasına görə -

şərti maliyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir».

Qüvvədə olan «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə və «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən, hər bir vətəndaş və ya onun qanuni nümayəndəsi şəxsiyyət vəsiqəsini və pasportu möhkəm (etibarlı) saxlamaga borcludur. Əgər vətəndaş adları çəkilən sənədləri itirərsə, dərhal bu barədə həmin sənədləri verən muvafiq orqanlara məlumat verməlidir.

Təhlil olunan inzibati xətanın obyekti qanunvericiliklə müəyyən edilmiş idarəçilik qaydaları və vətəndaşın hüquq və vəzifələridir.

İnzibati xətanın obyektiv tərəfi vətəndaş tərəfindən şəxsiyyət vəsiqəsinin və ya pasportun itirilməsində və ya qəsdən korlanmasında ifadə olunur.

Adları çəkilən qanunlara əsasən, Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən sənəd Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi, Azərbaycan Respublikası vətəndaşının pasportu (bundan sonra-pasport) isə Azərbaycan Respublikasının ərazisindən kənarda vətəndaşın şəxsiyyətini təsdiq edən, habelə ona ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi üçün verilən rəsmi sənəddir.

Pasport 18 yaşına çatmış, müstəsna hallarda isə təhsil almaq, beynəlxalq tədbirlərdə iştirak etmək, müalicə olunmaq və ya daimi yaşamaq üçün xaricə gedən 18 yaşına çatmamış Azərbaycan Respublikası vətəndaşlarına qanunla müəyyənləşdirilmiş qaydada verilir və bütün ölkələrə getmək üçün etibarlıdır.

Pasportun Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilən ümumvətəndaş, xidməti və diplomatik tipləri vardır.

Pasport Azərbaycan Respublikasının mülkiyyətidir, onun vətəndaşdan alınması və ya girov götürülməsi qanunvericilikdə nəzərdə tutulan hallar istisna olunmaqla qadağandır (İXM, maddə 332).

Hər bir vətəndaş pasportu möhkəm saxlamağa borcludur. Pasport itdikdə vətəndaş pasportu verən dövlət orqanlarına, belə hadisə xaricdə baş verərsə, Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna dərhal məlumat verməlidir.

Vətəndaş öldükdə onun pasportu, habelə etibarlıq müddəti qurtarmış pasport müvafiq dövlət orqanına təhvil verilir.

Şəxsiyyət vəsiqəsi və pasportun itirilməsi dedikdə, vətəndaş tərəfindən qeyd olunan sənədlərin ehtiyatsız davranışı nəticəsində (diqqətsiz saxlama, üzərində daşıyarkən yerə salma və s.) onların yoxa çıxması başa düşülür.

Şəxsiyyət vəsiqəsinin və ya pasportun qəsdən korlanması dedikdə, vətəndaşın fiziki müdaxiləsi nəticəsində həmin sənədlərin məzmununun yararsız hala düşməsi, onun tətbiqinin qeyri-mümkünlüyü və ya fiziki cəhətdən məhvi başa düşülür. Qeyd olunanlarla yanaşı vətəndaşın fiziki müdaxiləsi nəticəsində adları çəkilən sənədlərin məzmunundakı məlumatların çətin oxunulması (aydın olmayan və ya başa düşülməyən), üzərində olan orijinal holoqramların zədələnməsi və ya möhürün silinməsi təhlil olunan inzibati xətaya görə məsuliyyət yaradır.

Bu inzibati xətanın subyekti şəxsiyyət vəsiqəsinin və ya pasportun sahibi olan vətəndaşdır.

Vətəndaşın şəxsiyyət vəsiqəsini və ya pasportunu oğurlamaya görə məsuliyyət Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 326.2-ci maddəsinə əsasən yaranır.

Təhlil olunan inzibati xətanın subyektiv tərəfi qəsdin qarışıq forması ilə xarakterizə olunur. Belə ki, şəxsiyyət vəsiqəsinin və ya pasportun itirilməsi ehtiyatsızlıqla, onların qəsdən korlanması isə təqsirin qəsd növü ilə xarakterizə olunur.

Bu növ inzibati xətaların baxılması Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli ″Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında″ Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə″ Fərmanının 3-cü bəndinə əsasən, Azərbaycan Respubikasının Daxili İşlər Nazirliyinə həvalə edilib.

Bu növ inzibati xətaların törədilməsinə görə şərti maliyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346-cı maddəsi ilə mülki silahın və onun üçün döyüş sursatının saxlanılması, daşınması və ya satılması qaydalarının pozulması inzibati xəta kimi müəyyən olunmuşdur. Adı çəkilən maddə ilə aşağıdakılar müəyyən olunmuşdur:

″346.1. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarından icazə almış şəxslər tərəfindən mülki silahın və onun üçün döyüş sursatının saxlanılması, daşınılması və ya satılması qaydalarının pozulmasına görə –

silah və döyüş sursatı ödənişlə alınmaqla və ya alınmamaqla şərti maliyyə vahidinin iyirmi beş mislindən otuz beş mislinədək miqdarda cərimə edilir.

346.2. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanından icazə almamış şəxslər tərəfindən mülki silahın və onun üçün döyüş sursatının əldə edilməsi, saxlanılması, daşınması, başqa şəxslərə verilməsi və ya satılmasına görə –

silah və döyüş sursatı ödənişlə alınmaqla və ya müsadirə edilməklə şərti maliyyə vahidinin otuz mislindən qırx mislinədək miqdarda cərimə edilir. ″

Bu inzibati xətanın obyekti mülki silahın və onun üçün döyüş sursatının dövriyyəsini müəyyən edən qaydalar və ictimai təhlükəsizlikdir.

Texniki hüquqi cəhətdən bu maddə iki ayrı-ayrı inzibati xətadan ibarətdir.

Azərbaycan Respublikası İXM-in 346.1-ci maddəsində obyektiv tərəf aşağıdakı əməllərlə ifadə olunur:

- mülki silahın saxlanılması;
- daşınması;
- satılması qaydalarının pozulması.

İXM-in 346.2-ci maddəsində obyektiv tərəf ″icazə almamış şəxslər″ tərəfindən mülki silahın və onun üçün döyüş sursatının əldə edilməsi, saxlanılması, daşınması, başqa şəxslərə verilməsi və ya satılmasında ifadə olunur.

Hər iki halda inzibati xətanın tərkibi formal xarakterlidir. Nəticələrin baş verməsi avtomatik olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət məsuliyyətinə səbəb olur.

İXM-in 346.1 və 346.2-ci maddələrində göstərilən inzibati xətaların predmeti mülki silah və onun üçün olan döyüş sursatıdır. Digər silah və döyüş sursatların ″qanunsuz dövriyyəsi″ Cinayət Məcəlləsinin müvafiq maddələri ilə tövsif edilməlidir.

Qanunvericilik yivsiz ov silahının əldə olunması, saxlanması və satışı barədə icazə vermə qaydasını nəzərdə tutur. Odlu silahın əldə olunması, saxlanması və istifadə edilməsi qaydaları Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il ″Xidməti və mülki silah

haqqında″ Qanunu ilə müəyyən edilir. Bu qanuna müvafiq olaraq yivsiz odlu silahın əldə olunması, saxlanması, verilməsi və satılması üçün vətəndaş DİO-dan icazə almalıdır. Əldə etmə dedikdə, satın alma, hədiyyə kimi, dəyişmə və s. başa düşülür. Hər bir yivsiz odlu silah DİO-da qeydiyyatda olur və onların sahibinin dəyişməsi bu orqanların icazəsi ilə olmalıdır. Maddədəki mənada ″əldə etmək″ üçün bu silahın icazəsiz kimdən alınması (vətəndaşdan və ya satan təşkilatdan) əhəmiyyət kəsb etmir.

DİO-nun icazəsi olmadan yivsiz odlu silahın saxlanması İXM-in 346-cı maddəsində göstərilən inzibati xətanın tərkibi həm icazə ilə alınan halları, həm də icazəsiz əldə edilən halları əhatə edir. Vətəndaş tərəfindən yivsiz ov silahının digər şəxslərə verilməsi də inzibati xətanın tərkibi ilə əhatə olunur. Qüvvədə olan normativ aktlar DİO-nun icazəsi olmadan silahın başqa şəxslərə verilməsini qadağan edir.

Bu maddədə göstərilən inzibati xəta subyektiv tərəfdən təqsirin qəsd formasında edilir. Şəxs başa düşür ki, müvafiq dövlət orqanının icazəsi olmadan silahı əldə etmək, saxlamaq, başqa şəxslərə vermək, satmaq qadağandır, lakin bu hüquqazidd hərəkətləri etməyi arzulayır. Burada müvafiq dövlət orqanı dedikdə, DİO nəzərdə tutulmuşdur

Bu inzibati xətanın subyekti 16 yaşına çatmış fiziki, anlaqlı şəxsdir. 16-dan 18 yaşa qədər olan şəxslər ümumi əsaslarla məsuliyyət daşıyırlar.

Bu növ inzibati xətaların baxılması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 360-cı maddəsinə əsasən rayon (şəhər) məhkəmələrinə və Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli ″Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında″ Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə″ Fərmanının 3.3-cü bəndinə əsasən, Azərbaycan Respubikasının Daxili İşlər Nazirliyinə həvalə edilib.

Sual 4. İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər)

Ədalət mühakiməsindən fərqli olaraq, inzibati-yurisdiksiya fəaliyyətini həyata keçirən orqanların sistemi bu fəaliyyəti həyata keçirən subyektlərin çoxluğu ilə xarakterizə olunur. Bu da dövlət idarəetmə sistemində baş verən inzibati xətaların müxtəlifliyi və geniş yayılmaları ilə izah olunur. Məsələn: İXM-in Xüsusi hissəsinin «İnzibati xətalar» adlı II-ci bölməsinə (6-24 fəsillər, 39-356-cı maddələr) daxil olmuş inzibati xətalar dövlət idarəetmə sisteminin müxtəlif sahələrində baş verir və bu sahələrdə baş verən inzibati xətalar öz xüsusiyyətlərinə və qəsd etdikləri obyektlərə görə bir-birindən fərqlənir.

Dövlət idarəetmə sisteminin bütün sahələrində baş verən inzibati xətalar haqqında işlərə bir orqanda baxılması fəaliyyətini təcrübi cəhətdən həyata keçirmək mümkün deyil. İkinci tərəfdən isə, dövlət idarəetmə sisteminin bütün sahələrində baş verən inzibati xətalar haqqında işlər bir orqanda baxılarsa inzibati prosesin (icraatın) əsas prinsiplərindən biri olan inzibati xətalar haqqında işlərin aparılmasının tezliyi, operativliyi və sadəliyi prinsiplərinin müddəalarını təmini mümkün deyildir.

İnzibati xətalar haqqında işlərə baxan orqanların sistemi, törədilən inzibati xətaların eyni tipli (müxtəlif tərkibli) olmaması izah olunur. Bu məqsədlə də Azərbaycan Respublikası

İnzibati Xətalar qanunvericiliyi ilə səlahiyyət verilmiş müxtəlif orqanlar (vəzifəli şəxslər) tərəfindən inzibati xətalar haqqında işlərə baxılır.

İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanları üç qrupa bölmək olar:

Birinci qrupa yalnız rayon (şəhər) məhkəmələri daxildir. İXM-in 23-cü maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi və inzibati həbs yalnız rayon (şəhər) məhkəmələri tərəfindən tətbiq olunur. İXM-in Xüsusi hissəsində inzibati xətaların sanksiyalarında göstərilən üç inzibati tənbeh növü nəzərdə tutulursa və onların tətbiq edilməsi məqsədəuyğun hesab edilirsə, belə hallarda həmin inzibati xətalar haqqında işlərə rayon (şəhər) məhkəmələri tərəfindən baxılır.

Bu sistemə daxil olan ikinci qrup orqanlar yalnız inzibati xətalar haqqında işləri həll etmək üçün təşkil edilmiş orqanlardır. Məsələn: Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları yanında yaradılan ″Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar″ (İXM, maddə 357.0.2).

İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların sisteminə daxil olan üçüncü qrup orqanlar bir qayda olaraq, özlərinin yoxlama-nəzarət funksiyaları ilə yanaşı inzibati yurisdiksiya funksiyalarını həyata keçirən orqanlardır. Məsələn, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları (vəzifəli şəxsləri) (İXM, maddə 357.0.3). Bu orqanların dairəsi və adları ″Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında″ Azərbaycan Respublikası Qanununun təsdiq edilməsi barədə″ Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli Fərmanının 3-cü bəndində göstərilmişdir.

İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların sistemi ərazi-sahəvi prinsip əsasında təşkil edilir.

İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların sisteminin bu prinsip əsasında təşkil edilməsinin mahiyyəti inzibati xətalara qarşı mübarizənin həm ərazi xüsusiyyətlərinə, həm də inzibati xətaların dövlət idarəetmə sisteminin ayrı-ayrı sahələrində baş vermə xüsusiyyətlərinə görə aparılmasından ibarətdir.

Ərazi prinsipinə görə inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanlara əsasən, bu və ya digər inzibati-ərazi vahidi miqyasında fəaliyyət göstərən orqanlar aiddir. Birinci növbədə bu orqanlara konkret inzibati-ərazi vahidi miqyasında fəaliyyət göstərən və inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti verilmiş orqanlar aiddirlər. Bu orqanlar Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 357-ci maddəsində göstərilmişdir. Məsələn: rayon (şəhər) məhkəmələri; yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar; daxili işlər orqanları və s.

İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan sahəvi orqanlar dövlət idarəetməsinin ayrı-ayrı sahələrində fəaliyyət göstərən orqanlardır. Sahəvi orqanlar ixtisaslaşma əsasında fəaliyyət göstərirlər. Bu orqanlar fəaliyyət göstərdiyi sahələrdə törədilmiş inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanlar sisteminə daxildir. Bu orqanların həm konkret inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti, həm də yurisdiksiya aidiyyətinin dəqiq ierarxiyası müəyyən edilməsidir. Məsələn: ov qaydalarının pozulmasına görə müvafiq işlərə baxmağa və inzibati tənbehlərin tətbiq

edilməsinə, ov qaydalarına əməl olunmasına dövlət nəzarətini həyata keçirən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şəhər və rayon orqanlarının səlahiyyəti vardır.

Beləliklə, Azərbaycan Respublikası İnzibati Xətalar qanunvericiliyi inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) 3 (üç) növünü müəyyən etmişdir. Bu orqanlar (vəzifələri şəxsləri) İXM-in 357-ci maddəsində göstərilmişdir:

1. rayon (şəhər) məhkəmələri;

2. yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, seçki komissiyaları (kollegial orqan);

3. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Milli Bankı (vəzifəli şəxsləri). Bu orqanların dəqiq dairəsi və adları ″Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında″ Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli Fərmanının 3-cü bəndində göstərilmişdir.

Bu orqanlar dövlət idarəetmə sisteminin ayrı-ayrı sahələrində baş verən inzibati xətalar haqqında işlərə baxmaq və işin həllini düzgün həyata keçirmək üçün sahəvi prinsip əsasında təşkil edilmiş ixtisaslaşdırılmış orqanlardır.

Qeyd etdiyimiz kimi inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların dairəsi Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 357-ci maddəsinə əsasən müəyyən edilmişdir. Lakin inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan subyektlərin dairəsi və onların səlahiyyət hədləri onların fəaliyyətini tənzimləyən konkret normativ-hüquqi aktlarla müəyyən edilir. Məsələn: Azərbaycan Respublikası Prezidentinin 31 may 2002-ci tarixli Fərmanı ilə təsdiq edilmiş ″Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə″.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 359-cu maddəsi ilə inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan vəzifəli şəxslərin səlahiyyətləri müəyyən edilmişdir.

«359.1. İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslər bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş inzibati tənbehləri onlara verilmiş səlahiyyət çərçivəsində və yalnız xidmət vəzifəsinin icra zamanı tətbiq edə bilərlər.

359.2. İnzibati xətalar haqqında işlərə bu Məcəllənin 357.0.3-cü maddəsində göstərilmiş orqanlar adından baxmağa səlahiyyəti olan vəzifəli şəxslər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən edilir.»

Yuxarıda qeyd edilənlərlə yanaşı İXM-in XXVI fəslində ″İnzibati xətalar haqqında işlərin aidiyyəti″, rayon (şəhər) məhkəmələrinin və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının aidiyyəti qeyd edilir. Burada «müvafiq icra hakimiyyəti orqanları» İXM-in tətbiq edilməsi barədə Fərmanın 3-cü bəndində göstərilmiş inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri və digər mərkəzi icra hakimiyyəti orqanları, habelə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur.

İnzibati xətalar haqqında işlərin aidiyyəti dedikdə inzibati xətalar qanunvericiliyinə əsasən, inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqan və vəzifəli şəxslər arasında bu işlərin baxılması üzrə səlahiyyətlərin bölüşdürülməsi başa düşülür.

Aidiyyətliyin dörd növü mövcuddur:

- predmet (sahəvi) aidiyyətliyi;
- ərazi aidiyyətliyi;
- vəzifə aidiyyətliyi;
- ikili aidiyyətlik.

Predmet aidiyyətliyi müvafiq kateqoriya işlərin baxılmasının hansı növ orqana həvalə edilməsi haqqında məsələnin normativ qaydada həllidir. Məsələn: Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli ″Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında″ Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə″ Fərmanının 3-cü bəndinə əsasən: ″Tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə qaydalrının pozulması ilə olan inzibati xətalara Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi baxır″.

Ərazi aidiyyətliyi konkret işin harada baxılması haqqında məsələnin normativ həllidir. Məsələn: Azərbaycan Respublikası İXM-in 421-ci maddəsi:

421.1. İnzibati xəta haqqında işə onun törədildiyi yerdə baxılır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin vəsatətinə əsasən inzibati xəta haqqında iş onun yaşadığı yer üzrə baxıla bilər.

421.2. Yetkinlik yaşına çatmayanların barəsində inzibati xətalar haqqında işlərə şəxsin yaşadığı yer üzrə baxılır.

421.3. Nəqliyyat vasitəsini idarə etmə hüququnun məhdudlaşdırılmasına səbəb ola bilən inzibati xətalar haqqında işlərə nəqliyyat vasitəsinin qeydiyyatda olduğu yer üzrə baxılır.

Vəzifə aidiyyətliyi dövlət orqanlarında işin hansı vəzifəli şəxs tərəfindən baxılması məsələsinin normativ həllidir. Bu məsələni hal-hazırda nizamlayan vahid normativ akt yoxdur. Müxtəlif dövlət orqanlarında bu məsələ daxili əmrlərlə nizamlanır. Lakin Azərbaycan Respublikası Prezidentinin məlum Fərmanın 1-ci bəndində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırıq verilib ki, inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 357.0.3-cü maddəsində nəzərdə tutulmuş orqanlar adından baxmağa səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İkili aidiyyətlik bir inzibati xətanın iki orqanda baxılması mümkünlüyünü nəzərdə tutur. Məsələn: Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 296-cı maddəsində (Xırda xuliqanlıq) nəzərdə tutulmuş inzibati xətanın baxılması Məcəllənin 360-cı maddəsinə əsasən rayon (şəhər) məhkəməsi və Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli ″Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə″ Fərmanının 3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxa bilər. İşin hansı orqanda baxılması məsələsini həll edərkən İnzibati Xətalar Məcəlləsinin 32.2-ci maddəsində nəzərdə tutulmuş hallar nəzərə alınmalıdır. Törədilən inzibati xətaya görə tənbeh növü kimi inzibati həbsin seçilməsi

məqsədəmüvafiq sayıldığı hallarda materiallar məhkəmə, digər tənbeh növü olan cərimə tətbiq edildikdə işin materialları daxili işlər orqanlarında baxılır.

İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanlardan biri də ″Yetkinlk yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya″lardır.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların əsas məqsədi yetkinlik yaşına çatmayanlara tərbiyəvi təsir göstərməkdən, onların hüquqlarını və qanuni mənafelərini qorumaqdan, davranışına nəzarət etməkdən, qanunazidd əməllərin qarşısını almaqdan, göstərilən məsələlərdə dövlət və yerli özünüidarəetmə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətini əlaqələndirməkdən ibarətdir.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar sisteminə aşağıdakılar daxildir:

- rayon (şəhər) komissiyaları – yerli komissiyalar;
- Bakı şəhər icra hakimiyyəti yanındakı komissiya;
- Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanındakı komissiya;
- Azərbaycan Respublikasının Nazirlər Kabineti yanındakı komissiya.

Komissiyalar Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Bakı şəhər icra hakimiyyəti və rayon (şəhər) icra hakimiyyəti orqanları yanında həmin orqanlar tərəfindən sədr, məsul katib (katib) və uşaqlarla iş üzrə məsləhətçi-psixoloq da daxil olmaqla 9-11 üzvdən ibarət tərkibdə yaradılır.

Komissiyanın sədri işləri görmək və qərarların icrasına nəzarəti həyata keçirmək üçün yerli komissiyalarda məsul katib və uşaqlarla iş üzrə məsələhətçi-psixoloq, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları yanındakı, o cümlədən, müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiyalarda isə məsul katib və katib vəzifələri müəyyən edir. Həmin vəzifələr ştat cədvəlində nəzərdə tutulmaqla, maaşlı vəzifədir. Komissiyanın digər üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər.

Komissiya üzvlərinin sayı, işin həcmindən asılı olaraq komissiyanın təşkil olunduğu Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Bakı şəhər icra hakimiyyəti və rayon (şəhər) icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

Komissiyanın tərkibinə təhsil, səhiyyə, daxili işlər orqanlarının, mədəniyyət təsisatlarının və digər müəssisələrin rəhbərləri daxil edilirlər. Komissiyanın tərkibinə qeyri-hökumət təşkilatlarının (ictimai biriliklərin və fondların) nümayəndələri də daxil edilə bilinər.

On səkkiz yaşınadək yetkinlik yaşına çatmayanlar barəsində müvafiq dövlət orqanları tərəfindən daxil olan inzibati xətalar haqqında işlərə və ya materiallara komissiyalar baxır və adı çəkilən Əsasnamənin 9-cu maddəsinin birinci hissəsində nəzərə tutulmuş intizam təsir tədbirlərindən birini tətbiq edirlər.

Müvafiq dövlət orqanları yetkinlik yaşına çatmayanlar barəsində inzibati xətalar haqqında işləri və ya materialları üç günədək müddətində yerli komissiyalara göndərir.

Komissiya Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq İXM-in 51-ci, 297-ci və 307-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxır və inzibati xəta törətmiş şəxslər barəsində inzibati tənbeh tətbiq edir.

Komissiyalar qanunazidd əməllərin xarakterini və səbəblərini, yaşını, həyat şəraitini, qanunazidd əməlin törədilməsində iştirak dərəcəsini, habelə məişətdə, məktəbdə və ya işdə

davranışını nəzərə almaqla yetkinlik yaşına çatmayanlar barəsində aşağıdakı intizam təsir tədbirləri növlərindən birini tətbiq edir:

1. üzr istəmək;
2. xəbərdarlıq etmək;
3. yetkinlik yaşına çatmayan şəxs müstəqil əmək haqqına malikdirsə və zərərin məbləği şərti maliyyə vahidinin otuz mislindən artıq deyilsə, yetkinlik yaşına çatmayan şəxsin öhdəsinə onun vurduğu zərəri ödəmək, yaxud şərti maliyyə vahidinin otuz mislindən artıq olmayan məbləğdə maddi zərərin nəticələrini öz əməyi ilə aradan qaldırmaq vəzifəsini qoymaq;
4. yetkinlik yaşına çatmayanları valideynlərinin və ya digər qanuni nümayəndələrinin nəzarətinə vermək;
5. on beş yaşından on səkkiz yaşadək olan yetkinlik yaşına çatmayanların öz qazancını və ya təqaüdünü müstəqil xərcləmək hüququndan məhrum edilməsi haqqında qəyyumluq və himayə orqanına təkliflər vermək;
6. böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanları açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərmək;
7. çətin tərbiyə olunan yetkinlik yaşına çatmayanları onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərmək;
8. ağır və ya xüsusilə ağır cinayət törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanın qapalı tipli xüsusi təlim-tərbiyə müəssisinə göndərilməsi barədə məhkəmə qarşısında vəsatət vermək.

Xəbərdarlıq etmək barəsində komissiyanın çıxardığı qərar bir il müddətində qüvvədə qalır. Barəsində xəbərdarlıq intizam təsir tədbirinin tətbiq olunduğu yetkinlik yaşına çatmayan nümunəvi davranışı ilə işə və təhsilə vicdanlı münasibəti ilə islah olunduğunu sübut edərsə, komissiya, birillik müddət başa çatmamış həmin təsir tədbirini öz qərarı ilə ləğv edə bilər.

Yetkinlik yaşına çatmyanların təlim-tərbiyəsi və saxlanması sahəsində öz vəzifələrini icra etməyən, yaxud onların davranışına mənfi təsir göstərən valideynlər və ya digər qanuni nümayəndələr barəsində komissiya aşağıdakı intizam təsir tədbirlərini tətbiq edir:

1. xəbərdarlıq etmək;
2. yetkinlik yaşına çatmayanlar tərəfindən vurulan və şərti maliyyə vahidinin 30 mislindən artıq olmayan məbləğdə maddi ziyanın ödənilməsini tələb etmək;
3. valideynlik hüququnun məhdudlaşdırılması və ya valideynlik hüququndan məhrum edilməsi, yaxud övladlığa götürmənin ləğv edilməsi barədə məhkəməyə müraciət etmək;
4. hərəkətləri və ya davranışları ilə yetkinlik yaşına çatmayanın həyatını və ya səhhətini real təhlükə altında qoyduqda, qanuni nümayəndələrindən yetkinlik yaşına çatmayanın dərhal alınması üçün qəyyumluq və himayə orqanına müraciət etmək.

Xəbərdarlıq etmək barəsində komissiyanın çıxardığı qərar bir il müddətində qüvvədə qalır. Komissiya lazım gəldikdə, birillik müddət başa çatmamış, intizam təsir tədbirini öz qərarı ilə ləğv edə bilər.

Komissiya yetkinlik yaşına çatmayanlar, onların valideynləri və ya digər qanuni nümayəndələri barəsində işlərə və ya materiallara aşağıdakı hallarda baxır:

1. yetkinlik yaşına çatmayanların, onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin ərizələri olduqda;

2. müvafiq dövlət orqanlarından komissiyaya işlər və ya materiallar daxil olduqda;

3. cinayət törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanlar barəsində materialların komissiyada baxılması üçün Daxili İşlər Nazirliyinin və ya prokurorluğun müraciəti olduqda;

4. mülkiyyət formasından asılı olmayaraq müəssisələrdən, idarələrdən və ya təşkilatlardan müraciətlər daxil olduqda;

5. komissiyanın öz təşəbbüsü olduqda.

Komissiyanın iclası bir qayda olaraq açıq aparılır.

Baxılan işlərin və ya materialların xarakterindən asılı olaraq yetkinlik yaşına çatmayan, onun valideynləri və ya digər qanuni nümayəndələri barəsində məlumatların məxfiliyinin təmin olunması məqsədilə komissiya iclasın qapalı aparılması haqqında əsaslandırılmış qərar qəbul edə bilər.

Komissiyanın iclasında üzvlərin yarısından çoxu iştirak etdikdə o səlahiyyətli sayılır.

Komissiyanın sədri və ya onun tapşırığı ilə komissiyanın üzvü komissiyanın iclasına sədrlik edir.

Komissiya cinayət törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış, yaxud inzibati məsuliyyətə cəlb olunması üçün müvafiq yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanın, onun valideynlərinin və ya qanuni nümayəndələrinin iştirakı ilə baxır.

İşlərə və ya materiallara baxılmasının başqa vaxta keçirilməsi haqqında komissiyaya vəsatət daxil olmadıqda, yetkinlik yaşına çatmayan, onun validyenləri və ya digər qanuni nümayəndələri barəsində bütün digər işlərə və ya materiallara həmin şəxslərin iştirakı olmadan komissiyanın iclasında baxıla bilər.

Komissiyanın iclasında İşlərin və ya materialların hazırlandığı vaxtdan yetkinlik yaşına çatmayan şəxsin vəkili komissiyanın işində iştirak etməyə buraxılır.

İclasın əvvəlində komissiyaya sədrlik edən şəxs hansı işin və ya materialın baxılmasını elan edir və komissiyanın iclasında iştirak edənləri təqdim edir. Bundan sonra sənədlər elan olunur, əsaslandırılmış qərarın qəbul edilməsi üçün mühüm əhəmiyyət kəsb edən bütün hallar, işlər və ya materiallar tədqiq edilir, habelə vəsatətlərə baxılır, iclasda iştirak edənlərin çıxışları dinlənilir.

Komissiyada baxılan işlərin və ya materialların mahiyyəti üzrə vəsatətlər yetkinlik yaşına çatmayan, yetkinlik yaşına çatmayanın valideynləri və ya digər qanuni nümayəndələri, vəkil və işlərin və ya materialların baxılmasında iştirak edən mütəxəssislər tərəfindən verilə bilər. Verilən vəsatətlərin baxılmasının nəticələri haqqında qeydlər komissiyanın iclas protokoluna yazılır.

Yetkinlik yaşına çatmayana mənfi təsir edən hallar komissiyanın iclasında tədqiq edildiyi zaman komissiya yetkinlik yaşına çatmayanı iclas zalından çıxara bilər. Bu barədə komissiyanın iclas protokolunda müvafiq qeyd aparılır.

Komissiya işə və ya materiallara dair aşağıdakı qərarlardan birini qəbul edir:

1. Əsasnamədə (9, 10 və 13-cü maddələrində) nəzərdə tutulmuş təsir tədbirlərini tətbiq etmək;

2. işlərin və ya materialların baxılmasına xitam vermək;

3. işlərin və ya materialların baxılmasını təxirə salmaq və onların əlavə yoxlanılmasını təmin etək;

4. işlərin və ya materialların baxılmasını dayandırmaq;

5. işlərin və ya materialların baxılması üçün müvafiq dövlət orqanlarına və ya prokurorluğa göndərmək.

Qərarda aşağıdakılar göstərilir:

- komissiyanın adı və tərkibi.
- komissiya iclasının baxılması tarixi və yeri;
- işinə və ya materialına baxılan şəxs barəsində məlumat;
- işə və ya materiala baxılarkən müəyyən edilmiş hallar;
- qərarın qəbul edilməsinə əsas olmuş sübutlar;
- hüquqpozmaya görə məsuliyyət nəzərdə tutan və ya yetkinlik yaşına çatmayanın hüquqlarına təminat verən normativ-hüquqi akt;
- qərardan şikayət verilməsi qaydası və müddəti haqqında məlumat.

Qərar komissiyanın iclasında sədrlik edən şəxs və ya məsul katib tərəfindən imzalanır.

Komissiya onların səlahiyyətinə aid edilən məsələlərə öz üzvlərinin azı yarısından çoxunun iştirakı ilə baxır və bu barədə sadə səs çoxluğu ilə qərar qəbul edilir. Qərarın icrası bütün dövlət orqanları, mülkiyyət formasından asılı olmayaraq müəssisələr, idarələr, təşkilatlar, habelə, vəzifəli şəxslər və vətəndaşlar üçün məcburidir.

Dövlət orqanları, müəssisələr, idarələr və təşkilatlar, habelə vəzifəli şəxslər komissiyanın qərarını yerinə yetirmək üçün görülən tədbirlər haqqında komissiyaya 15 gün müddətində məlumat verir.

İşə və ya materiala dair qərar onun baxılmasından dərhal sonra elan olunur və qüvvəyə minir.

Qərarın surəti 3 günədək müddətində barəsində qərar qəbul edilmiş yetkinlik yaşına çatmayana, habelə bu haqda müraciəti olduqda zərərçəkmiş şəxsə təqdim edilir və ya göndərilir.

Barəsində qərar qəbul edilmiş şəxs, onun qanuni nümayəndələri, vəkil, zərərçəkmiş şəxs qərarın surəti təqdim edildiyi və ya alındığı gündən on gün müddətində komissiyanın olduğu yerin məhkəməsinə şikayət, prokuror isə protest verə bilər. Komissiya 3 gün müddətində şikayəti (protesti) işə və ya materiala dair bütün sənədlərlə birlikdə komissiyanın olduğu yerin məhkəməsinə göndərir.

Göstərilən müddət ərzində şikayətin (protestin) verilməsi komissiyanın qərarının icrasını dayandırır.

Mövzu № 14. ″İnzibati hüquqda intizam və maddi məsuliyyət″

P L A N :

GİRİŞ

1. İntizam məcburetməsinin anlayışı və onun xüsusiyyətləri.

2. İnzibati hüquqda intizam məsuliyyəti və intizam xətası.
3. İnzibati hüquqda maddi məsuliyyət.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. ″Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamənin təsdiq edilməsi barədə″ Azərbaycan Respublikasının Qanunu. 10 yanvar 1995-ci il (sonrakı əlavə və dəyişikliklərlə).
3. ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
4. ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 09 avqust 1994-cü il.
5. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
6. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
7. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ II hissə. Dərs vəsaiti. Bakı, 2006.
8. E.Abdullayev. ″Vətəndaşların inzibati məsuliyyəti″. Dərs vəsaiti. B.,1992.
9. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
10. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
11. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

Dövlət idarəetmə sisteminin əsas vəzifələrindən biri də dövlət idarəetmə sahəsində qanunçuluğun və intizamın təmin edilməsidir.

Bu günkü mühazirəmizin mövzusunun da mahiyyəti ondan ibarətdir ki, mühazirəmizin mövzusunun planına daxil edilmiş sualların açıqlanması vasitəsi ilə siz birinci növbədə dövlət idarəetmə sahəsində intizam məcburetməsi və onun xüsusiyyətləri barədə anlayışlar əldə etmiş olacaqsınız. Bundan əlavə mühazirəmizin ikinci sualının açıqlanması vasitəsi ilə dövlət idarəetmə sahəsində intizam xətası və onun törədilməsinə görə intizam məsuliyyətinin tətbiq edilməsinin əsasları və qaydası barədə nəzəri biliklər əldə etmiş olacaqsınız. Bundan əlavə bu sualın açıqlanması vasitəsi ilə intizam məsuliyyətinin əlamətləri və onu tətbiq etməyə səlahiyyətləri olan vəzifəli şəxslərin dairəsi barədə anlayışlar veriləcək.

Ən nəhayət, mühazirəmizin üçüncü sualının açıqlanması vasitəsi ilə dövlət idarəetmə sahəsində dövlət qulluqçuları tərəfindən vurulan maddi ziyana görə maddi məsuliyyətin tətbiq edilməsinin əsasları və qaydası barədə nəzəri biliklər əldə etmiş olacaqsınız.

Digər tərəfdən isə sizin nəzərinizə çatdırmaq istərdim ki, bu günkü mühazirəmizin planına daxil edilmiş sualların açıqlanması vasitəsi ilə əldə etdiyiniz biliklərin həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir. Çünki siz gələcəkdə dövlət qulluqçuları kimi birinci növbədə dövlət idarəetmə sahəsində müəyyən olunmuş intizam qaydalarına ciddi riayət etməli və xidməti vəzifələrinizi yerinə yetirən zaman dövlətə, hüquqi şəxslərə və fiziki şəxslərə maddi ziyanın vurulmasına yol verməməlisiniz.

Mühazirəmizin mövzusu vasitəsi ilə mənimsənilməsi zəruri olan hüquqi biliklərin əhəmiyyəti bir də ondan ibarətdir ki, onlara yiyələnməklə siz, xidməti vəzifələrinizi qüvvədə olan qanunvericiliyin və qanunçuluğun tələblərinə müvafiq olaraq yerinə yetirmiş olarsınız. Digər tərəfdən isə bu tələblərə riayət etməklə siz, Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Fərmanından irəli gələn tələbləri yerinə yetirmiş olarsınız.

Sual 1.
″İntizam məcburetməsinin anlayışı və onun əlamətləri″

İntizam məcburetməsi - icraedici - sərəncamverici fəaliyyət prosesində intizam hakimiyyəti subyektlərinin hüquq normaları əsasında tabeçiliyində olan şəxslərin intizam xətasının (həmçinin digər əməllərin) törətməsi ilə əlaqədar məcburetmə tədbirlərinin tətbiq edilməsi deməkdir.

İntizam məcburetməsi - dövlət idarəetmə fəaliyyətinin növü kimi sonuncuya xas olan bütün əlamətləri özündə cəmləşdirir. Bununla yanaşı onun məzmununu əks etdirən özünə məxsus müxtəlif əlamətləri vardır.

İntizam məcburetməsinin aşağıdakı əlamətləri vardır:

1. İntizam məcburetmə tədbirləri adətən intizam xətaların törədilməsinə görə tətbiq edilirlər, bundan əlavə, digər hüquqpozmalarla və hətta əxlaqsız əməllərlə mübarizədə də təbiq edilə bilərlər.

2. İntizam məcburetməsi – icraedici-sərəncamverici fəaliyyətin bir növü olmaqla məhkəmədənkənar tətbiq edilir. Əgər söhbət idarəetmə orqanlarından gedirsə, bu aşkar aydındır. Lakin prokuror da tabeçiliyində olan işçisinə töhmət elan edirsə, bu heç də prokuror nəzarəti deyil.

3. İntizam məcburetməsi nəinki dövlət təsisatlarında, həmçinin qeyri-dövlət təşkilatlarında işləyən vətəndaşlara tətbiq edilir. Məsələn: vəkillər kollegiyası, həmkarlar ittifaqları bu hüquqlara malikdirlər. Onlar bunu əmək hüququ normaları əsasında öz səlahiyyətlər çərçivəsində tətbiq edirlər.

4. İntizam məcburetməsi, yalnız daimi təşkilati-əlaqədə olan sabit kollektivlərin üzvlərinə tətbiq edilə bilər (fəhlələr, hərbi qulluqçular, tələbələr, məhkum edilmişlər və s). Adətən belə kollektivə üzvlük könüllüdür, lakin çoxları məcburi şəkildə - məhkəmənin hökmü ilə, idarəetmə aktı ilə (məsələn, intizam xarakterli hərbi hissədə saxlama, hərbi qulluğa çağırma və s.) üzv olurlar.

5. Yuxarıdakı əlamət mənəvi-hüquqi sanksiyalarının geniş istifadə edildiyini (töhmətlər) müəyyən edir və xas olan intizam təsirlərinin məzmununu açıqlayır.

6. İntizam məcburetmə tədbirləri intizam hakimiyyəti subyektləri tərəfindən həyata keçirilir. Adətən onlar intizam hakimiyyətinin subyektləri və ya digər rəhbərlədir. Bu qaydadan fərqli olaraq, hərbi qulluqçuların rəislərinə verilmiş intizam hakimiyyəti xüsusi normalarla və qüvvədə olan digər aktlarla müəyyən edilir.

Konkret hüquqpozma törətmiş şəxsə intizam məcburetmə təsir tədbirini yalnız bilavasitə rəhbər olan şəxs və ya yuxarı rəhbər şəxs tətbiq edilə bilər. Bütövlükdə isə intizam hakimiyyəti səlahiyyətinə daha çox subyektlər malikdirlər ki, onlardan xeyli miqdarda orqanlar və vəzifəli şəxslər dairəsinə intizam məcburetmə tətbiq etmək hüququ verilmişdir.

7. İntizam məcburetmənin tətbiq edilməsi bir çox hüquq sahələri ilə - əsasən, inzibati, əmək, cəza-icra və s. hüquqları ilə nizamlanır.

Əksər hallarda intizam məcburetməsi qanunvericilik aktları ilə, bəzən də, dövlət idarəetmə aktları ilə (məsələn, DİN-in aktları) nizamlanır.

8. Əgər mülki-hüquqi və inzibati məcburetmə tədbirləri həm fərdi, həm də kollektiv subyektlərə tətbiq edildiyi halda, cinayət təsir tədbirləri kimi də intizam məcburetmə tədbirləri yalnız fərdi subyektlərə - konkret adamlara tətbiq edilir. İnitzam məcburetməsi fərdiləşdirilmişdir. Bu, öz təzahürünü onda tapır ki, həmin dairədə yalnız müəyyən qrup şəxslər üçün nəzərdə tutulmuş xeyli miqdarda sanksiya və qaydalar mövcud olsun.

Buraya əsgər və matroslara, zabitlərə və generallara, tələbələrə və aspirantlara, rəhbər işçilərə, müstəntiq və prokurorlara tətbiq edilən xüsusi sanksiyaları aid etmək olar.

İnzibati hüquq isə üç qrup subyektlər (inzibati kollektiv üzvləri) üçün intizam təsir tədbirləri nəzərdə tutur:

1. Hərbiləşdirilmiş xidmətçilər üçün (hərbiçilər, hərbi qulluqçular (polis əməkdaşları).
2. Təhsil alan şəxslər üçün (şagirdlər, tələbələr, müdavimlər, aspirantlar);
3. İnzibati hüquq normaları əsasında azadlıqları müvəqqəti olaraq məhdudlaşdırılmış şəxslər (cəzaçəkmə müəssisələrində, tərbiyə müəssisələrində və istintaq təcridxanalarında saxlanan şəxslər, xüsusi qəbuledici məntəqələrə yerləşdirilmiş şəxslər).

Hərbi qulluqçular və attestasiyadan keçmiş daxili işlər orqanlarının əməkdaşları üçün intizam məcburetmənin (normativ) hüquqi əsası - Silahlı Qüvvələrin İntizam Nizamnaməsi, ″Daxili İşlər Orqnalarının İntizam nizamnaməsi″, ″Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamə″ və ″Daxili İşlər Orqanlarında xidmət keçmə haqqında Əsasnamə″dir. Tələbə və aspirantlar üçün isə Təhsil Nazirliyi (yəni idarə aktı ilə) tərəfindən təsdiq edilmiş ali və orta ixtisas məktəbləri üçün nümunəvi daxili nizam qaydalarıdır.

Bir çox hərbiləşdirilmiş qulluqçular üçün də intizam məsuliyyəti əsasən idarəetmə aktları ilə nizamlanır. Şagirdlər üçün intizam məsuliyyətini hansı qaydada və hansı sanksiyalar tətbiq etməyi nizamlayan normativ aktlar isə ümumiyyətlə yoxdur.

Funksional əlamətlərinə və tətbiqinin bilavasitə məqsədinə görə intizam məcburetmə tədbirləri, tənbehlər, bərpaedici tədbirlər və digər xarakterli təsir tədbirləri ola bilər:

- intizam tənbehləri tətbiq edildikdə intizam məsuliyyəti yaranır;
- bərpaedici tədbilərinin (dəymiş maddi zərərin ödənilməsi) tətbiqi isə maddi məsuliyyəti yaradır;
- digər intizam təsir tədbirləri (məsələn; işdən kənar etmə, məxfi sənədlərlə işləmək üçün icazənin verilməməsi və ya məhdudlaşdırlıması, döyüş şəraitində açıq tabesizlik göstərildikdə komandir tərəfindən silahın tətbiq edilməsi, sərxoş vəziyyətdə olan hərbiçilərin

qaupvaxtaya yerləşdirilməsi, həbs edilmiş hərbi qulluqçunun qaupvaxtaya nəzarət (konvoy) altında gətirilməsi və s. aid ola bilər).

Yuxarıda göstərirlən misallar onu göstərir ki, ″digər intizam tədbirlərinə″ xeyli miqdarda həm sərbəst təsir tədbirlərini, həm də prosessual tədbirlərini aid emək olar.

Birinci sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim:

1. İntizam məcburetməsi - icraedici-sərəncamverici fəaliyyət prosesində intizam (nizami) hakimiyyəti subyektləri tərəfindən hüquq normaları əsasında tabeçiliyində olan şəxslər tərəfindən intizam xətasının (xüsusi halda isə həmçinin digər əməllərin) törədilməsi ilə əlaqədar məcburetmə tədbirlərinin tətbiq edliməsi deməkdir.

2. İnzibati hüquq üç qrup subyektlərə intizam təsir tədbirlərin tətbiq edilməsini nəzərdə tutur:

- hərbiləşdirilmiş qulluqçular;
- təhsil alan şəxslər;
- inzibati-hüquqi normalar əsasında azadlıqları müvəqqəti olaraq məhdudlaşdırılmış şəxslər.

3. İntizam məcburetmə tədbirləri aşağıdakılardır:

- intizam tənbeh tədbirləri;
- bərpaetmə tədbirləri;
- digər təsir tədbirləri

Sual 2.
″İnzibati hüquqda intizam məsuliyyəti və intizam xətası″

İntizam məsuliyyəti - bu dövlət qulluğu qaydalarının pozulmasına görə cinayət qaydasında tətbiq edilməyən, xidməti tabeçilik qaydasında kollektivin üzvlərinə intizam təsir tədbirlərinin tətbiq edilməsi deməkdir.

İntizam məsuliyyəti - intizam hakimiyyəti subyektləri tərəfindən tabeçiliklərində olan sabit kollektiv üzvlərinə intizam xətaların və digər hüquq pozuntuların törədilməsinə görə inzibati-hüquq normaları əsasında intizam təsir tədbirlərinin tətbiq edilməsidir.

Onun xüsusiyyətləri aşağıdakılardır:

1. İntizam məsuliyyəti bir qayda olaraq, intizam xətalarına görə, lakin bəzən digər hüquqpozuntulara görə (məsələn, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 15-ci maddəsinə əsasən) və hətta əxlaqsız (ləyaqətsiz) əməllərə görə də tətbiq edilir. Belə ki, Azərbaycan Respublikasının ″Polis haqqında″ Qanunun 33-cü maddəsinə əsasən ″polis əməkdaşı adına ləkə gətirən ləyaqətsiz hərəkət etdikdə″ polis əməkdaşı intizam məsuliyyətinə cəlb edilir.

2. İntizam məsuliyyəti intizam tənbehlərinin (sanksiyalarının) tətbiq edilməsindən ibarətdir.

3. İntizam məsuliyyətini intizam (nizami) hakimiyyətin subyektləri həyata keçirirlər.

4. İntizam məsuliyyətinin tətbiq edilməsi qaydaları və əsasarı müxtəlif hüquq sahələri ilə araşdırdığımız halda isə inzibati hüquqla nizamlanır.

İnzibati hüquq normaları ilə minlərlə adamlar intizam məsuliyyətinə cəlb edilə bilərlər. Buraya hərbiləşdirilmiş qulluqçular, təhsil alanlar (şagirdlər, tələbələr, aspirantlar və

s.) və inzibati qaydada azadlıqları məhdudlaşdırılmış digər şəxslər aiddirlər. Onların hamısı inzibati kollektivlərin üzvləridirlər.

İntizam xətası hüquqpozuntuların bir növüdür, bu sabit kollektivin üzvü tərəfindən törədilmiş və şəxsin həmin kollektivdə olması ilə əlaqədar üzərinə qoyulmuş vəzifələrin pozmasından ibarət olan zərərli, cəmiyyətə zidd, təqsirli sayılan əməldir.

İntizam xətalarını törətdiyinə görə təqsirli şəxslərə intizam tənbehləri (cəzası) tətbiq edilə bilər.

İntizam tənbehlərinin (sanksiyalarının) növləri normativ aktlarla müəyyən edilirlər. Bunlardan istifadə edilməsinin məqsədinə xətaların ümumi və fərdi profilaktikasına, həm onların məzmunu ilə, həm də tətbiq etmə qaydası ilə nail olunur.

İntizam tənbehin tətbiqi şəxsin hüquqi vəziyyətini dəyişdirir, müəyyən müddət ərzində onun üçün ″cəzalandırma″ vəziyyətini yaradır.

İntizam tənbehləri ″sabit kollektivlərin″ üzvlərinə tətbiq edildiyinə görə onların arasında xeyli əxlaqi-hüquq sanksiyaları (xəbərdarlıq, töhmət, şiddətli töhmət), şəxsin kollektivdə vəziyyətini dəyişdirən və ya tamamilə əlaqəsini kəsən sanksiyalar (işdən kənar etmək) mövcuddur.

Bu tənbehlər adətən, vətəndaş yalnız kollektivdə işlədiyi (xidmət etdiyi) dövrdə qüvvədə olur. Daimi təşkilati əlaqədə olan müxtəlif kateqoriyalı subyektlər üçün intizam sanksiyalarının məcmusu müxtəlifdir. Belə ki, ali məktəblərin tələbələri, aspirantları, hazırlıq kurslarının dinləyiciləri üçün xəbərdarlıq, töhmət, şiddətli töhmət və xaric emə kimi tənbehlər tətbiq edilir.

Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli ″Polis haqqında″ Qanununa əsasən polis əməkdaşı aşağıdakı əsaslara görə intizam məsuliyyətinə cəlb edilir:

- xidmət apararkən hüquqazidd hərəkət etdikdə;
- xidmət və icra intizamını pozduqda;
- polis əməkdaşı adına ləkə gətirən ləyaqətsiz hərəkət etdikdə.

Polis əməkdaşına aşağıdakı intizam tənbehləri tətbiq edilə bilər:

- məzəmmət;
- töhmət;
- şiddətli töhmət;
- xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq;
- tutduğu vəzifədən aşağı vəzifəyə keçirmə;
- xüsusi rütbənin bir pillə aşağı salınması;
- xidmətdən xaric etmə.

Polis təhsil müəssisələrində yuxarıda göstərilən intizam tənbeh növlərindən başqa növbədən kənar xidmət naryadını təyin etmə və polis təhsil müssisəsindən xaric etmə tənbeh növləri tətbiq edilə bilər.

Polis əməkdaşının intizam məsuliyyətinə cəlb edilməsi qaydası Azərbaycan Respublikası DİN-in 04 yanvar 2002-ci il tarixli 6 saylı əmri ilə təsdiq edilmiş ″Daxili işlər orqanlarının İntizam Nizamnaməsi″ ilə tənzimlənir.

Polis əməkdaşı xidmətdən xaric edilməsi barədə tabeliyi üzrə yuxarı orqana və ya məhkəməyə muraciət edə bilər.

Polis əməkdaşının xidmətdən xaric edilməsi qaydası Azərbaycan Respublikası DİN-in 15 dekabr 2001-ci il il tarixli 488 saylı əmri ilə təsdiq edilmiş DİO əməkdaşlarının xidmətdən xaric edilməsi qaydaları haqqında Təlimat″la tənzimlənir.

Hərbi qulluqçular və DİN-in kiçik və rəis heyətinə bir qayda olaraq törədilmiş xəta barəsində komandirə (rəisə) məlum olduqdan 10 gün gec olmayaraq, xidməti yoxlama keçirildiyi və ya cinayət işi başlandığı halda isə onun başa çatdırıldığı gündən 1 aydın gec olmayan müddətdə təqsirkar şəxsin xəstəliyi, məzuniyyətdə və tətildə olması vaxtı nəzərə alınmamaqla intizam tənbehi verilir. İntizam məsuliyyəti səlahiyyətli vəzifəli şəxsin əmri ilə və ya kollegiyanın qərarı ilə (məsələn, DİN-də kollegiyanın qərarı ilə idarə və şöbə rəisləri cəzalandırıla bilərlər) verilir. Hərbi Qüvvələrdə və daxili işlər orqanlarında intizam tənbehi şifahi şəkildə də verilə bilər. İntizam tənbehi verilməmişdən əvvəl işin baş vermiş vəziyyətini aydınlaşdırmaq üçün xidməti təhqiqat aparılmalı və kollektiv üzvünə şifahi və yazılı izahat verməyə imkan verilməlidir.

Yazılı əmrlə elan edilmiş tənbehin çıxarılması yalnız əmrlə elan olunur. DİO əməkdaşına intizam tənbehi tədbirinin tətbiqi barədə şəxsən, sıra önündə və ya müşavirədə elan olunur. DİO əməkdaşının tələbi ilə əmrin surəti ona təqdim edilməlidir.

İntizam tənbehi verliməsi barədə əmrdə əməkdaşın şərəf və ləyaqətini alçaldan, onun şəxsiyyətinə və şəxsi həyatına toxunan (ləkələyən) məlumatların göstərilməsi yolverilməzdir.

DİO-nun əməkdaşları ezamiyyətdə, məzuniyyətdə və ya xəstə olduqları müddətə onlara intizam tənbehləri tətbiq edilmir. Bu, xidməti intizam qaydalarının pozulması barədə məlumat, yaxıd sıravi və rəis heyəti yığıncaqlarının vəsatəti qərar qəbul etmək səlahiyyətli rəisə daxil olduğu 10 gün müddətinə daxil edilmir.

Həvəsləndirmə tədbiri kimi, qüvvədə olan intizam tənbehinin vaxtından əvvəl götürülməsi tənbehi vermiş rəis, yaxud ona bərabər vəzifəli və ya vəzifəcə böyük birbaşa rəis tərəfindən həyata keçirilir.

Xidməti intizam qaydaları pozuntusunun törədildiyi gündən 3 ildən artıq müddət keçdikdə intizam tənbehi tətbiq edilmir. Bu halda DİO əməkdaşlarının məzuniyyətdə, xəstə olduqları, həmçinin barələrindəki cinayət işinin, yaxud xidməti yoxlamanın aparılma vaxtı göstərilən müddətlərə daxil edilmir.

İntizam tənbehi, törədilmiş qəbahətin ağırlığına və təqsirin dərəcəsinə müvafiq olmalıdır. Tənbeh növü müəyyən edilərkən qəbahətin xarakteri, törədildiyi şərait, təqsirkarın şəxsiyyəti, kollektivdə nüfuzu, əvvəlki davranışı, xidmətə münasibəti, xidmət müddəti, peşəkarlığı və digər xüsusiyyətlər nəzərə alınır.

Vəzifəcə böyük birbaşa rəisə, əməkdaşa verilmiş tənbehin intizam pozuntusunun ağırlıq dərəcəsinə uyğun olmadığını aşkar edərsə, onu ləğv edib müvafiq qərar çıxarır.

Əməkdaş bir neçə dəfə qəbahət törətdikdə və ya qrup halında intizamın pozulmasında iştirak etdikdə, habelə qəbahət xidməti vəzifələrin icrası zamanı törədildikdə və onun nəticəsində hüquq qaydaları pozulduqda daha ciddi intizam tənbehi tətbiq edilir.

İntizam qaydalarının pozulmasında bir neçə əməkdaş qrup halında iştirak etdikdə, onların hər birinin konkret əməllərinə və təqsirinə müvafiq intizam tənbehi verilir.

Xidməti intizam qaydalarının pozulması hallarına görə yalnız bir intizam tənbehi verilir.

Rəis, tabelikdə olana xidməti vəzifələrini xatırladarkən və ya intizam tənbehi verərkən onun şərəf və ləyaqətini alçaltmamalı, kobudluğa yol verməməlidir.

Tənbeh tətbiq edilməzdən əvvəl təqsirkar əməkdaşdan izahat (şifahi və ya yazılı) verməsi tələb edilməlidir.

Əməkdaşın izahat verməkdən imtina etməsi yoxlamaya dair rəydə qeyd olunur və ona intizam tənbehi verilməsini istisna etmir.

Xidmətdən xaric edilmə istisna olmaqla, daxili işlər orqanlarının əməkdaşlarına verilmiş digər intizam tənbehləri 1 il müddətində qüvvədə olur və bu müddət keçdikdən sonra qüvvədən düşmüş heçab olunur. Şifahi verilmiş tənbeh 1 ay müddətində qüvvədə qalır.

Bir neçə intizam tənbehi olan əməkdaşın ən ciddi intizam tənbehi böyük rəis tərəfindən vaxtından əvvəl götürüldükdə, digər intizam tənbehləri də qüvvədən düşmüş hesab olunur.

İntizam tənbehinin qüvvədə olduğu müddətdə təkrar intizam pozuntusuna yol vermiş əməkdaş barədə daha ciddi intizam tənbehi tətbiq edilir.

İntizam məsuliyyətinə cəlb edildikdən sonra, xidməti və icra intizamının il ərzində yenidən kobudcasına pozulması, əməkdaşın daxili işlər orqanlarından xaric olunmasına səbəb olur.

Növbətçilik, qarovul və post-patrul xidməti zamanı törədilmiş qəbahətlərinə görə əməkdaşlara intizam tənbehi növbətçilik qarovul və post-patrul xidməti başa çatdıqdan və ya onlar başqa şəxslərlə əvəz edilidkən sonra verilir.

Sərxoş halda olan əməkdaşa intizam tənbehinin verilməsi, habelə hər hansı izahatın alınması onun ayılmasına qədər təxirə salınır.

Tutduğu vəzifədən aşağı vəzifəyə keçirilmə və ya xüsusi rütbənin bir pillə aşağı salınması kimi intizam tənbehi tədbirləri, bir qayda olaraq, başqa intizam tənbehinin təqsirkara lazımi təsir göstərmədiyi halda tətbiq edilir.

Tutduğu vəzifədən aşağı vəzifəyə keçirmə intizam tənbehi verilmiş şəxsin xidmətdə irəli çəkilməsi məsələsinə 1 ildən tez olmayan müddətdə ümumi əsaslarla baxıla bilər.

Xüsusi rütbənin bir pillə aşağı salınması intizam tənbehi tətbiq olunmuş əməkdaşın əvvəlki xüsusi rütbəsi ümumi qaydada 1 ildən sonra, mükafat qaydasında isə müstəsna hallarda göstərilən müddətdən tez bərpa edilə bilər.

Əməkdaş təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunduğu halda cinayət işi üzrə yekun qərar qəbul edilənədək vəzifədən kənarlaşdırıla bilər.

Əməkdaş vəzifə borcunun icrasını davam etdirməyi mümkünsüz edən pozuntulara yol verdiyi hallarda 2 ay müddətinədək vəzifədən kənarlaşdırıla bilər.

Əməkdaşın vəzifədən kənarlaşdırılması nomenklatura üzrə onu vəzifəyə təyin və vəzifədən azad etmək səlahiyyətinə malik vəzifəli şəxs tərəfindən həyata keçirilir.

İntizam tənbehi dərhal, müstəsna hallarda isə veridiyi gündən 1 aydan gec olmayan müddətdə elan edilir (icra olunur) və bu barədə əməkdaşın şəxsi işində qeydiyyat aparılır (şifahi intizam tənbehi barədə şəxsi işdə qeydiyyat aparılmır). Tutduğu vəzifədən aşağı vəzifəyə keçirmə, xüsusi rütbənin bir pillə aşağı salınması və xidmətdən xaric etmə kimi intizam tənbehlərinin icrası intizam əmri əsasında verilmiş şəxsi heyət üzrə əmrlə həyata keçirilir. İntizam tənbehindən şikayət verilməsi onun icrasının dayandırılması üçün əsas yaratmır.

İntizam tənbehi vaxtında icra edildmədikdə yalnız əməkdaşın şəxsi işində qeyd olunmaqla kifayətlənilir və təqsirkar əməkdaşlar intizam məsuliyyətinə cəlb edilirlər.

Əməkdaş qanunçuluğun pozulması, sui-istifadələr, işdəki nöqsanlar və daxili işlər orqanlarının xidməti fəaliyyətinə mənfi təsir göstərən başqa çatışmazlıqlardan aşkar etdikdə, bu barədə bilavasitə rəisinə məruzə etməli, zəruri hallarda yuxarı rəisə məlumat verməlidir.

Əməkdaş ona verilmiş intizam tənbehindən ardıcıllıqla yuxarı vəzifəli şəxslərə şikayət edə bilər. Əməkdaş xidmətdən xaric edilməsi barədə həmçinin məhkəməyə müraciət edə bilər.

Əməkdaşın şikayətində və müraciətində göstərilmiş məsələləri həll etmək səlahiyyətinə malik olmayan rəislər onu beş gün müddətində aidiyyəti üzrə göndərməli və bu barədə müraciət edən əməkdaşa bildirməlidirlər. Şikayəti baxılması üçün hərəkətlərindən şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə göndərmək qadağandır.

Tabelikdə olan əməkdaş barəsində qanunsuz və ya ədalətsiz qərar qəbul etmiş rəis intizam məsuliyyəti daşıyır.

Əməkdaş və onun ailə üzvlərinin müraciətlərinə, daxil olduğu gündən etibarən 15 gün ərzində baxımalıdır.

Müraciətə baxılması üçün xüsusi yoxlama keçirmək, əlavə materiallar tələb etmək, yaxud başqa tədbirlər görmək lazım gəldikdə orqan rəisi və ya onun müavini tərəfindən müraciətə baxılma müddəti müstəsna hallarda 1 ayadək uzadıla bilər.

Bu barədə müraciət edən şəxsə yazılı məlumat verilməlidir.

Bilərəkdən qərəzli və həqiqətə uyğun olmayan məlumatlar göstərilmiş ərizə və şikayətlərlə müraciət edən əməkdaşlar məsuliyyət daşıyırlar.

Suala yekun olaraq bir daha göstərmək istərdim ki:

1. İntizam məsuliyyəti - intizam hakimiyyəti subyektləri tərəfindən tabeçiliklərində olan sabit kolektivlərin üzvlərinə intizam və digər xətaların törətməsinə görə inzibati hüquq normaları əsasında intizam təsir tədbirlərinin tətbiq edilməsidir.
2. İntizam xətası - hüquqpozuntuların bir növüdür, bu sabit kollektivin üzvü tərəfindən törədilmiş və şəxsin həmin kollektivdə olması ilə əlaqədar üzərinə qoyulmuş vəzifələrin pozmasından ibarət olan zərərli, cəmiyyətə zidd təqsirli sayılan əməldir.
3. Polis əməkdaşı aşağıdakı əsaslara görə intizam məsuliyyətinə cəlb edilir:

- xidmət apararkən hüquqazidd hərəkət etdikdə;
- xidmət və icra intizamını pozduqda;
- polis əməkdaşı adına ləkə gətirən ləyaqətsiz hərəkət etdikdə.

4. Polis əməkdaşına aşağıdakı intizam tənbehləri tətbiq edilə bilər:

– məzəmmət;
– töhmət;
– şiddətli töhmət;
– xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq;
– tutduğu vəzifədən aşağı vəzifəyə keçirmə;
– xüsusi rütbənin bir pillə aşağı salınması;
– xidmətdən xaric etmə.
–

Sual 3.
"İnzibati hüquqda maddi məsuliyyət"

İnzibati və intizam məsuliyyətləri hüquqpozuntularının ümumi və fərdi profilaktika məqsədi ilə tənbehlərin tətbiq edilməsindən ibarətdir.

Maddi məsuliyyət isə vurulmuş zərərin ödənilməsi məqsədi ilə bərpaedici sanksiyaların tətbiq edilməsindən ibarətdir.

Dövlətə vurulmuş zərər aşağıdakı hallarda maddi məsuliyyət yaradır:

1. birbaşa vurulmuş real zərərdir;
2. xidməti vəzifənin icrası zamanı vurulub;
3. hüquqa zidd əməllə vurulub;

4. təqsir sayılan əməllə vurulub;
5. hüquqazidd əməl və dəymiş zərər arasında səbəbli əlaqə vardır.

Dövlət xidmətçiləri onların təqsirləri üzündən vurduqları ziyanı görə maddi məsuliyyət daşıyırlar.

Maddi məsuliyyət, biz qeyd etdiyimiz kimi xidməti xəta nəticəsində idarə, müəssisə və təşkilata vurulmuş maddi zərər nəticəsində əmələ gəlir.

Məsuliyyət dövlət xidmətçisinin vurduğu maddi zərərin ödənilməsi ilə təzahür edir. Bu zərərin ödənilməsi intizam tənbehi kimi baxıla və onunla birlikdə tətbiq edilə bilər.

Maddi məsuliyyət ya inzibati qaydada, ya da məhkəmənin qərarı ilə tətbiq edilir.

İnzibati hüquq normaları ilə yalnız hərbi qulluqçuların və polis əməkdaşlarının, o cümlədən daxili qoşun xidmətçilərinin maddi məsuliyyəti nizamlanır.

Dövlət xidmətçilərinə aid olmayan şəxslərin maddi məsuliyyətləri əmək hüququ normaları ilə müəyyən edilir.

Belə bir fikir düzgündür ki, vurulmuş zərərə görə mülki-hüquq məsuliyyəti ilə maddi məsuliyyəti bir-birinə qarşı qoymaq olmaz: hər iki məsuliyyət növü hüquq bərpaedici sanksiyaların həyata keçirilməsi deməkdir.

Digər tərəfdən isə maddi məsuiyyət müəyyən kollektiv dairəsində, nizami rəhbərin intizam hakimiyyətinin bir hissəsi kimi müvafiq səlahiyyətlə həyata keçirilir və zərər sabit kollektiv üzvündən bərpa edilir. Ona görə də mülki məsuliyyətdən fərqli olaraq tutulan zərərin ölçüsü vəzifə məvacibi (əmək haqqı) ilə əlaqələndirilir, təqsirin ölçüsü və işin həcmindən asılı olaraq dəyişir.

Onu da qeyd etmək çox vacibdir ki, maddi məsuliyyət vurulmuş zərər xidməti fəaliyyətlə əlaqədar olaraq tətbiq edilir. İntizam məsuliyyətindən maddi məsuliyyət onunla fərqlənir ki, tətbiq edilən sanksiyaların ölçüləri çox zaman təqsirin dərəcəsindən yox, təqsirli, hüquqa zidd əməl nəticəsində vurulmuş zərərin ölçüsündən asılı olur. Təqsirkar könüllü olaraq dəymiş zərəri tam və ya qismən ödəyə bilər, tətbiq edilən sanksiya ictimai məzəmmət tədbiri ilə əvəz edilə bilməz.

Tənbeh və hüquqbərpaedici sanksiyalar bir-birini tamamlayırlar və eyni zamanda bir şəxsə tətbiq edilə bilərlər. ″Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyət haqqında Əsasnamə″yə görə hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən dövlətə vurulmuş zərər onların həmin zərərə səbəb olmuş hərəkətlərinə (hərəkətsizliklərinə) görə intizam və yaxud cinayət məsuliyyətinə cəlb olunub-olunmamasından asılı olmayaraq ödənilir. Hərbi qulluqçulardan və daxili işlər orqanlarının əməkdaşlarından vurulmuş zərərin tutulması intizam məsuliyyətinin başqa bir formasıdır.

İnzibati hüquqla yalnız hərbi qulluqçuların maddi məsuliyyətə cəlb edilməsi nizamlanır və əmək hüququ ilə nizamlanan fəhlə və qulluqçuların belə məsuliyyətə cəlb edilmə qaydalarından xeyli fərqlənir.

İnzibati hüquq normaları ilə müəyyən edilən maddi məsuliyyət tədbirləri inzibati prosesdə tətbiq edilirlər.

″Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyət haqqında Əsasnamə″yə görə vurulmuş zərər hər bir hərbi qulluqçudan, toplanışa çağırılmış hərbi vəzifəlilərdən, hərbi tədris müəssisələrinin müdavimlərindən, habelə DİO-nın sıravi və rəis heyətindən, əgər zərər onlar tərəfindən xidməti vəzifələrini yerinə yetirərəkən vurulmuşsa, tutula bilər.

Əsasnamə maddi məsuliyyətin 3 növünü nəzərdə tutur:

1. vurulmuş ziyanın tam ödənilməsi;
2. vurulmuş ziyanın qismən ödənilməsi;
3. vurulmuş ziyanın bir neçə misli həddində ödənilməsi.

Aşağıdakı hallarda hərbi qulluqçular vurduqları zərərin tam miqdarında maddi məsuliyyət daşıyırlar:

1. hərbi əmlakın qəsdən məhv edilməsi, zədələnməsi, korlanması, oğurlanması, qanunsuz sərf edilməsi və ya qəsdən edilən başqa hərəkətlərlə zərər vurulması, bu hərəkətlərin cinayət məsuliyyətinə səbəb olub-olmamasından asılı olmayaraq;
2. naryad və başqa sənədlərdə faktiki görülməmiş işlərin artırılması, hesabat rəqəmlərinin təhrif edilməsi və dövlətin başqa şəkildə aldadılması;
3. hesabatla verilmiş hərbi əmlakın əskik gəməsi, eləcə də məhv edilməsi və ya korlanması;
4. zərərin sərxoş vəziyyətdə olan şəxs tərəfindən vurulması;
5. zərərin cinayət məsuliyyətinə səbəb olan hərəkətlərlə vurulması.

Yuxarıda göstərilmiş hallardan başqa digər hallarda maddi məsuliyyət qismən aşağıdakı ölçüdə tətbiq edilir:

1. müddətli hərbi xidmətdə olan hərbi qulluqçulara və müdavimlərə pul təminatının 2 aylıq məbləğindən;
2. toplanışa çağırılmış hərbi vəzifəlilər gündəlik xərcin aylıq məbləğindən;
3. qalan hərbi qulluqçular isə pul təminatının aylıq məbləğindən artıq olmayaraq.

Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilərin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş hərbi əmlakın ayrı-ayrı növlərinin oğurluğu, israfçılığı və ya çatışmamazlığı nəticəsində dəymiş ziyana görə bu əmlakın dəyərinin bir neçə misli həddində maddi məsuliyyət daşıyırlar.

DİN-in əməkdaşları üçün Azərbaycan Respublikası DİN-in 23 fevral 1998-ci il tarixli 52 saylı əmrində bir neçə misli həddində ödənilməsi nəzərdə tutulmuş həcmi əmlakın siyahısı göstərilmişdir.

1. 3 misli həddində:

a) bütün növ odlu və soyuq silahlar, partlayıcı maddələr və xüsusi təyinatlı döyüş sursatları (göz qamaşdırıcı, boğucu, huş aparan, bioloci silah növləri, qandal, dəyənək və s. texniki vasitələr);

b) silah-sursat, zirehli texnikanın ehtiyat hissələri.

2. 2 misli həddində:

a) optik cihazlar;

b) xəz məmulatları;

v) geyim və yataq inventar əmlakları;

q) xaricdə istehsal olunmuş kompyüterlər, televizorlar, surətçıxarma aparatları, video və səsyazı texniki vasitələr, soyuducular, kondisionerlər, onlara aid ehtiyat hissələri, yumşaq mebel, dəmir şkaflar;

d) kiçik həcmli texniki rabitə vasitələri və onlara aid ehtiyat hissələri;

e) ölçü cihazları.

3. 1,5 misli həddində:

a) ərzaq məhsulları.

Vurulmuş zərərin ödənilməsi aşağıdakı şəkildə aparılır:

Zərər aşkar edildikdə hərbi hissə komandiri, idarə və müəssisə rəisləri zərərin başvermə səbəblərinin, onun miqdarının və təqsirli şəxslərin müəyyən edliməsi üçün dərhal inzibati təhqiqat təyin edirlər. Təhqiqat 1 ay müddətində başa çatdırılmalıdır. Lazımi hallarda yuxarı komandir (rəis) bu müddəti 1 aydan artıq olmayaraq uzada bilər.

Zərərin başvermə səbəbləri, miqdarı və təqsirli şəxslər təftiş, yoxlama, təhqiqat, istintaq və ya məhkəmə tərəfindən müəyyən edildikdə inzibati təhqiqat aparılmaya bilər, inzibati təhqiqat qurtardıqdan və ya yuxarıda göstərilən oqanlardan materiallar daxil olmasından 1 ay müddətində təqsirli hərbi qulluqçudan müvafiq məbləğin tutulması barədə komandir (rəis) əmr verir. Bu əmr təqsirli şəxsə imza ilə elan edilir. Həmin şəxs müəyyən edilmiş qaydada yuxarı komandirə (rəisə) şikayət verə bilər. Yuxarı komandir (rəis) vurulmuş zərərə görə məsuliyyətin və tutulacaq məbləğin miqdarının düzgün təyin edilib-edilmədiyini yoxlayır. Əmrdən şikayət verilərkən pul tutulma dayandırılmır. Əmr ləğv olunduqda tutulmuş məbləğ qaytarılır.

Vəzifə borclarını yerinə yetirmədikləri zaman vurduqları ziyana görə hərbi qulluqçular ümum mülki qaydada maddi məsuliyyət daşıyırlar.

Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər komandirin (rəisin) əmrini vicdanla yerinə yetirmələri və ya konkret şəraitdə xidməti risk nəticəsində bəraət almış, yaxud hüquqi hərəkətlər nəticəsində dövlətə vurduqları zərərə görə maddi məsuliyyət daşımırlar.

Əgər maddi məsuliyyətə cəlb edilmiş hərbi qulluqçu və ya toplanışa çağırılmış hərbi vəzifəli dövlətə vurduğu zərəri ehtiyata və ya istefaya buraxıldığı və ya toplanışın qurtardığı günədək ödəməyibsə, onun borcu yaşadığı yerin məhkəmə icraçıları tərəfindən mübahisəsiz qaydada, onun yaşayış (iş) yerinə komandirin (rəisin) göndərdiyi notariat işlərini yerinə yetirən orqanların icra qeydi əsasında tutulur.

Azərbaycan Respublikası DİN-in 31 oktyabr 1995-ci il tarixli 568 saylı əmri ilə təsdiq edilmiş ″Rəis və sıravi heyət tərəfindən dövlətə dəymiş maddi ziyanın ödənilməsi qaydaları haqqında Təlimat″a əsasən DİO-nun əməkdaşları tərəfindən dövlətə vurduqları ziyanın ödənilməsi qaydası müəyyən edilib.

Azərbaycan Respublikasının 20 yanvar 1995-ci il tarixli 947 saylı Qanunu ilə təsdiq olunmuş ″Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamə″yə uyğun olaraq, aparılmış inzibati təhqiqat materiallarının nəticələrinə əsaslanaraq hərbi hissənin, tədris ocağının, hərbi tədris müəssisələrinin və DİN-in digər orqanlarının rəis və komandirləri tərəfindən dövlətə vurulmuş ziyanın həmin təqsirkar şəxslərin hesabına ödənilməsi üçün əmr verilir.

Dövlətə dəymiş ziyana görə ödəniləcək məbləğ müəyyən edilərkən general, zabit, kizir, miçman, orta, baş və ali zabit heyətinin aylıq maaşı kimi onun tutduğu vəzifə maaşı, hərbi rütbə, yaxud xüsusi rütbə maaşı və xidmət müddətinə görə maaşı birlikdə nəzərdə tutulur. Müddətdən artıq xidmət edənlərin, sıravi və kiçik rəis heyətinin aylıq maaşı kimi isə onun fasiləsiz xidmət müddətinə görə tutduğu vəzifə maaşı və xüsusi rütbə maaşı nəzərdə tutulur.

Ərzaq payı əvəzi verilən əlavə bu hallarla hesaba alınmır.

Maddi məsuliyyətə cəlb olunmuş hərbi qulluqçuların aylıq maaşını məsuliyyətə cəlb olunma barədə əmrə imza edilən günədək rəis və sıravi heyətin tutduğu vəzifə maaşı, hərbi rütbə və xüsusi rütbə maaşı, həmçinin xidmət müddətinə görə aldıqları maaş təşkil edir.

Həqiqi hərbi xidmətə çağırılmış hərbi qulluqçulardan və müdavimlərdən aylıq tutulacaq məbləğ, onlara müəyyən edilmiş vəzifə maaşına və aldığı təqaüdün məbləğinə görə müəyyən edilir.

Tutulacaq məbləğ müəyyən edilərkən tütün məmulatları əvəzi verilən pul ödənişi nəzərə alınmır.

Hərbi toplanışa çağırılmış hərbi vəzifəlilərdən dəymiş maddi ziyana görə ödəmələr toplanış dövrü ərzində hesablanan aylıq maaşından, hərbi inşaatçılardan isə aylıq əmək haqqından tutulur.

DİN-in Polis Akademiyasında və ya digər elm ocaqlarında təhsil zamanı təqaüd alan müdavimlərin maddi məsuliyyətə cəlb olunması, onlar üçün müəyyən olunmuş aylıq təqaüddən hesablanaraq müəyyən edilir.

Hərbi əmlakın mənimsənilməsi, dağıdılmsı, israf edilməsi, itirilməsi, qəsdən məhv edilməsi və ya zədələnməsi, maddi və pul vəsaitlərinin qeyri-qanuni istifadəsi və uçotdan silinməsi faktı aşkar olunduqda dəqiq inzibati tədqiqat aparılmalı, dəymiş ziyanın məbləği, onun başvermə səbəbləri və təqsirkar şəxslər müəyyən edilməlidir.

İnzibati təhqiqatın nəticələri yazılı surətdə rəsmiləşdirilir. Təqsirkar şəxslər və dəymiş ziyanın məbləği təftiş, yoxlama, istintaq və məhkəmə tərəfindən müəyyən edilkdikdə inzibati təhqiqatın aparılması lazımsız sayılır.

İnzibati təhqiqat tərəfindən aşağıdakılar müəyyən olunur:

Dəymiş maddi ziyanın mahiyyəti və onun pulla müəyyən olunmuş məbləği, ziyan vurularkən yol verilmiş qeyri-qanuni hərəkətlər, pozulmuş qanun, əmr, nizamnamə, təlimat və digər qaydalar; hərbi qulluqçunun, hərbi inşaatçının, hərbi toplanışa çağırılmış hərbi vəzifəlilərin, rəis və sıravi heyətin ziyanın vurulmasına səbəb olan hərəkətləri (hərəkətsizlikləri). İnzibati təhqiqat materiallarına bütün təqsirkar şəxslərin yazılı izahatları əlavə olunur.

Təhqiqatın nəticələri hərtərəfli təhlil olunmalı, maddi ziyanı törədən amillərin müəyyən edilib aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Təqsirkar şəxs, məsuliyyətə cəlb edilməsi barədə qərar qəbul edilənədək başqa işə keçdiyi təqdirdə inzibati təhqiqatın materialları və ya təftiş aktının çıxarış təhqiqat, təftiş və yoxlama qşurtardıqdan sonra 5 gün müddətində təqsirkarın yeni xidmət yerinə göndərilərək onun maddi məsuliyyətə cəlb edilməsi tələb edilir.

Yeni xidmət yerinin rəisi (komandiri) daxil olmuş inzibati təhqiqat materiallarına və ya təftiş aktından çıxarışa əsasən bir ay müddətində təqsirkarın maddi məsuliyyətə cəlb edilməsi barədə əmr verir.

Hərbi xidmətdən azad edilmiş hərbi qulluqçular, hərbi inşaatçılar, rəis və sıravi heyətə mənsub şəxslər və hərbi toplanışı başa vurmuş hərbi vəzifəlilər tərxis olunduqları gün dövlətə vurmuş olduqları ziyana görə maddi məsuliyyətə cəlb edilib ziyanı tam məbləğdə ödəmədikdə 10 gün müddətində yaşadıqları yerin xalq məhkəməsinə icra yazıları notarial qaydada həll edilib göndərilir. İcra yazısının alınması üçün hissənin rəisi (komandiri) notarial hərəkətləri həyata keçirən orqana ödənilməli olan məbləğ haqqında arayış təqdim edir.

Bundan başqa haqq-hesab kitabçasına, pul atestatında, sərəncamda dövlətə vurulmuş ziyanın ödənilməmiş məbləğinin qalığı göstərilir.

Həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular tərəfindən öz vəzifə borcunu laqeyd yerinə yetirmə nəticəsində dəymiş ziyanın məbləği minimum əmək haqqının 3 mislindən

artıq və tərxis vaxtı tutulması qeyri-mümkün olduğu təqdirdə bu halı təsdiqləyən sənədlər əsasında müvafiq qaydalarla silinə bilər.

Dəymiş ziyanın məbləği müəyyənləşdirilərkən əmlakın yalnız istifadə olan müddətinin işlənmə faizi çıxılır.

Ət, süd məhsullarının və onlara aid məmulatların məhsullarının mənimsənilməsi, çatışmamazlığı və itirilməsi nəticəsində dövlətə dəymiş ziyanın məbləği Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 may 1992-ci il tarixli 271 saylı Qərarı əsasında müəyyən edilmiş qiymətlərə müvafiq olaraq ödənilir. Məhsulun alış qiyməti müəyyən edilmiş qiymətdən aşağı olduğu təqdirdə ödəniş alış qiyməti əsasında aparılır.

N Ə T İ C Ə

Mühazirəmizi yekunlaşdıraraq qeyd etmək istərdim ki, bu günkü mühazirəmizin mövzusunun açıqlanması vasitəsi ilə əldə etdiyimiz biliklərin həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyəti vardır.

Mühazirəmizin birinci sualının açıqlanması vasitəsi ilə siz, birinci növbədə dövlət idarəetmə sahəsində intizam məcburetməsi və onun xüsusiyyətləri barədə nəzəri biliklər əldə etmiş oldunuz. Çünki dövlət idarəetmə sahəsində geniş tətbiq edilən məcburetmə növlərindən biri də intizam məcburetməsidir. Onun da tətbiq edilməsinin əsas və qaydasını bilmək hər bir hüquqşünasın vəzifə borcudur.

Mühazirəmizin ikinci sualının açıqlanması vasitəsi ilə əldə etdiyiniz biliklərin mahiyyəti ondan ibarətdir ki, hər bir dövlət qulluqçusu bilməlidir ki, onun hansı qanunazidd hərəkətləri intizam xətası kimi qəbul edilir və həmin xətaya görə o, hansı intizam tənbehlərinə məruz qala bilər. Digər tərəfdən isə o, bilməlidir ki, initizam təndehinin tətbiq edliməsinin əsasları və qaydası nədən ibarətdir.

Ən nəhayət mühazirəmizin üçüncü sualının açıqlanması vasitəsi ilə siz, maddi məsuliyyətin tətbiq edliməsinin əsasları və qaydası barədə nəzəri biliklər əldə etmiş oldunuz.

Bu biliklərin əldə edilməsinin mahiyyət ondan ibarətdir ki, hər bir dövlət qulluqçusu tərəfindən dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi düzgün və tam həyata keçirilməsi təmin olunsun.

Mühazirəmizin mövzusu vasitəsi ilə mənimsənilməsi zəruri olan hüquqi biliklərin əhəmiyyəti bir də ondan ibarətdir ki, onlara yiyələnməklə siz, gələcək xidməti fəaliyyətinizi qüvvədə olan qanunvericiliyə müvafiq olaraq həyata keçirmiş olarsınız. Digər tərəfdən isə mühazirəmizin mövzusu vasitəsi ilə əldə etdiyiniz hüquqi bilikləri gələcək xidməti fəaliyyətinizdə rəhbər tutmaqla Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən dövlətin ali məqsədi olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edliməsində sizin üzərinizə düşəcək gələcək xidməti vəzifələrinizi düzgün və dönmədən yerinə yetirmiş olarsınız.

Mövzu № 15. ″İnzibati xətalar haqqında işlər üzrə icraatın ümumi xarakteristikası″

P L A N:

G İ R İ Ş

1. İnzibati prosesin anlayışı və təyinatı. İnzibati-prosessual fəaliyyət və inzibati yurisdiksiya.
2. İnzibati xətalar haqqında işlər üzrə icraatın anlayışı, vəzifələri və prinsipləri.

3. İnzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçıları, onların hüquqları və vəzifələri.
4. İnzibati xətalar haqqında işlər üzrə icraatda sübutlar və onların qiymətləndirilməsi.
5. İnzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərin növləri, onların tətbiq edilməsinin əsasları və qaydası.

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, 2000.
3. **″Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında″ Azərbaycan Respublikasının Qanunu. 10 iyun 1997-ci il.**
4. **″Dövlət Məhkəmə Ekspertizası fəaliyyəti haqqında″ Azərbaycan Respublikasının Qanunu. 18 noyabr1999-cu il.**
5. ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
6. ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 09 avqust 1994-cü il.
7. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
8. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
9. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ II hissə. Dərs vəsaiti. Bakı, 2006.
10. E.Abdullayev. ″Vətəndaşların inzibati məsuliyyəti″. Dərs vəsaiti. B.,1992.
11. ″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
12. E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
13. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

Hüquqi dövlətin formalaşması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi bütün hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsini tələb edir.

Ölkədəki hüquq qaydasının vəziyyəti hüquq mühafizə orqanlarının inzibati xətalara qarşı mübarizənin təşkili və həyata keçirməsindən çox asılıdır. İnzibati xətalara qarşı mübarizə hüquq mühafizə orqanlarının inzibati fəaliyyətinin əsas istiqamətlərindən biri olan inzibati yurisdiksiya fəaliyyəti ilə aparıldığı üçün mühazirəmizin vasitəsi ilə əldə edəcəyiniz biliklər həm nəzəri, həm də təcrübəi cəhətdən böyük əhəmiyyət kəsb edir. Çünki gələcək fəaliyyətinizdə inzibati xətalara qarşı mübarizəni həyata keçirərkən istifadə edəcəyiniz inzibati yurisdiksiya fəaliyyətinin inzibati xətalar qanunvericiliyinə müvafiq olaraq həyata keçirməlisiniz. Bunu təmin etmək üçün bu günkü mühazirənin vasitəsi ilə mənimsənilməsi zəruri olan biliklərə siz tərəfdən yiyələnmək mütləq xarakter daşıyır. Daha dəqiq desək, bu biliklərə yiyələnmədən inzibati yurisdiksiya fəaliyyətini qanunvericiliyin tələblərinə müvafiq olaraq həyata keçirməyiniz mümkün olmayacaq.

Mühazirənin vasitəsi ilə siz gələcək xidməti fəaliyyətinizdə insan və vətəndaş hüquq və azadlıqlarının, eləcədə inzibati xətalar qanunvericiliyinin prinsplərindən irəli gələn digər tələblərin təmin edilməsinə nail olmuş olarsınız.

Bu mühazirədə birinci növbədə inzibati xətalar haqqında işlər üzrə icraatın anlayışı, vəzifələri və prinsipləri, ikinci növbədə icraatın iştirakçıları və onların hüquq və azadlıqları, üçüncü növbədə icraatda sübutlar və onların qiymətləndirilməsi, yekununda isə icraatın təmin edilməsi tədbirlərinin növləri, onların tətbiq edilməsi əsasları və qaydaları ilə tanış olacaqsınız.

Mühazirədə aparılıcaq təhlil əsasında əldə edəcəyiniz məlumatlar əsasında Sizlər gələcək xidmətlərinizdə inzibati yurisdiksiya fəaliyyətinizi inzibati xətalar qanunvericiliyinə müvafiq olaraq həyata keçirmiş olacaqsınız.

Sual 1.

İnzibati prosesin anlayışı və təyinatı. İnzibati-prosessual fəaliyyət və inzibati yurisdiksiya.

Proses müəyyən nəticənin əldə olunmasına yönəlmiş müəyyən ardıcıl hərəkətlər, hansısa fəaliyyətin həyata keçirilməsi qaydasıdır. Bu mənada, məsələn, qanunvericilik, büdcə və s. prosesləri barədə danışmaq olar.

İdarəçilik fəaliyyəti müəyyən ardıcıllıqla həyata keçirilir. İdarəçilik hərəkətlərinin ardıcıllığı idarəetmə prosesini təşkil edir. Başqa sözlə desək, idarəçilik prosesi bu hərəkətdir, hərəkətlərin və hərəkətlərlə bağlı münasibətlərin inkişaf mərhələləridir. İdarəçilik hərəkətlərinin həyata keçirilməsi qaydaları hüquq normaları ilə tənzimlənir və bununla əlaqədar olaraq, onlar hüquqi xarakter alırlar. İdarəçilik-prosessual hərəkətlər isə inzibati-prosessual normalarla tənzimlənirlər. Deməli, inzibati proses icra hakimiyyəti sahəsində qanunçuluğun təmin olunması və ictimai qaydanın möhkəmləndirilməsi məqsədilə qanunla tənzim olunan müəyyən fərdi işlərin həll edilməsi qaydasıdır.

İnzibati proses maddi inzibati-hüquqi və digər hüquq normalarının düzgün həyata keçirilməsinə yönəlmişdir.

İnzibati prosesin obyektini müxtəlif hüquq sahələri ilə tənzimlənən (inzibati, əmək, maliyyə. mülki hüququ, cinayət hüququndan başqa) idarəçilik xarakterli ictimai münasibətlər təşkil edir.

İnzibati prosesin bu xüsusiyyəti, onu müəyyən fərdi işlərin həlli üzrə inzibati icraatların məcmusu kimi təsvir etməyə imkan verir.

Fərdi işlərin aşağıdakı növləri ola bilər:

- **vətəndaşların hüquq, azadlıq və qanuni mənafelərinin pozulması ilə əlaqədar müraciətləri;**
- **intizam xətaları haqqında işlər;**
- **vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar olan işlər;**
- **inzibati xətalar haqqında işlər;**
- **inzibati nəzarətlə əlaqədar olan işlər və s.**

Deyilənlərdən göründüyü kimi, inzibati-hüquqi normalar dövlət və ictimai idarəetməyə aid müxtəlif məsələləri tənzimləyirlər və hüquq subyektlərinin əksər hissəsinə aiddirlər. Buna görə də inzibati proses idarəetmədə qanunçuluğun təmin edilməsi üçün əhəmiyyəti çox böyükdür. İdarəetmədə qanunçuluğu yalnız inzibati hüququn maddi normalarının realizəsi zamanı tələb olunan hərəkətlərin həyata keçirilməsində ardıcıllığını və onlarda olan hüquqi göstərişlərə riayət edilməsi şərtilə təmin etmək olar.

Qüvvədə olan inzibati-prosessual normalar qanunlarda və qanunqüvvəli aktlarda göstərilmişdirlər. Bu normalar hüquq tətbiqetmə aktlarının qəbul edilməsi qaydalarını, inzibati prosesin iştirakçılarının hüquqlarının və vəzifələrinin həyata keçirilməsi qaydasını və s. müəyyənləşdirirlər.

İnzibati prosesi digər proseslərdən (cinayət, mülki) fərqləndirən spesifik xüsusiyyət onun idarəçilik fəaliyyətinin həyata keçirilməsi zaman görülən hərəkətlərin ardıcıllığıdır. O, inzibati hüququn maddi və başqa hüquq sahələrinin normalarının realizə və idarəçilik fəaliyyətinin xüsusi hüquqi formasıdır.

İnzibati prosesin məzmununu idarəçilik sahəsində öz səlahiyyətlərini və vəzifələrini yerinə yetirən inzibati hüquqi subyektlərin müəyyən ardıcıllıqla həyata keçirilən zaman yaranan idarəçilik xarakterli prosessual münasibətlər təşkil edir.

İnzibati prosesi başqa proseslərdən (cinayət və mülki proseslərindən) fərqləndirən cəhətlərdən biri də odur ki, o, daha geniş ictimai münasibətləri əhatə edir, daha mürəkkəb struktura malikdir və müxtəlif inzibati-prosessual normalarla tənzimlənir.

İnzibati prosesin xüsusiyyəti həm də ondan ibarətdir ki, onun tətbiq etmə sahəsi inzibati hüquq normalarının realizəsi və inzibati-hüquqi münasibətlərinin müdafiəsi ilə bitmir. Dövlət idarəetmə orqanlarının, vəzifəli şəxslərin və idarəetmənin digər subyektlərinin hüquq tətbiqetmə fəaliyyəti çox vaxt elə həyati faktlarla üz-üzə gəlir ki, bunların həll edilməsi nəinki inzibati hüquq normalarının, habelə maliyyə, torpaq və s. hüquq sahələrinin normalarının tətbiqi ilə mümkün ola bilər. Göstərilən hüquq sahələrinin normaları inzibati-prosessual normalarla müəyyən edilmiş qaydalara müvafiq tətbiq edilirlər.

İcra hakimiyyəti sahəsində işlərin həll edilməsi inzibati prosesin prinsiplərini, habelə proses iştirakçılarının prosessual hüquq və vəzifələrini əhatə edir.

İdarəçilik fəaliyyətinin tərkib hissəsi olaraq, inzibati proses dövlət idarəetməsinin ümumi prinsiplərinə əsaslanır.

Bununla yanaşı, ümumi prinsiplər inzibati prosesdə özünəməxsus ifadəyə malikdirlər.

<u>İnzibati prosesin xüsusiyyətlərini əks etdirən və onun mahiyyətini açıqlayan əsas prinsiplərə aşağıdakılar aiddir:</u>

- qanunçuluq;
- maddi həqiqət;
- aşkarlıq;
- tərəflərin bərabərliyi;
- prosesin yerli əhalinin dilində aparılması;
- qənaətliyi və effektivliyi;
- orqanların və vəzifəli şəxslərin prosesin lazımi qaydada aparılmasına və işin düzgün həll olunmasına görə məsuliyyəti və s.

Onların hər birisi aşağıdakı kimi müvafiq məzmunlara malikdirlər:

<u>1. Qanunçuluq prinsipi</u>. Onun mahiyyəti ondan ibarətdir ki, inzibati hüququn maddi hüquqi normalarının tətbiqi bütün hallarda qanuna müvafiq olmalıdırlar. Normalar inzibati hüququn prosessual normalarında göstərilmiş qaydaya uyğun olaraq həyata keçirilirlər. Yəni inzibati prosesdə qanunçuluq inzibati hüququn və digər hüquq sahələrinin normalarının həyata keçirilməsi qaydaya ciddi surətdə əməl etmək tələbi kimi çıxış edir. Qanunçuluq habelə inzibati prosesin iştirakçılarının hüquqlarının və mənafelərinin qorunmasını da nəzərdə tutur. İnzibati prosesin istənilən iştirakçısının hüquq və mənafelərinin pozulması halları baş verdikdə iştirakçı qanunsuz hərəkətlər barədə şikayət verə bilər. Qanunçuluq prinsipinə uyğun olaraq, inzibati-prosessual qanunvericiliyində vətəndaşların hüquqlarının qorunmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə vətəndaşların hüquqlarının qorunması üzrə məhkəmə müdafiəsi təşkil edilib, yəni qanunsuz qərarlar və s. barədə vətəndaşlar məhkəməyə şikayət ərizəsi verə bilərlər.

<u>2. Maddi həqiqət prinsipi</u>. Bu o deməkdir ki, işin bütün halları hərtərəfli və obyektiv surətdə tədqiq edilməlidir. Bu prinsip hüquq tətbiqedən şəxsi işə baxarkən bütün sübutları diqqətlə nəzərdən keçirməyi, onları düzgün qiymətləndirməyi tələb

edir. Zəruri hallarda əlavə sənədləri tələb etmək, yoxlama və ekspertiza aparmaq, işin obyektiv surətdə həll olunması üçün başqa tədbirləri də həyata keçirmək lazımdır. Qanunvericilik işin mahiyyətini diqqətlə araşdırılmasını, birtərəfliyi və habelə qərəzliyi tamamilə istisna etməyi tələb edir.

Maddi həqiqət prinsipi həm də ona görə əhəmiyyətlidir ki, idarəetmə subyektləri tərəfindən hüququn tətbiq edilməsi nəinki faktların və şəraitin müəyyənləşdirilməsi, həm də onun bu faktlara və şəraitə hüquq normalarının tətbiqi prosesində təsiri ilə əlaqədardır. Belə ki, polis əməkdaşı, qanun pozan şəxsi yerində cərimə edərkən, nəinki müvafiq inzibati-hüquq normasını tətbiq edir, habelə təqsirkara bilavasitə təsir edir.

<u>3. Tərəflərin qanun qarşısında bərabərlik prinsipi</u>. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, proses iştirakçısının inzibati-prosessual statusu müəyyən edilir. Bu statusa görə hər bir vətəndaş, sosial və xidməti vəziyyətindən, o cümlədən digər hallardan asılı olmayaraq idarəçilik məsələsini həll edərkən qanun və orqan qarşısında bərabərdir. Bundan başqa, bu prinsip inzibati prosesin iştirakçısına ehtiyac olduqda müvafiq hüquqi yardımın göstərilməsini, həm də inzibati prosesin iştirakçıları tərəfindən lazımi qaydada öz hüquqlarından istifadə etmələrinə və üzərlərinə qoyulmuş vəzifələrə riayət etmələrinə işə baxan orqanın istifadə etmələrinə nəzarət etməsini nəzərdə tutur.

<u>4. Aşkarlıq prinsipi</u> ondan ibarətdir ki, proses açıq şəkildə keçirilməli və vətəndaşlara bu barədə lazımi məlumat verilməlidir. Proses, bir qayda olaraq, açıq keçirilir. Proses iştirakçılarına prosessual hüquqlardan maneəsiz istifadə edilməsinə, işin materialları ilə, sənədlərlə və s. ilə tanış olmağa imkan yaradılır. İnzibati prosesdə iştirak etmək üçün ictimaiyyətin nümayəndələri cəlb olunur. İşə maraq göstərən orqanlar, təşkilatlar işin materialları və iş üzrə qəbul olunmuş qərarlarla tanış ola bilərlər. Bir çox qərarlar açıq surətdə elan olunur.

<u>5. İnzibati prosesin yerli əhalinin dilində aparılması</u>. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, proses aparılan dili bilməyən şəxslər öz ana dilində izahatı verə bilərlər və tərcüməçinin köməyindən istifadə edə bilərlər.

<u>6. Prosesin qənaətliyi və effektivliyi</u> prosesin tezliklə keçirilməsinin və eyni zamanda onun aparılmasına böyük maliyyə xərcləri sərf etmədən təşkilinə yönəlmişdir. Prosesin qənaətiliyinə və effektivliyinə işinin baxılma vaxtının qanunvericilik tərəfindən müəyyən edilməsi də şərait yaradır.

<u>7. Orqanların və vəzifəli şəxslərin prosesin lazımi qaydada aparılmasına və işin düzgün həll olunmasına görə məsuliyyət</u>. Bu prinsipə görə, proses qaydalarının pozulmasında, yaxud qanunsuz qərar çıxarmaqda təqsirli hesab edilən şəxslər inzibati və cinayət məsuliyyəti daşıyırlar.

İnzibati prosesin subyektləri

İnzibati prosesdə subyekt kimi (iştirakçı kimi) Azərbaycan Respublikasının vətəndaşları; əcnəbilər və vətəndaşlığı olmayan şəxslər; dövlət orqanları, idarə, müəssisə və təşkilatlar; qeyri-hökumət təşkilatları; dövlət qulluqçuları; qeyri-hökumət təşkilatları və onların nümayəndələri çıxış edirlər.

İnzibati prosesin subyektlərinin hüquqi vəziyyəti aşağıdakılarla müəyyən edilir:

Birincisi, bu subyekt prosesdə öz qanuni mənafelərini və hüquqlarını müdafiə edən tərəfdir.

İkincisi, inzibati prosesdə onun iştirakçıları şahid, ekspert, tərcüməçi və s. kimi çıxış edə bilərlər. İnzibati xəta haqqında iş üzrə icraatda isə zərər çəkən şəxs də prosesin iştirakçısı hesab olunur. İnzibati prosesin iştirakçıları kimi habelə prosesin tərəflərinin hüquqlarının müdafiəçisi kimi çıxış edən şəxslər, o cümlədən, vəkillər və nümayəndələr hesab edilirlər.

Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər inzibati prosesin subyektlərinin ən çoxsaylı qrupunu təşkil edirlər. Onlar inzibati prosesdə aşağıdakı qismdə çıxış edirlər:

- öz hüquqlarının realizəsi, yaxud vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar işin həll edilməsi üzrə səlahiyyəti olan orqan qarışısında iş qaldıran şəxslər;

- inzibati işlərin həll edilməsi səlahiyyəti olan orqanda hüququnun pozulması, yaxud tanınmaması ilə əlaqədar hüququnun müdafiəsini tələb edən tərəf kimi, yaxud orqanda şikayətçinin (ərizəçinin) hüquqlarının pozulması və ya tanınmaması ilə əlaqədar ona qarşı tələb irəli sürülən tərəf kimi;

- üçüncü şəxs kimi, yəni mübahisə predmeti barədə müstəqil (özünün) tələbləri ilə müraciət edən, yaxud müraciət etməyən, lakin tərəflərin biri ilə birləşən şəxs kimi;

- qanunvericiliklə nəzərdə tutulmamış hallarda səlahiyyətli nümayəndə kimi;

- inzibati məsuliyyətə cəlb olunan şəxs kimi;

- zərər çəkən şəxs kimi, yəni inzibati xəta nəticəsində mənəvi, fiziki və maddi zərər vurulmuş şəxs kimi;

- başqa şəxslərin hüquqlarını və mənafelərini qoruyan şəxs kimi;

- şahid kimi.

Bütün sadalanmış hallarda vətəndaşın inzibati prosesin iştirakçısı kimi hüquqi statusunun öz xüsusiyyəti vardır və bu vətəndaşın prosesdə iştirak etdiyi qismdən irəli gəlir. Lakin qanunvericilik ümumi prosessual hüquqları və vəzifələri müəyyən edir və bununla o, vətəndaşların inzibati-prosessual hüquq fəaliyyətini və inzibati-prosessual fəaliyyət qabiliyyətini təsdiq edir.

<u>Dövlət orqanları</u>. Dövlət hakimiyyəti orqanları müxtəlif idarəçilik işlərinin həll edilməsi üzrə müxtəlif səlahiyyətlərə malikdirlər. Dövlət orqanları, ilk növbədə isə icra hakimiyyəti orqanları, inzibati prosesdə aşağıdakı qismdə çıxış edə bilərlər:

- inzibati işləri həll edən orqan kimi;

- öz funksiyalarının həyata keçirilməsi ilə əlaqədar inzibati işləri həll etmək hüququ olan orqan qarşısında inzibati iş qaldıran orqan kimi;

- inzibati mübahisənin tərəfi kimi;

- üçüncü şəxs kimi;

- başqa şəxslərin hüquq və mənafelərini müdafiə edən orqan kimi.

<u>İdarə, müəssisə və təşkilatlar</u>. Təsərrüfat, sosial-mədəni və inzibati-siyasi fəaliyyətin həyata keçirilməsində idarə, müəssisə və təşkilatlar hüquqi şəxs kimi mühüm rol oynayırlar. Onlar, habelə onların qurumları (sexləri, sahələri, şöbələri və s.) inzibati prosesdə aşağıdakı qismdə çıxış edə bilərlər:

- öz funksiylarının yerinə yetirilməsilə əlaqədar inzibati işi həll etmək hüququ olan orqan qarşısında inzibati iş qaldıran şəxs kimi;

- inzibati mübahisənin tərəfi kimi;

- üçüncü şəxs kimi;

- başqa şəxslərin hüquqlarını və mənafelərini müdafiə edən şəxs kimi.

<u>Qeyri-hökumət təşkilatları</u>. Əmək kollektivləri, ictimai birliklər, fondlar, həmkarlar ittifaqları, könüllü birliklər inzibati prosesin subyektləri kimi aşağıdakı qismdə çıxış edə bilərlər:

- öz funksiyalarının yerinə yetirilməsilə əlaqədar inzibati işi həll etmək hüququ olan orqan qarşısında inzibati iş qaldıran şəxs kimi;

- inzibati mübahisənin tərəfi kimi;

- üçüncü şəxs kimi;

- başqa şəxslərin hüquqlarını və mənafelərini müdafiə edən şəxs kimi;

- qanunvericiliklə müəyyən edilmiş hallarda və çərçivədə inzibati işi həll edən təşkilat kimi.

<u>Dövlət qulluqçuları</u> inzibati prosesin subyektləri kimi çıxış edə bilərlər:

- inzibati işi həll edən hakimiyyət nümayəndəsi və ya vəzifəli şəxs kimi,;

- öz funksiyalarının yerinə yetirilməsilə əlaqədar inzibati işi həll etmək hüququ olan orqan qarşısında inzibati iş qaldıran şəxs kimi;

- inzibati mübahisənin tərəfi kimi;

- dövlət orqanının nümayəndəsi kimi;

- üçüncü tərəf kimi;

- inzibati məsuliyyətə cəlb olunan şəxs kimi.

<u>Qeyri-hökumət təşkilatlarının işçiləri (qulluqçuları) və onların nümayəndələri</u> inzibati hüquqlara və vəzifələrə malikdirlər və inzibati prosesdə aşağıdakı qismdə çıxış edə bilərlər:

- öz vəzifə funksiyalarının yerinə yetirilməsilə əlaqədar inzibati işi həll etmək hüququ olan orqan qarşısında inzibati iş qaldıran şəxs kimi;

- inzibati mübahisənin tərəfi kimi;

- qeyri-hökumət təşkilatlarının nümayəndəsi kimi;

- üçüncü şəxs kimi;

- qanunvericiliklə nəzərdə tutulmuş hallarda inzibati işi həll edən şəxs kimi;

- inzibati məsuliyyətə cəlb olunan şəxs kimi.

İnzibati prosessual hüquq qabiliyyəti, yəni inzibati prosessual hüquqlara və vəzifələrə malik olmaq qabiliyyəti, proses iştirakçıları olan və yuxarıda adı çəkilmiş bütün subyektlərə xasdır.

İnzibati prosesdə şəxsin öz hüquqlarını həyata keçirmək və vəzifələrini yerinə yetirmək, habelə işin aparılmasını öz nümayəndəsinə tapşırmaq qabiliyyəti inzibati-prosessual fəaliyyət qabiliyyəti adlanır.

Vətəndaşlarda inzibati-prosessual fəaliyyət qabiliyyəti bir qayda olaraq 16 yaşa çatdıqda yaranır, lakin qanunvercilikdə başqa hal nəzərdə tutula bilər. Natamam

fəaliyyət qabiliyyəti vətəndaşlarda göstərilən yaşdan tez əmələ gələ bilər. Dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda, qeyri-hökumət təşkilatlarında inzibati-prosessual fəaliyyət qabiliyyəti onların yarandığı vaxtdan əmələ gəlir. İnzibati-prosessual vəzifələri və hüquqları olan dövlət qulluqçuların da inzibati-prosesual fəaliyyət qabiliyyəti onların müəyyən edilmiş qaydada vəzifəyə təyin edilməsi, yaxud seçilməsi vaxtından yaranır.

Qeyri-hökumət təşktlatların nümayədələrində inzibati-prosesual fəaliyyət qabiliyyəti onların inzibati prosesdə nümayəndə kimi çıxış etmək səlahiyyəti verilən vaxtdan başlanır. İnzibati prosesin subyektlərinin konkret işinin aparılmasında hüquqi vəziyyəti onların hansı qismdə çıxış etmələrindən asılıdır.

Daxili işlər orqanları inzibati prosesin subyektləri kimi bu prosesdə başqa dövlət orqanları kimi çıxış edirlər. DİO üçün inzibati prosesin subyektləri kimi xarakterik cəhət ondan ibarətdir ki, onlar çox vaxt inzibati prosesin tərəfi və ya məsələni həll edən orqan kimi çıxış edirlər. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində bir çox məsələlər DİO tərəfindən baxılır və həll edilir. DİO habelə geniş yurisdiksiya səlahiyyətlərinə malikdirlər, onlar təqsirkar şəxslər barədə inzibati tənbeh tətbiqetmə haqqında qərar çıxarırlar, yaxud başqa inzibati məcburetmə tədbirləri tətbiq edirlər.

DİO işin həll edilməsinə səlahiyyəti olmadığı halda onlar öz funksiyalarının yerinə yetirilməsilə əlaqədar inzibati işi həll etmək hüququ olan orqan qarşısında inzibati iş qaldıran orqan kimi çıxış edir.

DİO-nun fəaliyyəti barədə şikayət verilmişdisə, o, inzibati prosesin tərəfi kimi çıxış edir və müəyyən prosessual vəzifələrə malikdirlər. DİO-nun səlahiyyətinə aid olmayan inzibati işlər üzrə onlar inzibati xəta haqqında protokol tərtib etmiş tərəf kimi çıxış edirlər.

İnzibati prosessual fəaliyyət.

Proses müəyyən nəticənin əldə edilməsi üçün ardıcıl görülən hərəkətlərdir; hansısa fəaliyyətin həyata keçirilməsi qaydasıdır. Bu mənada, məsələn, qanunvericilik, büdcə, yer quruluşu və s. proseslərdən danışmaq olar.

Necə ki, icra hakimiyyəti müxtəlif xarakterli hərəkətlərdə reallaşır və bunlar da öz növbəsində dövlət idarəçilik fəaliyyətini xarakterizə edirlər, onu prosessual baxımdan təhlil etməyə kifayət qədər əsaslar vardır. Bu o deməkdir ki, dövlət fəaliyyətinin bu növü prosessual formaya malikdir.

Hüquqi baxımdan prosesin təyinatı maddi hüquq normalarının realizəsindən ibarətdir. Buna əsaslanaraq, inzibati hüququn maddi normalarının reallaşdırılması üzrə fəaliyyəti inzibati proses kimi qəbul etmək olar. Bu mənada onun təyinatı hüquqi nəticələrin əldə edilməsi məqsədi ilə, yəni normanın dispozisiyası ilə nəzərdə tutulmuş davranış qaydalarının əldə edilməsi üçün dövlət idarəetmə sahəsində qeyd edilən normalarının tətbiq edilməsinmn təmin edilməsidir. Prosessual formada həyata keçirilən bu funksiya icra fəaliyyətinin subyektlərinin müstəsna hüququdur. İcra hakimiyyətinin vəzifə və funksiyalarının hüquqi hakimiyyət realizəsi məhz bu formada baş verir. Lakin hüquq tətbiqetmə prosesi yalnız müvafiq davranış qaydalarının (dispozisiyanın) riayət edilməsinin təmin edilməsi ilə bitmir. Eyni dərəcədə icra

hakimiyyəti subyektlərinin üzərinə həm də maddi inzibati-hüquqi normalarının sanksiyalarının realizəsi də düşür.

Müvafiq olaraq inzibati-prosessual fəaliyyətin mahiyyətinin və təyinatının dərk edilməsində iki münasibət mümkündür, yəni hüquqtətbiqedici və hüquqmühafizəedici.

İnzibati prosesi xarakterizə edərkən ilk növbədə dövlət idarəetmə fəaliyyətində bu iki istiqamətə xas olan ümumi keyfiyyətləri nəzərə almaq lazımdır. Bu keyfiyyətlər, birincisi, prosesin hüquqi mənada əsas əlamətindən birbaşa asılıdır, ikincisi isə, icra hakimyyətinin praktiki realizəsi üzrə fəaliyyətinin xüsusiyyətləri ilə üzvü surətdə bağlıdır. Bu keyfiyyətlər icra hakimiyyətinin müvafiq subyektlərinin birtərəfli və hüquqi hakimiyyət iradəsinin ifadəsində öz əksini tapır. İnzibati-prosessual fəaliyyət bu keyfiyyətlərin təsiri olmadan həyata keçirilə bilməz, çünki o, faktiki olaraq icra hakimiyyətini dinamikada (onun fomaları və metodları və s. ilə yanaşı) xarakterizə edən elementlərdən biri kimi özünü göstərir.

Daha bir mühüm cəhət vardır ki, onu nəzərə almadan inzibati-prosessual fəaliyyətin mahiyyətini dərk etmək olmaz. Onun mahiyyəti ondan ibarətdir ki, inzibati-hüquqi münasibətlər yalnız prosessual münasibətlər kimi qəbul edilir. Bu o deməkdir ki, hüquqi münasibətlərin bu növünün xüsusiyyətləri ilk növbədə prosessual formada ifadə olunurlar.

İnzibati prosesin əsasını təşkil edən və onun anlayışının formalaşması üçün həm geniş (hüquqyaratma və hüquqtətbiqetmə), həm də məhdud (hüquq mühafizəetmə) mənada əsas yaratmağa imkan verən inzibati-prosessual fəaliyyət iki variantda ifadə oluna bilər:

a) inzibati prosedura;

b) inzibati yurisdiksiya.

Əlbəttə, onların hər ikisinin oxşar cəhətləri vardır: işlərin əsasən məhkəmədən kənar qaydada aparılması; işlərin, bir qayda olaraq, fərdi xarakteri; onların çox vaxt bir normativ aktla tənzim olunması (məsələn, vətəndaşların ərizələrinin, təkliflərinin və şikayətlərinin baxılması bir qayda üzrə edilir, baxmayaraq ki, inzibati-hüquqi mübahisə yalnız şikayətlə əlaqədar yaranır) və s.

Lakin hər iki variantın fərqləndirici xüsusiyyətləri də vardır, bunlar da aşağıdakılardır:

Birincisi, icra orqanı (vəzifəli şəxs) ya inzibati-hüquqi mübahisənin araşdırılması və həll edilməsi ilə əlaqədar olmayan hərəkətlər görür, yaxud onun gördüyü tədbirlər dövlət idarəetmə sahəsində yaranan mübahisə ilə mütləq əlaqələndirilir.

Yurisdiksiya xarakterli inzibati-prosessual fəaliyyət sahəsinə icra orqanların (vəzifəli şəxslərin) hər hüquqmühafizə hərəkətlərini aid etmək olmaz (əgər onların predmetini konkret inzibati-hüquqi mübahisə təşkil etmirsə)

Məsələn, yoxlama-nəzarət səlahiyyətlərini həyata keçirərkən, prosessual hərəkətlər göz qabağındadır (yoxlamanın bu, ya digər variantının seçilməsi, yoxlama qaydası), lakin bu zaman inzibati-hüquqi mübahisə mövcud deyil. Bu mübahisə yoxlamanın nəticələrinə görə yarana bilər (məsələn, sanksiyaların tətbiqinə qarşı şikayət verildikdə). Deməli, göstərilmiş misal qeyri-yurisdiksiyalı inzibati-prosessual fəaliyyətə aiddir. Burada inzibati-prosedura daha çox nəzərə çarpır və göz qabağındadır. Eləcə də icazəverici, həvəsləndirici və digər idarəçilik tədbirləri

(hərəkətləri) zamanı inzibati-prosedura göz qabağındadır. Analoji olaraq, vətəndaşların ərizələrinə baxılmasını və şikayətlərin baxılmasını da müqayisə etmək olar, çünki ərizələr, bir qayda olaraq, vətəndaşların subyektiv hüquqlarının realizəsi ilə əlaqədardır, şikayətlərin baxılmasında isə həmişə konkret inzibati-hüquqi mübahisənin həlli tələb olunur.

İkincisi, idarəçilik münasibətlərin iştirakçılarının davranışının hüquqi qiymətləndirilməsi inzibati-prosessual fəaliyyətinin hər iki variantın çərçivəsində həyata keçirilir. Lakin inzibati-yurisdiksiya fəaliyyəti həyata keçirilərkən o, mütləq bu qiymətləndirməni hər iki tərəfə aid edilməsini tələb edir, inzibati-prosessual fəaliyyəti zamanı isə hüquqi qiymət yalnız müvafiq vəsatətlərin təmin olunması şərti kimi çıxış edir (məsələn, lisenziyanın verilməsi və s.). Müvafiq prosedurlar tələb etmədikdə hüquqi qiymət verilməyə də bilər (məsələn, idarəçilik qərarının hazırlanmasında). Yurisdiksiya üçün isə o, mütləqdir.

Üçüncüsü, hər iki variantda xarakterinə görə fərqlənən fərdi inzibati işlər mövcuddur. Bu növ işlər inzibati proseduralarda mübahisəli xarakter daşımırlar. Bundan başqa, bu prosedurlarda çox vaxt fərdi işlər ümumiyyətlə mövcud olmur (məsələn, inzibati kargüzarlıqda, yəni xidməti sənədlərlə işin aparılmasında).

Dördüncüsü, inzibati-yurisdiksiyanı həyata keçirərkən – məcburetmə inzibati-hüquqi mübahisənin həllinin mümkün olan nəticəsidir. Öz ifadəsini o təqsirkar tərəfə qarşı müvafiq hüquqi və ya inzibati məsuliyyət tədbirlərinin tətbiq edilməsində tapır. İnzibati prosedurlar bu xüsusiyyətdən məhrumdurlar, çünki onlar məsuliyyət mexanizminin işə salınması kimi yox, dövlət idarəçilik fəaliyyətinin digər məqsədlərinin həyata keçirilməsinin prosessual vasitəsi kimi istifadə olunurlar, o cümlədən hüquqi məsuliyyət xarakteri daşımayan inzibati-məcburetmə vasitələrinin tətbiqi daxil olmaqla (xəbərdaretmə və qarşısınıalma).

Beşincisi, inzibati-prosedur fəaliyyəti, bir qayda olaraq, öz mürəkkəbliyi ilə fərqlənmir (məsələn, ictimai birliyi qeydiyyatdan keçirmək üçün ərizənin və digər təsis sənədlərinin təqdim edilməsi kifayətdir), buna görə dəqiq araşdırma tələb edilmir, hansı ki, inzibati-hüquqi mübahisənin həlli zamanı bütün bu hallarda mütləqdir.

Yuxarıda deyilənləri nəzərə alaraq, inzibati-prosessual fəaliyyəti xüsusi səlahiyyətli dövlət orqanlarının və onların vəzifəli şəxslərinin dövlət idarəetmə prosesində həyata keçirilən və inzibati-prosedur və ya inzibati-yurisdiksiya formasında ifadə olunan hüquqyaratma, hüquq tətbiqetmə və hüquq mühafizə fəaliyyəti kimi müəyyənləşdirmək olar.

İnzibati-prosessual fəaliyyət müəyyən prinsiplərə əsaslanır, bunlar, birincisi, dövlət-idarəçilik fəaliyyətinə ümumilikdə səciyyəvidir, ikincisi, öz xarakterinə görə ədalət mühakiməsi prinsiplərinə yaxındılar və üçüncüsü, inzibati-yurisdiksiyanın xüsusiyyətlərini əks etdirirlər.

Bu prinsiplərə aiddir: qanunçuluq, səlahiyyətlilik, tərəflərin prosessual bərabərliyi, dövlətin və şəxsiyyətin mənafelərinin qorunması, maddi (obyektiv) həqiqətin əldə edilməsi, mümkünlüyü, aşkarlıq, qənaətlik, çəkişmə.

Əlbəttə, onların hər biri mülki və cinayət işlər üzrə məhkəmə prosesi çərçivəsində ifadə olunmur. Bu onunla izah olunur ki, inzibati-hüquqi mübahisələr, bir qayda olaraq, öz məzmununa görə daha sadədirlər, buna görə tərəflərin qarşılıqlı

davranışının, mübahisənin hüquqi qiymətləndirilməsi ədalət mühakiməsinə səciyyəvi olan dəqiqliyi tələb etmir.

Hətta belə mübahisələrin məhkəmələr (hakimlər) tərəfindən baxılması zamanı bütün zəruri prosessual qaydaların gözlənilməsi həmişə tələb olunmur (məsələn, inzibati tənbeh edərkən). Fərdi inzibati işlərin çevikli də həll edilməsi inzibati yurisdiksiyanın əsas xüsusiyyətlərindən biridir, bu isə bəzi fərdi işlərin dəqiq təhlilini istisna etmir (məsələn, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində mübahisələrin baxılması zamanı).

İnzibati yurisdiksiya.

Yurisdiksiya (lat. jurisdictio – məhkəmə icraatı deməkdir; juc – hüquq, dico – deyirəm). Dövlət hakimiyyətli fəaliyyəti kimi hüquqi mübahisələrə qanunun tətbiq edilməsindən və mübahisə barəsində hüquqi aktların qəbul edilməsindən ibarətdir, yəni hüququn realizəsi baxımından hüquq tətbiqetmə fəaliyyətidir. Bu zaman, ümumiyyətlə, hüquq tətbiqetmə kimi, yurisdiksiya elə bir fəaliyyətdir ki, onun məzmununu informasiyanın yığılması, tətqiq edilməsi, qiymətləndirilməsi və qərarın qəbulu təşkil edir.

Bir qayda olaraq, hüquq tətbiqetmə fəaliyyəti səlahiyyətli orqanların hakimiyyət xarakterli hərəkətlər ictimai münasibətlərin təşkilinə, vətəndaşların subyektiv hüquqlarının realizəsinə (işə qəbul etmə, təqaüdlərin təyin edilməsi, müəyyən fəaliyyətin həyata keçirilməsinə icazənin verilməsi və s.) yönəlmişdir.

Lakin real həyatda çox vaxt elə yaranır ki, hüquqi norma ilə faktiki vəziyyət arasında ziddiyyət yaranır, yəni elə bir konkret münasibət yaranır ki, bu münasibət:

a) mübahisəlidir;

b) normada müəyyən edilmiş qaydadan yaranır, yaxud bilavasitə (birbaşa) normanı pozur. Bütün bu hallarda səlahiyyətli dövlət orqanların müdaxiləsi tələb olunur. Burada hüquq mühafizəetmə fəaliyyətinə obyektiv tələbat yaranır və bunun tərkib hissələri bunlardır:

a) yoxlama-nəzarət fəaliyyəti;

b) hüquq normalarının təmin edilməsi üzrə fəaliyyət (hüquq təminatı);

v) hüquqi mübahisələrin və hüquq pozuntuları haqqında işlərin araşdırılması;

q) dövlət məcburetmə tədbirlərinin tətbiqi üzrə fəaliyyət.

Beləliklə, yurisdiksiya hüquq mühafizə fəaliyyətinin tərkib hissəsidir, onun müstəqil və əsas növüdür.

Öz sosial təyinatına, mahiyyətinə və funksiyalarına görə, ümumi hüquqi prinsiplərə əsaslanan yurisdiksiya dövlət fəaliyyətinin müstəqil növü kimi aşağıdakı növlərə bölünür: cinayət-hüquqi, mülki-hüquqi, inzibati, intizam və iqtisadi.

İnzibati yurisdiksiya dövlət idarəetmə orqanının və vəzifəli şəxslərin fərdi inzibati işlərin həll edilməsi və müvafiq hüquqi sanksiyaların inzibati qaydada (məhkəməyə müraciət etmədən) tətbiq edilməsi üzrə qanunvericilik aktları ilə müəyyən edilmiş fəaliyyətdir.

İnzibati yurisdiksiyanın dövlət hakimiyyətli fəaliyyət kimi mahiyyəti qanunun hüquqi mübahisələrə tətbiq edilməsi və onlara dair hüquqi aktların qəbul edilməsindən ibarətdir, yəni həyata keçirmə formasına görə hüquq tətbiqetmə fəaliyyətdir. Həqiqətən, bütün bu fəaliyyət mübahisənin həll edilməsinə yönəlmişdir. Onu həll etmək

üçün işdə mövcud olan bütün sübutları və işin bütün hallarını təhlil etmək lazımdır. Mübahisə məhz ona görə hüquqi adlanır ki, tərəflər qanunla nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini yerinə yetirmirlər, yaxud lazımi qaydada yerinə yetirmirlər. Qanun məhz bu növ mübahisələrin həll edilməsi üzrə səlahiyyəti dövlət orqanlarının xüsusi fəaliyyətini şərtləndirir. Bu fəaliyyət qanunla tənzimlənir və qanuna əsaslanır.

Beləliklə, bu fəaliyyətin xarakteri və onun məqsədi göstərir ki, inzibati-yurisdiksiya fəaliyyəti hüquq tətbiqetmə fəaliyyətidir.

İnzibati yurisdiksiya fəaliyyətin mahiyyəti yeni hüquqi normaların yaradılmasında yox, mövcud olan normaların hüquqi mübahisələrə tətbiq edilməsidir.

Hüquqi mübahisənin mahiyyətini təhlil edəndən sonra onu həll etmək olar, o cümlədən, inzibati xəta haqqında işi də. Deməli, inzibati-yurisdiksiya fəaliyyətinin məqsədi hüquqi mübahisənin həll edilməsidirsə, onda bu fəaliyyətin əsas məqsədi inzibat xəta haqqında işi mahiyyət etibarı ilə təhlili və baxılmasıdır. Elə bu məqsədlə də inzibati-yurisdiksiya fəaliyyətini həyata keçirən orqanların fəaliyyəti də hərtərəfli və dəqiqliklə qanunvericiliklə tənzimlənir.

Beləliklə, inzibati yurisdiksiya – dövlət fəaliyyətinin müstəqil növü kimi qanunqüvvəli, hüquq tətbiqeetmə və hüquq-mühafizəetmə fəaliyyətidir.

İnzibati yurisdiksiyanın xüsusiyyətlərinə aşağıdakılar aiddir:

1) İnzibati yurisdiksiyanın əsası dövlət idarəetmə sahəsində inzibati-hüquqi normalarla nizamlanan idarəçilik xarakterli ictimai münasibətlərin işirakçıları arasında yaranan spesifik mübahisələrdir. Bunlar inzibati hüquqlar barəsində mübahisələr, yaxud inzibati-hüquqi mübahisələrdir. İnzibati-hüquqi mübahisələr aşağıdakı hallarda baş verə bilərlər:

- idarə edən tərəfin təşəbbüsü ilə (vətəndaşın inzibati məsuliyyətə cəlb olunması barədə məsələ qaldırıldıqda;

- icra hakimiyyəti subyektinin təsirinə məruz qalan idarəedilən tərəfin təşəbbüsü ilə;

- müxtəlif idarəetmə subyetkləri arasında (eyni və ya müxtəlif səviyyəli icra orqanları arasında);

- xüsusi hüquq mühafizə orqanlarının təşəbbüsü ilə (prokurorların protesti əsasında).

2) İnzibati-hüquqi mübahisələrin əsasını (bu mübahisələrin həll edilməsi prosesində mübahisə edən tərəflərin davranışı (hərəkətləri) hüquqi cəhətdən qiymətləndirilir) fərdi inzibati işlər təşkil edir. İnzibati yurisdiksiyanın məzmununu hər bir işin baxılması yox, yalnız mübahisəli işlərin baxılması təşkil edir (məsələn, inzibati xəta haqqında işə baxılması, vətəndaşların şikayətlərinə baxılması).

3) İnzibati-hüquqi mübahisələrin həlli müəyyən qaydanın mövcudluğunu nəzərdə tutur, yəni fərdi işlərə baxılmasında rəhbər tutulan qaydalar.

4) İnzibati yurisdiksiyanın hüquqi təzimlənməsi yurisdiksiyaya hüquqi xarakter verir və onun çərçivəsində xüsusi növ hüquqi münasibətlərin yaranması üçün əsas yaradır. Bunlar inzibati-prosessual münasibətlərdir və bu münasibətlərdə praktiki olaraq inzibati hüququn maddi normaları həyata keçirilir.

5) İnzibati yurisdiksiya prosessual kateqoriya kimi, son nəticədə dövlət idarəetmə sahəsində sabit hüquq qaydasının təmin edilməsi məqsədlərinə xidmət edir.

6) Ədalət mühakiməsindən fərqli olaraq, inzibati yurisdiksiya subyektlərin çoxluğu ilə xarakterizə edilir, bu isə dövlət idarəetməsinin müxtəlif sahələrində olan ictimai münasibətlərin çevik olaraq hüquqi müdafiəsini təmin edir. Lakin bir çox hallarda o, məhkəmə yolu ilə həyata keçirilə bilər.

7) İnzibati yurisdiksiyanın hüquqi nəticəsi müvafiq birtərəfli və hakimiyyət xarakterli təsirdən ibarətdir, bu təsirin son nəticəsi ya mübahisənin obyekti olan fərdi inzibati-hüquqi aktın taleyi, yaxud müxtəlif şəxslərin, (təşkilatların) davranışlarının qanunsuzluğu və ya qanuniliyi, ya da dövlət idarəetmə sahəsində hüquq qaydasının bərpası və müdafiəsi naminə müvafiq məcburetmə tədbirlərin tətbiq edilməsinin zəruriyyəti barədə məsələnin həllidir.

8) İnzibati yurisdiksiya dövlət idarəetmə sahəsində hüquq mühafizə və sabit hüquq qaydasının təmin edilməsi məqsədlərinə xidmət edir.

İnzibati yurisdiksiya fərdi inzibati işlərin xarakterindən asılı olaraq müəyyən ifadə formalarına malik olmalıdır. Bu işlərin hər birinin özünəməxsus xüsusiyyətləri vardır, onlar konkret təyinatına görə, təşkilati-hüquqi formalarına və subyektlərinə görə fərqlənirlər.

Bunun əsasında inzibati icraatın anlayışı formalaşır, bu isə səlahiyyətli subyektlərin fərdi inzibati işlərin baxılması və həll edilməsi üzrə hüquq normaları ilə tənzimlənmiş fəaliyyət deməkdir.

İnzibati icraatların məcmusu inzibati yurisdiksiyanın əsaslı xarakteristikasıdır. İcraatların işlərinin fərqləndirilməsi, həm subyektlərin hüquqi səlahiyyətlərinə görə, həm də predmet (obyekt) üzrə aparılır. Azərbaycan Respublikasının inzibati qanunvericiliyinin və mövcud olan inzibati-prosessual normaların təhlili inzibati icratların aşağıdakı növlərini göstərmək olar:

- inzibati xəta haqqında iş üzrə icraat;

- intizam icraatı;

- şikayətlərin baxılması üzrə icraat.

Bu mənada inzibati yurisdiksiyanı yalnız yuxarıda göstərilən xüsusiyyətlər xarakterizə etmir. İnzibati yurisdiksiyanın xarakteristikasında onun yerinə yetirdiyi funksiyalar və habelə onun həyata keçirilməsinin əsasını təşkil edən prinsiplər mühüm rol oynayırlar.

İnzibati yurisdiksiyanın funksiyaları onun hüquq tətbiqetmə fəaliyyətinə məxsusluğu ilə əlaqədardır.

<u>Mühafizəetmə funksiyası</u> hüquq pozuntuları haqqında işlərin baxılması zamanı həyata keçirilir. Bu icraatın yurisdiksiya normaları və onların maddi məzmunu, inzibati məsuliyyət haqqında inzibati-hüquqi normalardır, onlar: Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən, inzibati xətaların qarşısını almaqdan ibarətdir. Eyni zamanda onlar inzibati xəta törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə inzibati xəta törətmiş şəxs, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq məqsədini daşıyırlar.

Mühafizə etmə funksiyası həmçinin inzibati tənbehlərin tətbiqini və inzibati yurisdiksiya orqanlarının inzibati xətaların törədilməsinə kömək edən səbəblərin və şəraitin aradan qaldırılması üzrə fəaliyyətlərində də özünü biruzə verir.

<u>Tərbiyə etmə funksiyası</u> hüququn və əxlaqın qarşılıqlı əlaqəsindən irəli gəlir. Proses mənəvi idealların formalaşması vəzifəsinə tabedir. Bu barədə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 22-ci maddəsində göstərilib: ″İnzibati tənbeh məsuliyyət tədbiridir və inzibati xəta törədən, şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq məqsədi daşıyır″ və elə bu da tərbiyəçi funksiyasının tərkib hissəsidir. Bu funksiya insanları qanunlara əməl etmələri ruhunda tərbiyə edir.

Tədqiq olunan sahədə təsiretmənin əsas vasitəsi iş üzrə qəbul edilmiş qərarın özüdür. Ona görə qəbul edilmiş qərarın həm hüquq normalarına tam uyğunluğu, həm də onun ədalətliliyi əhəmiyyətli şərtdir. İnzibati - yurisdiksiya prosesinin mədəniyyəti, onun düzgün və dəqiq təşkili əsaslı olaraq dövlətimizdə qanunçuluğu bərqərar edən amil kimi qiymətləndirilir.

<u>Tənzimləyici funksiya</u>. İnzibati yurisdiksiya vasitəsilə normativ (fərdi) tənzimləmə həyata keçirilir. Tənzimləyici funksiyaları o normativ göstərişlər vasitəsi ilə hüquq subyektlərinin real hərəkətlərinə aid etməklə yerinə yetirir. Buna görə tənzimləyici funksiya inzibati yurisdiksiyanın idarəçilik aspektini əks etdirir.

İnzibati yurisdiksiya idarə edilən obyektin davranışını maddi hüquq normalar vasitəsilə müəyyən edilmiş davranışa uyğunluğunu əldə etmək üçün obyektin davranışını tənzimləməlidir.

İnzibati yurisdiksiyanın və inzibati-prosessual fəaliyyətin inzibati prosesin tərkib hissəsi olduğuna əsaslanaraq, hesab etmək olar ki, bu fəaliyyət növlərinin prinsipləri ümumi və hissə kimi qarşılıqlı əlaqədədirlər.

Bunun əsasında qeyd etmək olar ki, inzibati yurisdiksiyanın prinsipləri inzibati prosesin prinsiplərinə oxşar olurlar. Beləliklə, inzibati yurisdiksiyanın prinsiplərinə aşağıdakılar aiddir.

<u>1) Qanunçuluğun təmin edilməsi prinsipi.</u>

İnzibati yurisdiksiyaya aid edildikdə, o nəinki qanunların və qanunqüvvəli aktların səlahiyyətli orqan (vəzifəli şəxslər) tərəfindən, həmçinin vətəndaşlar tərəfindən dəqiq və ciddi surətdə yerinə yetirilməsində, habelə bu aktların lazımi surətdə tətbiq edilməsindən ibarətdir, çünki yurisdiksiya fəaliyyəti hüquq tətbiqetmə fəaliyyətidir. Göstərilmiş prinsip qanunvericiliklə müəyyən edilmiş orqanların və vəzifəli şəxslərin dairəsinin müəyyənləşdirilməsində və onlara inzibati yurisdiksiya səlahiyyətlərini həyata keçirmək hüququnun verilməsində öz əksini tapır. Bununla yanaşı, qanunvericiliklə hər bir orqanın baxmağa səlahiyyəti olan işlərin dairəsi də müəyyənləşdirilir.

Müvafiq olaraq hər bir orqan (vəzifəli şəxs) nəzarəti ona törədilmiş qaydalarının pozulmasına görə inzibati-yurisdiksiya fəaliyyətini öz səlahiyyətləri çərçivəsində və xidməti vəzifələrin icrası zaman həyata keçirə bilər.

İnzibati yurisdiksiyanın həyata keçirilməsi qaydası da qanunvericiliklə tənzimlənir.

<u>2) Maddi həqiqət prinsipi;</u>

3) aşkarlıq prinsipi;

4) prosesin qənaətliliyi prinsipi;

5) inzibati xəta haqqında işlərin baxılması zamanı müstəqillik prinsipi. İnzibati xətalar haqqında işlərin baxılması müstəqilliyi nəzərdə tutur, yəni işin baxılması üzrə öz vəzifələrini bu və ya digər dövlət orqanına verilməsini və habelə yuxarı orqanların aşağı orqanların qərarın qəbul edilməsi prosesinə müdaxilə etməməsini nəzərdə tutur.

6) inzibati yurisdiksiyanın dövlət dilində, yaxud yerli əhalinin dilində həyata keçirilməsi prinsipi.

Birinci sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki:

1. İnzibati proses icra hakimiyyəti sahəsində qanunçuluğun təmin olunması və hüquqi qaydaların möhkəmləndirilməsi məqsədilə müəyyən fərdi işlərin həll edilməsinin qanunvericiliklə tənzimlənmiş qaydadır.

2. İnzibati prosesin əsas prinsiplərinə aiddir:

- qanunçuluq prinsipi;
- maddi həqiqət prinsipi;
- aşkarlıq prinsipi;
- tərəflərin bərabərliyi prinisipi;
- prosesin yerli əhalinin dilində aparılması prinsipi;
- qənaətlik və effektivlik prinsipi;
- prosesin lazımi qaydada aparılması və işin düzgün həll olunmasına görə məsuliyyət prinsipi.

3. İnzibati prosesin subyektlərinə aiddir:
- Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;
- dövlət orqanları;
- idarə, müəssisə və təşkilatlar;
- qeyri-hökumət təşkilatları;
- dövlət qulluqçuları;
- qeyri-hökumət təşkilatlarının qulluqçuları və onların nümayəndələri.

4. İnzibati-prosessual fəaliyyət dedikdə, inzibati-prosessual fəaliyyəti xüsusi səlahiyyətli dövlət orqanlarının və onların vəzifəli şəxslərinin dövlət idarəetmə prosesində həyata keçirilən və inzibati-prosedur və ya inzibati-yurisdiksiya formasında ifadə olunan hüquqyaratma, hüquq tətbiqetmə və hüquq mühafizə fəaliyyəti kimi müəyyənləşdirmək olar.

5. İnzibati prosesin əsasını təşkil edən inzibati-prosessual fəaliyyətin iki əsas ifadə forması var:
- inzibati prosedura;
- inzibati yurisdiksiya.

6. İnzibati-prosessual fəaliyyətin aşağıdakı prinsipləri mövcuddur:
- qanunçuluq;
- səlahiyyətlilik;
- tərəflərin prosessual bərabərliyi;
- dövlətin və şəxsiyyətin mənafelərinin qorunması;
- maddi (obyektiv) həqiqətin əldə edilməsi;
- mümkünlüyü;
- aşkarlıq;
- qənaətlik;
- çəkişmə.

Sual 2.
İnzibati xətalar haqqında işlər üzrə icraatın anlayışı, vəzifələri
və prinsipləri

Qeyd etdiyimiz kimi, inzibati icraatın aşağıdakı dörd növü mövcuddur:
1) vətəndaşların təklif, ərizə və şikayətləri üzrə icraat;
2) təltif (mükafatlandırma) işləri üzrə icraat;
3) intizam xətaları haqqında işlər üzrə icraat;

4) inzibati xətalar haqqında işlər üzrə icraat.

Adları çəkilən inzibati icraat növləri içərisində daha geniş istifadə olunan ″İnzibati xətalar haqqında işlər üzrə icraatdır″. İcraatın bu növü digərləri ilə müqayisədə inzibati hüququn maddi və prosessual normaları ilə daha geniş formada nizamlanır.

″İnzibati xətalar haqqında işlər üzrə icraatın″ hüquqi əsasları 01 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmişdir.

Mövzunun açıqlanması üçün öncə ″icraatın″ özü barədə anlayışın əldə edilməsi məqsədəuyğundur.

″İcraat″ müəyyən qrup işlərin həll edilməsi qaydasının qanunla nizamlanan və prosessual fəaliyyətlə həyata keçirilən xüsusi növüdür.

İnzibati xətalar haqqında işlər üzrə icraat inzibati xətalar haqqında işlərin baxılması və zəruri hallarda inzibati tənbehlərin tətbiq edilməsinə yönəldilmiş, dövlət orqanlarının və onların vəzifəli şəxslərinin inzibati-prosessual normalarla nizamlanan fəaliyyətidir.

<u>İnzibati xətalar haqqında işlər üzrə</u> icraatda həyata keçirilən prosessual hərəkətlərin həcmindən və onların həyata keçirilmə vaxtından asılı olaraq <u>icraatın aşağıdakı üç növünü göstərmək olar</u>:

1. Sürətləndirilmiş icraat. Bu icraat növündə inzibati cərimə inzibati xətanın törədildiyi yerdə tətbiq edilir və alınır.

Məsələn: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 412-ci maddəsinə əsasən törədilmiş inzibati xətaya görə inzibati tənbeh növü kimi xəbərdarlıq tətbiq edildikdə və ya inzibati cərimənin miqdarı şərti maliyyə vahidinin məbləğinin səkkiz mislindən (8.8 manat) artıq olmadıqda, inzibati xəta haqqında protokol tərtib edilmədən səlahiyyətli vəzifəli şəxs tərəfindən inzibati xəta törədilən yerdə inzibati cərimə alınır və ya xəbərdarlıq rəsmiləşdirilir.

İcraatın belə forması sürətləndirilmiş icraat adlandırılır. Yəni burada inzibati xətanın aşkar edilməsi, törədilmiş xəta ilə əlaqədar aparılan araşdırma və inzibati tənbehin tətbiqi, edəcədə tətbiq edilmiş tənbehin icrası inzibati xəta törədilən yerdə həyata keçirilir. Lakin bu hal ümumi xarakter daşımır. Çünki, bəzən törədilmiş inzibati xətaya görə inzibati cərimənin miqdarı şərti maliyyə vahidinin məbləğinin səkkiz mislindən artıq olur və ya barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs inzibati xəta hadisəsinin mövcudluğu ilə və ya tətbiq edilən tənbeh növü ilə razılaşmadıqda, yaxud inzibati xəta törədilən yerdə inzibati cəriməni ödəməkdən imtina etdikdə inzibati xəta haqqında protokol tərtib edilir. Belə hallarda isə icraat ümumi (adi) formada, yəni icraatın ikinci formasında həyata keçirilir.

2. Adi icraat növündə icraatın bütün mərhələləri mövcud olur. Onlar aşagıdakılardı:

- birinci mərhələ, iş üzrə icraata başlama mərhələsi;
- ikinci mərhələ, işin baxılması mərhələsi;
- üçüncü mərhələ, iş üzrə qərarların yenidən baxılması mərhələsi;
- dördüncü mərhələ, iş üzrə qərarların icrası.

3. Xüsusi icraat digər icraat növlərindən bir sıra prosessual hərəkətlərin inzibati xətalar qanunvericiliyi ilə müəyyən edilmiş müddətdə və qaydada yerinə yetirilməsinə görə fərqlənir.

Bu fərqlərə aşağıdakıları aid etmək olar:

- inzibati xətaya görə inzibati həbsin tətbiqinin mümkünlüyü;

- inzibati həbs nəzərdə tutan inzibati xəta haqqında protokolun tərtib edildikdən sonra dərhal baxılması üçün göndərilməsi (İXM-nin 414.2-ci maddəsi);

- inzibati xəta haqqında işin xüsusi müddətdə (1 gün) baxılması (İXM-nin 422.3-cü mad.);

- inzibati qaydad tutulan şəxslər barəsində və onların tutuldugu vaxtdan ən geci 48 saat keçənədək baxılır (İXM-nin 422.3ci maddəsi);

- inzibati həbs nəzərdə tutan inzibati xəta haqqında qərardan şikayətin verilmə müddəti (İXM-nin 431.3 mad.).

Bu növ icraat adətən İXM-nin 69, 296, 310 və s. maddələrdə göstərilən inzibati xətalar haqqında aparılır.

İcraatın hüquqi nizamlanması

Hüquq nəzəriyyəsində hüquq normaların maddi və prosessual normalara bölünməsi qəbul edilmişdir. Maddi hüquq normaları subyektlərin hüquqi vəziyyətini, hüquq və vəzifələrini möhkəmləndirir. Prosessual normalar isə fəaliyyəti nizamlayır, yəni necə hərəkət etməni, hüquq və vəzifələri hansı qaydada həyata keçirməni müəyyən edir.

İnzibati məsuliyyət institutu müxtəlif növ dövlət-məcburetmə təsir tədbirlərinin müəyyən edilməsi və tətbiq edliməsi ilə bağlı olan kompleks məsələləri nizamlayan böyük sayda hüquqi normaların məcmusundan ibarətdir.

İnzibati məsuliyyət institutunun böyük hissəsini maddi normalar təşkil edir. Maddi normalar inzibati xətaların sistemini, inzibati tənbehlərin növlərini, inzibati məsuliyyətin prinsiplərini müəyyən edir və digər məsələləri nizamlayır.

İnzibati-prosessual normalar müvafiq maddi normaların reallaşdırılması qaydasını, onların tətbiq edilməsi prosedurasını, inzibati tənbehlərin köməkliyi ilə təqsirkar şəxslərə qarşı məcburetmə təsir tədbirlərinin həyata keçirilməsi prosesini müəyyən edir. Başqa sözlə desək, inzibati-prosessual normalar inzibati xətalar haqqında işlər üzrə icraatı tənzimləyir. İnzibati-prosessual normaların vasitəsi ilə inzibati xətalar haqqında işlər üzrə icraat dövlət idarəetmə prinsiplərinə və inzibati xətalar qanunvericiliyinin prinsiplərinə müvafiq olaraq həyata keçirilir.

Məlum olduğu kimi hüquq sisteminə daxil olan sahələr arasında cinayət və cinayət prosessual sahələri xüsusi yer tutur və müvafiq olaraq Cinayət Məcəlləsi və Cinayət Prosessual Məcəlləsi ilə tənzim olunurlar. Bunlarla yanaşı dövlətimizin hüquq sistemində digər sahələrdə öz əksini tapmışdır. Bu sahələr arasında mülki münasibətlər də xüsusi yer tutur və müvafiq olaraq maddi normalar əsasında Mülki Məcəllə ilə nizama salınır. Mülki Məcəllə ilə müəyyən olunmuş təzahürlərin həyatda reallaşdırması üçün qanunvericilik tərəfindən müvafiq şəkildə prosessual normalar Mülki Prosessual Məcəllədə də yaradılmışdır.

Lakin inzibati hüquq normaları ilə mühafizə olunan ictimai münasibətlərin pozulması ilə başlanmalı olan icraatın həyata keçirilməsi üçün müstəqil qanunvericilik aktı qəbul olunmamışdır. Bütün bunlar inzibati hüquqda həm maddi, həm də prosessual normaların olmasından irəli gəlir. Söylənən fikirlər öz əksini 01 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində tapmışdır. Bu Məcəllə 6 bölmədən, 35 fəsildən və 458 maddədən ibarətdir. Məcəllənin I-III bölmələrində, yəni 1-361 maddələri ilə adı çəkilən qanuvericiliyin sistemi, vəzifələri və prinsipləri, inzibati xəta və inzibati məsuliyyət, inzibati məsuliyyəti istisna edən hallar, inzibati tənbehlər və onların tətbiqi qaydaları müəyyən olunmuş (maddiləşmiş), IV-VI bölmələrində, yəni 362-458-ci maddələrində isə inzibati xətalar haqqında işlər üzrə icraatı nizamlayan prosessual normalar öz əksini tapmışdırlar.

Qeyd olunandan aydın olur ki, inzibati xətalar haqqında işlər üzrə icraat, yalnız inzibati xətalar haqqında qanunvericiliyin normaları ilə həyata keçirilir.

Azərbaycan Respublikasının İXM-nin 1-ci maddəsinə əsasən: ″1.1. Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi bu Məcəllədən ibarətdir.

1.2. Bu Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, hamılıqla qəbul edilmiş beynəlxalq hüququn normalarına və prinsiplərinə əsaslanır.

1.3. İnzibati məsuliyyət müəyyən edən və inzibati xətalar törətmiş şəxsin tənbeh edilməsini nəzərdə tutan qanunlar yalnız İXM daxil olduqdan sonra tətbiq edilir.

Göründüyü kimi inzibati xətalar haqqında işlər üzrə icraatın hüquqi nizamlanmasının əsasını Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi təşkil edir.

İcraatın vəzifələri və prinsipləri

Azərbaycan Respublikasının İXM-nin 362-ci maddəsinə əsasən inzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələri müəyyən edilmişdir.

İnzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələri aşağıdakılardır:

- şəxslərin hüquqlarını və azadlıqlarını, onların qanuni mənafelərini qorumaq;

- inzibati xəta haqqında hər bir işin hallarını vaxtında, hərtərəfli, tam və obyektiv surətdə araşdırmaq;

- inzibati xəta törətmiş şəxsi aşkar etməkdən və onu inzibati məsuliyyətə cəlb etmək;

- çıxarılmış qərarın icrasını təmin etmək;

- inzibati xətanın törədilməsinə kömək edən səbəbləri və şəraiti aşkar etmək;

- inzibati xətaların qarşısını almaq.

İnzibati xətalar haqqında işlər üzrə icraatın həyata keçirilməsi zamanı İXM-in 4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar qanunvericiliyinin prinsipləri və inzibati xətalar haqqında işlər üzrə icraatın əsas prinsipləri rəhbər tutulur.

Bunlar aşağıdakılardır:

- insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi (İXM-nin 5-ci maddəsi);

- qanunçuluq (İXM-nin 6-cı maddəsi);

- qanun qarşısında bərabərlik (İXM-nin 7-ci maddəsi);

- təqsirsizlik prezumpsiyası (İXM-nin 8-ci maddəsi);

- ədalətlilik (İXM-nin 9-cu maddəsi);

- inzibati xətaların qarşısının alınması (İXM-nin 10-cu maddəsi);

- inzibati xətalar haqqında işlər üzrə icraatın aparıldığı dil (İXM-nin 363-cü maddəsi);

- inzibati xətalar haqqında işlərə açıq baxılması (İXM-nin 364-cü maddəsi);

- inzibati xəta haqqında iş üzrə məlumatların yayılmasının yolverilməzliyi (İXM-nin 365-ci maddəsi);

- icraat iştirakçılarının müdafiə hüquqlarının təmin edilməsi (İXM-nin 371-384-cü maddələri);

- icraatda vəkilin iştirakının məcburiliyi (İXM-nin 376-cı maddəsi);

- icraatın operativliyi (İXM-nin 36.1 və 422-ci maddəsi);

- iş üzrə obyektiv həqiqətin müəyyən edilməsi (İXM-nin 385-ci maddəsi).

<u>İnsan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipi</u> Azərbaycan Respublikasının İXM-nin 5.1-5.3-cü maddələrinə əsasən:

″5.1. insan və vətəndaş hüquqları və azadlıqları ali dəyərə malikdir. Bu hüquqların və azadlıqların pozulmasına yol verən bütün dövlət orqanları (vəzifəli şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

5.2. İXM insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət orqanları (vəzifəli şəxslər) tərəfindən pozulmasının qarşısının alınmasını və onlara hörmət olunmasını təmin edir.

5.3. İnzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirləri tətbiq edilərkən insan ləyaqətini alçaldan qərarların verilməsinə və hərəkət edilməsinə yol verilmir.

İXM-nin 5-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi barədə öz əksini tapmış müddəa öz mənbəyini Azərbaycan Respublikası Konstitusiyasının 12, 24, 26, 31, 46 və 71-ci maddələrindən götürmüşdür.

<u>Qanunçuluq prinsipi</u> Azərbaycan Respublikasının İXM-nin 6-cı maddələrinə əsasən:

″6.1. inzibati xətalara görə inzibati tənbeh İXM-nə uyğun olaraq tətbiq edilir.

6.2. İnzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirləri tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə və şikayət etmək hüququ ilə təmin edilir.

6.3. Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqinə yol verilmir″.

İXM-in 6-cı maddəsində qanunçuluğun təmin edilməsi barədə müəyyən olunmuş əsas müddəa öz mənbəyini Azərbaycan Respublikası Konstitusiyasının 26, 60-61, 71 və 79-cu maddələrindən götürmüşdür. Digər tərəfdən isə İXM-in 6-cı maddəsində nəzərdə tutulmuş əsas müddəaların həyata keçirilməsinin təmin edilməsinə nəzarət ″Məhkəmələr və hakimlər haqqında″ Azərbaycan Respublikasının 10 iyun 1997-ci il ″Polis haqqında″ Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il və ″Prokurorluq haqqında″ Azərbaycan Respublikasının 24 dekabr 1999-cu il tarixli Qanunları ilə həyata keçirilir.

<u>Qanun qarşısında bərabərlik prinsipi</u> Azərbaycan Respublikasının İXM-nin 7-ci maddəsinə əsasən tətbiq edilir:

″7.1. İnzibati xəta törətmiş şəxslər irqindən, milliyyətindən, dinindən, dilindən, mənşəyindən, cinsindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabərdirlər və inzibati məsuliyyətə cəlb olunurlar.

7.2. Hüquqi şəxslər mülkiyyət formasından, olduqları yerdən, təşkilati-hüquqi formalarından və tabeçiliyindən asılı olmayaraq inzibati məsuliyyətə cəlb olunurlar.

İXM-in 7-ci maddəsi ilə müəyyən olunmuş qanun qarşısında bərabərlik prinsipi öz mənbəyini Azərbaycan Respublikası Konstitusiyasının 25, 60-61 maddələrindən götürmüşdür.

<u>Təqsirsizlik prezumpsiyası prinsipi</u> Azərbaycan Respublikasının 8-ci maddəsinə əsasən tətbiq edilir:

″8.1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin təqsiri İXM ilə nəzərdə tutulmuş qaydada sübuta yetmədikdə və bu, inzibat xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı ilə müəyyən edilmədikdə o, təqsiri olmayan hesab edilir.

8.2. İnzibati məsuliyyətə cəlb olunmuş şəxs öz təqsirsizlyini sübut etməyə borclu deyildir.

8.3. İnzibati məsuliyyətə cəlb olunan şəxsin təqsirli olması barəsində olan şübhələr onun xeyrinə həll olunur″.

İXM-in 8-ci maddəsində təsbit olunan təqsirsizlik prezumpsiyası prinsipi öz başlangıcını Azərbaycan Respublikası Konstituyasının 63-cü ″təqsirsizlik prezumpsiyası″ maddəsindən götürmüşdür.

<u>Ədalətlilik prinsipi</u> Azərbaycan Respublikasının İXM-nin 9-cu maddəsinə əsasən tətbiq edilir:

″9.1. İnzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalıdır, yəni inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına uyğun, qanuni və əsaslı olmalıdır.

9.2. Bir inzibati xətaya görə heç kəs iki dəfə inzibati məsuliyyətə cəlb oluna bilməz″.

<u>İnzibati xətaların qarşısının alınması prinsipi</u> Azərbaycan Respublikasının İXM-nin 10-cu maddəsinə əsasən tətbiq edilir. Bu maddədə deyilir:

″Dövlət hakimiyyəti və ya yerli özünüidarəetmə orqanları, inzibati xətaların qarşısının alınması, inzibati xətaların törədilməsinə kömək edən səbəblərin və şəraitin aşkar edilməsi və aradan qaldırılması vətəndaşların şüurunun və mədəniyyətinin yüksəldilməsinə, Azərbaycan Respublikasının qanunlaraına ciddi əməl etmək ruhunda tərbiyə olunması sahəsində tədbirlər hazırlayırlar və həyata keçirirlər.

Azərbaycan Respublikasının İXM-nin 363-ci maddəsinə əsasən:

″363.1. Azərbaycan Respublikasında inzibati xətalar haqqında işlər üzrə icraat Azərbaycan dilində, yaxud müəyyən ərazidəki əhalinin çoxluq təşkil edən hissəsinin dilində aparılır.

363.2. İşdə iştirak edən, inzibati xətalar haqqında işlər üzrə icraatın aparıldığı dili bilməyən şəxslər ana dilində və ya bildiyi hər hansı başqa dildə məlumatlar,

izahatlar, şikayət və ya vəsatət vermək hüququ ilə, habelə bu Məcəllə ilə müəyyən edilmiş qaydada tərcüməçinin xidmətlərindən istifadə etmək hüququ ilə təmin olunur″.

<u>İnzibati xətalar haqqında işlərə açıq baxılması prinsipi</u> Azərbaycan Respublikasının İXM-nin 364-cü maddəsinə əsasən tətbiq edilir. Həmin maddədə deyilir:

″364.1. Dövlət, qulluq, kommersiya sirlərinin və qanunvericiliklə qorunan digər sirlərin yayılmasına gətirib çıxara bilən hallar istisna olmaqla, inzibati xətalar haqqında işlərə açıq baxılır.

364.2. İnzibati xətalar haqqında işlərin qapalı baxılmasına zərurət olduğu halda bu barədə qərardad qəbul edilir″.

<u>İnzibati xəta haqqında iş üzrə məlumatların yayılmasının yolverilməzliyi prinsipi</u> Azərbaycan Respublikasının İXM-nin 365-ci maddəsinə əsasən tətbiq edilir: ″İnzibati xəta haqqında iş üzrə məlumatlar yalnız icraatında inzibati xəta haqqında iş olan hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin), belə məlumatlar zərərçəkmiş şəxsin şəxsi maraqlarına toxunduqda isə, habelə zərərçəkmiş şəxsin icazəsi ilə və onların mmkün hesab etdiyi həcmdə elan oluna bilər″.

<u>İcraat iştirakçılarının hüquqlarının təmin edilməsi prinsipi.</u> Bu prinsipin məqsədi və məzmunu icraatın bütün iştirakçılarının inzibati xətalar qanunvericiliyi ilə nəzərdə tutulmuş hüquqlarının təmin edilməsindən ibarətdir. İnzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçılarının hüquqları İXM-nin 371-384-cü maddələrinə müvafiq olaraq təmin edilir. Məsələn, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin hüquqları (İXM, m.371); zərərçəkmiş şəxsin hüquqları (İXM, m.372), fiziki şəxsin qanuni nümayəndəsinin hüquları (İXM, m.373); hüquqi şəxsin nümayəndəsinin hüquqları (İXM, m.374); müdafiəçi və nümayəndənin hüquqları (İXM, m.375) və s.

<u>İcraatda vəkilin iştirakının məcburiliyi prinsipi</u>. İXM-nin 376-cı maddəsinə əsasən icraatda vəkilin iştirakının məcburi olması halları nəzərdə tutulmuşdur. İXM-nin 376.1-ci maddəsinə əsasən:

″376.1. İnzibati qaydada tutulan yetkinlik yaşına çatmayanların, icraatın aparıldığı dili bilməyənlərin lal, kar, kor, fiziki və ya psixi qüsurları üzündən özlərinin müdafiə hüququnu həyata keçirə bilməyən digər şəxslərin işlərində vəkilin iştirakı məcburidir.

Göstərilən hallarda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin müdafiəçidən imtinası qəbul olunmur″.

<u>İcraatın operativliyi prinsipi.</u> İcraatın operativliyi prinsipinin məzmunu inzibati xəta haqqında iş üzrə icraatın qanunvericiliklə müəyyən edilmiş müddətlərdə həyata keçirilməsindən ibarətdir. Məsələn: İXM-nin 422.3-cü maddəsinə əsasən inzibati həbs növü nəzərdə tutan inzibati xətalar haqqında işlərə inzibati xəta haqqında protokol daxil olduğu gün, inzibati qaydada tutulan şəxslər barəsində isə onların tutulduğu vaxtdan ən geci 48 saat keçənədək baxılır. İXM-nin 422.1-ci maddəsinə əsasən isə inzibati xətalar haqqında materialların baxılması üçün ümumi müddət təyin edilmişdir, yəni inzibati xətalar haqqında materialların alındığı vaxtdan 15 (on beş) gün müddətində baxılması müddəti müəyyən edilmişdir. Bu da ki, öz növbəsində bu kimi işlərin çevik baxılmasına xidmət edir.

<u>İş üzrə obyektiv həqiqətin müəyyən edilməsi prinsipi.</u> Vəzifəli şəxslər inzibati xətalar haqqında işlərin tədqiqatını aparan və işə baxan zaman iş üzrə bütün halları və

onların qarşılıqlı əlaqələrini araşdırılmalı, onların həqiqətən mövcud olmalarını müəyyən etməli və bununla da icraatın bir tərəfli aparılmasını aradan qaldırmalı və iş üzrə əsaslı qərar qəbul edilməsini təmin etməlidir. Burada İXM-nin 385-394-cü maddələri rəhbər tutulur.

İnzibati xətalar haqqında işlər üzrə icraatın bütün prinsipləri bir-biri ilə bağlıdır və onlar vahid formada həyata keçirilməklə, icraatın ahəngdar sistemini təşkil edirlər.

Məhz bu səbəblərdən də asılı olaraq icraat prosesində aşkarlıq prinsipi naminə maddi həqiqət prinsipini, operativlik prinsip naminə isə qanunçuluq prinsipini pozmaq yol verilməzdir. Yalnız icraatın bütün prinsiplərinin ardıcıllıqla həyata keçirilməsi ilə icraatın məqsədinə və onun qanun çərçivəsində həyata keçirilməsinə nail olmaq mümkündür.

İnzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələrinin tam, vaxtında və səmərəli yerinə yetirilməsinin təmin edilməsi və icraatda qanunçuluğun təmin edilməsi məqsədi ilə icraat iştirakçıları tərəfindən müəyyən vəsatətlər də qaldırıla bilər. Bu vəsatətlərə aşagıdakıları misal göstərmək olar: İXM-in 366-cı maddəsinə əsasən:

″366.1. İnzibati xətalar haqqında işlər üzrə icraatda iştirak edən şəxslər icraatında həmin işlər olan hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) baxılması məcburi sayılan vəsatət vermək hüququna malikdirlər.

366.2. Vəsatət yazılı formada verilir və o, dərhal baxılmalıdır. Vəsatətin təmin olunmasından imtina edildikdə bu haqda qərardad qəbul edilir″.

İnzibati xətalar haqqında işlər üzrə icraat prosesində elə hallar ola bilər ki, həmin halların mövcudluğunda icraata başlanıla bilməz, başlanmış icraata isə xitam verilir. Bu hallar İXM-nin 367-ci maddəsinə əsasən aşağıdakılardır:

- inzibati xəta hadisəsi olmadıqda;

- inzibati xəta tərkibi olmadıqda;

- şəxs son zərurət vəziyyətində hərəkət etdikdə;

- şəxs zəruri müdafiə vəziyyətində hərəkət etdikdə;

- inzibati məsuliyyət müəyyən edən normativ hüquqi akt ləğv olunduqda;

- inzibati xəta haqqında işə baxılan vaxt İXM-nin 36-cı maddəsində nəzərdə tutulmuş müddətlər başa çatdıqda;

- barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə aid eyni fakt üzrə inzibati tənbeh etmək haqqında hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı olduqda, yaxud inzibati xəta haqqında işə xitam verilməsi barəsində ləğv edilməmiş qərar olduqda, habelə həmin fakt üzrə cinayət işini başlamaq haqqında qərar olduqda;

- barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs öldükdə.

İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti də həyata keçirilir. İXM-in 368-ci maddəsinə əsasən:

″368.1. Prokuror öz səlahiyyətləri daxilində inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş hər cür qanun pozuntusunun aradan qaldırılması üçün vaxtında qanunla nəzərdə tutulmuş tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikasının Konstitusiyasının, qanunların və digər qanunvericilik aktlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir.

368.2. Prokuror inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul etmək, inzibati xətalar haqqında işlərin baxılmasında iştirak

etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir.

368.3. Prokuror tərəfindən inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar İXM-in 411-ci maddəsində müəyyən edilmiş müddətdə qəbul edilir. Qərarda İXM-in 410-cu maddəsində olan məlumatlar göstərilir.

368.4. Yetkinlik yaşına çatmayanlar barəsində inzibati xətalar haqqında, habelə öz təşəbbüsü ilə başlanmış inzibati xətalar haqqında işlərin baxılmasının yeri və vaxtı prokurora bildirilir″.

İnzibati xətalar haqqında işlər üzrə icraat prosesində çəkilən məsrəflərin ödənilməsi qaydası da nəzərdə tutulmuşdur. İXM-in 369-cu maddəsinə əsasən:

″369.1.1. İnzibati xətalar haqqında işlər üzrə məsrəflər şahidlərə, hal şahidlərinə, ekspertlərə, mütəxəssislərə və tərcüməçilərə verilmiş məbləğlərdən; 369.1.2. maddi sübutların saxlanılması, göndərilməsi, daşınması və tədqiq edilməsinə xərclənən məbləğlərdən ibarətdir.

369.2. Fiziki şəxslər barəsində inzibati xətalar haqqında işlər üzrə məsrəflər dövlət hesabına ödənilir. Hüquqi şəxslər barəsində inzibati xətalar haqqında işlər üzrə məsrəflər isə həmin şəxslərin üzərinə qoyulur.

369.3. İnzibati xətalar haqqında işlər üzrə məsrəflərin ölçüsü məsrəflərə aid olan çəkilmiş xərcləri təsdiq edən və işə əlavə edilmiş sənədlər əsasında müəyyən edilir.

369.4. Məsrəflər haqqında qəbul edilmiş qərar inzibati tənbeh tətbiq edilməsi və ya inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərarda göstərilir.

İXM-in 370-ci maddəsinə əsasən zərər çəkənlərə, şahidlərə, ekspertlərə və tərcüməçilərə ödənilməli məbləğin ödənilməsi qaydası müəyyən edilmişdir:

″370.1. İcraatında inzibati xəta haqqında iş olan hakimin yanına, səlahiyyətli orqana (vəzifəli şzxsin yanına) gəlməklə əlaqədar olaraq zərər çəkənlərin, şahidlərin, ekspertlərin, mütəxəssislərin, tərcüməçilərin və hal şahidlərinin çəkdikləri xərclər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir.

370.2. İcraatında inzibati xəta haqqında iş olan hakimin yanına, səlahiyyətli orqana (vəzifəli şəxsin yanına) zərər çəkmiş, şahid, ekspert, mütəxəssis, tərcüməçi və hal şahidləri kimi çağırılan şəxslərin işdə olmadıqları müddət ərzində iş yerində onların əmək haqqı müəyyən edilmiş qaydada saxlanılır.

370.3. Mütəxəssisin, ekspertin və tərcüməçinin əməyi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir″.

İkinci sualı yekunlaşdıraraq qeyd etmək istərdim ki:

1. İnzibati xətalar haqqında işlər üzrə icraat inzibati xətalar haqqında işlərin baxılması və zəruri hallarda inzibati tənbehlərin tətbiq edilməsinə yönəldilmiş dövlət orqanların və vəzifəli şəxslərin inzibati-prosessual normalarla nizamlanan fəaliyyətdir.

2. İnzibati xətalar haqqında işlər üzrə icraatda həyata keçirilən prosessual hərəkətlərin həcmindən və onların həyata keçirilmə vaxtından asılı olaraq icraatın aşağıdakı üç növünü göstərmək olar:

a) Sürətləndirilmiş icraat, yəni belə icraat növündə inzibati cərimə inzibati xətanın törədildiyi yerdə tətbiq edilir və alınır.

b) Adi icraat belə icraat növündə icraatın bütün mərhələləri mövcud olur.

c) Xüsusi icraat digər icraat növlərindən bir sıra prosessual hərəkətlərin inzibati xətalar qanunvericiliyi ilə müəyyən edilmiş müddətdə və qaydada yerinə yetirilməsinə görə fərqlənir.

3. Göründüyü kimi inzibati xətalar haqqında işlər üzrə icraatın hüquqi nizamlanmasının əsasını Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi təşkil edir.

4. İnzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələri aşağıdakılardır:

- şəxslərin hüquqlarını və azadlıqlarını, onların qanuni mənafelərini qorumaq;

- inzibati xəta haqqında hər bir işin hallarını vaxtında, hərtərəfli, tam və obyektiv surətdə araşdırmaq;

- inzibati xəta törətmiş şəxsi aşkar etməkdən və onu inzibati məsuliyyətə cəlb etmək;

- çıxarılmış qərarın icrasını təmin etmək;

- inzibati xətanın törədilməsinə kömək edən səbəbləri və şəraiti aşkar etmək;

- inzibati xətaların qarşısını almaq.

5. İnzibati xətalar haqqında işlər üzrə icraatın həyata keçirilməsi zamanı İXM-nin 4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar qanunvericiliyinin prinsipləri və inzibati xətalar haqqında işlər üzrə icraatın əsas prinsipləri rəhbər tutulur. Bu prinsiplər aşağıdakılardır:

- insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipi;

- qanunçuluq prinsipi;

- qanun qarşısında bərabərlik prinsipi;

- təqsirsizlik prezumpsiyası prinsipi;

- ədalətlilik prinsipi;

- inzibati xətaların qarşısının alınması prinsipi;

- inzibati xətalar haqqında işlər üzrə icraatın aparıldığı dil prinsipi;

- inzibati xətalar haqqında işlərə açıq baxılması prinsipi;

- inzibati xəta haqqında iş üzrə məlumatların yayılmasının yolverilməzliyi prinsipi;

- icraat iştirakçılarının müdafiə hüquqlarının təmin edilməsi prinsipi);

- icraatda vəkilin iştirakının məcburiliyi prinsipi;

- icraatın operativliyi prinsipi;

- iş üzrə obyektiv həqiqətin müəyyən edilməsi prinsipi.

Sual 3.

İnzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçıları, onların hüquqları və vəzifələri

İnzibati xətalar haqqında işlər üzrə icraat bir sıra orqanların və vəzifəli şəxslərin hərəkətlərindən ibarətdir. İcraat prosesində əsas rolu dövlət orqanları və onların vəzifəli şəxsləri oynayırlar. Çünki onlar inzibati qanunvericiliklə nəzərdə tutulmuş qaydalara müvafiq olaraq inzibati xətaların aşkar edilməsi, inzibati tənbehlərin tətbiq edilməsi və onların icra edilməsi üzrə müxtəlif tədbirlər həyata keçirmək səlahiyyətinə malikdirlər.

İnzibati xətalar haqqında işlər üzrə icraatda digər iştirakçılar da iştirak edir. İcraatın iştirakçılarının bir qrupu icraatda öz maraqlarını müdafiə edirlər, digərləri isə icraatda ayrı-ayrı prosessual hərəkətlərin həyata keçirilməsinə köməklik göstərmək üçün cəlb edilirlər.

İnzibati xətalar haqqında işlər üzrə icraatda iştirak edən orqan və vəzifəli şəxsləri səlahiyyətlərinin məzmun və həcmindən, icraatda iştirakının forma və metodlarından asılı olaraq bir neçə qrupa bölmək olar:

1) işin müqəddəratını müəyyən edən hüquqi sənədlər tərtib etmək və hakimiyyət aktları qəbul etmək hüququna malik olan səlahiyyətli orqanlar və vəzifəli şəxslər;

2) işdə şəxsi marağı olan subyektlər;

3) icraatın həyata keçirilməsinə köməklik göstərən şəxslər və orqanlar;

4) icraatın xüsusi qrup iştirakçıları.

Səlahiyyətli orqan və vəzifəli şəxslər

İnzibati xətalar haqqında iş üzrə icraatda dövlət hakimiyyətini həyata keçirən dövlət orqanlarının və vəzifəli şəxslərin səlahiyyətləri eyni deyildir. İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların növləri və onların səlahiyyətlərinin həcmi Azərbaycan Respublikasının İXM-in 357-359-cu maddələrində və ″Azərbaycan Respublikasının İXM-in təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə″ Azərbaycan Respublikası Prezidentinin Fərmanının 3-cü bəndində dəqiqliyi ilə müəyyən edilmişdir.

İcraatın bu qrupuna daxil olan orqan və vəzifəli şəxslər onlara verilmiş səlahiyyətlər çərçivəsində aşağıdakı kimi funksiyaları həyata keçirirlər:

- inzibati xətalar haqqında protokol tərtib edirlər;

- inzibati xəta haqqında işi baxılması üçün aidiyyatı üzrə göndərirlər;

- icraatın dayandırılması, təzələnməsi və icraata xitam verilməsi haqqında qərar qəbul edirlər;

- iş üzrə qərar qəbul edirlər, qərarı dəyişdirirlər və ya işə xitam verirlər;

- iş üzrə qəbul edilmiş qərarı icra edirlər və s.

İşdə şəxsi marağı olan subyektlər.

İcraatın bu qrupuna daxil olan icraat iştirakçıları birinci qrupa daxil olan icraat iştirakçılarından fərqli olaraq hakimiyyət səlahiyyətlərinə malik deyildirlər.

İcraatın bu qrupuna daxil olan icraat iştirakçıları aşağıdakılardır:

- barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs (m.371 İXM);

- zərər çəkmiş şəxs (m.372 İXM);

- fiziki şəxsin qanuni nümayəndələri (m.373 İXM);

- hüquqi şəxsin nümayəndəsi (m.374 İXM);

- müdafiəçi və nümayəndə (m.375 İXM).

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs. Bu şəxsin hüquq və vəzifələri Azərbaycan Respublikası İXM-nin 371-ci maddəsində göstərilmişdir.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin aşağıdakı hüquqları vardır:

- işin materialları ilə tanış olmaq;

- izahat vermək;

- sübutlar təqdim etmək;

- vəsatət və etirazlar vermək;

- işə baxılarkən müdafiəçinin hüquqi yardımından istifadə etmək;

- inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiqindən və iş üzrə qərardan şikayət vermək;

- ana dilində çıxış etmək və icraatın aparıldığı dildə danışa bilmirsə, tərcüməçinin xidmətlərindən istifadə etmək.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs İXM ilə müəyyən edilmiş digər hüquqlardan da istifadə edə bilər.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs barəsində icraat aşağıdakı qaydada aparılır:

- inzibati xətalar haqqında işlərə barəsində icraat aparılan şəxsin iştirakı ilə baxılır. Şəxsin iştirakı olmadan işə o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddəti barədə təqsirləndirilən şəxsdə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında onun vəsatəti daxil olmasın, yaxud belə vəsatət rədd edilmiş olsun;

- inzibati xətalar haqqında işlərə baxarkən hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin iştirakını məcburi hesab edə bilər;

- inzibati həbs və ya Azərbaycan Respublikasının hüdudlarından kənara əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri inzibati qaydada çıxartma nəzərdə tutan inzibati xətalar haqqında işlərə baxılarkən barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin iştirakı məcburidir;

- barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılarkən işin hallarının müzakirəsi yetkinlik yaşına çatmayanlara mənfi təsir göstərə biləcəyi hallarda, onlar müvəqqəti olaraq işdə iştirakdan kənarlaşdırıla bilərlər.

<u>Zərərçəkmiş şəxs.</u> İXM-nin 372-ci maddəsinə əsasən, inzibati xəta nəticəsində mənəvi, fiziki və ya maddi zərər dəymiş şəxs zərər çəkmiş şəxs sayılır.

Zərər çəkmiş şəxsin aşağıdakı huquqları vardır:

- inzibati xəta haqqında iş üzrə bütün materiallarla tanış olmaq;

- izahat vermək;

- sübutlar təqdim etmək;

- vəsatət və etirazlar vermək;

- hüquqi yardımdan istifadə etmək;

- iş üzrə qəbul edilmiş qərardan şikayət vermək.

Zərər çəkmiş şəxs İXM ilə müəyyən edilmiş digər hüquqlardan da itstifadə edə bilər.

Zərər çəkmiş şəxs barəsində icraat aşağıdakı qaydada aparılır:

- inzibati xətalar haqqında işlərə zərər çəkmiş şəxsin iştirakı ilə baxılır. Həmin şəxsin iştirakı olmadan işə o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddəti ona vaxtında bildirilsin və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın, yaxud belə vəsatət rədd edilmiş olsun;

- zərər çəkmiş şəxs İXM ilə nəzərdə tutulmuş qaydada şahid kimi sorğu-sual edilə bilər.

<u>Fiziki şəxsin qanuni nümayəndələri.</u> Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya zərər çəkmiş şəxs yetkinlik yaşına çatmadıqda və ya öz fiziki, yaxud psixi qüsurlarına görə müstəqil olaraq hüquqlarını özləri həyata keçirmək imkanına malik olmadıqda, həmin şəxslərin mənafeyini təmsil etməyə onların qanuni nümayəndələrinin hüququ vardır.

Valideynlər, övladlığa götürənlər, qəyyumlar və himayəçilər fiziki şəxsin mənafeyinin qanuni nümayəndələri hesab olunurlar.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya zərər çəkmiş şəxsin qanuni nümayəndəsi olmadıqda, inzibati xəta haqqında iş üzrə icraat aparan səlahiyyətli vəzifəli şəxs qəyyumluq və himayə oraqanlarını qanuni nümayəndə hesab edir.

Fiziki şəxsin qanuni nümayəndəsi olan şəxslərin qohumluq əlaqələri və ya müvafiq səlahiyyətləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq sənədlərlə təsdiq olunur.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya zərər çəkmiş şəxsin qanuni nümayəndəsi təmsil etdiyi şəxs barəsində Azərbaycan Respublikasının İXM ilə nəzərdə tutulmuş hüquqlara malikdir və vəzifələri daşıyır.

On səkkiz yaşına çatmayan şəxslər barəsində inzibati xətalar haqqında işlərə baxarkən hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) həmin şəxsin qanuni nümayəndəsinin iştirakını məcburi hesab edə bilər.

<u>Hüquqi şəxsin nümayəndəsi.</u> Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan və ya zərər çəkmiş olan hüquqi şəxsin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi onların nümayəndələri tərəfindən həyata keçirilir.

Hüquqi şəxsin rəhbəri, habelə qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxsin mənafelərinin təmsil edilməsi etibar edilmiş digər şəxslər hüquqi şəxslərin nümayəndələri hesab edilirlər, hüquqi şəxsin nümayəndəsinin səlahiyyəti onun qulluq mövqeyini təsdiq edən sənədlərlə müəyyən edilir.

Hüquqi şəxs tərəfindən törədilmiş inzibati xətalar haqqında işlərə hüquqi şəxsin nümayəndəsinin və ya vəkilinin iştirakı ilə baxılır. Həmin şəxslərin iştirakı olmadan inzibati xəta haqqında işə yalnız o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddətinin ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın, yaxud belə vəsatət rədd edilsin.

İnzibati xətalar haqqında işlərə baxarkən hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) hüquqi şəxsin nümayəndəsinin iştirakını məcburi hesab edə bilər.

Müdafiəçi və nümayəndə. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə hüquqi yardım göstərmək üçün inzibati xəta haqqında iş üzrə icraata müdafiəçi, zərər çəkmiş şəxsə hüquqi yardım göstərmək üçün isə nümayəndə buraxılır. Müdafiəçi qismində və nümayəndə kimi inzibati xəta haqqında iş üzrə icraatda vəkil və ya digər şəxslər iştirak edə bilərlər.

İnzibati xəta haqqında protokol tərtib edildiyi vaxtdan müdafiəçi və nümayəndə inzibati xətalar haqqında işlər üzrə icraatda iştirak etməyə buraxılırlar. Törədilmiş inzibati xətaya görə fiziki şəxs barəsində inzibati qaydada tutma tətbiq edildiyi

hallarda müdafiəçi həmin şəxs inzibati qaydada tutulduğu vaxtdan inzibati xəta haqqında iş üzrə icraatda iştirak etməyə buraxılır.

Müdafiəçinin və nümayəndənin aşağıdakı huquqları vardır:

- işin bütün materialları ilə tanış olmaq;

- sübutlar təqdim etmək;

- vəsatət və etirazlar vermək;

- işin baxılmasında iştirak etmək;

- inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiqindən və iş üzrə qəbul edilmiş qərardan şikayət vermək.

Müdafiəçi və nümayəndə İXM ilə müəyyən edilmiş digər hüquqlardan da istifadə edə bilər.

Vəkilin səlahiyyəti hüquq məsləhətxanası və ya Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hüquqi yardımın göstərilməsi fəaliyyəti ilə məşğul olan digər təşkilat tərəfindən verilən orderlə təsdiq edilir. Nümayəndənin səlahiyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada verilən etibarnamə ilə təsdiq edilir.

İnzibati qaydada tutulan yetkinlik yaşına çatmayanların, icraatın aparıldığı dili bilməyənlərin, lal, kar, kor, fiziki və ya psixi qüsurları üzündən özlərinin müdafiə hüququnu həyata keçirə bilməyən digər şəxslərin işlərində vəkilin iştirakı məcburidir. (AR İXM-nin 376.1-ci maddəsi)

Göstərilən hallarda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin müdafiəçidən imtinası qəbul olunmur.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs tərəfindən seçilmiş vəkilin gəlişi qeyri-mümkün olduqda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin şəxsi vəkil ilə təmin edir.

Maddi vəziyyətinə görə öz hesabına vəkil tutmaq imkanı olmadıqda, inzibati qaydada tutulmuş şəxsə hüquqi yardım dövlətin vəsaiti hesabına göstərilir. Belə halda vəkil öz vəzifələrini yerinə yetirməkdən imtina edə bilməz.

İcraatın həyata keçirilməsinə köməklik göstərən şəxslər və orqanlar

İnzibati xətalar haqqında işlər üzrə icraatın həyata keçirilməsinə köməklik göstərən şəxslər və orqanlar aşağıdakılardır:

- şahidlər (m.377 İXM);

- hal şahidləri (m.379 İXM);

- mütəxəssislər (m.380 İXM);

- ekspertlər (m.381 İXM);

- tərcüməçilər (m.382 İXM).

Şahidlər. İnzibati xətalar haqqında işlərdə şahid qismində iş üzrə müəyyən edilməli olan hallar barədə məlumatı olan şəxslər çağırıla bilərlər.

Şahid hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) çağırışı ilə göstərilən vaxtda gəlməyə, doğru izahatlar verməyə, protokola daxil edilmiş izahatını imzası ilə təsdiq etməyə, iş üzrə ona məlum olan məlumatları bildirməyə və suallara cavab verməyə borcludur.

Şahidin özünə və yaxın qohumlarına qarşı izahat verməmək, tərcüməçinin köməyindən pulsuz istifadə etmək, izahatının doğru yazılması barədə protokola müvafiq qeydlər etmək hüququ vardır.

″Yaxın qohumlar″ dedikdə valideynlər, uşaqlar, övladlığa götürənlər, övladlığa götürülənlər, doğma qardaş və bacılar, babalar, nənələr, nəvələr, habelə ər-arvad başa düşülür. (AR İXM-nin 377-ci maddəsi)

Yetkinlik yaşına çatmayan on dörd yaşında olan şəxslər pedaqoci işçinin və ya psixoloqun iştirakı ilə sorğu-sual edilirlər. Zəruri olduqda yetkinlik yaşına çatmayan şəxs onun qanuni nümayəndəsinin iştirakı ilə də sorğu-sual edilə bilər.

Bilə-bilə yalan izahat verməyə görə inzibati məsuliyyət haqqında şahidə xəbərdarlıq edilir. Şahid öz vəzifələrini yerinə yetirməkdən imtina etdikdə və ya çağırış üzrə gəlməyə qəsdən boyun qaçırdıqda o, Azərbaycan Respublikası İXM-nin 314-cü maddəsinə əsasən (Bilə-bilə yalan izahat və ya rəy vermə) inzibati məsuliyyətə cəlb edilir.

Şahid kimi sorğu-sual edilə bilməyən şəxslər aşağıdakılardır:

- fiziki və ya psixi qüsurlarına görə inzibati xəta haqqında iş üçün əhəmiyyəti olan hadisələri dərk edə bilməyən və onlar haqqında düzgün izahat verə bilməyən şəxs;

- müdafiəçi vəzifəsinin yerinə yetirilməsi ilə əlaqədar olaraq inzibati xəta törətmiş şəxsin ona bildirdiyi hallar haqqında inzibati xəta törətmiş şəxsin vəkili;

- öz nümayəndə (qanuni nümayəndə) vəzifələrini icra etməsi ilə əlaqədar onlara məlum olmuş hallar haqqında fiziki şəxsin qanuni nümayəndəsi və ya hüquqi şəxsin nümayəndəsi.

<u>Hal şahidləri</u>. İşin nəticəsində maraqlı olmayan və yetkinlik yaşına çatmış şəxslər inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında iştirak etmək üçün icraatında inzibati xəta haqqında iş olan vəzifəli şəxs tərəfindən hal şahidi kimi dəvət olunurlar, hal şahidlərinin sayı iki nəfərdən az ola bilməz.

Şəxsi axtarış, şeyləri yoxlama, nəqliyyat vasitəsinə baxış, şeyləri və sənədləri götürmə, eləcə də sərxoşluq vəziyyətinin müayinəsi aparılarkən hal şahidlərinin iştirakı məcburidir. Hal şahidləri onların iştirakı ilə həyata keçirilən prosessual hərəkətləri, onların məzmununu və nəticəsini protokolda öz imzası ilə təsdiq edirlər.

Hal şahidlərinin inzibati xəta haqqında iş üzrə icraatda iştirak etmələri protokolda qeyd edilir. İnzibati xəta haqqında iş üzrə prosessual hərəkətlər barəsində hal şahidlərinin qeydləri protokolda göstərilir.

Zəruri hallarda inzibati xəta haqqında iş üzrə icraatda hal şahidləri şahid kimi sorğu-sual edilə bilərlər.

<u>Mütəxəssislər.</u> İnzibati xətalar haqqında işlərin nəticəsində şəxsən maraqlı olmayan, sübutların aşkar edilməsində, götürülməsində və rəsmiləşdirilməsində, habelə texniki vasitələrin tətbiq edilməsində kömək göstərilməsi üçün xüsusi biliyə malik olan hər hansı bir şəxs icraatında inzibati xəta haqqında işlər üzrə icraatda iştirak etmək üçün mütəxəssis kimi dəvət oluna bilər.

Mütəxəssisin aşağıdakı vəzifələri vardır:

- icraatında inzibati xəta haqqında iş olan hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) çağırışı üzrə gəlmək;

- sübutların aşkar edilməsində, götürülməsində, rəsmiləşdirilməsində iştirak etmək;

- yerinə yetirdiyi hərəkətlər barədə izahatlar vermək;

- bu hərəkətlərin məzmununu və nəticəsini protokolda öz imzası ilə təsdiq etmək;

- inzibati xətalar haqqında işlər üzrə icraatda iştirakı rədd edən hallardan biri olduqda, mütəxəssisi dəvət etmiş səlahiyyətli vəzifəli şəxsə özü-özünə etirazetmə haqqında məlumat vermək.

Mütəxəssisin aşağıdakı hüquqları vardır:

- iştirak etdiyi və onun predmetinə aid olan inzibati xəta haqqında işin materialları ilə tanış olmaq;

- icraatında inzibati xəta haqqında iş olan hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) icazəsi ilə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə, zərər çəkmiş şəxsə, şahidlərə mütəxəssisin apardığı işin predmetinə aid olan suallar vermək;

- aparılan hərəkətlərə dair qeydlər və izahatlar vermək.

Bilə-bilə yalan izahat verməsinə görə inzibati məsuliyyət haqqında mütəxəssisə xəbərdarlıq edilir. Mütəxəssis öz vəzifələrini yerinə yetirməkdən imtina etdikdə və ya çağırış üzrə gəlməyə qəsdən boyun qaçırdıqda o, İnzibati Xətalar Məcəlləsinin 315-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada inzibati məsuliyyətə cəlb edilir.

<u>Ekspert.</u> Elm, incəsənət, texnika və ya sənət sahəsində məsələlərin izahı üçün ekspertizanın aparılması və ekspert rəyinin verilməsi üçün kifayət qədər xüsusi biliyə malik olan və inzibati xəta haqqında işin nəticəsində maraqlı olmayan şəxs ekspert kimi dəvət olunur.

Ekspertin aşağıdakı vəzifələri vardır:

- icraatında inzibati xəta haqqında iş olan hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) çağırışı üzrə gəlmək;

- təqdim edilmiş obyektlərin və iş üzrə materialların tam və hərtərəfli tədqiqatını aparmaq və qoyulmuş suallar üzrə əsaslandırılmış və obyektiv rəy vermək;

- inzibati xətalar haqqında işlər üzrə icraatda iştirakı rədd edən hallardan biri olduqda, ekspertizanı təyin etmiş hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) ekspertizanın aparılmasından özü-özünə etirazetmə haqqında məlumat vermək.

Verilən suallar ekspertin xüsusi biliyindən kənara çıxdıqda, tədqiqat obyektləri və iş üzrə materiallar rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda ekspert rəy verməkdən imtina edə bilər.

Ekspertin aşağıdakı hüquqları vardır:

- ekspertizanın predmetinə aid olan iş üzrə materiallarla tanış olmaq;

- iş üzrə rəy verilməsi üçün zəruri olan əlavə materialların təqdim olunması barədə vəsatət vermək;

- ekspertizanın predmetinə aid olan məlumatların aydınlaşdırılması üçün icraatında inzibati xəta haqqında iş olan hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) icazəsi ilə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs, zərər çəkmiş şəxsə, şahidlərə suallar vermək;

- qoyulmuş suallardan əlavə ekspertizanın predmetinə aid olan və iş üçün əhəmiyyətli sayılan digər halları öz rəyində göstərmək.

Ekspertin rəyində aşagıdakılar göstərilməlidir:

- **ekspertizanın aparıldıgı yer və tarix;**
- **ekspertizanın aparılmasının əsası;**
- **ekspertizanı təyin etmiş orqan və ya vəzifəli şəxs haqqında məlumat;**

- **ekspertiza idarəsi və ekspert haqqında məlumat (soyadı, adı, atasının adı, təhsili, ixtisası, ekspert kimi iş stajı, elmi vəzifəsi və elmi dərəcəsi, tutdugu vəzifə);**
- **bilə-bilə yalan rəy verməyə görə məsuliyyət barədə ona xəbərdarlıq edilməsi;**
- **ekspert qarşısında qoyulmuş suallar;**
- **ekspertizanın aparılması üçün ekspertə təqdim edilmiş tədqiqat obyektləri və iş üzrə materiallar;**
- **ekspertizanın keçirilməsi zamanı iştirak etmiş proses iştirakçıları haqqında məlumat;**
- **istifadə edilən metodlar göstərilməklə tədqiqatın məzmunu və nəticələri;**
- **tədqiqatın nəticələrinin qiymətləndirilməsi, qapılmış suallar üzrə yekun nəticələrin əsaslandırılması və dürüst ifadə olunması.**

Bilə-bilə yalan rəy verməsinə görə inzibati məsuliyyət haqqında ekspertə xəbərdarlıq edilir. Ekspert öz vəzifələrini yerinə yetirməkdən imtina etdikdə və ya çağırış üzrə gəlməyə qəsdən boyun qaçırdıqda o, İnzibati Xətalar Məcəlləsinin 315-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada inzibati məsuliyyətə cəlb edilir.

<u>Tərcüməçi.</u> İnzibati xətalar haqqında işlərin nəticəsində şəxsən maraqlı olmayan, yetkinlik yaşına çatmış və tərcümə üçün zəruri olan dilləri bilən hər hansı bir şəxs inzibati xətalar haqqında işlərin icraatında tərcüməçi ola bilər.

Tərcüməçi, icraatında inzibati xəta haqqında iş olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilir.

Tərcüməçi, icraatında inzibati xəta haqqında iş olan hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) çağırışı üzrə gəlməyə və ona tapşırılan tərcüməni tam və dəqiq yerinə yetirməyə və tərcümənin düzgünlüyünü öz imzası ilə təsdiq etməyə borcludur.

İnzibati xətalar haqqında işlər üzrə icraatda iştirakı rədd edən hallardan biri olduqda tərcüməçini dəvət etmiş səlahiyyətli vəzifəli şəxsə öz-özünə etiraz etmə haqqında məlumat verməlidir.

Bilə-bilə yanlış tərcümə etməsinə görə inzibati məsuliyyət haqqında tərcüməçiyə xəbərdarlıq ediir. Tərcüməçi təyin olunmuş şəxs öz vəzifələrini yerinə yetirməkdən imtina etdikdə və ya çağırış üzrə gəlməyə qəsdən boyun qaçırdıqda o, İnzibati Xətalar Məcəlləsinin 314-cü maddəsi ilə nəzərdə tutulmuş qaydada inzibati məsuliyyətə cəlb edilir.

İnzibati xətanın törədilməsi nəticəsində inzibati xətalar haqqında işlərin başlanmasına səbəb olan qaydalara riayət olunması üzərində nəzarəti həyat keçirən dövlət orqanlarının əməkdaşları, yaxud əvvəllər həmin işlər üzrə digər iştirakçı qismində çıxış etmiş şəxslər inzibati xətalar haqqında işlər üzrə icraatda müdafiəçi və ya nümayəndə ola bilməzlər.

Mütəxəssis, ekspert və tərcüməçi aşağıdakı hallarda inzibati xəta haqqında iş üzrə icraatda iştirak edə bilməz:

- inzibati xəta törətmiş şəxslər, zərər çəkmiş şəxslə, onun nümayəndəsi (qanuni nümayəndəsi) ilə, vəkillə, prokurorla, hakimlə, kollegial orqanın üzvü ilə və ya icraatında inzibati xəta haqqında iş olan vəzifəli şəxslə qohumluq əlaqələri olduqda;

- əvvəllər həmin işlər üzrə digər iştirakçı qismində iştirak etdikdə;

- işin nəticəsi ilə birbaşa və ya dolayısı ilə maraqlı olması barədə kifayət qədər əsaslar olduqda.

Yuxarıda göstərilən hallar olduqda vəkil, nümayəndə (qanuni nümayəndə), mütəxəssis, ekspert və ya tərcüməçi inzibati xətalar haqqında işlər üzrə icraatda iştirak etməkdən kənar olunmalıdırlar.

Özü-özünə etirazetmə və ya etirazetmə haqqında ərizə icraatında inzibati xəta haqqında iş olan hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) təqdim edilir.

Özü-özünə etirazetmə və ya etirazetmə haqqında ərizəyə baxıldıqda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) etirazın təmin edilməsi və ya təmin edilməməsi barədə qərardar qəbul edir.

İcraatın xüsusi qrup iştirakçıları

İcraatın bu qrup iştirakçılarına aşağıdakıları aid etmək olar:

- ictimai birliklər;

- yoldaşlıq məhkəmələri;

- inzibati xəta törətmiş şəxsin iş yeri, yaşayış yeri və təhsil aldığı müəssisə üzrə rəhbərlik.

Bu qrup iştirakçıların əsas vəzifəsi inzibati xəta törədənlərə tərbiyəvi təsirin göstərilməsindən ibarətdir. Bir sıra hallarda onlara təqsirli şəxs barəsində tətbiq edilmiş təsir tədbirləri barədə məlumat verilməlidir. Bəzi hallarda bu orqanlar Azərbaycan Respublikasının İXM-nin 455.5-ci maddəsinə əsasən vəsatət qaldıra bilərlər. Məsələn, nəqliyyat vasitələrini idarə etmə hüququnun və ya ov hüququnun müəyyən müddətə məhdudlaşdırılması barədə qərar qəbul etmiş səlahiyyətli vəzifəli şəxs göstərilən hüququn məhdudlaşdırılması müddətini, təyin edilmiş müddətin azı yarısı keçdikdən sonra nəqliyyat vasitələrini idarə etmə hüququ və ya ov hüququ məhdudlaşdırılmış şəxsin işlədiyi və ya oxuduğu müəssisənin, idarənin, təşkilatın vəsatəti ilə azalda bilər.

Üçüncü suala yekun olaraq bir daha qeyd etmək istərdim ki:

1. İnzibati xətalar haqqında işlər üzrə icraatda iştirak edən orqanları vəzifəli şəxslərin səlahiyyətlərinin məzmun və həcmindən, icraatda iştiranının forma və metodlarından asılı olaraq bir neçə qrupa bölmək olar:

a) işin nəticəsini müəyyən edən hüquqi sənədlər tərtib etmək və iş üzrə hüquqi hakimiyyət aktlarını qəbul etmək hüququna malik olan səlahiyyətli orqanlar və vəzifəli şəxslər;

b) işdə şəxsi marığı olan subyektlər;

c) icraatın həyata keçirilməsinə köməklik göstərən şəxslər və orqanlar;

ç) icraatın xüsusi qrup iştirakçıları.

2. İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) tam siyahısı və onların səlahiyyətlərinin həcmi Azərbaycan Respublikasının İXM-nin 357-359-cu maddələrində və ″Azərbaycan Respublikasının İXM-nin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə″ Azərbaycan Respublikası prezidentinin Fərmanının 3-cü bəndində dəqiqliyi ilə müəyyən edilmişdir.

3. İşdə şəxsi marağı olan şəxslər aşağıdakılardır:

- barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs;
- zərər çəkmiş şəxs;
- fiziki şəxsin qanuni nümayəndələri;
- hüquqi şəxsin nümayəndəsi;
- müdafiəçi və nümayəndə.

4. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin aşağıdakı hüquqları vardır:
- işin materialları ilə tanış olmaq;
- izahat vermək;
- sübutlar təqdim etmək;
- vəsatət və etirazlar vermək;
- işə baxılarkən müdafiəçinin hüquqi yardımından istifadə etmək;
- inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiqindən və iş üzrə qərardan şikayət vermək;
- ana dilində çıxış etmək və icraatın aparıldığı dildə danışa bilmirsə, tərcüməçinin xidmətlərindən istifadə etmək.

5. Zərər çəkmiş şəxsin aşağıdakı huquqları vardır:
- inzibati xəta haqqında iş üzrə bütün materiallarla tanış olmaq;
- izahat vermək;
- sübutlar təqdim etmək;
- vəsatət və etirazlar vermək;
- hüquqi yardımdan istifadə etmək;
- iş üzrə qəbul edilmiş qərardan şikayət vermək.

İnzibati xətalar haqqında işlər üzrə icraatın həyata keçirilməsinə köməklik göstərən şəxslər və orqanlar aşağıdakılardır:
- şahidlər;
- hal şahidləri;
- mütəxəssislər;
- ekspertlər;
- tərcüməçilər.

6. İnzibati qaydada tutulan yetikinlik yaşına çatmayanların, icraatın aparıldığı dili bilməyənlərin, lal, kar, kor, fiziki və ya psixi qüsurları üzündən özlərinin müdafiə hüququnu həyata keçirə bilməyən digər şəxslərin işlərində vəkilin iştirakı məcburidir.

7. Müdafiəçinin və nümayəndənin aşağıdakı huquqları vardır:
- işin bütün materialları ilə tanış olmaq;
- sübutlar təqdim etmək;
- vəsatət və etirazlar vermək;
- işin baxılmasında iştirak etmək;
- inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiqindən və iş üzrə qəbul edilmiş qərardan şikayət vermək.

8. İnzibati xətalar haqqında işlər üzrə icraatın həyata keçirilməsinə köməklik göstərən şəxslər və orqanlar aşağıdakılardır:
- şahidlər;
- hal şahidləri;
- mütəxəssislər;

- ekspertlər;

- tərcüməçilər.

9. Mütəxəssis, ekspert və tərcüməçi aşağıdakı hallarda inzibati xəta haqqında iş üzrə icraatda iştirak edə bilməzlər:

- inzibati xəta törətmiş şəxslər, zərər çəkmiş şəxslə, onun nümayəndəsi (qanuni nümayəndəsi) ilə, vəkillə, prokurorla, hakimlə, kollegial orqanın üzvü ilə və ya icraatında inzibati xəta haqqında iş olan vəzifəli şəxslə qohumluq əlaqələri olduqda;

- əvvəllər həmin işlər üzrə digər iştirakçı qismində iştirak etdikdə;

- işin nəticəsi ilə birbaşa və ya dolayısı ilə maraqlı olması barədə kifayət qədər əsaslar olduqda.

10. İcraatın bu qrup iştirakçılarına aşağıdakıları aid etmək olar:

- ictimai birliklər;

- yoldaşlıq məhkəmələri;

- inzibati xəta törətmiş şəxsin iş yeri, yaşayış yeri və təhsil aldığı müəssisə üzrə rəhbərlik.

Sual 4.

İnzibati xətalar haqqında işlər üzrə icraatda sübutlar və onların qiymətləndirilməsi

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 8-ci maddəsinə əsasən: ″8.1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin təqsiri bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada sübuta keçmədikdə və bu, inzibati xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı ilə müəyyən edilmədikdə, o, təqsiri olmayan hesab edilir.

8.2. İnzibati məsuliyyətə cəlb olunmuş şəxs öz təqsirsilzliyini sübut etməyə borclu deyildir.

8.3. İnzibati məsuliyyətə cəlb olunmuş şəxsin təqsirli olması barəsində olan şübhələr onun xeyrinə həll olunur″.

Göstərilən maddədən göründüyü kimi şəxsin təqsiri müəyyən edilmiş qaydada sübut edilməlidir. Sübutetmə vəzifəsi işə baxan orqanın (vəzifəli şəxsin) üzərinə qoyulub. Bu barədə həmçinin Azərbaycan Respublikası İXM-nin 362-ci maddəsində inzibati xətalar haqqında işlər üzrə icraatın vəzifəsi kimi müəyyən edilmişdir, yəni ″…inzibati xəta haqqında hər bir işin hallarını vaxtında, hərtərəfli, tam və obyektiv surətdə aydınlaşdırmaqdan, inzibati xəta törətmiş şəxsi aşkar etməkdən və onu inzibati məsuliyyətə cəlb etməkdən… ibarətdir″.

Sübut etmə prosesi özündə sübutların aşkar edilməsini, onların tədqiq edilməsini və sənədləşdirilməsini cəmləşdirir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 385-ci maddəsinə əsasən, inzibati xətalar haqqında işlər üzrə icraatda aşağıdakı hallar müəyyən edilməli və sübuta yetirilməlidir:

- inzibati xəta hadisəsi (inzibati xəta törədilmişdirmi);

- inzibati xəta törətmiş şəxs;

- inzibati xəta törətməkdə şəxsin təqsiri;

- inzibati məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar;
- inzibati xəta nəticəsində vurulan zərərin xarakteri və miqdarı;
- inzibati xətalar haqqında işlər üzə icraatı rədd edən hallar;
- işin düzgün həlli üçün əhəmiyyətli olan digər hallar, habelə inzibati xətanın törədilməsinə kömək edən səbəblər və şərait.

Yuxarıda göstərilən hər bir hal sübutla təsdiq olunmalıdır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 385-ci maddəsinə əsasən, sübutlar dedikdə inzibati xətanın olub-olmamasını, inzibati xəta törədən şəxsin təqsirini və işin düzgün həlli üçün əhəmiyyətli olan digər halları müəyyən etməkdən ötrü hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) əsaslana bildiyi hər cür faktik məlamutlar inzibati xətalar haqqında işlər üzrə sübutlar sayılır.

Göstərilən məlumatlar İXM-nin 386.2-ci maddəsinə əsasən maddi sübutlarla, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin, zərər çəkmiş şəxslərin, şahidlərin izahatları ilə, digər sənədlərlə, xüsusi texniki vasitələrin göstəriciləri ilə, ekspertin rəyi ilə, inzibati xəta haqqında protokolla, İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş digər protokollarla müəyyən edilir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 386.3-cü maddəsinə əsasən, qanuna zidd olaraq əldə edilmiş sübutların istifadə edilməsinə yol verilməzdir.

<u>Maddi sübutlar</u> dedikdə, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olan, yaxud üzərində inzibati xətanın izlərini saxladığına görə inzibati xəta haqqında iş üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə kömək edən predmetlər başa düşülür (İXM-nin 387.1-ci maddəsi).

İcraatla baglı zəruriyyət yaranduqda maddi sübutların fotoşəkilləri çəkilir və onlar inzibati xəta haqqında işə əlavə edilir. Maddi sübutlar inzibati xəta haqqında protokolda qeyd edilir. (İXM-nin 387.2-ci maddəsi).

İcraatında inzibati xəta haqqında iş olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) iş qurtaranadək maddi sübutların saxlanılmasının təmin edilməsi üçün zəruri tədbirlər görməli, habelə inzibati xəta haqqında iş üzrə icraat başa çatdıqdan sonra maddi sübutlar haqqında qərar qəbul etməlidir. (İXM-nin 387.3-cü maddəsi).

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin izahatı iş üzrə ona məlum olan hallar və işdə olan sübutlar üzrə şifahi və ya yazılı formada verilən məlumatlardan ibarətdir (İXM-nin 388-ci maddəsi).

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin izahatı inzibati xəta haqqında protokolda, inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiq edilməsi haqqında protokolda, inzibati xəta haqqında işə baxma protokolunda göstərilir. Zəruri hallarda bu izahat yazılı formada qeyd edilir və inzibati xəta haqqında işə əlavə edilir.

<u>Zərər çəkmiş şəxsin və şahidlərin izahatları</u> şifahi və yazılı formada olan və inzibati xəta haqqında iş üzrə müəyyən edilməli olan hallar haqqında məlumatlardan ibarətdir (İXM-nin 389-cu maddəsi)..

Zərər çəkmiş şəxsin və şahidin izahatları inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiq edilməsi haqqında protokolda, inzibati xəta haqqında işə baxma protokolunda göstərilir. Zəruri hallarda bu izahatlar yazılı formada qeyd edilir və inzibati xəta haqqında işə əlavə edilir.

Zərər çəkmiş şəxsin və şahidlərin izahatları şifahi və ya yazılı formada olan və inzibati xəta haqqında iş üzrə müəyyən edilməli olan hallar haqqında məlumatlardan ibarətdir.

Zərər çəkmiş şəxsin və şahidin izahatları inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiq edilməsi haqqında protokolda, inzibati xəta haqqında işə baxma protokolunda göstərilir. Zəruri hallarda bu izahatlar yazılı formada qeyd edilir və inzibati xəta haqqında işə əlavə edilir.

Mənbəyi məlum olmayan məlumatlara əsaslanan şahid izahatları sübut kimi qəbul edilmir.

İnzibati xətalar haqqında işlər üzrə icraatda sübut etmə mənbələrindən biri də sənədlərdir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 390-cı maddəsinə əsasən, sənədlərdə müəssisələrin, idarələrin, təşkilatların, vəzifəli şəxslərin və fiziki şəxslərin təsdiq etdikləri və ya şərh etdikləri məlumatların inzibati xəta haqqında iş üzrə icraat üçün əhəmiyyəti vardırsa, bu sənədlər iş üzrə sübutlar hesab edilir. Sənədlər yazılı və ya digər formada müəyyən edilmiş məlumatları özündə əks etdirə bilər. Fotoşəkillər, səsyazma və ya videoyazı materialları, məlumat bazası və məlumat bankı və digər məlumatları olan müvafiq daşıyıcılar sənədlər hesab olunur.

İnzibati xəta haqqında iş icraatında olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xəta haqqında işin mahiyyəti üzrə baxılmasına qədər sənədlərin qorunub saxlanılması üçün zəruri tədbirlər görməli, eləcə də işə baxıldıqdan sonra onlar haqqında qərar qəbul etməlidir.

İnzibati xətalar haqqında işlər üzrə icraatda sübut kimi xüsusi texniki vasitələrin göstəriciləri də istifadə edilə bilərlər. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 391-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölçü cihazı kimi təsdiq edilən, müvafiq sertifikatı olan və metroloji sınaqdan keçmiş ölçü cihazları xüsusi texniki vasitələr adlanır.

Xüsusi texniki vasitələrin göstəriciləri inzibati xəta haqqında iş üzrə protokolda qeyd edilir.

İnzibati xətalar haqqında işlər üzrə icraatın aparılması zaman bəzən xüsusi biliklərə də ehtiyat olur. Buna görə də İXM-nin 392.1-ci maddəsinə əsasən, inzibati xətalar haqqında işlər üzrə icraat zamanı əhəmiyyət kəsb edən hər hansı məsələnin həlli üçün elm, incəsənət, texnika və ya sənət sahəsində xüsusi bilik tələb edən məsələlərin aydınlaşdırılması məqsədilə hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərardadı ilə ekspertiza təyin edilə bilər.

Ekspertizanın təyin edilməsi barədə qərardadda aşağıdakılar göstərilir:

- ekspertizanın təyin olunması üçün əsaslar;

- ekspertin soyadı, adı və atasının adı və ya ekspertiza aparılacaq idarənin adı;

- ekspertin rəy verməli olduğu məsələlər;

- ekspertin sərəncamına verilən materiallar;

- ekspertə onun hüquq və vəzifələrinin izah edilməsi və bilə-bilə yalan rəy verilməsinə görə inzibati məsuliyyət barədə xəbərdarlıq haqqında qeyd.

Ekspertiza təyin edilərkən ekspertin qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxmamalıdır.

İcraatında inzibati xəta haqqında iş olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) icraya göndərməmişdən əvvəl ekspertizanın təyin olunması haqqında qəbul edilmiş

qərardadla barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsi, zərər çəkmiş şəxsi tanış etməli, onların huquqlarını izah etməlidir.

Ekspert öz adından yazılı formada rəy verir və onu imzalayır. Ekspertin rəyində ekspertizanın aparıldığı tarix və yer, ekspertizanın aparılmasının əsasları, onun məzmunu, habelə ekspertin qarşısında qoyulmuş suallar üzrə əsaslandırılmış cavablar və yekun nəticələr göstərilir.

İnzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələrinin yerinə yetirilməsində əlavə məlumatlar da tələb edilə bilər. İXM-nin 393-cü maddəsinə əsasən icraatında inzibati xəta haqqında iş olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) işin həll edilməsi üçün zəruri olan əlavə məlumatların tələb edilməsi barədə qərardad qəbul edə bilər. Məlumatlar tələb edildiyi gündən üç gün müddətində, inzibati həbs nəzərdə tutulan inzibati xəta törədildikdə isə dərhal müvafiq orqanlara, təşkilatlara, idarələrə və müəssisələrə göndərilməlidir.

Müvafiq orqanlardan, təşkilatlardan, idarələrdən və müəssisələrdən tələb edilən məlumatların təqdim edilməsi qeyri-mümkün olduqda, onlar üç günədək müddətində qərardad qəbul etmiş hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) bu barədə yazılı formada xəbər verməyə borcludurlar.

İnzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələrinin vaxtında, hərtərəfli, tam və obyektiv yerinə yetirilməsi nəticəsində aşkar edilmiş və toplanmış sübutların qiymətləndirilməsinin əhəmiyyəti böyükdür.

İnzibati xətalar haqqında işlərə baxan hakim, kollegial orqanın üzvü, vəzifəli şəxs işin bütün hallarının məcmusunun hərtərəfli, tam və obyektiv surətdə baxılmasına əsaslanan öz daxili inamı ilə subutları qiymətləndirir.(AR İXM-nin 394-cü maddəsi)

Heç bir sübutun qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

İnzibati xətalar haqqında işlər üzrə icraat həyata keçirilən zaman hakim, səlahiyyətli orqan və ya vəzifəli şəxs fiziki şəxs tərəfindən törədilmiş inzibati xətada cinayət əlamətlərini aşkar etdikdə İXM-nin 395-ci maddəsinə əsasən həmin materialları prokurora, ibtidai istintaq və ya təhqiqat orqanına göndərir.

Dördüncü sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki:

1. Sübut etmə prosesi özündə sübutların aşkar edilməsini, onların tədqiq edilməsini və sənədləşdirilməsini cəmləşdirir.

2. İnzibati xətalar haqqında işlər üzrə icraatda aşağıdakı hallar müəyyən edilməli və sübuta yetirilməlidir:

- inzibati xəta hadisəsi (inzibati xəta törədilmişdirmi);

- inzibati xəta törətmiş şəxs;

- inzibati xəta törətməkdə şəxsin təqsiri;

- inzibati məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar;

- inzibati xəta nəticəsində vurulan zərərin xarakteri və miqdarı;

- inzibati xətalar haqqında işlər üzə icraatı rədd edən hallar;

- işin düzgün həlli üçün əhəmiyyətli olan digər hallar, habelə inzibati xətanın törədilməsinə kömək edən səbəblər və şərait.

3. Sübutlar dedikdə inzibati xətanın olub-olmamasını, inzibati xəta törədən şəxsin təqsirini və işin düzgün həlli üçün əhəmiyyətli olan digər halları müəyyən etməkdən ötrü hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) əsaslana bildiyi hər cür faktiki məlumatlar başa düşülür.

4. Göstərilən məlumatlar maddi sübutlarla, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin, zərər çəkmiş şəxslərin, şahidlərin izahatları ilə, digər sənədlərlə, xüsusi texniki vasitələrin göstəriciləri ilə, ekspertin rəyi ilə, inzibati xəta haqqında protokolla, İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş digər protokollarla müəyyən edilir.

5. İnzibati xətalar haqqında işlərə baxan hakim, kollegial orqanın üzvü, vəzifəli şəxs işin bütün hallarının məcmusunun hərtərəfli, tam və obyektiv surətdə baxılmasına əsaslanan öz daxili inamı ilə subutları qiymətləndirir.

6. Heç bir sübutun qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

7. İnzibati xətalar haqqında işlər üzrə icraat həyata keçirilən zaman hakim, səlahiyyətli orqan və ya vəzifəli şəxs fiziki şəxs tərəfindən törədilmiş inzibati xətada cinayət əlamətlərini aşkar etdikdə İXM-nin 395-ci maddəsinə əsasən həmin materialları prokurora, ibtidai istintaq və ya təhqiqat orqanına göndərir.

Sual 5.
İnzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərin növləri, onların tətbiq edilməsinin əsasları və qaydası

Azərbaycan Respublikasının İXM-nin 396-408-ci maddələrində inzibati xətalar haqqında işlərin icraatını təmin etmək tədbirlərin tətbiq edilməsinin əsasları, məqsədləri və qaydaları müəyyən edilmişdir.

İXM-nin 396.1-ci maddəsinə əsasən inzibati xətaların qarşısını almaq, şəxsiyyəti müəyyən etmək, inzibati xəta haqqında protokolun yerində tərtibi mümkün olmadıqda, onun tərtibi vacibdirsə, onu tərtib etmək, işlərə vaxtında və düzgün baxılmasını, inzibati xətalar haqqında işlərə dair qərarların icrasını təmin etmək məqsədilə səlahiyyətli vəzifəli şəxs aşağıda göstərilən tədbirləri tətbiq edə bilər:

- gətirilmə;
- inzibati qaydada tutma;
- şəxsi axtarış, fiziki şəxsdə olan şeyləri yoxlama;
- nəqliyyat vasitəsinə baxış;
- şeylərin və sənədlərin götürülməsi;
- nəqliyyat vasitəsinin idarə olunmasından kənar etmə və sərxoşluq vəziyyətinin müayinə etməsi;
- nəqliyyat vasitələrinin saxlanılması;
- nəqliyyat vasitələrinin istismarının qadağan edilməsi.

İnzibati xətalar haqqında işlərin icraatının təmin edilməsi ilə bağlı tədbirlərin qanunsuz tətbiq edilməsi nəticəsində dəymiş zərər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir.

İnzibati xətalar haqqında işlərin icraatını təmin etmək tədbirləri öz məzmunları, tətbiq edilmə əsasları, məqsədləri və qaydaları baxımından bir-birindən fərqlənirlər.

Gətirilmə
(Azərbaycan Respublikasının İXM-nin 397-ci maddəsi)

Azərbaycan Respublikasının İXM ilə müəyyən edilmiş hallarda, eləcə də barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs, onun qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi və ya şahidlər gətirilə bilərlər.

On altı yaşına çatmayan şəxslər, hamilə qadınlar barəsində gətirilmə tətbiq edilə bilməz.

İnzibati xəta haqqında işə baxan hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərardadı əsasında fiziki şəxsin gətirilməsi onun yaşadığı və ya olduğu yer üzrə Azərbaycan Respublikasının yerli daxili işlər orqanları tərəfindən həyata keçirilir.

İnzibati qaydada tutma
(Azərbaycan Respublikasının İXM-nin 398-ci maddəsi)

İnzibati qaydada tutma, yəni fiziki şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılması, müstəsna hallarda inzibati xəta haqqında işin düzgün və vaxtında baxılmasının və ya inzibati xəta haqqında iş üzrə qərarın icrasının təmin edilməsi üçün zəruri hesab edildikdə tətbiq edilə bilər.

İnzibati qaydada tutma aşağıda göstərilən səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən həyata keçirilir:

- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin (onun orqanlarının) vəzifəli şəxsləri - xırda xuliqanlıq edildikdə, şəxs polis işçisinin, habelə hərbi qulluqçunun qanuni sərəncamına və ya tələbinə qəsdən tabe olmadıqda, ov, balıq ovu və balıq ehtiyatlarını mühafizə qaydaları pozulduqda;

- Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (onun orqanlarının) vəzifəli şəxsləri - sərhəd recimi, sərhədboyu (sərhədboyu zolaq) recim və ya Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrində recim pozulduqda;

- mühafizə olunan obyektin olduğu yerdə hərbiləşdirilmiş mühafizə dəstəsinin yuxarı vəzifəli şəxsi - mühafizə edilən obyektlərə, digər dövlət əmlakına və ya ictimai əmlaka qəsd edilməsi ilə əlaqədar inzibati xətalar törədildikdə;

- Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin (onun orqanlarının) vəzifəli şəxsləri - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəqliyyat vasitələrini idarə edən sürücülər və ya başqa şəxslər tərəfindən yol hərəkəti qaydaları pozulduqda;

- fövqəladə vəziyyət elan olunmuş yerin komendantlığının və xüsusi idarəetmə orqanının vəzifəli şəxsləri fövqəladə vəziyyət rejimi pozulduqda.

İnzibati qaydada tutulan şəxsə İXM ilə müəyyən edilmiş hüquqları izah olunmalı, bu barədə inzibati qaydada tutma haqqında protokolda müvafiq qeyd aparılmalıdır.

İnzibati xəta törətmiş şəxsin inzibati qaydada tutulması İXM-nin 399.2-ci və 399.3-cü maddələrində nəzərdə tutulmuş hallar, yəni sərhəd reciminin, sərhədboyu recimin pozulması və barəsində inzibati həbs tənbeh növünün tətbiqini nəzərdə tutan inzibati xəta haqqında iş üzrə icraat istisna olmaqla üç saatdan çox ola bilməz.

Sərhəd rejimini, sərhədboyu (sərhədboyu zolaq) rejimini və ya Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrində rejimi pozduğuna görə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs tərəfindən törədildiyi xətanın hallarını, habelə onun şəxsiyyətini müəyyən etmək üçün inzibati qaydada tutma 24 saatadək müddətə və ya inzibati xəta törədənin şəxsiyyətini təsdiq edən sənədlər olmadıqda, hakimin qərarı ilə üç gün müddətədək ola bilər.

Barəsində inzibati həbs tənbeh növünün tətbiqini nəzərdə tutan inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin inzibati qaydada tutulması 24 saatdan çox ola bilməz.

İnzibati qaydada tutma müddəti inzibati xəta törətmiş şəxsin protokol tərtib etmək üçün gətirildiyi vaxtdan, sərxoş halda olmuş şəxsin isə ayıldığı vaxtdan hesablanır.

İnzibati xəta törətmiş şəxsi tutma haqqında hər bir halda protokol tərtib edilir və inzibati qayda tutma haqqında protokolda aşağıdakı məlumatlar göstərilir:

- protokolun tərtib edildiyi tarix və yer;

- protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı və atasının adı;

- tutulanın şəxsiyyəti haqqında məlumat;

- tutmanın vaxtı və səbəbləri.

Protokol onu tərtib etmiş vəzifəli şəxs və tutulmuş şəxs tərəfindən imzalanır. Tutulmuş şəxs protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda qeyd edilir. Tutulmuş şəxsin izahat vermək və protokolun məzmunu barədə öz mülahizələrini təqdim etmək, habelə protokolu imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququ vardır. Onun bu izahatı və mülahizələri protokola əlavə olunur.

Səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati qaydada tutulmuş şəxsin İXM ilə müəyyən edilmiş hüquqlarının təmin edilməsi üçün aşağıdakı tədbirləri görməlidir:

- tutulmuş şəxsi inzibati xəta haqqında protokolla tanış etmək;

- tutulmuş şəxsə dərhal onun tutulmasının əsaslarını bildirmək, onun hüquqlarını izah etmək;

- tutulmuş şəxsin xahişi ilə onun yaxın qohumlarına, işlədiyi və ya təhsil aldığı yerin müdiriyyətinə, yaxud vəkilinə məlumat vermək;

- tutulmuş yetkinlik yaşına çatmayanın valideynlərinə və ya qanuni nümayəndələrinə dərhal məlumat vermək;

- tutulmuş şəxslə davranışda onun şəxsiyyətinə və ləyaqətinə hörmətlə yanaşmaq;

- tutulmuş şəxsə öz vəkili ilə əlaqə saxlamaq və onunla görüşmək imkanı yaratmaq;

- tutulmuş şəxsin öz vəkili olmadıqda ona müvəqqəti saxlama yeri üzrə ərazidə hüquq məsləhətxanasında və ya Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hüquqi yardımın göstərilməsi fəaliyyəti ilə məşğul olan digər təşkilatlarda fəaliyyət göstərən vəkillərin siyahısını təqdim etmək, seçilmiş vəkillə əlaqə saxlamaq və onunla görüşmək imkanı yaratmaq.

İnzibati qaydada tutulmuş şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş yerlərdə və qaydada saxlanırlar.

Şəxsi axtarış, fiziki şəxsdə olan şeyləri yoxlama
(Azərbaycan Respublikasının İXMnin 402-ci maddəsi)

Fiziki şəxsin şəxsi axtarışı, onda olan şeyləri yoxlama, zəruri hallarda inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə oybekti olmuş predmetin aşkar edilməsi məqsədilə həyata keçirilir. Şəxsi axtarış eyni cinsdən olan səlahiyyətli şəxs tərəfindən və eyni cinsdən olan iki hal şahidinin iştirakı ilə aparılır.

Şeylər (əl yükü, baqaj, ov və balıq ovu alətləri, əldə edilmiş məhsul və digər predmetlər) bunların mülkiyyətçilərinin və ya sahiblərinin iştirakı ilə yoxlanılır. Təxirə salınmayan hallarda mülkiyyətçisi və ya sahibi olmadan göstərilən şeylər iki hal şahidinin iştirakı ilə yoxlanıla bilər.

Şəxsi axtarış və şeyləri yoxlama haqqında protokol tərtib olunur, yaxud inzibati xəta haqqında protokolda və ya inzibati qaydada tutma haqqında protokolda şəxsi axtarışın və şeylərin yoxlanılması barədə qeyd edilir.

Şəxsi axtarış və şeyləri yoxlama haqqında protokolda aşağıdakı məlumatlar göstərilir:

- protokolun tərtib edildiyi tarix və yer;

- protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı və atasının adı;

- barəsində şəxsi axtarış aparılan şəxs haqqında məlumat;

- şəxsi axtarış zamanı aşkar edilən şeylərin növü, miqdarı və digər eyniləşdirmə əlamətləri haqqında məlumat.

Protokol onu tərtib etmiş vəzifəli şəxs, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya axtarış aparılan şeylərin sahibi və hal şahidləri tərəfindən imzalanır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya axtarış aparılan şeylərin sahibi protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır.

Nəqliyyat vasitəsinə baxış
(Azərbaycan Respublikasının İXM-nin 403-cü maddəsi)

Nəqliyyat vasitəsinə baxış, yəni onun konstruktiv bütövlüyünü pozmadan inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlərin müəyyən edilməsi məqsədilə aparılan müayinədir.

Nəqliyyat vasitəsinə baxış nəqliyyat vasitəsi sahibinin və iki hal şahidinin iştirakı ilə aparılır. Təxirə salınmayan hallarda nəqliyyat vasitəsinə baxış nəqliyyat vasitəsinin sahibinin iştirakı olmadan da aparıla bilər.

Zəruri hallarda maddi sübutların qeydə alınması məqsədilə nəqliyyat vasitəsinə baxışda fotoşəkillərin, videoyazıların aparılması tətbiq edilir.

Nəqliyyat vasitəsinə baxış haqqında protokol tərtib olunur və protokolda aşağıdakı məlumatlar göstərilir:

- protokolun tərtib edildiyi tarix və yer;

- protokolu tərtib edən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

- nəqliyyat vasitəsinin sahibi barəsində məlumatlar;

- nəqliyyat vastəsinə baxış keçirilməsi üçün əsaslar;

- nəqliyyat vasitəsinin tipi, markası, modeli, dövlət qeydiyyat nişanı və digər eyniləşdirmə əlamətləri barədə məlumatlar;

- əşyaların növü;

- sənədlərin növü və rekvizitləri.

Nəqliyyat vasitəsinə baxış barəsində protokolda fotoşəkillərdən, videoyazıdan istifadə edilməsi barədə qeyd aparılır. Baxış zamanı fotoşəkillərin, videoyazının tətbiq edilməsi ilə əlaqədar əldə edilmiş materiallar müvafiq protokolla əlavə olunur.

Nəqliyyat vasitəsinə baxış haqqında protokol onu tərtib etmiş vəzifəli şəxs, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya nəqliyyat vasitəsinin sahibi, habelə hal şahidləri tərəfindən imzalanır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya nəqliyyat vasitəsinin sahibi protokolu imzalamaqdan imtina etdikdə bu barədə protokolda müvafiq qeyd aparılır.

Şeylərin və sənədlərin götürülməsi

(Azərbaycan Respublikasının İXM-nin 404-cü maddəsi)

Azərbaycan Respublikasının İXM-nin 404-cü maddəsində iş üçün sübut əhəmiyyətli şeylərin və sənədlərin götürülməsi kimi prosessual tədbirlərin tətbiqi əsasları, məqsədləri və qaydası müəyyən edilmişdir.

Şeyləri və sənədlərin götürülməsi inzibati xətanın baş verdiyi yerdə və ya fiziki şəxsin şəxsi axtarışı zamanı, yaxud onun əşyalarına və ya nəqliyyat vasitəsinə baxış zamanı aşkar edilmiş və iş üçün sübut əhəmiyyəti olan şeylərin və sənədlərin, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olan predmetin götürülməsi inzibati xəta haqqında iş üzrə icraatı aparan vəzifəli şəxs tərəfindən iki hal şahidinin iştirakı ilə həyata keçirilir.(DYP, Xəzər Dəniz Gəmiçiliyi Administrasiysı və «AZAL» Konserni)

Sürücü, gəmisürən, pilot tərəfindən nəqliyyat vasitəsini idarəetmə hüququnun məhdudlaşdırılması növündə inzibati xəta haqqında iş üzrə qərar çıxarılanadək sürücülük vəsiqəsi, gəmiçinin və ya pilotun şəhadətnaməsi götürülür və həmin şəxslərə nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənəd verilir.

Nəqliyyat vasitəsinin idarəetmə hüququnun məhdudlaşdırılması haqqında qərar qəbul edildikdə sürücülük vəsiqəsi qaytarılmır. Nəqliyyat vasitəsini idarəetmə hüququnun məhdudlaşdırılması haqqında qərardan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada şikayətin verilməsi üçün nəzərdə tutulmuş müddət qurtaranadək, yaxud şikayət üzrə qərar qəbul edilənədək, nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənədin qüvvədə olma müddəti uzadılır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 404.3-cü maddəsinə əsasən, şeylərin və sənədlərin götürülməsi haqqında protokol tərtib olunur, yaxud inzibati xəta haqqında protokolda şeylərin və sənədlərin götürülməsi barədə müvafiq qeydlər edilir və protokolda aşağıdakı məlumatlar göstərilir:

- protokolun tərtib edildiyi tarix və yer;

- protokolu tərtib edən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

- şeyləri və sənədləri götürülən şəxs barəsində məlumat;

- şeylərin və sənədlərin götürülməsi üçün əsaslar;

- götürülən sənədlərin növü və rekvizitləri;

- götürülən şeylərin növü, miqdarı, əlamətləri, o cümlədən silahın markası və ya modeli, çapı, seriyası və nömrəsi, döyüş sursatının miqdarı və növü nəqliyyat vasitəsinin tipi, markası, modeli, dövlət qeydyyat nişanı və digər eyniləşdirmə əlamətləri barədə məlumatlar.

Şeylərin və sənədlərin götürülməsi haqqında protokolda fotoşəkillərin çəkilməsi, videoyazı barədə və digər müəyyən edilmiş üsullarla sənədlərin əldə edilməsi barədə qeyd aparılır. Fotoşəkillərin, videoyazının və digər müəyyən edilmiş vasitələrin tətbiq

edilməsi nəticəsində şeylərin və sənədlərin götürülməsi ilə bağlı əldə edilmiş materiallar müvafiq protokola əlavə olunur.

Şeylərin və sənədlərin götürülməsi haqqında protokol onu tərtib etmiş vəzifəli şəxs, şeyləri və ya sənədləri götürülən şəxs, habelə hal şahidləri tərəfindən imzalanır. Şeyləri və ya sənədləri götürülən şəxs protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır. Protokolun surəti barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə, yaxud onun qanuni nümayəndəsinə təqdim edilir. Zəruri hallarda götürülən şeylər və sənədlər yerindəcə qablaşdırılır və möhürlənir.

Götürülmüş şeylər və ya sənədlər inzibati xəta haqqında işə baxılanadək, şeyləri və sənədləri götürmək hüququ olan səlahiyyətli orqanların (vəzifəli şəxslərin) müəyyən etdikləri yerlərdə saxlanılır. Götürülmüş odlu silah və onun patronları, digər silah, eləcə də döyüş sursatı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin müəyyən etdiyi qaydada saxlanılır.

Götürülmüş tez xarab olan mallar satılması üçün müvafiq təşkilatlara verilir, satılması mümkün olmadıqda isə məhv edilir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş standartlarta, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən, götürülmüş narkotik vasitələr və psixotrop maddələr, etil spirti, alkoqollu və tərkibində spirt olan məhsullar Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən etdiyi qaydada yenidən istehsala göndərilir və ya məhv edilir.

İnzibati xəta haqqında iş üzrə qəbul edilmiş qərar qanuni qüvvəyə mindiyi günədək məhv edilməli oan narkotik vasitələrin və psixotrop maddələrin, etil spirtinin, alkoqollu və tərkibində spirt olan məhsulların nümunələri saxlanılır.

Bəzi hallarda icraat zamanı götürülmüş şeylərin qiymətləndirilməsi problemi yaranır. Bu məsələ İXM-nin 405-ci maddəsinə uyğun olaraq həll edilir.

Götürülmüş şeylər aşağıdakı hallarda qiymətləndirilir:

- inzibati xətanın bilavasitə obyekti olmuş predmetin dəyəri ilə ölçülən inzibati cərimə meyarı tətbiq edildikdə;

- götürülmüş mallar tez xarab olan mallar olduqda və həmin mallar məhv edilməyə göndərildikdə;

- etil spirti, alkoqollu və tərkibində spirt olan məhsullar yenidən istehsala göndərildikdə və ya məhv edildikdə.

Götürülmüş şeylərin qiymətləri dövlət tərəfindən tənzimlənirsə, dövlət tənzimləmə qiymətləri tətbiq edilir. Digər hallarda götürülmüş şeylərin qiyməti bazar qiymətinə əsasən qiymətləndirilir. Göstərilən qaydada qiymətləndirmə mümkün olmadıqda götürülmüş şeylərin qiyməti ekspertin rəyi əsasında müəyyən edilir.

Nəqliyyat vasitəsini idarə olunmasından kənarlaşdırma
(Azərbaycan Respublikasının İXM-nin 406-cı maddəsi)

✍ **İXM-nin 406.1 maddəsinə əsasən fiziki şəxslər aşağıdakı hallarda nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırılırlar:**

- dayandırılmış nəqliyyat vasitəsini idarə edən şəxsdə və onunla birlikdə gedən sərnişinlərdən hər hansı birində sürücülük vəsiqəsi və ya nəqliyyat vasitəsinin

qeydiyyat şəhadətnaməsi, yaxud həmin nəqliyyat vasitəsini idarə etmək hüququ verən digər əsas olmadıqda;

- nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanları və ya onlardan biri yerində olmadıqda, yaxud saxta və ya qeyri standart olduqda və ya nəqliyyat vəsitəsini başqa nəqliyyat vasitələrinə venilmiş dövlət qeydiyyat nişanları ilə idarə etdikdə;

- dayandırılmış nəqliyyat vasitəsinin mühərriki, ban və şasi nömrəsi nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsindəki rəqəmlərlə uyğun gəlmədikdə;

- dayandırılmış nəqliyyat vasitəsi qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilmədikdə;

- dayandırılmış nəqliyyat vasitəsi alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə edilməsi nəticəsində sərxoş vəziyyətdə olmasına güman etməyə kifayət qədər əsas olan şəxs tərəfindən idarə olunduqda və onunla birlikdə gedən sərnişinlərdən birində sürücülük vəsiqəsi olmadıqda.

Sərxoşluq vəziyyətini müayinəsi
(Azərbaycan Respublikasının İXM-nin 406-cü maddəsi)

İXM-nin 406.2-406.4-cü maddələrinə müvafiq olaraq nəqliyyat vasitələrini idarə edən şəxslərin sərxoş vəziyyətdə olduqlarını güman etməyə kifayət qədər əsas olduqda, onların sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün xüsusi texniki vasitələrdən istifadə edilir və ya onlar tibbi müayinəyə göndərilir.

Nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırma və sərxoşluq vəziyyətini müəyyən etmək üçün xüsusi texniki vasitələrdən istifadə etmək və ya tibbi müayinəyə göndərmək barədə protokol tərtib olunur və həmin sənədin surəti barəsində belə tədbir tətbiq edilən şəxsə verilir.

Nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırma və sərxoşluq vəziyyətini müəyən etmək üçün xüsusi texniki vasitələrdən istifadə etmək və ya tibbi müayinəyə göndərmək haqqında protokolda aşağıdakılar göstərilir:

- protokolun tərtib edildiyi yer, tarix və vaxt;

- protokolu tərtib edən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

- nəqliyyat vasitəsini idarə etmədən kənarlaşdırmanın və sərxoşluq vəziyyətini müəyyən etmənin əsasları;

- nəqliyyat vasitəsini idarə edən şəxs barəsində məlumatlar;

- nəqliyyat vasitəsinin tipi, markası, modeli, dövlət qeydiyyat nişanı və digər eyniləşdirmə əlamətləri barədə məlumatlar.

Nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırma və sərxoşluq vəziyyətini müəyyən etmək üçün xüsusi texniki vasitələrdən istifadə etmək və ya tibbi müayinəyə göndərmək haqqında protokol onu tərtib etmiş vəzifəli şəxs, habelə nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırılan və sərxoşluq vəziyyətini müəyyən etmək barəsində, xüsusi texniki vasitələrdən istifadə edilən və ya tibbi müayinəyə göndərilən sürücü (gəmi sürücüsü) tərəfindən imzalanır. Sürücü (gəmi sürücüsü) protokolu imzalamaqan imtina etdikdə bu barədə protokolda müvafiq qeyd aparılır.

Sərxoşluq vəziyyətini müəyyən etmənin tibbi müayinəsi və onun nəticəsinin tərtib olunması Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi müəyyən etdiyi qaydada həyata keçirilir.

Sərxoşluq vəziyyətini müəyyən etmənin tibbi müayinəsi barədə akt müvafiq protokola əlavə olunur.

Nəqliyyat vasitələrinin saxlanılması
(Azərbaycan Respublikasının 407-ci maddəsi)

Nəqliyyat vasitələrinin saxlanılması təmin etmək tədbiri icraatın düzgün və qanunvericiliklə müəyyən edilmiş qaydada yerinə yetirilməsinə xidmət edir.

İXM-nin 407-ci maddəsinə müvafiq olaraq, nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırma və sərxoşluq vəziyyətinin müayinəsi hallarının, yaxud nəqliyyat vasitəsinin qanunvericiliklə müəyyən edilmiş dayanma və durma qaydalarının pozulduğu hallarda nəqliyyat vasitələri müvəqqəti oalraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağında saxlanılır.

Üç saat ərzində nəqliyyat vasitəsinin saxlanılması səbəbini yerində aradan qaldırmaq mümkün olduqda, nəqliyyat vasitəsi onu yol hərəkətində iştirakdan kənarlaşdırmış Azərbaycan Respublikasının DİN-nin DYP-nin əməkdaşının yanında saxlanılır. Belə səbəb aradan qaldırılıdığı barədə lazımi sənədlər təqdim edildikdən və ya mübahisəli hallar araşdırıldıqdan və ya xətaya görə inzibati tənbeh verildikdən dərhal sonra saxlanılmış nəqliyyat vasitəsi onun sahibinə qaytarılır.

Üç saat ərzində nəqliyyat vasitəsinin saxlanılması səbəbini yerində aradan qaldırmaq mümkün olmamışdırsa, nəqliyyat vasitəsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağına gətirilir. Nəqliyyat vasitəsinin saxlanılması səbəbi aradan qaldırıldığı barədə lazımi sənədlər təqdim edildikdən və ya xətaya görə inzibati tənbeh verildikdən, nəqliyyatı vasitəsinin duracağa gətirilməsi və onun orada saxlanılması üçün haqq ödənildikdən dərhal sonra, saxlanılmış nəqliyyat vasitəsi sahibinə qaytarılır.

Nəqliyyat vasitəsinin saxlanılması iki nüsxədə olan aktla rəsmiləşdirilir, onun birinci nüsxəsi inzibati xəta haqqında protokola əlavə edilir, surəti isə nəqliyyat vasitəsini idarə edən şəxsə verilir,

Nəqliyyat vasitələrin istismarının qadağan edilməsi
(Azərbaycan Respulbikasının İXM-nin 408-ci maddəsi)

Tormoz sistemi və ya sükan idarə mexanizmi nasaz olan və ya xarici işıq cihazları və ya qabaq şüşənin şüşə silgəcləri və şüşəyuanları və ya təkərləri və şinləri, yaxud konstruksiyasının digər ünsürləri nasaz olan və belə nasazlığın aradan qaldırılması mümkün olmayan nəqliyyat vasitəsinin istismarı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən qadağan edilir.

N Ə T İ C Ə

Mühazirənin yekunlaşdıraraq qeyd etmək istərdim ki, plana daxil edilmiş sualların açıqlanması ilə mənimsənilməsi zəruri olan hüquqi biliklər həm nəzəri, həm də təcrübi cəhətdən böyük əhəmiyyət kəsb edir. Çünki bu biliklər hüquq mühafizə orqanların qarşısında duran əsas vəzifələrin- ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi

sahələrində qanunvericiliyə müvafiq olaraq yerinə yetirilməsinin hüquqi bazasını təşkil edir.

Mühazirənin gedişatı prosesində cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizədə hüquq mühafizə orqanlarının inzibati fəaliyyətinin əsas istiqamətlərindən biri olan inzibati yurisdiksiya fəaliyyətinin rolunun böyük olduğu xüsusilə qeyd edilmişdir. Digər tərəfdən isə inzibati yurisdiksiya fəaliyyətinin qanunvericiliyə müvafiq olaraq həyata keçirilməsini təmin etmək məqsədilə mühazirənin vasitəsi ilə mənimsənilməsi zəruri olan hüquqi biliklərin sizin hər biriniz tərəfindən daha dərindən və ətraflı öyrənilməsi gələcək fəaliyyətinizin əsas şərtlərindən biridir.

Belə ki, olunanları mənimsəməklə sizlər gündəlik xidməti vəzifələrinizi həm inzibati xətalar qanunvericiliyinə müvafiq olaraq, həm də qanunçuluq çərçivəsində həyata keçirəcəksiniz.

Nəhayət bu biliklərin vasitəsilə sizlər gələcək hüquqşünas kimi Azərbaycan Konstitusiyasının 12 maddəsindən və ″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ 22 fevral 1998-ci il tarixli Fərmanından irəli gələn tələblərin yerinə yetirilməsinə nail olmuş olacaqsınız.

Mövzu № 17. ″Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi″

P L A N :

G İ R İ Ş

4. Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinin məzmunu və əhəmiyyəti.
5. Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinin üsulları və onların xarakteristikası.
6. Hüquq mühafizə orqanlarının fəaliyyətində qanunçuluğun və intizamın təmin edilməsi üsulları.

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T:

7. Azərbaycan Respublikasının Konstitusiyası.
8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, 2000.
9. **″Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında″ Azərbaycan Respublikasının Qanunu. 10 iyun 1997-ci il.**
10. ″Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında″ Azərbaycan Respublikasının Qanunu. 11 iyun 1999-cu il.
11. ″Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında″ Azərbaycan Respublikasının Qanunu. 29 dekabr 1998-ci il.
12. «Konstitusiya məhkəməsi haqqında» Azərbaycan Respublikasının Qanunu 23 dekabr 2003-cü il.
13. «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu 04 mart 2004-cü il.

14.«Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında» Azərbaycan Respublikasının Qanunu 13 may 2003-cü il.
15.″Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması qaydalarının təsdiq edilməsi barədə″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 03 yanvar 1999-cu il.
16.″İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
17.″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 09 avqust 1994-cü il.
18.″Polis haqqında″ Azərbaycan Respublikasının Qanunu. 28.10.1999-cu il.
19. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin 04.01.02 tarixli 6 saylı əmri: «DİO-nun intizam nizamnaməsi»
20.Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin 24.10.03-cü il tarixli əmri: «Nəqliyyat vasitələrinin texniki vəziyyətinə dair və onların təhlükəsizlik hərəkətinin təmin edilməsinə DYP-nin nəzarəti qaydaları barədə təlimatın təsdiq edilməsi barədə».
21.Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə. Bakı, 2003.
16. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
17. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
18. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. ″İnzibati hüquq″ II hissə. Dərs vəsaiti. Bakı, 2006.
19. E.Abdullayev. ″Vətəndaşların inzibati məsuliyyəti″. Dərs vəsaiti. B.,1992.
20.″İnzibati hüquq″ (sxemlərdə). Dərs vəsaiti. AR DİN-in Polis Akademiyası. Bakı, 2002.
21.E.M.Kozlov, L.L.Popov. ″Administrativnoe pravo″ Dərslik.M., 2000.
22. D.N.Baxrax. ″Administrativnoe pravo Rossii″. Dərslik. M., 2000.

G İ R İ Ş

Barəsində danışılacaq mövzu öz əhəmiyyəti baxımından bilavasitə dövlət idarəciliyinin mahiyyəti və məzmununu ilə baqlıdır. Belə ki, dövlətimizin qanunvericilik sisteminin əsasını təşkil edən Konstitusiyanın 72-ci maddəsinə əsasən, hər bir şəxs Azərbaycan Respubikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən olunmuş diğər vəzifələri yerinə yetirməlidir.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinə dəqiq və dönmədən riayət etmək üçün mühazirənin birinci sualında ″Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinin məzmunu və əhəmiyyəti″ barədə müxtəlif anlayışlar və təhlillər veriləcəkdir.

Mövzunun ikinci sualında yəni ″Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinin üsulları və onların xarakteristikası″ dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsullarının növləri və onların hər birinin xarakteristikası barədə hüquqi biliklər əldə etmiş olacağıq.

Bu günkü mövzunun əhəmiyyəti ondan ibarətdir ki, siz gələcəkdə icra hakimiyyəti orqanları sisteminə daxil olanhüquq mühafizə orqanlarında fəaliyyət göstəcəksiz və respublikada icra hakimiyyətinin həyata keçirilməsində bilavasitə iştirak edəcəksiniz. Ona görə də, bu orqanların fəaliyyətində qanunçuluğun və intizamın təmin edlməsi üsulları haqqında nəzəri biliklər əldə etməli və qarşıda duran vəzifələri yerinə yetirərkən qanunçuluğun və intizamın təmin edilməsinə dəqiq və dönmədən riayət etmiş olmalısız.

Nəhayət, qeyd etmək lazımdır ki, siz öz gündəlik vəzifələrinizi yerinə yetirərkən dövlət idarəetməsində qanunçuluğa və intizama dəqiq və dönmədən riayət etməklə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinə nail olmuş olarsınız.

Sual 1.
Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinin məzmunu və əhəmiyyəti

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilən müddəalardan irəli gələn tələblərə hər bir dövlət orqanı və onun vəzifəli şəxsləri tərəfindən dəqiq və düzgün riayət olunması onların vəzifə borclarıdır. Dövlət idarəetməsində bu vəzifə borclarının vaxtında, dəqiq və düzgün yerinə yetirilməsi ilə dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinə nail olunur. Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi sahəsində mütəmadi olaraq dövlət tərəfindən bir sıra tədbirlər də həyata keçirilir. Buna 09 avqust 1994-cü il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilmiş ″Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında″ Fərmanı əyani misal olaraq gösərmək olar.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulları haqqında danışmazdan əvvəl ilk növbədə qanunçuluq haqqında danışmaq daha məqsədəuyğundur.

Qanunçuluq **– hüququn bütün subyektləri tərəfindən qanunların və onların əsasında qəbul edilmiş hüquqi aktların tələblərinin ciddi və tam şəkildə yerinə yetirilməsidir.**

Qanunçuluq aşağıdakı əsas əlamətlər ilə xarakterizə olunur:

Birincisi, qanunçuluğun ən mühüm cəhəti onun ümumiliyidir. Qanunçuluğun ən mühüm cəhəti onun ümumi xarakterə malik olmasıdır. Belə ki, hüquq normalarına hər bir şəxs eyni səviyyədə riayyət etməlidir. Dövlətin göstərişlərinin icrası məcburidir, öz növbəsində isə, dövlət şəxsiyyətin qanuni hüquqlarının təminatcısıdır.

Ümumilik, qanunçuluğun zəruri əlaməti kimi həm dövlətə, həm də onun vətəndaşlarına şamil olunur. Daha dəqiq desək, dövlət vətəndaş qarşısında, vətəndaş isə dövlət qarşısında məsuliyyət daşıyır. Lakin bu o demək deyil ki, dövlət bütün fərdi maraqları nəzərə almalıdır, amma o qanunvericilik fəaliyyəti vəsitə ilə vətəndaşlara xüsusi əmlak və fəaliyyət azadlığı ilə sərbəst davranmaq imkanı verə bilər və verməlidir.

Hüquqi göstərişlərin yerinə yetirilməsinin təmini dövlətin və onun orqanlarının vəzifəsidir. Çünki dövlət zəruri təşkilati, maddi və məcburetmə vasitələrinə malikdir.

Adları çəkilən təzahürlərdən istifadə etməklə o vətəndaşların hüquq və qanuni mənafelərini (edəcədə təşkilat və müəssisələrin) təmin etməlidir.

İkincisi, qanunçuluq hüquqla, hüquq normaları ilə sıx bağlıdır. Çünki ölkədə qanunçuluq reciminin vəziyyətini dövlətin qanunlarının, ictimai tərəqqinin inkişafının obyektiv tələblərini nə dərəcədə əks etdirməsinə görə qiymətləndirmək olar. Əgər dövlətin qəbul etdiyi hüquq normaları yalnız ayrı-ayrı şəxslərin və ya müəyyən sosial qrupların mənafelərini əks etdirir və qoruyursa, bu zaman ölkənin bütün əhalisinin ümumi və fərdi maraqlarını nəzərə almırsa – qanunçuluqdan söhbət gedə bilməz. Digər tərəfdən isə əgər hüquq normaları əhalinin müxtəlif təbəqələrinin mənafelərini yalnız formal olaraq əks etdirir, lakin onlara təminat vermirsə, bu zaman da qanunçuluqdan danışmağa dəyməz. Qanunçuluğun normativ əsasını ictimai münasibətlərin bütün iştirakçılarının ümumi və fərdi maraqlarını eyni dərəcədə əks etdirən hüquqi qanunlar təşkil edir.

Beləliklə, dövlət idarəetməsində qanunçuluq recimi bir-birinə bağlı olan iki amili nəzərdə tutur:

- ictimai tərəqqinin tələblərinə cavab verən mükəmməl, dəqiq işlənib hazırlanmış qanunvericiliyi;

- normativ-hüquqi aktların tələblərinin dövlət orqanları, vəzifəli şəxslər, vətəndaşlar və müxtəlif subyektlər tərəfindən tam və qeyri-şərtsiz icrasını.

Dövlət idarəetmə sahəsində qanunçuluğun məzmununu və mahiyyətini – dövlət iadrəetmə sahəsində yaranan ictmai münasibətlərin iştirakçıları tərəfindən hüquq normalarına ciddi və dönmədən riayət edilməsi və onların tələblərinin icra edilməsi təşkil edir.

Qanunçuluq, dövlət idarəetməsinin əsas prinsipi kimi qanunvericilikdə öz əksini tapır və möhkəmləndirilir. Dövlət idarəetməsinin bu prinsipi konstitusion prinsipdir. Azərbaycan Respublikası Konstitusiyasının 72-ci maddəsində göstərilmişdir ki, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Dövlət idaretməsində qanunçuluq prinsipinə riayət edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu, dövlət idarəetməsinin xarakteri və idarəetmə sahələrinin xüsusiyyətləri ilə əsaslandırılır.

Dövlət idarəetməsində qanunçuluğa riayət edilməsinin zəruriliyini əsaslandıran amillər aşağıdakılardır:

- idarəetmə – həyat fəaliyyətinin ən geniş sahəsidir. O, özündə insanların həyat əhəmiyyətli əsas maraqlarını cəmləşdirir və onları həll edir. Onunla dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və idarəetmənin birgə subyektlərinin, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarının təmin edilməsinə, idarəetmənin müxtəlif sahələrində və bölmələrində insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə istiqamətləndirilmiş çoxtərəfli fəaliyyətləri həyata keçirilir;

- qanunçuluğa riayət edilməsi – idarəetmə subyektləri sisteminin normal və səmərəli fəaliyyət göstərmələrinin əsas şərtidir. İdarəetmə sisteminin subyektləri özlərinin vəzifə və funksiyalarını, vəzifə borclarını və hüquqlarını həyata keçirərək hüquqi fəaliyyəti həyata keçirirlər, yəni onlar bu fəaliyyət vasitəsi ilə hüquqi və fiziki şəxslərin hüquqlarını, azadlıqlarını və qanuni maraqlarını əhatə edən geniş ictimai münasibətlər dairəsini nizamasalan hüquqi və fərdi idarəetmə aktlarını qəbul edirlər.

Ona görə də idarəetmənin bu aktlarının qanunauyğunluğu vacibdir və idarəetmə subyektlərinin təşkilatçılıq fəaliyyətləri qanunçuluğun tələblərinə müvafiq olaraq həyata keçirilməlidir. Qanunverici dövlət idarəetmə subyektlərinin səlahiyyət həcmini müəyyən edir, onların həyata keçirilməsi qaydasını nizama salır; idarəetmə sahəsində vətəndaşların subyektiv hüquqlarının həyata keçirilməsinə təminat verir. Məsələn: icra hakimiyyəti orqanların (vəzifəli şəxslərin) qanuna zidd hərəkətlərindən məhkəməyə şikayət vermə hüququnun həyata keçirilməsinə;

- idarəetmə orqanları dövlət (inzibati) məcburetmə tədbirlərinin tətbiq edilməsi üzrə geniş səlahiyyətlərə malikdirlər. Onlar öz gündəlik fəaliyyətlərində müstəqil olaraq mübahisəli vəziyyətləri həll edirlər, inzibati yurisdiksiya fəaliyyətini həyata keçirirlər, hüquqpozan şəxslərə bilavasitə təsir göstərirlər, onlara qarşı qanunvericiliklə nəzərdə tutulmuş dövlət təsir tədbirlərini tətbiq edirlər. Dövlət orqanları öz gündəlik fəaliyyətlərində göstərilən bu funksiyaları həyata keçirməkdə qanunçuluğu möhkələndirirlər.

Yuxarıda qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olar ki, qanunçuluq idarəetmə, icra fəaliyyətin növlərinə və istiqamətlərinə şamil edilir. İdarəetmə qanunçuluq prinsipi əsasında idarəetmə sahəsində qanunçuluq rejimi vəziyyətini, idarəçilik münasibəti iştirakçıları tərəfindən hüquq realizəsinin vahid formasını, bu münasibətlərin sabitliyini və nizamasalınmasını təmin edir.

Qanunçuluğun tələbləri

İdarəetmənin bütün sahələrində və bölmələrində qüvvədə olan (təsir göstərən, fəaliyyət göstərən) və qanunçuluğun özünün məzmun və mahiyyətini əks etdirən prinsiplərdən fərqli olaraq, ″qanunçuluğun tələbləri″ idarəetmənin ayrı-ayrı subyektlərinin idarəetmə fəaliyyətlərinin ayrı-ayrı növləri (istiqamətləri) ilə bağlıdır. Məsələn: inzibati xətalar haqqında işlərə baxılarkən qanunçuluğun tələbi İXM-nə əsasən, aşağıdakı tədbirlərin və tələblərin yerinə yetirilməsindən ibarətdir:

- inzibati xətalara görə inzibati tənbeh İXM-nə uyğun olaraq tətbiq edilir (m.6.1. İXM)

- inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirləri (m.396 İXM) tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə və şikayət etmək hüququ ilə təmin edilir (m.6.2 İXM);

- Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqinə yol verilmir (m.6.3 İXM).

Qanunçuluğun prinsipləri öz əkslərini qanunçuluğun tələblərində tapırlar.

İdarəetmənin effektivliyi təkcə qanunçuluğun tələblərinə riayət etmədən deyil, o həm də idarəetmə subyektlərinin intizamından asılıdır.

İdarəetmədə intizam – təkcə idarəetmənin müxtəlif sahələrində və bölmələrində bilavasitə fəaliyyət göstərən icra hakimiyyəti orqanlarının qulluqçuları tərəfindən qanunların və yuxarı təbəqəli idarəetmə subyektlərinin digər normativ aktlarının icrasını nəzərdə tutmur.

İntizam da qanunçuluq kimi idarəetmə subyektlərinin hərəkətlərinin yüksək səviyyədə təşkil edilməsində və razılaşdırılmasında əsas rol oynayır.

İntizam və qanunçuluq bir-birilə qarşılıqlı surətdə bağlıdırlar. Qanunlara və digər normativ aktlara riayət edilməsi – həm qanunçuluğun, həm də dövlət intizamının tələbidir. Qanunçuluq intizamın əsasını təşkil edir və yaxud da intizamın əsas tələblərindən biri qanunlara və digər normativ-hüquqi aktlara riayət etmədir. İntizama riayət etmədən qanunçuluğun təmin edilməsi mümkün deyil. Qanunçuluğun möhkəmləndirilməsi və təmin edilməsi vasitələri intizamın möhkəmləndirilməsi vasitələridir.

Qanunçuluq və intizamın bir-biri ilə qarşılıqlı surətdə bağlı olmalarına baxmayaraq, onlar məzmunca eyni deyildirlər. İntizam – insanların davranış qaydalarını təkcə ictimai münasibətlərin hüquqi nizamasalınması sahəsində nəzərdə tutulmur. Çünki intizamın məzmunu qanunçuluğun məzmunundan daha genişdir. O, özündə təkcə hüquqi tələblərə əsaslanan vəzifələrin icrasını və hüquqların realizəsini deyil, həm də digər sosial normaların tələblərinə əsaslanan vəzifələrin icrasını və hüquqlarının göstərişlərinə riayət olunmasını və onların icra edilməsini tələb edir.

Qanunçuluğun və intizamın tələblərini yerinə yetirərkən idarəetmənin hər bir subyekti, hüquqi və fiziki şəxslər idarəetmədə qanunçuluğa və intizama riayət olunmasına fikir verməyə borcludurlar.

Yuxarıda qeyd etdiklərimizdən belə nətiyəcə gəlmə olar ki, dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsində ″dövlət intizamının″ möhkəmləndirilməsi mühüm rol oynayır.

Dövlət intizamı – dövlətin vəzifə və funksiyalarının təcrübi cəhətdən həyata keçirilməsində dövlət təşkilatları, işçiləri və qulluqçuları, ictimai təşlkilatlar və vətəndaşlar tərəfindən dövlət tərəfindən müəyyən edilmiş qayda və konkret göstərişlərə riayət edilməsindən, onların dəqiq və dönmədən icra edilməsindən ibarətdir.

Dövlət intizamının xarakterik əlaməti ondan ibarətdir ki, dövlət idarəetmə sahəsində yaranan ictimai münasibətlərin iştirakçılarından heç olmazsa biri orqan və ya vəzifəli şəxs qismində təqdim olunan dövlət olmalıdır. Məhz, bu əlamət də dövlət intizamının digər intizam növlərindən ayrılmasına imkan verir.

Dövlət intizamı öz növbəsində müəyyən növlərə bölünür.

Dövlət intizamının növlərə bölünməsi təsnifatının əsasını, məzmun və miqyasını nəzərə alaraq müxtəlif və o cümlədən çoxsaylı meyarlar təşkil edə bilər.

Dövlət idarəçiliyi təcrübəsi üçün aşağıdakı meyarlar daha çox əhəmiyyət kəsb edirlər:

- təşkilati;

- funksional;

-funksional-təşkilati, bu meyar özündə əvvəlki iki meyarların əlamətlərini birləşdirir.

Təşkilati meyar – dövlət intizamının növlərə bölünməsinin əsasını təşkil edir. Dövlət intizamının növlərə bölünməsi iqtisadiyyatın və dövlət idarəçiliyinin başqa sahələrinin strukturunun müxtəlifliyi ilə şərtləndirilir. Çünki iqtisadiyyatın və dövlət idarəçiliyinin başqa sahələrinin strukturundakı sahələr, birliklər, idarə, müəssisə və təşkilatlar təşkilati cəhətdən fərdiləşdirilmiş formada fəaliyyət göstərirlər. Buna da müvafiq olaraq dövlət intizamının sahəvi (sənaye, nəqliyyat, tikinti, hərbi və s.) və idarə, müəssisə və təşkilat miqyasında olan intizam növləri mövcuddur.

Funksional meyar - müxtəlif idarəetmə funksiyalarının mövcudluğunu nəzərə almaqla və onlara əsaslanaraq, dövlət intizamını müxtəlif növlərə bölmək olar. Məlumdur ki, istənilən idarəetmə fəaliyyətinin də məzmunu müxtəlif idarəetmə funksiyalarının məcmusundan ibarətdir. İdarəetmənin ümumi funksiyalarına əsasən, proqnozlaşdırma, planlaşdırma, maliyyələşdirmə, kardrlarla təmin etmə, uçot və yoxlama, kadr işləri və digər funksiyalar aiddirlər. İdarəetmənin hər bir funksiyasının realizəsi üzrə çoxsaylı qaydalar müəyyən edilmiş və fəaliyyət göstərirlər. Bu qaydalara riayət etmə də funksional intizamın məzmununu təşkil edir. Buna da müvafiq olaraq, dövlət idarəetməsində plan, maliyyə, kadr xidməti, icraçılıq, hesabat-statistika və s. kimi intizam növləri mövcuddur.

Funksional-təşkilati meyar – təşkilati miqyaslarda funksional intizam qaydalarının fəaliyyət göstərmələri nəticəsində və təşkilati miqyaslarda, yəni sahə, birlik və s. miqyaslarda onların fərqlərinin qeyd edilməsi üçün tətbiq edilir. Belə hallarda ümumdövlət miqyasında fəaliyyət göstərən funksional inti-zam qaydaları, sadəcə olaraq funksional intizam qaydası kimi qalacaqdır. Sa-həvi miqyasda fəaliyyət göstərən funksional intizam qaydalarının isə funk-sional-sahəvi intizam qaydası kimi adlandırılması qəbul edilmişdir. Məsələn, maliyyə-sənaye intizamı, sənayedə standartlar intizamı, tikintidə standatlar intizamı və s. İdarə, müəssisə və təşkilat miqyasında fəaliyyət göstərən funksional intizam qaydaları funksional-istehsalat intizamının məzmununu təşkil edir. Məsələn: istehsalat-maliyyə, istehsalat-texnoloci (standartlara riayət etmə), istehsalat-icraçılıq və s. funksional-istehsalatçılıq intizam qaydaları.

Dövlət intizamının sahəvi növlərindən biri də hərbi intizamdır. Hərbi intizamın məzmununu hərbi xidmət qaydalarının icra edilməsi təşkil edir. Hərbi intizam hərbi nizamnamələr, əsasnamələr və digər normativ aktlarla nizama salınır.

Məsələn, hərbi intizam əsasında polisdə və DİN-in sisteminin digər strukturlarında intizam təşkil edilir. Polisdə xidmət keçmənin əsasları ″Polis haqqında″ Azərbaycan Respublikasının 28.10.1999-cu il tarixli Qanunu ilə tənzimlənir.

İnzibati mülahizə

İnzibati mülahizə – işin həll edilməsi üçün səmərəli (optimal) qərarın qəbul edilməsi məqsədi ilə (hüquqi cəhətdən həll edilməsində) idarəetmə orqanın (vəzifəli şəxsin) hüquq normaları çərçivəsində müəyyən edilmiş müstəqillik dərəcəsidir.

İnzibati mülahizə – qanunçuluqla çıx qarşılıqlı əlaqədədir.

İnzibati mülahizənin mövcudluğu müxtəlif sahələrdə yaranan vəziyyətlərin mürəkkəbliyi, idarəçilik fəaliyyətinin yaradıcılıq xarakterliyi və onun müxtəlifliyi ilə şərtləndirilir. İdarəçilik fəaliyyətinin bütün sahələrinin hüquq normaları ilə dəqiqliklə nizamasalınmasının zəruriliyi və mümkünlüyünə ehtiyac yoxdur.

İnzibati hüquqda inzibati mülahizənin bir neçə müxtəlif növləri mövcuddur.

1. İnzibati mülahizə – səlahiyyətli orqana (vəzifəli şəxsə) hüquqi faktın onların öz fikrinə (baxışlarına), öz daxili inamı ilə hüquqi faktın qiymətləndirilməsinə görə qiymətləndirilməsi hüququnun verilməsi ilə ifadə oluna bilər. Məsələn, Azərbaycan Respublikası İXM-nin 27-ci maddəsinə əsasən törədilmiş inzibati xəta az əhəmiyyətli olduqda, inzibati tənbeh tətbiq etmə hüququ olan hakim, səlahiyyətli orqan (vəzifəli

şəxs) inzibati xəta törətmiş şəxslər barəsində tətbiq edilməsi nəzərdə tutulan inzibati tənbehi daha yüngül tənbeh növü ilə əvəz edə və ya həmin şəxsi inzibati məsuliyyətdən azad edə bilər. Törədilmiş ″inzibati xətanın az əhəmiyyətli″ kimi qiymətləndirilməsi səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən həyata keçirilir, yəni, həmin orqan (vəzifəli şəxs) törədilmiş inzibati xətanı az əhəmiyyətli kimi qiymətləndirə də bilər, qiymətləndirməyə də bilər.

2. İnzibati mülahizənin növlərindən biri kimi həm də, azad seçim əsasında qanunçuluq nöqteyi-nəzərdən inzibati-hüquq norması əsasında işin həll edilməsi üçün müxtəlif variantlarından birinin qəbul edilməsi üzrə hüququnun verilməsini də hesab etmək olar. Məsələn, Azərbaycan Respublikasının İXM-nin 298-ci maddəsinə əsasən, hüquqpozan şəxsə qarşı tətbiq edilən istənilən tənbeh tədbiri qanunçuluq tələblərinə eyni dərəcədə cavab verəcəkdir. Çünki bu maddədə alternativliyin daha yaxşı variantı müəyyən edilməmişdir. Bu hüquq (səlahiyyət) hüquqtətbiqedən vəzifəli şəxsə verilmişdir. Belə hallarda vəzifəli şəxs faktiki vəziyyəti və işin xarakterini nəzərə alaraq bir neçə mümkün varinatlardan birini seçir. Hüquqtətbiqedicinin mülahizəsi hüquqi faktı (hüquqpozmasına) qiymət verilən zaman, yəni, hüquqpozanın şəxsiyyəti, inzibati xətanın xarakteri və ictimai təhlükəlilik dərəcəsi qiymətləndirilən zaman və inzibati tənbehin daha effektivli, məqsədəuyğun və ədalətli növünün (xəbərdarlıq, cərimə, inzibati həbs) seçilməsi zamanı yaranır.

3. İnzibati mülahizənin üçüncü növü - fəaliyyəti nizamasalan normada olan göstərişlər əsasında həmin orqan və ya vəzifəli şəxs tərəfindən iş üzrə qərarın qəbul edilməsindən ibarətdir (məsələn, ″müəyyən edir″, ″həll edir″, ″təyin edir″, ″hüququ vardır″ və s.). Belə hallarda idarəetmə orqanının və ya vəzifəli şəxsin fəaliyyətini nizamasalan normalarada həmin orqan və ya vəzifəli şəxslərin nə vaxt fəaliyyət göstərmələri, hərəkət etmələri şəraitinin qəti (tam) və ya dəqiq siyahısı göstərilməmişdir. Adətən belə ″ifadə edilmələr″ subyektlərə onların üzərinə qoyulmuş funksiyaların yerinə yetirilməsi üçün zəruri olan norma səlahiyyətlərini tətbiq etməyə səlahiyyət verən normativ aktlarda öz əkslərini tapırlar. Məsələn, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi haqqında Əsanamənin 5.3.2-ci bəndinə əsasən daxili işlər naziri öz müavinləri arasında vəzifə bölgüsünü aparır. Daxili İşlər Nazirliyi haqqında Əsasnamənin bu müddəası DİN-in 04 mart 1998-ci il tarixli əmrində də, ″Xidmət və hissələrə kuratorluğun bölüşdürlüməsi barədə″ öz əksini tapmışdır.

İnzibati hüququn səlahiyyətverici normalarının təhlili göstərir ki, dövlət idarəetmə orqanları tərəfindən təşkilati məsələlərin həll edilməsində onlara inzibati mülahizə üçün geniş imkanlar verilir. İdarəetmə orqanları haqqında əsasnamələrin çoxunda müxtəlif təşkilati məsələlərin həllinin forma və üsulları müəyyən edilir. Lakin bu və ya digər təşkilati məsələlərin operativ həll edilməsinin forma və ya üsullarının seçimi orqan tərəfindən hüquqi əsasnamə çərçivəsində müstəqil inzibati mülahizə əsasında həyata keçirilir.

4. İnzibati mülahizənin dördüncü növünə – idarəetmə orqanı və ya vəzifəli şəxs tərəfindən dəqiq məzmunlu anlayış və ifadəyə malik olmayan norma əsasında qərarın qəbul edilməsini aid etmək olar (məsələn, ″tələbatdan asılı olaraq″, ″lazım olan hallarda″, ″vəziyyətlərdən asılı olaraq″, ″zəruri vəziyyətlərdə″ və s.). Belə hallarda hüquqtətbiqedici ümumi anlayışın məna təyinatını özü öyrənir. Beləliklə, inzibati mülahizənin tətbiq edilməsinin zəruriyyəti norma qaydasının öz məzmunu ilə

şərtləndirilir. Məsələn, ″Polis haqqında″ Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə müvafiq olaraq polis əməkdaşları:

- ″cinayət və ya inzibati hüquqpozma törətməkdə şübhə edilənlərin şəxsiyyətini müəyyənləşdirmək üçün sənədlərini yoxlamaq″,

- ″Polis haqqında″ Qanunla müəyyənləşdirilmiş hallarda cinayət və ya digər hüquqpozma törətmiş, yaxud törədilməsində şübhələnən şəxsi ″tutmaq″,

- ″cinayətin və digər hüquqpozmanın törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün qanunla müəyyənləşdirilmsiş qaydada dövlət və qeyri-dövlət orqanlarına, müəssisələrə, idarələrə, təşkilatlara, siyasi partiyalara, ictimai birliklərə, həmkarlar ittifaqlarına və təşkilatlarına və vəzifəli şəxslərə baxılması məcburi olan təqdimatlar verməк″,

- qanunla müəyyənləşdirilmiş hallarda yaşayış binalarına və ya digər tikililərə, torpaq sahələrinə, müssəsisə, idarə, təşkilatların ərazilərinə və tikililərinə daxil olmaq″, qanunla müəyyənləşdirilmiş qaydada və hallarda fiziki qüvvə işlətmək, habelə xüsusi vasitələr və odlu silah saxlamaq, gəzdirmək və onları tətbiq etmək″ və s. hüququ vardır.

İnzibati mülahizənin beşinci növü – idarəetmə subyektinin müstəsna səlahiyyətlər hüququna malik olması ilə ifadə olunur. İdarəetmə orqanı (vəzifəli şəxs) ″müstəsna hal kimi″, ″müstəsna hallarda″ öz mülahizəsi ilə iş üzrə qərar qəbul edir. Məsələn, ″Fövqəladə vəziyyət haqqında″ Azərbaycan Respublikasının 4 fevral 1992-ci il tarixli Qanunun 17-ci maddəsinə əsasən, fövqəladə vəziyyət dövründə konkret şəraitdən asılı olaraq tətbiq edilən tədbirlərin dairəsi müəyyən edilmişdir. Belə tədbirlərdən ″tətillərin qadağan edilməsi″, ″nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması və onların yoxlanması″, ″yığıncaqların, mitinqlərin, küçə yürüşlərinin və nümayişlərin, habelə digər kütləvi tədbirlərin keçirilməsinin qadağan edilməsi″ və s. kimi tədbirləri göstərmək olar. Belə hallarda səlahiyyətli orqan ona verilmiş səlahiyyətlər çərçivəsində yalnız öz mülahizələri ilə bu və ya digər idarəçilik qərarlarını qəbul edir.

Hüquq subyektinə inzibati mülahizə hüququnun verilməsi ona daha optimal idarəçilik qərarının qəbul edilməsinə imkan verir. Lakin, mülahizənin müstəqilliyinin də öz sərhəddi vardır və idarəetmə subyektinin də həmin sərhədlərin çərçivəsindən kənara çıxmaq hüququ yoxdur. Mülahizə həmişə hüquqi cəhətdən əsaslandırılmış olmalıdır və o, qanun çərçivəsində həyata keçirilməli və qanunçuluğun tələblərinə müvafiq olmalıdır.

Birinci sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki:

1. Qanunçuluq – hüququn bütün subyektləri tərəfindən qanunların və onların əsasında qəbul edilmiş hüquqi aktların tələblərinin ciddi və tam şəkildə yerinə yetirilməsidir.

2. Qanunçuluğun 2 əsas əlaməti mövcuddur:

- **qanunçuluğun ən mühüm cəhəti onun ümumiliyidir**
- **ikincisi, qanunçuluq hüquqla, hüquq normaları ilə sıx bağlıdır.**

3. Dövlət idarəetmə sahəsində qanunçuluğun məzmununu və mahiyyətini – dövlət iadrəetmə sahəsində yaranan ictmai münasibətlərin iştirakçıları tərəfindən hüquq normalarına ciddi və dönmədən riayət edilməsi və onların tələblərinin icra edilməsi təşkil edir.

4. Dövlət intizamı – dövlətin vəzifə və funksiyalarının təcrübi cəhətən həyata keçirilməsində dövlət təşkilatları, işçiləri və qulluqçuları, ictimai təşlkilatlar və vətəndaşlar tərəfindən dövlət tərəfindən müəyyən edilmiş qayda və konkret göstərişlərə riayət edilməsindən, onların dəqiq və dönmədən icra edilməsindən ibarətdir.

5. İnzibati mülahizə – işin həll edilməsi üçün səmərəli (optimal) qərarın qəbul edilməsi məqsədi ilə (hüquqi cəhətdən həll edilməsində) idarəetmə orqanın (vəzifəli şəxsin) hüquq normaları çərçivəsində müəyyən edilmiş müstəqillik dərəcəsidir.

Sual 2.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinin üsulları və onların xarakteristikas

Qanunçuluğun təmin edilməsi – qanunun ən cüzi pozulmasının qarşısının alınmasından, onların xəbərdar edilməsindən, onların pozulmasına şərait yaradan səbəblərin aradan qaldırılması üçün tədbirlərin görülməsindən, vətəndaşların və təşkilatların pozulmuş hüquqlarının və qanuni maraqlarının bərpa edilməsindən, təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsindən, məsuliyyətin labüdlüyünün yaradılmasından, idarəetmə aparatı işçilərinin qanunun hər tələbinə və məqsədinə ciddi riayət edilməsi ruhunda tərbiyə edilməsindən ibarətdir.

Qanunçuluq rejimi – hüquqi dövlətin vacib amillərindən biridir. Onsuz cəmiyyətdə adi davranış qaydasının təmin edilməsi mümkün deyil. Hüquqi dövlətdə istənilən vəzifəli şəxsin öz vəzifə borclarını pozmalarına görə qanun əsasında dəqiq hüquqi məsuliyyət tədbirinin müəyyən edilməməsi mümkün deyil.

Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsi üzrə fəaliyyət iki əsas istiqamətdə həyata keçirilir:

1. İdarəetmə aparatının işinin dəqiq təşkil edilməsi, dövlət intizamının lazımi səviyyədə saxlanılması məqsədi ilə idarəetmə aparatının hər bir təbəqəsi və onun hər bir işçisi tərəfindən qanunçuluğa ciddi riayət edilməsinin təmin edilməsi;

2. İdarəetmə aparatının gündəlik fəaliyyətində vətəndaşların hüquq və qanuni maraqlarının mühafizə edilməsi və qorunmasının təmin edilməsi.

Bütün dövlət orqanlarının, dövlət qulluqçularının, qeyri-hökumət təşkilatların və vətəndaşların fəaliyyətində qanunçuluğun real həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə dövlət hüquqi cəhətdən onun təminatını möhkəmləndirir və heç kim tərəfindən qanunçuluq pozulmasın deyə gündəlik olaraq onun təmin edilməsinə icazə verilmiş hüquq (səlahiyyət) və metodlarla müşahidə etmək üçün müəyyən dövlət orqanlarının üzərinə bu vəzifəni qoyur.

Qanunçuluğun təmin edilməsi təminatına aşağıdakı təminatlar aiddirlər:

- iqtisadi;
- siyasi;
- hüquqi;
- təşkilati-hüquqi.

İqtisadi təminat – mülkiyyət formalarının çoxluğundan irəli gəlir. Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə əsasən Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

Konstitusiyanın 29-cu maddəsində isə mülkiyyət hüququ müəyyən edilmişdir. Bu maddənin 2-ci bəndinə əsasən mülkiyyətin heç bir növünə üstünlük verilmir. Ona görə də bu sahədə qanunçuluğun təmin edilməsində dövlət tərəfindən iqtisadi təminat müəyyən edilmişdir.

Siyasi təminat – Azərbaycan Respublikasında aparılan hüquqi və demokratik dövlət quruculuğunun vəziyyətindən irəli gəlir. Konstitusiyanın 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Konstitusiyanın bu müddəasından irəli gələrək Azəbaycan Respublikasında qanunçuluğun təmin edilməsində siyasi təminatın rolu ondan ibarətdir ki, Azərbaycan xalqının hər bir vətəndaşının Konstitusiya ilə müəyyən edilmiş hüquq və azadlıqları qanunçuluğun tələblərnə müvafiq olaraq həyata keçirilməlidir.

Hüquqi təminat məzmunu – yalnız pozulmuş hüquq normalarının bərpa edilməsi üçün effektivli mexanizmin yaradılmasından yox, həm də hüquq normalarının tətbiq edilməsi üçün effektivli mexanizm vasitəsi ilə hüquq normalarının pozulması halları və imkanları maksimal dərəcədə xəbərdar edilməsindən ibarətdir.

Eyni vaxtda bütün bu obyektiv amillərin mövcudluğu qanunçuluğun təmin edilməsi vəzifələrini tam həll etmir. Buna görə də qanunçuluğun təmin edilməsi üçün əlavə xüsusi tədbirlərin həyata keçirilməsi vacibdir. Qanunçuluğun təmin edilməsi vəzifələri dövlətin müəyyən orqanlarının və vəzifəli şəxslərinin gündəlik fəaliyyətlərində qanunçuluğun mühafizəsi məqsədi ilə həyata keçirilən funksiyalardır. Bu tədbirlər, təşkilati-hüquqi təminat tədbirləri sırasına aiddirlər. Bir qayda olaraq, qanunçuluğun təmin edilməsi ilə xüsusi dövlət orqanları məşğul olurlar, çünki həmin orqanlar qanunçuluğun təmin edilməsi sahəsində hüquqi təsir göstərmə vasitələrinin (qeyri-qanuni aktların ləğv edilməsi, protest verilməsi və s.) tətbiq etmək səlahiyyətinə malikdirlər.

Bəzi hallarda idarəetmə orqanlarının fəaliyyəti vətəndaşlara qarşı bəzi hüquqi məhdudiyyət və ya inzibati məcburetmə tədbirlərinin tətbiq edilməsinə gətirib çıxarır.

Beləliklə, dövlət idarəetməsində qanunçuluğun təmin edilməsi fəaliyyəti dövlət-hüquqi xarakter daşıyır, onu həyata keçirən orqanlar isə hüquqi dövlət hakimiyyət səlahiyyətlərinə malikdirlər.

Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsi fəaliyyəti müxtəlif hüquqi və təşkilati fəaliyyət forma və metodlar ilə həyata keçirilir. Bütün bu vasitə növlərini ümumiləşdirərək qanunçuluğun təmin edilməsi üsulları kimi adlandırılır.

Qanunçuluğun təmin edilməsi üsulları əsasən aşağıdakılardan ibarətdir:

- yoxlama;

- nəzarət;

- şikayət vermə.

Yoxlama üsulu

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulları içərisində əsas yer ″yoxlama üsulu″na məxsusdur.

Yoxlamanın mütəmadiliyi və təsiri, icraçılığın yoxlanılması, qanunçuluğun və intizamın möhkəmləndirilməsinin və icra hakimiyyəti orqanları işçilərində məsuliyyət hissinin tərbiyələndirilməsinin effektivli vasitəsidir.

Yoxlama – bütün dövlət orqanları tərəfindən onların qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi zamanı gündəlik olaraq həyata keçirilir. Belə yoxlamalar – dövlət-hakimiyyət səlahiyyətlərindən istifadə edilməklə dövlətin adından həyata keçirildikləri üçün onlar dövlət yoxlamaları adlanırlar. Yoxlama dövlət idarəetməsinin əsas hissəsini, funksiyalardan birini, idarəçilik səlahiyyətlərinin realizəsi metodundan birini təşkil edir.

İcra hakimiyyəti orqanları – həyat fəaliyyətinin sahə və bölmələrinin idarə edilməsini həyata keçirərkən onlara verilmiş yoxlama səlahiyyətlərindən geniş istifadə edirlər.

Yoxlama səlahiyyətlərini həyata keçirməklə icra hakimiyyəti orqanları onlara tabe edilmiş idarəetmə təbəqələrinin fəaliyyətlərinə rəhbərlik edir, onlar tərəfindən tabeçiliklərində olan idarəetmə təbəqələrinin qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsini yoxlayır, yuxarı təbəqəli orqanların qərarlarının yerinə yetirilməsini yoxlayırlar.

Dövlət yoxlaması öz məzmununa və məqsədinə görə aşağıdakı iki növə bölünür:

- ümumi yoxlama;

- xüsusi yoxlama.

Ümumi yoxlama – tabeçilikdə olan subyektlərin (obyektlərin) bütün fəaliyyət istiqamətlərini əhatə edir.

Xüsusi yoxlama – isə tabeçilikdə olan subyektin (obyektin) fəaliyyət istiqamətlərinin konkret bir məsələsi (sualı) üzrə həyata keçirilir. Məsələn, idarəçilik qərarının icrasının yoxlanılması.

Yoxlamanın həyata keçirilməsi istiqamətinə görə yoxlama aşağıdakı iki növə bölünür:

- daxili yoxlama (idarədaxili);

- xarici yoxlama (idarədənkənar).

Daxili yoxlama (idarədaxili) – nazirlik, idarə, təşkilatın öz gücü hesabına həyata keçirilən yoxlamadır. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi haqqında Əsasnamənin 4.1.14 bəndinə əsasən: Nazirlik sisteminə daxil olan orqan və hissələrin, müəssisələrin və təşkilatları fəaliyyətini yoxlamaq və təftişini həyata keçirmək kimi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin hüququ müəyyən edilmişdir.

Xarici yoxlama (idarədənkənar) – yoxlanılan idarənin sisteminə daxil olmayan orqan tərəfindən həyata keçirilən yoxlamadır. Məsələn, ″Polis haqqında″ Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsinə əsasən: ″…Polis orqanlarında qanunların icrasına nəzarəti (idarədənkənar yoxlamanı) qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində məhkəmələr və prokurorluq orqanları həyata keçirirlər.

Dövlət idarəetməsində həyata keçirilən yoxlama növlərindən biri də ″sahələrarası yoxlama″dır. Sahələrarası yoxlama müvafiq icra hakimiyyəti orqanları, yəni qanunvericiliklə səlahiyyət verilmiş orqanlar tərəfindən həyata keçirilir.

″Sahələrarası yoxlama″ - idarəetmənin bir sıra sahələrinə aid olan kompleks vəzifələrin vahid formada həll edilməsinin təmin edilməsi məqsədi ilə həyata keçirilir. Sahələrarası nazirliklər, dövlət komitələri və digər idarələr və orqanlar təşkilati cəhətdən onlara tabe olmayan sahəvi idarəetmə orqanların fəaliyyətini aidiyyatı olan sahələr üzrə yoxlayır, onların fəaliyyətini əlaqələndirir və nizama salır.

Sahələrarası yoxlamanı həyata keçirən orqanlar müvafiq səlahiyyətlərə malikdirlər. Sahələrarası yoxlamanı həyata keçirən orqanlar onların səlahiyyətlərinə aid olan məsələlər üzrə idarə, müəssisə və təşkilatların işini yoxlamaq və müayinə etmək hüququna malikdirlər. Yoxlamanın nəticələrinə müvafiq olaraq, sahələrarası yoxlamanı həyata keçirən orqan nəzarətaltı orqanlar olan idarə, müəssisə və təşkilatları aşkar edilmiş pozutuların aradan qaldırılması üçün yerinə yetirilməsi məcburi xarakter daşıyan göstərişlər verə bilərlər. Sahələrarası yoxlamanı həyata keçirən orqanlara Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və s. müvafiq icra hakimiyyəti orqanları aiddirlər.

Dövlət idarəetməsində həyata keçirilən yoxlama növlərindən biri də ″sahəvi yoxlama″dır.

″Sahəvi yoxlama″ - bir sistemə daxil olan orqanlar üzərində sahəvi səlahiyyətlərə malik olan orqanlar tərəfindən sahəvi səlahiyyətlər çərçivəsində həyata keçirilir. Sahəvi yoxlama sahəvi yoxlama səlahiyyətlərinə malik olan dövlət idarəetmə orqanına tabe olan orqanlar – idarə, müəssisə, təşkilat və vəzifəli şəxslərin fəaliyyətinin müxtəlif metodlarla, yəni, rəhbərlik tərəfindən şəxsən və xüsusi aparat (inspeksiya, yoxlama-təftiş xidməti) vasitəsi ilə mütəmadi yoxlamanın həyata keçirilməsindən ibarətdir.

Sahəvi yoxlama – tabeçilikdə olan orqanların, idarə, müəssisə və təşkilatların işlərinə gündəlik sahəvi rəhbərliyini həyata keçirilməsi prosesində aparılır. İdarədaxili yoxlamanın həyata keçirilməsi prosesində yoxlanılan obyektin fəaliyyətinin bütün əsas məsələləri həll edilir. O cümlədən də, idarəetmə prosesində istifadə edilən forma və metodların məqsədəuyğunluğu qiymətləndirilir.

İdarədaxili yoxlama – yoxlamanın məzmunundan asılı olaraq aşağıdakı növlərə bölünür:

-ümumi yoxlama, yəni bu və ya digər orqanın idarə, müəssisə və təşkilatın bütün işinin yoxlanılması;

-xüsusi yoxlama, yəni yoxlama obyektinin işinin ayrı-ayrı istiqamətlərinin yoxlanılması.

İdarədaxili yoxlamanı aparan müvafiq orqanların və vəzifəli şəxslərin yoxlama səlahiyyətləri, bir qayda olaraq, onların səlahiyyətlərini müəyyən edən aktla nizamlanır. İdarədaxili yoxlama - idarəçiliyin ayrılmaz hissəsidir. İdarədaxili yoxlama – yoxlamanı təşkil edən və ya onu bilavasitə həyata keçirən şəxsin dövlət-hakimiyyət səlahiyyətləri ilə bağlıdır. Ona görə də yoxlanılan orqanın, idarə, müəssisə və təşkilatın idarəetmə aktının ləğv edilməsi, dəyişdirilməsi və ya müvəqqəti dayandırılması məsələsi yoxlama prosesində həll edilir.

Yoxlama subyektindən və dövlət orqanları səlahiyyətlərinin həcm və xarakterindən asılı olaraq, həyata keçirilən dövlət yoxlamaları aşağıdakı növlərə bölünürlər:

- qanunvericilik hakimiyyəti orqanları tərəfindən həyata keçirilən yoxlama;

- icra hakimiyyəti orqanları (ümumi, sahələrarası və sahəvi səlahiyyətli) tərəfindən həyata keçirilən yoxlama.

Qanunvericilik hakimiyyəti orqanları tərəfindən həyata keçirilən yoxlama

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü bəndinə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti – hakimiyyətlərin bölünməsi prinsipi əsasında həyata keçirilir (yəni – qanunvericilik, icra və məhkəmə hakimiyyətləri vasitəsi ilə).

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin həll etdiyi məsələlərin dairəsi müəyyən edilmişdir.

İcra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən yoxlama

Əsas yoxlama səlahiyyətlərinə Azərbaycan Respublikasının Prezidenti malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinə əsasən Azərbaycan Respublikasının başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir. Konstitusiyanın bu maddəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən Azərbaycan Respublikası Prezidentinin səlahiyyət dairəsi müəyyən edilmişdir. Azərbaycan Respublikasının Prezidenti özünün səlahiyyətlərindən istifadə edərək dövlət idarəetmə sahəsində özünün yoxlama funksiyalarını həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin göstərişi və onun adından yoxlama Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı tərəfindən həyata keçirilir.

Dövlət idarəetməsində yoxlamanı həyata keçirən subyektlərdən biri də Azərbycan Respublikasının Nazirlər Kabinetidir. Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır. Konstitusiyanın bu maddəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra hakimiyyəti orqanıdır. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında cavabdehdir. Nazirlər Kabinetinin iş qaydasını Azərbaycan Respublikasının Prezidenti müəyyənləşdirir.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsində Nazirlər Kabineti tərəfindən yoxlamaların həyata keçirilməsi üçün Nazirlər Kabinetinə müəyyən səlahiyyətlər verilmişdir. Nazirlər Kabineti də Konstitusiyanın 119-cu maddəsinə müvafiq olaraq ona verilmiş səlahiyyətlər vasitəsi ilə mütəmadi olaraq özünün yoxlama funksiyalarını həyata keçirir. Məsələn, Nazirlər Kabineti mütəmadi olaraq ona tabe olan orqanların – nazirliklərin, dövlət komitələrinin, müfəttişliklərin və s. fəaliyyətlərini yoxlayır; Nazirlər Kabineti öz iclaslarında nazirliklərin, dövlət komitələrinin, müfəttişliklərin rəhbərlərinin iqtisadi islahatların yerinə yetirilməsi, kredit-pul sisteminin möhkəmləndirilməsi, dövlət idarəetmə sahələrinin inkişaf etdirilməsi barədə hesabatını, çıxışlarını və məlumatlarını dinləyir.

Nəzarət üsulu

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulu kimi ″nəzarət üsulu″nun da əhəmiyyəti böyükdür.

İdarəetmə aparatının qarşısına qoyulmuş məqsədlərə nail olmaqla hüquqi normalara riayət edilməsinə nəzarətin həyata keçirilməsi əsas rol oynayır. Nəzarət fəaliyyəti – dövlət idarəetməsinin əsas hissəsidir.

İnzibati nəzarət – dövlət idarəetməsinin bir sıra orqanlarının hüquq-mühafizəedici fəaliyyətlərinin xüsusi növüdür. İnzibati nəzarət mahiyyətcə yoxlama ilə sıx bağlıdır, buna görə də inzibati nəzarətin həyata keçirilməsi zamanı xüsusi məsələləri nizamlayan normativ aktlara riayət olunması üzrə orqanların fəaliyyətləri yoxlanılır.

Yoxlama özündə fəaliyyətin qanunçuluğa və məqsədəuyğunluğuna müşahidənin aparılmasını və onun hüquqi, elmi, sosial-siyasi, təşkilati-texniki nöqteyi-nəzərdən qiymətləndirilməsini əks etdirir. Lakin, bir çox hallarda hakimiyyət subyektlərinin yoxlama səlahiyyətləri məhdudlaşdırılır – onlara yalnız nəzarət funksiyasının həyata keçirilməsi imkanları verilir. Yoxlayan və yoxlanılanlar arasında təşkilati tabeçilik olmayan hallarda nəzarət yoxlama məlumatları nəticələrinə görə məsuliyyət daşıyan hakimiyət subyektlərinin operativ fəaliyyətinə müdaxilə edilməsinin qarşısının alınması üçün zəruridir.

İdarəetmə sahəsində nəzarətin iki təşkilati formaları mövcuddur:

Birinci forma – orqanların rəhbərlərinin, həmçinin də onlar tərəfindən təşkil edilmiş komissiyaların nəzarət fəaliyyətidir. Nəzarət fəaliyyəti bu orqanlar tərəfindən əsas iş növü kimi və epizodik olaraq (vaxtaşırı) həyata keçirilməyən fəaliyyət növüdür. Digər tərəfdən isə nəzarət fəaliyyəti idarəetmə subyektinin təşəbbüsü ilə deyil, nəzarət fəaliyyətini həyata keçirməyə səlahiyyəti olan orqana daxil olmuş ərizə, şikayət, iş və s. əsasında həyata keçirilən fəaliyyət növüdür.

İdarəetmə nəzarətinin ikinci forması – inzibati nəzarətdir. İnzibati nəzarət xüsusi idarə və xidmətlər, orqanlar tərəfindən həyata keçirilir. Digər tərəfdən isə inzibati nəzarət bu orqanlar üçün onların fəaliyyətlərinin əsas və başlıca funksiyası hesab edilir. İnzibati nəzarəti həyata keçirən subyektlər funksional hakimiyyətə və geniş idarələrüstü (idarədənkənar) səlahiyyətlərə malikdirlər. Buna görə də inzibati nəzarət – bir qayda olaraq idarələrüstü (idarədənkənar) xarakter daşıyır, o dövlət orqanlarına, dini qurumlara və qeyri-hökumət təşkilatlarına, həmçinin də vətəndaşlara şamil edilir. İnzibati nəzarətin əsas xüsusiyyəti ondan ibarətdir ki, bir qayda olaraq onun həyata keçirilməsi inzibati məcburetmənin tətbiq edilməsi ilə bağlıdır.

Dövlət idarəetməsində ümumi inzibati nəzarəti yerinə yetirən çoxlu sayda dövlət strukturları mövcuddur. Belə dövlət strukturları içərisində ″xüsusiləşdirilmiş dövlət strukturları″ da az deyil. Xüsusiləşdirilmiş strukturlara sanitanriya-gigiyena və sanitariya-epidemioloji nəzarət orqanları, sənayedə işlərin təhlükəsiz görülməsinə nəzarət orqanları, dağ-mədən nəzarəti orqanları, gömrük orqanları, vergi orqanları və s. aiddirlər. Bir çox idarələr sistemində xüsusiləşdirilmiş nəzarət xidmətləri mövcuddur.

İnzibati nəzarəti həyata keçirən dövlət nəzarət orqanları öz funksiyalarını icra edərkən müxtəlif idarə, müəssisə və təşkilatların fəaliyyətində müəyyən edilmiş qaydaların pozulması hallarını aşkar edərlərsə həmin idarə, müəssisə və təşkilatın

fəaliyyətini müvəqqəti dayandırmaq yaxud məhdudlaşdırmaq və təqsirkar şəxslərə qarşı hüquqi tənbeh tədbirlərini tətbiq etmək hüququna malikdirlər.

İnzibati nəzarət subyektlərinin hüquqi vəziyyəti – dövlət inspeksiyalarının və digər orqanların hüquqi vəziyyəti onlar haqqında müvafiq Əsasnamələr və ya Nizamnamələr ilə müəyyən edilir.

Dövlət idarəetəsində dövlət nəzarət orqanlarının iki növü mövcuddur:

- təşkilati-müstəqilliyə malik olan dövlət nəzarət oqanları;

- orqanların struktur bölmələri hesab edilən dövlət nəzarət orqanları.

Təşkilati cəhətdən müstəqil fəaliyyət göstərən dövlət nəzarəti orqanlarına Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsi, Dövlət Statistika Komitəsi və s. orqanlar aiddirlər.

Bununla yanaşı, inzibati nəzarəti və yoxlamanı həyata keçirən bir sıra inspeksiyalar bu və ya digər nazirliklərin sistemində fəaliyyət göstərir və onun struktur bölmələri hesab edilirlər. Məsələn, Dövlət yol polisi xidməti DİN, Dövlət Yanğın Təhlükəsizliyi xidməti isə FHN sisteminə daxildirlər.

İcra hakimiyyətinin həyata keçirilməsində məhkəmə nəzarəti

Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsində məhkəmə nəzarətinin böyük rolu vardır.

Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsinə məhkəmə nəzarəti aşağıdakı məhkəmə orqanları tərəfindən həyata keçirilir:

- Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi;

- ümumi mühakimə məhkəmələri;

- xüsusi mühakimə məhkəmələri.

Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin rolu böyükdür. Konstitusiya Məhkəməsinin təşkilinin və fəaliyyətinin əsasları ″Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının 21 sentyabr 1997-ci il tarixli Qanunu ilə müəyyən edilmişdir.

Bu Qanuna əsasən Konstitusiya Məhkəməsinin əsas vəzifələri aşağıdakılardır:

- Azərbaycan Respublikası Konstitusiyasının 130-u maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş məsələləri həll etmək;

- Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 4-cü hissəsində göstərilmiş orqanların sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasını və qanunlarını şərh etmək;

- Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirmək.

Dövlət idarəetmə sistemində qanunçuluğun təmin edilməsində ″ümumi və xüsusi mühakimə məhkəmələri″nin rolu böyükdür.Yuxarıda göstərilən Azərbaycan Respublikasının məhkəmə sistemi Azərbaycan Respublikasının ″Məhkəmələr və hakimlər haqqında″ 10 iyun 1997-ci il tarixli Qanunu ilə müəyyən edilmişdir.

Azərbaycan Respublikası məhkəmələrinin vəzifələri aşağıdakılardır:

- Azərbaycan Respubliksı Konstitusiyasında təsbit edilmiş (m.24-71) insan və vətəndaş hüquqlarını və azadlıqlarını hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə etmək;

- mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozutularından müdafiə etmək.

Dövlət idarəetmə sistemində qanunçuluğun və intizamın təmin edilməsində prokuror nəzarətinin də rolu böyükdür. Prokuror nəzarəti prokurorluq orqanları tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının prokurorluq orqanlarının fəaliyyəti ″Prokurorluq haqqında″ Azərbaycan Respubikasının 7 dekabr 1999-cu il tarixli Qanunu ilə tənzimlənir.

Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokuroru tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

Prokurorluq onqanları qanunla nəzərdə tutulmuş hallarda və qaydada aşığdakı istiqamətlərdə öz fəaliyyətlərini həyata keçirir:

- cinayət işi başlayır və ibtidai istintaq aparır;

- ibtidai istintaqa prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir;

- təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir;

- məhkəmədə iddia qaldırır (ərizə verir), mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir;

- məhkəmədə cinayət işinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir;

- məhkəmə qərarlarından protest verir;

- məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi prosesində prokuror öz səlahiyyətlərini həyata keçirərkən qanunla müəyyən edilmiş qaydada və çərçivədə aşağıdakı aktlar çıxara bilər:

- xəbərdarlıq;

- təqdimat;

- qərar;

- yazılı göstəriş;

- iddia ərizəsi (ərizə);

- məhkəmə qərarlarından protest.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi məqsədi ilə ″Prokurorluq haqqında″ Qanunun 28-ci maddəsinə əsasən – prokurorluq işçilərinin hərəkətindən (hərəkətsizlyindən) və aktlarından şikayətin verilməsi nəzərdə tutulmuşdur. Qanun bu müddəasına əsasən prokurorluq işçilərinin hərəkətlərindən (hərəkətsizliyindən) və aktlarından müvafiq olaraq yuxarı prokurora və ya məhkəməyə şikayət verilə bilər. Azərbaycan Respublikasının prosessual qanunvericilyində nəzərdə

tutulmuş hallar istisna edilməklə şikayətin verilməsi prokuror aktlarının icrasını dayandırır.

DİO-nun yoxlama və nəzarət funksiyaları

Qüvvədə olan qanunvericiliyə müvafiq olaraq daxili işlər orqanları (polis) ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edliiəsi məsələləri üzrə qanunvericilik və icra hakimiyyəti orqanları aktlarının vəzifəli şəxslər və vətəndaşlar tərəfindən icra edilməsinə nəzarəti həyata keçirir.

"Polis haqqında" Qanunla müəyyən edilmiş polisin əsas vəzifələrinin, polis əməkdaşının ümumi vəzifələrinin və polisin fəaliyyətinin hər bir istiqamətindəki sahədə polis əməkdaşının vəzifələrinin yerinə yetirilməsinin təmin edilməsi üçün "Polis haqqında" Qanunun 17-ci maddəsinə müvafiq olaraq polis əməkdaşının ümumi hüquqları, 18-20 maddələrinə müvafiq olaraq isə polis əməkdaşının hüquqları müəyyən edilmişdir.

Daxili işlər orqanları (polis) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərabycan Respublikasına gəlmə, Azərbaycan Respublikasından getmə və Azərbaycan Respublikasında olmaları və tranzitlə keçmələri qaydalarına riayət etmələrinə nəzarət edirlər. DİO-nun (polisin) bu nəzarət funksiyası "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının 14 iyun 1994-cü il tarixli Qanunu ilə müəyyən edilmiş qaydalara riayət edilməsinin təmin edilməsi məqsədi ilə həyata keçirilir.

Dövlət idarəetməsində Dövlət Yol Polisi geniş nəzarət-yoxlama funksiylarını həyata keçirirlər. DYP-nin nəzarət-yoxlama səlahiyyətləri "Polis haqqında" Qanunun 20-ci maddəsinə və "Dövlət Yol Polisi haqqında" Əsasnaməyə müvafiq olaraq müəyyən edilmişdir.

Azərbaycan Respublikası FHN sisteminə daxil olan Dövlət Yanğın Təhlükəsizliyi xidməti də dövlət idarəetməsində geniş yoxlama-nəzarət funksiyalarını həyata keçirirlər. Azərbaycan Respublikası Dövlət Yanğın Təhlükəsizliyi xidmətinin yoxlama-nəzarət funksiyaları "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanunu və Nazirlər Kabinetinin 151 saylı 6 iyul 1998-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası DİN-in Baş Yanğın Təhlükəsizliyi haqqında" Əsasnamə ilə müəyyən edilmişdir.

Şikayət vermə (şikayət hüququnun realizəsi)

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsullarından biri də vətəndaşların dövlət orqanlarına təklif, ərizə və şikayətlərlə şəxsən müraciət etmələridir.

Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müraciət edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və işini tənqid etmək hüququ vardır. Konstitusiyanın bu müddəasına əsasən tənqidə görə təqib qadağandır. Lakin təhqir və böhtan tənqid sayıla bilməz.

Azərbaycan Respublikası vətəndaşlarının konstitusion hüququ olan ″müraciət etmək hüquqlarının″ həyata keçirilməsinin təmin edilməsi və ona şəraitin yaradılması məqsədi ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ″Vətəndaşların müraciətlərinə baxılması haqqında″ Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və bu Qanun 10 iyun 1997-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmişdir.

Vətəndaşların müraciətlərinin növləri aşağıdakılardır:

- ″təklif″ - dövlət hakimiyyəti orqanı, idarə, təşkilat və müəssisəni fəaliyətinin yaxşılaşdırılmasını, təhsil, elm, texniki, hüquq, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həllini nəzərdə tutan müraciətdir;

- ″ərizə″ - vətəndaşlara məxsus hüquqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzədə tutan müraciətdir;

- ″şikayət″ isə – dövlət orqanına, idarəsinə, təşkilatına və müəssisəsinə pozulmuş hüququn bərpası tələbi barədə müraciətdir.

Qanuna əsasən, müraciətə bir ay müddətinədək, əlavə öyrənilməsi və yoxlanması tələb edilməyən müraciət isə ən geci 15 gün ərzində baxılmalıdır.

Müraciətə baxmaq üçün xüsusi yoxlama keçirmək, əlavə materiallar tələb etmək, yaxud başqa tədbirlər görmək lazım gəldiyi hallarda müvafiq orqanın, idarənin, təşkilatın və müəssisənin rəhbəri və ya onun müavini müraciətə baxılma müddətini müstəsna hallarda ən çoxu bir ay müddətə kimi uzada bilər. Bu barədə müraciət edən vətəndaşa, müraciətin baxılması dövlət hakimiyyəti orqanı tərəfindən nəzarətdə saxlandıqda isə dövlət hakimiyyəti orqanına məlumat verilir.

Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətinə daxil olduğu gündən etibarən ən geci 15 gün ərzində baxılır.

″Vətəndaşların müraciətlərinə baxılması haqqında″ Qanunun tələblərinin pozulmasına görə dövlət hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatların rəhbərlərinin məsuliyyəti və onların məsuliyyət növləri müəyyən edilmişdir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətlərinə baxılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr ilə, başqa qayda nəzərdə tuutlmayıbsa isə bu Qanunla tənzimlənir.

Vətəndaşların şikayətlərinə baxılmasının və həll edilməsinin aşağıdakı iki qaydası mövcuddur:

- inzibati qaydada;

- məhkəmə qaydasında.

Vətəndaşların müraciətlərinə inzibati qaydada baxılması və həll edilməsi ″Vətədaşların müraciətlərinə baxılması haqqında″ Qanunla həyata keçirilir. Lakin vətəndaşların müraciətlərinə inzibati qaydada baxılması və həll edilməsi prosesinin müəyyən çatışmazlıqları da mövcuddur. Vətəndaşların müraciətlərinə inzibati qaydada baxılmasının çatışmazlığı ondan ibarətdir ki, bir çox hallarda vətəndaşların müraciətlərinə marağı olan orqanlar tərəfindən baxılır. Digər tərəfdən isə belə

müraciətlərinə çox vaxt qiyabi formada, yəni, şikayətçinin iştirakı olmadan və hüquqi hazırlığı olmayan şəxs tərəfindən baxılır. Ona görə də vətəndaşların əsaslandırılmış şikayətləri çox vaxt təmin edilmədən və ya həll edilmədən qalır. Bir qayda olaraq, bu qayda tam həcmdə və günahkar vəzifəli şəxslərin, dövlət qulluqçularçnın məsuliyyətə cəlb edilməsi üçün effektivli hesab edilə bilməz.

Buna görə də məhkəmə qaydasında şikayətlərin həll edilməsi zəruriyyəti yaranır. Digər tərəfdən isə şikayətlərin məhkəmə qaydasında həll edilməsi prosesində tərəflər bərabərdirlər və bu prosesdə şikayətin –iddianın obyektiv baxılması üçüq imkan da genişdir. Lakin, şikayətin məhkəmə qaydasında həll edilməsindən əvvəl həmin şikayətin orqan və ya vəzifəli şəxs tərəfindən tabeçilik qaydasında baxılması daha məqsədəuyundur. Belə qayda işin məhkəməyə çatdırılmaması şərti ilə buraxılmış səhvin tezliklə düzəldilməsinə imkan yaradır və inzibati qaydada işin baxılmasına məsuliyyətlə yanaşmağa köməklik edir.

Vətəndaşların şikayətlərinə məhkəmə qaydasında baxılması prosesində vətəndaş məhkəmədə xahişçi qismində yox, iddiaçı kimi, yəni, bərabər tərəf kimi birbaşa müraciət edə bilər.

Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət etmələrinin əsası və qaydası ″Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) məhkəməyə şikayət edilməsi haqqında″ Azərbaycan Respublikasının 11 iyun 1999-cu il tarixli Qanunu ilə tənzimlənir. Bu Qanun 18 iyul 1999-cu il tarixindən qüvvəyə minmişdir, yəni dərc edildyi vaxtdan.

Bu Qanuna əsasən, vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) vətəndaşların məhkəməyə müraciət etmək hüququ və qaydası müəyyən edilmişdir. Vətəndaş onun hüquq və azadlıqlarını pozan qərarlar və hərəkətlər (hərəkətsizliklər) barəsində birbaşa məhkəməyə və ya tabeçilik qaydasında yuxarı dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, ictimai birliklərə, vəzifəli şəxslərə şikayətlə müraciət edə bilərlər.

Tabeçilik qaydasında yuxarı orqan şikayətlərə 1 (bir) aydan gec olmayan müddətdə baxmalı, şikayətə baxılmasının nəticəsi barədə həmin orqanın rəhbərliy vətəndaşa yazılı cavab verməlidir.

Vətəndaşlar tərəfindən məhkəməyə şikayətlə müraciət edilməsi müddətlər müəyyən edilmişdir. Bunlar aşağıdakılardır:

- hüquq və azadlıqlarının pozulmasının vətəndaşa məlum olduğu gündən üç ay keçənədək;

- Azərbaycan Respublikasının qanunvericiliyində başqa müddət nəzərdə tutulmamışdırsa, vətəndaş şikayətin verildiyi gündən bir ay müddətində ona cavab almadıqda, bu müddətin tamam olduğu gündən bir ay keçənədək;

- şikayətin verilməsi müddəti üzürlü səbəbdən ötürülübsə, həmin müddət məhkəmə tərəfindən bərpa oluna bilər.

Məhkəmə vətəndaşların şikayətlərinə baxılmasının nəticələri barədə qətnamə çıxarır. Şikayətə baxılmasının nəticələrindən asılı olaraq məhkəmə aşağıdakı iki qətnamədə birini çıxara bilər:

- məhkəmə şikayətin əsaslı olduğunu müəyyənləşdirdikdə şikayət edilən qərarı və hərəkətləri qanunsuz hesab edir, vətəndaşlar barəsində tətbiq edilən məsuliyyət tədbirlərini ləğv edir, onların pozulmuş hüquq və azadlıqlarını bərpa edir, habelə dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, vəzifəli şəxslərin, vətəndaşların hüquq və azadlıqlarını pozan qərarları və hərəkətləri (hərəkətsizliyi) ilə bağlı onların məsuliyyətini müəyyənləşdirir;

- əgər məhkəmə şikayət edilən qərarları və hərəkətləri (hərəkətsizliyi) qanuni hesab edərsə, yəni vətəndaşın hüquq və azadlıqlarının pozulması kimi qiymətləndirməzsə, şikayətin təmin edilməməsi barədə.

Dövlət orqanları və yerli özünüidarə orqanları, müəssisələri, idarələr və təşkilatlar ictimai birliklər, vəzifəli şəxslər üçün qüvvəyə minmiş məhkəmə qərarının icrası məcburi xarakter daşıyır.

Məhkəmənin qərarı qüvvəyə mindiyi gündən ən geci 10 (on) gün keçənədək qərarlarından və hərəkətlərində (hərəkətsizliyindən) şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə, habelə vətəndaşlara göndərilir. Məhkəmə qərarının alındığı gündən ən geci bir ay keçənədək qərarlarında və hərəkətlərindən şikayət edilən orqanlar və ya vəzifəli şəxslər həmin qərarın icrası barədə məhkəməyə və vətəndaşa məlumat verməlidir. Məhkəmənin qərarı icra edilmədiyi halda, məhkəmə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq tədbirlər görür.

Şikayətə baxılması ilə əlaqədar məhkəmə xərcləri aşağıdakı qaydada ödənilir:

- şikayətin təmin edilməsindən imtina olunması barədə qərar qəbul edildikdə, şikayətə baxılması ilə əlaqədar məhkəmə xərclərini vətəndaş ödəyir;

- məhkəmə, şikayət olunan qərarları və hərəkətləri (hərəkətsizliyi) qanunsuz hesab etdikdə isə, bu xərclər müvafiq dövlət orqanlarının və ya yerli özünüidarə orqanlarının, müəssisələrin, idarə və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin vəsaiti hesabına ödənilir;

- qərarların və hərəkətlərin qanuni olduğuna baxmayaraq, əgər vətəndaşın tabeçilik qaydasında yuxarı orqana verdiyi şikayətə cavab verilməmişdirsə, yaxud məhkəməyə şikayətlə müraciət edilməsi müddətləri pozmaqla cavab vermişsə, məhkəmə xərclərinin ödənilməsi dövlət tərəfindən dövlət orqanlarının və ya yerli özünüidarə orqanlarının, müssisələrin, idarələrin və təşkilatların, ictmai birliklərin, vəzifəli şəxslərin öhdəsinə qoyulur;

- məhkəmə vətəndaşın məhkəmə xərclərinin ödənilməsindən qismən və ya tam azad edilməsi barədə qərar qəbul edə bilər.

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Qanunvericiliyi ilə nəzərdə tutulmuş qayda məsuliyyət daşıyırlar.

İkinci sualı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki:

1. Qanunçuluğun təmin edilməsi – qanunun ən cüzi pozulmasının qarısının alınmasından, onların xəbərdar edilməsindən, onların pozulmasına şərait yaradan səbəblərin aradan qaldırılması üçün tədbirlərin görülməsindən, vətəndaşların və təşkilatların pozulmuş hüquqlarının və qanuni maraqlarının bərpa edilməsindən, təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsindən, məsuliyyətin labüdlüyün yaradılmasından, idarəetmə aparatı işçilərinin qanunun hər tələbinə və məqsədinə ciddi riayət edilməsi ruhunda tərbiyə edilməsindən ibarətdir.

2. Qanunçuluğun təmin edilməsi təminatına aşağıdakı təminatlar aiddirlər:

- iqtisadi;
- siyasi;
- hüquqi;
- təşkilati-hüquqi.

3. Qanunçuluğun təmin edilməsi üsulları əsasən aşağıdakılardan ibarətdir:
- yoxlama;
- nəzarət;
- şikayət vermə.

4. Dövlət yoxlaması öz məzmununa və məqsədinə görə aşağıdakı iki növə bölünür:
- ümumi yoxlama;
- xüsusi yoxlama.

5. İdarəetmə sahəsində nəzarətin iki təşkilati formaları mövcuddur:

Birinci forma – orqanların rəhbərlərinin, həmçinin də onlar tərəfindən təşkil edilmiş komissiyaların nəzarət fəaliyyətidir.

İdarəetmə nəzarətinin ikinci forması – inzibati nəzarətdir.

7. Dövlət idarəetəsində dövlət nəzarət orqanlarının iki növü mövcuddur:
- təşkilati-müstəqilliyə malik olan dövlət nəzarət oqanları;
- orqanların struktur bölmələri hesab edilən dövlət nəzarət orqanları.

8. Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsinə məhkəmə nəzarəti aşağıdakı məhkəmə orqanları tərəfindən həyata keçirilir:
- Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi;
- ümumi mühakimə məhkəmələri;
- xüsusi mühakimə məhkəmələri.

9. Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokuroru tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi prosesində prokuror öz səlahiyyətlərini həyata keçirərkən qanunla müəyyən edilmiş qaydada və çərçivədə aşağıdakı aktlar çıxara bilər:
- xəbərdarlıq;
- təqdimat;
- qərar;
- yazılı göstəriş;
- iddia ərizəsi (ərizə);
- məhkəmə qərarlarından protest.

10. Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət etmələrinin əsası və qaydası ″Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) məhkəməyə şikayət edilməsi haqqında″ Azərbaycan Respublikasının 11 iyun 1999-cu il tarixli Qanunu ilə tənzimlənir. Bu Qanun 18 iyul 1999-cu il tarixindən qüvvəyə minmişdir, yəni dərc edildyi vaxtdan. Bu Qanuna əsasən, vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) vətəndaşların məhkəməyə müraciət etmək hüququ və qaydası müəyyən edilmişdir. Vətəndaş onun hüquq və azadlıqlarını pozan qərarlar və hərəkətlər (hərəkətsizliklər) barəsində birbaşa məhkəməyə və ya

tabeçilik qaydasında yuxarı dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, ictimai birliklərə, vəzifəli şəxslərə şikayətlə müraciət edə bilərlər.

Sual 3.

Hüquq mühafizə orqanlarının fəaliyyətində qanunçuluq və intizam, onun təmin edilməsi üsulları

Hüquq mühafizə orqanlarının fəaliyyətində qanunçuluq və intizam, onun təmin edilməsi üsullarını çox oxşar cəhətlərə malik olduqunu nəzərə alaraq bu sualın açıqlanmasını daxili işlər orqanların misalında məqsədə müvafiq hesab edirik.

Daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində qanunçuluğun və intizamın təmin edilməsi dövlət idarəetməsinin əsas prinsiplərindən biridir. Digər tərəfdən isə qanunçuluq – daxili işlər orqanlarının fəaliyyətinin əsas prinsipidir. Bu prinsipin daxili işlər orqanlarının fəaliyyətinin özündə neçə bir hüquq-mühafizəedici prinsip kimi ifadə olunur, digər tərəfdən isə daxili işlər orqanlarının fəaliyyətində qanunların və qanunqüvvəli aktların tələblərinə ciddi və dönmədən riayət edilməsi əsasında həyata keçirilir.

Daxili işlər orqanlarının fəaliyyətini yüksək təşkilatçılıqsız və xidməti intizamsızlıq düşünmək olmaz. Bu onunla izah olunur ki, yüksək intizamın köməkliyi ilə və vasitəsi ilə daxili işlər orqanlarının qarşısına qoyulmuş vəzifələrin yernə yetirilməsi üçün əməkdaşların güclərini birləşdirmək və onların fəaliyyətlərində, hərəkətlərində lazımi qayda və razılaşdırma təşkil etmək olar.

Daxili işlər orqanlarının fəaliyyətində möhkəm intizamın zəruriliyi onunla izah olunur ki, daxili işlər orqanlırında xidmətin (əməyin) məhsuldarlığının yüksəldilməsinə köməklik etmək məqsədilə, DİO-da xidmətin (əməyin) ixtisaslaşdırılması ilə əlaqədar olaraq orqanların və bölmələrin daxilində və onların arasında olan əlaqələr mürəkkəbləşir və bu da onların qarşısında duran vəzifələri tam, vaxtında və effektivli yerinə yetirilməsinə çətinlik törədir. Daxili işlər orqanlarının qarşısında qoyulmuş ümumi vəzifələr, yalnız DİO-nun bütün bölmə və xidmətlərinin fəaliyyətində yüksək intizamın mövcudluğu şəraitində həll edilə bilər.

Polisin qarşısında duran ümumi vəzifələrin yerinə yetirilməsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və açılması yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi ilə daxili işlər orqanları (polis) dövlət idarəetməsində qanunçuluğu möhkəmləndirirlər. Bununla yanaşı, hüquqpozmalarının xəbərdar edilməsi və qarşısının alınması zamanı daxili işlər orqanları (polis) qanunvericiliklə müəyyən edilmiş qaydada və onlara verilmiş səlahiyyətlər çərçivəsində, yalnız Qanun və qanunqüvvəli aktlara müvafiq olaraq fəaliyyət göstərməlidirlər.

Daxili işlər orqanlarının (polisin) fəaliyyətində qanunçuluğa riayət edilməsi xüsusi ilə vacibdir, çünki daxili işlər orqanlarının (polisin) qarşısında hüquqpozmalara qarşı mübarizənin aparılması vəzifəsi qoyulmuşdur. Daxili işlər orqanlarının, xüsusən də polisin fəaliyyəti, vətəndaşların hüquq, azadlıq və qanuni maraqlarının müdafiəsi ilə sıx bağlıdır.

Polis, hüquqpozan şəxslərə qarşı məcburetmə tədbirlərinin tətbiq edilməsi üzrə geniş səlahiyyətlərə malikdir. Bununla əlaqədar olaraq, dövlət idarəetməsində qanunçuluğun hər hansı bir formada pozulmasına yol verilməsi insan və vətəndaşların hər şansı bir hüquq, azadlıq və qanuni marağının pozulması deməkdir.

Daxili işlər orqanlarının fəaliyyətində qanunçuluğun və intizamın təmin edilməsi məqsədi ilə daxidi işlər orqanlarının fəaliyyətində qanunçuluğun təmin edilməsi aşağıdakı üsullar vasitəsilə həyata keçirilir:

- yoxlama;

- nəzarət;

- şikayət vermə (şikayət hüququnun realizəsi).

"Polis haqqında" Qanunun 12-ci maddəsinə əsasən, bu Qanunun müddəalarının icrasına idarədaxili və "idarədənkənar" nəzarət həyata keçirilir. Polisin fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, idarədənkənar nəzarəti isə Azərbaycan Respublikası Prezidenti həyata keçirir. Polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlaiyyətləri daxilində məhkəmələr və prokurorluq orqanları həyata keçirirlər.

Daxili işlər orqanları (polis) öz gündəlik fəaliyyətlərini həyata keçirərkən özlərinin hər hansı bir qeyri-qanuni hərəkətləri ilə vətəndaşlara və təşkilatlara hər hansı bir məbləğdə zərər vura bilərlər. Ona görə də qanunvericiliklə daxili işlər oraqnlarının və onların əməkdaşlarının xidməti fəaliyyətləri vasitəsi ilə vətəndaşlara və ya təşkilatlara vurulmuş zərərə görə oların məsuliyyətləri müəyən edilmişdir.

Vətəndaşlara və təşkilatlara daxili işlər orqanlarının əməkdaşları tərəfindən vurulmuş zərər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilməlidir. Ona görə də qanunvericiliklə daxili işlər orqanlarına və onların əməkdaşlarına, insan və vətəndaşların şərəf və ləyaqətini alçaldan hərəkətlər və ya münasibətlər qadağan edilmişdir. İnsan və vətəndaşların hüquq, azadlıq və qanuni maraqlarının hər hansı bir formada məhdudlaşdırılmasına yalnız qanunla müəyyən edilmiş əsaslara və qaydaya müvafiq olaraq icazə verilir.

Şəxsin hüquqları, azadlıqları və qanuni mənafeləri polis əməkdaşları tərəfindən pozulduqda polis orqanı həmin şəxsin pozulmuş hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin bərpa olunması üçün zəruri tədbirlər görməyə, vurulmuş ziyanı ödəməyə borcludur.

Polis əməkdaşlarının qanunazidd hərəkətləri nəticəsidə vurulmuş ziyan Azərbayan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada ödənilir.

Digər tərəfdən isə dövlət idarəetməsi sahəsində təhqiqat ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə az ziyan vurulmur. Belə halların qarşısının alınmaı məqsədilə "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikasının 29 dekabr 1998-ci il tarixli Qanunu ilə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində fiziki şəzxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququnun təmin edilməsi nəzərdə tutulmuşdur.

Bu Qanuna əsasən fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi hüququ, ödənilən ziyanlar, şəxsin əmlakına vurulmuş ziyanın ödənilməsi qaydası, mənəvi ziyanınr ödənilməsi qayası, şəxsin işdən (vəzifədən) azad edilməsi və ya kənarlaşdırılması ilə əlaqədar vurulmuş ziyanın ödənilməsi, vurulmuş ziyanın məbləğinin müəyyən edilməsi, hərbi qulluqçulara vurulmuş ziyanın ödənilməsi və s. kimi vurulmuş ziyanların ödənilməsi əsasları və qaydaları müəyyən edilmişdir.

Dövlət idarəetməsində daxili işlər orqanların əməkdaşları dövlətə vurduqları ziyana görə maddi məsuliyyətləri də müəyyən edilmişdir. DİO-nun əməkdaşlarının dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında″ Əsasnamə ilə müəyyən edilimişdir.Bu Əsasnamə DİN-in 31 oktyabr 1995-ci il tarixli 568-ci saylı ″Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamənin elan edilməsi barədə″ Əmri ilə elan edilmişdir. Bundan əlavə DİN-in 23 fevral 1998-ci il tarili 52 saylı əmri ilə ″DİN-in 31 oktyabr 1995-ci tl tarixli 568 saylı əmrinə əlavə və dəyişiliklər edilməsi barədə″ Əmri qəbul edilmişdir.

N Ə T İ C Ə

Mühaziraəni yekunlaşdıraraq qeyd etmək istərdim ki, bu mövzunun təcrübi cəhətdən böyük əhəmiyyəti olacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 72-ci maddəsinin 2-ci bəndinə əsasən, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət etməli, qanunla müəyən edilmiş digər vəzifələri yerinə yetirməlidir

Dövlət idarəetməsində Konstitusiyanın bu müddəalarından irəli gələn tələblərin yerinə yetirilməsi zamanı hər bir dövlət qulluqçusu, vəzifəli şəxs və vətəndaş öz hərəkətlərini yanız qanunlara və qanunqüvvəli aktlara əsaslandırmalıdır. Bu məqsədlə də biz, mühazirədə iki növbədə dövlət idarəetməsində qanunçuluğun və intizamın anlayışı, məzmunu və əhəmiyyəti barədə danışdıq. Sonra isə mühazirənin ikinci sualında isə bir dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulları və həmin üsulların hər birisi barədə ətraflı nəzəri biliklər əldə etmiş olduq.

Nəhayət, hüquq mühafizə orqanların fəaliyyəti bilavasitə insan və vətəndaşların hüquq, azadlıq və qanuni mənafelərinin qorunması ilə bağlı olduğu üçün bu orqanların fəaliyyətində qanunçuluq, intizam və onların təmin edilməsi üsulları barədə nəzəri biliklərin əldə edilməsi sizin hər birinizin gündəlik fəaliyyəti üçün böyük əhəmiyyəti vardır. Bu məqsədlə də mühazirənin üçüncü sualında birinci növbədə qanunçuluq və intizam, ikinci növbədə isə qanunçuluğun və intizamın təmin edilməsi üsulları barədə ətraflı nəzəri biliklər əldə etmiş olduz.

Ümumilikdə, mühazirənin əhəmiyyəti və mahiyyəti isə ondan ibarətdir ki, siz gələcək fəaliyyətinizdə öz vəzifələrinizi qanun çərçivəsində yerinə yetirməklə dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinə nail olmuş olarsınız.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın hər bir şəxs tərəfindən dəqiq və dönmədən təmin edilməsi Azərbaycan Respublikasının hər bir vətəndaşının konstitusion vəzifəsidir.

MÖVZU № 18 " DAXİLİ İŞLƏR VƏ ƏDLİYYƏ SAHƏLƏRİNDƏ DÖVLƏT İDARƏETMƏSİ ".

P L A N:

G İ R İ Ş

1. Daxili işlər sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati - hüquqi formaları. DİN-in hüquqi vəziyyəti
2. Daxili işlər orqanlarında xidmət keçmənin anlayışı, hüquqi əsasları və şərtləri.
3. Ədliyyə sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati hüquqi formaları

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu, 28 oktyabr 1999-cu il.
3. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Əsasnamə-sinin və strukturunun təsdiq edilməsi haqqında". Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 30 iyun 2001-ci il.
4. Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 29 iyun 2001-ci il.
5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 18 aprel 2006-cı il.
6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Strukturunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (əlavə №1, 17 avqust 2006- cı il).
7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnaməsi. Bakı, 2007.
8. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu. 10 iyun 1997-ci il.
9. "Məhkəmə qərarlarının icrası haqqında" Azərbaycan Respublikasının Qanunu. 27 dekabr 2001-ci il.
10. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanunu. 26 noyabr 1999-cu il.
10. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
11. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
12. Korenev A.P. "Administrativnoe pravo".Çastğ 2. Dərslik. Moskva, 1999.

G İ R İ Ş

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra dövlət idarəetməsinin digər sahələrdə olduğu kimi dövlətin hüquqmühafizə fəaliyyəti sahəsində

də hüquqi islahatlar keçirməyə başladı. Belə ki, idarəetmənin xüsusi subyektlərindən olan daxili işlər və ədliyyə sahəsində idarəetmənin həyata keçirilməsi ilə bağlı respublikamızda bir sıra yeni qanun və qanun qüvvəli aktlar qəbul edilmişdir.

Daxili işlər sahəsində idarəetmənin həyata keçirilməsi ilə bağlı "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu, Daxili İşlər Nazirliyinin Əsasnaməsi və strukturu qəbul və təsdiq edilmişdir.

Ədliyyə sahəsində idarəetmə ilə bağlı isə onu göstərmək olar ki, Məhkəmə Qərarları İcrasının Baş İdarəsi və Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə iş və bələdiyyələrə metodiki yardım mərkəzi yaradılmışdır. O cümlədən "Məhəkəmələr və hakimlər haqqında", "Məhkəmə qərarlarının icrası haqqında", "Notariat haqqında" və digər qanunlar qəbul edilmişdir.

Mövzuda daxili işlər sahəsində idarəetməni həyata keçirən orqanların eləcə də Azərbaycan Respublikasında ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində qanunla müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Daxili İşlər Nazirliyinin (bundan sonra DİN) və onun orqanlarının əsas vəzifələri, hüquqi vəziyyətləri və s. açıqlanmışdır.

Dövlətin ədliyyə sahəsində siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Ədliyyə Nazirliyi, onun tərkibinə daxil olan orqanlar haqqında da mövzunun köməkliyi ilə siz hüquqi biliklər əldə edəcəksiniz.

Daxili işlər və ədliyyə sahəsində dövlət idarəetməsi haqqında biliklərin əldə edilməsi sizə öz köməyini gələcək təcrübi fəaliyyətinizdə göstərəcəkdir.

İndi isə mövzunun birinci sualının açıqlanmasına keçək.

SUAL I "DAXILI IŞLƏR SAHƏSINDƏ DÖVLƏT IDARƏETMƏSININ ANLAYIŞI VƏ TƏŞKILATI-HÜQUQI ƏSASLARI. DİN-IN HÜQUQI VƏZIYYƏTI".

Daxili işlər orqanları dövlət idarəetməsinin sosial sistemi kimi çıxış edir. Daxili işlər orqanları dövlət idarəetmə sistemində müstəqil yer tutur və mühüm rol oynayırlar.

Daxili işlərin idarəedilməsi digər sahələrdə və bölmələrdə olduğu kimi müəyyən məqsədə yönəldilmiş təşkiletmə fəaliyyətindən ibarətdir.

Daxili işlər sahəsində idarəetmənin məzmunu - müəyyən edilmiş formalarda və müvafiq metodlarla həyata keçirilən idarəetmə məqsədlərinin, vəzifələrinin və funksiyalarının realizəsi üzrə fəaliyyət təşkil edir.

Daxili işlər sahəsində idarəetmənin əsas məqsədi - ölkədə hüquq qaydasının və qanunçuluğun təmin edilməsindən, vətəndaşların, idarə, müəssisə və təşkilatların hüquq, azadlıq və qanuni mənafelərinin mühafizə edilməsindən ibarətdir.

Daxili işlər sahəsində idarəetmənin əsas məqsədi bu sahədə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlıqla və digər hüquqpozmalarla mühafizə, mülkiyyətin mühafizəsi üzrə idarəetmənin vəzifələrində konkretləşdirilir.

Daxili işlər sahəsində idarəetmə sosial idarəetmənin növlərindən biri kimi-idarəetmə vəzifələrinin yerinə yetirilməsi üzrə fəaliyyətin müəyyən istiqamətləri kimi başa düşülən bir sıra funksiyalara bölünür. İdarəetmə funksiyaları aşağıdakı növlərə bölünürlər:

- ümumi;
- xüsusi (əsas);
- təminedici .

İdarəetmənin ümumi funksiyaları - bütövlükdə idarəetmənin bütün sisteminə və onun ayrı-ayrı təbəqələrinə xas olan funksiyalardır. Onlara aiddir:

- proqnozlaşdırma;
- planlaşdırma;
- təşkiletmə;
- nizamasalma;
- uçot (qeydiyyat);
- analiz (təhlil);
- yoxlama (nəzarət) və s.

İdarəetmənin xüsusi (əsas) funksiyaları- sosial fəaliyyətin ayrı-ayrı çvhələrinə təşkiletmə təsiri göstərir ki, bu da həmin sahələrdə müxtəlif növ işlərin yerinə yetirilməsinə kömək edir. Xüsusi funksiyaları çox vaxt əsas funksiyalar kimi adlandırırlar, çünki idarəetmə subyektlərinin vəzifə və funksiyaları bilavasitə bu funksiyalar vasitəsi ilə realizə olunurlar.

Onlara aşağıdakı funksiyalar aiddir:

- vətəndaşların həyatının, hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin cinayətkar qəsdlərdən mühafizəsi;
- ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi;
- cinayətlərin və digər hüquqpozmalarının xəbərdar edilməsi və qarşısının alınması;
- cinayətlərin tez və tam açılması, cinayətlərin və digər hüquqpozma- larının törədilməsinə kömək edən səbəb və şəraitlərin aradan qaldırılması;
- vətəndaşların qanuna tabe olma hərəkət tərzi, qanunların dönmədən yerinə yetirilməsi və sivil cəmiyyətin birgə yaşayış qaydalarına hörmət etmələri ruhunda tərbiyə edilməsi;
- müqavilə əsasında mülkiyyətin mühafizə edilməsi və s.

İdarəetmənin təminedici funksiyaları- idarəetmənin ümumi və xüsusi funksiyalarının realizəsi prosesinə xidmət edirlər.

Bu funksiyalar qrupunu aşağıdakı funksiyalar təşkil edirlər:

- kadr;
- maddi-texniki (təsərrüfat);
- maliyyə;
- kargüzarlıq və s.

Daxili işlər sahəsində idarəetmənin ümumi, xüsusi (əsas) və təminedici funksiyaları bir-biri ilə yanaşı və qarşılıqlı əlaqədə mövcud olurlar.

Daxili işlər sahəsində idarəetmə formaları təşkilatdaxili məsələlərin həll edilməsi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sisteminin daxilində rəhbərliyin həyata keçirilməsi, tabeçilik üzrə aşağı təbəqəli orqanlarla və ayrı-ayrı

əməkdaşlarla rəhbərliyin həyata keçirilməsi, həmçinin də daxili işlər orqanlarının xarici fəaliyyətinin, yəni idarəetmənin xüsusi (əsas) funksiyalarının realizəsi üçün istifadə olunur.

Daxili işlər sahəsinə dövlət hakimiyyəti orqanlarının rəhbərliyi-onların bu sahədəki səlahiyyətlərinin həcmindən təşəkkül tapır.

Qanunvericilik və icra hakimiyyəti orqanları daxili işlər sahəsində ümumi rəhbərliyi həyata keçirirlər. Onlar Azərbaycan Respublikasının daxili işlər sahəsindəki dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edirlər.

Qanunvericilik orqanı (Milli Məclis) - Azərbaycan Respublikasının bütün ərazisində həyat fəaliyyətinin digər sahələrində olduğu kimi, daxili işlər sahəsində də münasibətlərin qanunvericilik tənzimlənməsini təmin edir; daxili işlərin idarəedilməsinin təşkilinin qanunvericiliklə tənzimlənməsini həyata keçirir; vətəndaşların konstitusiya hüquqlarının, azadlıqlarının və vəzifələrinin qanunvericiliklə tənzimlənməsini həyata keçirir; daxili işlər sahəsində dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əsaslarını, ümumi prinsiplərini müəyyən edir.

Azərbaycan Respublikasının Prezidenti - dövlətin başçısı olmaqla daxili işlər sahəsində münasibətlərin tənzimlənməsinə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinə yönəldilmiş fərman və sərəncamlar qəbul edir; Azərbaycan Respublikasının Konstitusiyasının 111 və 112-ci maddələrində göstərilən hallarda Konstitusiyanın 119-cu maddəsinin 29-cu bəndinə əsasən Azərbaycan Respublikasının bütün ərazisində və ya onun ayrı-ayrı yerlərində hərbi vəziyyət və ya fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Milli Məclisin təsdiqinə verir; Daxili İşlər Nazirini vəzifəyə təyin edir və vəzifədən azad edir; həmçinin də hüquq qaydasının və ictimai təhlükəsizliyin möhkəmləndirilməsinə istiqamət-ləndirilmiş tədbirlər görür.

Azərbaycan Respublikasının Nazirlər Kabineti - dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət siyasətinin işlənib hazırlanması və realizəsində iştirak edir. Azərbaycan Respublikası qanunlarının, Prezidentin fərmanlarının, Milli Məclisin və Prezidentin digər aktlarının əsasında və onların icra edilməsi üzrə daxili işlər sahəsində idarəetmə məsələləri üzrə qərar və sərəncamlar qəbul edir və onların icra edilməsini yoxlayır; qanunçuluğun, vətəndaşların hüquqlarının və azadlıqlarının təmin edilməsi, mülkiyyətin mühafizəsi, cinayətkarlıqla və digər hüquqpozmaları ilə mübarizə üzrə tədbirlər həyata keçirir; daxili işlər sahəsində icra hakimiyyəti orqanlarının işlərini birləşdirir və istiqamətləndirir.

İdarəetmənin xüsusi subyektlərindən biri olan daxili işlər orqanları (bundan sonra DİO) bütün fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Prezidentin fərman və sərəncamlarını, hökumətin qərarlarını, DİN-in normativ aktlarını rəhbər tutur.

Daxili işlər orqanlarının bilavasitə idarə olunması Daxili İşlər Nazirliyinə həvalə edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsində göstərilmiş hakimiyyətin bölgü prinsipinə əsasən və Azərbaycan Respublikasının DİN-i haqqında Əsasnaməyə uyğun olaraq "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasında ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi,

cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır".

Daxili İşlər Nazirliyi də öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Prezidentin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərarlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri DİN haqqında Əsasnaməni və DİN-in normativ-hüquqi aktlarını rəhbər tutur.

DİN Azərbaycan Respublikasında bütün daxili işlər orqanları sisteminə rəhbərlik edir və DİN-ə həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyində olan bu orqanlar vasitəsilə həyata keçirir.

DİN-in vahid sistemini Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi, Daxili Qoşunlar, yanğın təhlükəsizliyi qurumları, ərazi və ixtisaslaşdırılmış polis orqanları, nizami polis hissələri, tədris, təhsil və tibb müəssisələri, İnterpolun Azərbaycan Respublikasında Milli Mərkəzi Bürosu, İdman cəmiyyəti, habelə digər qurumlar təşkil edir.

Ərazi polis orqanlarına rayon, şəhər və şəhərdəki rayon polis idarələri, şöbələri və bölmələri daxildirlər.

İxtisaslaşdırılmış polis orqanlarına DİN-in Nəqliyyatda Baş Polis İdarəsi və onun tabeçiliyində olan su, hava və dəmiryolu nəqliyyatlarında polis orqanları qəbuledici-bölüşdürücü məntəqələr və s. aiddirlər.

Nizami polis hissələrinə isə post-patrul xidmətinə aid olan Əlahiddə polis hissələri, Dövlət Yol Polisinin yol-patrul xidməti hissələri və s. aiddirlər.

DİN-in strukturuna Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən baş idarələr, şöbələr və digər qurumlar daxildirlər. Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2001-ci il tarixli "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Fərmanına əsasən DİN-in strukturu aşağıdakı kimidir:

1. Rəhbərlik nazir; nazir müavinləri (3 müavin).
2. Katiblik (baş idarə səlahiyyətli).
3. Baş Təşkilati-İnspektor İdarəsi.
4. Növbətçi hissələri İdarəetmə Xidməti (idarə səlahiyyətli).
5. Baş Cinayət Axtarış İdarəsi.
6. Baş İstintaq və Təhqiqat İdarəsi.
7. Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi.
8. Narkotiklərlə Mübarizə İdarəsi.
9. 7-ci İdarə.
10. Kriminalistik Tədqiqatlar İdarəsi.
11. Əməliyyat və Statistik İnformasiya İdarəsi.
12. Baş İctimai Təhlükəsizlik İdarəsi.
13. Daxili Qoşunların Baş İdarəsi (Daxili qoşunların komandanı nazir müavini hesab edilir).
14. Baş Dövlət Yol Polisi İdarəsi.
15. Nəqliyyatda Baş Polis İdarəsi.
16. Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi.

17. Baş Mühafizə İdarəsi.
18. Pasport, Qeydiyyat İdarəsi.
19. Səfərbərlik işləri və mülki müdafiə şöbəsi.
20. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu (idarə səlahiyyətli).
21. Baş Kadrlar İdarəsi.
22. Daxili Təhqiqatlar İdarəsi.
23. Şəxsi Heyətlə İş İdarəsi.
24. Beynəlxalq Əməkdaşlıq İdarəsi.
25. Əməliyyat-Rabitə İdarəsi.
26. Mətbuat xidməti (idarə səlahiyyətli).
27. Maliyyə-Plan İdarəsi.
28. Təchizat İdarəsi.
29. Tibb İdarəsi.
30. Komendant xidməti (şöbə səlahiyyətli).
31. Əsaslı tikinti şöbəsi.
32. İdman cəmiyyəti.

DİN öz işini insan və vətəndaş hüquqlarına və azadlıqlarına, qanunçuluq, humanistlik, habelə təkbaşçılıq prinsiplərinin uzlaşdırılması əsasında qurur.

DİN daxili işlər sahəsində dövlət idarəçiliyini həyata keçirir və qanunvericiliklə onun funksiyaları aşağıdakılardır:

1. ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işinin təşkili;
2. cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması, cinayətlərin açılması işinin və istintaqın təşkili;
3. yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi işinin təşkili;
4. daxili qoşunların fəaliyyətinin təşkili.

Bu funksiyaların həyata keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada DİN aşağıdakı vəzifələri yerinə yetirir:

1) ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir, cinayətlərin qarşısının alınması və açılması sahəsində profilaktika tədbirlərinin həyata keçirilməsini təmin edir;

2) əməliyyat-axtarış fəaliyyətinin, daxili işlər orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə təhqiqatın və ibtidai istintaqın, habelə kriminalistik və başqa tədqiqatların aparılmasını təşkil edir;

3) təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən və cəzadan yayınanların axtarışını, itkin düşmüş şəxslərin, şəxsiyyətinin tanınması mümkün olmayan meyitlərin müəyyənləşdirilməsi işini, habelə oğurlanmış əmlakın axtarılmasını təşkil edir və həyata keçirir;

4) daxili işlər orqanlarının səlahiyyətinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxılmasını, habelə xüsusi icazələrin (lisenziyaların) verilməsini təşkil edir;

5) müqavilə əsasında mülkiyyətçilərin əmlakının mühafizəsi işini təşkil edir, ölkə ərazisində yerləşən xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndəliklərinin təhlükəsizliyinin təmin olunmasında iştirak edir;

6) İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosunun fəaliyyətini təşkil edir;

7) avtomotonəqliyyatın dövlət texniki baxışının və qeydiyyatının keçirilməsini, sürücülük vəsiqələrinin verilməsini təşkil edir, yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat vasitələri üzrə qeydiyyatın, təhqiqatın və istintaqın aparılmasını təşkil edir;

8) daxili təhqiqatların aparılmasını təşkil edir;

9) daxili qoşunların vəzifələrinin icrasını təşkil edir və onların daxili işlər orqanları ilə fəaliyyətini əlaqələndirir;

10) fövqəladə və hərbi recimin təminində, habelə karantin tədbirlərinin həyata keçirilməsində iştirak edir;

11) DİN üçün kadrların hazırlanmasını və əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsini təmin edir;

12) DİN əməkdaşlarının sağlamlığının mühafizəsini və onların sosial müdafiəsini təmin edir;

13) digər hüquq-mühafizə orqanları, dövlət və bələdiyyə orqanları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqəni təmin edir;

14) vətəndaşlardan və təşkilatlardan daxil olan müraciətlərin qəbulu, qeydiyyatı və baxılması, vətəndaşların qəbulu işini təşkil edir və s.

Öz vəzifə və funksiyalarını yerinə yetirmək üçün DİN aşağıdakı hüquqlara malikdir:

1. ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində qanunvericiliklə müəyyən edimiş hüquqları həyata keçirmək;

2. qanunvericilik aktlarının daxili işlər orqanları və Daxili Qoşunlar tərəfindən icrasına nəzarət etmək;

3. xüsusi icazə (lisenziya) verilməsi sahəsində daxili işlər orqanlarının səlahiyyətinə aid edilmiş nəzarəti həyata keçirmək;

4. yaşayış yeri və olduğu yer üzrə qeydiyyat qaydalarına riayət olunmasını təmin etmək;

5. yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirmək;

6. xidməti və mülki silahın dövriyyəsinə və döyüş sursatının saxlanması qaydalarına riayət olunmasına nəzarət etmək;

7. DİN-in təhsil müəssisələrində qəbul imtahanlarını keçirmək və bu tədris müəssisələrinə rəhbərlik etmək və s.

DİN-ə daxili işlər naziri rəhbərlik edir, o Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur. Nazirin müavinləri onun təqdimatına əsasən Prezident tərəfindən vəzifəyə təyin olunur və azad edilirlər.

Daxili işlər nazirinə bir çox səlahiyyətlər verilmişdir. O cümlədən daxili işlər naziri:

1. DİN-in işini təşkil edir və DİN-ə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır, təkbaşçılıq prinsipi əsasında daxili işlər orqanlarının və Daxili Qoşunların fəaliyyətinə rəhbərlik edir;

2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların məsuliyyət dərəcəsini və səlahiyyətlərini müəyyən edir, DİN sisteminin digər vəzifəli şəxslərinin müstəqil qərar qəbul etmək səlahiyyətlərini müəyyən edir;

3. DİN sistemində icrası məcburi olan əmrlər verir; baş idarə, idarə, şöbə və ayrı-ayrı xidmət sahələrini nizamlayan əsasnamələri, nizamnamələri, təlimatları və s. normativ-hüquqi aktları təsdiq edir, onların icrasına nəzarəti təşkil edir;

4. DİN-in strukturu, DİN sistemində geyim formasının və digər rəmzlərin təsis edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

5. DİN-in şəxsi heyətini vəzifəyə təyin və vəzifədən azad edir, xüsusi və hərbi rütbələr verir və onlardan məhrum edir;

6. vəzifəyə təyin və vəzifədən azad etmə ilə bağlı DİN-in vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyən edir;

7. DİN-in əməkdaşlarını mükafatlandırır və intizam tənbehi tədbirləri tətbiq edir və s.

Daxili İşlər Nazirliyində DİN-in rəhbər işçilərindən ibarət məşvərətçi orqan-**kollegiya** yaradılır. Kollegiyanın tərkibini Azərbaycan Respublikasının Prezidenti təsdiq edir. Kollegiyanın sədri tutduğu vəzifəyə görə daxili işlər naziri, üzvləri isə DİN-in digər rəhbər vəzifələri üzrə müəyyən edilir.

DİN-in kollegiya iclasında daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətləri, ictimai təhlükəsizliyin və ictimai qaydanın təmin edilməsi, cinayətkarlığa qarşı mübarizənin və icra intizamının vəziyyəti, kadr məsələləri, əmrlərin və digər aktların layihələri müzakirə edilir, daxili işlər orqanlarının vəzifəli şəxslərinin hesabatları dinlənilir, DİN-in fəaliyyəti ilə bağlı digər mühüm məsələlərə baxılır və müvafiq qərarlar çıxarılır.

Kollegiya üzvləri müzakirə edilən məsələlərə dair qərar qəbul edərkən səsverməyə bərabər hüquqlara malikdirlər. Kollegiyanın qərarları onun üzvlərinin sadə və səs çoxluğu ilə qəbul edilir, nazirin əmri ilə elan olunur və həyata keçirilir. Kollegiyanın sədri və kollegiya üzvləri arasında fikir ayrılığı olduqda kollegiyanın sədri öz əsaslandırılmış qərarını həyata keçirir və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat verir.

Beləliklə, birinci suala yekun olaraq qeyd etmək olar ki, idarəetmənin xüsusi subyekti olan daxili işlər orqanlarıdır. Daxili işlər orqanlarının fəaliyyəti digər dövlət orqanlarından özünün daha yüksək səviyyəli intizamı və mərkəzləşməsi ilə fərqlənir.

SUAL 2. "DAXILI IŞLƏR ORQANLARINDA XIDMƏT KEÇMƏNIN ANLAYIŞI, HÜQUQI ƏSASLARI VƏ ŞƏRTLƏRI".

Polisdə və DİN sisteminə daxil olan digər orqan və hissələrdə xidmət keçmənin qaydaları və şərtləri, bu orqanların vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsasları qanunla təsdiq edilmiş "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə tənzimlənir.

Daxili işlər orqanlarında xidmət keçmə-daxili işlər orqanlarının funksiya, vəzifə və hüquqlarını öz peşə fəaliyyətləri ilə həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğunun xüsusi növüdür.

Daxili işlər orqanında xidmət keçmə haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və "Polis haqqında" Azərbaycan Respublikasının Qanunundan, Daxili İşlər orqanlarında xidmət keçmə haqqında Əsasnamədən, Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarından ibarətdir.

Daxili işlər orqanlarında işləyən şəxslər arasında xidməti münasibətlərin tənzimlənməsi, onların xidmət müddətinin və ixtisas keyfiyyətlərinin müəyyən olunması məqsədi ilə bu orqanlarda sıravi heyət, kiçik, orta, böyük və ali rəis heyəti vəzifələri və xüsusi rütbələr müəyyən olunur.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən, xüsusi rütbələr verilmiş, sıravi və kiçik, orta, böyük, ali rəis heyəti vəzifələrində işləyən və ya daxili işlər orqanlarının kadrlarında olan Azərbaycan Respublikasının vətəndaşları, habelə DİN-in təhsil müəssisəsinin müdavimləri daxili işlər orqanlarının əməkdaşları hesab olunurlar.

Daxili işlər orqanlarının əməkdaşları dövlət hesabına geyim forması və fərqlənmə nişanları ilə təmin olunurlar. Geyim formasının və fərqlənmə nişanlarının təsviri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

Daxili işlər orqanlarının əməkdaşlarına nümunələri Azərbaycan Respublikasının DİN tərəfindən müəyyən edilmiş xidməti vəsiqələr verilir.

Daxili işlər orqanlarının əməkdaşları xüsusi hazırlıq keçdikdən sonra qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada fiziki qüvvəni, xüsusi vasitələri və odlu silahı tətbiq etmək hüququna malikdirlər. Xüsusi vasitələrin və odlu silahın verilməsi, saxlanılması və gəzdirilməsi qaydaları DİN tərəfindən müəyyən edilir.

Daxili işlər orqanlarında xidmət keçmə hər bir əməkdaşın şəxsi işində öz əksini tapır. Şəxsi iş daxili işlər orqanlarının kadr xidmətləri tərəfindən hazırlanır, aparılır və saxlanılır.

Daxili işlər orqanlarında sıravi və rəis heyəti vəzifələrinə təyin olunan şəxslərə xüsusi rütbələr verilir.

Daxili işlər orqanları rəis heyətinin əməkdaşları xidmətdən xaric edildikdə mövcud rütbəyə "istefadə olan" sözləri əlavə edilir.

Daxili işlər orqanlarında xidmətə könüllülük əsasında, şəxsi keyfiyyətlərinə, fiziki və peşə hazırlığına, sağlamlıq vəziyyətinə və təhsil səviyyəsinə görə bu orqanlarda xidmətə yararlı olan, habelə hərbi xidmət keçmiş və hərbi mükəlləfiyyətli (qadınlar istisna olmaqla), Azərbaycan Respublikasının dövlət dilini bilən, yaşı 20-dən aşağı və bir qayda olaraq yaşı 30-dan yuxarı olmayan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

DİN-in tədris müəssisəsinə yaşı 18-ə çatmamış orta təhsilli şəxslər də qəbul edilə bilərlər.

Daxili işlər orqanlarında xidmətə qəbul müsabiqə (test imtahanlarının və söhbətlərin) və şəffaflıq əsasında həyata keçirilir. Müsabiqənin elan edilməsi, keçirilməsi və yekunlarına dair müvafiq qərarın qəbul edilməsi qaydası DİN tərəfindən müəyyən edilir.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud

fəaliyyət qabiliyyəti hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, əvvəllər işdə yol verdiyi ciddi nöqsanlara, daxili işlər orqanlarında xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olmasına, xidmətə tam yararsız olmasına, ləyaqətsiz hərəkətlərə görə daxili işlər və digər hüquq-mühafizə orqanlarından xaric edilmiş şəxslər daxili işlər orqanlarında xidmətə qəbul oluna bilməzlər.

Daxili işlər orqanlarının sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə yalnız orta və orta ixtisas təhsilli şəxslər qəbul edilirlər.

Orta və böyük rəis heyəti vəzifələrində xidmətə bir qayda olaraq xüsusi, orta ixtisas ali hüquq təhsilli şəxslər qəbul edilirlər.

Digər ixtisasları olan şəxslərin xidmətə qəbulu DİN tərəfindən müəyyən edilmiş qaydalara uyğun həyata keçirilir.

Daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslər "Polis haqqında" Qanunun 29-cu maddəsində göstərilmiş məzmunda və DİN tərəfindən müəyyən edilmiş qaydada and içirlər.

Sıravi və kiçik, orta və böyuk rəis heyəti vəzifələrinə təyin olunma və bu vəzifələrdən azad edilmə DİN tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

Daxili işlər orqanları əməkdaşlarının təminat xərclərinə tutduğu vəzifəyə və xüsusi rütbəyə görə maaşları, fasiləsiz xidməti illərinə görə haqq, məharət dərəcəsinə görə verilən əlavə ərzaq payı və ya ərzaq payı əvəzinə verilən pul kompensasiyası, digər müavinət və ödənişlər daxildir.

Daxili işlər orqanları əməkdaşlarının həyat və sağlamlığı dövlət büdcəsi vəsaiti hesabına sığortalanır.

Daxili işlər orqanlarında xidməti intizam - əməkdaşlar tərəfindən onlara həvalə olunmuş vəzifələrin icrasından və öz səlahiyyətlərini həyata keçirən zaman Azərbaycan Respublikasının qanunvericiliyinə, vəzifə təlimatlarına, habelə DİN-in və bilavasitə rəislərin əmr və göstərişlərinə əməl etməkdən ibarətdir.

Xidməti vəzifələrin nümunəvi yerinə yetirilməsinə və xidmətdə əldə edilən yüksək nəticələrə görə daxili işlər orqanlarının əməkdaşları üçün aşağıdakı həvəsləndirmə növləri tətbiq oluna bilər:

1) təşəkkür;
2) pul mükafatı;
3) qiymətli hədiyyə ilə mükafatlandırılma;
4) fəxri fərman ilə təltif edilmə;
5) fəxri döş nişanı ilə təltif edilmə;
6) vaxtından əvvəl növbəti xüsusi rütbənin verilməsi;
7) xüsusi rütbənin vəzifə ştatında nəzərdə tutulduğundan bir pillə yuxarı verilməsi;
8) təltif silahının verilməsi.

Həvəsləndirmə növlərinin tətbiqi qaydaları DİN tərəfindən müəyyən edilir. Həvəsləndirmə tədbiri kimi əvvəllər verilmiş intizam tənbehinin vaxtından əvvəl geri götürülməsi tətbiq oluna bilər.

Xidməti intizam qaydalarını pozmağa görə daxili işlər orqanlarının əməkdaşlarına aşağıdakı intizam tənbehləri tətbiq edilə bilər.

1) məzəmmət;

2) töhmət;
3) şiddətli töhmət;
4) xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq;
5) tutduğu vəzifədən aşağı vəzifəyə keçirmə;
6) xüsusi rütbənin bir pillə aşağı salınması;
7) xidmətdən xaric edilmə.

Həvəsləndirmə tədbirləri və intizam tənbehləri, daxili işlər orqanlarının vəzifəli şəxsləri tərəfindən onlara verilən səlahiyyətlər hüququnda tətbiq edilir.

Xidməti intizam qaydalarının pozulmasına görə yalnız bir intizam tənbehi verilir. Həvəsləndirmə tədbiri kimi intizam tənbehinin vaxtından əvvəl götürülməsi, tənbehi vermiş rəis, yaxud ona bərabər vəzifəli və ya vəzifəcə böyük birbaşa rəis tərəfindən həyata keçirilir.

Həvəsləndirmə tədbirlərinin və intizam tənbehinin tətbiqində verilən hüquqların həddini aşan vəzifəli şəxs məsuliyyət daşıyır.

Daxili işlər orqanlarının əməkdaşı aşağıdakı hallarda xidmətdən xaric edilə bilər:

1) öz arzusu ilə daxili işlər orqanlarında xidmətdən çıxmaq barəsində yazılı ərizə verildikdə;
2) and içməkdən imtina etdikdə;
3) cinayət törətdiyinə görə barəsində qanuni qüvvəyə minmiş məhkəmənin ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqi haqqında qərar olduqda;
4) daxili işlər orqanlarında xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olduqda;
5) xidmətdə olmanın son yaş həddinə çatdıqda;
6) səhhətinə görə, o cümlədən 4 aydan artıq müddətli xəstəliklə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə tibbi-həkim komissiyasının rəyi olduqda;
7) daxili işlər orqanlarında xidmətə tam yararsız olması barəsində attestasiya komissiyasının rəyi olduqda;
8) başqa dövlətin vətəndaşlığını qəbul etdikdə, Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;
9) daxili işlər orqanları əməkdaşı adına ləkə gətirən ləyaqətsiz hərəkət etdikdə;
10) intizam məsuliyyətinə cəlb edildikdən sonra xidmət və icra intizamını il ərzində yenidən kobudcasına pozduqda;
11) ştatlar ixtisar edildikdə;
12) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə qaydasında müəyyənləşdirildikdə;
13) digər hüquq-mühafizə orqanlarına işə keçdikdə.

Xidmətdən xaric edilən daxili işlər orqanları əməkdaşlarına Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müavinət verilir.

Beləliklə, suala nəticə olaraq göstərmək olar ki, DİN sistemində İntizam Nizamnaməsi qüvvədədir, DİN-in sıravi və rəis heyəti vətənə sadiq olmaları barədə and içirlər. Onların xidmətə qəbulu və xidmət keçməsi qanunla təsdiq edilmiş əsasnamə ilə tənzimlənir.

SUAL 3. "Ədliyyə sahəsində dövlət idarəetməsinin
ANAYIŞI VƏ TƏŞKILATI – HÜQUQI FORMALARI.

Ədliyyə - sosial-siyasi xarakter daşıyan idarəetmə sahələrindən biridir. Bu sahə qanunsuluğun möhkəmləndirilməsi, vətəndaşların, idarə, müəssisə, təşkilat və ictimai birliklərin hüquq və qanuni maraqlarının təmin edilməsi kimi əsas vəzifə və funksiyaları yerinə yetirir. Göstərilən vəzifə və funksiyaların yerinə yetirilməsində ədliyyə, məhkəmə, notariat orqanları və digər müəssisə və təşkilatlar iştirak edirlər.

Sadalanan orqan, müəssisə və təşkilatlar dövlət idarəetməsinin müstəqil sahələri olaraq, onlara rəhbərliyi ədliyyə idarəçiliyi həyata keçirir.

Ədliyyə idarəetməsi Azərbaycan Respublikası Prezidenti və Hökumətinin qanunyaratma fəaliyyətinin hüquqi təminatı sahəsində normativ-hüquqi aktların layihələrinin işlənib hazırlanması; məhkəmə islahatının təşkilati-hüquqi təminatının həyata keçirilməsi; idarə, təşkilat və ictimai birliklərin dövlət qeydiyyatından keçirilməsi; məhkəmə-ekspert idarələrinə, dövlət notariat kontorlarına rəhbərlik və digər məsələləri həyata keçirir.

Ədliyyə sahəsində idarəetmənin əsas vacib suallarını Azərbaycan Respublikasının Prezidenti, Müdafiə Şurası və hökuməti həll edir. Bu sahədə xüsusi idarəetmə orqanı Ədliyyə Nazirliyi və ədliyyə idarəetmə orqanları, eləcə də onun sisteminə daxil olan orqanlar sayılır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təşkilati fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Sovetinin 1972-ci il 28 iyul tarixdə qəbul edilmiş Fərmanla təsdiq edilmiş Əsasnamə ilə nizamlanır. Onun əsas vəzifələri aşağıdakılardır:

1) qanunçuluğu hərtərəfli möhkəmləndirmək, dövlət qeyri-dövlət və ictimai təşkilatların vətəndaşların hüquqlarını və qanuni mənafelərini qorumaq; digər dövlət orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, cinayətlərin və digər hüquqpozmaların törədilməsinə kömək edən səbəb və şəraitin aradan qaldırılması sahəsində fəaliyyəti təkmilləşdirmək;

2) məhkəmələrə təşkilati rəhbərliyin təmin edilməsi və bu işin səviyyəsini yüksəltmək, hakimlərin müstəqilliyi və yalnız Konstitusiyaya və qanunlara tabeçiliyi prinsiplərinə ciddi əməl olunmaqla ədalət mühakiməsinin məqsədlərinin və məhkəmənin vəzifələrinin həyata keçirilməsinə hər vasitə ilə gömək etmək;

3) qanunların məcəllələşdirilməsinə dair təklifləri sistemləşdirmək və hazırlamaq, Azərbaycan Respublikası nazirlikləri və baş idarələri tərəfindən həyata keçirilən məcəlləşdirmə işinin səviyyəsinin yüksəldilməsinə, dövlət quruculuğu vəzifələrinə uyğun olaraq qanunvericiliyin təkmilləşdirilməsinə hər vasitə ilə kömək etmək;

4) notariat, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı (VVAQ) orqanlarının, məhkəmə-ekspert orqanlarının digər tabe ədliyyə təşkilatlarının və idarələrinin fəaliyyətini təkmilləşdirmək;

5) ictimai istehsalatda iqtisadi səmərəliliyinin artırılması, mülkiyyəti qorumaq, dövlət və əmək intizamını daha da möhkəmləndirmək, idarə, müəssisə, təşkilat və vətəndaşların hüquqlarına və qanuni mənafelərinə ciddi əməl edilməsi məqsədi ilə istehsalatda hüquq işini təkmilləşdirmək;

6) əhali arasında hüquqi biliklərin təbliğini və qanunların izahını təşkil etmək;

7) hüquq elminin inkişafına və onun nailiyyətlərindən dövlət, təsərrüfat və mədəni quruculuqda istifadə olunmasına kömək etmək;

8) Nazirliyin müəssisə və təşkilatlarını, məhkəmə orqanlarını ixtisaslı kadrlarla təmin etmək, kadrların ixtisasını artırmaq və s.

Ədliyyə Nazirliyi bu vəzifələri yerinə yetirərkən Nazirliyin orqanlarının və idarələrinin, məhkəmələrin təşkili və fəaliyyətinə aid məsələlərə dair qanunvericiliyin tətbiqi təcrübəsini ümumiləşdirir, bu qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər işləyib hazırlayır və onları Nazirlər Kabinetinin müzakirəsinə verir.

Ədliyyə Nazirliyinin başlıca vəzifələri onun rəhbərlik etdiyi müəssisə və orqanların xüsusiyyətindən asılı olaraq Nazirliyin funksiyalarının xarakterini müəyyən edir.

Ədliyyə Nazirliyinin əsas funksiyaları aşağıdakılardır:

1. Məhkəmələrin fəaliyyətinin təşkilati təmin edilməsi Ədliyyə Nazirliyinin fəaliyyətinin vacib istiqamətidir.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 86-cı maddəsinə əsasən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi hakimlərin müstəqilliyinə ciddi əməl etməklə Ali Məhkəmənin, İqtisad Məhkəməsinin və Apellyasiya Məhkəməsinin hakimləri istisna olmaqla, hakimlərin peşə hazırlığının artırılması, məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılması məsələləri ilə məşğul olur, məhkəmələrin müvafiq normativ-hüquqi aktlarla təchiz olunmasını, maliyyə və digər maddi-texniki xidmətini həyata keçirir, bu məhkəmələrdə kargüzarlığın təşkili və məhkəmə statistikasının aparılması, məhkəmə qərarlarının icrası, hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi, məhəkəmələrdə icra və əmək intizamına riayət edilməsi üçün tədbirlər görür və bu sahələr üzrə işin təşkili vəziyyətini yoxlamaq hüququna malikdir və hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi barədə icraat başlayır.

Məhkəmələrin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədi ilə məhkəmələrdə məhkəmə aparatı. Ali, İqtisad, Apellyasiya və Naxçıvan MR-nın Ali məhkəmələrində isə müvafiq struktur bölmələrdən ibarət olan məhkəmə katibliyi fəaliyyət göstərir.

Məhkəmələrin fəaliyyətinin təşkilati təminatı məhkəmə fəaliyyəti üçün lazımi şəraitin və məhkəmələrdə işin təşkil edilməsinin yoxlanılması üçün zəruridir. Ədliyyə Nazirliyi məhkəmələrin təşkil edilməsi (onların dislokasiyası, quruluşu və ştatı) barədə təkliflər hazırlayır, hakimliyə namizədləri imtahan yolu ilə seçir; məhkəmələrdə işin təşkil edilməsini yoxlayır və bu məsələlər üzrə müvafiq məhkəmə sədrlərinin məruzələrini dinləyir; məhkəmələrin maddi-texniki təminatı və onların fəaliyyəti üçün lazımi məsələləri həll edir.

Ədalət mühakiməsinin və məhkəmə nəzarətinin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə Ədliyyə Nazirliyi məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir. Bu işi Ali Məhkəmə ilə əlaqələndirir və ümumiləşdirmənin nəticələrindən məhkəmə fəaliyyətinin təşkilindəki çatışmamazlıqların aradan qaldırılması üçün istifadə edir; məhkəmə statistikası işinin aparılmasını təşkil edir və onun məlumatlarını məhkəmələrdə işlərin baxılması keyfiyyətinin yüksəldilməsində və qanun-vericiliyin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanmasında istifadə edir; məhkəmələrin mülki işlər üzrə qərarlarının və cinayət işləri üzrə əmlakın alınmasına dair hökmlərinin icrası işinə nəzarət və rəhbərlik

edir; cinayət işləri üzrə məhkəmə hökmlərinin icrasını (bu barədə biz ayrıca danışacağıq) yerinə yetirir.

Ədliyyə Nazirliyi cinayətkarlığa qarşı mübarizə tədbirlərinin hazırlanması və qanunçuluğun möhkəmləndirilməsi məqsədi ilə sosioloci tədqiqatlar təşkil edir, bu işi Azərbaycan Respublikasının Prokurorluğu, Ali Məhkəməsi, Daxili İşlər Nazirliyi və digər əlaqədar təşkilatlarla əlaqələndirir, yoldaşlıq məhkəmələrinə və hüquqpozmalara qarşı mübarizə aparan digər ictimai təşkilatlara hüquqi yardım göstərir.

Ədliyyə Nazirliyinin məhkəmələrdə işin təşkili məsələlərinə dair əmr, təlimat və sərəncamların icrası bütün məhkəmələr tərəfindən məcburidir.

Ədliyyə Nazirliyinin və onun orqanları müvafiq məhkəmələrlə öz işini uyğunlaşdırmaqla yanaşı məhkəmələrin təşkilati işi ilə məhkəmə nəzarəti işinin qarışdırılmasına qəti yol vermir, məhkəmə nəzarəti yalnız yuxarı təbəqə məhkəmələr tərəfindən aşağı məhkəmələrə edilir. Ədliyyə Nazirliyi və onun orqanları məhkəmələrin təşkilati təminatını hakimlərin müstəqilliyi və yalnız Konstitusiyaya və qanunlara tabeçiliyi prinsipinə ciddi əməl etməklə həyata keçirir.

2. Qanunvericiliyin sistemləşdirilməsi, məcəllələşdirilməsi və qanun layihələrinin hazırlanması işini Ədliyyə Nazirliyi digər nazirliklər və idarələr ilə sıx əlaqədə həyata keçirir. Bu iş hal-hazırda ölkədə məhkəmə və hüquq islahatları dövründə bütün qanunvericiliyin dəyişdiyi üçün daha çox əhəmiyyət kəsb edir.

Ədliyyə Nazirliyi yuxarı orqanların və öz təşəbbüsü ilə qanunvericilik aktlarının və Nazirlər Kabinetinin qərarlarının layihələrini hazırlayır, Nazirlər Kabinetinin müzakirəsinə verilən mühüm normativ-hüquqi aktlara rəy verir, idarə hüquqi aktlarıa qanunauyğunluğu nöqteyi-nəzərdən rəy verir və onların qeydiyyatını aparır. Ədliyyə Nazirliyinin vacib vəzifələrindən biri də Azərbaycan Respublikasının qüvvədə olan Qanunlar Külliyyatını tərtib və nəşr edir.

Ədliyyə Nazirliyi qanun layihələri hazırlayarkən qanunvericliyi sistemləşdirərkən bütün nazirlik və idarələrdən, elmi müəssisələrdən və təhsil ocaqlarından hazırlanan sənədlər üzrə rəy almaq, habelə qanunvericiliyin təkmilləşdirilməsi işinə həmin orqanların mütəxəssislərini cəlb etmək hüququna malikdir.

3. Xalq təsərrüfatında hüquqi işə metodik rəhbərlik Ədliyyə Nazirliyi tərəfindən müəssisə və digər təşkilatların, nazirlik və idarələrin hüquqi xidmətlərinin yaxşılaşdırılması məqsədi ilə həyata keçirir.

Ədliyyə Nazirliyi xalq təsərrüfatında hüquq işinə metodiki rəhbərlik edir, nazirliklərdə, müəssisə, idarə və təşkilatlarda, habelə yerli icra hakimiyyəti orqanlarında hüquqi işin vəziyyəti ilə tanış olur, həmin orqanların nümayəndələrinin məlumatlarını dinləyir; hüquq işinin yaxşılaşdırılmasına dair metodiki göstərişlər və tövsiyyələr işləyib hazırlayır və verir; hüquq şöbələrinin və hüquq məsləhətçilərinin müsbət iş təcrübəsini öyrənir, ümumiləşdirir və yayır, hüquq məsləhətçilərinin ixtisasını artırmaq üçün tədbirlər görür.

4. Notariata və VVAQ orqanlarına rəhbərlik-Ədliyyə Nazirliyinin və onun orqanlarının funksiyalarından biridir.

Respublikamızda notariat əməliyyatlarını yerinə yetirmək üçün Ədliyyə Nazirliyi sistemində dövlət notariat kontorları təşkil edilib.

Dövlət notariat kontorlarına rəhbərlik Nazirlər Kabineti və Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Notariat kontorlarında baş dövlət notariusları, onların

müavinləri işləyirlər. Onların hamısı Ədliyyə Nazirliyi tərəfindən təyin və azad edilirlər. Dövlət notariusları vəzifələrinə ali hüquq təhsilli şəxslər təyin edilirlər.

Ədliyyə Nazirliyi və onun orqanları müxtəlif formalarda notariat kontorlarına rəhbərlik edirlər. Notarius kadrlarının hazırlanması, yerləşdirilməsi və onların ixtisaslarının artırılması, notariat əməliyyatlarının keyfiyyətinin və qanuniliyinin yoxlanılması, dövlət notariuslarında şikayətlərə baxılması, notariat kontorlarının maddi-texniki təminatı və s.

Ədliyyə Nazirliyi vətəndaşın vəziyyəti aktlarının qeydiyyatı orqanlarının fəaliyyətini təkmilləşdirmək sahəsində tədbirlər işləyib hazırlayır və həyata keçirir, onların işini yoxlayır və lazımi göstərişlər verir.

5. Hüquqi biliklərin və hüquq tərbiyəsinin təbliğatı üzrə metodik rəhbərlik və əlaqələndirmə işi hal-hazırki dövrdə xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, hüquqi dövlət quruculuğu, siyasi sistemin islahatları və təsərrüfatçılığın yeni metodlarının tətbiqi əhalinin hüquqi tərbiyəsinin yenidən qurulmasının, mərkəzdə və yerlərdə bütün kadrları, əhalinin bütün təbəqələrini əhatə edən ümumi dövlət proqramı kimi ümumi hüquqi təhsilin təşkili səmərəli metodların tətbiqini tələb edir.

Ədliyyə Nazirliyi əhali arasında hüquqi biliklərin təbliği və qanunvericiliyin izahı sahəsində dövlət orqanlarına və ictimai təşkilatlara metodik rəhbərlik edir və onların işini əlaqələndirir, həmin orqanlarda bu işin vəziyyəti ilə tanış olur, onların iş planlarını əlaqələndirir və lazımi metodiki göstərişlər və tövsiyyələr verir.

Ali hüquq məktəbləri və elmi müəssisələrlə birlikdə əhali üçün keyfiyyətli hüquq ədəbiyyatının hazırlanması və müxtəlif nəşriyyatlarda onun kifayət qədər nüsxə ilə nəşr etdirilməsi Ədliyyə Nazirliyinin xüsusi diqqət mərkəzində olmalıdır. Bu iş indiki dövrdə qanunvericiliyin geniş şəkildə yenilənməsi ilə əlaqədar çox mühüm əhəmiyyət kəsb edir.

Bu istiqamətdə aparılan belə çox cəhətli fəaliyyət Ədliyyə Nazirliyində xüsusi olaraq yaradılmış metodik əlaqələndirmə şurasına həvalə edilmişdir.

6. Məhkəmə-ekspert müəssisələrinin təşkili və onlara rəhbərlik Ədliyyə Nazirliyi tərəfindən ona görə həyata keçirilir ki, bu təşkilatların fəaliyyəti bu və ya digər dərəcədə hüquqi məsələlərin həlli ilə, hüquq mühafizə orqanlarının fəaliyyəti ilə, hüquq pozuntularının qarşısının alınması və aradan qaldırılması üçün zəruri şəraitin təmin edilməsi ilə əlaqədardır. Belə ki, Ədliyyə Nazirliyi məhkəmə-ekspert müəssisələrinin məhkəmə ekspertiza laboratoriyalarını təşkil edir və onların fəaliyyətinə rəhbərlik edir.

7. hüquq məsələləri üzrə beynəlxalq əlaqələr Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının beynəlxalq müqavilələri əsasında digər ölkələrlə qarşılıqlı hüquqi yardımın təşkili üçün həyata keçirilir, Ədliyyə Nazirliyi beynəlxalq müqavilələrin və razılaşmaların hazırlanmasında iştirak edir, hüquqi yardımın edilməsi üzrə müqavilələrin, habelə Ədliyyə Nazirliyinin səlahiyyətlərinə aid məsələlər üzrə konvensiya və razılaşmaların yerinə yetirilməsini təşkil edir.

8. Bələdiyyələrlə iş və bələdiyyələrə metodoloci yardım.

Ədliyyə Nazirliyi onun yanında yaradılmış Mərkəz vasitəsi ilə yerli özünüidarə orqanlarının üzvləri və həmin orqanların icra aparatlarının işçiləri tərəfindən bələdiyyələrə haqqında qanunvericiliyin öyrənilməsinə, onların fəaliyyətinin müasir tələblərə və hamılıqla qəbul edilmiş standartlara uyğun təşkil edilməsinə kömək göstərməsini təmin edir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndinə əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilmiş nazir başçılıq edir. Ədliyyə naziri Ədliyyə Nazirliyinə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün şəxsi məsuliyyət daşıyır, nazirliyin fəaliyyətinin ayrı-ayrı sahələrinə rəhbərlik üçün nazirlik sistemi idarələrinin və təşkilatlarının işi üçün nazir müavinlərinin, idarə, şöbə rəislərinin və digər bölmə rəislərinin vəzifə bölgüsünü və məsuliyyət dərəcəsini müəyyən edir.

Ədliyyə Nazirliyində nazirdən (sədr), nazir müavinlərindən və nazirliyin digər rəhbərlərindən ibarət tərkibdə kollegiya yaradılır. Kollegiya özünün müntəzəm iclaslarında Nazirliyin fəaliyyətinin əsas məsələlərini nəzərdən keçirir, Nazirliyin tabeçiliyində olan idarələrin və təşkilatların rəhbərlərinin məruzələrini və hesabatlarını dinləyir, məhəkəmələrin işinin təşkili məsələlərinə dair Naxçıvan MR-ın Ali Məhkəməsinin və digər rayon (şəhər) məhkəmələrin sədrlərinin məruzələrini dinləyir, kadrların seçilməsi və tərbiyəsi məsələlərini dinləyir, mühüm qanunvericilik aktlarının və normativ hüquqi aktların, nazirliyin əmr və təlimatlarının layihələrini, eləcə də qanunların sistemləşdirilməsi məsələlərini müzakirə edir. Kollegiyanın qərarı nazirin əmri ilə həyata keçirilir.

Ədliyyə Nazirliyinin mərkəzi aparatının quruluşu və işçilərinin sayı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

Ədliyyə Nazirliyinin quruluşuna aşağıdakı idarələr, şöbələr və sair qurumlar daxildirlər:

1. Məhkəmə qərarlarının İcrasının Baş İdarəsi.
2. Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları idarəsi.
3. İstintaq idarəsi.
4. Qanunvericilik və hüquqi təbliğat idarəsi.
5. Normativ-hüquqi aktların hüquqi ekspertizası, uçotu və qeydiyyatı idarəsi.
6. Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi.
7. Notariat və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı idarəsi.
8. Beynəlxalq hüquq əməkdaşlığı idarəsi.
9. Həmin idarənin nəzdində insan hüquqları üzrə şöbə.
10. Maliyyə-təsərrüfat idarəsi.
11. Ümumi şöbə.
12. Kadrlar şöbəsi.
13. Azərbaycan Respublikası Elmi-Tədqiqat Məhkəmə Ekspertizası. Kriminalistika və Kriminologiya Problemləri İnstitutu.
14. Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə iş və bələdiyyələrə metodik yardım mərkəzi.
15. Ədliyyə Nazirliyi yanında hüquq-tədris mərkəzi.
16. Mətbuat xidməti.
17. “Qanunçuluq” curnalı.
18. Arxiv

✍ Ədliyyə sahəsində dövlət idarəetməsinin təşkilati – hüquqi formalarına aşağıdakıları aid etmək olar:

- məhkəmələrin fəaliyyəti
- notariatın fəaliyyəti
- vətəndaşların vəziyyətinin Dövlət Qeydiyyatı orqanlarının fəaliyyəti

- vəkilliyin fəaliyyəti

Məhkəmələrin fəaliyyəti: Azərbaycan Respublikasının Konstitusiyasına görə məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin bir qoludur. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirir.

Məhkəmə hakimiyyətini həyata keçirən məhkəmələr qanunverici və icra funksiyalarını həyata keçirən orqanlardan çox fərqlənir. Bu fərq təkcə məhkəmələrin spesifik səlahiyyətlərində deyil, həm də məhkəmələrin quruluşunda, ilk növbədə isə məhkəmə korpusunun formalaşmasında əks olunmuşdur.

Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.

Məhkəmələr heç bir dövlət orqanından asılı deyil və öz funksiyalarının həyata keçirilməsində müstəqildir.

Məhkəmənin məhkəmə hakimiyyətinin orqanı kimi xüsusiyyəti həm də ondan ibarətdir ki, onun fəaliyyəti üçün xüsusi qayda (prosedur) müəyyən edilmişdir. Bu qayda məhkəmənin səlahiyyətinə aid olan məsələlərin baxılmağa hazırlanmasının və baxılmasının ciddi surətdə dəqiqləşdirilməsindən ibarətdir. Qaydaların əsas məqsədi faktlara və qanuna müvafiq ədalətli qərarların qəbul edilməsinin təminatıdır. Məhkəmə fəaliyyətinin xüsusi qaydası məhkəmələrdə icraatın açıq, çəkişmə prinsipi əsasında aparılmasına, hər kəsin müdafiə hüququnun təmin olunmasına, vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyinə və digər prinsiplərə əsaslanır.

Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Yəni qanun müəssisələrdən, təşkilatlardan, vəzifəli şəxslərdən və vətəndaşlardan məhkəmə hakimiyyətini həyata keçirən orqanın göstərişlərinə şərtsiz tabe olmağı tələb edir.

Məhkəmə səlahiyyətlərinin geniş dairəsi əsas verir ki, məhkəmə hakimiyyəti çox vacib və məsuliyyətli sosial funksiyanı yerinə yetirir.

Dövlət idarəetməsinin subyektlərindən olan məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Konstitusiyamızda təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirir.

Notariatın fəaliyyəti: Azərbaycan Respublikasında notariat dedikdə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə (26 noyabr 1999-cu il) nəzərdə tutulmuş hüquqi hərəkətləri-notariat hərəkətləri aparmağa müvəkkil edilmiş şəxslər birlikdə başa düşülür.

Azərbaycan Respublikasında rəsmi və doğru sənədlərin tərtibi üçün hüquqların, hüquqi əhəmiyyətli faktların təsdiqi və digər notariat hərəkətlərinin aparılması notariat fəaliyyətinə məxsusdur və belə fəaliyyət yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada və nəzərdə tutulmuş şəxslər tərəfindən həyata keçirilə bilər.

Notariatın vəzifələri mülkiyyəti, fiziki və hüquqi şəxslərin hüquqlarını və qanuni mənafeyini qorumaqdan, qanunçuluğu və hüquq qaydasını möhkəmlətməkdən, müqavilələri və digər əqdləri düzgün və vaxtında təsdiq etmək, vərəsəlik hüquqlarını rəsmiləşdirmək, icra qeydlərini və başqa notariat hərəkətlərini aparmaq yolu ilə hüquq qaydalarının pozulmasının qarşısını almaqdan ibarətdir.

Notariat fəaliyyətinə nəzarəti Ədliyyə Nazirliyi həyata keçirir. Notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olan şəxs notarius adlanır ki, hər bir notariusun notariat fəaliyyəti iki ildə bir dəfədən az olmadan yoxlanılmalıdır.

Dövlət vasitəsi ilə notariat fəaliyyətini dövlət notariat kontorlarında çalışan dövlət notariusları, notariat kontorları olmayan yaşayış məntəqələrində rayon, şəhər icra hakimiyyəti orqanları, Mülki Məcəlləyə əsasən notariusa bərabər tutulan şəxslər, Azərbaycan Respublikasının konsulluqlarının səlahiyyətli vəzifəli şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirirlər.

Dövlət notariusu vəzifəsinə şəhadətnamə almış vətəndaşlar arasından Ədliyyə Nazirliyi təyin edir.

Dövlət notariusunun həvəsləndirilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və vəzifədən azad edilməsi məsələlərini əmək qanunvericiliyinə müvafiq qaydada Ədliyyə Nazirliyi həll edir.

Dövlət notariusu aşağıdakı notariat hərəkətlərini aparır:

1) əqdləri və etibarnamələri təsdiq edir;

2) miras əmlakın mühafizə olunması üçün tədbirlər görür;

3) vərəsəlik hüququ haqqında şəhadətnamələr verir;

4) ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələr verir;

5) yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələr verir;

6) sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünü təsdiq edir;

7) sənədlərdəki imzaların həqiqiliyini təsdiq edir;

8) sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünü təsdiq edir;

9) şəxsin sağ olması faktını təsdiq edir;

10) şəxsin müəyyən yerdə olması faktını təsdiq edir;

11) şəxslə fotoşəkildəki şəxsin eyniliyini təsdiq edir;

12) sənədlərin təqdim olunduğu vaxtı təsdiq edir;

13) fiziki və hüquqi şəxslərin ərizələrini başqa fiziki və hüquqi şəxslərə verir;

14) öhdəliyin icra predmetini saxlamağa, pul məbləğlərini, qiymətli kağızları vəsiyyətnamələri depozitə qəbul edir;

15) icra qeydləri aparır;

16) veksellər protestlər tərtib edir;

17) çekləri ödənilmək üçün təqdim edir və çeklərin ödənilmədiyini təsdiq edir;

18) sənədləri saxlanmaq üçün qəbul edir;

19) dəniz protestləri tərtib edir;

20) sübutları təmin edir.

Qanunvericiliklə dövlət notariusuna başqa notariat hərəkətlərinin aparılması da həvalə edilə bilər.

Dövlət notariat kontorları təşkilati cəhətdən Ədliyyə Nazirliyi sisteminə daxildir. Fərdi qaydada fəaliyyət göstərən notariuslar, onların kontorları isə təşkilati cəhətdən Ədliyyə Nazirliyi sisteminə daxil olmurlar.

Fərdi qaydada fəaliyyət göstərən bütün notariuslar notariat palatasında birləşirlər. Fərdi qaydada fəaliyyət göstərən notariusların həmin palataya üzv olması məcburidir.

Beləliklə, notariuslar öz funksiya və səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər və fəaliyyətlərində yalnız qanunları, Ədliyyə Nazirliyinin normativ aktlarını və digər müvafiq aktları rəhbər tuturlar.

Vətəndaşların vəziyyətinin Dövlət Qeydiyyatı üzrə fəaliyyət. Vətəndaşlıq vəziyyətinin qeydiyyatı orqanları vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını həyata keçirir. Həmin orqanların fəaliyyətinin mahiyyəti vətəndaşın hüquqi vəziyyətinə təsir göstərən hadisələr və faktların qeydə alınmasından ibarətdir. Yalnız o hadisələr və faktlar qeydə alınmalıdır ki, onlar bilavasitə hüquqi aktlarda göstərilmişdir. Həmin hadisə və faktlara-vətəndaşın anadan olması və vəfat etməsi, nigah bağlanması və nigahın pozulması, övladlığa götürmə, atalığa qəbul etmə, soyadın, adın, ata adının dəyişdirilməsi və s. aiddir.

Vətəndaşlıq vəziyyətinin qeydiyyatı orqanları yerli və mərkəzi icra aparatı yanında təşkil olunur. Onlar həmin orqanların fəaliyyətinə bilavasitə rəhbərlik edir. Bununla yanaşı, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və onun orqanları həmin orqanların fəaliyyətinə metodik rəhbərliyi və bu fəaliyyətin hüquqi tənzimlənməsini həyata keçirir. Ədliyyə Nazirliyi vətəndaşlıq vəziyyətinin qeydiyyatı orqanlarının fəaliyyətini təkmilləşdirmək sahəsində tədbirlər görür, onların fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi barədə müvafiq dövlət hakimiyyəti orqanlarına təkliflər verir, onların iş təcrübəsini öyrənir və ümumiləşdirir, onların işi üçün zəruri olan blanklar, hesabat, uçot formaları işləyib hazırlayır və s.

Azərbaycan Respublikasının Prezidenti 31 iyul 2002-ci il tarixdə Azərbaycan Respublikasında vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı işinin təkmilləşdirilməsi haqqında fərman imzalamışdır. Həmin fərmanın mahiyyəti vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı işinin səmərəliliyinin artırılması, bu sahədə vətəndaşların hüquqlarının həyata keçirilməsi üçün daha münasib şəraitin yaradılmasının təmin edilməsi məqsədini özündə əks etdirir. Fərmana görə vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həmçinin rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər-rayon icra hakimiyyətlərinin nümayəndəlikləri də həyata keçirə bilər.

N Ə T İ C Ə

Mövzuya nəticə olaraq bildiririk ki, daxili işlər və ədliyyə sahələrində dövlət idarəetməsi haqqında hüquqi biliklərin əldə edilməsi isə sizin bir hüquqşünas kimi formalaşmağınızda köməkçiniz olacaqdır.

Mövzunun birinci sualında dövlət idarəetməsinin sahələrindən biri olan daxili işlər sahəsində idarəetmənin mahiyyəti haqqında qeyd etdik. Burada daxili işlər sahəsində dövlət idarəetməsinin bilavasitə qanunauyğun şəkildə həyata keçirilməsini və daxili işlər orqanlarını bilavasitə idarə olunmasını Daxili İşlər Nazirliyinə həvalə olunmasını qeyd etdik.

İkinci sualda daxili işlər orqanlarında xidmət keçmə haqqında biliklər əldə olundu. O cümlədən daxili işlər orqanlarında xidmətə könüllülük əsasında qanunvericilikdə öz əksini tapmış xüsusiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşlarının qəbul edilməsi haqqında biliklər əldə etdik.

Mövzunun üçüncü sualında dövlətin ədliyyə sahəsində siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı Ədliyyə Nazirliyi haqqında qeyd edərkən, onun funksiya və vəzifələri, strukturu göstərildi.

Bununla yanaşı dövlət hakimiyyətinin bir qolu olan və yalnız ədalət mühakiməsi ilə həyata keçirilən məhkəmə hakimiyyəti, notariat hərəkətləri aparmağa müvəkkil edilmiş şəxslər-notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını həyata keçirən vətəndaşlıq vəziyyətinin qeydiyyatı orqanları haqqında hüquqi biliklər əldə etdik.

Mövzu № 19:

"Milli təhlükəsizlik və müdafiə sahəsində dövlət idarəetməsi"

P L A N:

GİRİŞ

4. Milli təhlükəsizlik sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları. Dövlət sərhədinin mühafizəsi milli təhlükəsizliyin təmin edilməsinin istiqamətlərindən biri kimi.
5. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti təhlükəsizliyin təmin edilməsinin istiqamətlərindən biri kimi.
6. Müdafiə sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları.

NƏTİCƏ

Ə D Ə B İ Y Y A T:

11. Azərbaycan Respublikasının Konstitusiyası.
12. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsinin Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinə çevrilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 1 noyabr 1991-ci il.
13. "Milli Təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanunu (Azərbaycan Respublikası DİN-in 12 avqust 2004-cü il tarixli 355 №-li əmri).
14. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. 29 iyun 2004-cü il.
15. "Sərhəd qoşunları haqqında" Azərbaycan Respublikasının Qanunu, 6 yanvar 1994-cü il.
16. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, 25 dekabr 1991-ci il.
17. "Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanunu, 29 aprel 1992-ci il.
18. "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, 3 noyabr 1992-ci il.
19. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunu, 26 noyabr 1993-cü il.
20. "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanunu, 26 noyabr 1993-cü il.
21. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 23 sentyabr 1994-cü il.

22. “Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamənin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu, 10 ynavar 1995-ci il.
23. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 3 oktyabr 1997-ci il.
24. “Azərbaycan Respublikası hərbi əks-kəşfiyyat xidmətinin Azərbaycan Respublikası MTN-nin tərkibinə daxil edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 31 iyul 2002-ci il.
25. “Azərbaycan Respublikası Dövlət Sərhəd xidməti haqqında Əsasnaməsinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 12 dekabr 2002-ci il tarixli Fərmanı.
26. “Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yardım fondu haqqında Əsasnamənin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2002-ci il tarixli Fərmanı.
17. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
18.E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
19.Korenev A.P. “Administrativnoe pravo”.Çastğ 2. Dərslik. Moskva, 1999.

G İ R İ Ş

Cəmiyyətin, şəxsiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi üsullarından biri də mübarizə struktur vahidlərinin yaradılmasıdır. Məhz bu səbəbdən də Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi, Kəşfiyyat və əks-kəşfiyyat və Dövlət Sərhəd Mühafizə Xidməti yaradılmışdır.

Yuxarıda göstərilənlər mühazirəmizin sualları üzrə təhlil olunacaqdır.

Belə ki, mühazirənin I sualında milli təhlükəsizlik sahəsində idarəetmənin təşkilati-hüquqi formaları barədə və Dövlət sərhədinin mühafizəsi milli təhlükəsizliyin təmin edilməsi istiqamətlərindən biri kimi formasında təhlillər aparılacaqdır.

Mühazirənin II sualında kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti təhlükəsizliyin təmin edilməsinin istiqamətlərindən biri kimi barədə məlumatlar şərh olunacaqdır.

Mühazirənin III sualı üzrə müdafiə sahəsində dövlət idarəetməsinin təşkilati-hüquqi formaları haqqında konstitusion müddəalar təhlil olunacaqdır.

SUAL I.
Milli təhlükəsizlik sahəsində idarəetmənin
təşkilati-hüquqi formaları

Azərbaycan Respublikası müstəqilliyini qazandığı gündən bir çox beynəlxalq təşkilatlara üzv seçilmiş və dünyanın yüzlərlə müstəqil dövlətləri ilə tam bərabərhüquqlu müstəqil dövlət kimi beynəlxalq müqavilələr bağlamış və öz müstəqilliyini inamla qorumaqdadır.

Respublikada aparılan dövlət quruculuğunun və Konstitusiyamızın əsas müddəalarının həyata keçirilməsini təmin edən əsas zəmanətlərindən biri də müstəqillik qazanmış respublikamızın toxunulmazlığının və təhlükəsizliyinin təmin edilməsidir.

Təhlükəsizlik şəxsiyyətin, cəmiyyətin və dövlətin əsas maraqlarının daxili və xarici təhdidlərdən (təhlükələrdən) qorunması vəziyyətidir. Təhlükəsizliyə dövlət, iqtisadi, ictimai, müdafiə, məlumat və digər növ təhlükəsizliklər daxildir.

Təhlükəsizliyin belə geniş anlayışı onu təmin edən çox saylı orqanların və təşkilatların fəaliyyət göstərmələri, həmçinin də təhlükəsizliyə nail olmaq məqsədi ilə siyasi, iqtisadi, hərbi, təşkilati, ekoloji və digər xarakterli müvafiq tədbirlərdən istifadə edilməsini nəzərdə tutur.

Azərbaycan Respublikasında təhlükəsizliyin təmin edilməsinə güc orqanlarının fəaliyyəti ilə nail olunur.

Azərbaycan Respublikasının təhlükəsizliyini təmin edən orqanlara aşağıdakılar aiddir:

- Milli Təhlükəsizlik Nazirliyi və onun orqanları;
- silahlı qüvvələr;
- daxili işlər orqanları;
- vergi xidməti orqanları;
- gömrük xidməti orqanları;
- mülki müdafiə orqanları;
- sərhəd qoşunları;
- daxili qoşunlar;
- sənayedə, energetikada və kənd təsərrüfatında işin təhlükəsiz aparılmasını təmin edən orqanlar;
- rabitə və məlumat vasitələrində təhlükəsizliyi təmin edən xidmətlər;
- əhalinin sağlamğlığını qoruyan orqanlar və təhlükəsizliyi təmin edən digər orqanlar.

Təhlükəsizliyin təmin edilməsi üzrə bilavasitə funksiyaların yerinə yetirilməsi məqsədi ilə dövlət tərəfindən təhlükəsizliyi təmin edən xüsusi orqanlar təşkil edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 99-cu və 109-cu maddələrinə əsasən, təhlükəsizliyi təmin edən orqanlar üzərində idarəetməyə ümumi rəhbərlik Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Konstitusiyanın bu maddələrinə əsasən, Prezident təhlükəsizliyi təmin edən orqanların fəaliyyətlərini əlaqələndirir, onların fəaliyyətlərinə nəzarət edir və zəruri hallarda bu sahədə operativ qərarlar qəbul edir.

Azərbaycan Respublikası Konstitusiyasının 114-115-ci və 119-cu maddələrinə əsasən, Azərbaycan Respublikasını Nazirlər Kabineti öz səlahiyyətləri çərçivəsində təhlükəsizliyi təmin edən orqanlar üzərində idarəetməyə ümumi rəhbərliyi həyata keçirir. Nazirlər Kabineti nazirliklərlə, dövlət komitələri ilə və digər orqanlarla milli təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təşkil edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndinə əsasən Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını yaradır.

Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 10 aprel tarixli Fərmanı ilə yaradılmışdır. Bu orqanda daxili və xarici təhlükəsizlik məsələləri

müzakirə edilir. Təhlükəsizlik Şurasında iqtisadi, ekoloci, ictimai təhlükəsizlik məsələlərinə də baxıla bilər. Təhlükəsizlik Şurası icrası məcburi olan qərarlar qəbul edə bilməz.

Təhlükəsizlik Şurasının tərkibinə aşağıdakı vəzifəli şəxslər daxildir:

- Milli Məclisin sədri;
- Baş Nazir;
- Prezidentin İcra Aparatının rəhbəri;
- Xarici Siyasət Məsələləri üzrə Dövlət müşaviri;
- Hərbi İşlər üzrə Dövlət müşaviri;
- Baş Prokuror;
- Xarici İşlər Naziri;
- Müdafiə Naziri;
- Milli Təhlükəsizlik Naziri;
- Daxili İşlər Naziri.

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Milli təhlükəsizliyi təmin edən xüsusi orqanların sisteminə daxil olan icra hakimiyyəti orqanlarından biridir. Milli Təhlükəsizlik Nazirliyinin təşkili və fəaliyyətinin əsasları Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli Qanunu və 27 mart 2004-cü il tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi haqqında" əsasnamə də müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə 01 noyabr 1991-ci il tarixli 239-XII saylı Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Komitəsi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə (bundan sonra-MTN) çevrilmişdir. Ali Sovetin bu qərarına əsasən, Azərbaycan Respublikasının MTN Azərbaycan Respublikasının Prezidentinə tabe edilmişdir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi xüsusi xidmət orqanı olaraq ona həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyindəki qürumlar vasitəsilə həyata keçirir. Nazirliyin strukturuna baş idarələr, idarələr, şöbələr və digər qürumlar daxildir. Nazirliyin mərkəzi aparatı, Naxçıan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, şəhər və rayon orqanları, hərbi əks-kəşfiyyat qürumları, akademiya, hərbi-tibbi müəssisələri, habelə digər struktur bölmələr Nazirliyin vahid sistemini təşkil edir.

Milli Təhlükəsizlik Nazirliyi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada öz səlahiyyətləri daxilində aşağıdakı vəzifələri yerinə yetirir:

- Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması istiqamətində dövlət siyasətinin həyata keçirilməsi məqsədi ilə əlverişli şəraitin yaradılması üçün tədbirlər görür;

- Milli təhlükəsizliyin təmin edilməsi məqsədi ilə kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini təşkil edir və həyata keçirir, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq aparır;

- xarici xüsusi xidmət orqanlarının, təşkilatların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının milli maraqlarına qarşı yönəlmiş niyyətləri, planları və əməlləri barədə məlumatları əldə edir, təhlil edir, milli təhlükəsizliyə real və potensial təhdidləri proqnozlaşdırır;

- xarici xüsusi xidmət orqanlarının və təşkilatların, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya

quruluşunun əsaslarına və təhlükəsizliyinə, iqtisadi, elmi-texniki, müdafiə potensialına və sair milli maraqlarına zərər vurulmasına yönəlmiş kəşfiyyat, terror-təxribat, digər pozuculuq və cinayətkar fəaliyyətinin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədi ilə tədbirlər görür;

- beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın digər formaları ilə mübarizə aparır;

- Azərbaycan Respublikasının Prezidentinin və onun tapşırığı ilə müvafiq dövlət orqanlarını milli təhlükəsizliyə olan təhdidlər barədə məlumatlandırır, habelə siyasi, iqtisadi, hərbi, elmi-texniki, ekoloji və milli təhükəsizliyin təminatı ilə bağlı digər sahələr üzrə zəruri kəşfiyyat məlumatları ilə təmin edir;

- Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik və digər nümayəndəlikləri əməkdaşlarının və onların ailə üzvlərinin xarici ölkələrdə olma müddətində, dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılmış Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrə ezamiyyət müddətində təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə zəruri hallarda tədbirlər görür;

- hərbi-sənaye kompleksinin, eneergetika, nəqliyyat, rabitə və iqtisadiyyatın digər strateji əhəmiyyətli sahələrinin, həmçinin milli təhlükəsizlik baxımından əhəmiyyət kəsb edən elmi-texniki araşdırmaların və onların nəticələrinin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlər görür;

- xarici xüsusi xidmət orqanlarının texniki kəşfiyyatına qarşı əks tədbirlər həyata keçirir, texniki kəşfiyyat aparır;

- dövlət orqanlarının və onların vəzifəli şəxslərinin qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi rabitə ilə təmin olunmasında iştirak edir;

- kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin təminatı ilə bağlı hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparır, əməliyyat-qeydiyyat işini başlayır və onu qeydiyyata alır;

- əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə qərarlarını, istintaq orqanlarının qərarlarını və ya cinayət işləri üzrə yazılı tapşırıqlarını, habelə əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarlarını yerinə yetirir;

- nazirliyin orqanları üçün ixtisaslı kadrlar hazırlayır, hərbi qulluqçuların və işçilərin peşə hazırlığının təkmilləşdirilməsini, ixtisaslarının artırılmasını və mənəvi-psixoloji hazırlığını təmin edir və s.

Azərbaycan Respublikasının Milli təhlükəsizliyinin təmin edilməsi üçün dövlət proqramının işlənib hazırlanmasında və onun realizəsində iştirak edir. Nazirlikdə ölkədə daxili siyasət, sosial-iqtisadi və kriminal vəziyyətin inkişafı proqnozlarına əsasən, Azərbaycan Respublikasının təhlükəsizliyinə olan təhlükənin xəbərdar edilməsi və neytrallaşdırılması üzrə təkliflər işləyib hazırlayır və s. tədbirlər həyata keçirir.

Azərbaycan Respublikası MTN-in fəaliyyətinin əsas hissəsini xarici dövlətlərin, təşkilatların və şəxslərin real və potensial imkanlarında, hərəkətlərində, planlarında və niyyətlərində Azərbaycan Respublikasının strateji maraqlarına toxunan məlumatları aşkar etməkdən, əldə etməkdən və işləməkdən (təhlil etməkdən), eləcə də Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin edilməsi marağı ilə dövlətin həyata keçirdiyi tədbirlərin həyata keçirilməsinə köməklik göstərməkdən ibarətdir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin mənbələrindən asılı olaraq Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması vəhdət təşkil edən xarici və daxili təhlükəsizliklərin məcmusundan ibarətdir.

Xarici təhlükəsizlik dedikdə, Azərbaycan Respublikasının həyati əhəmiyyətli mənafelərinin kənardan mümkün risk, təhlükə və təhdidlərdən qorunması üçün siyasi-diplomatik və ya hərbi, yaxud eyni zamanda həm diplomatik, həm də hərbi tədbirlər kompleksinin həyata keçirilməsi başa düşülür.

Daxili təhlükəsizlik dedikdə, Azərbaycan Respublikasında siyasi, iqtisadi və sosial sabitliyin, cəmiyyətdə vətəndaş həmrəyliyinin qorunması üçün müvafiq şəraitin yaradılması başa düşülür.

Azərbaycan Respublikasının milli təhükəsizliyinin təmin olunması müxtəlif sahələr üzrə həyata keçirilir. Bu sahələr aşağıdakılardır:

- siyasi;
- iqtisadi;
- hərbi;
- sosial;
- informasiya;
- ekologiya;
- elm;
- mədəniyyət;
- mənəviyyat və s.

Azərbaycan Respublikasının siyasi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan xalqının və onun yaratdığı siyasi təsisatların dövlət hakimiyyəti məsələlərini müstəqil həll etmək, insan və cəmiyyətin maraqları naminə suveren daxili və xarici siyasəti həyata keçirmək imkanının və qabiliyyətinin təmin edilməsidir.

Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının milli iqtisadiyyatının və iqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunmasıdır.

Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması dövlətimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş hərbi xarakterli real və potensial təhdidlərdən müdafiə sahəsində tədbirlər kompleksinin həyata keçirilməsi və milli maraqların hərbi vasitələrlə qorunması qabiliyyətinin təmin edilməsdir.

Azərbaycan Respublikasının informasiya sahədə milli təhlükəsizliyinin təmin olunması dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə infomasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirər kompleksinin həyata keçirilməsidir.

Azərbaycan Respublikasının ekoloji sahədə milli təhlükəsizliyinin təmin olunması ətraf mühitin ona zərərli təsirlər nəticəsində yaranan təhdidlərdən qorunmasıdır;

Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyin təmin olunması Azərbaycan xalqının mədəni irsini, maddi və mənəvi dəyərlərinin və elmi-texniki potensialın daxili və xarici təhdidlərdən qorunması və inkişaf etdirilməsidir.

Dövlət sərhəddinin mühafizəsi milli təhlükəsizliyin təmin edilməsinin istiqamətlərindən biri kimi.

Azərbaycan Respublikasının dövlət sərhədi anlayışı, "Azərbaycan Respublikasının Dövlət sərhədi haqqında" Qanunun 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının dövlət ərazisinin (quru və öz ərazisinin, yerin təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə şaquli səthdən ibarətdir. Digər tərəfdən isə Azərbaycan Respublikasının dövlət suverenliyinin ərazi hüdudlarıdır.

Dövlət sərhədi anlayışına aşağıdakı 3 amil daxildir:

- faktiki;
- hüquqi;
- texniki.

Dövlət sərhədinin faktiki cəhətdən anlayışını-dövlət ərazisinin hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə keçən şaquli səth təşkil edir.

Dövlət sərhədinin hüquqi cəhətdən anlayışını-dövlət sərhəddinin Azərbaycan Respublikası qanunvericilikləri və beynəlxalq müqavilələrlə möhkəmləndirilməsi təşkil edir.

Dövlət sərhədinin texniki cəhətdən anlayışını isə dövlət ərazisində müvafiq xəttin qeyd edilməsi, sərhədin texniki cəhətdən araşdırılması və onun mühafizəsi təşkil edir.

Dövlət sərhədi aşağıdakı iki funksiyanı yerinə yetirir:

- ölkənin təhlükəsizliyini təmin edir;
- digər dövlətlərlə qarşılıqlı əlaqə zamanı ön xətt kimi çıxış edir və bu dövlətlərlə mehriban qonşuluq münasibətinin yaranmasına xidmət edir.

Dövlət sərhədinin mühafizəsi Azərbaycan Respublikasının sanitar vəziyyətinin, iqtisadi və siyasi maraqlarının mühafizəsinin əsas şərtidir.

Dövlət sərhədinin mühafizəsinin effektivliyi aşağıdakılardan asılıdır:

1) dövlət sərhədi rejimini möhkəmləndirən hüquqi normalardan bacarıqla istifadə edilməsindən;

2) dövlət sərhədinin mühafizəsinə lazımi miqdarda vəsaitlərin ayrılmasından;

3) öz aralarında və digər dövlət bələdiyyə xidmətləri ilə qarşılıqlı əlaqədə olan xüsusi xidmətlərin yaradılmasından (sərhəd; karantin və s.).

Dövlət sərhədinin mühafizəsini təşkil edən siyasi, iqtisadi və sanitariya vəziyyətlərinin mühafizəsinin məzmunları aşağıdakılardan ibarətdir:

- siyasi maraqların mühafizəsinin məqsədi vətəndaşların və nəqliyyat vasitələrinin qanunsuz olaraq dövlət sərhədi keçməsinə yol verməməkdir;
- iqtisadi maraqların mühafizəsinin məqsədi qanunsuz olaraq dövlət sərhədindən predmetlərin, mənəvi yaradıcılıq məhsullarının keçirilməsinin qarşısının alınmasından ibarətdir;
- sanitariya vəziyyətinin mühafizəsinin məqsədi isə dövlət sərhədində bu və ya digər tərəfə insanlar, flora və fauna üçün təhlükəli olan informasiyaların yayılmasının qarşısının alınmasından ibarətdir.

Sərhədin mühafizəsi rejimi aşağıdakı elementlərdən ibarətdir:

1) sərhəd rejimi;
2) sərhədboyu rejim;
3) dövlət sərhədinin buraxılış məntəqələrində rejim.

Azərbaycan Respublikasının dövlət sərhədi rejimi Azərbaycan Respublikası dövlət sərhədinin keçilməsi qaydasını, xarici təyyarələrin və başqa uçuş aparatlarının Azərbaycan Respublikasının hava fəzasına girməsi və orada olması, xarici qeyri-hərbi gəmilərin və hərbi gəmilərin Azərbaycan Respublikasının ərazi və sularında üzməsi və olması, xarici qeyri-hərbi gəmilərin və hərbi gəmilərin Azərbaycan Respublikasının daxili sularına və limanlarına girməsi və orada olması, Azərbaycan Respublikası dövlət sərhədinin lazımi qaydada saxlanması, Azərbaycan Respublikasının dövlət sərhədində müxtəlif işlərin görülməsi, mədən fəaliyyəti və başqa fəaliyyət göstərilməsi qaydası Azərbaycan Respublikasının dövlət sərhədi haqqında Qanunla, qanunvericilik aktları və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri ilə müəyyən edilir.

Sərhədboyu rejim sərhədboyu zonada və sərhədboyu zolaqda qoyulur. Sərhədboyu rejim Dövlət Sərhədi haqqında Qanunua və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq Azərbaycan Respublikası vətəndaşlarının və başqa şəxslərin gəlməsi, müvəqqəti yaşaması, bir yerdən başqa yerə getməsi, işlərin görülməsi, motorlu və motorsuz gəmilərin yanalma körpülərində uçota alınması və saxlanması, Azərbaycan Respublikasının ərazi və daxili sularında onların üzməsi və hərəkət etməsi qaydalarını tənzimləyir. Azərbaycan Respublikasının dövlət sərhədində Nazirlər Kabineti sərhədboyu zona və sərhədboyu zolaq müəyyən edir.

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi sisteminin ayrılmaz tərkib hissəsidir.

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi dövlət sərhədinin qanunsuz surətdə dəyişdirilməsinin qarşısının alınmasına; dövlət sərhədi rejiminə, sərhədboyu rejimə və dövlət sərhədindən buraxılış məntəqələrindəki rejimə əməl olunmasına; dövlət sərhədində dövlətin, cəmiyyətin və şəxsiyyətin digər həyati mənafelərinin xarici və daxili təhlükələrdən qorunmasına yönələn siyasi, hüquqi, iqtisadi, hərbi əməliyyat, təşkilati, texniki, ekoloji, sanitariya və başqa tədbirlərin həyata keçirilməsi ilə təmin edilir.

Azərbaycan Respublikası dövlət sərhədinin quruda, dənizdə, çaylarda, göllərdə və digər sututarlarda mühafizə olunması sərhəd qoşunlarına, havada mühafizə olunması isə hava hücumundan müdafiə və hərbi hava qüvvələrinə həvalə olunur.

Azərbaycan Respublikasının dövlət sərhədinin qorunması sahəsində sərhəd qoşunlarının vəzifələri, hüquqları sərhəd qoşunları haqqında və Dövlət Sərhəd Xidməti haqqında Azərbaycan Respublikasının qanunları və digər qanunvericilik aktları ilə müəyyən edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndi rəhbər tutularaq Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2002-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti yaradılmışdır. Dövlət Sərhəd xidmətinin rəisi, həmçinin Sərhəd Qoşunlarının Komandanıdır.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (bundan sonra Dövlət Sərhəd Xidməti) Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Dövlət Sərhəd Xidməti öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası

Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin 12 dekabr 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Dövlət Sərhəd Xidməti haqqında Əsasnaməni Dövlət Sərhəd Xidmətinin normativ-hüquqi aktlarını rəhbər tutur.

Dövlət Sərhəd Xidməti ona həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyindəki hərbi hissələr və digər orqanları vasitəsilə həyata keçirir. Dövlət Sərhəd Xidmətinin strukturuna baş idarələr, idarələr, şöbələr və digər qurumlar daxildir. Dövlət Sərhəd Xidmətinin mərkəzi aparatı, sərhəd dəstələri, hərbi dəniz və hərbi aviasiya hissələri, sərhəd nəzarəti dəstələri, hərbi hissələr, habelə digər struktur bölmələr Dövlət Sərhəd Xidmətinin vahid sistemini təşkil edir.

Dövlət Sərhəd Xidməti fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına riayət, qanunçuluq, humanistlik və Silahlı Qüvvələr quruculuğunun təşkilat prinsipləri əsasında qurur.

Dövlət Sərhəd Xidmətinin kadr tərkibi hərbi qulluqçulardan və əmək müqaviləsi ilə işləyən mülki heyətdən (işçilərdən) ibarətdir.

Dövlət Sərhəd Xidmətinin əsas təyinatı Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsinin və toxunulmazlığının təmin edilməsidir.

Dövlət Sərhəd Xidməti öz təyinatına uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı əsas vəzifələri yerinə yetirir:

1. Azərbaycan Respublikasının dövlət sərhədində real və potensial təhdidlərin dəf edilməsini, sərhəd boyu zonada əhalinin, mülkiyyətin bu cür əməllərdən qorunmasını, onların qarşısının alınmasını təşkil edir;

2. Səlahiyyətləri daxilində sərhəd münaqişələrinin nizama salınması üçün tədbirlər görür, zəruri hallarda həmin münaqişələrin həlli məqsədilə aidiyyəti olan dövlət orqanlarına müraciət edir;

3. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunları və Hərbi Hava Qüvvələri onlar tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədinin havadan mühafizə olunması ilə əlaqədar vəzifələrinin yerinə yetirilməsində kömək göstərir;

4. Şəxslərin və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçməsinin qarşısının alınmasını təmin edir, səmərəli sərhəd nəzarətini həyata keçirmək məqsədilə şəxsiyyəti təsdiq edən və digər sənədlərin saxtalaşdırılması və ya onlardan qanunsuz istifadə edilməsini qabaqlamaq üçün terrorçuların və terrorçu qrupların, habelə qeyri-leqal miqrantların yerdəyişməsinin qarşısının alınması üzrə tədbirlər görür;

5. Azərbaycan Respublikasının dövlət sərhədinin qanunsuz dəyişdirilməsi cəhdlərinin qarşısının alnmasını təmin edir. Azərbaycan Respublikasının dövlət sərhədinin müəyyən olunması ilə əlaqədar işlərin (delimitasiya, demarkasiya və sair) yerinə yetirməsində iştirak edir;

6. Qanunvericilikdə müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş sənədlər olduqda şəxslərin, nəqliyyat vasitələrinin, yüklərin və başqa əmlakın müəyyən olunmuş məntəqələrdə Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılmasını təmin edir;

7. Qanunvericiliklə müəyyən edilmiş qaydada narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından aparalıması qadağan edilən digər əşyaların, habelə Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrindən kənarda əmlakın Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsinin qarşısının alınmasını təmin edir;

8. Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizə ilə əlaqədar səlahiyyətləri daxilində əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirir;

9. Qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq aparır, inzibati xətalar haqqında işlər üzrə icraatı həyata keçirir;

10. Azərbaycan Respublikasının dövlət sərhədindən keçən şəxslərin Azərbaycan Respublikasına gəlmək və ya Azərbaycan Respublikasından getmək hüququna dair sənədlərinin yoxlanılmasını, həmin sənədlərdə müvafiq qeydlərin edilməsini, qanun pozuntusu aşkar edildiyi hallarda qanunvericiliklə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsini təmin edir;

11. Səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş dövlət sərhəd rejiminə, sərhədboyu rejimə (o cümlədən sərhəd sularında) və Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində rejimə əməl olunmasını təmin edir;

12. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq surətdə aparılan tikintilərdə, ümumdövlət və müdafiə əhəmiyyətli tikintilərdə görülən işlər, təbii fəlakətlər, təhlükəli yoluxucu xəstəliklər ilə əlaqədar tədbirlər istisna edilməklə, sərhədboyu zolaqda müxtəlif işlərin görülməsini şəraitin tələb etdiyi hallarda məhdudlaşdırır;

13. Kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin təminatı ilə bağlı hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparır, əməliyyat-qeydiyyat işini başlayır və onu qeydiyyata alır;

14.Əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin səlahiyyətlərinə aid informasiyalar əldə edildiyi təqdirdə zəruri hallarda təxirəsalınmaz tədbirlər keçirməklə həmin orqanları dərhal məlumatlandırır və onlara lazımi kömək göstərir;

15. Azərbaycan Respublikasının sərhədboyu zonasında tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejiminin təminində, fövqəladə halların qarşısının alınması və onların aradan qaldırılması üzrə dövlət tədbirlərinin, həmçinin karantin tədbirlərinin həyata keçirilməsində qanunvericiliklə müəyyən edilmiş qaydada iştirak edir;

16. Qanunvericiliyə müvafiq olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə qarşılıqlı əlaqədə Dövlət Sərhəd Xidmətinin müddətli həqiqi hərbi xidmət qulluqçuları ilə komplektləşdirilməsini həyata keçirir;

17. Dövlət Sərhəd Xidmətinin kadr təminatını həyata keçirir, hərbi qulluqçuların və işçilərin peşə hazırlığının təkmilləşdirilməsini, ixtisaslarının artırılmasını və mənəvi-psixoloji hazırlığını təmin edir;

18. Səlahiyyətləri daxilində səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak edir;

19. Daxili təhqiqatların aparılmasını təşkil edir;

20. Qanunvericilikdə müəyyən edilmiş qaydada dövlət sərhədinin mühafizəsi məsələləri üzrə xarici dövlətlərin sərhəd mühafizə və digər orqanları, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, onların fəaliyyətində iştirak edir.

Dövlət Sərhəd Xidməti qanunvericiliyə müvafiq olaraq digər vəzifələri də yerinə yetirir.

Dövlət Sərhəd Xidməti öz fəaliyyətini və vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

1. Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsinin və toxunulmazlığının təmin olunması sahəsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirmək;

2. Azərbaycan Respublikasının dövlət sərhədindən keçən şəxslərin qeydiyyatının aparılmasını, qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisinə buraxılmasını və ölkə hüdudlarından kənarlaşdırılmasını təmin etmək;

3. Xidməti vəzifələri icra edərkən qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada plomblanmış vaqonların, avtomobillərin, konteynerlərin, gəmi anbarlarının, xaricə gedən və xaricdən gələn dəniz və hava gəmilərinin başqa yerlərinin gömrük və digər aidiyyəti orqanlarla birlikdə (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində milli maraqlara təhdidlər haqqında əməliyyat məlumatları olduqda, gömrük və digər aiddiyyəti orqanların iştirakını təmin etmək mümkün olmadığı hallarda isə milli təhlükəsizliyi və yaxud dövlət sərhədinin toxunulmazlığını təmin etmək məqsədilə müstəqil surətdə) açdırılmasını təmin etmək;

4. Hərbi qulluqçularına qanunvericiliklə müəyyən edilmiş qaydada odlu silah və xüsusi vasitələr vermək;

5. Azərbaycan Respublikasının dövlət sərhədindən keçən ayrı-ayrı şəxslərə, nəqliyyat vasitələrinə, yüklərə və başqa əmlaka münasibətdə qanunvericiliklə müəyyən edilmiş həcmdə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini təmin etmək;

6. Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi ilə əlaqədar səlahiyyətləri daxilində kəşfiyyat və əks-kəşfiyyat tədbirləri planlaşdırmaq, həyata keçirmək və bununla bağlı məsələləri həll etmək, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə istintaq və digər prosessual hərəkətləri həyata keçirmək;

7. Əməliyyat-məlumat, əməliyyat-sorğu, axtarış məlumatlarının və digər informasiyaların, hesabatların məlumat banklarını yaratmaq, bu məlumatların təhlilini və onlardan istifadəni təşkil etmək, arayış-məlumat fəaliyyətini həyata keçirmək;

8. Dövlət Sərhəd Xidmətinin fəaliyyətinə dair qanunların və digər normativ-hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onların təkmilləşdirilməsi barədə təkliflər vermək, öz fəaliyyətinin normativ-hüquqi tənzimlənməsini həyata keçirmək;

9. Sərhəd münaqişələrinin həlli məqsədilə həmsərhəd dövlətlərin sərhəd mühafizə xidmətləri ilə səlahiyyətləri həddində danışıqlar aparmaq;

10. Səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Azərbaycan Respublikasının qanunvericilik aktlarının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin sərhəd xidməti orqanları tərfindən icrasına nəzarət etmək;

11. Səlahiyyətlərinə aid edilmiş məsələlərə dair məhkəmələrdə iddia ilə çıxış etmək;

12. Dövlət Sərhəd Xidmətinin fəaliyyətinin təmin edilməsi üçün hüquqi və fiziki şəxslərlə müqavilələr bağlamaq;

13. Milli təhlükəsizliyin, mülkiyyətin, insan hüquq və azadlıqlarının təmin edilməsi məsələləri üzrə müvafiq dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

14. Müvəqqəti saxlama yerlərində xidmətin təşkilinə nəzarət etmək;

15. Qanunvericiliyə müvafiq olaraq Azərbaycan Respublikasının dövlət sərhədinin mühafiəzsi üzrə digər fəaliyyəti həyata keçirmək.

Dövlət Sərhəd Xidməti bilavasitə Azərbaycan Respublikasının Prezidentinə tabedir və ona hesabat verir. Dövlət Sərhəd Xidmətinin strukturu və hərbi qulluqçularının və işçilərinin ümumi say tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

Dövlət Sərhəd Xidmətinin rəisi Sərhəd Qoşunlarının komandanı Dövlət Sərhəd Xidmətinə rəhbərlik edir. Dövlət sərhəd xidmətinin rəisi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

Dövlət Sərhəd Xidməti rəisinin birinci müavini-Sərhəd Qoşunları Baş Qərargahının rəisi və digər müavinləri vəzifələrinə, habelə ali zabit hərbi rütbəsi nəzərdə tutulmuş başqa vəzifələrə təyin və həmin vəzifələrdən azad etmə Dövlət sərhəd xidməti rəisinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

Dövlət Sərhəd Xidmətinin rəisi:

♦ Dövlət Sərhəd Xidmətinin işini təşkil edir, onun fəaliyyətinə rəhbərlik edir və vəzifələrinin yerinə yetirilməsinə görə şəxsi məsuliyyət daşıyır;

♦ Müavinləri arasında vəzifə bölgüsü aparır, onların və Dövlət Sərhəd Xidmətinin digər vəzifəli şəxslərinin səlahiyyətlərini, məsuliyyət dərəcəsini müəyyən edir və qarşılıqlı fəaliyyətini təmin edir;

♦ Dövlət Sərhəd Xidmətinin baş idarə, idarə, şöbə və digər qurumların əsasnamələrini, nizamnamələrini təsdiq edir, onların fəaliyyətinə nəzarəti təşkil edir və işinin əlaqələndirilməsini təmin edir;

♦ Əmr, sərəncam və göstərişlər verir, tədris vəsaitlərini, təlimatları və digər normativ-hüquqi aktları təsdiq edir, başqa dövlət orqanlarının rəhbərləri ilə birgə və ya onlarla razılaşdırılmış əmrlər, sərəncamlar, göstərişlər verir, onların icrasının təmin edilməsi üzrə tədbirlər görür;

♦ Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları və digər qurumları ilə münasibətlərdə Dövlət Sərhəd Xidmətini təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müqavilə və digər sənədləri imzalayır;

♦ Dövlət Sərhəd Xidmətinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan əmr, sərəncam və göstərişlərini ləğv edir;

♦ Dövlət Sərhəd Xidmətinin fəaliyyəti ilə bağlı qanun və digər normativ-hüquqi aktların layihələrini baxılması üçün müəyyən edilmiş qaydada təqdim edir;

♦ Dövlət Sərhəd Xidməti sisteminə daxil olan qurumların (mərkəzi aparatın strukturuna daxil olan qurumlar, sərhəd dəstələri, hərbi dəniz və hərbi aviasiya hissələri istisna olmaqla) yaradılması, yenidən qurulması, ləğv edilməsi barədə qərarlar verir;

♦ Qanunvericiliklə müəyyən edilmiş qaydada hərbi qulluqçu heyəti vəzifələrinin siyahısını, bu vəzifələrə uyğun hərbi rütbə hədlərini təsdiq edir;

♦ Dövlət Sərhəd Xidmətinin təsdiq edilmiş strukturuna, hərbi qulluqçularının və işçilərinin ümumi say tərkibinə uyğun olaraq baş idarə, idarə, şöbə və digər qrumların strukturunu və ştat cədvəllərini təsdiq edir və onlarda zəruri dəyişikliklər aparır;

♦ Səlahiyyətləri daxilində vətəndaşları Dövlət Sərhəd Xidmətinə həqiqi hərbi xidmətə və işə qəbul edir, hərbi qulluqçuları vəzifəyə təyin və vəzifədən azad edir, onları həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxır;

♦ Dövlət Sərhəd Xidmətinin ali zabit heyəti vəzifələri siyahısının təsdiq edilməsi, ali zabit rütbələrinin verilməsi və ali zabit rütbəsi olan hərbi qulluqçuların hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılması barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

♦ Dövlət Sərhəd Xidməti hərbi qulluqçularına polkovnik və birinci dərəcəli kapitan rütbəsi də daxil olmaqla hərbi rütbələri, habelə ilk zabit rütbələri, vaxtından əvvəl və növbədənkənar hərbi rütbələri verir;

♦ Azərbaycan Respublikasının sərhəd nümayəndələrinin fəaliyyətinə rəhbərliyi həyata keçirir;

♦ Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularını və işçilərini qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada mükafatlandırır və onlar barəsində intizam tənbehi tədbirləri tədbiq edilir;

♦ Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları haqqında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin müəyyən etdiyi digər hüquqları həyata keçirir;

♦ Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının səfərbərlik və döyüş hazırlığını, attestasiya komissiyalarının yaradılması və attestasiyaların keçirilməsini, məxfilik və təhlükəsizlik qaydalarına riayət edilməsini təmin edir, habelə hərbi qulluqçuların və işçilərin sosial-hüquqi müdafiəsinin təmin edilməsi sahəsində müvafiq tədbirlər görür;

♦ Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasında Dövlət Sərhəd Xidməti üçün kadrların hazırlanması məqsədilə onların öyrənilməsi işinin təşkili qaydalarını müəyyən edir;

♦ Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularını Azərbaycan Respublikasının hüdudlarında kənara getməsi barədə müəyyən edilmiş qaydada qərarlar qəbul edir;

♦ Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi və Dövlət Sərhəd Xidmətinin fəaliyyəti ilə əlaqədar məsələlər üzrə müvafiq dövlət orqanlarına təkliflər verir;

♦ Qanunvericiliklə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

Dövlət Sərhəd Xidmətində Hərbi şura yaradılır. Hərbi şuraya Dövlət Sərhəd Xidmətinin rəisi, tutduqları vəzifəyə görə rəis müavinləri, digər rəhbər vəzifəli şəxslər daxil edirlər. Hərbi şuranın tərkibi Dövlət Sərhəd Xidmətinin rəisininin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

Hərbi şuranın iclaslarında Dövlət Sərhəd Xidmətinin fəaliyyətinin əsas istiqamətləri, icra intizamının vəziyyəti, kadr məsələləri, normativ-hüquqi aktların lahiyələri müzakirə edilir, vəzifəli şəxslərin hesabatları dinlənilir, digər mühüm məsələlərə baxılır və müvafiq qərarlar çıxarılır.

Hərbi şuranın iclaslarında Dövlət Sərhəd Xidmətinin rəisi sədrlik edir. Hərbi şuranın üzvləri müzakirə edilən məsələlərə dair qərarlar qəbul edərkən səsvermədə bərabər

hüquqlara malikdirlər. Hərbi şuranın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir, Dövlət Sərhəd Xidməti rəisinin əmrləri ilə elan olunur və həyata keçirilir.

SUAL 2.
Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti təhlükəsizliyinin təmin edilməsinin istiqamətlərindən biri kimi.

Respublikamızda şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi üçün bir çox fəaliyyət sahələrindən istifadə olunur. Bu fəaliyyət sahələri arasında kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti xüsusi yer tutur.

Kəşfiyyat fəaliyyəti dedikdə, Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının ölkənin siyasi, iqtisadi, sosial, elmi-texniki, hərbi və digər sahələrdə milli maraqlarının müdafiəsi ilə bağlı məlumatların əldə edilməsinə və təhlilinə yönəlmiş, milli təhlükəsizliyin təmin edilməsi məqsədi ilə həyata keçirilən xüsusi fəaliyyətidir. Bu fəaliyyət mahiyyətcə, ölkəmizdə milli maraqların təmin edilməsinə və milli təhlükəsizlik siyasətini uğurla reallaşdırmaq üçün əlverişli şəraitin yaradılmasına xidmət edir. Azərbaycan Respublikasında siyasi, iqtisadi, sosial, elmi-texniki, hərbi və s. sahələrdə milli maraqların təmin edilməsi üçün kəşfiyyat fəaliyyəti ilə yanaşı əks-kəşfiyyat fəaliyyəti də həyata keçirilir.

Əks-kəşfiyyat fəaliyyəti Azərbaycan Respublikasını müvafiq dövlət orqanları tərəfindən xarici xüsusi xidmət orqanlarının, təşkilatların və ayrı-ayrı Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və digər milli maraqlarına zərər vura biləcək kəşfiyyat, terror-təxribat və sair pozuculuq əməllərinin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədi ilə həyata keçirilən xüsusi fəaliyyətdir.

Əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsində məqsəd Azərbaycan Respublikasının milli maraqlarının həyata keçirilməsinə mane olan və ya bu maraqlara təhlükə yaradan şərait, proses və amilləri aradan qaldırmaqdır.

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsində rəhbər müddəalar vardır. Bunlar aşağıdakılardır:

- qanunçuluq;
- insan və vətəndaş hüquqları və azadıqlarına riayət edilməsi;
- humanistlik;
- konspirasiya, aşkar və qeyri-aşkar üsul və vasitələrin uzlaşdırılması və s.

Azərbaycan Respublikasının "Kəşfiyyat və əks-kəşfiyyat" fəaliyyəti haqqında Qanununun VII maddəsinə əsasən, barəsində danışılan fəaliyyətlərin vəzifələri aşağıdakılardır:

a) xarici dövlətlərin, təşkilatların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının milli maraqlarına təhdid edən real və potensial imkanları, hərəkətləri, planları və niyyətləri barədə məlumatların əldə edilməsi, təhlili və təhdidlərin proqnozlaşdırılması;

b) Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi üçün əlverişli şərait yaradılması;

c) Azərbaycan Respublikasının Prezidentinin və digər dövlət orqanlarının siyasi, iqtisadi, hərbi, elmi-texniki, ekoloji və milli təhlükəsizliyin təminatı ilə bağlı digər sahələr üzrə qərarlar qəbul etməsi üçün zəruri kəşfiyyat məlumatları ilə təmin olunması;

ç) Azərbaycan Respublikasının iqtisadi inkişafına, elmi-texniki tərəqqisinə və təhlükəsizliyinin hərbi təminatına köməklik göstərilməsi;

d) Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən idarə və təşkilatlarında dövlət sirlərinin, mühafizəsinin təmin edilməsi;

e) kəşfiyyat tədbirlərinin tətbiqi zamanı əks-kəşfiyyat təminatının həyata keçirilməsi;

ə) texniki kəşfiyyatın həyata keçirilməsi;

f) əks-kəşfiyyat fəaliyyəti subyektlərinin kəşfiyyat məlumatları ilə təmin edilməsi;

g) Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik və digər nümayəndəliklərinin əməkdaşlarının və onların ailə üzvlərinin təhlükəsizliyinin zəruri hallarda təmin edilməsi və s.

Azərbaycan Respublikasının Prezidentinin 31 iyul 2002-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Hərbi Əks-Kəşfiyyat Xidməti Azərbaycan Respublikası Milli Təhükəsizlik Naziriyinin tərkibinə daxil edilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanı olan Hərbi Əks-Kəşfiyyat Xidməti vahid əks-kəşfiyyat sisteminə başçılıq edir. Həmin sistemə: Azərbaycan Respublikası ərazisində öz fəaliyyətini yerli dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq həyata keçirən əks-kəşfiyyat orqanları: Silahlı Qüvvələrdə, Sərhəd Qoşunlarında, Daxili Qoşunlarda və Azərbaycan Respublikasının digər qoşunlarında və hərbi birləşmələrindəki hərbi əks-kəşfiyyat orqanları daxildir.

Hərbi Əks-Kəşfiyyat Xidməti fəaliyyətinin mühüm istiqaməti siyasi, iqtisadi, müdafiə və s. sahələrdə Azərbaycan Respublikasının təhlükəsizliyinə qorxu törədən hallar haqqında məlumat əldə edib işləməkdən, onu təhlil edərək materialları operativ olaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim etməkdən ibarətdir.

Hərbi Əks-Kəşfiyyat Xidməti öz fəaliyyəti prosesində nazirliklərdə, dövlət komitələrində və təşkilatlarında dövlət sirrinin qorunmasının təmin olunmasına nəzarəti həyata keçirir, onlara bu işdə yardım və köməklik göstərir və s.

Hərbi Əks-Kəşfiyyat Xidməti öz fəaliyyətini dövlət orqanları və təşkilatları ilə, eləcə də ictimai birliklər və vətəndaşlarla qarşılıqlı əlaqə formasında həyata keçirir.

İndi də digər sahələrdə təhlükəsizliyin əsaslarını özündə əks etdirən Azərbaycan Respublikasının qanunvericiliyi haqqında qeyd edək. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 20-ci bəndinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi təhlükəsizliyin əsasları məsələlərinə dair ümumi qaydalar müəyyən edir. Belə ki, bu baxımdan ölkədə təhlükəsizliyin təmin edilməsi sahəsində Milli Məclis tərəfindən müvafiq qanunlar qəbul edilmişdir. Bunlardan öncə 1996-cı il 15 noyabr tarixində qəbul edilmiş "Dövlət sirri haqqında" Qanunu qeyd etmək olar. Qanunun 1-ci maddəsinə uyğun olaraq, dövlət sirri – dövlətin hərbi, xarici, siyasi, iqtisdi, elmi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub dövlət tərəfindən mühafizə olunan və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır.

"Yanğın təhlükəsizliyi haqqında" 1997-ci il 10 iyun tarixli Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında insan həyatının və sağlamlığının, milli sərvətin, mülkiyyətin bütün növlərinin yanğından qorunması məqsədilə fəaliyyət göstərən

yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin təşkilinin hüquqi əsasını və prinsiplərini müəyyən edir.

"Əhalinin radiasiya təhlükəsizliyi haqqında" 1997-ci il 30 dekabr tarixli Azərbaycan Respublikasının Qanunu radioaktiv şüa mənbələri sahəsində qəzasız fəaliyyətin, əhalinin radiasiya təhlükəsindən qorunması və sağlamlığının mühafizə edilməsinin hüquqi əsaslarını müəyyən edir.

"Ekoloji təhlükəsizlik haqqında" 1999-cu il 8 iyun tarixli Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə uyğun olaraq, ekoloji təhlükəsizlik insanın və cəmiyyətin həyati vacib maraqlarının, ətraf mühitin ona antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsidir.

"Texniki təhlükəsizlik haqqında" 1999-cu il 2 noyabr tarixli Azərbaycan Respublikasının Qanunu təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının hüquqi, iqtisadi və sosial əsaslarını müəyyənləşdirir, həmin obyektləri istismar edən hüquqi və fiziki şəxslərin bu obyektlərdə baş verə biləcək qəzaların qarşısını almağa və baş vermiş qəzaların nəticələrini aradan qaldırmağa yönələn fəaliyyətini tənzimləyir.

Beləliklə, II suala yekun olaraq göstəririk ki, şəxsiyyətin, cəmiyyətin və dövlətin daxili və xarici təhlükələrdən müdafiə olunması sizə təhlükəsizlik anlayışının açıqlanmasına əsas verdi.

SUAL 3.
Müdafinə sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları

18 oktyabr 1991-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının 29-cu maddəsində göstərilir: "Azərbaycan Respublikasını müdafiə etmək Azərbaycan Respublikası vətəndaşının müqəddəs borcudur. Qanunla müəyyən edilmiş hüdudlarda və növlərdə hərbi xidmət məcburidir".

Azərbaycan Respublikasının müdafiəsinin təşkilinin əsaslarını möhkəmləndirən əsas hüquqi akt 26 noyabr 1993-cü il tarixli "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu Qanunun 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının müdafiəsi dedikdə, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemi başa düşülür".

Azərbaycan Respublikasının müdafiəsinin məqsədi, hər hansı bir vaxtda və şəraitdə Azərbaycan Respublikasına qarşı hərbi basqının qarşısını almaq və mümkün təcavüzü silahla dəf etmək üçün bütün zəruri şərtlərin yaradılmasıdır.

Azərbaycan Respublikasının müdafiəsi Silahlı Qüvvələrin, iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və dövlətin hərbi doktrinasına uyğun olaraq təşkil edilir. Azərbaycan Respublikasının hərbi doktrinası Silahlı Qüvvələrin quruculuğunda "müdafiə yetərliyi" prinsipi ilə müəyyənləşdirilir və Azərbaycan Respublikası heç bir dövlətə qarşı ərazi iddiasının olmamasına və əgər təcavüz obyekti olmasa beynəlxalq hüquqa əsaslanan öhdəliklərdən başqa heç vaxt heç, bir dövlətə qarşı birinci hərbi əməliyyatlara başlamayacağına əsaslanır.

Azərbaycan Respublikasının müdafiəsinin təşkili aşağıdakılardan ibarətdir:

♦ dövlətin hərbi siyasətinin və doktrinasının formalaşdırılması;

♦ təcavüzün qarşısının alınması üçün beynəlxalq aləmdə müvafiq tədbirlərin görülməsi;

♦ taktiki hərb elminin inkişafı;

♦ müdafiə və hərbi quruculuq məsələlərinin hüquqi tənzimlənməsi;

♦ silahlı qüvvələrin strukturunun hazırlanması, formalaşdırılması və təkmilləşdirilməsi, zəruri sayının təmin olunması, onların yüksək döyüş qabiliyyətinin, döyüş və səfərbərlik hazırlığının saxlanması;

♦ dövlətin hərbi-texniki siyasətinin hazırlanması və həyata keçirilməsi, Silahlı Qüvvələrin silah, hərbi texnika, ərzaq, geyim və digər material ehtiyatları ilə təmin edilməsi;

♦ dövlət orqanlarının, iqtisadiyyatın və əhalinin müharibə dövründə fəaliyyət göstərməsi üçün səfərbərlik hazırlığı;

♦ dövlət sirrinin və hərbi sirrin qorunmasının təmin edilməsi.

Müdafiənin əsasını Azərbaycan Respublikasının Silahlı Qüvvələri təşkil edir. Azərbaycan Respublikasının Silahlı Qüvvələri 26 noyabr 1993-cü il "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, Azərbaycan Respublikasının suverenliyinin, müstəqilliyinin, ərazi bütövlüyünün və maraqlarının silahlı müdafiəsinə, dövlətə olan silahlı basqının qarşısının alınmasına, təcavüz zamanı isə onun dəf edilməsinə xidmət edir.

Azərbaycan Respublikası Silahlı Qüvvələri Azərbaycan Respublikası Milli Məclisinin qərarı və Azərbaycan Respublikası Prezidentinin göstərişi əsasında öz təyinatına əsasən vəzifələrin icra olunmasına cəlb oluna bilinər.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuğunun və fəaliyyətinin prinsipial əsasını "qanunçuluq", "nizami ordu", "qarışıq komplektləşdirmə", "kadr", "mərkəzləşdirilmiş və vahid rəhbərlik", "yüksək hərbi intizam", "daimi döyüş və səfərbərlik hazırlığı", "hərbi qulluqçuların sosial-hüquqi müdafiəsinin təmin olunması" prinsipləri təşkil edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri quru qoşunlarından, hava hücumundan müdafiə və hərbi-dəniz qüvvələrindən ibarətdir.

Təşkilati cəhətdən Azərbaycan Respublikası Silahlı qüvvələrin birliklərdən, birləşmələrdən, hərbi hissələrdən, hərbi təşkilatlardan və hərbi təhsil müəssisələrindən ibarətdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrin strukturu, sayı, silahları Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq olunur. Azərbaycan Respublikası Silahlı qüvvələrinin təminatı əsasən dövlət büdcəsindən ayırmalar və Azərbaycan ordusuna xalqın köməkliyi adlı hesab vasitəsilə həyata keçirilir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, hərbi qulluqçularının hərbi-vətənpərvərlik tərbiyəsi ümumbəşəri dəyərlər və Azərbaycan xalqının milli-tarixi ənənələri ruhunda həyata keçirilir. Siyasi məqsədlər güdən hər hansı təşkilatların və həmkarlar ittifaqlarının Azərbaycan Respublikası Silahlı Qüvvələrində fəaliyyət göstərməsinə icazə verilmir. Müdafiə sahəsində idarəetmə silahlı qüvvələrdə ciddi mərkəzləşdirilmiş vahid rəhbərlik və hərbi intizam əsasında qurulur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinə rəhbərliyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikası hökuməti həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi aşağıdakı səlahiyyətlərə malikdir:

♦ Azərbaycan Respublikası Milli Məclisinin təsdiqi üçün hərbi doktrinanın və hərbi quruculuq konsepsiyasının layihələrinə, silahların və hərbi texnikanın dövlət inkişaf proqramına, Silahlı Qüvvələrin ümumi strukturu və sayı haqqında təkliflərini təqdim edir;

♦ Müdafiə nazirini vəzifəyə təyin edir və vəzifədən azad edir;

♦ ali zabitlər tərəfindən tutulmalı olan hərbi vəzifələrə hərbi qulluqçuları təyin edir, habelə vəzifədən azad edir: "ordu generalı" hərbi rütbəsinin verilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;

♦ qanunla nəzərdə tutulmuş hallarda hərbi rütbələr verir;

♦ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi məktəblərini, ali məktəblərin hərbi kafedralarını və elmi-tədqiqat təşkilatlarını yaradır və ləğv edir;

♦ Azərbaycan Respublikası Konstitusiyası və qanunları hüdudlarında müvafiq orqanların müdafiə sahəsində səlahiyyətlərini, təşkilini və fəaliyyət qaydasını müəyyənləşdirir və onların fəaliyyətinə rəhbərlik edir;

♦ birgə müdafiə və hərbi əməkdaşlıq, kollektiv təhlükəsizlik və tərksilah məsələləri barəsində danışıqlar aparır və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalayır;

♦ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf, səfərbərlik, yerləşdirilmə və tətbiq planlarını, iqtisadiyyatın və idarəetmənin səfərbərlik planlarını, Azərbaycan Respublikasının mülki müdafiə planını və ərazi müdafəisi haqqında Əsasnaməni təsdiq edir;

♦ Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərdə hərbi vəziyyət tətbiq edir, Azərbaycan Respublikası hərbi basqına məruz qaldıqda isə müharibə vəziyyəti elan edir və bu məsələləri dərhal Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edir, ümumi və ya qismən səfərbərlik və səfərbərlik üzrə çağırılanlar barədə tərxisetmə elan edir;

♦ "Hərbi vəziyyət haqqında" Qanuna müvafiq olaraq hərbi dövrün dövlət idarəçilik orqanlarını yaradır və ləğv edir;

♦ hərbi əməliyyatlar aparılması barədə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə əmr verir;

♦ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;

♦ Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmət qulluqçularının ehtiyata buraxılması barədə fərmanlar verir;

♦ hərbi qulluqçuların hərbi geyim formasının geyilməsi və fərqlənmə nişanlarının sancılması qaydasını təsdiq edir;

♦ Azərbaycan Respublikasının Prezidenti müdafiə sahəsində dövlət siyasətinin formalaşdırılması üçün məşvərətçi orqan yarada bilər. Belə orqanın səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti aşağıdakı səlahiyyətlərə malikdir:

♦ silahlı qüvvələrin vəziyyətinə görə məsuliyyət daşıyır;

♦ silahlı qüvvələrin silah, hərbi texnika, döyüş sursatı və başqa vasitələrlə təchiz olunmasını təşkil edir;

♦ müdafiə və silahlı qüvvələrin ehtiyatları üçün maddi-texniki, ərzaq, geyim və digər ehtiyacların həcmini müəyyənləşdirir;

♦ səfərbərlik ehtiyatlarına maddi sərvətlərin toplanması planını təsdiq edir;

♦ ölkə iqtisadiyyatının səfərbərlik hazırlığına və səfərbərlik üzrə işə başlanmasına, onun hərbi vəziyyət şəraiti reciminə keçirilməsinə rəhbərlik edir;

♦ mülki və ərazi müdafiəsinin ümumi planlaşdırılmasını təşkil edir və onun yerinə yetirilməsinə nəzarət edir;

♦ hərbi komissarlıqların fəaliyyət və maddi texniki təchizat qaydasını müəyyən edir;

♦ silahların və strateci materialların ixracı üzərində nəzarəti təşkil edir;

♦ vətəndaşların hərbi uçot, ixtisasları üzrə və zabit kadrlarının hazırlanması qaydasını, sənaye və başqa müəssisə və təşkilatlarla hərbi nümayəndəliklərin yaradılması və fəaliyyət qaydasını müəyyənləşdirir;

♦ hərbi qulluqçuların hərbi qulluqdan ehtiyata və ya istefaya buraxılmış şəxslərin, onların ailələrinin sosial və hüquqi təminatlarına dair qanunvericiliyin icrasını təmin edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə bilavasitə rəhbərliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir. Müdafiə Nazirliyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinə və yerli hərbi idarəetmə orqanlarına rəhbərlik edən dövlət orqanı olub, onların inkişafına, həmçinin müdafiə vəzifələrinin yerinə yetirilməsinə, hazırlığına görə məsuliyyət daşıyır və öz fəaliyyətində Azərbaycan Respublikası Prezidentinə tabedir.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi aşağıdakı səlahiyyətlərə malikdir:

♦ hərbi siyasi vəziyyəti qiymətləndirir və hərbi təhlükənin dərəcəsini müəyyənləşdirir;

♦ silahlı qüvvələrin quruculuq və inkişafı üzrə dövlət proqramının layihələrini hazırlayır və Azərbaycan Respublikası Prezidentinə təqdim edir;

♦ qoşunların döyüş, əməliyyat-taktiki və mənəvi-psixoloci hazırılığına rəhbərlik edir;

♦ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsini təşkil edir;

♦ hərbi elminin inkişafına rəhbərlik edir, tədqiqatları təşkil edir və həyata keçirir;

♦ hərbi texnikanın və digər hərbi əmlakın yaradılması, istehsalı və təmiri barədə dövlət sifarişlərini verir;

♦ vətəndaşların hərbi xidmətə hazırlanması məsələlərinə dair qüvvədə olan qanunvericiliyin icrasında iştirak edir;

♦ hərbi vəzifələrin hazırlanmasını və təkmilləşdirilməsini, vətəndaşların həqiqi müddətli hərbi xidmətə çağırılmasını, hərbi qulluqçuların ehtiyata buraxılmasını, toplanışa çağırılmasını, səfərbərliyi və səfərbərlikdən təxris etməni planlaşdırır və təşkil edir;

♦ başqa dövlətlərin silahlı qüvvələri ilə əməkdaşlıq edir;

♦ Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda müdafiə məsələlərinə aid normativ aktlar qəbul edir və onların icrasına nəzarət edir;

♦ qüvvədə olan qanunvericiliyə müvafiq surətdə hərbi xidmətin keçilməsini təşkil edir, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial və hüquqi təminatlarını təmin edir;

♦ hərbi qulluqçuların və təşkilatların fəaliyyəti zamanı ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikası qanunvericiliyinin icrasını təmin edir.

Müdafiənin idarəetmə orqanları sisteminə hərbi komissarların rəhbərlik etdikləri şəhər, rayon, şəhərdə rayon hərbi komissarlıqları da daxildir. Hərbi komissarlıqlar hərbi mükəlləfiyyətlilərin qeydiyyatını aparır, hərbi xidmətə çağırışları təşkil edir. Onlar həmçinin gənclərin hərbi xidmətə hazırlığı məsələləri ilə məşğul olur, kütləvi müdafiə, hərbi vətənpərvərlik tədbirləri keçirirlər.

Qüvvədə olan qanunvericiliyə əsasən, yerli dövlət orqanlarının müdafiənin idarəolunması ilə bağlı müəyyən səlahiyyətləri vardır. Bu səlahiyyətlər onlar tərəfindən tabeçilikdə olan ərazi çərçivəsində və hərbi idarəetmə orqanları ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilir.

Yerli dövlət orqanlarının və bu istiqamətdəki fəaliyyəti, onlar tərəfindən öz ərazilərində müdafiə sahəsində qanunvericilik və digər hüquqi aktlara riayət və icra olunmasını təmin etməyi nəzərdə tutur.

26 noyabr 1993-cü il tarixli "Müdafiə haqqında" Qanuna əsasən, yerli komissarlıqlar vətəndaşların hərbi xidmətə, hərbi toplanışa çağırışını təşkil edir; səfərbərlik hazırlığının müdafiə tələblərinin təmin edilməsi ilə əlaqədar məsələləri həll edir; yaşayış və xidməti binalar ayırır, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissələrinə, müəssisələrinə, təhsil müəssisələrinə məişət-kommunal və digər xidmətlər göstərir; çağırışa qədər olanların hərbi hazırlığında və əhalinin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında köməklik göstərir; hərbi qulluqçuların, çağırışçıların, hərbi mükəlləfiyyətlilərin, hərbi xidmətdən təxris olunmuş şəxslərin və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsi haqqında qanunvericiliyin icrasını təmin edirlər. Qeyd etmək lazımdır ki, müdafiə məsələləri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasında təqsiri olan dövlət orqanları, idarə, müəssisə və təşkilatların vəzifəli şəxsləri və vətəndaşlar qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunurlar.

Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında qanunvericiliyin vəzifələri hərbi vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın və qəbulun şərtlərini və qaydalarını, hərbi vəzifəlilərin və çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək, eləcə də Silahlı Qüvvələr üçün kadrlar hazırlamaq onların daimi döyüş və səfərbərlik hazırlığını saxlamaqdır.

Vətənin müdafiəsində iştirak etmək və hərbi xidmət hər bir vətəndaşın Konstitusiya vəzifəsi olmaqla bərabər, həm də onun müqəddəsi borcudur.

N Ə T İ C Ə

Azərbaycan xalqı tarixinin ən mürəkkəb eyni zamanda ən şərəfli dövrünü yaşayır-müstəqilliyin çətin yolları ilə irəliləyərək hörmətli Prezidentimiz İ.Əliyevin rəhbərliyi

altında demokratik, sivil bir cəmiyyət qurur. Bu isə ölkənin ictimai-siyasi, iqtisadi, hərbi, mədəni həyatının bütün sahələrində köklü islahatlar və təhlükəsizlik sistemində həyata keçirilən hüquqi islahatlar artıq həmin arzuları reallığa çevrib. Belə ki, bu sahələri əhatə edən qanunvericilik aktları ilə ayrı-ayrılıqda siz tanış oldunuz.

Mövzunun birinci sualının əhəmiyyəti ondan ibarətdir ki, Milli Təhlükəsizlik sahəsində idarəetmə şəxsiyyətin, cəmiyyətin və dövlətin əsas maraqlarının daxili və xarici təhlükələrdən qorunması məqsədi ilə həyata keçirilir. Biz onu da qeyd etdik ki, təhlükəsizliyi təmin edən orqanlar üzərində idarəetməyə ümumi rəhbərlik Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Milli təhlükəsizlik xidməti orqanlarının vahid mərkəzləşdirilmiş sisteminə rəhbərliyi isə mərkəzi icra hakimiyyəti orqanlarından biri olan MTN həyata keçirir.

Mövzunun ikinci sualında dövlət sərhədi anlayışı, onun mühafizəsi, mühafizə rejimləri və nəhayət dövlət sərhədinin mühafizəsini həyata keçirən sərhəd qoşunları, o cümlədən Dövlət Sərhəd Xidməti haqqında hüquqi biliklər əldə edəcəksiniz.

Üçüncü sualda isə qeyd edildi ki, Azərbaycan Respublikasının müdafiəsi Silahlı Qüvvələrin, iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və dövlətin hərbi doktrinasına uyğun olaraq təşkil edilir. Sualın açıqlanmasında onu da qeyd etdik ki, Azərbaycanın Silahlı Qüvvələri quru qoşunlarından, hava hücumundan müdafiə, hərbi hava və hərbi-dəniz qüvvələrindən ibarətdir. Silahlı Qüvvələrə rəhbərliyi Silahlı Qüvvələrin Ali Baş Komandan kimi Azərbaycan Respublikası Prezidenti və həmçinin Azərbaycan Respublikasının hökuməti həyata keçirir. Bilavasitə rəhbərliyi isə Müdafiə Nazirliyi həyata keçirir.

MÖVZU № 20 “ XARİCİ İŞLƏR SAHƏSİNDƏ DÖVLƏT İDARƏETMƏSİ”.

P L A N:

G İ R İ Ş

7. Xarici işlər sahəsində dövlət idarəetməsinin anlayışı, prinsipləri və təşkilati-hüquqi formaları.
8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi-xarici işlər sahəsində idarəetməni bilavasitə həyat keçirən orqan kimi.
9. Azərbaycan Respublikasına gəlmək və Azərbaycan Respublikasından getməyin inzibati-hüquqi nizamlanması.

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T:

27. Azərbaycan Respublikasının Konstitusiyası.
28. “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 13 Dərslik. mart 1996-ci il. Sonrakı əlavə dəyişikliklərlə.

29. “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında” Azərbaycan Respublikasının Qanunu, 14 iyun 1994-cü il.
30. “Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu, 8 fevral 1994-cü il.
5. A.Abdullayev, F.Nağıyev. “İnzibati hüquq”. Dərslik. Bakı, 2008.
6. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
7.V.M.Monax, Ö.S.Aduşmin, Z.A.Baqişaev.“Rossiyskoe admi-nistrativnoe pravo”. Dərslik. M., 1997-ci il.
8.A.P.Alexin, A.A.Kormolitskiy, E.M. Kozlov. “Administratisnoe pravo Rossiyskoy Federaüii”. Dərslik. M., 1997-ci il.
9. A.P. Korenev. “Administrastivnoe pravo”. Dərslik. M., 1999-cu il.

G İ R İ Ş

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Ali Soveti xalqın iradəsini ifadə edərək Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edərək, Azərbaycanın dövlət müstəqilliyini dünyaya bəyan etdi. Bu möhtəşəm addımdan sonra Azərbaycan Respublikası həm daxildən, həm də xaricdən bir sıra təcavüzlərə məruz qaldı. İkinci tərəfdən Azərbaycan Respublikası keçmiş Sovetlər İttifaqı tərkibində olan müddətdə, müstəqil olaraq heç bir vaxt özünün xarici siyasətini həyata keçirməmişdir.

“Xarici işlər sahəsində dövlət idarəetməsi” mövzusunun öyrənilməsinin həm nəzəri cəhətdən, həm də təcrübi cəhətdən bu mənada böyük əhəmiyyəti vardır. Çünki Azərbaycan Respublikası öz müstəqilliyini elan etdikdən sonra müstəqil bir dövlət kimi özünün xarici siyasətini həyata keçirməyə başladı. Digər tərəfdən isə 1991-ci ildən bu günə kimi Azərbaycan Respublikası beynəlxalq təşkilatların üzvü olmuş, bir sıra dövlətlərdə öz diplomatik nümayəndəliklərini, konsulluqlarını açmış və Azərbaycan Respublikasında da bir sıra xarici dövlətlərin diplomatik nümayəndəlikləri və konsulluqları fəaliyyət göstərir. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra müstəqil bir dövlət kimi üzvü olduğu beynəlxalq təşkilatlarda özünü təmsil edir və xarici dövlətlərlə tam bərabər vəziyyətdə qarşılıqlı əlaqə yaradır və dövlətin xarici siyasətini həyata keçirir.

Bu mövzunun köməkliyi ilə biz xarici işlər sahəsində idarəetmənin məzmununu, xarici işlər sahəsində idarəetmənin təşkilati-hüquqi formalarını, Xarici İşlər Nazirliyinin və onun orqanlarının qarşısında duran vəzifələri, funksiyaları və hüquqları öyrənmiş olacağıq.

Azərbaycan Respublikasının qonşu və xarici ölkələrlə siyasi, iqtisadi, mədəni və s. əlaqələrinin yaranmasına və inkişaf etdirilməsinə yönəlmiş səlahiyyətli dövlət orqanlarının fəaliyyəti haqqında hüquqi biliklərin əldə edilməsi sizin bir hüquqşünas kimi həm nəzəri, həm də təcrübi cəhətdən peşəkar kimi formalaşmağınızda böyük əhəmiyyətə malik olacaqdır.

Odur ki, indi də birinci sualın açıqlanmasına keçək.

SUAL I. XARICI IŞLƏR SAHƏSINDƏ DÖVLƏT IDARƏETMƏSININ ANLAYIŞI, PRINSIPLƏRI VƏ TƏŞKILATI-HÜQUQI FORMALARI.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək 18 oktyabr 1991-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq suveren hüququndan istifadə edərək aşağıdakı niyyətlərini bəyan edir:

- ♦ Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- ♦ Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- ♦ vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- ♦ xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ♦ ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ♦ ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşıqlı fəaliyyət göstərmək.

Azərbaycan Respublikası özünün xarici siyasətini 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə qəbul edilmiş ilk Milli Konstitusiyasına əsasən bütün dünya xalqları ilə sülh, dostluq, əmin-amanlıq və tam bərabər hüquqlu subyekt kimi qurur və həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 2-ci bəndinə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Bundan əlavə onu da qeyd etmək lazımdır ki, Konstitusiyamızın 10-cu maddəsində göstərilmişdir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Xarici işlər sahəsində dövlət idarəetməsi dedikdə, Azərbaycan Respublikasının qonşu və xarici ölkələrlə siyasi, iqtisadi, mədəni və s. əlaqələrinin yaranmasına və inkişaf etdirilməsinə yönəlmiş səlahiyyətli dövlət orqanlarının (vəzifəli şəxslərin) fəaliyyəti başa düşülür.

Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan aşağıdakı prinsiplər əsasında qurur və həyata keçirir:

- ♦ digər xarici ölkələrin daxili işlərinə qarışmamaq şərti ilə;
- ♦ digər xarici ölkənin sərhədlərinin və ərazi bütövlüyünün pozulmaması əsasında;
- ♦ bir-birinə qarşı güc tətbiq etmədən və yaranmış mübahisələrin sülh yolu ilə həll edilməsi;
- ♦ qarşılıqlı faydalı əməkdaşlıq əsasında;
- ♦ xalqların bərabərliyi və s.

Azərbaycan Respublikasının xarici fəaliyyəti dövlətin iqtisadi böhrandan çıxmasına, iqtisadiyyatda bazar münasibətlərinin yaradılmasına və möhkəmləndirilməsinə, demokratik dövlətin qurulmasına, dünyada müharibənin qarşısının alınmasına və bütün ölkələrin dinc yanaşı yaşamasına, özünün dövlət maraqlarının müdafiə edilməsinə köməklik edən beynəlxalq şəraitin yaradılmasına və təmin edilməsinə yönəldilmişdir.

Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri də bütün MDB dövlətləri, həm də keçmiş SSRİ-nin digər Respublikaları ilə siyasi, iqtisadi, mədəni və s. kimi sıx qarşılıqlı əlaqənin yaradılması və həyata keçirilməsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinin 2-ci bəndinə əsasən Azərbaycan dövlətinin başçısı-Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinin 3-cü bəndinə əsasən isə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərədar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təmsilçisidir. Göstərilənlərə əsaslanaraq, Azərbaycan Respublikasının Prezidenti dövlətin xarici siyasətinin əsas istiqamətlərini müəyyən edir. Azərbaycan Respublikasının xarici siyasətinə rəhbərlik də həmçinin Prezidentin üzərinə qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti dövlət başçısı kimi həmin fəaliyyətin həyata keçirilməsində Konstitusiyamızın 109-cu maddəsinə əsaslanaraq aşağıdakı kimi vəzifələrin və funksiyaların həyata keçirilməsində və yerinə yetirilməsində Azərbaycan Respublikasını təmsil edir:

♦ beynəlxalq münasibətlərdə xarici dövlətlərin rəhbərləri ilə danışıqlar aparır və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalayır;

♦ Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;

♦ Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır;

♦ xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir;

♦ dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası beynəlxalq müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;

♦ təsdiqnamələri imzalayır;

♦ Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfirlərinə, Fövqəladə və Səlahiyyətli diplomatik nümayəndələrinə rütbələr verir;

♦ siyasi sığınacaq verilməsi məsələlərini həll edir və s.

Azərbaycan Respublikasının Prezidenti dövlətin xarici siyasətinə rəhbərliyi həyata keçirməklə, Azərbaycan dövlətinin müstəqilliyinin, hakimiyyətliliyinin və ərazi bütövlüyünün qorunması sahəsində müəyyən tədbirlər keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti öz səlahiyyətləri çərçivəsində bütün nazirliklərin, o cümlədən Xarici İşlər Nazirliyinin fəaliyyətinə nəzarət edir və onun fəaliyyətinin təşkil edilməsinə və həyata keçirilməsinə rəhbərlik edir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Konstitusiyamızın 119-cu maddəsinə əsasən Azərbaycan Respublikasının xarici siasətinin realizə olunması məqsədi ilə aşağıdakı kimi tədbirlər həyata keçirir:

♦ Azərbaycan Respublikasının xarici siyasətinin realizəsi üçün tədbirlər həyata keçirir;

♦ Azrbaycan Respublikası Nazirlər Kabinetinin nümayəndəliklərini xarici dövlətlərdə və beynəllxalq təşkilatlarda təmin edir;

♦ beynəlxalq müqavilələrin icra edilməsi məqsədi ilə tədbirlər görür;

♦ hökumətlərarası sazişlər bağlayır;

♦ xarici dövlətlərin orqan və təşkilatları ilə münasibət yaradan icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirir.

Xarici işlər sahəsində idarəetmənin həyata keçirən orqanların sistemi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindən, (bundan sonra XİN) diplomatik nümayəndəliklərdən (səfirliklər) və konsulluqlardan ibarətdir.

Diplomatik nümayəndəliklərin fəaliyyətlərinin hüquqi bazasını beynəlxalq hüquq normaları, həm də onların təşkil edildikləri ölkələrlə Azərbaycan Respublikasının sazişləri təşkil edir.

XİN-in xaricdəki diplomatik nümayəndəlikləri onların olduqları ölkədə Azərbaycan Respublikasının nümayəndəliyi funksiyasını yerinə yetirirlər. Diplomatik nümayəndəliklərin bu funksiyasının həyata keçirilməsi aşağıdakı vəzifələrin realizə olunmasına və təmin edilməsinə yönəldilmişdir:

♦ olduğu ölkədə Azərbaycan Respublikasının vahid xarici siyasi xəttinin realizə edilməsinə və təmin edilməsinə;

♦ Azərbaycan Respublikasının siyasi, iqtisadi və digər mənafelərinin müdafiə edilməsinə;

♦ Azərbaycan Respublikasının xaricdəki idarə, təşkilat və vətəndaşlarının siyasi, iqtisadi və digər mənafelərinin müdafiə edilməsinə və s.

Diplomatik nümayəndəliklər diplomatik yollarla olduqları ölkələrin siyasi, iqtisadi vəziyyətləri və həmin ölkələrdə əsas vəziyyətlər, hadisələr barədə olan məlumatlar toplayırlar və sonra onları Azərbaycan Respublikasının XİN-ə göndərirlər.

Diplomatik nümayəndəliklər olduqları ölkənin rəhbərləri ilə danışıqlar aparır, Azərbaycan Respublikasının digər dövlətlərlə dostluq münasibətlərinin, iqtisadi, elmi-texniki, mədəni əlaqələrin yaranmasına kömək edirlər.

Diplomatik nümayəndəliklər öz funksiya və səlahiyyətlərinin realizəsi prosesində olduqları ölkədə Azərbaycan Respublikasının olan digər nümayəndəliklərinin (ticarət, elmi, iqtisadi, həmçinin də Azərbaycan Respublikasının dövlət, idarə, müəssisə və təşkilatlarının, onların nümayəndələrinin və mütəxəssis qruplarının) fəaliyyətlərinin əlaqələn-dirilməsini və işlərinə nəzarəti həyata keçirir.

Göstərilən nümayəndəliklərin, nümayəndələrin və mütəxəssis qruplarının rəhbərləri öz fəaliyyətlərini diplomatik nümayəndəliyin başçısı ilə razılaşdırmalı, ona öz funksiyalarının və səlahiyyətlərinin həyata keçirilməsində köməklik göstərməli və öz fəaliyyətləri barədə ona məlumat verməlidirlər. Öz növbəsində müxtəlif nümayəndəliklər, dövlət idarələri, təşkilatları və müəssisələri, nümayəndələr, mütəxəssis qrupları və onların rəhbərləri XİN-ə zəruri köməklik və müraciət edə bilərlər.

Diplomatik nümayəndəliklərin fəaliyyətinə diplomatik nümayəndəliyin başçısı (diplomatik nümayəndə) rəhbərlik edir.

XİN-in xaricdəki səfirliklərinə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri, missiyaya (ikinci dərəcəli diplomatik nümayəndəliklərə) isə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli nümayəndəsi və yaxud da Azərbaycan Respublikasının işində vəkil edilmiş şəxs rəhbərlik edir.

Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri, Fövqəladə və Səlahiyyətli nümayəndəsi vəzifəyə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilirlər. Azərbaycan Respublikası işində vəkil edilmiş şəxs isə Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təyin edilirlər.

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin başçıları üçün dərəcələrin və diplomatik rütbələrin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvədən düşmüş hesab edilməsi barədə 29 oktyabr 2002-ci il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində işləyən diplomatik xidmət əməkdaşları üçün aşağıdakı vəzifələr müəyyən edilir:

1. Fövqəladə və Səlahiyyətli səfir; Azərbaycan Respublikası-nın beynəlalq təşkilatlardakı daimi nümayəndəsi;
2. müşavir-elçi; daimi nümayəndənin müavini;
3. müşavir;
4. birinci katib;
5. ikinci katib;
6. üçüncü katib;
7. attaşe.

Diplomatik personal, onların ailə üzvləri diplomatik immunitetə malikdirlər. Olduqları ölkənin yurisdiksiyaları istisna olmaqla, onlar şəxsi və mənzil toxunulmazlığına malikdirlər. Diplomatik personal və onların ailə üzvləri olduqları ölkənin vergilərindən, rüsumlarından, şəxsi yüklərinin gömrük baxışından azad edilirlər. Onlar öz ölkələri ilə maneəsiz əlaqə saxlamaq hüququna malikdirlər.

Azərbaycan Respublikasının XİN-in xaricdəki orqanlarından biri də konsulluqlardır.

Azərbaycan Respublikası XİN-in konsulluqları Azərbaycan Respublikasının digər xarici dövlətlərlə qarşılıqlı razılaşma əsasında təşkil edilir. Konsulluqlar olduqları ölkənin böyük şəhərlərində, dəniz və çay limanlarında fəaliyyət göstərirlər.

8 fevral 1994-cü il tarixində Azərbaycan Respublikasının "Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Nizamnamənin birinci maddəsinə əsasən Azərbaycan Respublikasının konsulluqları xarici dövlətlərdə Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və mənafeyini müdafiə edirlər. Xarici dövlətlərdə fəaliyyət göstərən konsulluqlar Azərbaycan Respublikasının başqa dövlətlərə dostluq münasibətlərinin inkişafına, iqtisadi, elmi texniki, mədəniyyət, ticarət, idman, turizm və digər əlaqələrinin genişlənməsinə yardım göstərir.

Azərbaycan Respublikasının konsulluqları aşağıdakı orqanlardan ibarətdirlər:

- Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin konsul şöbələrindən;
- baş konsulluqlardan;

- konsulluqlardan;
- vitse-konsulluqlardan;
- konsul agentliklərindən.

Konsulluqlar öz gündəlik fəaliyyətlərini aşağıdakı normativ-hüquqi normalara əsaslanaraq həyata keçirirlər:

- Azərbaycan Respublikasının Konsul Nizamnaməsi;
- Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqların yerləşdiyi dövlətlərin qanunları;
- beynəlxalq müqavilələr;
- beynəlxalq adətlər.

Konsulluqlar Azərbaycan Respublikasının XİN-in tabeliyində olaraq Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliyi başçısının ümumi siyasi rəhbərliyi altında fəaliyyət göstərirlər. Diplomatik nümayəndəliklərin konsul şöbələrinə şöbə müdirləri başçılıq edir və onlar baş konsul və ya konsul adlanırlar.

Konsul yalnız "Konsul Nizamnaməsi" ilə nəzərdə tutulmuş funksiyaları yerinə yetirə bilər. Lakin bu Nizamnamənin 6-cı maddəsinə əsasən konsul bu Nizamnamədə nəzərdə tutulmamış başqa funksiyaları da yerinə yetirə bilər, bir şərtlə ki, həmin funksiyalar Azərbaycan Respublikasının qanunvericiliyinə və konsulluğun olduğu dövlətin qanunvericiliyinə zidd olmasın.

Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi olmayan dövlətdə, həmin dövlətin razılığı ilə konsula diplomatik funksiyaların da yerinə yetirilməsi həvalə oluna bilər. Konsulluğun yeri, dərəcəsi və konsul dairəsi onun yerləşdiyi dövlətlə razılıq əsasında müəyyənləşdirilir. Xarici dövlətlərdə yerləşən bütün konsulluqlar üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və Azərbaycan Respublikasının dövlət dilində konsulluğun adı olan möhürə malikdirlər. Bundan əlavə konsulluq yerləşdiyi binaya üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan Azərbaycan Respublikasının dövlət dilində və konsulluğun yerləşdiyi dövlətin dövlət dilində adı yazılan lövhə vurulur. Konsulluq yerləşdiyi bina üzərində, öz igamətgahında, habelə nəqliyyat vasitələrində Azərbaycan Respublikasının bayrağını qaldıra bilər.

Konsulluğun vəzifəli şəxsləri və konsulluğun əməkdaşları Azərbaycan Respublikasının XİN-də dövlət qulluqçularıdırlar və konsulluğun vəzifəli şəxsi yalnız Azərbaycan Respublikasının vətəndaşı ola bilər. Vəzifəyə təyin edilərkən konsul Azərbaycan Respublikasının XİN-in Vəkalətnamə konsul potenti alır və vəzifəsinin icrasını qəbul edən dövlətdən razılıq (ekzekvatura) alandan sonra başlayır. Əgər konsul hər hansı səbəblərə görə öz funksiyalarını yerinə yetirə bilmirsə və ya onun yeri boşdursa, belə hallarda yeni konsul təyin edilənədək konsul vəzifəsinin icrası həmin konsulluğun və ya Azərbaycan Respublikasının həmin dövlətin ərazisindəki digər konsulluğun vəzifəli şəxsinə və yaxud da Azərbaycan Respublikasının həmin dövlətdəki diplomatik nümayəndəliyinin diplomatik heyəti üzvlərindən birinə həvalə edilir.

Konsul ona həvalə olunmuş funksiyaları şəxsən icra edir və ya onların icrasını konsulluğun digər vəzifəli şəxsinə tapşırır.

Konsul digər dövlətin konsul funksiyalarını yalnız Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi göstərişi və qəbul edən dövlətin razılığı əsasında yerinə yetirə bilər.

Konsul, konsulluğun yerləşdiyi dövlətin hakimiyyət orqanlarına öz konsul dairəsi hüdudlarında konsulluğun fəaliyyəti ilə bağlı bütün məsələlər barədə müraciət edə bilər. Konsul konsulluq işlərinin vəziyyəti ilə yaxından tanış olmaq üçün ildə bir dəfədən az olmayaraq öz konsul dairəsinin ərazisini gəzməlidir.

Konsulluğun vəzifəli şəxslərinin və konsulluq əməkdaşlarının fəaliyyətinə dair şikayətlərə tabelik qaydasında baxılır.

Azərbaycan Respublikasının Konsulluqları "Konsul Nizamnamə"yə əsasən aşağıdakı funksiyaları həyata keçirə bilərlər:

1. Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləri ilə xaricdə əlaqələrini təşkil edir.
2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müxtəlif notariat əməliyyatlarını həyata keçirir.
3. Konsul dairəsində olan dövlət orqanlarının iştirakı ilə hazırlanmış və ya bu orqanlardan daxil olan sənədləri və aktları leqallaşdırır.
4. Azərbaycan Respublikasının hərbi gəmiləri, köməkçi hərbi gəmiləri və mülki gəmiləri xaricdə olarkən onlara zəruri olan yardım göstərir.
5. Mülki hava gəmiləri və onların heyəti barədə müvafiq tədbirlər görürlər.
6. Avtomobil və dəmiryol nəqliyyatı vasitələri barəsində müvafiq tədbirlər həyata keçirirlər.
7. Sanitariya, fitosanitariya və baytarlıq mühafizə sahəsində müvafiq tədbirlər görürlər.

Ştatdankənar konsullar.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi konsulluğun yerləşdiyi dövlətin razılığına əsasən ayrı-ayrı konsul funksiyalarının yerinə yetirilməsini ştadankənar konsullara tapşıra bilər. Ştatdankənar konsulların funksiyalarını Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi müəyyənləşdirir. Ştatdankənar konsullar Azərbaycan Respublikasının dövlət qulluğunda olmurlar.

Xarici İşlər Nazirliyi xarici işlər sahəsində idarəetməni bilavasitə həyata keçirir və öz orqanlarının fəaliyyəti ilə Azərbaycanı beynəlxalq aləmdə tanıtdırır.

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlikləri aşağıdakılardır:

1. BMT yanında daimi nümayəndəlik Nyu-York şəhəri
2. BMT yanında daimi nümayəndəlik və başqa beynəlxalq təşkilatda nümayəndəlik. Cenevrə şəhəri
3. ABŞ-da Vaşinqton şəhəri
4. Türkiyədə Ankara şəhəri
5. Almaniyada Bonn şəhəri
6. İranda Tehran şəhəri
7. Çində Pekin şəhəri
8. Misir Qairə şəhəri
9. Böyük Britaniyada London şəhəri
10. Saudiyyə Ərəbistanda Ər-riyad şəhəri

11. Fransada Paris şəhəri
12. Belçikada Brüssel şəhəri
13. Avstriyada Vena şəhəri
14. Pakistanda İslamabal şəhəri
15. Özbəkistanda Daşkənd şəhəri
16. Ukraynada Kiyev şəhəri
17. Rusiya Federasiyasında Moskva şəhəri
18. Gürcüstanda Tbilisi şəhəri
19. Sankt-Peterburqda Fəxri Konsulluq
20. İstambulda Baş Konsulluq
21. Avropa şurası yanında büro Strasburq şəhəri
22. Yaponiya (01.X.2002) Tokio şəhəri
23. Polşa (01.X.2002) Varşava şəhəri
24. Küveyt (01.X.2002) Küveyt şəhəri.

Xarici dövlətlərin Azərbaycan Respublikasındakı

S Ə F İ R L İ K L Ə R İ

1. Çin
2. Fransa
3. Gürcüstan
4. Almaniya
5. Yunanıstan
6. İraq
7. İran
8. İsrail
9. İtaliya
10. Qazaxıstan
11. Liviya
12. Norveç
13. Pakistan
14. Polşa
15. Rusiya
16. Sudan
17. Türkiyə
18. Ukrayna
19. İngiltərə
20. ABŞ
21. Özbəkistan

Beləliklə, suala yekun olaraq göstərmək olar ki, Azərbaycan Respublikasının qonşu və xarici ölkələrlə siyasi, iqtisadi, mədəni və s. əlaqələrinin yaranmasına və inkişaf etdirilməsinə yönəlmiş səlahiyyətli dövlət orqanlarının fəaliyyəti xarici işlər sahəsində

idarəetmə ilə bağlıdır. Dövlətin xarici siyasətinin əsas istiqamətlərini də Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

SUAL 2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi-xarici işlər sahəsində idarəetməni bilavasitə həyata keçirən orqan kimi.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (bundan sonra XİN) Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Prezidentinə tabedir.

Azərbaycan Respublikasının XİN-i öz fəaliyyətində aşağıdakı normativ-hüquqi aktları rəhbər tutur:

- Azərbaycan Respublikasının Konstitusiyasını;
- Azərbaycan Respublikasının Qanunlarını;
- Azərbaycan Respublikası Prezidentinin Fərman və sərəncamlarını;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını;
- Azərbaycan Respublikası XİN haqqında Əsasnaməni;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və s.

Xarici İşlər Nazirliyi- xarici işlər sahəsində idarə-etmədə beynəlxalq sülh və təhlükəsizliyin qorunmasını, beynəlxalq hüququn effektivliyini və beynəlxalq münasibətlərin müxtəlif sahələrində əməkdaşlığı təmin edir. Bu Azərbaycanın dünya birliyində layiqli yer tutmasını, onun müxtəlif iqtisadi, siyasi birliklərə inteqrasiyasını sürətləndirir. Belə ki, Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra aşağıda göstərilən beynəlxalq təşkilatlara üzv olmuşdur:

1. Birləşmiş Millətlər Təşkilatına (187 dövlətin üzv olduğu bu təşkilata Azərbaycan Respublikası 1992-ci ilin martında üzv olmuşdur).
2. Avropaya Təhlükəsizlik və əməkdaşlıq üzrə təşkilata, yanvar, 1992.
3. Müstəqil Dövlətlər Birliyinə, (12 dövlət üzv olduğu bu təşkilata Azərbaycaq Respublikası sentyabr 1993-cü ildə üzv olmuşdur).
4. İslam Konfransı Təşkilatına -1992-ci il.
5. Avropa İttifaqına, 1996-cı il.
6. İqtisadi Əməkdaşlıq Təşkilatına-1992-ci il.
7. Beynəlxalq Valyuta Fonduna-1992-ci il.
8. Ümumdünya Bankına-1992-ci il.
9. Təhsil, elm və mədəniyyət üzrə BMT-nin Təşkilatına (YUNESKO).
10. Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Ümumdünya Federasiyasına.
11. Birləşmiş Millətlər Təşkilatının uşaqlar fonduna (YUNİSEF), 1993-cü il.
12. Beynəlxalq Kriminal Polisi Təşkilatına (İNTERPOL).
13. Beynəlxalq Olimpiya Komitəsi.
14. Türk xalqları arasında mədəniyyət təşkilatı.
15. Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasına 1992-ci il müşahidəedici statuslu.

16. Avropa Şurasına yanvar 2001-ci il.

Ümumiyyətlə, Azərbaycan Respublikası xarici dövlətlərlə 500 çox müqavilə bağlayıb, 120-dən çox beynəlxalq konvensiyalara qoşulmuşdur.

Azərbaycan Respublikası XİN-i sisteminə xarici işlər sahəsində fəaliyyət göstərən aşağıdakı kimi orqan, təşkilat, idarə və müəssisələr daxildirlər:

♦ Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları;

♦ Azərbaycan Respublikasının beynəlxalq (dövlətlərarası, hökumətlərarası) təşkilatlar yanında nümayəndələri;

♦ Azərbaycan Respublikası ərazisində XİN-in fəaliyyətinin təmin edilməsi üçün yaradılmış və onun tabeçiliyində olan müəssisələr, idarələr və təşkilatlar.

Xarici işlər sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən icra hakimiyyəti orqanı kimi Azərbaycan Respublikası XİN-in əsas vəzifələri aşağıdakılardır:

♦ Azərbaycan Respublikasının xarici siyasətinin ümumi strategiyasının hazırlanması və Azərbaycan Respublikası Prezidentinə müvafiq təkliflərin verilməsi;

♦ Azərbaycan Respublikasının xarici siyasət xəttinin həyata keçirilməsi;

♦ Azərbaycan Respublikası Prezidentinə Azərbaycan Respublikasının xarici siyasətinin əsaslarının müəyyən edilməsi haqqında və Azərbaycan Respublikası Prezidentinin səlahiyətlərinə uyğun olaraq, onun üzərində rəhbərliyin həyata keçirilməsinə dair təklif və tövsiyyələrin hazırlanması və təqdim edilməsi;

♦ Azərbaycan Respublikası Prezidentinə xarici siyasət sahəsində dövlət orqanlarının razılaşdırılmış qarşılıqlı fəaliyyətinin təmin edilməsi üzrə təkliflərin hazırlanması və təqdim edilməsi;

♦ Azərbaycan Respublikası Prezidentinə dövlət hakimiyyət orqanlarının xarici siyasi fəaliyyətinin ayrı-ayrı istiqamətləri barədə məlumat verilməsi;

♦ diplomatik vasitələrlə Azərbaycan Respublikasının suverenliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün müdafiəsi və beynəlxalq aləmdə digər maraqlarının təmin edilməsi;

♦ Azərbaycan Respublikasının vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və mənafelərinin təmin edilməsi;

♦ xarici dövlətlərdə Azərbaycan Respublikasının diplomatik və konsulluq münasibətlərinin, beynəlxalq təşkilatlarla əlaqələrinin təmin edilməsi;

♦ xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətdə Azərbaycan Respublikasının vahid xarici siyasi xətinin həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə digər icra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və onların işi üzərində nəzarət;

♦ Azərbaycan Respublikasının dövlət orqanlarının siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar münasibətlərinin əlaqələndirilməsi və diplomatik təmini və s.

Azərbaycan Respublikası XİN-in üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün XİN aşağıdakı hüquqlara malikdir:

♦ dövlət orqanlarıdan, bələdiyyələrdən, habelə təşkilati-; hüquqi formasından və idarəçilik tabeçiliyindən asılı olmayaraq müəssisələrdən, idarələrdən və təşkilatlardan Nazirliyin səlahiyyətinə aid məsələlərin həll edilməsi üçün zəruri olan sənədləri, arayış və digər materialları müəyyən edilmiş qaydada ala bilər; məlumatları müəyyən edilmiş qaydada göstərilən orqanlara, müəssisələrə, idarələrə və təşkilatlara verə bilər;

♦ Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin layihələrinin Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquqi normalara uyğunluğuna nəzarəti həyata keçirir;

♦ xarici siyasət və diplomatik xidmət məsələlərinə dair qanunvericilik aktlarının hazırlanması barəsində təklifləri Azərbaycan Respublikası Prezidentinə müəyyən edilmiş qaydada baxılmaq üçün təqdim edir;

♦ beynəlxalq əlaqələrini həyata keçirərkən icra hakimiyyətinin digər orqanları, yerli idarəçilik orqanları, (habelə təşkilati-hüquqi formasından və idarəçilik tabeliyindən asılı olmayaraq müəssisələr, idarə və təşkilatlar) üçün öz səlahiyyətləri daxilində icrası zəruri olan normativ xarakterli qərarlar qəbul etmək;

♦ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tabeli müəssisələrin yaradılması, yenidən təşkil edilməsi və ləğv edilməsi, onların rəhbərlərinin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi; maliyyə təsərrüfat fəaliyyətinin təftişi və yoxlanılması;

♦ konsulluq və digər xidmət növlərindən alınan büdcədən kənar vəsaitlərdən Nazirliyin maddi-texniki bazasının inkişafının maliyyələşdirilməsi, onun işçilərinin sosial ehtiyacları və maddi həvəsləndirilməsi üçün müəyyən edilmiş qaydada istifadə və s.

Azərbaycan Respublikası xarici işlər nazirinin Azərbaycan Respublikası Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən müavinləri vardır. Nazir öz müavinləri arasında vəzifə bölgüsü aparır.

Azərbaycan Respublikasının xarici işlər naziri nazirliyin üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsi və onun tərəfindən öz funksiyalarının həyata keçirilməsi üçün şəxsi məsuliyyət daşıyır. Azərbaycan Respublikasının xarici işlər naziri nazirliyin fəaliyyətinə rəhbərlik edir, onun struktur bölmələrinin Əsasnaməsini, (habelə tabeli təşkilatların Əsasnamələrini) Nizamnamələrini təsdiq edir, kadr, maliyyə, istehsalat, təsərrüfat və digər məsələlərin həll olunmasında Nazirlik sisteminin vəzifəli şəxslərinin səlahiyyətini müəyyən edir.

♦ Xarici işlər naziri Nazirliyin mərkəzi aparatının, xaricdəki nümayəndəliklərin, tabeli təşkilatların fəaliyyəti məsələləri üzrə əmrlər, təlimatlar və göstərişlər verir;

♦ Azərbaycan Respublikasının xarici dövlətlərdəki səfirlərinin və Azərbaycan Respublikasının beynəlxalq təşkilatlardakı (dövlətlərarası, hökumətlərarası) nümayəndələrinin təyin edilməsi və geri çağırılması, dövlət və hökumət nümayəndə heyəti rəhbərlərinin təyin edilməsi və geri çağırılması barədə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Prezidentinə təkliflər verir;

♦ ikitərəfli və çoxtərəfli danışıqlarda Azərbaycan Respublikasını təmsil edir, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalayır;

♦ Azərbaycan Respublikasının dövlət orqanları ilə xarici dövlətlərin dövlət hakimiyyəti orqanları, habelə beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərdə Nazirliyi təmsil edir;

♦ Nazirliyin mərkəzi aparatının və xaricdəki nümayəndəliklərin rəhbər işçilərini, habelə Nazirlik sisteminin digər işçilərini öz səlahiyyəti çərçivəsində vəzifəyə təyin edir və vəzifədən azad edir;

♦ xüsusi olaraq fərqlənən işçilərin müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının dövlət mükafatları ilə mükafatlandırılmasına və Azərbaycan Respublikasının fəxri rütbələrinin təltif edilməsinə təqdim edir;

♦ fövqəladə və səlahiyyətli səfir, 1-ci və 2-ci dərəcəli fövqəladə və səlahiyyətli nümayəndə diplomatik dərəcələrinin təqdim edilməsi barədə Azərbaycan Respublikası Prezidenti qarşısında vəsadət qaldırır və Attaşedən başlayaraq 1-ci dərəcəsi müşavir də daxil olmaqla diplomatik dərəcələri verir;

♦ Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq digər hüquqları da həyata keçirir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən nazir rəhbərlik edir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində nazirdən (kollegiyanın sədri) və onun müavinləri (vəzifə üzrə), habelə Nazirlik sisteminin digər rəhbər işçilərindən ibarət kollegiya yaradılır.

Kollegiyanın üzvləri Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunur. Kollegiya Nazirliyinin fəaliyyəti ilə bağlı daha mühüm məsələlərə baxır və onlar haqqında müvafiq qərarlar qəbul edir. Kollegiya qərarları səs çoxluğu ilə qəbul edir və nazirin əmrləri ilə həyata keçirir. Nazir ilə kollegiya arasında fikir ayrılığı olarsa, nazir müəyyən edilmiş qaydada fikir ayrılığı barədə Azərbaycan Respublikası Prezidentinə məruzə edərək öz qərarını həyata keçirir, qəbul olunmuş qərar üzrə xüsusi rəy olan kollegiya üzvləri bu barədə müvafiq qaydada Azərbaycan Respublikası prezidentinə məruzə edə bilərlər.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində Attestasiya komissiyası yaradılır. Attestasiya komissiyasının tərkibi Kollegiya tərəfindən təsdiq olunur. Attestasiya komissiyası öz səlahiyyətləri çərçivəsində mərkəzi apparat, xaricdəki səfirlik və nümayəndəliklərdə kadrların peşə hazırlığına nəzarət edir və təkliflər verir. Attestasiya komissiyası qərarını səs çoxluğu ilə qəbul edir və qəbul edilmiş qərarlar nazirin əmrləri ilə həyata keçirilir.

Nazirliyin Mərkəzi aparatının və xaricdəki nümayəndəliklərinin strukturu və ştat cədvəli xarici işlər nazirinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi xarici siyasət məsələləri üzrə elmi əsaslandırılmış təkliflərin hazırlanması üçün elmi məsləhət, metodiki və ekspert şuraları yarada bilər.

Şuraların tərkibi və onların Əsasnamələri xarici işlər naziri tərəfindən təsdiq edilir. Şuraların fəaliyyətinin təşkilati-texniki təminatını Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mərkəzi Aparatı həyata keçirir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi onun fəaliyyətinə aid məsələlər üzrə müəyyən edilmiş qaydada curnallar, bülletenlər və digər nəşrlər dərc edir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətinin maliyyələşdirilməsi icra orqanlarının saxlan-masına yönəldilən dövlət büdcəsinin hesabına həyata keçirilir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi hüquqi şəxsdir. Azərbaycan Respublikasının dövlət gerbi təsdiq edilmiş və öz adı olan möhürə, müvafiq möhür və ştamplara, Azərbaycan Respublikası Banklarının müəssisələrində hesablaşma hesabına, o cümlədən Milli və xarici valyutada hesablaşma hesabına malikdir.

Beləliklə, suala nəticə olaraq göstərmək olar ki, Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibəti sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Prezidentinə tabedir.

SUAL 3. Azərbaycan Respublikasına gəlmək və Azərbaycan Respublikasından getməyin inzibati-hüquqi nizamlanması.

İnsan hüquqlarının ümumi bəyannaməsinə və Azərbaycan Respublikasının müvafiq beynəlxalq müqavilələrinə uyğun olaraq "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasına gəlmək (bundan sonra ölkədən getmək və ölkəyə gəlmək) hüququna təminat verilir və bu hüquqdan azad şəkildə istifadə etmək üçün hər bir müstəqil dövlətin rəmzi olan xüsusi sənədin-Azərbaycan Respublikası vətəndaşının pasportunun tətbiqi nəzərdə tutulur, vətəndaşlara pasportun verilməsi qaydaları, xaricdə daimi yaşayış üçün gedən vətəndaşların hüquqi vəziyyəti, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi qaydaları təsbit olunur.

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanunu 14 iyun 1994-cü ildə qəbul edilmiş, sonralar isə bu Qanuna əlavə dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının hər bir vətəndaşı (bundan sonra vətəndaş) Qanunda nəzərdə tutulmuş qaydada xüsusi ayrılmış nəzarət məntəqələrindən keçib sərbəst surətdə ölkədən getmək və ölkəyə gəlmək hüququndan məhrum edilə bilməz. Bu hüquq yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

1) vətəndaşın dövlət sirri və ya hərbi sirr olan məlumatlar üzrə öhdəliyi qüvvədirsə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada həmin öhdəlik qüvvədən düşənədək;

2) vətəndaş haqqında cinayət işi qaldırılıbsa və ya o, məhkum edilibsə-müvafiq olaraq iş üzrə icraat qurtaranadək və ya cəza çəkilib qurtaranadək, yaxud cəzadan azad edilənədək;

3) vətəndaş müəyyənləşdirilmiş qaydada müddətli həqiqi hərbi xidmətə çağırıldıqda-müddətli həqiqi hərbi xidmət keçənədək və ya qanuna uyğun olaraq ondan azad edilənədək;

4) beynəlxalq tibbi sanitariya qaydalarına və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə uyğun olaraq profilaktik peyvəndlər tələb olunan ölkələrə gediş-gəliş zamanı profilaktik peyvəndlərin aparılmasınadək.

Hər hansı bir ölkədə fövqəladə vəziyyət və ya insan həyatı, sağlamlığı və azadlığı üçün təhlükə yaranarsa, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının əhalisini dərhal xəbərdar etməklə, vətəndaşlara həmin ölkəyə getməkdən müvəqqəti çəkinməyi tövsiyə edə bilər.

Vətəndaşın ölkədən getmək və ya ölkəyə gəlmək hüququ qanunla müəyyənləşdirilmiş qaydada yalnız Azərbaycan Respublikası vətəndaşının pasportu və

beynəlxalq müqavilələrə uyğun olaraq xarici ölkəyə daxil olmaq üçün rəsmiləşdirilmiş "icazə-viza" əsasında həyata keçirilir.

Azərbaycan Respublikasında qeydiyyatda olan və dənizçilik məqsədilə istifadə edilən gəmilərdə hər hansı dənizçi vəzifəsində işlənən vətəndaşın ölkədən getmək və ölkəyə gəlmək hüququ Azərbaycan Respublikası Milli Məclisinin təsdiq etdiyi "Dənizçi kitabçası haqqında" Əsasnaməyə uyğun olaraq həyata keçirilir.

18 yaşına çatmamış vətəndaş ölkədən öz valideynlərinin və ya qanuni nümayəndəsinin notarius tərəfindən və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş razılığı ilə gedə bilər.

Valideynlərdən birinin razılığı olmadıqda yetkinlik yaşına çatmamış vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir.

Müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçular istisna olmaqla Azərbaycan Respublikası Silahlı Qüvvələrində və qanunvericilikdə nəzərdə tutulmuş digər qoşun birləşmələrində qulluq edən hərbi qulluqçular komandanlığın müəyyən olunmuş qaydada rəsmiləşdirilmiş icazəsi olduqda Azərbaycan Respublikasından gedə bilərlər.

18 yaşına çatmamış vətəndaşın daimi yaşayış üçün ölkədən getməsinə yalnız onun valideynlərinin hər birinin və ya qanuni nümayəndəsinin yazılı şəkildə ifadə edilmiş və notarius tərəfindən və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş razılığı olduqda yol verilir.

Fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilmiş vətəndaş ölkədən öz qanuni nümayəndəsinin notarius tərəfindən təsdiq edilmiş vəsatəti və ya məhkəmənin qərarı əsasında qanuni nümayəndəsinin müşayiəti ilə gedə bilər.

Azərbaycan Respublikası vətəndaşının pasportu(bundan sonra-pasport) Azərbaycan Respublikasının ərazisindən kənarda vətəndaşın şəxsiyyətini təsdiq edən, habelə ona ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi üçün verilən rəsmi sənəddir.

Pasport 18 yaşına çatmış, müstəsna hallarda isə təhsil almaq, beynəlxalq tədbirlərdə iştirak etmək, müalicə olunmaq və ya daimi yaşamaq üçün xaricə gedən 18 yaşına çatmamış Azərbaycan Respublikası vətəndaşlarına qanunla müəyyənləşdirilmiş qaydada verilir və bütün ölkələrə getmək üçün etibarlıdır.

Pasportun Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilən ümumvətəndaş, xidməti, diplomatik tipləri vardır.

Pasport Azərbaycan Respublikasının mülkiyyətidir, onun vətəndaşdan alınması və ya girov götürülməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna olunmaqla qəti qadağandır.

Hər bir vətəndaş pasportu möhkəm saxlamağa borcludur. Pasport itdikdə vətəndaş pasportu verən dövlət orqanlarına, belə hadisə xaricdə baş verərsə, Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna dərhal məlumat verməlidir.

Vətəndaş öldükdə onun pasportu, habelə etibarlıq müddəti qurtarmış pasport müvafiq dövlət orqanına təhvil verilir.

Ümumvətəndaş pasportu vətəndaşın müraciətindən ən geci bir ay keçənədək onun ərizəsi, şəxsiyyət vəsiqəsi, fotoşəkli, dövlət rüsumunun ödənilməsi barədə qəbz və zəruri hallarda Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlər əsasında yaşadığı yerin daxili işlər orqanı tərəfindən verilir.

Vətəndaş ölkədən yetkinlik yaşına çatmamış uşaqları ilə birlikdə gedərsə, bu halda onun ümumvətəndaş pasportuna həmin uşaqlar yazılmalı və fotoşəkilləri yapışdırılmalıdır.

Ümumvətəndaş pasportunun verilməsi üçün şərti maliyyə vahidi məbləğinin iyirmi misli məbləğində dövlət rüsumu alınır.

Xidməti pasport xidməti işlə əlaqədar xarici ölkələrə ezam edilən Azərbaycan Respublikası Prezidenti, Milli Məclis, Nazirlər Kabineti aparatlarının, mərkəzi dövlət orqanlarının, prokurorluğun, Milli Bankın məsul işçilərinə, hakimlərə, Mərkəzi seçki komissiyalarının üzvlərinə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin məsul işçilərinə, şəhər və rayon icra hakimiyyəti başçılarına və onların müavinlərinə, Azərbaycan Respublikasının xarici ölkələrdəki nümayəndəliklərinin inzibati-texniki işçilərinə, onlar üç aydan artıq xarici ölkələrdə işləyərsə onların arvadına (ərinə) və 18 yaşına çatmış ərdə olmayan qızlarına, habelə beynəlxalq xətlərdə çalışan dəniz və hava gəmiləri, dəmir yolu, avtonəqliyyat işçilərinə müvafiq dövlət orqanları rəhbərlərinin təqdimatı daxil olduqda ən geci on gün keçənədək, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən sahiblərinin səlahiyyət müddətinə və ya üç illik müddətə verilir.

Xidməti pasportun verilməsi üçün şərti maliyyə vahidi məbləğinin on misli məbləğində dövlət rüsumu alınır.

Azərbaycan Respublikasının xaricdə olan səlahiyyətli şəxsləri bu pasportun sahibinə xaricdə xidməti vəzifələrini yerinə yetirməkdə kömək göstərməyə borcludurlar.

Diplomatik pasport Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən:

1. öz vəzifələrini icra etməyə başladıqdan ən geci 15 gün keçənədək Azərbaycan Respublikasının Prezidentinə, Milli Məclisin deputatlarına, Nazirlər Kabinetinin üzvlərinə, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, İqtisad Məhkəməsinin üzvlərinə, Baş prokurora və onun müavinlərinə, Milli Bankın sədrinə və onun müavinlərinə, Mərkəzi seçki komissiyasının, Azəraycan Respublikası Prezidentinin, Milli Məclisin, Nazirlər Kabinetinin, Konstitusiya Məhkəməsinin aparatlarının rəhbər işçilərinə (şöbə müdirləri də daxil olmaqla yuxarı vəzifəlilərə), mərkəzi dövlət orqanlarının rəhbərlərinə, diplomatik vəzifələrdə çalışan şəxslərə, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə, onun müavinlərinə, Nazirlər Kabinetinin üzvlərinə, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrinə və Naxçıvan Muxtar Respublikasının Prokuroruna;

2. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin sədrinin və istisna hallarda Azərbaycan Respublikası xarici işlər nazirinin sərəncamına əsasən beynəlxalq konfranslarda, müşairələrdə və danışıqlarda, BMT Baş Məclisinin sessiyalarında, BMT-nin orqanlarında, beynəlxalq təşkilatların konfranslarında, dövlətlərarası görüş və əlaqələrdə Azərbaycan Respublikasını təmsil edən nümayəndə heyətlərinin üzvlərinə və xüsusi nümayəndələrə;

3. Azərbaycan Respublikası Prezidentinin, Milli Məclisin sədrinin, Baş nazirin, Konstitusiya Məhkəməsi sədrinin, xarici işlər nazirinin, habelə xaricə 3 aydan artıq müddətə ezam olunan, yuxarıda sadalanan digər şəxslərlə birlikdə gedən arvadına (ərinə) və 18 yaşına çatmış ərdə olmayan qızına verilir.

Diplomatik pasportun verilməsi üçün dövlət rüsumu alınmır. Diplomatik pasportda onun sahibinin yetkinlik yaşına çatmayış uşaqları, arvadı (əri) yazıla bilər və belə halda pasporta onların fotoşəkilləri də yapışdırılır. Sahibi olmadan bu pasportdan ailə üzvlərinin ölkədən getmək və ya ölkəyə gəlmək üçün istifadə etməsi qadağandır.

Diplomatik pasport onun sahibinə beş il və ya xüsusi səlahiyyətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulmuş müddətə verilir.

Azərbaycan Resupblikasının Prezidentinə, Milli Məclisin sədrinə, Baş nazirə, Konstitusiya Məhkəməsinin sədrinə və xarici işlər nazirinə diplomatik pasport ömürlük verilir.

Həmin pasport xaricdə diplomatik immunitetdən istifadə etmək hüququ verir. Bütün səlahiyyətli şəxslər diplomatik pasport sahibinə həmin pasportda yazılmış şəxslər sərhədi sərbəst və təhlükəsiz keçməkdə, digər zəruri hallarda kömək və havadarlıq göstərməyə borcludurlar.

Tiplərindən asılı olmayaraq hər bir pasportda:

1. Azərbaycan Respublikasının adı, dövlət gerbi, ölkənin kodu, pasportun tipi, seriyası və nömrəsi, sahibinin soyadı, adı, atasının adı, vətəndaşlığı, doğulduğu yer və tarix, cinsi, boyu, gözlərinin rəngi, qan qurupu, yaşayış yeri, pasportu verən orqanın adı, verilmə tarixi, pasport sahibinin şəxsi imzası, onunla birgə gedən 18yaşına çatmamış uşaqların soyadı, adı, cinsi və doğulduğu tarix, pasporta aid olan tələblər göstərilir;

2. pasport sahibinin fotoşəkli yapışdırılır;

3. xarici ölkəyə daxil olmaq üçün rəsmiləşdirilmiş icazələr (vizalar) və digər xüsusi (gömrük və sərhəd məntəqələrini keçməsi barədə) qeydlər edilir.

Pasportdakı yazılar Azərbaycan Respublikasının dövlət dilində və ingilis dilində göstərilir və müvafiq dövlət orqanlarının məsul əməkdaşı tərəfindən imza və möhürlə təsdiq edilir. Pasportun ayrıca vərəqələrində xüsusi bölmələrin adlarının rus, fransız, alman, ispan, ərəb və çin dillərində tərcüməsi verilir.

Pasport vətəndaşların (onun valideynlərindən birinin və ya qanuni nümayəndəsinin) müvafiq dövlət orqanına ərizəsi və ya müəssisənin, idarənin, təşkilatın vəsatəti əsasında verilir.

Vətəndaş haqqında yalan məlumat yazılmış və ya qüvvədən düşmüş sənəd təqdim olunubsa, pasportun verilməsindən imtina edilir və həmin məsələyə yalnız yeni sənədlər təqdim edildikdən sonra baxıla bilər.

Dövlət sirrinin və ya hərbi sirrin mühafizəsi ilə əlaqədar pasportun verilməsindən imtina yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda edilir.

Pasportun verilməsi haqqında ərizəyə (vəsatətə) baxılmasının süründürülməsindən və ya buna imtina edilməsindən vətəndaş məhkəməyə şikayət edə bilər.

Vətəndaşın soyadı, adı, atasının adı dəyişdirildikdə və ya pasportdakı yazılarda dəqiqsizlik müəyyən edildikdə, yaxud pasport yararsız hala düşdükdə vətəndaş pasportu dəyişdirməlidir.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (bundan sonra əcnəbilər) Qanunda nəzərdə tutulmuş qaydada xüsusi ayrılmış nəzarət məntəqələrindən keçmək şərti ilə şəxsi pasportları və beynəlxalq müqavilələrə uyğun olaraq rəsmiləşdirilmiş icazə-viza əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər.

Əcnəbilərə Azərbaycan Respublikasına gəlmək yalnız aşağıdakı hallarda qadağan edilir:

1. milli təhlükəsizliyin, yaxud ictimai asayişin mühafizəsi mənafeyi tələb edirsə;

2. bu, Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərinin hüquqlarının və qanuni mənafelərinin qorunması üçün zəruridirsə;

3. şəxs Azərbaycan Respublikasına əvvəlki gəlişi zamanı Azərbaycan Respublikası qanunlarının tələblərini pozmuşsa;

4. Azərbaycan Respublikasına gəlməsi haqqında vəsatət qaldırarkən şəxs özü haqqında yalan məlumat vermişsə;

5. ruhi və ya yolxucu xəstəliklərə tutulmuş şəxsin Azərbaycan Respublikasına gəlməsi əhalinin sağlamlıq üçün təhlükə törədirsə (belə təhlükə törətməyən və öz hesablarına, ya da qanuni qəyyumlarının və nümayəndələrinin maddi himayəsi ilə müalicyəə gələn şəxslər istisna təşkil edir).

Azərbaycan Respublikasının bağladığı dövlətlərarası müqavilələrə uyğun olaraq Azərbaycan Respublikası Prezidetinin təklifi üzrə Azərbaycan Respublikasının Milli Məclisi əcnəbilərin Azərbaycan Respublikasına gəlməsinin şəxsi papsorta əsaslanan vizasız (sadələşdirilmiş) qaydasını müəyyənləşdirə bilər.

Əcnəbilərin Azərbaycan Respublikasından getməsi aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

1. onların getməsi milli təhlükəsizliyin təmin edilməsi mənafeyinə zidd olarsa-bu əsas aradan qalxanadək;

2. onlar cinayət törətməkdə şübhəli şəxs, yaxud müttəhimdirlərsə-işin icraatı qurtaranadək;

3. onlar cinayət törətdiyinə görə məhkum olunublarsa-cəza çəkməkdən azad olunana, yaxud cəzanı tam çəkənədək;

4. məhkəmədə onlara qarşı mülki iddia verilibsə-müvafiq olaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada mülki iş üzrə qərar qüvvəyə minənədək.

Azərbaycan Respublikasına gələn və Azərbaycan Respublika-sından gedən əcnəbilər Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada müvafiq dövlət orqanlarında qeydiyyatdan keçməlidirlər.

Qanunvericiliklə nəzərdə tutulmuş qaydada profilaktik peyvəndlərin aparılmaması Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin beynəlxalq tibbi sanitariya qaydalarına və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə uyğun olaraq profilaktik sənədlər tələb olunan ölkələrə gediş-gəlişin dayandırılması və ya məhdudlaşdırılması ilə nəticələnir.

13 mart 1996-cı ildə qəbul olunmuş "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu-Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı ictimai münasibətləri tənzimləyir.

Qanuna əsasən <u>əcnəbilər</u>- Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxslərdir.

<u>Vətəndaşlığı olmayan şəxslər-</u> Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olmayan şəxslərdir.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında daimi olmağa müvafiq qaydada icazə aldıqda, yaxud onlara Azərbaycan Respublikasında daimi yaşamaq hüququ verildikdə Azərbaycan Respublikasında daimi yaşayan hesab edilirlər.

Azərbaycan Respublikasına digər qanuni əsaslarla (turizm, şəxsi işi ilə bağlı, xidməti ezamiyyətə gəlmiş və sair bu kimi müvəqqəti xarakter daşıyan hallarla əlaqədar gəlmiş) gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olan hesab edilirlər.

Mühacir- bu və ya digər əsaslarla yaşadığı ölkəni uzun müddətə tərk edən və Azərbaycan Respublikasına yaşamağa gələn əcnəbilər, yaxud vətəndaşlığı olmayan şəxslərdir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti Azərbaycan Respublikasının Konstiutsiyası, "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında", "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respulikasının Qanunları və bu Qanunlara müvafiq olaraq qəbul edilən Azərbaycan Respublikasının digər qanunvericilik aktları, habelə Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələr ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Konstitusiyası, "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Qanun, Azərbaycan Respublikasının digər qanunları və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələr ilə digər qaydalar müəyyən edilməyibsə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası vətəndaşları ilə bərabər bütün hüquqlardan və azadlıqlardan istifadə edirlər və bütün vəzifələri yerinə yetirirlər.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Konstitusiyasının, Azərbaycan Respublikasının qanunlarının və digər qanunvericilik aktlarının tələblərinə riayət etməli, Azərbaycan xalqının adət- ənənlərinə hörmət etməlidirlər.

Xarici dövlət onun ərazisində Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə məhdudiyyət qoyduqda Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikasının ərazisində eyni məhdudiyyətlər həmin dövlətin vətəndaşları üçün müəyyən edilə bilər. Belə qanun onun qəbul edilməsinə əsas olan hallar aradan qaldırıldıqda ləğv olunur.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların sosial və əmlak vəziyyətindən, irqindən, milli mənsubiyyətindən, cinsindən, dilindən, dinə münasibətindən, fəaliyyətinin növü və xarakterindən və digər hallardan asılı olmayaraq Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabərdirlər.

Azərbaycan Respublikası ərazisindəki əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız Azərbaycan Respublikası Konstitusiyasında müəyyən edilmiş qaydada məhdudlaşdırıla bilər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasına daimi yaşamaq üçün mühacirətə, yaxud müəyyən müddətə işləməyə gələ bilər və həmçinin onun ərazisində müvəqqəti ola bilərlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı hallarda mühacirətə icazə ala və Azərbaycan Respublikası ərazisində daimi yaşamağa gələ bilərlər:

- Azərbaycan Respublikasının vətəndaşları ilə yaxın qohumluğu olduqda;
- Azərbaycan Respublikasında daimi yaşayan şəxslə nigahda olduqda;
- Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş digər hallarda.

Daimi yaşayış üçün, yaxud müvəqqəti işləməyə gəlmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada müvafiq sənədlər verilir.

Digər qanuni əsaslarla Azərbaycan Respblikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olan hesab edilirlər.

Azərbaycan Respublikası ərazisində müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmalıdırlar və onlar üçün müəyyən olunmuş müddətlər qurtadıqdan sonra Azərbaycan Respublikasını tərk etməlidirlər.

Azərbaycan Respublikası ərazisində cinayət, inzibati və digər hüquqpozma törətmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında aşağıdakı olma qaydalarını pozduqları hallarda Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar:

- Azərbaycan Respublikasında olmaq üçün müvafiq sənədləri olmadıqda;
- Azərbaycan Respublikasında etibarsız sənədlər əsasında yaşadıqda;
- qanunvericilikdə müəyyən edilmiş hərəkət etmə, yaşayış yeri seçmə və qeydiyyat qaydalarına riayət etmədikdə;
- işə düzələrkən müəyyən edilmiş qaydaları pozduqda;
- olma müddəti qurtardıqdan sonra Azərbaycan Respublikası ərazisini vaxtında tərk etmədikdə;
- Azərbaycan Respublikası ərazisindən tranzit keçidi qaydalarına əməl etmdikdə və s.

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərini pozan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma müddətləri qısaldıla bilər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma müddətlərinin qısaldılması haqqında qərarı müvafiq dövlət orqanları qəbul edir.

Milli təhlükəsizliyin təmin olunması, ictimai asayişin mühafizəsi, əhalinin səhhəti, hüquqları və mənafelərinin qorunması zəruriliyi olduqda və həmçinin Azərbaycan Respublikasının əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında qanunvericiliyinin tələbləri kobud surətdə pozulduqda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bir gündən yeddi günədək müddətə müvafiq dövlət orqanının qərarına əsasən Azərbaycan Respublikası hüdudlarından kənara çıxarıla bilər.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması haqqında qərarda müəyyən olunmuş müddətdə Azərbaycan Respublikası ərazisini tərk etməlidir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma müddətlərinin qısaldılması və Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən həyata keçirilir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması haqqında qərardan məhkəməyə şikayət verilə bilər. Şikayətin verilməsi qərarın icrasını dayandırmır.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı vizalar əsasında Azərbaycan Respublikasına gələ, onun ərazisində ola, tranzitlə keçə və Azərbaycan Respublikası ərazisində olduqdan sonra gedə bilərlər. Vizaların aşağıdakı növləri mövcuddur:

- giriş vizası;
- qayıdış vizası;
- tranzit vizası;
- çıxış vizası.

a) Giriş vizası əcnəbilərə Azərbaycan Respublikasının ərazisinə ümumi qaydada gəlmək üçün verilir. Onun etibarlıq müddəti birdəfəlik giriş-çıxış üçün üç gündən üç ayadək, çoxdəfəlik giriş-çıxış üçün isə-bir ilədək müəyyən olunur. Bu müddətədə vizadan istifadə olunmazsa o, qüvvədən düşür.

b) Qayıdış vizası şəxsi pasportu olan əcnəbilərə Azərbaycan Respublikasından gedərkən müraciət etdikləri halda yenidən Azərbaycan Respublikasının ərazisinə bir ayadək müddətə gəlmək üçün verilir. Bu viza Azərbaycan Respublikasından getmə günündən altı ay ərzində istifadə olunmazsa, qüvvədən düşür.

c) Bir və ya çoxdəfəlik tranzit vizası başqa ölkələrə gedən əcnəbilərə Azərbaycan Respublikasının ərazisindən keçmək üçün verilir. Tranzit vizasında gedişin dayanacaqsız olması haqqında qeyd və ya möhür olmazsa onun sahibinə Azərbaycan Respublikasında ən çox 5 gün qalmaq imkanı verilir.

ç) Çıxış vizası Azərbaycan Respublikasının ərazisində yaşayış üçün rəsmi icazəyə malik olan əcnəbilərə verilir. Çıxış vizasının verilməsi üçün dövlət rüsumu alınmır.

Azərbaycan Respublikasında qalmaq üçün əcnəbilər vizalarında göstərilən müddət qurtaranadək qabaqcadan onun uzadılması məsələsini həll etməli və ya ölkəni tərk etməlidirlər.

Viza alınması üçün əcnəbilər gəlişin məqsəd və müddətini göstərməklə viza verilməsi haqqında ərizə ilə Azərbaycan Respublkasının səfirlikləri və konsulluqları vasitəsi ilə və ya birbaşa Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müraciət edərək tələb olunan sənədləri və viza verilməsi üçün dövlət rüsumu ödənilməsi barədə qəbzi ərizəyə əlavə etməlidirlər.

Viza verilməsi haqqında əcnəbilərin ərizələrinə əlavə edilən sənədlərin siyahısını Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, onlardan tutulan rüsumların məbləğlərini isə Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyənləşdirir.

Viza verilməsi haqqında əcnəbilərin ərizələrinə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının səfirlikləri və konsulluqları onlara müraciət olunduğu gündən ən geci bir ay keçənədək, onların səfəri təcili mülaicə, yaxud Azərbaycan Respublikasında yaşayan qohumunun ağıo xəstəliyi və ya ölümü ilə bağlıdırsa, bu faktları təsdiq edən sənəd təqdim olunduqdan ən geci 48 saat keçənədək baxırlar. Əcnəbilərin Azərbaycan Respublikasından getməsini müvəqqəti məhdudlaşdıran hallarda viza verilməsi haqqında xahiş, səbəbləri yazılı şəkildə ərizəçinin nəzərinə çatdırılmaqla rədd edilir və onun təkrar ərizəsinə imtinanı doğuran səbəblər aradan qaldırıldıqdan sonra baxılır.

Viza verilməsi haqqında ərizəyə baxılmasında süründür-məçiliyə yol verilməsindən və ya ərizəyə baxmaqdan imtina edilməsindən əcnəbilər Azərbaycan Respublikasının müvafiq məhkəməsinə şikayət edə bilərlər.

Qanunun tələblərini pozaraq pasportsuz, vizasız və ya etibarlı olmayan pasport və digər sənədlərlə Azərbaycan Respublikasının sərhədini keçən əcnəbilər geri qaytarılırlar. Belə şəxslərdən pasport və sənədlərini yolda itirdiklərini bildirənlərin Daxili İşlər Nazirliyinin aparacağı təhqiqata qədər, lazım gələrsə isə ən yaxın rayonun icra hakimiyyəti başçısının müəyyənləşdirəcəyi yerdə yerləşdirmək şərti ilə qəbul edilməsi mümkündür.

Pasporta yalan məlumatlar daxil edildikdə, pasport itirildikdə, qəsdən korlandıqda, oğurlandıqda, saxtalaşdırıldıqda, satıldıqda, qanunsuz hazırlandıqda və ya istifadə edildikdə, yaxud ölkədən getməyin və ölkəyə gəlməyin qanunla müəyyənləşdirilmiş qaydaları pozulduqda təqsirli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyırlar.

Beləliklə, suala nəticə olaraq göstərmək olar ki, əcnəbilərin və vətəndaşlığı omayan şəxslərin hüquqları dövlət hakimiyyəti orqanları tərəfindən pozulduqda həmin hüquqlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bərpa edilir.

N Ə T İ C Ə

"Xarici işlər sahəsində dövlət idarəetməsi" mövzusunun biz hüquqşünaslar və polis əməkdaşları üçün həm nəzəri həm də təcrübi cəhətdən böyük əhəmiyyəti vardır. Sualların açıqlanması ilə siz hiss etdiniz ki, dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici işlər sahəsində dövlət idarəetməsinin təşkili və onun həyata keçirilməsidir.

Bu mövzunun köməkliyi ilə xarici işlər sahəsində dövlət idarəetməsinin həyata keçirilməsinə ümumi rəhbərliyin və bilavasitə rəhbərliyin həyata keçirilməsinin təşkilati-hüquqi formalarını öyrənmiş olduq.

Mövzumuzun ikinci sualının köməkliyi ilə Xarici İşlər Nazirliyinin və onun orqanlarının əsas vəzifələri, funksiyaları və hüquqları haqqında anlayış əldə etmiş olduq. Bundan əlavə biz öyrəndik ki, xarici dövlətlər ərazisində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin orqanları öz vəzifələrini, funksiyalarını və hüquqlarını hansı normativ-hüquqi aktlar əsasında həyata keçirirlər.

Ən nəhayət onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan və xarici ölkələrlə qarşılıqlı əlaqələrini genişləndirdikcə Azərbaycan Respublikasına gələn xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin sayı gündən-günə artır. Ona görə də biz mövzumuzun üçüncü sualının köməkliyi ilə xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlmək və Azərbaycan Respublikasından getməklərinin əsaslarını və qaydalarını öyrənmiş olduq.

Yuxarıda göstərdiklərimizə əsaslanaraq qeyd etmək lazımdır ki, bü günkü mövzumuzun hər bir hüquqşünas üçün qarşısında duran vəzifələrin yerinə yetirilməsində böyük əhəmiyyəti vardır.

MÖVZU № 21 " TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT İDARƏETMƏSİ".

P L A N:

G İ R İ Ş

10. Təhsil sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi əsasları.
11. Ali təhsil müəssisələrinin hüquqi vəziyyətləri, növləri və onların fəaliyyətinə rəhbərliyin həyata keçirilməsi qaydası
12. Polis Akademiyası-dövlət ali təhsil müəssisəsi kimi.

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T:

31. Azərbaycan Respublikasının Konstitusiyası.
32. "Təhsil haqqında"Azərbaycan Respublikasının Qanunu.19 iyun 2009-ci il.
33. "Ali təhsil müəssisələrinin Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.30 mart 1995-ci il.
34. "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 13 iyun 2000-ci il.
35. "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 15 iyun 1999-cu il.
36. "Dövlət gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 iyul 1999-cu il.
37. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 747 №-li Fərmanı, 2 sentyabr 1993-cü il.
8. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
9. E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
10. V.M.Monax, Ö.S.Aduşmin, Z.A.Baqişaev."Rossiyskoe admi-nistrativnoe pravo". Dərslik. M., 1997-ci il.
11. A.P.Alexin, A.A.Kormolitskiy, E.M. Kozlov. "Administratisnoe pravo Rossiyskoy Federaüii". Dərslik. M., 1997-ci il.
12. A.P. Korenev. "Administrastivnoe pravo". Dərslik. M., 1999-cu il.

G İ R İ Ş

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyat fəaliyyətinin mühüm bir sahəsidir. Təhsil sahəsi elə bir sahədir ki, cəmiyyət üzvlərinin, əhalinin, demək olar ki, tam əksəriyyəti bu sistemlə bağlıdır. Təhsil sahəsi cəmiyyət üzvlərinin tam əksəriyyətini həm maraqlandırır, həm də onların bu və ya digər şəkildə iştirakını tələb edir. Təhsil sahəsi cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir.

Mövzunun əhəmiyyətini dərk edərək mövzunu plan üzrə iki hissəyə bölürük. Birinci hissədə təhsil sahəsində dövlət idarəetməsinin anlayışını, onun konstitusiya-hüquqi əsaslarını açıqlamaqla yanaşı, təhsilin növlərini, onların xarakteristikasını açıqlayacağıq. Burada biz, həm də təhsil sisteminin təkmilləşdirilməsi sahəsində dövlət tədbirləri, bu

sahənin fəaliyyətini tənzimləyən qanunvericilik aktları haqqında qeyd edəcəyik. Birinci sualda bunlarla yanaşı təhsil sistemində dövlət idarəetməsinə ümumi və bilavasitə rəhbərliyi həyata keçirən orqanlar barədə hüquqi biliklər əldə edəcəksiniz.

Mövzunun ikinci sualında DİN-in ali təhsil müəssisəsi olan Polis Akademiyası dövlət ali təhsil müəssisəsi kimi haqqında olacaqdır. Ölkəmizdə aparılan hüquqi islahatlar, demokratikləşdirmə, habelə idarəetmə mexanizminin və təhsil sisteminin təkmilləşdirilməsi prosesi daxili işlər orqanları üçün ixtisaslı kadrlar hazırlayan DİN-in təhsil müəssisələrinin də beynəlxalq standartlara uyğunlaşdırılmasını tələb edir. Bu məqsədlə daxili işlər orqanlarının ali hüquq təhsilli mütəxəssislərə olan tələbatını ödəyən Polis Akademiyasının vəzifələri, hüquqları, strukturu və Akademiyaya rəhbərlik haqqında əldə etdiyiniz biliklər əlbəttə ki, əhəmiyyətli olacaqdır.

Beləliklə, mövzumuzun birinci sualının açıqlanmasına keçək.

SUAL I. Təhsil sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi əsasları.

Təhsil cəmiyyətin bütün üzvlərini əhatə edən, onları daim düşündürən, dövlətin, dövlətçiliyin təməlində duran ümummilli məsələdir. YUNESKO XXI əsri "Təhsil əsri"- "İntellekt əsri" elan etmişdir.

Azərbaycan halqının ümummilli lideri H.Əliyev qeyd etmişdir: "Azərbaycanda yaranmış təhsil sistemi bizim böyük sərvətimizdir və XXI əsrə biz müstəqil olaraq, həmin bu sərvətlə, həmin bu böyük potensialla başlamışıq…"

Bu mənada Azərbaycan əhalisinin 2 milyonundan çoxunu təhsil prosesinin birbaşa iştirakçısı olan təhsil alanlar və təhsil verənlər təşkil edir. Belə bir şəraitdə təhsilin bu günü, sabahkı taleyi hər bir Azərbaycan vətəndaşını, bütövlükdə Azərbaycan dövlətini hər an maraqlandıran prioritet sahədir. Azərbaycan təhsilinin inkişafını qabaqcıl ölkələrin təhsil sistemlərinə inteqrasiyasız, onlardan təcrid edilmiş şəkildə təsəvvür etmək mümkün deyildir.

Azərbaycanın dövlət müstəqilliyinə qovuşması təhsil sahəsində beynəlxalq əlaqələrin genişlənməsinə real şərait yaratmışdır.

Təhsil cəmiyyətin və dövlətin inkişafında mühüm rol oynayan, strateci əhəmiyyəti ilə fərqlənən fəaliyyət sahəsidir. Təhsil hüququ vətəndaşların əsas konstitusion hüquqlarındandır.

Təhsilin ümumi məsələləri Azərbaycan Respublikasının hakimiyyət orqanları, eləcə də onun mərkəzi və yerli hakimiyyət orqanlarının səlahiyyətlərinə aid edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsi "Təhsil hüququ" adlandırılmış və özündə aşağıdakıları müəyyən etmişdir:

I. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

II. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

III. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.

IV. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.

V. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

2009-cu il 19 iyun tarixli "Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu" təhsil sisteminin ümumi əsaslarını müəyyən edir. Bu Qanuna əsasən Azərbaycan Respublikasında təhsil dünyavi və fasiləsiz xarakter daşımaqla, vətəndaşların, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir.

Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərafdar çıçxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir.

Təhsil qanunvericiliyinə daxildir: Azərbaycan Respublikasının Konstitusiyası, Təhsil haqqında Qanun; təhsil sahəsinə aid olan digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəftar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.(mad.2.1)

Təhsil qanunvericiliyinin əsas məqsədi təhsil sahəsində vətəndaşların konstitusiya hüququnun təmin edilməsindən və qorunmasından, icra strukturlarının, təhsilalanların və təhsilverənlərin, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin düzgün müəyyən edilməsindən, onlar arasında münasibətlərin tənzimlənməsindən, təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılmasından ibarətdir. (mad.2.2)

Təhsil Qanunu Azərbaycan Respublikasının ərazisində olan bütün təhsil müəssisələrinə, müvafiq orqan və təşkilatlara şamil edilir. Azərbaycanın təhsil sistemi həmin Qanun əsasında fəaliyyət göstərir.

Təhsil qanunvericiliyini pozanlar qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

Təhsil qanunvericiliyinin vəzifələri aşağıdakılardır:

- təhsil sahəsində dövlət siyasəti prinsiplərinin müəyyən edilməsi;
- təhsil sisteminin sərbəst fəaliyyət göstərməsi və təhsilin inkişafı üçün hüquqi təminat yaradılması;
- hüquqi şəxslər və təhsil subyektlərinin hüquq və vəzifələrinin, səlahiyyət və məsuliyyətinin müəyyən olunması;
- vətəndaşların təhsil haqqında konstitusiya hüquqlarının təmin olunması və müdafiəsi.

Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri:

-**humanistlik**-milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının,insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması;

-**demokratiklik**-təhsilalanların alanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət- ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması;

-**bərabərlik**- bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması;

-**millilik və dünyəvilik**-milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;

-**keyfiyyətlilik**-təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uygunluğu;

-**səmərəlilik**-təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili;

-**fasiləsizlik, vəhdətlik, daimilik**-mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi;

-**varislik**-təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsi;

-**liberallaşma**-təhsil sahəsinin və təhsil fəaliyyətinin açıqlığının genişləndirilməsi;

-**inteqrasiya**-milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı.

Təhsil hüququna dövlət təminatı:

1. Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir vətəhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir (mad.5.1);

2.Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməsinə təminat verir (mad.5.2);

Müəyyən peşələr və ixtisaslar üzrə hökumət tərəfindən yaş həddinə, habelə cinsə, sağlamlığa, mühakimə olunmaya görə məhdudiyyətlər qoyula bilər.

3.Dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunma, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndiril-məsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasinda və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir (mad.5.3);

4.Dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində hər bir təhsilalan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir (mad.5.4);

Həmin təhsil müəssisələrində əlavə pullu təhsil qrupları da yaradıla bilər.

5.Dövlət əmək bazarının tələblərinə uyğun olaraq təhsil müəssisələrinə ixtisaslı kadr hazırlığı üçün dövlət sifarişləri verir və məzunların müvafiq işlə təmin olunmasına şərait yaradır (mad.5.5);

6.Dövlət maddi vəziyyətindənasılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirilməsinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır (mad.5.6);

7.Dövlət milli təhsil ənənələrinin qorunmasına, inkişafına və innovasiyaların tətbiqinə təminat verir (mad.5.7);

8.Dövlət xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihələr və proqramlar həyata keçirir (mad.5.8).

Yeni qəbul edilmiş "Təhsil haqqında" Qanun bu sahədə dövlət **standartlarını** açıqlayıb-fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini aks etdirən ümumi normalar məcmusudur (mad.6.1).

Dövlət təhsil standartları təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla müəyyən edilir (mad.6.2).

Bu standartlar və onların quvvədə olma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir (mad.6.3)

Dövlət təhsil standartları təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsilalanlarının bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir(mad.6.4).

Bütün təhsil müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkili təmin olunur(mad.6.5).

Təhsil müəssisəsinin fəaliyyətinin, təhsilin səviyyəsinin və təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində,akkreditasiyada və attestasiyada müvafiq dövlət təhsil standartları əsas götürülür(mad.6.6).

Sağlamlıq imkanlarıməhdud şəxslərin təhsili üçün xüsusi dövlət standartları müəyyən edilir(mad.6.7).

Azərbaycan Respublikasının təhsil müəssisələrində tədris dili dövlət dili-Azərbaycan dilidir(mad.7.1).

Vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, xüsusi hallarda (Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ya müvafiq icra hakimiyyəti orqanı ilə razılaşma əsasında) ümumi təhsil müəssisəsində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi və Azərbaycan coğrafiyası fənləri tədris olunmaqla tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə dəaparıla bilər (mad.7.2).

Azərbaycan dilini zəif bilən təhsilalanlar üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və təhsil proqramlarına uyğun hazırlıq sinifləri və kursları təşkil olunur (mad.7.3).

Təhsil sisteminin **quruluşuna** aşağıdakılar daxildir:

-bütün təhsil müəssisələri, təlim-tərbiyə prosesi ilə məşğul olan və təhsil xidmətləri göstərən digər qurumlar,təhsil fəaliyyətini və onun inkişafını təmin edən elmi tədqiqat institutları və informasiya mərkəzləri, layihə, istehsal,kliniki, ictimai iaşə, tibbi-profilaktik və əczaçılıq strukturları, idman, istirahət və sağlamlıq kompleksləri, kampuslar, mədəni-maarif müəssisələri və təşkilatları, kitabxanalar, yataqxanalar, düşərgələr və digər infrastruktur obyektləri;

-təhsili idarəetmə orqanları və onların tabeliyində fəaliyyət göstərən müəssisə və təşkilatlar;

-təhsil sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, assosiasiyalar, cəmiyyətlər, elmi-metodik şuralar və digər qurumlar.

Təhsil sisteminin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, bacarığa, praktiki hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, mütərəqqi dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmaq, soy kökünə, Azərbaycan xalqının azadlıq və demokratiya ənənələrinə bağlı olan, xalqının milli, əxlaqi, humanist,

mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnən, onları qoruyan və daim inkişaf etdirən, ailəsini, vətənini, millətini sevən və daim ucaltmağa çalışan, ümumbəşəri dəyərlərə yiyələnən, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünən, biliyinə, yüksək əxlaqi və mənəvi keyfiyyətlərinə, demokratikliyinə görə dünyanın ən qabaqcıl ölkələrinin vətəndaşları səviyyəsində dura bilən sağlam yurddaşlar yetişdirmək və bununla yüksək sivilizasiyalı cəmiyyət qurmağa, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan insan tərbiyə etməkdir.

Azərbaycan Respublikasında aşağıdakı təhsil formaları tətbiq olunur:
- formal;
-qeyri-formal;
-informal.

Formal təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikasında aşağıdakı təhsilalma formaları müəyyən edilir:
-əyani;
- qiyabi;
- distant (məsafədən);
- sərbəst (eksternat).

Azərbaycan Respublikasında müəyyən edilmiş təhsilalma formaları çərçivəsində evdə təhsil və fərdi təhsil təşkil oluna bilər.

Zəruri hallarda, müasir təhsil texnologiyalarından istifadə etməklə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada digər təhsilalma formaları da tətbiq edilə bilər.

Azərbaycan Respublikasında mülkiyyət növünə görə aşağıdakı təhsil müəssisələri fəaliyyət göstərir:
-dövlət;
-bələdiyyə;
-özəl.

Azərbaycan Respublikasında dövlət təhsil müəssisələri bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

Təhsil müəssisəsinin aşağıdakı tipləri və növləri müəyyən edilir:
- **məktəbəqədər** təhsil müəssisələri (körpələr evi, körpələr evi-uşaq bağçası, uşaq bağçası, xüsusi uşaq bağçası);
-**ümumi təhsil müəssisələri** (ibtidai, orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər və xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr);
- **məktəbdənkənar təhsil müəssisələri** (uşaq yaradıcılıq mərkəzləri, uşaq-gənclər idman məktəbləri, uşaq-gənclər şahmat məktəbləri, ekoloji tərbiyə və təcrübə mərkəzləri, texniki yaradıcılıq mərkəzləri, turizm və diyarşünaslıq mərkəzləri, məktəbdənkənar iş mərkəzləri, estetik tərbiyə və bədii yaradıcılıq mərkəzləri və s.);
- **ilk peşə-ixtisas təhsili müəssisələri** (peşə məktəbləri, peşə liseyləri);
- **orta ixtisas təhsili müəssisələri** (kolleclər);
- **ali təhsil müəssisələri** (universitetlər, akadem-lar, insti-lar və s.);

- **əlavə təhsil müəssisələri** (universitetlər, insti-lar, mərkəzlər və s.);
- təhsil fəaliyyətini həyata keçirən **digər müəssisələr**.

Müxtəlif tipli təhsil müəssisələri təhsil kompleksi və kampus formasında da fəaliyyət göstərə bilər.

Təhsil müəssisəsində təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir. Azərbaycan Respublikasında xüsusi təyinatlı təhsil (hərbi, milli təhlükəsizlik və digər) müvafiq təhsil müəssisələrində (Qanunun tələbləri nəzərə alınmaqla) dövlət hesabına həyata keçirilir.

Dövlət ali təhsil müəssisəsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səlahiyyətlər çərçivəsində muxtariyyət hüququ (statusu) verilə bilər. Muxtariyyət hüququna malik təhsil müəssisəsi qanunvericiliyə və öz nizamnaməsinə uyğun olaraq, tədris, elmi tədqiqat, kadr, maliyyə-təsərrüfat və digər fəaliyyəti həyata keçirməkdə sərbəstdir.

Təhsil müəssisəsinin yaradılması, yenidən təşkili və ləğvi qanunvericilikdə müəyyən edilmiş qaydada həyata keçirilir.

Dövlət bütün təhsil müəssisələrinin, o cümlədən özəl təhsil müəssisələrinin inkişafını qanunvericiliyə uyğun kreditlər vermək, qrantlar ayırmaq və dövlət təhsil müəssisələrinə güzəştlər tətbiq etməklə təmin edir.

Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi normativlərdən aşağı olmamalıdır.

Təhsil müəssisəsi hüquqi şəxsdir və müstəqil balansa malikdir; qanunvericiliyə və öz nizamnaməsinə uyğun olaraq ölkənin və xarici dövlətlərin ərazisində filiallar açmaq (dövlət təhsil müəssisəsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaq şərti ilə), habelə təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədi ilə ictimai təşkilatlarla təhsil birlikləri, assosiasiyaları və ittifaqları yaratmaq, eləcə də bu kimi təşkilatlara üzv olmaq hüququna malikdir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri qanunvericiliyə uyğun olaraq «Tələbə-məzun» dövlət elektron məlumat sisteminə qoşulmalıdır.

Təhsil müəssisəsinin təsisçisi (təsisçiləri) dövlət, bələdiyyələr, Azərbaycan Respublikasının və xarici dövlətlərin hüquqi şəxsləri, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ola bilərlər.

Təsisçiləri əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər olan təhsil müəssisələrinin professor-müəllim heyətinin azı 80 faizini Azərbaycan Respublikasının vətəndaşları təşkil etməlidir.

Təsisçinin məsuliyyəti, səlahiyyət dairəsi, təhsil müəssisəsi ilə qarşılıqlı öhdəlikləri Azərbaycan Respublikasının qanunvericiliyi, təsis müqaviləsi və təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Azərbaycan Respublikasında hər bir təhsil müəssisəsi təhsil fəaliyyəti göstərmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanından xüsusi razılıq (lisenziya) almalıdır. Dövlət təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) müddətsiz verilir. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən təsis edilmiş bələdiyyə və özəl təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) beş il müddətinə verilir. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) üç il müddətinə verilir.

Təhsil müəssisəsinin akkreditasiyası təhsil prosesinin təşkilinin, maddi-texniki

bazasının, təhsil proqramlarının, kadr potensialının, maliyyə resurslarının və təhsil infrastrukturunun qəbul olunmuş dövlət standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədi ilə aparılır və təhsil müəssisəsinin statusunun müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradır.

Təhsil müəssisəsinin akkreditasiyasını müvafiq icra hakimiyyəti orqanının müəyyən edilmiş qaydada yaratdığı dövlət akkreditasiya xidməti həyata keçirir. Akkreditasiya müvafiq keyfiyyət sənədinin – sertifikatın verilməsi ilə başa çatır.

Azərbaycan Respublikasında hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmış, fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmiş və akkreditasiya olunmuş təhsil müəssisəsinin fəaliyyətinə hüquqi təminat verilir.

Təhsilin pillələri və səviyyələri:

-Məktəbəqədər təhsil;
-Ümumi təhsil:
- ibtidai təhsil;
- ümumi orta təhsil;
- tam orta təhsil.
- İlk peşə-ixtisas təhsili;
-Orta ixtisas təhsili;
-Ali təhsil:
-bakalavriat;
-magistratura;
-doktorantura.

Təhsilin pillələri və səviyyələri arasında qarşılıqlı əlaqə və varislik təmin olunur. Hər bir təhsil pilləsi (məktəbəqədər təhsil istisna olmaqla) yekun qiymətləndirmənin və ya attestasiyanın nəticələrinə uyğun olaraq məzunlara dövlət nümunəli sənədin verilməsi ilə başa çatır.

Məktəbəqədər təhsil

Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.

Azərbaycan Respublikasında məktəbəqədər təhsil üç yaşdan başlayır.

Beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq zəruridir. Məktəbə hazırlığın təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Məktəbəqədər təhsil uşağın valideynlərinin və ya digər qanuni nümayəndələrinin arzusu ilə məktəbəqədər təhsil müəssisələrində, ümumtəhsil müəssisələrinin müvafiq strukturlarında və ya ailədə həyata keçirilə bilər.

Məktəbəqədər yaşlı uşaqları evdə tərbiyə edən ailələr üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq qaydada metodiki və diaqnostik məsləhət və əlaqələndirmə xidməti təşkil edilir.

Ümumi təhsil

Ümumi təhsil təhsilalanlara elmlərin ümumi əsaslarının öyrədilməsini, zəruri bilik, bacarıq və vərdişlərin aşılanmasını, onların həyata və əmək fəaliyyətinə hazırlanmasını təmin edir.

Ümumi təhsil təhsilalanların fiziki və intellektual inkişafina, zəruri biliklərə yiyələnməsinə, onlarda sağlam həyat tərzinə və sivil dəyərlərə əsaslanan vətəndaş təfəkkürünün formalaşmasına, milli və dünyəvi dəyərlərə hörmət hissinin aşılanmasına, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrinin müəyyən edilməsinə imkan yaradır.

Azərbaycan Respublikasında ümumi təhsil aşağıdakilardan ibarətdir:

-**ibtidai** təhsil,

-**ümumi orta** təhsil

-**tam orta** təhsildən.

Ümumi təhsil ümumtəhsil məktəblərində, xüsusi təmayüllü təhsil müəssisələrində, gimnaziyalarda, liseylərdə, ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrində, habelə ali təhsil müəssisələrinin tabeliyində yaradılan məktəblərdə həyata keçirilə bilər.

Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qızıl və ya gümüş medalla təltif olunurlar.

İbtidai təhsilin məqsədi təhsilalanlara oxumaq, yazmaq və hesablama bacarıqları aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.

Azərbaycan Respublikasında ibtidai təhsil altı yaşdan başlanır, xüsusi istedadlı uşaqlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada daha erkən yaşda qəbul edilə bilərlər.

Ümumi orta təhsilin məqsədi təhsilalanların şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkkürünün inkişafını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərinin formalaşdılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikasında ümumi orta təhsil icbaridir.

Ümumi orta təhsil səviyyəsində yekun qiymətləndirmə aparılır və təhsili başa vuran təhsilalanlara müvafiq dövlət sənədi verilir. Ümumi orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə və səviyyədə davam etdirilməsi üçün əsas sayılır.

Tam orta təhsil səviyyəsində təhsilalanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması, fəal vətəndaş mövqeyinin, milli və ümumbəşəri dəyərlərə, insan hüquqlarına və azadlıqlarına hörmət hissinin və tolerantlığın formalaşdırılması, müasir informasiya-kommunikasiya texnologiyalarından və digər texniki vasitələrdən sərbəst istifadə etməsi, iqtisadi biliklərin əsaslarına yiyələnməsi, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur.

Tam orta təhsil ümumi təhsilin hər üç səviyyəsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsini nəzərdə tutur. Dövlət təhsil müəssisələrində tam orta təhsil pulsuzdur.

Tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsi (humanitar, texniki, təbiət və

digər) təmin olunur.

Tam orta təhsil umumi təhsilin sonuncu səviyyəsini təşkil edir və bu səviyyədə təhsilalanların biliyinin qiymətləndirilməsinin yekun dövlət attestasiyası həyata keçirilir. Attestasiyanın nəticələrinə görə məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd – attestat verilir və təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır.

İlk peşə-ixtisas təhsili

İlk peşə-ixtisas təhsili əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif sənətlər və kütləvi peşələr üzrə ixtisaslı işçi kadrların hazırlanmasını təmin edir.

İlk peşə-ixtisas təhsili mülkiyyət formasından asılı olmayaraq peşə-ixtisas təhsili müəssisələrində və təhsil fəaliyyəti üçün xüsusi razılığı (lisenziyası) olan ayrı-ayrı təşkilatların, müəssisələrin, əmək birjalarının, məşğulluq idarələrinin və digər müvafiq qurumların təhsil strukturlarında həyata keçirilir və məzunlara müvafiq istiqamətlər üzrə ilk peşə dərəcələrinin verilməsi ilə başa çatır.

İlk peşə-ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında qəbul olunanlar peşə ixtisası ilə yanaşı, tam orta təhsil almaq hüququna malikdirlər.

Göstərilən bütün təhsil formaları müvafiq təhsil proqramları əsasında təşkil olunur.

Orta ixtisas təhsili

Orta ixtisas təhsili cəmiyyətin və əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında ayrı-ayrı fəaliyyət sahələri üçün müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsilli mütəxəssis hazırlığını təmin edir.

Orta ixtisas təhsili əsasən kolleclərdə və ali təhsil müəssisələrinin tabeliyində yaradılan müvafiq strukturlarda həyata keçirilir və subbakalavr ixtisas dərəcəsinin verilməsi ilə başa çatır. Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə daxil olanlar həm də tam orta təhsil alırlar.

Orta ixtisas təhsilini başa vuran məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd – diplom verilir; bu sənəd ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradır və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılır.

Orta ixtisas təhsili proqramlarının müvafiq ixtisaslar üzrə ali təhsil proqramlarına uyğunluğu təmin edilir və bu təhsil pilləsini yüksək nəticələrlə başa vuran məzunların – subbakalavrların topladıqları kreditlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində nəzərə alınır.

Ali təhsil

Ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığı həyata keçirilir.

Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssislər və elmi-pedaqoji kadrlar hazırlığı üç səviyyəlidir:

1. bakalavriat (tibb təhsili istisna olmaqla);
2. magistratura (tibb təhsili istisna olmaqla);

3. doktorantura.

Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə geniş profilli ali təhsilli mütəxəssislər hazırlanır. Bakalavriat təhsili başa çatmış ali təhsildir. Bakalavriatı bitirən məzunlara «bakalavr» ali peşə-ixtisas dərəcəsi verilir. Bakalavriat təhsili almış məzunların əmək fəaliyyəti sahəsi elmi tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət istisna olmaqla, bütün digər sahələri əhatə edir. Bakalavriat təhsilinin məzmunu və təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur və məzunlara peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir. Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Magistratura elmi-pedaqoji kadr potensialı, maddi-texniki bazası və təhsil infrastrukturu kifayət qədər yüksək olan ali təhsil müəssisələrində yaradıla bilər.

Tibb təhsili təhsil proqramlarına və dövlət təhsil standartlarına uyğun olaraq, əsas təhsilə və rezidenturaya ayrılır, məzunlara müvafiq olaraq həkim və həkim-mütəxəssis ali peşə-ixtisas dərəcələri verilir. Rezidentura təhsilinin məzmunu və təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Xüsusi qabiliyyət tələb edən və öz xüsusiyyətləri ilə fərqlənən mədəniyyət, musiqi, incəsənət, idman, memarlıq, dizayn və bu kimi digər sahələr üzrə magistr hazırlığı yalnız nəzəri hazırlıq və tədqiqat tələb edən sahələr üzrə həyata keçirilir. Bu ixtisasların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Doktorantura

Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

Doktorantura təhsili ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalarda (hərbi təhsil müəssisələrində adyunkturalarda) həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Elmi dərəcələr ali təhsil müəssisələrində və elmi təşkilatlarda fəaliyyət göstərən dissertasiya şuralarının vəsatəti əsasında qanunvericiliyə uyğun olaraq verilir.

Azərbaycan Respublikasında aşağıdakı elmi dərəcələr müəyyən edilir:

1. Fəlsəfə doktoru – elm sahələri göstərilməklə;
2. Elmlər doktoru – elm sahələri göstərilməklə.

Doktoranturaların yaradılması, doktoranturaya qəbul və elmi dərəcələrin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ali təhsil müəssisələrinin və elmi təşkilatların doktoranturalarına əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, habelə ali təhsil müəssisəsi ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxs arasında ödənişli əsaslarla bağlanan müqavilə əsasında həyata keçirilir.

Doktoranturada təhsilini başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə müəyyən edilmiş qaydada həmin elmi dərəcəni təsdiq edən vahid formada dövlət nümunəli sənəd – diplom verilir.

Ali təhsil müəssisəsində, elmi və digər təşkilatlarda çalışan elmi-pedaqoji kadrlara elmi dərəcələrin verilməsi dissertantlıq yolu ilə də reallaşdırılır. Ali təhsil müəssisələrinin müvafiq kafedralarına və elmi tədqiqat müəssisələrinə dissertantların təhkim olunması və elmi dərəcələrin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ali təhsil müəssisələrinin kadrlarına elmi və pedaqoji fəaliyyət sahəsində əldə etdikləri nəticələrə görə müəyyən edilmiş qaydada elmi adlar verilir. Azərbaycan Respublikasında aşağıdakı elmi adlar müəyyən edilir:

1. dosent;
2. professor.

Dosent və professor elmi adlarının verilməsi qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikasında ali təhsil müəssisəsinin fəxri professor (doktor) adı vermək hüququ vardır. Fəxri professor (doktor) adının verilməsi qaydaları və şərtləri ali təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Əlavə təhsil

Əlavə təhsil fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifəsini daşıyır.

Azərbaycan Respublikasında əlavə təhsil aşağıdakı istiqamətləri əhatə edir:

1. ixtisasartırma;
2. kadrların yenidən hazırlanması;
3. stajkeçmə və kadrların təkmilləşdirilməsi;
4. təkrar ali təhsil və orta ixtisas təhsili;
5. dərəcələrin yüksəldilməsi;
6. yaşlıların təhsili.

Əlavə təhsil ixtisasartırma və yenidənhazırlanma qurumlarında, peşə-ixtisas təhsili müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə həyata keçirilir.

Müvafiq təhsil proqramları əsasında əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq sənəd verilir. İxtisasartırma kurslarını bitirmiş şəxslər barəsində stimullaşdırıcı tədbirlər tətbiq edilir.

Təhsil sistemində **elmi araşdırmalar**

Təhsil sistemində elmi araşdırmalar təhsili idarəetmə orqanları tabeliyində fəaliyyət göstərən elmi tədqiqat strukturlarında, ali təhsil müəssisələrində və onların müvafiq qurumlarında və ya bölmələrində (elmi tədqiqat institutları, mərkəzlər, kafedralar, laboratoriyalar və s.) aparılır.

Təhsil sistemində aparılan elmi tədqiqat işləri fundamental və tətbiqi xarakter daşıyır.

Təhsil sistemində elmi araşdırmalar dövlət büdcəsinin vəsaitləri, qrantlar, müxtəlif fondların vəsaitləri, təhsil müəssisəsinin büdcədənkənar vəsaitləri, habelə sifarişlər əsasında daxil olan vəsaitlər hesabına həyata keçirilir.

Təhsilin inkişaf problemləri ilə bağlı elmi araşdırmalar innovasiya xarakteri daşımaqla, təhsil tarixinin öyrənilməsinə, təhsilin təşkilinin və idarə olunmasının təkmilləşdirilməsinə, tədris prosesinin müasir metodlarla qurulmasına, tədrisin yeni texnologiyalarının və digər istiqamətlər üzrə pedaqoji innovasiyaların hazırlanmasına və tətbiqinə yönəldilir.

Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun ümumi qaydaları

Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin ixtisası və təhsil müəssisəsini sərbəst seçimi əsasında, bu Qanunun 26.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, müsabiqə yolu ilə həyata keçirilir.

Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

Hər bir təhsilalan, valideyn və ya digər qanuni nümayəndə ali və orta ixtisas təhsili müəssisəsində tədris prosesini tənzimləyən aşağıdakı hüquqi sənədlərlə tanış ola bilər:

1. təhsil müəssisəsinin nizamnaməsi;
2. təhsil sahəsində fəaliyyət üçün xüsusi razılıq (lisenziya);
3. təhsil müəssisəsinin dövlət akkreditasiyası haqqında sənəd.

Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu zamanı abituriyentlərin əvvəlki təhsil pilləsində əldə etdikləri nailiyyətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada nəzərə alınır.

Dünya fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qalibləri müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar. Bu olimpiadaların, beynəlxalq müsabiqələrin və yarışların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ali təhsil müəssisələrinin magistraturalarına bakalavrların və digər ali təhsilli şəxslərin qəbulu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

Təhsil haqqında dövlət sənədi

Azərbaycan Respublikasında təhsil fəaliyyəti üçün xüsusi razılığı (lisenziyası) olan və dövlət akkreditasiyasından keçmiş təhsil müəssisəsində təhsilin hər hansı pilləsini və səviyyəsini bitirən şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq təhsil haqqında dövlət sənədi verilir.

Təhsil haqqında dövlət sənədi növbəti pillədə və səviyyədə təhsili davam etdirmək və ya ixtisas üzrə əmək fəaliyyətinə başlamaq üçün əsas sayılır.

Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada arayış verilir.

Xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin tanınması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

Təhsil sahəsində **dövlətin vəzifələri**

Təhsil sahəsində **dövlətin vəzifələri** aşağıdakılardır:

-təhsil sahəsində vahid dövlət siyasətini müəyyənləşdirmək və onun həyata keçirilməsini təmin etmək;

-milli təhsil sisteminin inkişaf konsepsiyasını və əsas prioritetlərini müəyyən etmək;

-milli təhsil sisteminin inkişafı üçün müxtəlif istiqamətli dövlət proqramlarını təsdiq etmək və onların icrasına nəzarəti həyata keçirmək;

-kadr hazırlığının prioritetlərini və istiqamətlərini, yüksək dərəcəli elmi-pedaqoji kadr hazırlığı proqramlarını müəyyən etmək;

-təhsil sahəsində dövlət siyasətinin və dövlət proqramlarının həyata keçirilməsinin monitorinqini aparmaq;

-milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını, beynəlxalq standartlara cavab verən təhsil şəraitinin və mühitinin yaradılmasını təmin etmək;

-təhsil sahəsinin inkişafına ayrılan dövlət büdcəsi vəsaitlərinin həcmini və dövlət təhsil qrantlarının məbləğini müəyyən etmək və dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsini həyata keçirmək;

-hər büdcə ili üzrə dövlət təhsil sisteminin maliyyələşdirilməsi məqsədilə hər bir təhsilalana (şagirdə, tələbəyə, doktoranta və s.) düşən təhsil xərclərinin miqdarını və maliyyə normativlərini müəyyən etmək;

-ilk peşə-ixtisas, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planını müəyyənləşdirmək;

-müəyyən edilmiş qaydada abituriyentlərin biliyinin qiymətləndirilməsini həyata keçirmək;

«Tələbə-məzun» dövlət elektron məlumat sistemini yaratmaq və ondan istifadəni təmin etmək;

-təhsil pillələri üzrə dövlət təhsil standartlarını və proqramlarını (kurikulumları) təsdiq etmək və təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarəti həyata keçirmək;

-dövlət təhsil müəssisələrinin rəhbərlərini qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin etmək və vəzifədən azad etmək;

-dövlət təhsil müəssisəsində çalışan professor-müəllim heyəti üçün akademik və inzibati vəzifə tutmanın yaş həddini müəyyən etmək;

-təhsil səviyyəsinə uyğun olaraq təhsil müəssisələrinin nümunəvi nizamnamələrini təsdiq etmək;

-dövlət təhsil müəssisələrinin nizamnaməsini təsdiq etmək, bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəy vermək;

-təhsil prosesinin təşkilinə dair ümumi tələbləri müəyyən etmək;

-təhsil sahəsində dövlətlərarası, regional və beynəlxalq inkişaf proqramlarının həyata keçirilməsini təmin etmək;

-təhsil sahəsində vahid statistik məlumat sisteminin yaradılmasını təmin etmək;
-təhsil haqqında dövlət sənədlərinin nümunələrini və onların verilməsi qaydalarını təsdiq etmək;
-xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydalarını müəyyən etmək, ixtisasların tanınmasını və nostrifikasiyanı həyata keçirmək;
-təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarını müəyyən etmək;
-təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normaları təsdiq etmək, ümumi sanitariya-gigiyena tələblərini, şagird yerləri ilə təminat normativlərini müəyyənləşdirmək;
-təhsil müəssisəsinin fəaliyyətinə xüsusi razılıq (lisenziya) vermək və onu ləğv etmək;
-ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil üzrə ixtisasların təsnifatını təsdiq etmək;
-təhsil müəssisələrinə elmi-metodik rəhbərliyi və nəzarəti həyata keçirmək;
-təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək;
-təhsil müəssisələrinin akkreditasiyası qaydalarını müəyyən etmək və akkreditasiyasını həyata keçirmək;
-təhsil müəssisələrində təhsilverənlərin və təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydalarını müəyyən etmək və attestasiyanı həyata keçirmək;
-təhsili idarəetmə orqanlarının, təhsil müəssisələrinin, təhsillə bağlı ictimai birliklərin və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsini təşkil etmək;
-təhsil müəssisələrində aparılan elmi araşdırmaları əlaqələndirmək;
-təhsil sisteminin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar qəbul etmək, onları dəyişdirmək və ləğv etmək;
-təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin hazırlanmasını, təsdiqlənməsini və nəşrini təmin etmək;
-elmi dərəcələrin və elmi adların verilməsi qaydalarını və şərtlərini müəyyən etmək;
-dövlət təhsil müəssisələri işçilərinin əməyinin stimullaşdırılmasını, o cümlədən mükafatlandırılmasını həyata keçirmək, xüsusi istedadı ilə fərqlənən təhsilalanlar üçün adlı və məqsədli təqaüdlər təsis etmək;
-dövlət təhsil müəssisələrinin tədris, elmi, elmi-metodik, informasiya-kommunikasiya texnologiyaları və digər texniki vasitələrlə təminatını həyata keçirmək;
-baza tədris planlarını və proqramlarını təsdiq etmək;
-mütəxəssis-kadrlara, o cümlədən pedaqoji kadrlara olan real tələbatı müəyyənləşdirmək və onların iş yerləri ilə təmin olunmasını tənzimləmək;
-icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət etmək;
-dövlət təhsil müəssisələrində pulsuz tibbi xidməti təmin etmək;
-valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş yetkinlik yaşına çatmayan uşaqların qəyyumluğa (himayəyə) götürülməsini, internat tipli dövlət müəssisələrinə göndərilməsini təşkil etmək, qəyyumların və himayəçilərin öz funksiyalarını yerinə yetirməsinə nəzarət etmək, sağlamlıq imkanları məhdud uşaqların müvafiq olaraq xüsusi təhsil və sosial müdafiə müəssisələrinə göndərilməsini təmin etmək;
-təhsil sahəsində planlaşdırma, proqnozlaşdırma, əlaqələndirmə, təminat, təchizat və qiymətləndirməni təmin etmək.

Təhsil müəssisəsinin idarə olunması

Təhsil müəssisəsi aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsasında bu Qanuna, digər normativ hüquqi aktlara və öz nizamnaməsinə uyğun idarə edilir.

Dövlət təhsil müəssisəsinə rəhbərliyi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin edilmiş dövlət təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir. Dövlət təhsil müəssisəsinin ali idarəetmə orqanı elmi və pedaqoji şuralardır. Elmi və pedaqoji şuraların yaradılması və fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş əsasnaməyə və təhsil müəssisəsinin nizamnaməsinə əsasən müəyyən edilir.

Bələdiyyə təhsil müəssisəsinə rəhbərliyi bələdiyyə tərəfindən təyin edilmiş bələdiyyə təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir.

Özəl təhsil müəssisəsinə rəhbərliyi həmin təhsil müəssisəsinin təsisçilər (himayəçilər, qəyyumlar) şurası tərəfindən təyin edilmiş özəl təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir.

Təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51%-dən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin müavini Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Göstərilən təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır. Həmin təhsil müəssisəsinin dövlət qeydiyyatına alınması təhsil müəssisəsi rəhbərinin və onun müavininin namizədliyi razılaşdırıldıqdan sonra həyata keçirilə bilər.

Təhsil müəssisəsinin idarə olunmasının demokratikliyini və şəffaflığını təmin etmək məqsədi ilə təhsil müəssisəsində idarə və özünüidarə orqanları (ümumi yığıncaq, himayəçilər, elmi, elmi-metodiki, pedaqoji, məktəb, valideynlər, təhsilalanlar, qəyyumlar şuraları və s.) yaradıla bilər. Bu qurumların yaradılması qaydaları və səlahiyyətləri təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Təhsil müəssisəsinə rəhbərlik həmin müəssisənin statusuna uyğun olaraq rektor, direktor, müdir tərəfindən təhsil müəssisəsinin nizamnaməsinə uyğun həyata keçirilir.

Dövlət təhsil müəssisəsində akademik və inzibati vəzifələrin tutulmasının yaş həddi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Bu yaş həddinə çatan pedaqoji işçilərin akademik və inzibati vəzifə tutmamaq şərti ilə, təhsil müəssisəsinin tədris və elmi fəaliyyətində tam iştirak etmək hüququ təmin edilir.

Təhsil müəssisəsinin idarə edilməsi ilə bağlı məsələlərə təhsili idarəetmə orqanları istisna olmaqla, dövlət və yerli özünüidarəetmə orqanlarının və digər təşkilatların müdaxiləsinə yol verilmir.

Təhsil prosesinin iştirakçıları

Təhsil prosesinin iştirakçıları aşağıdakılardır:

-təhsilalanlar – uşaqlar, şagirdlər, tələbələr, kursantlar, müdavimlər, magistrantlar, doktorantlar və başqaları;

-təhsilverənlər (pedaqoji işçilər) – müəllimlər, assistentlər, məsləhətçilər, tyutorlar, tərbiyəçilər, müəllim köməkçiləri, tərbiyəçi köməkçiləri, çağırışaqədərki hazırlıq rəhbərləri,

defektoloqlar, loqopedlər, istehsalat təlimi ustaları, praktik psixoloqlar, sosioloq-pedaqoqlar, məktəb uşaq birliklərinin rəhbərləri, metodistlər, təhsil müəssisəsinin dərnək və musiqi rəhbərləri, təhsil müəssisəsinin elmi işçiləri, bilavasitə pedaqoji proseslə məşğul olan mühəndis-texniki, tədris-köməkçi işçilər, dayələr, təlimatçılar, təhsil müəssisəsinin kitabxanaçıları, nəşriyyat-redaksiya işçiləri, təhsili idarəetmə orqanlarının aparıcı struktur bölmələrinin əməkdaşları, təhsil müəssisələrinin və orqanlarının təlim-tərbiyə işi ilə məşğul olan rəhbərləri, təhsil müəssisəsində çalışan konsertmeystrlər və məşqçilər, sosial müdafiə, səhiyyə və digər orqanların bilavasitə pedaqoji fəaliyyətlə məşğul olan işçiləri;

-valideynlər və ya digər qanuni nümayəndələr;

-təhsili idarəetmə orqanları və bələdiyyələr;

-təlim-tərbiyə prosesində iştirak edən digər fiziki və hüquqi şəxslər.

Təhsilalanların hüquq və vəzifələri

Təhsilalanların hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyasına, Təhsil haqqında Qanuna və digər normativ hüquqi aktlara, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun müəyyən edilir.

Bütün təhsil müəssisələrinin təhsilalanları və məzunları bərabər hüquqlara malikdirlər.

Təhsilalanların **hüquqları** aşağıdakılardır:

-qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq;

-təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;

-dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

-müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını və sinifdənkənar məşğuliyyəti seçmək;

-ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;

-təhsil müəssisəsinin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, kitabxanalardan və s.) istifadə etmək;

-müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;

-elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;

-fasiləsiz təhsil almaq;

-sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

-insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

-müəyyən edilmiş qaydada təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq;

-müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

-dövlət orta peşə-ixtisas təhsili pilləsində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq yalnız bir dəfə pulsuz təhsil almaq;

-dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;

-təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

-təhsil müəssisəsinin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin,

dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;

-elmi-praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;

-qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Təhsil müəssisəsində qanuvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, təhsilalanların təhsil prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir.

Təhsilalanların **vəzifələri** aşağıdakılardır:

-dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

-pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

-təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;

-dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

-təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;

-qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Təhsilverənlərin **hüquq** və **vəzifələri**

Təhsilverənlərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası, Təhsil haqqında Qanun və digər normativ hüquqi aktlar, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, təhsil müəssisəsinin nizamnaməsi və daxili intizam qaydaları, eləcə də işəgötürənlərlə təhsilverənlər arasında bağlanılan əmək müqavilələri ilə tənzimlənir.

Təhsilverənlərin hüquqları aşağıdakılardır:

-normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;

-təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək;

-tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;

-şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

-təhsil müəssisəsində vəzifə tutmaq və müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;

-ixtisasını artırmaq, yeni ixtisas almaq, staj keçmək, ixtisas və elmi dərəcəsini yüksəltmək;

-müəyyən edilmiş hallarda və qaydada mükafatlandırılmaq və təltif olunmaq;

-təhsil müəssisəsində uzun müddət qüsursuz çalışan və onun elmi-pedaqoji həyatında mühüm xidmətləri olan professorlara aylıq əmək haqqı və əlavələr, digər güzəştlər və imtiyazlar saxlanılmaqla, akademik və inzibati vəzifədən azad olunmaq şərti ilə məsləhətçi-professor vəzifəsini tutmaq;

-qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Təhsilverənlərin vəzifələri aşağıdakılardır:

-təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

-təhsil proqramlarının mənimsənilməsini təmin etmək;

-təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;

-şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

-pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;

-təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;

-uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;

-ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər, sinifdənkənar və məktəbdənkənar tədbirlər keçirmək;

-qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyadan keçmək;

-qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri

Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində **hüquqları** aşağıdakılardır:

-yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək;

-təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;

-təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;

-təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək;

-qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində **vəzifələri** aşağıdakılardır:

-övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;

-övladlarını (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək;

-qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Təhsilalanların sosial müdafiəsi

Dövlət ümumi təhsil müəssisələrində təhsilalanlar dərsliklərlə müəyyən edilmiş qaydada dövlət hesabına təmin olunurlar.

Dövlət ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində təhsilalanların

fəaliyyətini stimullaşdırmaq məqsədi ilə onlara qanunvericiliklə müəyyən edilmiş qaydada təqaüdlər, o cümlədən adlı təqaüdlər verilir və yardımlar göstərilir.

Təhsilalanlar üçün qanunvericiliyə uyğun olaraq digər sosial müdafiə tədbirləri də tətbiq edilə bilər.

Özəl təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi müəssisənin nizamnaməsi ilə tənzimlənir.

Təhsilverənlərin sosial müdafiəsi

Dövlət təhsilverənlərin sosial müdafiəsinə təminat verir. Təhsil işçilərinin əmək haqqı və vəzifə (tarif) maaşları işçilərin funksional öhdəlikləri, peşə xüsusiyyətləri, ixtisas dərəcəsi və iş stajı nəzərə alınaraq təyin edilir.

Dövlət və bələdiyyə təhsil müəssisəsi öz sərəncamında olan büdcədənkənar vəsaitlər hesabına işçilərin əmək haqqına əlavələr və digər stimullaşdırıcı ödənişlər təyin edə bilər.

Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum, ciddi tərbiyə şəraitinə ehtiyacı olan uşaqlar üçün xüsusi təhsil müəssisələrinin, istedadlı uşaqlar üçün təhsil müəssisələrinin, eləcə də yüksək dağlıq və sərhədyanı ərazilərdə, ucqar yaşayış məntəqələrində çalışan təhsil işçilərinin əmək haqlarına və vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada əlavələr olunur.

Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Təhsilverənlərə qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil və yaradıcılıq məzuniyyətləri verilir.

Təhsil sistemində **mülkiyyət münasibətləri**

Təhsil müəssisəsinin əmlakı dövlət, bələdiyyə, təsisçilər, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən, eləcə də qanunvericiliklə qadağan olunmayan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

Təhsil müəssisəsi təsisçi tərəfindən torpaq sahəsi, bina və qurğular, avadanlıq, təhsil, istehsal, sosial, mədəni, tibb, iaşə və idman obyektləri, maddi-texniki baza və digər əmlakla təmin edilir.

Təhsil müəssisəsi mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. Təhsil müəssisəsinin əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti təsisçi və ya onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

Dövlət təhsil müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və genişləndirilməsi dövlət büdcəsinin vəsaitləri və büdcədənkənar vəsaitlər hesabına həyata keçirilir.

Təhsil müəssisəsi göstərdiyi xidmətlər (tədris, elmi tədqiqat, məsləhət-konsaltinq,

müalicə-profilaktik və digər xidmətlər) nəticəsində daşınar və daşınmaz əmlak, o cümlədən bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri və s. əldə edə bilər.

Dövlət mülkiyyətində olan təhsil müəssisəsinin (məktəbəqədər təhsil müəssisələri istisna olunmaqla) özəlləşdirilməsi qadağandır.

Dövlət təhsil müəssisəsinin büdcədənkənar mənbələrdən daxil olan vəsaitlər hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir.

Dövlət təhsil müəssisəsinin istifadəsinə verilmiş əmlakın geri qaytarılması qanunvericiliklə tənzimlənir.

Təhsil müəssisəsinin müflis elan edilməsi müvafiq qanunvericiliyə uyğun həyata keçirilir.

Təhsil müəssisəsinin **maliyyələşdirilməsi**

Dövlət təhsilin inkişafına dövlət büdcəsindən və digər mənbələrdən vəsaitlər ayırır.

Təhsil müəssisəsi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hüquqi və fiziki şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir.

Dövlət ali və orta ixtisas təhsili müəssisələrinin əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilə bilər.

Dövlət təhsil müəssisəsinin maliyyələşdirilməsi təhsilin hər pilləsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər təhsil müəssisəsinin tipinə, növünə və kateqoriyasına uyğun olaraq hər bir təhsilalana düşən məsrəf məbləği nəzərə alınmaqla müəyyən edilir.

Zəruri hallarda müvafiq icra hakimiyyəti orqanının qərarı ilə azkomplektli dövlət ümumi təhsil müəssisələri mövcud normativlərdən üstün maliyyələşdirilə bilər.

Dövlət təhsil müəssisəsi nizamnaməsinə uyğun olaraq, ödənişli təhsildən əldə olunan və diğər büdcədənkənar vəsaitlərin xərclənməsi istiqamətlərini və işçilərin maddi həvəsləndirilməsinə ayırmaların xüsusi çəkisini sərbəst müəyyən edir, təhsilverənlərə və təhsilalanlara maddi yardımlar göstərir.

Dövlət təhsil müəssisəsinin inkişafına, təhsilalanların təhsil haqlarının və təhsillə bağlı xərclərinin ödənilməsinə uzunmüddətli və fərdi kreditlər verilməsini, elmi tədqiqat işlərinin aparılması, doktorantura proqramlarının maliyyələşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və digər məqsədlər üçün müvafiq qaydada qrantlar ayrılmasını təmin edir. Kreditlərin və qrantların verilməsi qaydaları və şərtləri müvafiq qanunvericilik aktları ilə müəyyən edilir. Dövlət təhsil və elmi tədqiqat qrantları təhsil müəssisəsinin digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə yönəldilə bilməz.

Dövlət təhsil sahəsinə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi məqsədi ilə əlverişli investisiya mühitinin yaradılmasını təmin edir və bu məqsədlə sərmayəçilərə qanunvericiliklə müəyyən edilmiş qaydada güzəştlər verilir.

Təhsil sisteminə xarici investisiya qoyuluşu qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Dövlət və bələdiyyə təhsil müəssisələrinin maliyyələşdirilməsi mənbələri

Dövlət və bələdiyyə təhsil müəssisələri aşağıdakı mənbələrdən maliyyələşdirilir:
-qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinin və yerli büdcənin vəsaitləri;
-ödənişli təhsildən daxil olan vəsaitlər;
-hüquqi və fiziki şəxslərin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları;
-müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları;
-təhsil müəssisəsinin təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdiyi vəsaitlər;
-hüquqi və fiziki şəxslərin müqavilə əsasında mütəxəssis hazırlığı, ixtisasartırma və kadrların yenidən hazırlanması üçün ayırdıqları vəsait;
-dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;
-təhsil müəssisəsinin mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;
-təhsil müəssisəsinin beynəxalq əməkdaşlıq nəticəsində qanunvericiliyə uyğun olaraq əldə etdiyi qrantlar və vəsaitlər;
-qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

Özəl təhsil müəssisəsinin maliyyələşdirilməsi

Özəl təhsil müəssisəsi aşağıdakı **mənbələrdən maliyyələşdirilir**:
-təhsil xidmətlərinə görə əldə etdiyi vəsaitlər;
-təsisçilərin (himayəçilərin) vəsaitləri;
-qanunvericiliyə uyğun olaraq aldıqları qrantların və kreditlərin məbləğləri;
-hüquqi və fiziki şəxslərin ianələri, yardımları, vəsiyyət etdikləri əmlak və bağışladıqları hədiyyələr;
-təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdikləri vəsaitlər;
-qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına əldə olunan vəsaitlər.
Özəl təhsil müəssisəsi öz maliyyə vəsaitlərini sərbəst idarə edir.
Özəl təhsil müəssisəsi təhsil haqqının məbləğini hər bir təhsil pilləsi üzrə təhsil proqramlarına uyğun olaraq sərbəst müəyyən edir.
Özəl təhsil müəssisəsi ilə təhsilalanlar, valideynlər və ya digər qanuni nümayəndələr arasında münasibətlər müqavilə ilə tənzimlənir.

Təhsil müəssisəsinin **sahibkarlıq fəaliyyəti**

Təhsil müəssisəsi əlavə gəlir əldə etmək məqsədi ilə nizamnaməsində nəzərdə tutulmuş

qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər.

Təhsil müəssisəsi sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlərdən sərbəst istifadə etmək hüququna malikdir. Dövlət təhsil müəssisəsinin sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlər bilavasitə təhsilin inkişafına və işçilərin sosial müdafiəsinə yönəldilir.

Təhsil müəssisəsi sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxslər yarada bilər və ya başqa hüquqi şəxslərin fəaliyyətində iştirak edə bilər.

Keyfiyyətsiz təhsilə görə vurulan zərərin ödənilməsi

Təhsil müəssisəsində təhsilin dövlət təhsil standartlarına uyğun təşkil olunmaması nəticəsində təhsilalanların keyfiyyətsiz hazırlığı müəyyən edildiyi halda vurulmuş zərərin, o cümlədən təhsilalanların başqa təhsil müəssisələrində yenidən hazırlanması üçün zəruri olan xərclərin həmin təhsil müəssisəsi tərəfindən ödənilməsi barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhkəmədə iddia qaldırıla bilər. Bu iddia yalnız akkreditasiya olunmuş təhsil müəssisəsi barədə akkreditasiya xidməti tərəfindən verilən mənfi rəyə əsasən qaldırıla bilər.

Təhsil sahəsində **beynəlxalq əlaqələr**

Təhsil sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

Təhsil müəssisəsi qanunvericiliyə və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq xarici ölkələrin elm və təhsil müəssisələri, təşkilatları, beynəlxalq qurumlar və fondlarla birbaşa əlaqələr yarada, əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli müqavilələr bağlaya, təhsil sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlarına (ittifaqlar, birliklər, assosiasiyalar və s.) daxil ola və əməkdaşlığın digər formalarını həyata keçirə bilər.

Təhsil müəssisəsi beynəlxalq səviyyəli birgə elm və təhsil layihələrinin hazırlanması, fundamental elmi tədqiqat və layihə-konstruktor işlərinin, elmi-praktik konfransların, simpoziumların keçirilməsi, tələbələrin, magistrlərin, doktorantların, müəllimlərin və elmi işçilərin mübadiləsi, iddia sənədi, patent və ya onlarla bağlı hüquqların özgəninkiləşdirilməsi və bu qəbildən olan digər fəaliyyətlə müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada müstəqil məşğul olmaq hüququna malikdir.

Təhsil müəssisəsinin (xüsusi təyinatlı təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinin keyfiyyətini yüksəltmək və beynəlxalq əlaqələrini genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktlarının tələblərini gözləməklə müstəqil olaraq xarici tərəfdaşlarla birlikdə ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələri (mərkəzlər, filiallar, laboratoriyalar, texnoparklar və s.) yaratmaq hüququ vardır.

Təhsil müəssisəsinin birbaşa beynəlxalq əməkdaşlıq müqavilələrinə dövlət tərəfindən zəmanət verilmir.

Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil almaq hüququ

Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsilin hər hansı pilləsində təhsil alması və ya ixtisas artırması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, dövlət tərəfindən müəyyən edilmiş kvota və təhsil müəssisəsinin, hüquqi və fiziki şəxslərin birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir.

Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması qaydaları, xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativ hüquqi aktlarla tənzimlənir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan hallar istisna olmaqla, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ yoxdur.

Yeni qəbul edilmiş Tıhsil haqqında Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək verilmiş elmlər namizədi alimlik dərəcəsi müvafiq sahə üzrə fəlsəfə doktoru dərəcəsinə bərabər tutulur və aspiranturada təhsil alan şəxs doktorant statusu əldə edir.

Azərbaycan Respublikası hökuməti, Təhsil Nazirliyi, habelə yerli təhsil orqanları təhsil sistemini idarə edən başlıca subyektlərdir.

Nazirlər Kabineti təhsilin strategiyasını müəyyənləşdirir. Bu məqsədlə Nazirlər Kabineti aşağıdakı kimi tədbirləri həyata keçirir:

- Təhsil Qanununun, bu barədə müvafiq qanunvericilik aktlarının və sənədlərin icrasına nəzarət edir;
- təhsil sisteminin idarə olunmasının təşkilat strukturunu müəyyən edir;
- təhsilin mərkəzi dövlət idarə strukturlarını yaradır və onlara rəhbərlik edir;
- dövlət idarəçiliyində olan peşə-ixtisas təhsil müəssisələrini yaradır, yenidən təşkil edir və ləğv edir;
- peşə-ixtisas təhsili müəssisələri üçün ixtisasların siyahısını təsdiq edir, sosial sifarişdən asılı olaraq belə ixtisasları açır və bağlayır;
-dövlət təhsil standartlarını təsdiq edir, təhsil barədə qəbul olunan sənədlərin həmin standartlara müvafiq olmasına nəzarət edir;
-təhsil müəssisələri, onların attestasiyası, akkreditasiyası və lisenziyalaşdırılması barədə dünya standartına müvafiq olan əsasnamələri təsdiq edir;
-təhsilin inkişafına dair dövlət, həmçinin beynəlxalq proqramlar hazırlayıb həyata keçirir;
-təhsilin maliyyələşdirirlməsi üçün milli gəlirdən pay ayrılması, təhsillə bağlı respublika büdcəsinin, təhsilin inkişaf fondlarının formalaşdırılması barədə təkliflər verir; təhsilin maliyyələşdirilməsinin dövlət normativlərini, təhsil sistemi işçilərinin əmək haqqının ödənilməsi qaydasını, əmək haqqı minimumunu, güzəşt və imtiyazları, tələbələrin təqaüdlə təmin olunmasının, digər kateqoriyalardan olan pedaqoci işçilərin, təhsil və tərbiyə alanların sosial müdafiəsinin norma və qaydalarını müəyyən edir;
- təhsilin inkişafını stimullaşdıran vergi siyasəti yeridir;
-yüksək ixtisaslı mütəxəssislərin attestasiyasının təşkil olunmasına rəhbərlik edir;

- təhsil sistemi işçiləri üçün fəxri adlar və mükafatların təsis olunması barədə məsələ qaldırır.

Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 1993-cü il tarixli 747 №-li Fərmanı ilə Təhsil Nazirliyi yaradılmışdır.

Təhsil Nazirliyi təhsil sisteminin mərkəzi idarə orqanı olmaqla təhsil sahəsində vahid dövlət siyasəti hazırlanmasında iştirak edir və onun həyata keçirilməsini təmin edir; təhsil qanunvericiliyinin icrasına və təhsilin dövlət standartlarına riayət edilməsinə nəzarət edir; təhsil sistemi üçün informasiya xidməti təşkil edir; təhsil müəssisələrinin və orqanlarının normal fəaliyyətini təmin etməyə qadir olan sadə tənzimləmə, əlaqələndirmə, elmi-metodiki informasiya təminatı yaradır; təhsil sisteminə elmi rəhbərliyi və bu sahədə proqnozlaşdırmanı təmin edir; mülkiyyət formasından asılı olmayaraq təhsil qanunvericiliyinin icrasına nəzarət edir;

- təhsil müəssisələri, maarif orqanları haqqında nümunəvi əsasnamələrin və digər sənədlərin hazırlanmasını təmin edir, elmi-pedaqoci kadrların attestasiyasının keçirilməsi və nizamnamələrin qeydiyyata alınması qaydalarını təsdiqləyir; mülkiyyət formasından asılı olmayaraq, təhsil müəssisələri üçün nümunəvi əsasnamələrin, baza təhsil planının, proqramların, dərsliklərin, dərs vəsaitlərinin və tədris metodiki materialların hazırlanmasını və nəşrini təşkil edir, təlim-tərbiyə müəssisələrinə tədris-metodiki və informasiya köməkliyi göstərir; təhsil müəssisələri və idarələrinin maliyyələşdirilməsini və maddi-texniki təchizatının müvafiq normalarını müəyyən edir; səlahiyyətinə müvafiq olaraq təhsil müəssisələrini yaradır, yenidən təşkil və ləğv edir; tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq təhsil müəssisələrinin yaradılması, yenidən təşkil və ləğv edilməsi barədə rəy və ya təkliflər verir; qanunvericilikdə nəzərdə tutulmuş qaydada yaradılan bütün təhsil müəssisələrinə lisenziya verir.

Təhsil Nazirliyi mərkəzi icra hakimiyyəti orqanı olub təhsil sahəsində vahid dövlət siyasətini həyata keçirir. Nazirliyin əsas vəzifələrinə aşağıda göstərilənlər aiddir:

- ali təhsilin inkişaf strategiyasının formalaşdırılması və həyata keçirilməsi;
- təhsil müəssisələrinin vahid sisteminin yaradılması;
- ali təhsil sisteminin fəaliyyətinin iqtisadi mexanizminin təkmilləşdirilməsi;
- tədris prosesinin və elmi tədqiqatların, maddi-texniki və eksperimental istehsalat bazasının inkişaf etdirilməsi;
- ali təhsil sahəsində beynəlxalq əməkdaşlığın təşkili və inkişaf etdirilməsi və s.

Təhsil Nazirliyinin ali təhsil sahəsində məqsədi dövlət və beynəlxalq proqramlar işləyib hazırlamaq və həyata keçirməkdən; orta və ali peşə təhsili sistemində kadr hazırlığına müvafiq ixtisasların (peşələrin) və istiqamətlərin siyahısını müəyyənləşdirməkdən; müvafiq dövlət standartlarının komponentlərini işləyib hazırlamaqdan və müxtəlif səviyyəli peşə təhsili proqramlarının məzmununu və mütəxəssislərin hazırlığının keyfiyyəti üçün tələbləri müəyyənləşdirməkdən ibarətdir.

Yerli təhsil müəssisələrini idarə etmək üçün Təhsil Nazirliyinin yerli orqanları-təhsil şöbələri yaradılır. Yerli təhsil şöbələrinin fəaliyyəti aşağıdakı istiqamətlərə yönəldilir:

- səlahiyyətləri daxilində dövlətin təhsil siyasətini həyata keçirmək;
- təhsil qanunvericiliyinin pozulmasına yol verməmək;
- tədris-tərbiyə müəssisələrinin elmi-metodiki təminatının təşkili;
- təhsil işçilərinin peşə hazırlığının təkmilləşdirilməsi və onların yenidən hazırlanması;

- pedaqoci kollektivlər, istehsal müəssisələri, ailə və ictimaiyyətin uşaqların təlim-tərbiyəsi sahəsində fəaliyyətini əlaqələndirmək;

- yerli tələbatı müəyyənləşdirmək əsasında pedaqoci kadrlar, həmçinin müxtəlif kateqoriyalardan olan mütəxəssislər yetişdirmək barədə dövlətə sifarişlər hazırlamaq, bu barədə müvafiq müqavilələr bağlamaq; təhsilin səviyyəsinə, təhsil işçilərinin peşə hazırlığına və yerli əhəmiyyətə malik olan tədris-tərbiyə müəssisələrinin attestasiyasına olan dövlət tələblərinin yerinə yetirilməsinə nəzarət.

Yerli təhsil orqanları Təhsil Nazirliyinə tabedirlər. Yerli dövlət idarə orqanları öz səlahiyyətləri çərçivəsində dövlətin təhsil siyasətinin həyata keçirilməsində iştirak edirlər. Yerli dövlət idarə orqanlarının səlahiyyətinə daxildir:

- yerli büdcə hesabına maliyyələşdirmə normativlərini müəyyən etmək;

- ərazilərində yerləşən tədris-tərbiyə müəssisələrini maliyyələşdirmək;

- bölgənin xüsusiyyətləri, perspektivləri və sosial-iqtisadi inkişafını nəzərə almaqla təhsilin inkişafı qayğısına qalmaq, maddi bazasını möhkəmləndirmək, təsərrüfat təchizatını təmin etmək;

- təhsil işçiləri və təhsil alanların sosial müdafiəsini təmin etmək;

- könüllü ayırmalar hesabına təhsil fondu yaratmaq;

- məktəb-yaşlı uşaqların qeydiyyatını və təhsil almasını təmin etmək; valideyn himayəsindən məhrum olmuş və yetim qalmış yetkinlik yaşına çatmamış uşaqların himayəyə götürülməsini təmin etmək;

- yaşayış yerlərində uşaqların tərbiyəsi, qabiliyyətlərinin inkişafı və maraqlarının təmin olunması üçün zəruri şərait yaratmaq;

- kənd yerlərində, zəruri hallarda uşaqların təhsil müəssisəsinə nəqliyyata pulsuz aparılıb-gətirilməsini təmin etmək;

- müvafiq tədris-tərbiyə müəssisələrinin açılması, ləğv olunması və yenidən təşkil edilməsi barədə məsələ qaldırmaq.

Yerli dövlət idarə orqanları təhsil müəssisələrinin idarə olunması ilə əlaqədar məsələlərə müdaxilə etmirlər.

Təhsil sistemində ictimai özünüidarə orqanları aşağıdakılardır:

- təlim-tərbiyə müəssisəsinin ümumi yığıncağı (konfransı);

- təlim-tərbiyə müəssisəsinin şurası;

- təhsil işçilərinin rayon, şəhər təhsil şuraları;

- təhsil işçilərinin respublika qurultayı;

- Azərbaycan Respublikasının Təhsil Şurası.

İctimai özünüidarə orqanları təhsil müəssisələrinin təlim-tərbiyə, elmi-tədqiqat, metodika, maliyyə-təsərrüfat, kommersiya-iqtisadi, kadr fəaliyyətinin müxtəlif məsələlərinin həllinə yönəlmiş səmərəli təkliflər verir, bununla idarəçilikdə iştirak edirlər.

Təhsil müəssisələrinin professor-müəllim heyətinin ümumi dərs stavkası 450-500 saatdır və onların 1,5 stavka həcmində dərs aparmasına müstəsna hallarda yol verilir.

Beləliklə, birinci suala yekun olaraq göstərmək olar ki, təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin fəaliyyətinin mühüm bir sahəsidir. Digər tərəfdən isə təhsil sahəsində idarəetməyə ümumi və bilavasitə həyata keçirən müvafiq orqanlar və onların fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktlar barədə hüquqi biliklər əldə etmiş oldunuz.

Ən nəhayət bu sualın açıqlanmasında təlim-tərbiyə prosesinin iştirakçıları, onların vəzifələri və hüquqları, təhsil müəssisələrinin və təşkilatlarının beynəlxalq əməkdaşları barədə hüquqi biliklər əldə etmiş oldunuz.

SUAL 2. Ali təhsil müəssisələrinin hüquqi Vəziyyətləri, növləri və onların fəaliyyətinin rəhbərliyin həyata keçirilməsi qaydası.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 30 mart tarixli 72 saylı qərarı ilə təsdiq edilmiş Ali təhsil müəssisəsi haqqında Əsasnaməyə əsasən Azəraycan Respublikasında Dövlət ali təhsil müəssisəsi ali və orta ixtisas təhsili proqramlarını həyata keçirən hüquqi şəxs statusuna malik tədris müəssisəsidir.

Ali təhsil müəssisəsi Azərbaycan Respublikasının Təhsil Qanununa, ona müvafiq olaraq Azərbaycan Respublikasında qəbul olunmuş digər qanunvericilik aktlarına, bu əsasnaməyə və özünün Nizamnaməsinə uyğun fəaliyyət göstərir.

Ali təhsil müəssisəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada yaradılır, qeydiyyata alınır, yenidən təşkil olunur və ləğv edilir. Təşkilatlar hüquq formasına görə dövlət və qeyri-dövlət ali təhsil müəssisələri yarada bilərlər. Dövlət orqanları, Azərbaycan və xarici ölkələrin dövlət və qeyri-dövlət müəssisələri, təşkilatları, cəmiyyətləri, idarələri, habelə Azərbaycan və xarici ölkə vətəndaşları ali təhsil müəssisəsinin təsisçisi ola bilərlər. Qeyri-dövlət ali təhsil müəssisələri maarifçilik, xeyriyyəçilik niyyəti ilə yaradılır və şəxsi qazanc məqsədi güdmür. Təsisçilərlə təhsil müəssisələri arasında münasibətlər təhsil qanunvericiliyinə müvafiq müqavilələr əsasında qurulur.

Ali təhsil müəssisəsi təhsil, tərbiyə, elm və mədəniyyət mərkəzi kimi aşağıdakı vəzifələri yerinə yetirir:

- hər bir şəxsin intellektual, mədəni və mənəvi inkişafı, ali təhsil alma və ixtisasartırma tələblərinin ödənilməsi;
- təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkil edilməsi;
- elmi araşdırmalar aparılması;
- çoxpilləli ali məktəblərdə yüksək ixtisaslı elmi-pedaqoci, elmi kadrlar hazırlanması;
- elmi-pedaqoci və elmi kadrların attestasiyasının keçirilməsi;
- ixtisasartırma və kadrların yenidən ixtisaslaşmasının təmin edilməsi;
- mədəni-maarifçilik, nəşriyyat, maliyyə-iqtisadi, təsərrüfat, elmi-istehsalat, təhsil sahəsi ilə bağlı kommersiya fəaliyyətinin və xarici əlaqələrin təmin edilməsi.

Ali təhsil müəssisəsinin filialları, fakültələri, hazırlıq şöbələri, kafedraları, elmi-tədqiqat laboratoriyaları, aspiranturası (yeni təhsil strukturlarına keçid müddətində) doktoranturası, əlavə ixtisas təhsili üçün tədris bölmələri, təcrübə təsərrüfatları, tədris teatrları və digər bölmələri ola bilər.

Ali təhsil müəssisəsi tərkibində və onun nəzdində bilavasitə profilinə uyğun istehsalat və digər xarakterli (elm, tədris, təlim-tərbiyə və s.) müəssisə, təşkilat və idarələr fəaliyyət göstərə bilər.

Ali təhsil müəssisəsinin struktur bölmələrinin (filiallardan başqa) yaradılması, dəyişdirilməsi və ləğv edilməsi ali təhsil müəssisəsinin nizamnaməsinə müvafiq özü tərəfindən aparılır və bu halda təsisçiyə məlumat verilir.

Ali təhsil müəssisəsi nəzdində müxtəlif pillədən olan tədris müəssisələrinin (orta məktəblər, litseylər, peşə litseyləri, texnikumlar, kolleclər və s.) elmi-tədqiqat mərkəzləri və institutların yaradılması, yenidən təşkili və ləğv edilməsi Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalara əsasən həyata keçirilir. İstehsalat müəssisələrinin, klinikalarının, əczaxanaların və s. yaradılması, yenidən təşkili və ləğv olunması ilə müəssisələr haqqında Qanuna müvafiq olaraq həyata keçirilir.

Ali təhsil müəssisəsi öz işini müstəqil surətdə planlaşdırmaq, təlim-tərbiyə, elmi-tədqiqat, metodik, maliyyə-təsərrüfat, iqtisadi-kommersiya və s. məsələləri sərbəst surətdə həll etmək, təlimin forma və metodlarını müəyyən etmək, müəssisəni kadrlarla komplektləşdirmək, o cümlədən başqa dövlətlərin vətəndaşlarını işə qəbul etmək, müəyyən olunmuş əmək haqqı fondu çərçivəsində müəssisəsinin quruluşu və ştat cədvəlini təsdiq etmək, maliyyələşdirmənin müxtəlif növlərindən sərbəst istifadə etmək, tədris-tərbiyə müəssisəsində iaşə üzərində ictimai nəzarəti həyata keçirmək hüququna malikdir.

Təhsil müəssisələri öz aralarında sazişlər bağlamaq, elmi, istehsalat və digər müəssisə, təşkilat və idarələrin iştirak etdiyi tədris-tərbiyə komplekslərində birləşmək və tədris elmi-istehsalat birlikləri (assosiasiyaları) yaratmaq, ərazi tədris istehsalat birlikləri və assosiasiyalarına daxil olmaq hüququna malikdirlər. Belə kompleks və birliklərə daxil olan təhsil və digər müəssisələrin funksiyaları, strukturları, hüquqları onların nizamnamələri ilə müəyyən olunur. Hüquqi şəxs statusuna malik tərkib hissəsi olan təhsil müəssisəsi vahid təhsil müəssissəsi kimi fəaliyyət göstərir.

Ali ixtisas təhsilini aşağıdakı təhsil müəssisələri həyata keçirirlər:

- ali kolleclər;
- institutlar;
- konservatoriyalar;
- akademiyalar,
- universitetlər və s;

Universitet ali təhsil müəssisəsidir, fəaliyyəti ali təhsil və ondan sonrakı təhsil mərhələsində elmin, texnikanın və mədəniyyətin təbiət, humanitar və başqa istiqamətlərində fundamental elmi tədqiqat işlərinə yönəlir. Universitet təhsilin və mədəniyyətin aparıcı inkişaf mərkəzi olmaqla əhali arasında elmi biliklərin yayılmasına və mədəni-maarif işlərinin həyata keçirilməsinə kömək edir;

Akademiya ali təhsil müəssisəsidir, fəaliyyəti ali təhsil və ondan sonrakı təhsil mərhələsində elmin, texnikanın və mədəniyyətin əsasən bir sahəsinin inkişafına yönəlir. Akademiya öz fəaliyyət dairəsində aparıcı elmi və metodik mərkəzdir. Müəyyən sahə üçün geniş miqyasda yüksək ixtisaslı mütəxəssislər hazırlayır və rəhbər mütəxəssislərin yenidən hazırlanmasını həyata keçirir;

İnstitut müstəqil ali təhsil müəssisəsi kimi fəaliyyət göstərməklə elmin, texnikanın və bir sıra istiqamətləri üzrə təhsil proqramlarını yerinə yetirir və elmi tədqiqatları həyata keçirir;

Ali kollec müstəqil ali təhsil müəssisəsi kimi tam və yaxud natamam ali təhsil proqramlarını yerinə yetirir;

Konservatoriya ixtisaslaşmış ali təhsil müəssisəsidir, fəaliyyəti ali təhsil və ondan sonrakı mərhələsində musiqinin, sənətin və mədəniyyətin inkişaf mərkəzi olmaqla əhali arasında mədəni-maarif işlərinin həyata keçirilməsinə kömək edir.

Dövlət ali təhsil müəssisəsinin, rəsmi adına onun yaradıcılığı və yaxud yenidən təşkil olunduğu vaxt verilir və lazım gəldikdə təsisçinin təklifi ilə respublika Nazirlər Kabineti tərəfindən dəyişdirilə bilər.

Dövlət ali təhsil müəssisələrində vətəndaşlar pulsuz təhsil almaq hüququna malkidirlər, həmin tədris müəssisələrində əlavə pullu təhsil qrupları da yaradıla bilər. Qeyri-dövlət ali təhsil müəssisələrində vətəndaşlar ödənişli və ödənişsiz təhsil ala bilərlər. Həmin müəssisələrdə ödəniş haqqının miqdarı onların rəhbərliyi tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikasında ali məktəblərə qəbul dövlət tərəfindən müəyyən olunmuş qaydada həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabineti və Təhsil Nazirliyi ali təhsil sistemini idarə edən başlıca subyektlərdir. Yerli dövlət idarə orqanları öz səlahiyyətləri çərçivəsində ərazilərində yerləşən ali təhsil müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirməkdə, təsərrüfat təchizatını təmin etməkdə iştirak edə bilərlər.

Yerli dövlət idarə orqanları ali təhsil müəssisələrinin idarə olunması ilə əlaqədar məsələlərə müdaxilə etmirlər.

Dövlət ali təhsil müəssisələri təhsil qanunvericiliyinə, xüsusi normativ aktlara və bu əsasnaməyə müvafiq olan nizamnamə əsasında idarə olunur.

Qeyri-dövlət ali məktəblərinin idarə olunması respublikanın təhsil qanunvericiliyinə, müəssisə haqqında qanuna, xüsusi normativ aktlara və bu əsasnaməyə müvafiq nizamnamə əsasında həyata keçirilir. Bu ali məktəblərin təsisçiləri təhsilin dövlət standartlarına müvafiq qurulmasına məsuliyyət daşıyırlar. Ali məktəbin fəaliyyəti nəticəsində əldə edilən gəlirdən təhsil müəssisəsinin daha da inkişaf etdirilməsi məqsədi ilə istifadə olunur, təhsilin maddi-texniki bazası genişləndirilir və müasirləşdirilir, təlim stimullaşdırılır, təkmilləşdirilir, elmi araşdırmalar, təhsil alanların və müəllimlərin sosial- iqtisadi mənafeləri daha dolğun təmin edilir, ali məktəblərin xarici ölkələrlə əlaqələri genişləndirilir. Əldə olunan gəlirdən şəxsi qazanc məqsədi ilə istifadə olunmasına icazə verilmir.

Ali təhsil müəssisəsinin Nizamnaməsi onun ali orqanında (Elmi Şurasında) qəbul olunur və təsisçi tərəfindən təsdiq edildikdən sonra Təhsil Nazirliyində qeydiyyata alınır.

Ali təhsil müəsissəsinə ümumi rəhbərliyi həmin müəssisənin rektorunun sədr olduğu və müəyyən olunmuş qaydada yaradılmış seçkili orqan - Elmi Şura həyata keçirir. Elmi Şuranın tərkibinin seçilmə qaydası, onun hüquq və vəzifələri Təhsil Nazirliyi tərəfindən dövlət ali təhsil müəssisələri üçün təsdiq edilmiş vahid əsasnamədə müəyyən olunur.

Ali təhsil müəssisəsinin fəaliyyətinə bilavasitə rəhbərlik rektor (prezident) tərəfindən edilir. Rektor (prezident) Təhsil Nazirliyinin təsdiq etdiyi nümunəvi qaydaları özündə əks etdirən ali təhsil müəssisəsinin nizamnaməsinə müvafiq olaraq 5 il müddətinə (iki müddətdən artıq olmayaraq) seçilir və özünü doğrultmadığı halda geri çağrılır.

Rektorla müəssisənin Elmi Şurası arasında səlahiyyətlərin bölünməsi Elmi Şuralar haqqında Əsasnamə və ali təhsil müəssisəsinin Nizamnaməsi ilə müəyyən olunur.

Rektor öz səlahiyyətlərinin bəzilərinin icrasını prorektorlara və ali məktəbin digər rəhbər işçilərinə verə bilər. O, özünün bu haqda qərarını əmrlə rəsmiləşdirir, müəssisənin Elmi Şurasında elan edir və təsisçiyə bildirir.

Fakültəyə mövcud qaydada elmi dərəcəsi və elmi adı, kifayət qədər elmi-pedaqoci stac və səriştəsi, yüksək səviyyəli elmi nailiyyətləri, göstəriciləri olan və həmin fakültədə

hazırlanan ixtisaslar (və ya ixtisas) sahəsində mütəxəssis sayılan əməkdaşlar sırasından seçilmiş dekan başçılıq edir.

Kafedraya Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada seçilmiş və ya təyin olunmuş müdir başçılıq edir. Kafedranın işi Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş Əsasnamə və ali məktəbin Nizamnaməsinin müvafiq tələbləri əsasında qurulur

Ali təhsil müəssisəsində təhsil qanunvericiliyini pozanlar qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

Ali təhsil müəssisəsi tərəfindən Azərbaycan Respublikası qanunvericiliyi və müəssisə Nizamnaməsi tələblərinin icra edilməsinə bilavasitə nəzarəti səlahiyyəti çərçivəsində Təhsil Nazirliyi həyata keçirir.

Tədris planlarını yerinə yetirmədikdə, təhsil Qanununu, əsasnaməni və oxuduğu ali təhsil müəssisəsinin nizamnaməsində nəzərdə tutulan qaydaları pozduqda, tələbələrə xəbərdarlıq, töhmət, şiddətli töhmət, məktəbdən xaric olunma kimi intizam təsir ölçüləri tətbiq edilə bilər.

Ali təhsil müəssisəsində təhsil qanunvericiliyinin icrasına və təhsilin dövlət standartlarına riayət edilməsinə, təhsil müəssisələrinin və orqanlarının normal fəaliyyətinin təmin olunmasına, elmi-pedaqoci kadrların attestasiyasının keçiril-məsinə, baza təhsil planlarının, proqramlarının, dərsliklərin, dərs vəsaitlərinin və tədris metodiki materialların hazırlanmasına Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzarət edir.

Ali təhsil müəssisəsi tərəfindən Azərbaycan Respublikası qanunvericiiyinə, müəssisə Nizamnaməsi tələblərinin icra edilməsinə, təhsil və maliyyə-təsərrüfat fəaliyyətinə bilavasitə nəzarəti öz səlahiyyəti çərçivəsində Təhsil Nazirliyi və təsisçi həyata keçirir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli 792 saylı əmri ilə Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə təsdiq edilmişdir.

Ali təhsil müəssisəsinə ümumi rəhbərlik mövcud qaydada təşkil olunmuş və rektorun başçılıq etdiyi Elmi Şura tərəfindən həyata keçirilir. Elmi Şuranın səlahiyyət müddəti 3 ildir. Elmi Şuranın vaxtından əvvəl yenidən yaranması onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə həyata keçirilə bilər.

Tutduqları vəzifələrinə görə Elmi Şuranın tərkibinə ali təhsil müəssisəsinin rektoru (sədr), tədris işləri üzrə prorektoru (sədr müavini), prorektorlar, elmi katib, dekanlar, ali təhsil müəssisəsinin tərkibində fəaliyyət göstərən elmi-tədqiqat institutlarının direktorları, həmkarlar təşkilatının sədrləri (əməkdaşların və tələbələrin), şöbə müdirləri və Tələbə Elmi Cəmiyyətinin sədri daxil olur. Elmi Şuranın digər üzvləri ali təhsil müəssisəsinin professor-müəllim və elmi işçilərinin ümumi sayının 3-10 %-i təşkil edir. Bu miqdar rektor tərəfinən professor-müəllim və eli işçilərin sayından asılı olaraq müəyyənləşdirilir. Elmi Şuraya namizədlər hər bir fakültənin professor-müəllim və elmi işçilərin ümumi iclasında gizli səsvermə yolu ilə seçilir. Bundan əlavə Elmi Şuranın tərkibinin 10 %-ə qədər ali təhsil müəssisəsinin başçısı- rektoru tərəfindən ümumi saya əlavə olaraq təyin edilə bilər (ali təhsil müəssisəsinin daxilindən). Professor-müəllim elmi işçilərin ümumi sayının 2/3 hissəsi iştirak etdikdə iclas səlahiyyətli sayılır. Fakültəyə ayrılan yerlərə iştirakçıların 50 %-dən artıq daha çox səs toplayanlar Elmi Şuraya üzv seçilmiş hesab edilirlər. Hər hansı bir əməkdaş şura üzvlüyündən çıxdığı halda boşalan yeri həmin fakültənin (bölmənin) nümayəndəsi mövcud qaydada vaxtından əvvəl seçki keçirməklə tuta bilər.

Elmi Şura təhsil müəssisəsinin tabe olduğu orqanın göstərişinə əsasən yaradılır və tərkibi onun tərəfindən təsdiq edilir.

Ali Təhsil müəssisəsinin Elmi Şurası aşağıdakı kimi məsələlərə baxır və müvafiq tədbirlər həyata keçirir:

- Ali Təhsil Müəssisəsinin Nizamnaməsini qəbul edir, onda əlavələr və dəyişikliklər aparır, tələbələrin, müəllimlərin, əməkdaşların, aspirant, doktorant və dinləyicilərin daxili intizam qaydalarını təsdiq edir;
- ali təhsil müəssisəsinin inkişaf proqramını təsdiq edir;
- hər il ali məktəbin fəaliyyəti barəsində rektorun hesabatını dinləyir;
- mütəxəssislərin, elmi-pedaqoci kadrların hazırlanması, onların ixtisaslarının artırılması və yenidən hazırlanması məsələlərinə baxır, bütün təlim-tərbiyə və elmi-tədqiqat işləri ilə bağlı məsələləri həll edir;
- Elmi Şuranın üzvləri içərisindən Şuranın katibini seçir, təhsil və elm, sosial-iqtisadi və təsərrüfat fəaliyyətləri üzrə komissiyalar yaradır. Onların hesabatlarını dinləyir və müvafiq qərar qəbul edir;
- Şuranın işini təşkil etmək, iclasları hazırlamaq və qərarların həyata keçirilməsinə nəzarət etmək məqsədilə Şura üzvləri içərisindən elmi katib seçir;
- fakültələrin, kafedraların və ali təhsil müəssisələrinin digər struktur bölmələrinin yaradılması, ləğvi, yenidən təşkili barəsində məsələləri həll edir;
- vaxtaşırı fakültələrin tədris, elmi-tədqiqat və tərbiyə işləri haqqında hesabatını dinləyir;
- professor və dosent elmi adlarının, eləcə də respublikanın fəxri ad və mükafatlarının, orden və medallarının verilməsinə təqdim edir;
- kafedra müdirlərini, professorları, baş elmi işçiləri seçir və onların vaxtından əvvəl tutduqları vəzifələrindən azad olunmaları məsələlərinə baxır;
- müstəsna hallarda - fakültə Elmi Şuraları olmadıqda və münaqişələr yarandıqda rektorun qərarı ilə fakültə dekanlarını, dosent, baş müəllim və assisentləri, elmi işçiləri seçir və onların vaxtından əvvəl azad olunmaları barəsində məsələlərə baxır.

Elmi Şura tədris ili və hər semestr üçün nəzərdə tutulmuş iş planı üzrə işləyir. Elmi Şuranın iş planı Şura iclasında müzakirə olunub qəbul edilir və rektor tərəfindən təsdiq edilir.

Tədris, elmi və tərbiyə işlərinin bütün məsələləri üzrə Elmi Şuranın qərarları açıq səsvermədə sadə səs çoxluğu ilə, professor-müəllim heyətinin, kafedra müdirlərinin, fakültə dekanlarının seçilməsi və geri çağırılması, professor, dosent və fəxri adların verilməsinə təqdimat zamanı isə müəyyən olunmuş qaydada gizli səsvermə yolu ilə qəbul edilir.

Elmi Şuranın qərar çıxarması üçün onun üzvlərinin ən azı 2/3 hissəsinin iştirakı vacibdir. Elmi Şurada iştirak edənlərin ümumi sayının 50 %-dən çoxu müzakirə olunan məsələnin leyhinə səs verərsə qərar qəbul olunmuş hesab edilir.

Elmi Şuranın qərarları yalnız ali məktəbin rektoru tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.

Elmi Şuranın iclasları protokollaşdırılır, Elmi Şuranın sədri və elmi katibi tərəfindən imzalanır və elmi katibdə saxlanılır.

Elmi Şuranın sədri Şuranın qərarlarının icrasının müntəzəm yoxlanılmasını təşkil edir və Şuranın üzvlərinə qəbul olunmuş qərarların yerinə yetirilməsi barəsində məlumat verir.

Əsas səbəblər olduqda- Elmi şuranın qəbul etdiyi qərarın obyektiv olmadığı, qanunvericiliyə zidd olduğu müəyyənləşdirildikdə ali məktəbin Elmi Şurasının qərarı həmin ali məktəbin tabe olduğu mərkəzi idarəetmə orqanı tərəfindən ləğv oluna bilər.

Beləliklə, ikinci suala nəticə olaraq göstərmək olar ki, Azərbaycan Respublikasında ali təhsil müəssisələri ali və orta ixtisas təhsili proqramlarını həyata keçirən hüquqi şəxs statusuna malik olan təhsil müəssisələridir. Digər tərəfdən isə sualın açıqlanması prosesində ali təhsil müəssisələrinin ali kolleclər, institutlar, konservatoriyalar, akademiyalar, universitetlər və s. kimi növləri və onların fəaliyyətinə rəhbərliyin həyata keçirilməsi formaları haqqında hüquqi biliklər əldə etmiş oldunuz.

Ən nəhayət ali təhsil müəssisələrinin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirən ali təhsil müəssisələrinin Elmi Şurasının aparıcı rolu barədə hüquqi biliklər əldə etmiş oldunuz.

SUAL 3. POLIS AKADEMIYASI - DÖVLƏT ALI TƏHSIL MÜƏSSISƏSI KIMI.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası (bundan sonra Akademiya) Azərbaycan Respublikası Prezidentin 23 may 1992-ci il tarixli 782 saylı Fərmanına və Nazirlər Kabinetinin 9 iyun 1992-ci il tarixli 321 saylı qərarına əsasən yaradılmış, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin birbaşa tabeçiliyində olan dövlət ali təhsil-elm müəssisəsidir.

DİN-in 02 sentyabr 1997-ci il tarixli 324 №-li əmri ilə Polis Akademiyasının Nizamnaməsi təsdiq edilmişdir. Polis Akademiyasında tədris prosesinin təkmilləşdirilməsi tədbirlərinə dair DİN 05 dekabr 2001-ci il tarixli 470 № -li əmrini vermişdir.

Akademiya hüquqi şəxsdir. Müəyyən olunmuş qaydada ona təqdim edilmiş bayrağa və üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə malikdir. O, Respublika DİN, həmçinin onun razılığı ilə müqavilə əsasında başqa nazirliklər, təşkilatlar, eləcə də digər dövlətlər üçün ali hüquq təhsilli kadrlar hazırlayır.

Polis Akademiyasında tədris əyani və qiyabi formalarda həyata keçirilir. Akademiya birinci dərəcəli ali təhsil ocağıdır, öz fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını, Prezidentin fərmanlarını, Nazirlər Kabinetinin qərarlarını, Daxili İşlər və Təhsil Nazirliklərinin normativ aktlarını və Polis Akademiyasının Nizamnaməsini rəhbər tutur.

Akademiya öz fəaliyyətini Azərbaycan Respublikası DİN-in tabeçiliyində olan orqan və hissələrlə, həmçinin kadrları hazırlanan başqa nazirliklər, təşkilatlar, eləcə də dövlətlərin müvafiq orqanları ilə sıx əməkdaşlıq şəraitində həyata keçirir.

Akademiyanın qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

- daxili işlər orqanlarının ali hüquq təhsilli mütəxəssislərə olan tələbatını ödəmək;
- müdavim və dinləyicilərə hüquqi və mənəvi tərbiyəni, yüksək intizamı, icraçılıq, mənəvi mətinlik və fiziki dözümlülük xüsusiyyətlərini aşılamaq;
- Akademiyada hazırlanmış mütəxəssislərin ixtisasına uyğun olaraq daxili işlər orqanları fəaliyyətinin aktual problemləri üzrə tədqiqat işlərini təşkil etmək və aparmaq, əldə edilmiş nəticələri daxili işlər orqanlarının iş təcrübəsinə və tədris prosesinə tətbiq etmək;
- daxili işlər orqanları əməkdaşları ilə ixtisasartırma kursları keçirmək;
- dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, mühazirələr, elmi əsərlər, məcmuələr, konfrans materialları, məlumat bületenləri hazırlamaq və nəşr etmək;
- elmi informasiya fəaliyyətini həyata keçirmək;

- hüquqi təbliğat, daxili işlər orqanlarının şəxsi heyəti və əhali arasında elmi-nəzəri bilikəri yaymaq.

Akademiyada kargüzarlıq, Daxili İşlər və Təhsil Nazirliklərinin normativ aktları ilə müəyyən edilmiş qaydada aparılır.

Akademiyanın strukturu və şəxsi heyətinin sayı Azərbaycan Respublikası daxili işlər nazirinin əmri ilə müəyyən edilir.

Kadrların hazırlanmasına zəruri tələbat nəzərə alınmaqla Akademiyanın strukturu aşağıdakılardan ibarət ola bilər:

- filiallar;
- fakultələr;
- kafedralar;
- şöbələr;
- elmi-tədqiqat laboratoriyaları;
- kitabxanalar;
- təlim-sınaq meydanları;
- müdavim və dinləyicilər üçün tədris-təlim bölmələri;
- mətbəə;
- elm və hesablama mərkəzləri;
- dəftərxana;
- tibb xidməti;
- mədəni-məişət təyinatlı bölmələr və s.

Filial, Akademiyanın struktur bölməsi olub, daxili işlər orqanlarının tələbatına uyğun ixtisaslar üzrə mütəxəssislər hazırlayır.

Fakultə, Akademiyanın tədris-elmi bölməsi olaraq, bir və ya bir neçə oxşar ixtisas üzrə tədrisi, kadrların ixtisaslarının artırılmasını və yeni ixtisas hazırlığını təmin edir. Fakültədə ayrı-ayrı ixtisaslar və tədris formaları üzrə bölmələr yaradıla bilər.

Tədris-məsləhət məntəqəsi Akademiyanın struktur bölməsi kimi tədris işində dinləyicilərə yardım göstərmək məqsədilə təşkil edilir.

Kafedra, Akademiyanın tədris-metodik, tərbiyə və elmi struktur bölməsidir. Kafedra, azı beş elmi-pedaqoci işçi olduqda təşkil edilir. Kafedranın başlıca vəzifələri bir və ya bir neçə oxşar fənlər üzrə tədris və metodiki işin yüksək elmi səviyyədə təşkil edilməsindən və aparılmasından, müdavim və dinləyicilərlə tərbiyəvi işin, həmçinin kafedranın profili üzrə elmi-tədqiqat işlərinin aparılmasından ibarətdir.

Tədris-metodiki şöbə, kafedraların və şöbələrin fəaliyyətini əlaqələndirir, tədris prosesini planlaşdırır və ona nəzarət edir, tədris-təlim prosesinin təkmilləşdirilməsi üçün tədbirlər görür.

Elmi şöbə, Akademiyanın struktur bölmələrinin elmi-tədqiqat işini planlaşdırır, əlaqələndirir, ona nəzarəti həyata keçirir və redaksiya-nəşriyyat fəaliyyətini təmin edir.

Akademiyanın elmi bölmələri (elmi-tədqiqat laboratoriyaları, şöbələri, qrupları) daxili işlər orqanlarının fəaliyyətində aktual problemlərin tədqiq edilməsi və mütəxəssislərin hazırlığının təkmilləşdirilməsi məqsədilə yaradılır.

Akademiyada onun işini təmin edən başqa strukturlar: kadr, təsərrüfat, maliyyə-plan, maddi-texniki təchizat və s. bölmələr fəaliyyət göstərir.

Fakultə, kurs, müdavim və dinləyicilərin tədris qrupu Akademiyanın tədris-sıra bölmələridir.

Filiallar, fakultələr, şöbələr, tədris-məsləhət məntəqələri, kafedralar öz fəaliyyətlərini Polis Akademiyasının Nizamnaməsinə uyğun təşkil edirlər.

Akademiyanın kitabxanaları öz işini kitabxanaçılıq işi haqqında Əsasnaməyə müvafiq təşkil edir. Yayılması məhdudlaşdırılmış ədəbiyyatdan istifadə qaydaları DİN-in normativ aktları ilə müəyyən edilir.

Akademiyanın daimi heyətinə aşağıdakılar aiddir:

- rəhbər heyət, professor-müəllim və elmi heyət, kadr şöbəsinin işçiləri, yardımçı-təlim, inzibati-təsərrüfat və ştatla təsdiq edilmiş digər heyət.

Akademiyada professor-müəllim heyəti, elmi heyət və yardımçı təlim heyətinin ştat vəzifələrinə kafedra rəisi, professor, baş müəllim, müəllim, baş elmi əməkdaş, fənn kabineti rəisi və digər vəzifələr aiddir.

Akademiya əməkdaşlarının funksional vəzifələri DİN-in normativ aktlarına, Polis Akademiyasının Nizamnaməsinə uyğun olaraq müəyyənləşdirilir və Akademiyanın rəisi tərəfindən təsdiq edilir.

Şəxsi heyətin təlim-tərbiyə prosesi ilə bağlı olmayan tədbirlərə cəlb edilməsinə ancaq Azərbaycan Respublikası Daxili İşlər Nazirinin razılığı ilə yol verilir.

Kurs rəisləri və onların müavinləri müdavimlərin bilavasitə rəisləridir. Onlar müdavimlərin tərbiyəsi, intizamının və tədris işinin vəziyyəti, nizamnamələrin tələblərini bilmələri və bunlara ciddi əməl etmələri, bölmələrdə daxili qaydanın saxlanması, daxili intizam qaydalarına dəqiq əməl edilməsi, bölmənin istifadəsində olan əmlakın qorunması və vəziyyəti üçün cavabdehdirlər.

Kurs rəisləri və onların müavinləri vəzifələri ştatları daxili işlər orqanlarında xidmət təcrübəsinə malik və Akademiyada işləməyə meyli olan ali təhsilli əməkdaşlarla komplektləşdirilir.

Kurs rəislərinin hüquqları daxili işlər orqanlarının intizam nizamnaməsi ilə tənzimlənir.

Akademiyanın dəyişkən heyətinə Akademiyada təhsil alan şəxslər aiddir.

Akademiyaya daxili işlər orqanlarının əməkdaşları, həqiqi hərbi xidmət keçməmiş gənclər, müqavilə əsasında başqa nazirlik, təşkilat, eləcə də dövlətlərin nümayəndələri qəbul edilirlər. Namizədlərin Polis Akademiyasına seçilib göndərilməsi Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilir.

Polis Akademiyasına qəbul planı Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilir. Polis Akademiyasının rəisinə qəbul planının 10-15 %-i həcmində əlavə müdavim və dinləyici qəbul etmək səlahiyyəti verilir.

Akademiyanın əyani şöbəsinə qəbul edilənlərə "müdavim", qiyabi şöbəsinə daxil olanlara, eləcə də hər hansı bir formada kurs keçənlərə "dinləyici" adı verilir.

Müdavimlərin təhsil müddəti daxili işlər orqanlarında xidmət müddətinə daxil edilməklə DİN-in normativ aktları və Akademiyanın Nizamnaməsinin tələbləri ilə tənzimlənir.

Qiyabi təhsil alan dinləyicilər üçün laborator-imtahan sessiyalarının sayı Akademiya rəhbərliyi tərəfindən müəyyən edilir və dinləyicilər üçün məcburi təhsil mərhələsidir. Qiyabi təhsil, laborator-imtahan sessiyaları arasındakı müddətdə dinləyicilərin sərbəst hazırlaşması yolu ilə həyata keçirilir.

Müdavimlər qüvvədə olan normativ aktlara müvafiq olaraq pul vəsaiti və ya təqaüd, geyim forması, xidməti vəsiqə, yemək və yataqxana ilə təmin edilirlər. Qiyabi təhsil alan dinləyicilər laborator-imtahan sessiyası zamanı ödənişli şərtlərlə yataqxanadan istifadə edə bilərlər. Müdavimlərin yataqxanadan kənarda yaşamasına hər bir konkret halda, Akademiyanın rəisi tərəfindən yaşayış yerinin sosial-məişət şəraiti öyrənildikdən sonra icazə verilə bilər.

Daxili intizam qaydalarına riayət olunmasını təmin etmək məqsədilə Akademiya rəisinin əmri ilə müdavimlər sırasından tədris tağımlarının qrup və bölmələrinin komandirləri təyin edilir.

Polis Akademiyasına daxil olmuş kiçik rəis heyətinə mənsub müdavimlərin mövcud rütbələri saxlanılır. Müdavimlərə hər il iki həftə müddətində qış tətili məzuniyyəti və 30 gün müddətində növbəti məzuniyyət verilir. Tədris borcu olan müdavimlərə məzuniyyət, onun müəyyən edilmiş müddəti hüdudunda, borc ləğv edildikdən sonra verilir.

Dövlət buraxılış imtahanlarını müvəffəqiyyətlə vermiş məzunlara dövlət imtahan komissiyasının qərarı ilə müvafiq ixtisas dərəcəsi verilir, diplom və müəyyən nümunəli döş nişanı təqdim olunur. Əyani təhsil almış məzunlara "polis leytenantı" rütbəsi verilir.

Tədris planındakı bütün fənlərin azı 75 faizindən "əla", qalan fənlərdən isə "yaxşı" qiymət almış, dövlət buraxılış imtahanlarını "əla" qiymətlərlə vermiş, həmçinin ictimai işlərdə fəal iştirak etmiş müdavim və dinləyicilərə fərqlənmə diplomu verilir. Əyani təhsilini fərqlənmə diplomu ilə bitirmiş məzunlar müstəsna hal kimi "polis baş leytenantı" xüsusi rütbəsinin verilməsinə təqdim oluna bilərlər.

Müdavim və dinləyicilər Akademiyadan aşağıdakı hallarda xaric oluna bilərlər:

- öz xahişi ilə;
- başqa təhsil müəssisəsinə keçirilməsi ilə əlaqədar;
- tədris intizamını, Akademiyanın daxili qaydalarını ciddi şəkildə pozduğuna görə;
- üzürsüz səbəbdən semestr müddətində 120 saatdan çox dərs buraxdığına görə;
- səhhətinə görə (hərbi-həkim komissiyasının rəyinə əsasən);
- tədris planını yerinə yetirmədikdə (akademik uğursuzluq-müəyyən edilmiş qaydada imtahan və məqbulları vermədikdə, təcrübə proqramını icra etmədikdə, dövlət buraxılış imtahanından qeyri-kafi qiymət aldıqda və s.);
- tördilmiş cinayətə görə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;
- daxili işlər orqanlarından mənfi əsaslarla xaric olunması ilə əlaqədar.

Müdavim və dinləyicilərin Akademiyadan xaric olunması Akademiya rəisinin təqdimatı əsasında daxili işlər nazirinin müavini, o da kadrlar idarəsi rəisinin əmri ilə həyata keçirilir.

Müdavim məhkum olunması ilə əlaqədar Akademiyadan xaric olunduqda, o, eyni zamanda DİN rəhbərliyinin əmri ilə daxili işlər orqanlarından xaric edilir və onun şəxsi işi əvvəlki xidmət yerinə qaytarılır.

Bir semestr müddətində üzürlü səbəbdən (xəstəlik, ailə vəziyyəti, ezamiyyət, dövlət sərəncamı və tapşırığının yerinə yetirilməsi və s.) 120 saatdan çox dərs buraxmış müdavimlər Akademiya rəisinin əmri ilə təkrarən eyni kursda saxlanıla bilər.

Tədris işi Akademiyanın fəaliyyətinin əsasını təşkil edir. Onun fəaliyyət dairəsi dərs məşğələlərinin, eləcə də müdavim və dinləyicilər tərəfindən tədris materiallarının mənimsənilməsini, cari və yekun nəzarəti işinin bütün növlərinin planlaşdırılmasını, təşkilini

və keçirilməsini əhatə edir. Bu iş müəyyən edilmiş qaydada təsdiq olunmuş tədris planlarına və fənn proqramlarına müvafiq surətdə təşkil olunur və aparılır.

Akademiyada təhsil azərbaycan dilində aparılır.

Tədris məşğələlərinin əsas növləri aşağıdakılardır:

- mühazirə;
- seminar (diskussiya);
- praktik məşğələ;
- təlim (işgüzar oyun);
- referatın hazırlanması;
- fərdi mükalimə (kollokvium);
- məsləhət saatı;
- sərbəst hazırlıq saatı;
- yoxlama işi;
- tədris təcrübəsi və ixtisas üzrə təcrübə.

Ayrı-ayrı fənlər üzrə nəzəri (elmi-praktiki) konfranslar və Akademiyanın Elmi Şurasının qərarı ilə müəyyən edilmiş digər növ məşğələlər keçirilə bilər.

Yoxlama işləri, suallara yazılı cavablar və ya məsələlərin həlli şəklində yerinə yetirilir. Yoxlama işi üçün tapşırıqların məzmunu və onun icra qaydası kafedra tərəfindən müəyyən edilir.

Məsləhət, müdavim və dinləyicilərin tədris işinə rəhbərliyin və dərs materiallarının sərbəst öyrənilməsində onlara yardım göstərilməsi formalarından biridir. Məsləhət üntəzəm olaraq sərbəst hazırlıq saatlarında və əsasən fərdi xarakter daşıyır.

Sərbəst hazırlıq işi, təlim-tərbiyə prosesinin mühüm tərkib hissəsidir və dərs məşğələlərinin bütün növlərində əldə edilmiş bilik və vərdişləri möhkəmlətmək və dərinləşdirmək, kurs işlərini yerinə yetirmək, qarşıdakı məşğələlərə, məqbullara və imtahanlara hazırlaşmaq, biliklərin mənimsənilməsində əqli əmək mədəniyyətini, sərbəstliyi və təşəbbüskarlığı formalaşdırmaq məqsədi daşıyır.

Dövlət buraxılış imtahanları, dövlət imtahan komissiyasının fəaliyyəti dövründə keçirilir. Dövlət imtahanlarına hazırlıq və onların verilməsi üçün hər imtahan 5-6 gün hesabı ilə vaxt ayrılır. Dövlət imtahanlarının keçirilmə qaydası "Dövlət imtahan komissiyaları haqqında" əsasnamə ilə müəyyən edilir.

Akademiyada tərbiyə işi-ideya, peşə, mənəvi, hüquqi, estetik və fiziki tərbiyə vəzifələrinin yerinə yetirilməsinə kompleks şəkildə yanaşmaq əsasında, tədris prosesi ilə üzvi vəhdətdə təşkil olunur və aparılır.

Metodik iş təlim-tərbiyə işinin tərkib hissəsi olub, Akademiya rəhbərliyinin, kafedraların, professor-müəllim heyətinin, kurs rəislərinin və onların müavinlərinin fəaliyyətinin əsas növlərindən biridir.

Metodiki iş, dərs məşğələlərinin bütün növlərinin səmərəliliyi və keyfiyyətinin yüksəldilməsi, rəis və professor-müəllim heyətinin pedaqoci ustalığının artırılması, təlim-tərbiyə prosesinin təşkilinin və təminatının təkmilləşdirilməsi kimi başlıca vəzifələri əhatə edir. Kafedra, metodik işin mərkəzi hesab olunur.

Akademiyada aşağıdakı ictimai təşkilatlar yaradıla bilər:

- elmi cəmiyyətlər;
- elmi-texniki yaradıcılıq mərkəzləri;
- gənc alimlər və mütəxəssislər şurası;

- müəllim və müdavimlərin başqa elmi-pedaqoci birlikləri.

Akademiyanın tədris-maddi bazası - tədris planlarına, tədris proqramlarına və müasir tədris metodikasına müvafiq surətdə müəyyən edilmiş ixtisaslar üzrə müdavim və dinləyicilərin hazırlığının təmin edilməsi, habelə elmi tədqiqatların yerinə yetirilməsi və elmi kadrların hazırlanması üçün nəzərdə tutulmuş maddi və texniki vasitələr, binalar, qurğular kompleksidir.

Akademiyada metodik işin planlaşdırılması və təşkili tədris metodiki şöbə tərəfindən həyata keçirilir: bu şöbə dərs ili üçün tədris-metodik iş planı hazırlayır, onun yerinə yetirilməsini təşkil edir və ona nəzarət edir.

Kafedralarda metodik iş tədris ili üzrə planlaşdırılır və müstəqil bölmə kimi illik plana daxil edilir.

Elmi iş, Akademiyanın fəaliyyətinin əsas növlərindən biri kimi onun rəhbər, professor-müəllim və elmi heyətinin xidməti vəzifəsidir.

Elmi işin əsas formaları aşağıdakılardır:

- fundamental və tətbiqi-nəzəri araşdırmalar aparılması;
- nəzəri nəticələrin və müddəaların laboratoriya şəraitində, sınaq meydanlarında eksperimental şəkildə yoxlanılması, tədqiqatların nəticələrinin ümumiləşdirilib tövsiyələr hazırlanması;
- nizamnamələrin, əsasnamələrin, təlimatların, tövsiyələrin və digər rəhbər sənədlərin layihələrinin hazırlanmasında iştirak edilməsi;
- dissertasiyaların, dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların, məqalələrin, məruzələrin, təklif və rəylərin hazırlanması;
- elmi konfransların, seminarların, müşavirələrin və nəzəri diskussiyaların hazırlanması, keçirilməsi və onun nəticələrinin ümumiləşdirilməsi.

Akademiyada elmi iş illik plana müvafiq surətdə təşkil olunur və aparılır.

Akademiyada elmi-pedaqoci kadrların hazırlanması, elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında Əsasnaməyə uyğun təşkil olunur.

Qabaqcıl təcrübəni yaymaq, tədris-maddi bazası yaratmaq, inkişaf etdirmək və ondan istifadə etmək məqsədilə Akademiya tematik sərgilərdə, baxışlarda və müsabiqələrdə iştirak edir.

Akademiyanın bütün fəaliyyətinə elmi dərəcəsi və elmi pedaqoci fəaliyyət təcrübəsi, yaxud rəhbər vəzifələrdə əməli iş təcrübəsi olan, daxili işlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan rəis rəhbərlik edir.

Rəis, Akademiyanın işini təşkil edir və onun vəziyyəti üçün şəxsən məsuliyyət daşıyır. O, bütün şəxsi heyətin birbaşa rəisidir. Daxili işlər orqanlarının intizam Nizamnaməsinə uyğun olaraq tabeçiliyində olan əməkdaşları mükafatlandırmaq, intizam məsuliyyətinə cəlb etmək, müvafiq surətdə Akademiyanın əmlakına və vəsaitinə sərəncam vermək, müqavilələr bağlamaq, etibarnamələr (o cümlədən öz vəkalətinin başqasına tapşırmaq hüququ ilə) vermək, banklarda Akademiyanın büdcə və başqa hesablarını açmaq hüququna malikdir.

Rəis, Akademiya rəhbərliyinin funksional vəzifə bölgüsünü, tabeçiliyində olan bölmələrin (şöbələrin) vəzifələrini müəyyən edir.

Akademiyada vəzifələrə təyinetmə və vəzifədən azadetmə DİN tərəfindən müəyyən edilmiş nomenklatura vəzifələri siyahısına uyğun həyata keçirilir.

Akademiya rəisinin vəzifələri aşağıdakılardır:

- Akademiyanın inkişaf perspektivlərini müəyyən etmək, tədris-metodik, tərbiyə və elmi-tədqiqat işini, maliyyə və inzibati təsərrüfat fəaliyyətini təşkil etmək;

- Elmi Şuranın işini, eləcə də kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması məsələləri barədə direktiv qərarların yerinə yetirilməsini təmin etmək;

- Akademiyanın daxili işlər orqanlarının tədris müəssisələri, elmi-tədqiqat idarələri və digər bölmələri ilə, habelə başqa nazirliklərin və baş idarələrin tədris və elmi təşkilatları ilə qarşılıqlı fəaliyyətini təşkil etmək;

- qanunvericiliyə əsasən, eləcə də daxili işlər naziri tərəfindən təsdiq olunmuş Nizamnaməyə müvafiq olaraq müdavim və dinləyicilərin qəbul edilməsi, buraxılışı, xaric edilməsi, habelə DİN rəhbərliyinin razılığı ilə Akademiyadan başqa ali məktəbə və ya əksinə köçürülməsi;

- Azərbaycan Respublikası DİN-in kadrlarla iş fəaliyyətinə dair normativ aktların tələblərinin icrasını təşkil etmək Akademiyanın şəxsi heyətinin seçilməsi, yerləşdirilməsi, təhsili və tərbiyəsi işinə rəhbərlik etmək;

- Akademiyada nizam-intizam qaydalarına, dövlət və xidməti sirrin saxlanılmasını, məxfiçilik reciminə riayət olunmasını təmin etmək, səfərbərlik işi və mülki müdafiə sahəsində zəruri tədbirlər keçirmək;

- tədris, elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi və inkişafı üçün tədbirlər hazırlamaq və həyata keçirmək, maliyyə-təsərrüfat fəaliyyətini təkmiləşdirmək, maddi-texniki ehtiyatların və pul vəsaitinin toxunulmazlığını təmin etmək və bunlardan qənaətlə istifadə etmək, əmək şəraitinin təhlükəsizliyini təmin etmək, onu səmərəli təşkil etmək;

- Akademiyanın daimi heyətinin ixtisasının və hazırlığının artırılmasını təşkil etmək;

- sosial sahənin inkişafı üçün tədbirlər görmək;

- intizamlı və təşəbbüskar əməkdaşları təhsil almaq üçün ali təhsil müəssisələrinə göndərmək.

Ştat sayının və əmək haqqı fondunun dəyişdirilməsi, müvafiq təklif və təqdimat əsasında, DİN tərəfindən həyata keçirilir.

Akademiyada daxili qaydalar hərbi tədris müəssisələrindəki daxili qaydalara uyğun olaraq müəyyən edilir.

Akademiyanın fəaliyyətinin əsas məsələlərinə baxılması üçün rəisin sədrliyi ilə Akdemiyanın Elmi Şurası təşkil olunur. Şura, öz işini "Elmi şura haqqında" Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş Əsasnamənin tələblərinə müvafiq surətdə həyata keçirir.

Akademiyanın cari işinin təşkilinə, Azərbaycan Respublikası DİN-in normativ aktlarının icrası ilə bağlı əməli məsələlərə Akademiyanın rəisi yanında təşkil olunmuş əməliyyat müşavirələrində baxılır.

Akademiyaya verilmiş hüquqlar onun rəisi və funksional vəzifələrinə müvafiq müavinlər və köməkçilər tərəfindən həyata keçirilir.

Akademiya, qarşısında qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün aşağıdakı hüquqlara malikdir:

- yuxarı orqanların səlahiyyətinə aid edilməyən və mövcud qanunvericiliyə zidd olmayan zəruri qərarlar qəbul etmək və tədbirlər həyata keçirmək;

- Akademiyanın ştatlarında dəyişikliklər edilməsi barədə təkliflər irəli sürmək.

Akademiya, tədris, tədris-metodik və elmi-tədqiqat işində aşağıdakı hüquqlara malikdir:

Akademiyanın Elmi Şurasının qərarı ilə:

- tədris planları işləyib hazırlamaq və təsdiq etmək;
- təhsil müddəti ixtisar edilmiş və ya uzadılmış tədris planları hazırlamaq və təsdiq etmək;
- müdavimləri sərbəst hazırlıq işinə həvəsləndirmək, onların praktiki təhsilini təkmilləşdirmək məqsədi ilə tədris prosesinin təşkili, o cümlədən tədris məşğələlərinin müxtəlif növləri nisbətinin dəyişdirilməsi məsələlərini həll etmək;
- öyrənilən fənlərin birləşdirilməsi hesabına sayını ixtisar etmək, bir neçə semestr tədris olunan fənn üzrə bir imtahan müəyyən etmək;
- müdavimlərə gələcək peşə fəaliyyətinin müasir forma və metodlarını öyrətmək məqsədilə sərbəst hazırlıq saatları hesabına tədris təcrübəsi tətbiq etmək;
- tədris prosesinin ardıcıllığını, o cümlədən tədris təcrübəsinin keçirilməsi, sessiyaların sayını və müddətini, semestrlərin başlanması və qurtarması müddətlərini müəyyənləşdirmək;
- yerli şəraitdən, müvafiq tədris-maddi bazasının olmasından asılı olaraq tədris fənləri üçün ayrılan vaxt hesabına tədris-düşərgə toplanışları və kompleks əməliyyat təlimləri keçirmək;
- dövlət imtahanlarına daxil edilən ixtisas fənlərini müəyyənləşdirmək;
- elmi bölmələrin fəaliyyətinin səmərəliliyinin təhlili əsasında onların inkişafının və ya ləğv edilməsinin məqsədəuyğunluğu haqqında qərar qəbul etmək.

Müəyyən edilmiş qaydada:

- ixtisas fənlərinin daha dərindən öyrənilməsi məqsədilə müvafiq kafedraların təqdimatı ilə yuxarı kursların ayrı-ayrı müdavimlərinə tədris vaxtının yenidən bölüşdürülməsi hesabına (təhsil müddəti hüdudunda) fərdi hazırlıq planları müəyyən etmək;
- tədris-metodik və elmi-tədqiqat işinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, lazım gəldikdə onları yuxarı orqanların müzakirəsinə vermək;
- müstəqil olaraq tədris planları və proqramları, metodik göstərişlər, müdavimlər üçün tapşırıqlar və digər tədris-metodik sənədlər çap etmək;
- tədris və tədris-metodik ədəbiyyat (elmi əsərlərin məcmuələri, elmi və elmi-praktik konfransların materialları, dərsliklər və dərs vəsaitləri) nəşr etmək, başqa ali məktəblərlə əlaqə saxlamaq;
- digər nazirliklərin və baş idarələrin tədris müəssisələri və elmi-tədqiqat idarələri ilə yaradıcılıq əməkdaşlığı haqqında müqavilələr bağlamaq və təsdiq etmək;
- məşğələlərin keçirilməsi üçün əmək haqqının saathesabı ödənilməsi şərti ilə digər ali məktəblərdən alimlər və yüksək ixtisası mütəxəssislər cəlb etmək;
- öz xərcini ödəmə əsasında Akademiyaya daxil olmaq üçün kurslar təşkil etmək;
- elmi, elmi-praktik və metodik konfranslar (müşavirələr, toplanışlar, seminarlar) keçirmək;
- respublikanın və başqa ölkələrin digər tədris müəssisələri, elmi-tədqiqat idarələri, elmi və elmi-texniki cəmiyyətləri ilə tədris və elmi ədəbiyyat nəşrləri mübadiləsi keçirmək.

Əsaslı tikinti, əsaslı təmir, maliyyə fəaliyyəti, əmək və əmək haqqı sahəsində Akademiyanın hüquqları qüvvədə olan qanunvericiliklə və Azərbaycan Respublikası DİN-in normativ aktları ilə tənzim edilir.

N Ə T İ C Ə

Qəbul edilmiş normalara görə təhsil sahəsində islahat-bu sahədə dövlət siyasətinin əsas prinsiplərinə uyğun təhsilin məqsəd və vəzifələrini həyata keçirmək mexanizmini müəyyən edir. Təhsil sistemi şəxsiyyətin formalaşması, elmin, mədəniyyətin inkişafı və işçi qüvvəsinin təkrar istehsalı kimi mühüm vəzifələri həyata keçirməlidir.

Artıq müstəqillik əldə edən Azərbaycan Respublikası təhsil sahəsində çox iş görülmüş, bu sahəni əhatə edən normativ-hüquqi aktlar qəbul etmiş və bunun nəticəsində də böyük nailiyyətlər əldə olunmuşdur.

Göstərilənlərin əhmiyyəti elə ondadır ki, təhsil sahəsi cəmiyyətin bütün üzvlərini əhatə edir. Bəs bu sahədə dövlət idarəetməsi necə həyata keçirilir?

Mövzunun birinci sualında təhsil sahəsində dövlət idarəetməsinə anlayış verərkən, onun ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsi olduğunu qeyd etdik. Burada həm də təhsil sahəsinin təşkilati-hüquqi əsaslarını göstərdik.

Bu sualda təhsil qanunvericiliyinə daxil olan normativ-hüquqi aktlar, təhsil qanunvericiliyinin vəzifələri, eləcə də bu sahənin idarə edilməsi haqqında qeyd olundu. Nəhayət birinci sualda aydın oldu ki, Təhsil Nazirliyi təhsil sisteminin mərkəzi idarəetmə orqanı olmaqla təhsil sahəsində vahid dövlət siyasəti hazırlanmasında iştirak edir və onun həyata keçirilməsini təmin edir, təhsil qanunvericiliyinin icrasına və təhsilin dövlət standartlarına riayət edilməsinə nəzarət edir.

Mövzunun ikinci sualında Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili proqramlarının ali təhsil müəssisələri tərəfindən həyata keçirilməsini göstərdik.

Digər tərəfdən mövzumuzun ikinci sualının açıqlanmasında təhsil müəssisələrinin növləri və onların fəaliyyətinə rəhbərliyin həyata keçirilməsi formalarını açıqladıq.

Ən nəhayət mövzumuzun ikinci sualında ali təhsil müəssisələrinin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirən ali təhsil müəssisələrinin Elmi Şuralarının aparıcı rolun olmasını qeyd etdik.

Mövzunun üçüncü sualında isə bir misal kimi, daxili işlər orqanlarının ali hüquq təhsilli mütəxəssislərə olan tələbatını ödəyən, hüquqi təbliğat, daxili işlər orqanlarının şəxsi heyəti və əhali arasında elmi-nəzəri bilikləri yayan, öz fəaliyyətlərində Azərbaycan Respublikasının və DİN-in normativ aktlarını, eləcə də öz nizamnaməsini rəhbər tutan Polis Akademiyası haqqında hüquqi biliklər əldə etdiniz.

Bütün bu mövzunun köməkliyi ilə əldə etdiniz hüquqi biliklər sizin hüquqşünas kimi-ali hüquq təhsilli mütəxəssis kimi for malaşmağınızda köməkçiniz olacaqdır.

Mövzunun əhəmiyyətini tam dərk etmək məqsədi ilə isə halqımızın ümum milli lideri H.Əliyevin sözlərini qeyd etmək daha vacibdir: "Təhsil sahəsi xalqın bu günü, millətin, dövlətin gələcəyi üçün ən vacib bir sahədir".

MÖVZU № 22. " VERGİ VƏ GÖMRÜK SAHƏLƏRİNDƏ DÖVLƏT İDARƏETMƏSİ".

P L A N:

G İ R İ Ş

13. Vergi sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi əsasları.
14. Gömrük sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi əsasları.

N Ə T İ C Ə

Ə D Ə B İ Y Y A T:

38. Azərbaycan Respublikasının Konstitusiyası.
39. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 11 iyun 2000-ci il/
40. "Azərbaycan Respublikasının Vergilər Nazirliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 11 fevral 2000-ci il.
41. "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 mart 2001-ci il.
42. "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu. 12 iyun 2001-ci il.
43. Azərbaycan Respublikasının Vergi qanunvericiliyi. Yeni sənədlər. I-II hissə. Qanun. 2002.
44. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi.
45. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
46. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. 10 iyun 1997-ci il.
47. "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 30 yanvar 1997-ci il.
48. "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin strukturu və Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 oktyabr 1998-ci il.
49. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu. 21 iyul 2000-ci il.
50. "Gömrük orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 7 dekabr 1999-cu il.
51. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. 28 oktyabr 1999-cu il.
52. C.Nuriyev. "Gömrük hüququ". Dərslik. Bakı, 2004.
53. Dərslik. "İnzibati hüquq". E.Abdullayev. Bakı, 2001.

17. A.Abdullayev, F.Nağıyev. "İnzibati hüquq". Dərslik. Bakı, 2008.
18.E.Abdullayev. ″İnzibati hüquq″. Dərslik. Bakı, 2007.
19.A.Korenev."Administrativnoe pravo Rossii". Çastğ 2. Dərslik. Moskva, 1999.

G İ R İ Ş

Azərbaycan Respublikasının iqtisadiyyatının idarəetmə strukturunu təkmilləşdirmək, dövlət maliyyə intizamını gücləndirmək, dövlət büdcəsinə daxilolmaların yığılmasının səmərəliliyini artırılması sahəsində vergi orqanlarının fəaliyyətinin əhəmiyyəti böyükdür. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2000-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasında dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və

digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Vergilər Nazirliyi yaradılmışdır. Bütün bu göstərilənlər hər bir dövlətin qüdrətli dövlət kimi formalaşmasında əsas rol oynayan vergi sahəsində dövlət idarəetməsində öz əksini tapır.

Mövzunun birinci sualında yuxarıda göstərilənlərin açıqlanması ilə yanaşı, bu sahənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar haqqında qeyd olunacaqdır.

Mövzunun ikinci sualı gömrük sahəsində dövlət idarəetməsi ilə bağlıdır. Ümumiyyətlə qeyd etməliyik ki, gömrük siyasəti-Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin daha səmərəli tənzimlənməsi, daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsi habelə beynəlxalq normalara uyğun gömrük işinin təşkili və həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Respublikasında dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasəti həyata keçirilir. Gömrük siyasətini həyata keçirən orqanlar icra hakimiyyəti orqanı olub, fəaliyyətinin xarakterinə görə hüquq-mühafizə orqanıdır. Digər tərəfdən gömrük orqanları onların qarşısında duran vəzifələri yerinə yetirmək üçün qanunvericiliklə onlara verilmiş səlahiyyətlər daxilində gömrük işi sahəsində, habelə onunla əlaqədar olan digər idarəetmə sahələri ilə birlikdə öz vəzifə və funksiyalarını özünəməxsus forma və metodlarla həyata keçirən dövlət orqanıdır.

Gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan, gömrük orqanlarına rəhbərlik edən hüquq-mühafizə orqanı-Dövlət Gömrük Komitəsi haqqında da bu sualın açıqlanması ilə siz hüquqi biliklər əldə edəcəksiniz.

İndi də mövzunun birinci sualının açıqlanmasına keçək.

SUAL I . Vergi sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi əsasları.

Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında vergilərin vaxtında ödənilməsi mühüm rol oynayır. Bir sıra sosial tədbirlərin həyata keçirilməsi vergilərin hesabına əldə olunmuş gəlirlərin köməyi ilə mümkün olur. Göstərilənlər müstəqillik əldə edən Azərbaycan Respublikasının Konstitusiyasının (Əsas Qanununun) 73-cü maddəsində öz əksini tapmışdır. Konstitusiyanın bu maddəsində göstərilmişdir ki:

"Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.

Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz".

Konstitusiyanın bu müddəası dövlət büdcəsinin formalaşması üçün vergilərin və başqa dövlət ödənişlərinin qanunla müəyyən edilməsi prinsipinin vacibliyini göstərir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 4-cü maddəsinə əsasən Azərbaycan Respublikasında aşağıdakı vergilər müəyyən edilir və ödənilir:

- dövlət vergiləri;
- muxtar respublika vergiləri;
- yerli vergilər (bələdiyyə vergiləri).

Dövlət vergiləri dedikdə, Vergi Məcəlləsi ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergilər nəzərdə tutulur.

Dövlət vergilərinə aşağıdakı vergilər aiddir: (m.6. VM)

- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);
- əlavə dəyər vergisi;
- aksizlər;
- hüquqi şəxslərin əmlak vergisi;
- hüquqi şəxslərin torpaq vergisi;
- tranzit yol vergisi;
- mədən vergisi;
- sadələşdirilmiş sistem üzrə vergi.

Muxtar Respublika vergiləri dedikdə, Naxçıvan Muxtar Respublikasında Vergi Məcəlləsinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən vergilər nəzərdə tutulur.

Muxtar respublika vergilərinə Naxçıvan MR-da tutulan Vergilər Məcəlləsinin 6.1-ci maddəsində (yol vergi istisna olunmaqla) sadalanan dövlət vergiləri aiddir. (m.7 VM).

Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə, Vergi Məcəlləsi və müvafiq qanunlarla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur.

Yerli vergilərə isə aşağıdakı vergilər aiddir: (m.8 VM).

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Vergi- dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.

Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları aşağıdakılardır:

- vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxslər;
- vergi agenti (vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxs) hesab edilən hüquqi və fiziki şəxslər;
- dövlət vergi orqanları;
- gömrük orqanları;
- Vergi Məcəlləsi ilə nəzərdə tutulan məsələlərin həlli ilə bağlı maliyyə orqanları;
- vergi ödəyicilərindən vergilərin ödənilməsi üçün vəsaitlərin alınmasını və onların büdcəyə köçürülməsini, vergi və gömrük orqanlarından başqa, müəyyən edilmiş qaydada həyata keçirilən dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, digər səlahiyyətli orqanlar və vəzifəli şəxslər.

Azərbaycan Respublikasında dövlət vergi orqanlarının Azərbaycan Respublikasının Vergilər Nazirliyi və bilavasitə ona tabe olan ərazi vergi orqanları təşkil edir. Bu orqanlara rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti və hökuməti həyata keçirir.

Vergi orqanlarının fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli Qanunu ilə təsdiq

edilmiş Vergi Məcəlləsi və onlara uyğun olaraq qəbul edilmiş digər qanunvericilik aktları təşkil edir.

Vergi orqanları öz səlahiyyətləri çərçivəsində hüquq-mühafizə orqanlarının səlahiyyətlərini həyata keçirirlər. Vergi orqanları öz fəaliyyətini yerli dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq, müstəqil həyata keçirirlər. Vergi orqanları tərəfindən onların səlahiyyətləri daxilində qəbul edilən qərarlar bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

Vergi orqanları məhkəmələrə iddia ərizələrinin verilməsi üçün dövlət rüsumunu ödəməkdən azaddırlar.

Vergi orqanları vergilərin (tranzit yol vergisi, idxal-ixrac əməliyyatları üzrə vergilərdən başqa) tam və vaxtında ödənilməsinə nəzarəti həyata keçirirlər.

Vergi orqanları öz vəzifələrini mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquq-mühafizə, maliyyə və digər hakimiyyət orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirirlər.

Vergi orqanlarının yerinə yetirilməsi ilə əlaqədar digər dövlət hakimiyyəti orqanları vergi orqanlarına kömək etməyə və zəruri hallarda müəyyən edilmiş qaydada onlara lazımi məlumatları verməyə borcludurlar.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulan hallarda vergi orqanlarının səlahiyyətlərini qanunla müəyyən edilmiş hallarda və qaydada tranzit yol vergisi və idxal-ixrac əməliyyatları sahəsində gömrük orqanları həyata keçirir.

Dövlət gömrük orqanları mallar Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirildikdə, vergilərin tutulması sahəsində Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Gömrük Məcəlləsi və digər qanunları ilə müəyyən edilmiş hüquqları və vəzifələri həyata keçirirlər.

Gömrük orqanları vergitutma ilə əlaqədar onlarda olan məlumatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinə verməlidirlər.

Vergi orqanlarının hüquqları:

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və həllarda kameral və səyyar vergi yoxlamaları keçirmək;

2. vergi ödəyicilərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nəqd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq, habelə yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımi izahatlar, arayışlar və məlumatlar almaq;

3. vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarında (ərazilərində) qanunvericiliklə müəyyən edilmiş qaydada xronometrac metodu ilə müşahidə aparmaq və baxış keçirmək, müəyyən edilmiş qaydada sənədləri götürmək;

4. vergi ödəyiciləri olan hüquqi şəxslərdən və fiziki şəxslərdən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını tələb etmək;

5. qanunla müəyyən edilmiş qaydada vergi qanunvericiliyinin pozulması ilə bağlı işlərə baxmaq, hüquqi və fiziki şəxslərin vergi borclarına faizlər hesablamaq, bu şəxslərə maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək;

6. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada vətəndaşların vergi məsələləri ilə bağlı sorğusunu həyata keçirmək;

7. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə binalara (yaşayış sahələri istisna olmaqla), qurğulara və torpaq sahələrinə daxil olmaq və baxış keçirmək;

8.“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzarət qaydasında mal-alqısını həyata keçirmək;

9. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada təhqiqat aparmaq;

10. Vergi Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə vergi orqanlarının təyinatına uyğun olaraq nəzərdə tutulmuş başqa hüquqları həyata keçirmək.

Yuxarı vergi orqanları tabeliyində olan vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarını və qərarlarını ləğv edə bilərlər.

Vergi orqanlarının vəzifələri:

1. vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etməyə, vergi qanunvericiliyinə tam və dəqiq riayət etməyə;

2. vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini gözləməyə və müdafiə etməyə;

3. vergi qanunvericiliyi və vergi qanunvericiliyində edilən dəyişikliklər barədə vergi ödəyicilərinə, kütləvi informasiya vasitələri və ya fərdi qaydada əvəzsiz olaraq məlumat verməyə, müəyyən edilmiş hesabat formalarının doldurulması qaydalarını izah etməyə, vergilərin hesablanması və ödənilməsi barədə izahatlar verməyə, vergi ödəyicilərinə onların hüquq və vəzifələrini izah etməyə;

4. vergi qanunvericiliyinin pozulması hallarına dair məlumatları toplamağa, təhlil etməyə və qiymətləndirməyə, belə halların baş verməsinə gətirib çıxaran səbəblərin və şəraitin aradan qaldırılması üçün müvafiq dövlət orqanlarına təkliflər verməyə;

5. vergi ödəyicilərinin uçotunu aparmaq;

6. qanunvericilikdə nəzərdə tutlmuş qaydada vergi ödəyiciləri haqqında məlumatın, o cümlədən vergi və kommersiya sirrinin qorunması qaydalarına riayət etməyə və onu təmin etməyə;

7. tabeliyində olan vergi orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirməyə;

8. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə vergi orqanlarının təyinatına uyğun olaraq müəyyən edilmiş digər vəzifələri həyata keçirməyə borcludur.

Vergi orqanlarının vəzifəli şəxslərinin aşağıda göstərilən vəzifələri vardır:

1. Vergi Məcəlləsinə və Azərbaycan Respublikasının digər qanunlarına ciddi riayət etmək;

2. orqanlarının hüquq və vəzifələrini öz səlahiyyətləri daxilində yerinə yetirmək;

3. vergi ödəyicilərinə, onların nümayəndələrinə və vergi münasibətlərinin digər iştirakçılarına diqqət və nəzakətlə yanaşmaq.

Vergi orqanlarının vəzifəli şəxsləri dövlət qulluğundadırlar. Bu öz əksini 21 iyul 2000-ci il tarixli “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 2.3-cü maddəsində tapmışdır.

Vergi orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada vəzifəyə təyin olunur və vəzifədən azad olunurlar.

Vergi orqanlarının vəzifəli şəxsləri elmi, pedaqoci və yaradıcılıq fəaliyyəti istisna olmaqla, heç bir sahibkarlıq və digər ödənişli fəaliyyət növləri ilə məşğul ola bilməzlər.

Vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən aşağıdakı hallarda öz xidməti vəzifələrini vergi ödəyicilərinə münasibətdə həyata keçirmək yolverilməzdir:

1. vergi orqanlarının vəzifəli şəxsləri ilə vergi ödəyiciləri arasındakı münasibətlər ailə üzvlərinin münasibətləri olduqda;

2. vergi orqanlarının vəzifəli şəxslərinin və ya onların ailə üzvlərinin bilavasitə və ya dolayısı ilə vergi ödəyicisində (onun fəaliyyətində) maliyyə marağı olduqda.

Vergi orqanları və onların vəzifəli şəxsləri (vergi orqanlarında işlədikləri dövrdə və ya işdən çıxdıqdan sonra qanunvericiliklə müəyyən edilmiş müddətdə) xidməti vəzifələrini yerinə yetirərkən, vergi ödəyiciləri haqqında əldə etdikləri və ya onlara etibar edilən hər hansı məlumatın məxfiliyini qorumağa borcludurlar.

Aşağıdakı məlumatlar istisna olmaqla, vergi orqanı və onun vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisi barədə əldə edilən istənilən məlumat kommersiya (vergi) sirri hesab edilir:

1. vergi ödəyicisinin razılığı ilə aşkar edilən;

2. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi haqqında;

3. müəssisənin nizamnamə fondu (nizamnamə kapitalı) haqqında;

4. vergi qanunvericiliyinin pozulması və bu hüquq pozulmalara görə məsuliyyət tədbirləri haqqında.

Kommersiya sirri vergi orqanları, onların vəzifəli şəxsləri tərəfindən qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla açılmamalıdır.

Vergi qanunvericiliyi, vergi nəzarəti və onun həyata keçirilməsi formaları.

Vergi orqanları vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədi ilə vergi nəzarətini həyata keçirirlər. Vergi nəzarəti vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət sistemidir.

Vergi nəzarətini Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Gömrük Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi həyata keçirirlər.

Vergi nəzarəti vergi orqanlarının və gömrük orqanlarının, onların vəzifəli şəxslərinin səlahiyyətləri hədlərində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, Gömrük Məcəlləsinə və digər qanunvericilik aktlarına müvafiq olaraq həyata keçirilir.

Vergi orqanları vergi nəzarətini vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binaları müayinə etməklə və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər formalarda həyata keçirirlər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir. Bu Məcəllə ilə Naxçıvan

Muxtar Respublikasında və bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilər müəyyən edilir.

Vergi qanunvericiliyi aktları ilə digər sahə qanunvericilik aktları arasında vergitutma və vergi nəzarəti məsələləri üzrə ziddiyyət yarandıqda vergi qanunvericiliyinin aktları tətbiq edilir.

Vergilər haqqında qanunvericilik vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır. Vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır.

Hər kəsin konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir.

Azərbaycan Respublikasının vahid iqtisadi məkanını pozan (xüsusilə, Azərbaycan Respublikasının ərazisində malların (işlərin, xidmətlərin) və pul vəsaitlərinin azad yerdəyişməsini bilavasitə və ya dolayısı ilə məhdudlaşdıran və ya digər yolla vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran, yaxud maneçilik törədən) vergilərin müəyyən edilməsinə yol verilmir.

Heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq etməyə və ödəməyə məcbur edilə bilməz.

Vergilər siyasi, ideoloci, etnik, konfessional və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə bilməz və diskriminasiya xarakteri daşıya bilməz.

Mülkiyyət formasından və ya fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsi qadağandır.

Azərbaycan Respublikasına gətirilən mallar üçün həmin malların hansı ölkədən gətirilməsindən asılı olaraq, Vergi Məcəlləsinə və gömrük qanunvericiliyinə uyğun olaraq müxtəlif gömrük rüsumu dərəcələrinin müəyyən edilməsi mümkündür.

Azərbaycan Respublikasının vergiləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir, onların dəyişdirilməsi və ya ləğv edilməsi həmin Məcəlləyə dəyişiklik edilməsi ilə həyata keçirilir. Heç bir şəxsin üzərinə Vergi Məcəlləsi ilə müəyyən edilən vergilərin xüsusiyyətlərinə malik olan və onunla müəyyən edilməyən, yaxud onunla müəyyən edilən qaydalardan fərqli olaraq müəyyən edilən vergilər ödəmək vəzifəsi qoyula bilməz.

Vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir. Vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları, şübhələri vergi ödəyicisinin xeyrinə şərh edilməlidir.

Fiziki və hüquqi şəxslərin vergilərə aid normativ-hüquqi aktlara azad tanış olmaq imkanı təmin edilməlidir.

Tərkibində Azərbaycan Respublikasında yerləşən filial və (və ya) nümayəndəlikləri olan hüquqi şəxslər vergi ödəyicisi kimi həm özünün olduğu yer üzrə, həm də özünün hər filial və (və ya) nümayəndəliyinin olduğu yer uçota alınır.

Dövlət qeydiyyatını həyata keçirən Vergilər Nazirliyi uçot üçün müraciət etmiş şəxslərin dövlət qeydiyyatına alınması barəsində onlara qeydiyyat sənədləri ilə birlikdə həmin sənədlərin verilməsi tarixini əks etdirən arayış verməlidir.

Daimi nümayəndəliyin vergi orqanlarında uçota alınması Azərbaycan Respublikasının hüquqi şəxsləri üçün müəyyən edilmiş qaydada həyata keçirilir. Olduğu yer üzrə vergi tutulmalı olan daşınmaz əmlakın və ya nəqliyyat vasitəsinin vergi orqanlarında uçota alınması üçün ərizə həmin əmlakın qeydə alındığı gündən 30 gün müddətində verilməlidir. Vergi orqanı 5 gün müddətində fərdi sahibkara onun vergi uçotuna alınması barədə məlumat verir.

Vergi ödəyicisinin vergi uçotuna alınması yerinin müəyyən edilməsi ilə bağlı çətinliklər ortaya çıxdıqda, təqdim olunmuş məlumatlar əsasında yuxarı vergi orqanı tərəfindən qəbul edilir.

Beləliklə, dövlət vergi orqanları Azərbaycan Respublikasında iqtisadiyyatın idarəetmə strukturunu təkmilləşdirmək, dövlət maliyyə intizamını gücləndirmək, dövlət büdcəsinə daxilolmaların yığılmasını həyata keçirir.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi (bundan sonra Nazirlik) Azərbaycan Respublikasında dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Nazirlik hüquqi şəxsdir, müstəqil balansa, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara, blanklara, bank hesablarına malikdir.

Nazirlik dövlət büdcəsinin vəsaiti hesabına və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2000-ci il tarixli fərmanına əsasən, Azərbaycan Respublikasının Vergilər Nazirliyi yaradılmışdır. Prezidentin 29 mart 2001-ci il tarixli fərmanına əsasən isə Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə təsdiq edilmişdir.

Vergilər Nazirliyin vəzifələri aşağıdakılardır:

1. Azərbaycan Respublikasının dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsinə, vergi qanunvericiliyinə riayət olunmasına nəzarət etmək;

2. vergi qanunvericiliyi ilə bağlı vergi ödəyicilərinə məlumatların verilməsini, vergilərin hesablanması və ödənilməsi barədə onları əvəzsiz olaraq izahatların verilməsini təmin etmək;

3. vergi sahəsində hüquq pozuntularını doğuran səbəbləri araşdırmaq və belə halların aradan qaldırılması üçün öz səlahiyyətləri daxilində müvafiq tədbirlər həyata keçirmək;

4. vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin qorunmasını təmin etmək;

5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Vergilər Nazirliyi aşağıdakı funksiyaları həyata keçirir:

- vergi siyasətinin təkmilləşdirilməsi haqqında təkliflər hazırlayır;
- Azərbaycan Respublikasının vergi qanunvericiliyinə riayət olunmasını, dövlət vergilərinin və ona həvalə edilmiş digər daxilolmaların düzgün hesablanmasını, vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsi ilə bağlı dövlət vergi orqanlarının işini təşkil edir;
- vergi qanunvericiliyinə riayət olunmasını təmin edən tədbirlər hazırlayır və həyata keçirir;
- hesablanmış və təyinatı üzrə daxil olmuş vergilərin uçotunu aparır və bu barədə Respublika Prezidentinə, Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə məlumat verir;
- vergi ödəyicilərinin uçotunu aparır;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada vergi ödəyiciləri haqqında məlumatın, o cümlədən, vergi və kommersiya sirrinin qorunması qaydalarına riayət edir və onu təmin edir;
- ərazi vergi orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirir;

- qanunvericiliyə uyğun olaraq cinayət işləri üzrə təhqiqat, istintaq aparır və əməliyyat-axtarış fəaliyyətini həyata keçirir;

- xarici dövlətlərin vergi və digər səlahiyyətli orqanları ilə əməkdaşlıq edir;

- dövlət vergi orqanlarının vahid avtomatlaşdırılmış məlumat sisteminin yaradılmasını təmin edir;

- öz vəzifələrinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

Nazirlik öz vəzifələrini və funksiyalarını mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquq-mühafizə, maliyyə və digər dövlət hakimiyyət orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirir.

Nazirliyin öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

- qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda kameral və səyyar vergi yoxlamaları keçirmək;

- vergitutma bazası, həmçinin müəyyənləşdirilməsi, aksiz markası ilə markalanmalı olan, lakin markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin vergitutma obyektlərinin uçotu, əhali ilə pul hesablaşmalarının aparılması sahəsində qanunvericiliyə riayət olunmasını yoxlamaq məqsədi ilə vergi ödəyicilərinə qanunla nəzərdə tutulmuş hallarda və qaydada operativ nəzarəti həyata keçirmək;

- vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını tələb etmək;

- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən nazir rəhbərlik edir.

Vergilər naziri Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və onun funksiyalarının həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Vergilər Nazirinin birinci müavini və üç müavini Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir.

Vergilər Naziri aşağıdakı səlahiyyətlərə malikdir:

- Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

- Nazirin müavinləri arasında vəzifə bölgüsünü aparır, nazirliyin müvafiq struktur bölmələrinin idarə olunmasını onlara həvalə edir;

- Nazirliyin struktur bölmələrinin funksional təyinatı və say tərkibini müəyyən edir və zərurət olduqda, həmin strukturda dəyişikliklər aparır;

- qanunvericiliyə uyğun olaraq digər hüquqlardan istifadə edir və funksiyalar həyata keçirir.

Vergilər Nazirliyində nazirdən (kollegiyanın sədri) və nazirin müavinlərindən, Naxçıvan MR-nın Vergilər Nazirindən, habelə Nazirliyin digər rəhbər işçilərindən ibarət kollegiya təşkil olunur. Kollegiyanın tərkibi vəzifələr üzrə Nazirin təqdimatına əsasən, Respublika Prezidenti tərəfindən təsdiq edilir.

Kollegiya öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı mühüm məsələlərə baxır və və onlar haqqında müvafiq qərarlar qəbul edir.

Kollegiyanın iclasları kollegiyanın üzvlərinin üçdə ikisi iştirak etmək halları olduqda səlahiyyətlidir. Kollegiyanın iclasında səslər bərabər bölündükdə Kollegiya sədrinin səsi həlledici hesab edilir. Kollegiyanın qərarları Nazirin əmrləri ilə həyata keçirilir.

Vergilər Nazirliyinin strukturu aşağıdakı kimidir:

Nazir; Nazirin birinci müavini və üç müavin, müşavir, köməkçi və katiblik;

1. Vergi siyasəti və strategiyasını araşdırmalar Baş İdarəsi;
2. daxili nəzarət Baş İdarəsi;
3. Vergi ödəyicilərinin auditi Baş İdarəsi;
4. İqtisadi təhlil və uçotun təşkili idarəsi;
5. operativ nəzarət idarəsi;
6. vergi borclarının məcburi alınması işinin təşkili idarəsi;
7. kadr siyasəti və hazırlığı idarəsi;
8. maliyyə-təsərrüfat idarəsi;
9. informasiya texnologiyası və resursları şöbəsi;
10. hüquqi təminat şöbəsi;
11. mühasibatlıq;
12. xüsusi işlər üzrə bölmə.

Bunlarla yanaşı, Vergilər Nazirliyi yanında vergi cinayətlərinin ibtidai araşdırılması Departamenti fəaliyyət göstərir.

Vergi orqanlarında xidmət-Azərbaycan Respublikasının icra hakimiyyəti orqanları sisteminə daxil olan vergi orqanları sisteminin funksiya və məqsədlərini öz peşəkar fəaliyyətləri ilə həyata keçirən respublika vətəndaşlarının dövlət qulluğunun xüsusi növüdür.

Vergi orqanlarında xidmət haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Vergi Məcəlləsindən, Dövlət qulluğu haqqında Qanundan, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamədən və bu xidmətin haqqında qaydalarını tənzimləyən digər normativ hüquqi aktlardan ibarətdir.

Vergi orqanlarının vəzifəli şəxsləri dedikdə, vahid sistem təşkil edən vergi orqanlarında vəzifə tutan və nəzərdə tutulmuş qaydada xüsusi rütbələr verilmiş vətəndaşlar başa düşülür.

Vergi orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələrinə uyğun olaraq xüsusi geyim forması və fərqlənmə nişanları müəyyən edilir.

Beləliklə, mövzunun birinci sualına nəticə olaraq göstəririk ki, vergi-dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.

Vergilər Nazirliyi Respublikada aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

SUAL 2. Gömrük sahəsində dövlət idarəetməsinin anlayışı
və təşkilati-hüquqi əsasları.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra digər sahələrdə olduğu kimi gömrük sahəsində də çox böyük uğurlar əldə edilmişdir. Bu mənada gömrük sahəsində dövlət idarəetməsi ilə bağlı əldə olunan biliklərin hüquqi əhəmiyyəti vardır.

Bu sahənin idarəedilməsi ilə bağlı qazanılmış uğurların bir hissəsini belə qeyd etmək olar:

- Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Gömrük Tarifi haqqında qəbul olunmuş qanunlar;
- çoxsaylı normativ-hüquqi aktlar hazırlanmış;
- gömrük işi sahəsində kadr hazırlığı, tədqiqat-ekspertiza məqsədilə tədris Mərkəzi;
- mərkəzi laboratoriya yaradılmış;
- habelə bu işin tətbiqi ilə əlaqədar xüsusi orqan olan "Gömrük xəbərləri" qəzeti təsis olunmuş;
- peşəkar gömrük işçilərinin hazırlanması, formalaşması üçün xüsusi ədəbiyyatlar nəşr olunmuş və Azərbaycan gömrük orqanları sisteminin beynəlxalq sferada əməkdaşlıq dairəsi genişlənmişdir.

Azərbaycan Respublikasının gömrük işini malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələri təşkil edir. Göstərilənlər dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin həyata keçirilməsi deməkdir.

Azərbaycan Respublikasının gömrük siyasətinin məqsədi aşağıdakılardan ibarətdir:

- Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi;
- Azərbaycan Respublikasının daxili bazarının qorunması;
- milli iqtisadiyyatın inkişafının stimullaşdırılması;
- Azərbaycan dövlətinin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə kömək edilməsi;
- Azərbaycan Respublikasının Konstitusiyasına, Gömrük Məcəlləsinə və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq müəyyən edilən digər məqsədlər.

Gömrük sahəsində dövlət idarəetməsi Azərbaycan Respublikasının Prezidenti və hökuməti tərəfindən həyata keçirilir. Bu sahədə aparıcı funksiya və bilavasitə rəhbərlik Dövlət Gömrük Komitəsinə məxsusdur.

Azərbaycan Respublikasının gömrük siyasəti gömrük işini beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldir. Azərbaycan Respublikasında gömrük işi hamılıqla qəbul edilmiş beynəlxalq normalar və təcrübə ilə uyğunlaşdırma və eyniləşdirmə istişamətində inkişaf etdirilir.

Gömrük orqanları öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Gömrük Məcəlləsini, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunvericilik aktlarını rəhbər tutur.

Qanunvericiliklə müəyyən olunmuş hallar istisna olunmaqla, heç bir dövlət orqanının Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının müddəalarına uyğun fəaliyyət göstərən gömrük orqanlarının səlahiyyətinə toxunan məsələlər üzrə qərar qəbul etmək, onların funksiyalarını icra etmək və ya dəyişdirmək, onlara başqa vəzifələr tapşırmaq və ya fəaliyyətinə digər formada müdaxilə etmək hüququ yoxdur.

Azərbaycan Respublikasının gömrük orqanları aşağıdakı funksiyaları yerinə yetirir:

1. Azərbaycan Respublikasının gömrük siyasətinin işlənib hazırlanmasında iştirak edir və bu siyasəti həyata keçirirlər;

2. öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyini təmin edirlər;

3. Azərbaycan Respublikasının iqtisadi mənafeyini qoruyurlar;

4.ticarət-iqtisadi münasibətlərdə gömrük tənzimlənməsi vasitələrini tətbiq edirlər;

5. gömrük rüsumları, vergilər və digər gömrük ödənişləri alırlar;

6. Azərbaycan Respublikasının gömrük sərhəddindən malların və nəqliyyat vasitələrinin keçirilməsi qaydalarına riayət olunmasını təmin edirlər;

7. gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydalarının və vergi qanunvericiliyinin pozulmasına qarşı mübarizə aparırlar, narkotik vasitələrin, silahın, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloci sərvətləri olan əşyaların, intellektual mülkiyyət obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların və bitki növlərinin, digər malların Azərbaycan Respublikası gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını alırlar; beynəlxalq terrorçuluqla mübarizəyə və Azərbaycan Respublikasının təyyarə limanlarında beynəlxalq mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxiənin qarşısının alınmasına köməklik göstərirlər;

8. gömrük nəzarətini və gömrük rəsmiləşdirilməsini həyata keçirir və təkmilləşdirir, Azərbaycan Respublikasının gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi üçün şərait yarıdırlar;

9. xarici iqtisadi fəaliyyətin mal nomenklaturasını aparırlar;

10. dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması, gətirilən malların Azərbaycan istehlakçılarının mənafeyinin müdafiəsi sahəsində tədbirlər həyata keçirilməsinə kömək edirlər;

11. öz səlahiyyətləri daxilində valyuta nəzarətini həyata keçirirlər;

12. müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinə, Azərbaycan Respublikası Prezidentinə, başqa dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara, vətəndaşlara gömrük məsələləri üzrə məlumatlar verilməsini təmin edirlər;

13. dövlətin vahid maliyyə-təsərrüfat siyasətinin həyata keçirilməsində iştirak edir, gömrük orqanlarının maddi-texniki bazasını inkişaf etdirir, bu orqanların işçiləri üçün lazımi əmək və sosial şərait yaradırlar.

Gömrük orqanlarının əsas vəzifələri Azərbaycan Respublikasında gömrük işini təşkil etmək və onu təkmilləşdirmək, gömrük siyasətini həyata keçirmək, respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq, gömrük ərazisinin vahidliyini təmin etmək, qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil etmək, gömrük işinə dair və digər qanunvericiliyə əməl olunmasını təmin etməkdir.

Azərbaycan Respublikasının gömrük orqanları vahid sistem təşkil edən hüquq-mühafizə orqanlarıdır. Biz qeyd etdik ki, gömrük orqanlarına bilavasitə rəhbərliyi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir. Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Dövlət Gömrük Komitəsi ona həvalə edilmiş vəzifələri bilavasitə özü və ya tabeliyində olan gömrük orqanları, idarə və təşkilatlar vasitəsilə həyata keçirir.

Dövlət Gömrük Komitəsinin üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək üçün Gömrük Komitəsinin aşağıdakı hüquqları vardır:

- gömrük siyasətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

- gömrük işi haqqında qanunvericilik aktlarının və digər hüquqi aktlarının layihələrini hazırlamaq;

- dövlət təhlükəsizliyinin, ictimai qaydaların, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması;

- daxili bazarın və Azərbaycan istehlakçılarının mənafeyinin müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində gömrük orqanlarının iştirakını təmin etmək;

- gömrük recimlərinin müəyyən edilməsi və s.

Bunlardan əlavə, Dövlət Gömrük Komitəsinin ona həvalə edilmiş vəzifə və funksiyaları həyata keçirmək üçün Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqları vardır:

- mərkəzi icra hakimiyyəti orqanları da daxil olmaqla, hüquqi-təşkilati formasından asılı olmayaraq, müəssisələrdən və təşkilatlardan, habelə vəzifəli şəxslərdən və fiziki şəxslərdən sənədlər və məlumatlar tələb etmək;

- gömrük işi məsələləri üzrə koordinasiya və ekspert şuraları, işçi qrupları və müvəqqəti yaradıcı kollektivlər təşkil etmək; gömrük işi və gömrük siyasəti problemlərinin həlli məqsədi ilə müqavilə əsasında xarici ölkələrin mütəxəssisləri və alimləri də daxil olmaqla, elmi işçiləri, mütəxəssisləri cəlb etmək;

- rabitə və məlumatların ötürülməsinin xidməti sistemini yaratmaq; tabeçiliyindəki idarə, müəssisə və təşkilatların fəaliyyətinə rəhbərlik etmək, onların əsasnamələrini və nizamnamələrini təsdiq etmək, onların rəhbərlərini təyin etmək, maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını və təftişini həyata keçirmək və s.

Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində gömrük işi üzrə Azərbaycan Respublikasının bütün ərazisində qüvvədə olan, bütün dövlət orqanları, hüquqi-təşkilati formasından asılı olmayaraq, idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və fiziki şəxslər tərəfindən icrası məcburi olan normativ aktlar qəbul edir.

Dövlət Gömrük Komitəsinin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 27 oktyabr 1998-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında" Əsasnamə ilə nizamlanır.

Azərbaycan Respublikasında bütün gömrük orqanlarına rəhbərliyi həyata keçirən Dövlət Gömrük Komitəsinə sədr başçılıq edir. Sədr Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və azad edilir.

Dövlət Gömrük Komitəsinin sədr müavinləri sədrin təklifinə əsasən, Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir.

Dövlət Gömrük Komitəsinin sədri aşağıdakı vəzifələri yerinə yetirir:

- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini təmsil edir, digər dövlət orqanları ilə onun qarşılıqlı fəaliyyətini təmin edir;

- Dövlət Gömrük Komitəsi sədrinin müavinləri arasında vəzifə bölgüsü aparır;

- komitənin səlahiyyətləri daxilində normativ aktları imzalayır (təsdiq edir) və onların icra vəziyyətinin yoxlanılmasını təşkil edir;

- Dövlət Gömrük Komitəsinin struktur bölmələrinin və tabeçiliyindəki digər idarə, müəssisə və təşkilatların əsasnamələrini (nizamnamələrini) təsdiq edir; komitənin müəyyən olunmuş say tərkibi və əmək haqqı fondu hədlərində ştat cədvəlini, idarəetmə apartının saxlanılması üçün semta xərclərini təsdiq edir;

- gömrük orqanlarının və tabeliyindəki digər müəssisə və təşkilatların işçilərini mükafatlandırır;

- ona verilmiş ayrı-ayrı səlahiyyətlərdən tabeçiliyindəki vəzifəli şəxslərin istifadə etməsinə icazə verir və başqa funksiyaları da həyata keçirir.

Dövlət Gömrük Komitəsində sədrdən (kollegiyanın sədri) və sədrin müavinlərindən, habelə gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçilikdə olan digər idarə, müəssisə və təşkilatların rəhbər işçilərindən ibarət kollegiya təşkil olunur. Kollegiyanın tərkibi vəzifələr üzrə Dövlət Gömrük Komitəsi sədrinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir. Kollegiya öz iclaslarında Komitənin fəaliyyəti ilə bağlı mühüm məsələlərə baxır və onlar haqqında qərar çıxarır.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi dövlət büdcəsinin vəsaiti hesabına və həmçinin, qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

Dövlət Gömrük Komitəsi hüquqi şəxsdir; onun üzərində Azərbaycan Respublikasının Dövlət gerbi təsvir olunmuş və öz adı yazılmış möhürü, müvafiq möhür və ştampları, blanklarda və kredit təşkilatlarında hesabı (o cümlədən, valyuta hesabı) vardır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu aşağıdakı qaydada qurulur:

1. sədr;
2. sədrin birinci müavini, müavinləri və köməkçisi;
3. ğömrük nəzarətinin təşkili Baş İdarəsi;
4. qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə Baş İdarəsi;
5. Maliyyə-taarif və valyuta nəzarəti Baş İdarəsi;
6. İstintaq İdarəsi;
7. Kadrlar İdarəsi;
8. Statistika və təhlil İdarəsi;
9. İşlər İdarəsi;
10. Əsaslı tikinti və maddi-texniki təchizat İdarəsi;
11. İspeksiya İdarəsi;
12. Xarici əlaqələr şöbəsi;
13. Mühasibat və uçot şöbəsi;
14. Mətbuat xidməti şöbəsi;
15. Hüquq şöbəsi;
16. Məxfi şöbə;
17. Növbətçi hissə;
18. Təsərrüfat xidməti;
19. Analitik şöbə;
20. Mühafizə dəstəsi.

Beləliklə, mövzunun ikinci sualına nəticə olaraq göstəririk ki, Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin daha səmərəli tənzimlənməsi, daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin həyata keçirilməsi, habelə beynəlxalq normalara uyğun gömrük işinin aparılmasıdır.

N Ə T İ C Ə

Azərbaycan Respublikası dünya inteqrasiyasına yol açdığı bir vaxtda və onun hüquqi dövlət kimi formalaşmasında vergi və gömrük sahəsinin rolu böyükdür.

Respublikamızda dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən, bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Vergilər Nazirliyi yaradılmışdır.

Mövzunun birinci sualında həm də vergiyə anlayış verdik. Vergi-dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir. Azərbaycan Respublikasında dövlət vergiləri, muxtar respublika və yerli vergilər (bələdiyyə vergiləri) müəyyən edilir. Bu sualda həmçinin vergi sahəsində dövlət idarəetməsinin təşkilati-hüquqi əsasları da öz əksini tapmışdır.

Mövzunun ikinci sualında qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının gömrük işini malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vəsaitləri təşkil edir. Respublikamızda dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasəti həyata keçirilir.

Mövzunu əhatə edən sahələrin fəaliyyəti ilə bağlı əldə etdiyiniz hüquqi biliklər sizin təcrübi fəaliyyətinizdə köməkçiniz olacaqdır. Bu qarşılıqlı əlaqə həm də ondadır ki, həm vergi, həm də gömrük orqanları hüquq-mühafizə orqanlarıdır.